AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

# "BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN AKTUAL PROBLEMLƏRİ" adlı Respublika elmi konfransı

Məruzələrin tezisləri

Bakı, 25 oktyabr 2019-cu il

Bakı -2019

“Beynəlxalq münasibətlərin aktual problemləri” adlı Respublika Elmi Konfransı
*Məruzələrin tezisləri, Bakı, 25 oktyabr 2019-cu il*
*Bakı, "Elm və təhsil", 2019, 580 səh.*

АББАС АЛИ ОГЛУ АЛИЕВ
Азербайджанский Университет Языков

# ЭНЕРГЕТИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ КАК КЛЮЧЕВОЙ АСПЕКТ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

КЛЮЧЕВЫЕ СЛОВА: ЭНЕРГЕТИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ, НАЦИОНАЛЬНАЯ БЕЗОПАСНОСТЬ, НПЗ STAR

Энергетическая безопасность является одной из концептуальных составляющих основ национальной безопасности страны. Проблематика обеспечения энергетической безопасности в наши дни определяет во многом политическое и социально-экономическое развитие всех без исключения стран, независимо от их геополитического положения и роли в мировом общественном развитии.

Обеспечение эзнергетической безопасности – одна из обязательных функций государства, и её реализация является необходимым условием стабильности и эффективности развития, как одного отдельно взятого государства, так и отдельных регионов. Энергетическая безопасность в XXI веке играет роль важнейшего регулятора внутренней и международной стабильности.

Актуальность вышеотмеченного подтверждает выступление Президента Азербайджана Ильхама Алиева, принимавшего участие в работе «круглого стола» на тему «Стратегии диверсификации», проходившей в феврале 2016 года, в рамках 51-й Мюнхенской конференции по безопасности. В частности, было заявлено, что
«нельзя обсуждать вопрос энергетической безопасности отдельно от вопроса национальной безопасности. Вопросы, касающиеся энергетической политики, тесно связаны с национальными интересами и глобальной политической картой Европы на Южном Кавказе». [2]

Позволим себе отметить, что национальную безопасность правильнее было бы трактовать, как наличие у каждого отдельно взятого национального государства возможности и сил, которые

могли бы защитить его независимость от внешних и внутренних угроз.

В ст. 1 Закона Азербайджанской Республики «О национальной безопасности» 2004 года отмечается, что «национальная безопасность Азербайджанской Республики — это обеспечение защиты независимости, суверенитета, территориальной целостности, конституционного строя государства, национальных интересов народа и страны, прав и интересов личности и общества, и государства от внутренних и внешних угроз». [3]

Таким образом, безопасность государства - это, прежде всего система, которая определяет единство интересов общества, государства и личности, по обеспечению безопасности. Безопасность государства, так же есть защищенность его граждан, общества, и государства от внутренних и внешних угроз.

Любое государство, независимо от уровня обеспеченности собственными энергоресурсами, рассматривает энергетическую безопасность как важнейшую составляющую своей национальной безопасности, способствующую обеспечению стабильного развития всех сфер общества. Этот аспект энергетической безопасности отражен в официальных документах многих государств.

Так, в Азербайджанской республике были разработаны ряд проектов, нацеленных на обеспечение энергетической безопасности страны. В частности, были разработаны: проект «Государственной Программы по рациональному использованию энергетических ресурсов и энергоэффективность конечных потребителей (2015-2020 годы)»; проекты законодательных актов для реализации некоторых мероприятий предусмотренными «Законом об использовании энергетических ресурсов»; Государственная программа по развитии топливно-энергетического комплекса (2005-2015-годы) [4].

Вложения Азербайджана в нефтехимический комплекс Турции, в частности в "Petkim" и "НПЗ Star", который был открыт 19 октября 2018 года в Измире, обеспечат безопасности энергоснабжения Турции, что в свою очередь благоприятно скажутся на Азербайджан-Турецкий отношениях. Благодаря "НПЗ Star" Турция сократит

импорт дизеля от 60% до 40% и полностью покроет свои потребности в авиационном топливе эти инвестиции [1]

Экономический аспект энергетической безопасности важен для стран-экспортеров, например, Азербайджана, для которого цены на энергоресурсы является одним из основных источником дохода государства. В свою очередь, стран-импортеры, в силу того, что не имеют своих собственных углеводородных ресурсов, становятся энергозависимыми от других государств.

В настоящее время развитые страны перестали быть основными покупателями энергоресурсов, не по причине того, что сократились их потребности (наоборот, потребление в этой группе стран устойчиво растет, не смотря даже на развитие и внедрением альтернативных источников энергии), а потому, что темпы роста развивающихся экономик выше, чем в развитых. Соответственно, появляются новые мощные игроки на энергетическом рынке, что также способствует нарастанию соперничества за доступ к источникам энергии.

Таким образом, энергетическая безопасность предполагает:

- энергетическую безопасность государства

- состояние защищенности граждан, общества, государства от угрозы дефицита топливно-энергетических ресурсов;

- экономического и политического воздействия.

Сегодня, практически не требует доказательств тот факт, что энергетическая безопасность не существует сама по себе, а напрямую связана с более широкими отношениями между государствами и способами их взаимодействия друг с другом. В современном мире, ориентированном на дальнейшую глобализацию и интеграцию, энергетическая безопасность во многом зависит от того, как выстроятся отношения между государствами и в какой мере совместные усилия позволят решить проблему энергетической безопасности.

Список литературы:

1. Oil Price: Новый НПЗ укрепил отношения Турции и Азербайджана https://aze.az/oil-price-noviy-npz-ukrepil-otnosheniya.html

2. В рамках Мюнхенской конференции по безопасности Ильхам Алиев принял участие в «круглом столе» на тему «Стратегии диверсификации» https://ru.president.az/articles/22814

3. Закон Азербайджанской Республики О национальной безопасности (29 июня 2004)//Газета, «Азербайджан» 2004 года, 6 августа, № 181

4. Керимов А. Развитие энергетической политики и стратегии Азербайджана. Баку. 2015 www.inogate.org/documents/4_2_AZ_State_of_affairs_RUS.pdf

AFAQ SULIDDIN QIZI İSMAYILOVA
Azərbaycan Dillər Universiteti

# DINI KONFESSIONAL MÜNASIBƏTLƏRIN DÖVLƏT SIYASƏTINƏ TƏSIRI

Açar sözlər: konfessiya, dini konfessional siyasət, dini ekstremizm, tolerantlıq, dini dözümlülük

Dövlət-konfessional münasibətlər cəmiyyətin normal mövcudluğunun əsasını təşkil edir. Bu münasibətlərin xarakteri cəmiyyətdə dini-əxlaqi sabitliyin təmin edilməsi, cəmiyyət üzvlərində əxlaqi-etik dəyərlərin tərbiyələndirilməsi və cəmiyyətin mənəvi birliyinə şərait yaradır. Habelə din faktoru beynəlxalq aləmdə münaqişələrin həll olunmasında insan hüquqlarının müdafiəsinin təmin edilməsində mühüm rol oynayır. Siyasi proseslərdə din faktoru, siyasi və iqtisadi maraqların təmin edilməsi, habelə maraq dairəsinin bölünməsində öz təsirini göstərməkdədir.

Dövlət və konfessiyalararası münasibətlər cəmiyyətin sabit inkişafını təmin edir. Dünyada, xüsusilə Yaxın Şərq, Bosniya-Serbiya, Kəşmir-Pəncab regionunda dini ekstremizm, dini zəmində münaqişələrin geniş vüsət aldığı bir şəraitdə dini sabitliyin, konfessiyalararası sülh və əminamanlığın qorunması böyük əhəmiyyət daşıyır. Konfessional münasibətlərin xarakteri həm ölkə daxilində, həm də beynəlxalq münasibətlərdə dövlətlərin yürütdüyü xarici siyasi fəaliyyətə təsir edir.

Bir sıra tədqiqatçılar dövlətlə konfessiyaların qarşılıqlı əlaqə modellərinin bir neçə növünü göstərirlər. Belə ki, İ.A.Kunitsin [Куницин, 2000, 94-101] dövlət konfessional münasibətlərin iki modelini fərqləndirir:

1) Monokonfessional – bu model tipi daha çox teokratik dövlətlərə xasdır. Dövlət ərazisində yalnız bir dini konfessiyaya aid olan dini qurum və təşkilatların fəaliyyətinə icazə verir;

2) Universal tip – müxtəlif dini konfessiyaların fəaliyyətinə və təbliğatına icazə verir.

Hazırda dünyanın bir çox regionunda konfessional zəmində münaqişələr baş verir. Bura təbii ki, Yaxın Şərq ölkələrinin timsalında

müsəlman aləmi ilə İsrail arasında illər boyu uzanan qarşıdurmanı, Hindistan-Pakistan münaqişəsini və s. aid etmək olar. Statistik məlumatlara əsasən 1990-cı ilin ortalarından başlayaraq etnik-regional münaqişələrin yarısında müsəlmanlarla qeyri müsəlmanlar, həmçinin islam dini daxilində müxtəlif məzhəb qrupları arasında münaqişələr üstünlük təşkil edir.

Yaxın Şərq regionunda "ərəb baharı" adlanan vətəndaş qarşıdurmasında dini konfessional faktor əsas amilə çevrilmişdir. Bir tərəfdən, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər kimi süni monarxiyalar və onların ABŞ və avropalı müttəfiqləri, digər tərəfdən, şiə İranı və onunla bağlı qüvvələr Suriya və Yəməndə dövlət çevrilişi həyata keçirərək, milyonlarla insanı etno-konfessional qarşıdurmaya sürükləmiş oldular. 2011-ci ildə ABŞ və Avropa Şurası Suriyada Bəşər Əsəd rejimini qanundankənar elan edərək, ona qarşı siyasi sanksiyalar tətbiq etdilər. Beynəlxalq hüquq normalarının kobud pozulması ilə müşayət olunan qarşıdurmada Suriya ərazisi beynəlxalq koalisiya ilə İŞİD hərbi terror təşklatı arasında olan əsas döyüş meydanına çevrilmiş oldu.

Hazırda beynəlxalq səhnədə əhəmiyyətli rol oynayan dini təşkilatların münaqişələrin həllində rolu artmaqdadır. "İslam Əməkdaşlıq Təşkilatı", "Avropa Kilsə İttifaqı", "Pravoslav Dini Parlamentlərarası Assambleya", "Buddist qardaşlığı" cəmiyyəti və s. dini təşkilat və konfessiyaların fəaliyyətini əlaqələndirən mərkəzlər qismində çıxış edirlər. "İslam Əməkdaşlıq Təşkilatı" 57 dövləti əhatə edir və nüfuzuna görə BMT-dən sonra 2-ci yerdə olan mötəbər təşkilatıdır. Onun əsas məqsədi müsəlman dövlətləri arasında əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsidir. Azərbyacan 1991-ci ilin dekabrından bu təşkilatın üzvüdür.

Azərbaycan ərazisi tarixən müxtəlif xalqlar və etnik birliklərin məskunlaşdığı məkan olmuşdur. Azərbaycan xalqı hər zaman qonşu xalqlarla dostluğu, qardaşlığı, mehribançılığı möhkəmləndirməyə çalışmış və insanların dini mənsubiyyətindən aslı olmayaraq, sülh və əminəmanlıq əlaqələri qurmağa çalışmışdır. Bu tolerantlıq bir çox beynəlxalq təşkilatlar tərəfindən etiraf olunmuşdur. Dini yönümlü beynəlxalq tədbirlərdə ölkənin uğurla təmsil olunması buna əyani sübutdur. Azərbaycanda dini zəmində münaqişələrin olmaması, insanların sərbəst olaraq öz əqidələrini seçməsi, dini dözümlülük və tolerant şəraitin yaradılması dövlətin dini

sahədə yürütdüyü siyasətin nəticəsidir. Azərbaycanda dini zəmində radikalizm və ekstremizm bazası yoxdur və belə qruplaşmalar ölkəmizdə mövcud deyildir.

Çoxmillətli və çoxkonfessiyalı olan müstəqil Azərbaycan respublikasının döblət-din münasibətləri sivil prinsiplərə uyğun olaraq tənzimlənir, dini etiqad və vicdan azadlığının maneəsiz həyata keçirilməsinə şərait yaradılır. Dini-mənəvi və əxlaqi-etik dəyərlər Azərbaycan cəmiyyətinin prioritet yaşayış normalarıdır.

2007-ci il aprelin 3-4-də "Heydər Əliyev və dövlət-din siyasəti: Gerçəkliklər və perspektivlər" adı altında keçirilən beynəlxalq konfransda Ümumrusiya patriarxı II Aleksiy qeyd etmişdir ki, "Azərbaycan öz mədəniyyəti, tarixi və incə dini duyumu ilə fəxr etməyə layiq olan dövlətlərdən biridir". Bura müxtəlif dini konfessiyaların nümayəndələrinin dinc yaşadığı nadir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir.

Dünyanın bir çox ölkələrində insanların yaşayış yerinin müəyyən edilməsində dini mənsubiyyət əsas meyar kimi götürülür. Yəhudi, xristian, islam və digər dinlərin nümayəndələri ayrı-ayrı məhəllələrdə yaşayırlar. Müxtəlif din və mədəniyyətlərin qovşağı olan Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Belə ki, Azərbaycanda müxtəlif dinə mənsub insnalar bir küçədə, bir həyətdə, hətta bir evdə sərbəst yaşayır və bir-birinin bayramlarını və dini ayinlərini bir ailə kimi qarşılayırlar.

Azərbaycan Respublikası öz ərazisində qanuni əsaslarla fəaliyyət göstərən dini qurumlar, icmalar və konfessiyalara dəstək olur və onların dini fəaliyyətinin sərbəst olaraq həyata keçirilməsinə təminat verir.

1999-cu ildə katolik icması dövlət qeydiyyatına alınmış və Bakıda katoliklərin dini ibadəti üçün nəzərədə tutulan və Vatikan ilə əldə olunan razılaşmaya əsasən katolik kilsəsi inşa olunmuşdur. 2002-ci ilin mayında Roma katolik kilsəsinin başçısı II İohann Pavel Heydər Əliyevin dəvəti ilə Bakıya səfərə gəlmişdir.

2003-cü ilin martında Bakıda yeni yəhudi sinaqoqu istifadəyə verilmiş və ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır.

Son onilliklərdə beynəlxalq terrorizmin geniş vüsət aldığı bir şəraitdə dini hərcmərçiliyi, xalqlar arasında dini ekstremist ideologiyanı yaymağa çalışan radikal dini qurumlar və təşkilatların fəaliyyəti xeyli

genişlənmişdir. ƏL-Kaidə, Hamas, Taliban, Əl-Cihad, İŞİD Azərbaycanda qanunla qadağan edilmiş ekstremist təmayüllü təşkilatlar siyahısındadır.

Azərbaycanda dini konfessional siyasəti digər müsəlman ölkələrindən fərqləndirən amillərdən biri də, onun hər hansı bir məshəbə deyil, islamın təməl prinsiplərinə söykənməsidir. Azərbaycanda dini sabitliyi pozan, xalqlararası və dinlərarası münasibətlərə olan təhdidlərin qarşısı ciddi şəkildə alınır.

Ədəbiyyat siyahısı:

1. "Heydər Əliyev və din siyasəti" beynəlxalq elmi konfrans materialları, 2-4 mart 2007-ci il.
2. Володина Н.В. «Взаимоотошения государств и религиозных отношений в современном обществе», Зарубежная и отечественная Литература:. М., 2003 г.
3. Куницин И.А. Правовой статус религиозных объединений в России. М., 2000 г., стр.94-101

AFƏT CUMAR QIZI SEYIDZADƏ
Azərbaycan Dövlət İqtisad Universiteti

## MÜASIR AZƏRBAYCAN RESPUBLIKASININ XARICI SIYASƏTININ TƏŞKILI VƏ INKIŞAFI

Açar sözlər: prioritet, geosiyasət, inteqrasiya, qloballaşma

Müasir siyasətdə aktorlar dəyişildiyi üçün beynəlxalq münasibətlərin də prinsipləri dəyişmişdir. Beynəlxalq siyasi müstəvidə aktorlar artıq yeni prinsiplərlə idarə olunur. Bu gün Azərbaycan da bu prinsipləri əsas tutaraq, nüfuz dairəsini genişləndirərək təkcə regionun deyil, beynəlxalq arenanın önəmli aktoru kimi fəaliyyət göstərir.

Torpaq və ərazi zəbt edərək dünyada nüfuz sahibi olmaq istəyən orta əsrlərin dövlətlərin prinsipləri artıq çoxdan köhnəlmişdir. Yeni dünyanın kompüterləşmə, qloballaşma, inteqrasiya proseslərindən kənarda qalmaq mümkün deyil. Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan da yeni dünya düzəni dövrünün tələblərinə uyğun olaraq xarici və daxili siyasət prinsiplərinin əsas və prioritet istiqamətlərini müəyyən etmişdir.

SSRİ dağıldıqdan sonra demokratiya və bazar iqtisadiyyatına gedən yolda bir sıra maneələrlə üzləşməsinə baxmayaraq, Azərbaycan bu çətin və mürəkkəb yolu keçərək nüfuzlu və sivil bir dövlətə çevrilmişdir.

Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir [Həsənov, 2005, 212].

1991-ci ilin sonu - 1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi

əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycanın xarici siyasətinin əsas xətlərindən biri həm qonşuları, həm də qonşusu olmayan inkişaf etmiş Qərb dövlətləri ilə münasibətlərdir. Azərbaycan öz təhlükəsizliyi, ərazi bütövlüyü və müstəqilliyini qorumaq imkanlarını möhkəmləndirmək naminə bu münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıdır. Həmin münasibətlərin inkişafı Azərbaycanın iqtisadi və siyasi tərəqqisinə, Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz layihələrinin gerçəkləşdirilməsinə, Şərqlə Qərbi birləşdirən transregional dəhlizlərin yaradılmasına təkan verdiyi üçün Azərbaycanla qərb ölkələri arasında əməkdaşlıq ölkəmizin qlobal iqtisadi sistemə inteqrasiya olunmasının başlıca elementi kimi çıxış edir.

Tarix və mədəniyyət sahələrində zəngin, müştərək irsə malik Şərq ölkələri ilə də münasibətlər Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan bu dövlətlərlə də siyasi, iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə çalışır. Bu münasibətlər Yaxın və Orta Şərqin geosiyası əhəmiyyətini, zəngin enerji ehtiyatlarını və bu bölgədə böyük sərmayə potensialının mövcudluğunu əsas götürərək qurulur [Abbasbəyli, 2011, 257].

Beləliklə, Azərbaycan Respublikasının apardığı uğurlu tarazlaşdırılmış xarici siyasət sayəsində Azərbaycan millətinin təhlükəsiz və xöşbəxt gələcəyini təmin edən xarici mühit yaradılmış, Azərbaycanın dünya

miqyasında mövqeləri möhkəmlənmiş, o, Xəzər-Qara dəniz hövzəsinin vacib ölkəsinə çevrilmişdir.

Ədəbiyyat siyahısı:

1. Abbasbəyli A. Dünya siyasəti. Bakı, 2011
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005

AIDA NAZIM GIZI BASHIROVA
Azerbaijan University of Languages

# THE PROBLEMS WITH BREXIT

Key words: problems, situation, agreement, relations

What is Brexit? It is English neologism, constituting from the first two letters Britain and the word exit and it means exit Britain from European Union. Thereby referendum was held in 2016 in Britain. As a consequence, 52% of the nation voted for Brexit. Afte referendum it was clear that the new prime minister of Great Britain Theresa May made Brexit main purpose of her administration. It is needless to say that Brexit leads Britain to economic and financial shock.

It becomes clear from the above-stated that Brexit brings forth a variety of problems. There are a wide variety of factors that determine these problems.

To begin with, the United Kingdom has an alternative attitude towards key problems and it is essential to focus especially on two facts here. The first fact is that the Northern Irish border problem remains an unsolved contradiction. Despite the fact that last year the United Kingdom and European Union agreed to keep Northern Irland as a zone of action for Customs Union and united market of European Union, the prime minister of Britain Theresa May called this option "leading to the constitutional crisis", because Northern Irland is apart from the basic part of the state border of the Irish sea. May offered to implement special taxes to the passing borders between Europe and Britain and to modernize admission points of Customs.

The second fact is free movement. Great Britain stated that citizens of the European Union keep the rights to stay in Great Britain, even if the circumstance ends up with "Brexit without agreement". British administration's decision caused perplexity among the people Great Britain.

Another problem is an unstable situation in internal policy. The referendum , held two years ago, voting to leave the EU shook political system of Great Britain violently. In the case of "Brexit without agreement, this situation will be even worse.[ Kevin O'Rourke, 2019, 126-128]

Another area of problem is trade. It is not surprising that Brexit has an impact on trade relations. Due to political chaos, it is impossible to wait any profit from trade. As nobody knows how and where all these will end up, with the position weakened British administration on its turn tries to avoid from long term agreements and prefers short term agreements on free trade in order not to risk to accept disadvantageous condition due to the manipulation of the second side.

This is essential to point out that Brexit has also impact on the economy. This case threatens to decline economic indicators in Europe and in the world. "Brexit without agreement " leads to a reduction of investment, break in free trade agreements and decrease of workplaces. This is obvious that it will affect not only Great Britain but also its main partners Irland and the Netherlands.

With regard to the finance, Brexit provokes financial instability. As the stock market of London was the center of weighing of the European financial market, in case of shutting off financial flow European financial market will be deprived of half of the turnover its capital. Inspite of the promise that Theresa May's administration made to the British nation to thrive, Britain's situation is deterioating day by day and the future European financial system remains vague.

Reference

1. Kevin O'Rourke. A Short history of Brexit: From Brentry to Backstop. 2019

AXILLES HƏSƏN OĞLUTALIBOV
Azərbaycan TexnikiUniversiteti

# AZƏRBAYCANDA QEYRI-NEFT SEKTORUNUN TƏHLÜKƏSIZLIYI MƏSƏLƏLƏRI

Açar sözlər: iri sənaye , sahibkarlıq, bazar iqtisadiyyatı, inhisar, milli iqtisadiyyat

Müasir iqtisadi şəraitdə son dövrlər Azərbaycan Respublikası üzrə reallaşdırılan regional inkişaf proqramlarının əsas istiqamətlərindən biri qeyri-neft sənaye sektorunun rəqabətqabiliyyətinin yüksəldilməsi hesab olunur [Şəkərəliyev, 2016, 268].

Qeyri-neft sektorunun Azərbaycan iqtisadiyyatındakı indiki vəziyyəti və onun inkişaf istiqamətlərinin müəyyən edilməsi dövlətin iqtisadi siyasətinin əsası olmalıdır. Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində, əhalinin gündəlik tələbat mallarına olan ehtiyacının qarşılanmasında idxal məhsullarından asılılığın azaldılması və maliyyə sektorunun idxal inflyasiyasından qorunmasında qeyri-neft sektorunun rolu əvəzsizdir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında da qeyri-neft sektorunun mühüm əhəmiyyəti vardır .

Hər hansı təbii sərvətin gətirdiyi dividendlər sonsuz deyil və bir gün tükənir. Nəticədə büdcə yenidən real sektorun dayanıqlığından asılı olur. Buna görə də milli iqtisadiyyatın diversifikasiyası və bu sektorun inkişaf etdirilməsi Azərbaycan hökuməti qarşısında duran prioritet məsələlərdəndir. Son illərdə dövlət qayğısının və diqqətinin artması sayəsində bu sahədə ciddi irəliləyişlərə nail olunmuşdur.

Ölkədə 2005-ci ilədək milli iqtisadiyyata qoyulan investisiyanın böyük bir qismi enerji sektoruna yönəldilirdi, sonralar bu tendensiya qeyri-neft sektorunun xeyrinə dəyişməyə başlamışdır. İnvestisiya siyasəti Azərbaycan hökumətinin müəyyən etdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Neft-qaz sektorunun davamlı inkişafı fonunda qeyri-neft sektorunun inkişafının kölgədə qalmaması, ümumi iqtisadi inkişaf

tempinin əsasən neft sektorundan asılılığının yumşaldılması və iqtisadiyyatın dayanıqlı strukturunun təmin olunması qeyri-neft sektoru üzrə inkişaf strategiyasının hazırlanmasını və həyata keçirilməsini tələb edir [Мищенко, 2012, 154].

Ölkədə davam etdirilməkdə olan struktur islahatları əsasən qeyri-neft sektorunun inkişafına ciddi təsir göstərməkdədir. Kiçik və orta müəssisələrin özəlləşdirilməsinin demək olar ki, başa çatdırılması, bu sektorda rəqabət mühitinin qismən təmin olunması, biznes mühitinin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, biznes fəaliyyətinə lüzumsuz dövlət müdaxiləsinin azaldılması, vergi dərəcələrinin mərhələ-mərhələ aşağı salınması yolu ilə biznes fəaliyyətinin canlandırılması qeyri-neft sektorunda fəallığın artırılmasına şərait yaratmışdır.

Struktur islahatları tikinti, kənd təsərrüfatı, xidmət sektoruna xarici və yerli investisiyaların cəlb olunmasına imkan vermiş və bununla da həmin sahələrdə digər sahələrə nisbətən daha sürətli artım təmin olunmuşdur. Bu sahələrdə artıma istehsal üçün yaradılmış əlverişli şəraitlə yanaşı, həmin sahənin məhsullarına olan mövcud daxili tələbat də mühüm rol oynamışdır.

Tikinti və bir sıra xidmət sahələrində olan sıçrayışlı artım son dövrlərdə əhalinin artmaqda olan gəlirləri və bunun nəticəsində əhalinin artan istehlak tələbi ilə bağlıdır. Beləliklə, qeyri-neft sektoru üzrə aparılan struktur dəyişikliklərinin, iqtisadiyyatda artmaqda olan məcmu tələbin səviyyəsinin və onun strukturunun, habelə neft-qaz sektorunun inkişaf tempinin, hökumətin fiskal qərarlarının təsiri və bütün bunların yaratdıqları iqtisadi effektlər altında inkişaf etməkdədir. Nəticə etibarilə, qeyri-neft sektorunun inkişaf meyllərinin, bu sektorun inkişafı qarşısında duran mövcud və perspektiv problemlərin xarakterinin və onun perspektiv inkişafının tədqiqi problemə çoxaspektli yanaşmanı, bir çox amillərin kompleks araşdırılmasını tələb edir [Колесов, 2009, 200].

Milli iqtisadiyyatda neft sektorunun sıçrayışlı inkişafı ilə əlaqədar olaraq real iqtisadi inkişafın bu sahədən tamamilə asılılığının aradan qaldırılması milli iqtisadiyyatın diversifikasiya olunmuş inkişafının təmin olunmasını tələb edir [Ширай , 2016, 268].

Azərbaycan Respublikası müasir şəraitdə dünya ölkələri üçün xarici investisiyaların cəlb edilməsi sahəsində əlverişli hesab olunur. 1994-

cü ildən başlayaraq Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlbi prosesi başlamışdır. Neft sektoru ilə yanaşı qeyri-neft sektoruna investisiya qoyuluşları əsasən kredit vəsaitləri hesabına olsa da, bu sahəyə yatırılmış birbaşa investisiyaların da payı diqqəti cəlb edir. Qeyri-neft sektoruna investisiya yatırımları həm daxili, həm də xarici kapital mənbələri hesabına həyata keçirilmişdir.

Aparılmış təhlil onu göstərir ki, artıq 2011-ci ildə ölkədə ÜDM-in həcmi 51,2 mlrd. man. təşkil etmiş, onun adambaşına düşən məbləği 5650,8 man. olmuşdur ki, bu da 2005-ci ilin eyni adlı göstəricisi ilə müqayisədə 3,8 dəfə çoxdur. (Cədvəl 1). 2017-ci ildə ÜDM-in həcmi 70135,1 mln.manat olmuşdur [5].

Cədvəl 1.

Azərbaycanın ÜDM-nu xarakterizə edən göstəricilərin dinamikası

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-un artım tempi (əvvəlki ilə nisbətən %-lə) | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 | 109,0 | 116.0 |
| Adam başına düşən ÜDM (manat) | 1494,3 | 2208,2 | 3296,6 | 4603,7 | 3917,3 | 6269,6 | 7205 |

www.stat.gov.az/Azərbaycanın statistik göstəriciləri. Bakı, "Səda" 2018

Azərbaycanda qeyri–neft sektorunun üstün inkişafının əsas xüsusiyyətlərinə və ölkə iqtisadiyyatındakı müsbət roluna təsir edən amillərə aşağıdakıları aid etmək mümkündür: innovativ tenologiyaların tətbiqi əsasında qeyri-neft sektorunun tarazılı inkişafına və bu sahənin məhsulları üzrə ixrac potensialının artmasına nail olmaq olar; təbii sərvətlərdən və əmək resurslarından səmərəli istifadə etməklə qeyri-neft sektorunun rəqabətliliyini artırmaq olar və s..

Son dövrlərdə Azərbaycan dövləti karbohidrogen ehtiyatlarından əldə etdiyi gəlirlər hesabına milli iqtisadiyyatın diversifikasiyası istiqamətində, xüsusən də qeyri-neft sektoru üzrə uğurlu tədbirlər həyata keçirməkdədir. Azərbaycanda qeyri-neft sektorunun investisiya

qoyuluşunun yüksəldilməsi üzrə aşagıdakı istiqamətlərdə real tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- Ayrı-ayrı iqtisadi sahələr üzrə xarici investisiyaların cəlbinin yüksəldilməsi ilə yanaşı, milli iqtisadiyyatda gəlirlərin və real yığım hesabına daxili maliyyə mənbələrinin genişləndirilməsi, daxili investisiya qoyuluşlarının ilbəil artımının təmin edilməsi zəruridir;
- Azərbaycan Respublikasında təbii ehtiyyatların xarici investorların iştirakı ilə istismarını tənzimləyən vahid hüquqi-normativ baza və mükəmməl təşkilati-idarəetmə mexanizminin yaradılması və bu sahədə xarici investisiyalar üzrə dövlət nəzarətinin təşkili lazımdır və s.

Ədəbiyyat siyahısı:

1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı.: İqtisad Universiteti, 2016, 542 s.
2. Мищенко В.В. Экономика регионов. Москва: ИК Аналитика, 2012, 290 с.
3. Колесов В.П., Кулаков М.В. Международная экономика. Москва.: Инфра - М, 2009, 345с
4. 4. Ширай В.И. Мировая экономика и международные экономические отношения. Москва.: Издательских дом Дашков и К., 2003, 528 с.
5. www.stat.gov.az/statistika 2018/pdf

AKIFƏ AKIF QIZI AĞAYAROVA,
*AMEA İqtisadiyyat İnstitutu,*
KƏYAN CABBAR OĞLU HACIYEV
*Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti*

# BEYNƏLXALQ IQTISADI ƏLAQƏLƏRDƏ MIQRASIYA PROSESLƏRININ ROLU

Açar sözlər: miqrasiya, inteqrasiya, qloballaşma, əhali, nəqliyyat, inkişaf, siyasət

Ölkələrarası iqtisadi əlaqələrdə miqrasiya prosesləri xüsusi yer tutur. Miqrasiya prosesi həmişə mövcud olmuş, lakin onun mahiyyəti və xarakteri zamanla dəyişmişdir. Ölkələrarası sərhədlərin möhkəmləndirilməsi insanların hərəkətinə müəyyən qədər maneələr yaratsa da, nəqliyyat sisteminin inkişafı hərəkət sürətini xeyli artırmışdır. Buna baxmayaraq, heç də bütün ölkələr miqrasiyanın genişlənməsində maraqlı deyillər. Belə ki, ölkədən emiqrasiya edənlər ölkənin işçi qüvvəsinin və insan potensialının azalmansa səbəb olur. Adətən emiqrasiya edənlərin əksəriyyəti ölkənin aktiv və əməkqabiliyyətli təbəqəsi hesab olunur. Belə miqrasiya ölkənin iqtisadi potensialının azalmasına səbəb olur. Digər tərəfdən isə, əksər ölkələr həm də immiqrasiyanın əleyhinə çıxış edirlər, çünki immiqrasiya yeni mədəniyyətin və davranış tərzinin ölkəyə daxil olması deməkdir. İmmiqrasiyanın atması ölkə daxilində sosial gərginlik və mədəniyyətlərarası münaqişə yarada bilir.

Ölkəyə əmək miqrantlarının daxil olması ölkədə məcmu məhsulun həcminə müsbət təsir edir. Lakin ölkəyə daxil olan miqrantlar əlavə sosial xərclər tələb etdiyindən büdcə xərcləri artır. Bundan başqa xərclər həm də tənzimlənməyən vəziyyətdə olan miqrantların çıxarılmasına da sərf olunur. Məsələn, 2015-ci ildə ABŞ-da 11 milyon qeyri-qanuni miqrant olmuşdur [1,1982].

Hər hansı ölkənin uzun müddət üçün dayanıqlı inkişafı ölkədə mövcud olan insan kapitalının həcmindən çox asılıdır. Müasir iqtisadiyyatda insan kapitalı təbii ehtiyatlardan daha vacibdir. İnsan kapitalının ölkə iqtisadiyyatına gətirdiyi gəlir, təbii ehtiyatların verdiyi

gəlirdən dəfələrlə yüksək olur. Xüsusilə, son onilliklərdə dünyada işsizlik səviyyəsinin artması, xüsusi bilik və bacarıq tələb edən işçilərə tələbin çoxalması insan kapitalının yüksəldilməsinə olan tələbi xeyli artırır. Ölkədə insan kapitalının ümumi səviyyəsi artdıqca ölkənin rəqabətqabiliyyəti və əhalinin ümumi rifah səviyyəsi də yüksəlir. Ölkələr arasında miqrasiyanın ən əsas səbəbi həyat səviyyəsi və təhlükəsizliklə bağlıdır. Həyat səviyyəsi aşağı olan və ya ciddi təhlükəsizlik problemləri olan ölkələrdən həyat və təhlükəsizlik səviyyəsi yüksək olan ölkələrə miqrant axınları davam edir. Burada həyat səviyyəsini təyin edən bütün amillər mühüm rol oynayır. Əmək haqları arasındakı fərq, təhlükəsizlik problemləri, sosial müdafiə, səhiyyə sığortası, təhsilin səviyyəsi, iqlim və sair amillər miqrasiyanın səviyyəsinə ciddi təsir göstərir.

Miqrasiya prosesi miqrantların öz ölkələrinə göndərdikləri vəsait hesabına birbaşa və ya dolayısı ilə iqtisadiyyata təsir göstərir. Araşdırmalar göstərir ki, miqrantların göndərdikləri maliyyə vəsaitlərinin 10% artması yoxsulluq səviyyəsini 3.5% azaldır [Adams, 2005, 1645-1669]. Xüsusilə, yoxsulluğun kəskin olduğu Afrika və Cənubi Asiya ölkələrində miqrantların pul köçürtmələri bu regionda yoxsulluğun azalmasında mühüm şərtdir. Dünya Bankının hesablarına əsasən miqrantların pul köçürmələri həm makroiqtisadi, həm də ev təsərrüfatları səviyyəsində sabitləşdirici rol oynayır [4]

Miqrantların pul köçürmələri nəticəsində ölkədə yığımın həcmi artır. Digər tərəfdən, pul köçürmələri ilə məşğul olan bankların fəaliyyəti genişlənir.

Əmək miqrantları öz ölkələrinə xeyli iqtisadi fayda gətirirlər. Birincisi, əksər ölkələrdə emiqrantların işlədikləri ölkədən göndərdikləri vəsait yerli ölkələrin ÜDM-da mühüm çəkiyə malik olur, digər tərəfdən, səhiyyə və sosial müdafiə qurumları emiqrantların hesabına öz yükünü xeyli azaltmış olurlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 19 mart 2007-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında 560 nömrəli fərman imzalamışdır. Eyni zamanda miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Miqrasiya proseslərinin idarə

olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 4 mart 2009-cu il tarixli 69 nömrəli fərman imzalanmışdır. Adıçəkilən fərmanın tətbiqi ölkədə miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsinə, bu sahədə operativliyin təmin edilməsinə və həllini gözləyən problemlərin aradan qaldırılmasına səbəb olmuşdur. Fərmana əsasən, 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında «bir pəncərə» prinsipinin tətbiq edilməsinə başlanılmış və bu prinsip üzrə vahid dövlət orqanının səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə həvalə edilmişdir. “Bir pəncərə” prinsipinin işə düşməsi ilə respublikada miqrasiya idarəetmə mexanizmi daha da təkmilləşdirilmişdir.

Pul köçürmələri inkişaf etməkdə olan ölkələr üçün xarici maliyyə mənbəsidir. Bəzən köçürlən pulların həcmi ölkələrin sosial proqramlara ayırdığı maliyyə vəsaitindən çox olur. Həmçinin, pul köçürmələri iqtisadi inkişafda mühüm rol oynaya bilir.

Bəzi ölkələrdə miqrantlar tərəfindən göndərilən pullar daha çox göndərildiyi yerlərində yoxsulluğun azaldılmasına təsir edir. Eyni zamanda bu pul əsasən investisiya məqsədlərinə deyil, istehlak xərclərinə yönəldilir. Bəzi hallarda isə göndərilən pullar təhsil və səhiyyə xərclərinin qarşılanmasına sərf olunur. Bu da, öz növbəsində insan kapitalına qoyulan investisiyadır və makroiqtisadi effektini uzun müddətdən sonra verir.

Ədəbiyyat siyahısı:

1. The Substitutability of Natives and Immigrants in Production, Review Economics and Statistics,(1982), 64(4),596-603

2. Altonji J. G., and Card, D.(1991), “The Effects of Immigration on the Labor Market Outcomes of Lesskilled Natives, ch. 7 in J.M.Abowd and R.B. Freeman(eds), immigration, Trade, and the Labor Maket Chicago Press, 201-34.

3. Adams R.H., &J. Page. 2005.-Do International Migration and Remittances Reduce Poverty in Developing Countries? ǀWorld Development, Vol.33,No.10,pp.1645-1669.

4. World Bank Washington DC. 2006 b. Global Economic Prospects 2006: Economic Implications of Remittances and Migration. World Bank.

5. Azərbaycanda miqrasiya vəziyyətinə dair tədqiqat. (Tədqiqat Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanla Yerdəyişmə

üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" layihəsi çərçivəsində aparılmışdır. https://countryeconomy.com/demography/

6. Allahverənov A., Hüseynov E. Avropa Birliyi və Şərq Tərəfdaşlığı ölkələri arasında əmək miqrasiyasının dəyəri və faydası: Azərbaycan üzrə ölkə hesabatı", 2013

7. Rüstəmov V. Mərkəzi və Cənubi Qafqazda beynəlxalq miqrantların pul köçürmələrinə dair tədqiqat – Azərbaycanda beynəlxalq miqrantların pul köçürmələrinə və yoxsulluğa aid ölkə hesabatı. Asiya İnkişaf Bankı, 2007

8. Adams 2005 Remittances,Household Expenditure and Investment in Guatemala .||Policy Research Working Paper Series, No.3532,The World Bank.

AQIL ŞÖVKƏT OĞLU ŞAHMURADOV
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN-UKRAYNA MƏDƏNİ-HUMANITAR ƏLAQƏLƏRI HAQQINDA

Açar sözlər: Azərbaycan, Ukrayna, mədəni-humanitar

Azərbaycan-Ukrayna münasibətlərində mədəni-humanitar əlaqələr əhəmiyyətli yer tutur. Bu əlaqələr geniş hüquqi-normativ bazaya əsaslanır. 2000-ci ildə imzalanan "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə"də ikitərəfli mədəni-humanitar əməkdaşlığın əsas istiqamətləri də göstərilmişdir. Tərəfləri mədəniyyət, təhsil, ədəbiyyat, incəsənət, səhiyyə, nəşriyyat işi, kino, radio, televiziya, turizm, idman sahəsində əməkdaşlıq etməyə, tarixi və mədəni irsi qorumağa, bir-birinin dilindən, tarixi və mədəni irsindən, ədəbiyyatından tam istifadə üçün şərait yaratmağa, tədqiqat və təhsil müəssisələrində dilin, tarixin və mədəniyyətin öyrənilməsi imkanlarını genişləndirməyə, pedaqoji kadrların hazırlanması, mübadiləsi və təkmilləşdirilməsini həyata keçirməyə, elmi təqaüdlər verməyə, elmi tədqiqat institutları arasında birbaşa əlaqələri həvəsləndirməyə qərarlı olduqlarını ifadə etmişdilər.

2016-cı il iyulun 14-də Bakıda "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın Mədəniyyət Nazirliyi arasında 2016-2020-ci illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair Proqram" imzalandı. Proqram mədəni-humanitar sahədə müxtəlif tədbirlərin keçirilməsini, təcrübə mübadiləsi aparmağı nəzərdə tuturdu.

Azərbaycan və Ukrayna arasında mədəni-humanitar əlaqələrin genişlənməsində ali məktəblər mühüm rol oynayır. 2000-ci ildə Kiyevdə Heydər Əliyev adına Siyasi və Sosial Elmlər İnstitutu fəaliyyətə başladı.

Bakı Slavyan Universiteti Ukrayna Beynəlxalq Kadrlar Akademiyası, Kiyev "Slavyan Universiteti", Kiyev Milli Linqvistik Universiteti, Çerkas Milli Universiteti, Poltava İqtisadiyyat və Ticarət Universiteti ilə əməkdaşlıq edir. "Ukraynaşünaslıq" ixtisası üzrə kadr hazırlığının həyata

keçirildiyi bu universitetdə Ukrayna Tədris-Mədəniyyət Mərkəzi fəaliyyət göstərir.

Bakı Dövlət Universiteti Heydər Əliyev adına Sosial Elmlər İnstitutu, T.Şevçenko adına Ukrayna Milli Universiteti, Donetsk Dövlət Universiteti, Dnepropetrovsk Milli Universiteti, İ.Franko ad. Lvov Milli Universiteti, Vinniski Dövlət Texniki Universiteti ilə əməkdaşlıq edir.

2012-ci ilin avqust ayında Azərbaycan Dövlət İqtisad Universitetində "T.Şevçenko adına Kiyev Milli Universiteti Məzunları Assosiasiyası" təsis olundu. Assosiasiya öz sıralarında müxtəlif vaxtlarda Kiyev Milli Universitetində ali təhsil almış azərbaycanlıları birləşdirir.

Ukraynanın bir sıra ali məktəbində Azərbaycanın öyrənilməsi və təbliği həyata keçirilir. T.Şevçenko adına Ukrayna Milli Universitetinin Şərqşünaslıq fakültəsində "Azərbaycan dili və ədəbiyyatı" ixtisası üzrə kadr hazırlığı həyata keçirilir.

2007-ci ildə A.S. Popov adına Odessa Milli Rabitə Akademiyasında "Azərbaycan evi" Mədəni Mərkəzi yaradılmışdı. Mərkəz Odessa şəhərindəki ali məktəblərdə təhsil alan azərbaycanlı tələbələri özündə birləşdirir. 2011-ci il sentyabrın 8-də Poltava İqtisadiyyat və Ticarət Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açıldı. 2013-cü il martın 29-da oxşar mərkəz Kiyev Milli Linqvistik Universitetində də fəaliyyətə başladı.

2015/2016-cı tədris ilində Ukraynanın ali məktəblərində 10 min nəfərdən çox azərbaycanlı təhsil almışdır. Ukrayna Təhsil və Elm Nazirliyi azərbaycanlı gəncləri Ukrayna ali məktəblərinə cəlb etmək üçün geniş təbliğat işi aparır.

Azərbaycan-Ukrayna mədəni-humanitar əlaqələrinin inkişafında mədəniyyət günlərinin rolu böyükdür. 2002 və 2013-cü illərdə Azərbaycanda Ukrayna, 2001, 2009 və 2014-cü illərdə Ukraynada Azərbaycan mədəniyyəti günləri keçirilmişdir.

Ədəbiyyat nümunələrinin qarşılıqlı şəkildə təcümə edilərək nəşr olunması ikitərəfli əlaqələrdə əhəmiyyətli yer tutur. "Azərbaycan xalq nağılları", Z. Yağmurun "Allah qayıdır?!" romanı, M. F. Axundovun "Seçilmiş əsərləri", M. Cəlalın "Yolumuz hayanadır?" kitabı, Anarın "Ağ qoç, qara qoç" kitabı, V. Sultanlının "Qütb gecəsi" kitabı Ukraynada ukrayna dilində, "Qolodomor. 1932-1933-cü illərdə Ukrayna xalqının

soyqırımı" və "Aclıqla edam" kitabları, V. Stusun "Kolımada kəklikotu qoxusu" şeirlər toplusu, T.Q. Şevçenkonun "Seçilmiş əsərləri" Bakıda azərbaycan dilində nəşr olnmuşdur.

Mədəniyyət və incəsənət təmsilçilərinin qarşılıqlı səfərləri Azərbaycan-Ukrayna mədəni-humanitar əlaqələrini zənginləşdirən məqamlardandır. Ukrayna balet ustaları, vokalçıları ənənəvi olaraq Azərbaycanda çıxış edirlər. 2004-cü ildə Bakının Qaradağ rayonunda Ukraynalı şairə L. Ukrainkanın adına park salınmış və həmin parkda onun büstü qoyulmuşdu. 2008-ci ildə Bakıda T.Q. Şevçenkonun heykəli açıldı,

2002-ci ildə Azərbaycan Pantomim Teatrı Ukraynada keçirilən "Kiyev Mayski" teatr festivalında iştirak etmişdi. Həmin ildə R. Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının kollektivi Ukraynanın müxtəlif şəhərlərində konsert proqramları ilə çıxış etmişdir. 2005-ci ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası Dnepropetrovsk Milli Teatrında ukrayna dilində tamaşaya qoyulmuşdu.

Ukrayna kəhrəbadan hazırlanan sənət əsərləri ilə də məşhurdur. 2013-cü ildə Bakıda "Bakıda kəhrəba yolu" adlı sərgi keçirildi. Sərginin təşkilatçılarından Q. Simxanın sözlərinə görə, "Azərbaycan mədəniyyəti bizə ruhən çox yaxın və maraqlıdır. İki tarixi yol – Kəhrəba yolu və İpək yolu məhz Ukraynada kəsişir. Buna görə də sərgi üçün sənət əsərlərinin xüsusi kolleksiyası yaradılıb. Kolleksiyaya daxil olan eksponatlar Rovno vilayətindəki Vladimires-Vostoçnı yatağında hasil edilmiş Ukrayna kəhrəbasından hazırlanıb". Sərgidə "Dünya Həyat Ağacı" mövzusuna həsr olunan və Şəki Xan sarayı naxışlarının motivləri əsasında ukraynalı rəssamlar tərəfindən hazırlanan "Ambra Simxa" adlı işlər, "Nar ağacı" və "Buta ağacı" kəhrəba mozaik pannoları nümayiş etdirilmişdi.

Azərbaycan-Ukrayna mədəni-humanitar əlaqələrinin inkişafında diaspor təşkilatları da iştirak edirlər. Ukraynada təxminən 50 min nəfər bu ölkənin vətəndaşı olan azərbaycanlı yaşayır. "Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu" və "Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi" Ukraynada azərbaycanlıların ən böyük diaspor təşkilatlarıdır. Qeyd olunanlarla yanaşı, Ukraynada "Dostluq" – Azərbaycan-Ukrayna Xarkov Vilayət Təşkilatı, "Donetsk Vilayəti Azərbaycanlıları Konqresi", "Ukrayna Azərbaycanlıları Gənclər Birliyi", "Krım Azərbaycanlıları İcması", Dnepropetrovskda "Ukrayna

Azərbaycanlıları Liqası" və s. təşkilatlar mövcuddur. Bu təşkilatlar Ukraynanın ictimai-siyasi həyatında iştirak edir, mədəni, təhsil və xeyriyyə tədbirləri həyata keçirirlər.

Azərbaycanda təxminən 22 min nəfər ukraynalı yaşayır. Burada ukraynalıların iki diaspor təşkilatı - T.Q. Şevçenko adına "Azərbaycanın Ukrayna İcması" və "Azərbaycan Ukrayna Konqresi" – fəaliyyət göstərir. Son illərdə Rusiya və Ukrayna arasında mövcud olan qarşıdurmaya münasibətdə qeyri-müəyyən mövqe nümayiş etdirən "Azərbaycanın Ukrayna İcması" öz nüfuzunu itirmişdir.

"Azərbaycan Ukrayna Konqresi" azərbaycanlılar və ukraynalılar arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsini təşviq edir, Azərbaycanın və Ukraynanın suverenliyi və ərazi bütövlüyünü müdafiə edir.

Ədəbiyyat siyahısı:

1. Məmmədov H.N. Ukraynanın müasir tarixi. Bakı, 2009
2. Mədətli E. Azərbaycan - Ukrayna münasibətləri: tarixi və müasir vəziyyəti // Dövlət İdarəçiliyi, 2015, №1
3. Şahmuradov A. Ş. Azərbaycan Respublikasının Şərqi və Mərkəzi Avropa ölkələri ilə əlaqələri. Bakı, 2017
4. Azərbaycan-Ukrayna münasibətləri. http://lib.aliyevheritage.org/
5. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. http://www.mfa .gov.az/

ANAR KÜRDOĞLU OĞLU EYYUBOV
Azərbaycan Dövlət İqtisad Universiteti

# MÜASIR BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN BÖHRANI VƏ TƏHSIL AMILI

Açar sözlər: fundamental biliklər, bəşəri dəyərlər, təhsil populizmi

2000-ci ilin sentyabr ayında BMT-də bütün dövlətlətin nümayəndələrinin iştirakı ilə Minilliyin Bəyannaməsi qəbul edildi. Bəyannamədə bəşəriyyətin ümumi, sivilizasiya olaraq inkişafının fundamental təməli olan bilik və dəyərlərin XXI əsrdə beynəlxalq münasibətlərdə əhəmiyyəti vurğulanır [3]. XXI əsrdə dünyada Bəyannaməyə əks proseslərin tüğyan etdiyini, beynəlxalq münasibətlərin böhranının günbəgün daha da dərinləşdiyini görürük [1]. Şübhəsiz, burada fundamental bilik və dəyərlərin geniş kütlələrə çatdırılması və aşılanmasında əvəzolunmaz və təməl rola malik olan təhsil amilini nəzərə almamaq qeyri-mümkündür.

Qloballaşma prosesi, İKT sahəsində inqilabi dəyişikliklər, bütün sahələr kimi, təhsil qarşısında da çoxlu suallar, yeni vəzifələr qoydu. Nisbi inertliyi ilə fərqlənən təhsil məkanı yeni çağırışlara sistemli və strateji olaraq cavab verməyi bacarmayaraq, gündəlik trendlərin arxasınca qaçır, öncədən qalib gələ bilməyəcəyi bir marafona qoşulub. Bu gün dünya siyasəti və beynəlxalq münasibətlərin ehtiyatlandığı, bəzilərinin isə haqlı olaraq qorxutduğu lokal və beynəlxalq səviyyəli siyasi populizmin bünövrəsini əslində məhz təhsil, tədris populizmi təşkil edir [2].

1) Fundamental bilik informasiya axınının kölgəsində qalmaqdadır;

"İnformasiya əsri"ndə biliyin toplum üçün informasiya və praktiki bilik və vərdişlərdən ibarət olması təsəvvürü formalaşmaqdadır, müxtəlif elm sahələri arasında sistemli bağlılıqları göstərən, dərk etməyə yardımçı olan fundamental biliklərin tədrisi zəifləyir, yaxud yeni şərtlər və qavrama, tədris standartlarına uyğunlaşa bilmir. Müasir təhsil nəyi, necə, hansı həcmdə və hansı müddətə tədris edəcəyinə cavab verməkdə acizlik nümayiş etdirir;

2) Dəyərlərin formalaşmasının nüfuzdan düşməsi

Praktiki biliyə meylin artması, zamanın sürətlə qısalması və informasiya bolluğu şəraitində təhsilin qurban verdiyi sahələrdən biri də dəyərlərlə bağlı elmlərdir. Qlobal dezinformasiya və manipulyasiya şəraitində humanitar fənnlərin, ümumiyyətlə, lazımlığı haqqında fikirlər artır. "Demokratiya", "insan haqları", "bərabərlik" və s. bu kimi anlayışlar ya sadəcə mövcud olmayan gözəl sözlər kimi qəbul edilir, ya da cahil, savadsız formada başa düşülür və aşılanır. Son nəticədə isə özünü populist liderlərin cahil və qeyri-əxlaqı çıxışları və siyasi addımlarında biruzə verir ki, bunun nəticəsi olaraq hal-hazırda dünyada siyasi, hərbi, iqtisadi münaqişələrin, böhran ocaqlarının sayı artmaqdadır.

Müasir dövrün trendləri və reallıqları ilə yanaşı, fundamental biliklər və dəyərlərin optimal proporsiyasını ehtiva edən, "klassik" bilik və dəyərlərin yeni forma və vasitələrlə, "oxuyan"ları əvəzləməkdə olan "eşidən"lər nəslinin qavrama fərqliliklərinə uyğunlaşan təhsil modellərinə ehtiyac var.

Ədəbiyyat siyahısı:

1. Prezident İlham Əliyevin 23 may 2019-cu ildə çıxışı http://www.contact.az/ext/news/2019/5/free/politics%20news/az/81221.htm
2. Современный технологический популизм. М., 2017 C:/Users/Anar/Desktop/862/d/diplomatlit/populizm%20strateqiçeskiy%20 dokument.pdf
3. https://www.un.org/ru/documents/decl_conv/declarations/summit decl.shtml

ANAR TAHIR OĞLU HÜSEYNOV
AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu

# AZƏRBAYCAN RESPUBLIKASININ XARICI SIYASƏTINDƏ XƏZƏR DƏNIZININ HÜQUQI STATUSU MƏSƏLƏSI

Açar sözlər: Xəzərin hüquqi statusu, Cenevrə konvensiyası, neft müqavilələri, neft siyasəti

Xəzərin Hüquqi statusu (XHS) ilə bağlı mübahisə SSRİ-i dağılandan sonra ortaya çıxdı. Problemin öyrənilməsini 3 mərhələyə bölmək olar. 1.1991-1994-cü illər XHS-nun müzakirə edilməsinin başlanması. 2. 1995-1998-ci illər, ikitərəfli, çoxtərəfli görüşlərin intensivləşməsi. 3. 1999-cu ildən başlayaraq Rusiyanın XHS məsələsində mövqeyinin tam dəyişilməsi və ikitərəfli razılaşmaların əldə edilməsi. 1991-ci ilə qədər yalnız İran və SSRİ Xəzər hövzəsi ölkələri idilər (1921-ci il fevrlın 26-sı və 1940-cı il martın 25-i İran-SSRİ müqavilələrinə görə Astara-Həsənqulu xətt bölgüsünə əsasən İrana 14%, SSRİ-yə 86% pay düşmüşdür. 1970-cı ildə SSRİ bu payı sahilyanı ölkələr arasında milli sektorlara bölmüşdür).

1994-cü ildən sonra statusla bağlı 3 prinsip müzakirə edilirdi. 1. Beynəlxalq quru sərhədlərinin orta xətt boyunca dənizə qədər uzadılması ilə milli sektorların yaradılması və sahil dövlətlərin özlərinə aid milli sektorlar daxilində hər cür suverenliyə və haqqa sahib olması. Bu yanaşmaya Rusiya və Qazaxıstan qarşı çıxır. 2. 1982-ci il tarixli BMT Dəniz Hüququ üzrə Müqaviləyə uyğun olaraq hər bir ölkə üçün 12 millik dəniz suları nəzərdə tutulur, qalan ərazi isə sahil ölkələrinin 1931-ci ilin oktyabırında imzalanmış Konvensiyanın şərtlərinə görə, hər iki ölkə onun sahil sərhədlərindən dənizin içinə doğru 10 dəniz mili məsafəsində balıqçılıqla sərbəst məşğul olmaq hüququna malik idi [Жиев, 2007, 66] , [Mirişli, 2015, 569-570].

1958-ci il Cenevrə konvensiyasının 12-ci maddəsində deyilir "Bir neçə dövlətin zonaları toqquşduqda heç bir dövlət öz ərazilərini orta xətdən o tərəfə keçirə bilməz [Adıgözəlov, 2014, 133]. Türkmənistan ilə İran bu yanaşmaya müsbət yanaşır. 3. Dənizin 5 ölkə arasında bərabər bölünməsi də nəzərdə tutulur. İranın irəli sürdüyü bu həll yoluna Xəzərdə ən uzun

sahili olan dövlətlər - Qazaxıstan və Rusiya qarşı çıxır. Mövcud bölgüdə yalnız Qazaxıstanın payı 20 %-dən çoxdur [Nəsirov, 1999, 58-59].

1996-cı il noyabırın 11-12-də Türkmənistanın paytaxtı Aşqabadda keçirilən görüşdə (digər görüşlər 30 yanvar-2 fevral 1995-ci ildə Aşqabadda, 28-29 iyun 1995-ci ildə Tehranda, 26-27 sentyabır 1995-ci ildə Alma-Atada, 20-22 may 1996-cı ildə Tehranda, 22-23 may 1997-ci ildə Alma-Atada, 16-17 dekabır 1998-ci ildə Moskvada keçirilmişdir.) xüsusi işçi qrupu yaradıldı. Xəzərin dibinin bölünməsi məsələsində Azərbaycan, Rusiya və Qazaxıstan dövlətləri arasında qarşılıqlı iddialar yoxdur. Məsələ yalnız Türkmənistan və İran dövlətləri ilə razılaşdırılmayıb. Bu səbəbdən də indiyədək Xəzərin statusu hələdə müəyyənləşdirilməyib [ Нешич, 2001]. 1996-cı ilin noyabrından etibarən müxtəlif görüşlər keçirilib. Həmin məsələ ilə əlaqədar 2 görüş keçirilib. Bunlar 2002-ci ildə Aşqabadda və Tehranda keçirilmiş zirvə toplantıları idi [Əliyev, 2003, 77-78]. İki və ya çoxtərəfli cəhdlərdən əlavə XHS müəyyənləşdirməkdə ortaq səylər də göstəriblib. Bu səyləri 2 qrupa bölmək olar. Birinci qrup, sahil dövlətlərin ekspertlərinin ortaq işçi qrupları tərəfindən göstərilən səylərdir. İndiyədək ekspertlər səviyyəsində 21 iclas keçirilib. 2-ci qrup, Xəzərin sahilyanı ölkələrinin XİN səviyyəsində keçirilmiş iclaslardır [7].

Qərb dövlətlərindən Xəzər hövzəsinə daha çox iqtisadi maraq göstərən ABŞ-dır. Buna görə o status məsələsində 5 sahil dövləti arasında orta xətt üzrə milli sektorlara bölmə ideyasını müdafiə edir [Алиев, 192-194]. Rusiya statusla bağlı məsələni ilk dəfə (1992-ci il Tehran konfransı istisna olmaqla) 1993-cü ildə gündəmə gətirmişdir. Xəzərin kanallarla dünya okeanı ilə əlaqəsini əsas gətirərək onun göl olmasını qəbul etmir [Oğan, 2001, 155]. Rusiyanın Xəzərin sektoral bölünməsini əngəlləmək üçün irəli sürdüyü digər rəsmi fikir isə belə bölgünün ətraf mühitə zərər verə biləcəyindən ibarətdir [Avcı, 2014, 19]. Belə ki, Rusiyanın "Əsrin müqaviləsi" kimi nəhəng layihədə 10 %-lik payla iştirakında rus xarici siyasətində enerji lobbisinin artan təsiri əhəmiyyətli rol oynamışdır. RF əvvəllər Xəzərin "kondominium" prinsipi ilə 12-24 millik bir sahil zolağının sərhədyanı ölkələrə verilməsi, qalan hissənin ortaq istifadə edilməsinin tərəfdarı idi. 2001-ci il yanvarın 8-də Rusiya ilə AR "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 3 iyul 1997-ci il tarixli

müqavilənin prinsiplərini rəhbər tutaraq "Xəzər dənizi dibinin sektorlara – zonalara bölünməsi "haqqında razılığa gəldilər [Həsənov, 2016, 54-69].

RF və AR arasında munasibətləri bir necə faktorla gostərmək olar: 1. AR-nın regionda ən boyuk guc olması və onun iştirakı olmadan hec bir iri həcmli layihənin həyata kecirilməməsi; 2. AR enerji ehtiyatları, xususən də, təbii qaz ilə zəngin olması və Avropa dövlətlərinə qaz ixracmda dominantlığı bir strateji silah kimi əlində saxlamağa calışan RF-nin Azərbaycan qazına olan tələbatı; 3. AR əlverişli geosiyasi və coğrafı movqeyi, İran ilə Rusiyanı birləşdirən quru yolunun AR ərazisindən kecməsi [Abbasbəyli, 2011, 271].

İran üçün Xəzər dənizində iqtisadi maraqlar ikinci dərəcəlidir. Onun mövqeyinə görə, Xəzər dənizi 5 dövlət arasında, 20% olmaqla bərabər bölüşdürülməlidir [Чумалов, 2000, 34]. İranın XHS məsələsini uzatmasını da xüsusən bu amillə bağlamaq olar ki, o da AR Xəzərdə reallaşdırdığı transmilli layihələr və xarici şirkətlərin bu layihələrə qoşulmasıdır [Məmmədov, 2012, 337-345]. 1997-ci avqustun 27-də tərəflər orta xətt prinsipinə razılıq verdilər. Türkmənistan Xəzəri fərqli üsulla, həm dibini, həm də eninə bölməyi təklif edir. Belə ki, dənizin Azərbaycanla Türkmənistan akvatoriyası meridian istiqamətində uzanmış formadadır [Икаев, 2006]. Türkmənistan 1998-ci ildə 45 millik milli sektorlar bölgüsünü və bunun sahilyanı dövlətlərin sammitində müzakirə olunmasını təklif etdi.

XHS məsələsində Azərbaycan Respublikası 2 başlıca prinsipi müdafiə edir: a). Xəzərin sektorlara bölünməsi. b). Xəzərdə sülh siyasətinin həyata keçirilməsi [Həsənov, 2007, 47]. 2013-cü ilin noyabrın 21-22-də və 2014-cü il oktyabırın 10-da 5 Xəzəryanı olkə Moskvada müqavilələr imzaladılar. Müqavilədə qeyd edilir ki, sahildən 15 mil dəniz zonası və daha 10 mil isə iqtisadi zona sayılsın. Qalan 25 millik zona bütün sahilyanı dövlətlər üçün ümumi istifadə sahəsi hesab edilsin. 2018-ci il avqustun 12-də Aktau (Qazaxıstan) şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında konvensiya imzalandı və ilk dəfə Xəzər dənizinin hüquqi statusunu müəyyən edərək, sahilyanı dövlətlərin dənizə münasibətdə hüquq və öhdəliklərini təsbit etdi.

Ədəbiyyat siyahısı:


1. Adıgözəlov K. Azərbaycanın neft strategiyası beynəlxalq siyasətin aparıcı istiqamətlərindən biri kimi. Bakı, 2004.
2. Abbasbəyli A.N. Dünya siyasəti. Bakı, 2011.
3. Əliyev Q. Azərbaycan nefti dünya siyasətində. Bakı, 2003 səh 73-75.
4. Həsənov Ə. M. Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, 2016, 296 s.
5. Həsənov S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu. Bakı, 2007, 176 s.
6. Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. Bakı, 2012, 464 s.
7. Mirişli F.R. Dünya iqtisadiyyatı. Moskva, İzvestiya, 2015, 642 s.
8. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı, 1999, 104 s.
9. Avcı E. Hazar`ın statü sorunu ve sahildar devletlerin konuya yaklaşımları. Uluslararası Stratejik Bakış Enstitüsü, nisan 2014
10. Oğan S. Hazarda tehlikeli oyunlar: Statü sorunu, Paylaşılamayan kaynaklar ve Silahlanma yarışı. Avrasya Dosyası, Türkmenistan Özel, Yaz 2001, Cilt: 7, Sayı: 2
11. Алиев Н.А., Мирзоев М.А. Перспективы освоения углеводородных ресурсов и некоторые аспекты проблемы правового статуса Каспийского моря. Баку, 2003, 296 с.
12. Жиев И.Б. Геополитика Каспийского региона. М., 2007. 84 с.
13. Икаев Д. Г. Проблемы определения международно-правового статуса Каспийского моря. Москва, 2006
14. Нефтяная дипломатия Баку. Международная жизнь, 30 март 2001
15. Нешич Б. Каспийские источники как основа международно-правового значения юго-восточной европы для европейской энергетической безопасности. М., Россия, 2001
16. Чумалов М.Ю. Каспийская нефть и межнациональные отношения. М., ЦИМО, 2000, 560 с.

ARIF MƏMMƏDHƏSƏN OĞLU TAĞIYEV
Mingəçevir Dövlət Universiteti

# AZƏRBAYCANIN MILLI IQTISADIYYATI MÜASIR DÜNYA TƏSƏRRÜFATI SISTEMINDƏ: MÖVCUD VƏZIYYƏT, PROBLEMLƏR VƏ PRIORITETLƏR

Açar sözlər: dünya təsərrüfatı, beynəlxalq inteqrasiya, xarici ticarət, beynəlxalq kreditlər, xarici investisiya

Məlum olduğu kimi "müasir dünya təsərrüfatı mürəkkəb bir iqtisadi münasibətlər sistemi olmaqla beynəlxalq əmək bölgüsü əsasında bir-biri ilə qarşılıqlı fəaliyyət və asılılıqda olan milli iqtisadiyyatların məcmusundan ibarətdir. Bu mənada dünya təsərrüfatı sistemi milli təsərrüfatlar arasında hərtərəfli əlaqələrə əsaslanan beynəlxalq iqtisadi və qarşılıqlı münasibətlər sistemi kimi qəbul edilir" [Əyyubov, 2014, 303].

Müasir dövrdə hər bir ölkənin milli iqtisadiyyatının inkişaf səviyyəsi, ilk növbədə, onun dünya təsərrüfatı sistemində tutduğu mövqe və inteqrasiya səviyyəsi ilə ölçülür. Odur ki, milli iqtisadiyyatın inkişafında beynəlxalq iqtisadi münasibətlərin səviyyəsi mühüm əhəmiyyət kəsb edir. Milli iqtisadiyyatın ümumdünya iqtisadiyyatına inteqrasiyası son dərəcə aktual və səmərəli bir fəaliyyət olmaqla bərabər, eyni zamanda olduqca geniş, mürəkkəb və problemli bir prosesdir. Hazırda beynəlxalq iqtisadi münasibətlərin ən çox yayılmış formalarını ilk növbədə özündə idxal-ixrac əməliyyatlarını birləşdirən xarici ticarət əlaqələri, xarici investisiya və beynəlxalq kredit fəaliyyətini birləşdirən kapitalın beynəlxalq hərəkəti, əmək resurslarının beynəlxalq miqrasiyası, elmi-texniki və yeni texnologiyaların mübadiləsi sahəsində əməkdaşlıq, sosial-mədəni əlaqələr, beynəlxalq ictimai, iqtisadi, maliyyə, sahə, regional təşkilatlar daxilində və birbaşa ölkələrarası əməkdaşlıq kimi məsələlər təşkil edir. Belə geniş fəaliyyəti tam həcmdə həyata keçirmək ancaq yüksək iqtisadi inkişafa malik olan dövlətlərə nəsib olur. Bu mənada, müasir dünya iqtisadi sisteminə inteqrasiya hər bir ölkədən dünya standartlarına cavab verə biləcək iqtisadi sistem yaratmağı, elmi-texniki və texnoloji baxımdan, keyfiyyət və qiymət baxımından dünya bazarlarında rəqabət yarada biləcək əmtəə və xidmət təşkilini tələb edir.

Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası dövrünü bir-birindən fərqli 4 mərhələyə bölmək olar: 1992-97-ci illər, 1998-2005-ci illər, 2006-2015-ci illər və 2016-cı ildən sonrakı post neft dövrü. Əsasən ölkə iqtisadiyyatında böhran və böhrandan çıxış dövrünü əhatə edən 1-ci və 2-ci mərhələdə xarici iqtisadi əlaqələrin və beynəlxalq iqtisadi münasibətlərin formalaşması, onun hüquqi-normativ bazasının yaradılması, xarici ticarət, xarici investisiya və digər xarici iqtisadi münasibətlərin strategiyasının müəyyənləşdirilməsi prosesləri həyata keçirilir.

"Azərbaycanın müstəqil dövlət kimi dünya iqtisadi məkanına inteqrasiyasının başlanğıc dövrünü 1991-1992-ci illərə aid etmək mümkün olsa da, birmənalı olaraq qeyd etmək olar ki, bu inteqrasiya ilk növbədə, əsası ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulmuş "Neft Strategiyası"nın həyata keçirilməsi ilə başlanmış, dünyanın onlarla inkişaf etmiş ölkələri ilə iqtisadi münasibətlər qurulmuş, bu ölkələri təmsil edən ən güclü transmilli neft kompaniyaları ilə neft müqavilələri bağlanmış və nəticədə ölkəyə xarici kapitalın marağı artmış, ölkə iqtisadiyyatına xarici investisiya axını başlanmış və ölkə dünya iqtisadiyyatında qlobal proqramları həyata keçirən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər bu kimi qurumlara daxil olaraq, onlarla iş birliyi yaradılmış, BMT, Avropa Şurasına, MDB, İƏT kimi bir çox dünya və regional siyasi və iqtisadi qurumlara qəbul edilmiş" [Musayeva, 2018, 337] və inkişaf edərək özünün hazırkı vəziyyətinə çatmışdır.

Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərində xarici ticarət fəaliyyəti xüsusi yer tutur. Əvvəlki dövrlərdən fərqli olaraq son illərdə Azərbaycanın xarici ticarət siyasətində ticarət dövriyyəsinin ümumi artımı ilə bərabər daha çox onun keyfiyyət xarakteristikası, yəni struktur keyfiyyətinə, ticarət balansının sağlamlaşdırılması, ixracatın stimullaşdırılması kimi məsələlərə üstünlük verilir.

Təsadüfi deyildir ki, 2004-cü ildən bəri bütün illərdə xarici ticarət saldosu müsbət nəticə ilə yekunlaşmış, bu illərdə həm ümumi ticarət dövriyyəsi, həm də onun ayrı-ayrı tərkib hissələri olduqca sürətlə inkişaf etmiş, idxal-ixracatın strukturu iqtisadi təhlükəsizlik baxımından mövcud

parametrlərə yaxınlaşmış, onun ÜDM xüsusi çəkisi 50 faiz və daha çox təşkil etmişdir (bax cədvəl 1).

Azərbaycanın xarici-ticarət dövriyyəsinin ümumi vəziyyəti
(mln. ABŞ dollar)

Cədvəl 1.

| Göstəricilər | | İ L L Ə R | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| ÜDM həcmi | 52909,3 | 65951,6 | 69683,9 | 74164,4 | 75234,7 | 52996,8 | 37862,8 | 40867,9 |
| Ümumi ticarət dövriyyəsi | 33161,7 | 43121,3 | 43813,2 | 43554,1 | 39407,5 | 25809,0 | 21596,6 | 24257,6 |
| *- əvv. ilə nisbətən artım, %* | 159,2 | 130,0 | 101,6 | 99,4 | 90,5 | 65,5 | 83,7 | 112.3 |
| *- ÜDM xüsusi çəkisi, %* | 58,9 | 63,4 | 62,9 | 74,0 | 53,1 | 48,7 | 57,4 | 59,4 |
| İxrac | 26560,0 | 33365,3 | 34160,3 | 32841,6 | 30219,8 | 16592,3 | 13107,5 | 15475,6 |
| *- əvv. ilə nisbətən artım, %* | - | 129,5 | 99,3 | 96,1 | 92,0 | 55,0 | 79,0 | 118,1 |
| *- ümumi dövriyyədə xüsusi çəkisi, %* | 85,2 | 77,4 | 78,0 | 77,1 | 76,7 | 64,3 | 60,7 | 63,8 |
| İdxal | 6600,0 | 9756,0 | 9652,9 | 10712,5 | 9187,7 | 9216,7 | 8489,1 | 8782,0 |
| *- əvv. ilə nisbətən artım, %* | - | 147,8 | 98,9 | 111,0 | 85,8 | 100,4 | 92,1 | 103,5 |
| *- ümumi dövriyyədə xüsusi çəkisi, %* | 14,8 | 22,6 | 22,0 | 22,9 | 23,3 | 35,7 | 49,3 | 36,2 |
| Saldo | 19960,0 | 23608,7 | 24507,4 | 22129,1 | 21032,1 | 7375,6 | 4618,4 | 6693,6 |

Cədvəl müəllif tərəfindən AR DSK-nin məlumatları əsasında hazırlanmışdır

Cədvəldəki məlumatlardan göründüyü kimi, ümumi ticarət dövriyyəsinin dinamikasında son illərdə ciddi dəyişiklik müşahidə olunmaqdadır. Belə ki, əvvəlki ilə nisbətən 2010-cu ildə 159,2 faiz, 2011-ci ildə 130,0 faiz, 2012-ci ildə 101,6 faizlik artım müşahidə olunduğu halda, Azərbaycan (o cümlədən bütün dünya) iqtisadiyyatı üçün o qədər də

uğurlu olmayan son, 2014-2016-cı illər ərzində xarici ticarət dövriyyəsi daha da aşağı düşərək, əvvəlki ilə nisbətən 2014-cü ildə 90,5 faiz, 2015-ci ildə 65,5 faiz, 2016-cı ildə isə 83,7 faiz , natural ifadədə isə mütənasib olaraq 39,4; 25,8 və 21,6 milyard ABŞ dolları səviyyəsində olmuş, 2017-ci ildə isə bir qədər artaraq 112,3 faiz, natural ifadədə isə 24,3 milyard ABŞ dolları səviyyəsinə çatmışdır. Bu illərdə ümumi ticarət dövriyyəsində azalmanın əsas səbəbi daha çox ixracatın əsasını təşkil edən neftə olan tələbatın azalması və onun qiymətinin dünya bazarlarında ən azı iki dəfə ucuzlaşması və ölkədə neft hasilatının xeyli aşağı düşməsi olmuşdur. Odur ki, ölkə iqtisadiyyatını, o cümlədən xarici ticarət balansını neft sektorundan asılılıqdan qurtarmaq üçün artıq 2015-2016-cı illərdən başlayaraq dövlət özünün yeni iqtisadi siyasətini, o cümlədən yeni ixrac siyasətini, başqa sözlə post-neft dövrü siyasətini formalaşdıraraq həyata keçirməyə başlamışdır. Burada əsas məqsəd qeyri-neft sektorunda sürətli inkişaf tempinə nail olmaq, qeyri-neft məhsullarının güzəştli vergi-büdcə və gömrük stimullaşdırıcı mexanizmləri vasitəsilə ixrac potensialının yüksəldilməsindən ibarət olmuşdur. Bunun nəticəsi kimi, son illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin müsbət nəticəsi olaraq idxal-ixracatın strukturunda və xarici ticarət balansında ciddi keyfiyyət dəyişikliklərinin baş verməsini və xarici ticarət tərəfdaşlarının sayının artmasını xüsusi qeyd etmək olar. Belə ki, son illərdə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 183 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 114 ölkəyə məhsul ixrac olunmuş, 171 ölkədən idxal edilmişdir.

Müasir dövrdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin qurulmasında beynəlxalq maliyyə-kredit münasibətlərinin idarə olunması xüsusi yer tutur.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın milli iqtisadiyyatının dinamik inkişafına səbəb olan və onu təmin edən əsas amillərdən biri dövlətin həyata keçirdiyi məqsədyönlü və davamlı investisiya siyasəti, o cümlədən xarici investisiya siyasəti olmuşdur.

2010-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına cəlb olunmuş xarici investisiyalar və maliyyə kreditlərinin təhlili göstərir ki, ölkə iqtisadiyyatına cəlb edilmiş cəmi 79,4 milyard ABŞ dolları həcmində xarici

investisiyaların 27,3 faizini maliyyə kreditləri, 72,7 faizini birbaşa investisiyalar təşkil etmişdir.

Azərbaycan dövləti eyni zamanda aktiv xarici kredit fəaliyyəti ilə məşğul olan və inkişaf etməkdə olan ölkələrdən birinə çevrilmişdir. Təsadüfi deyildir ki, beynəlxalq maliyyə qurumları Azərbaycanın kredit reytinqini, yəni kredit ödəmə qabiliyyətini kifayət qədər yüksək qiymətləndirirlər. Baxmayaraq ki, Azərbaycan dövləti hazırda kifayət qədər maliyyə ehtiyatlarına malikdir, özünün milli iqtisadi maraqları naminə xarici borclardan istifadə etməkdə maraqlıdır. Lakin xarici borcların idarə olunmasında dövlət daimi balanslı siyasət həyata keçirir və onun həcmi ÜDM-ə və valyuta ehtiyatlarına nisbətən minimum təhlükəsizlik səviyyəsində saxlanılır.

Maliyyə Nazirliyinin məlumatına əsasən Azərbaycanın əsasən xarici kreditlər hesabına yaranan xarici dövlət borcu 1 yanvar 2019-cu il tarixinə 8,9 milyard dollar təşkil etmiş və onun ÜDM-ə olan nisbəti 19,0 faiz səviyyəsində olmuşdur. Bu tarixə ölkənin valyuta ehtiyatları isə 45,0 milyard dollar səviyyəsinə yüksələrək xarici dövlət borcunu 5,1 dəfə üstələmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycanın əldə etdiyi xarici kreditlər daha uzunmüddətli və aşağı faizli kreditlərdən ibarətdir və ölkənin kredit ödəmə qabiliyyəti kifayət qədər yüksəkdir.

Ədəbiyyat siyahısı:

1. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı, Avropa nəşriyyatı, 2014. 350 səh.
2. Xasbulatov R.İ., "Beynəlxalq iqtisadi münasibətlər" (Rus dilindən tərcümə) Bakı,"Zərdabi LTD", 2015, 808 səh.
3. Qədirov A.,Əzizov A., Əhmədova S. Beynəlxalq ticarət əməliyyatları. Dərs vəsaiti. Bakı. "BBU- nin nəşriyyatı". 2017-256səh.
4. Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər ücün dərs vəsaiti. Bakı,"Avropa" nəşriyyatı. 2018, 430 səh.
5. Vəliyev D.,Əsədov A. Beynəlxalq iqtisadiyyat. Dərslik. Bakı,"Avropa"nəşriyyatı,2012-400səh
6. www.azstat.gov.az

ATA TEYYUB OĞLU VƏLIYEV
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası

## AZƏRBAYCAN RESPUBLIKASI MÜASIR BEYNƏLXALQ HÜQUQUN SUBYEKTI KIMI

Açar sözlər: Azərbaycan Respublikası, beynəlxalq münasibətlər, diplomatik əlaqələr, təşkilatlar, xarici siyasət

Qloballaşan dünyamızda ictimai münasibətlərin dinamik inkişafı öz növbəsində dövlətlər və beynəlxalq təşkilatlar arasında ikitərəfli və çoxtərəfli münasibətlərin qurulmasına gətirib çıxarmışdır və dövlətlərin fəaliyyətini bir-birindən təcrid olunmuş halda təsəvvür etmək demək olar ki, mümkün deyildir. 1945-ci ildə İkinci dünya müharibəsinin başa çatması və BMT-nin yaranmasından, eləcə də ABŞ və onun Qərb müttəfiqlərinin qalibiyyəti ilə başa çatan "soyuq müharibə"dən sonra dünya siyasətində və beynəlxalq münasibətlər sisteminin formalaşmasında yeni mərhələ başlandı. Artıq beynəlxalq münasibətlərin inkişafında həm formaca (beynəlxalq münasibətlər əvvəllər əsasən milli dövlətlər arasında əlaqə üzərində qurulurdusa, indi bu prosesə beynəlxalq və regional təşkilatlar, qeyri-hökumət təşkilatları və s. subyektlər əlavə olundu), həm də mahiyyətcə (daxili və xarici siyasət, dövlət suverenliyi və milli maraq anlayışları getdikcə yeni məzmun kəsb edir) dəyişikliklər müşahidə olunurdu.

Ölkəmizin əlverişli geosiyasi mövqeyi milli dövlətçilik maraqlarımıza cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün əlverişli zəmin yaradırdı. 1980-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılmasını zəruri edirdi.

Təbii ki, ölkəmiz də bu proseslərdən kənarda qalmamışdır, qala da bilməzdi. Belə ki, 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici siyasət sahəsində, eləcə də beynəlxalq təşkilatlar və dövlətlərlə münasibətlərin qurulması sahəsində

bir sıra məqsədyönlü addımlar atmışdır. Həmin dövrdə hakimiyyət böhranının yaşandığı bir vaxtda xalqın çağırışı ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alanan xarici siyasət yürütməklə, ölkəmizin və dövlət müstəqilliyimizin beynəlxalq arenada tanınmasına nail olmuşdur. Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış, Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edilmişdir. Bu proseslərin məntiqi davamı kimi elə həmin ildə ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, bu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yeritmişdir.

Bundan başqa, iqtisadiyyatı dirçəltmək məqsədilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan vemişdir. Bununla da ölkəyə xarici investisiya axını sürətlənmiş, Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün əlverişli zəmin yaranmışdı. Eyni zamanda, 1998-ci il sentyabr ayında "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı Azərbaycanın xarici siyasət sahəsində qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycanın müasir beynəlxalq vəziyyəti xarici siyasət sahəsində hər hansı bir qütbə və yaxud istiqamətə açıq nümayiş etdirilən üstünlük verilməsini istisna etməklə, balanslaşdırıcı və tarazlaşdırıcı siyasi kurs seçilməsini şərtləndirir. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Eyni zamanda Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Hər iki normanın təfsiri onu deməyə əsas verir ki, Azərbaycan Respublikası digər dünya dövlətlərinin suverenliyini və ərazi bötövlüyünü

tanıyır, dünya birliyi dövlətlərinin suveren bərabərliyinə hörmətlə yanaşmaqla sülhsevər mövqe tutur.

Bu gün Azərbaycan diplomatiyası müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün beynəlxalq və regional təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər həyata keçirir. Respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və təcavüzkar erməni separatçılarının işğal altında olan Azərbaycan torpaqlarından çıxarılması, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm istiqamətlərdən və vəzifələrdən biridir. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan öz torpaqlarını istər sülh yolu ilə, istərsə də hərbi əməliyyatlar aparmaqla bərpa edəcəkdir.

Ədəbiyyat siyahısı:


1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı. 2005. 631 səh.
2. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997
3. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, 1996.
4. http://muse.jhu.edu/journals/world_politics
5. http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
6. http//:www.foreignaffairs.org

AYDIN BAYRAM OĞLU EYVAZOV
AMEA-nın Qafqazşünaslıq İnstitutu

# AZƏRBAYCAN REALLIQLARI VƏ ERMƏNISTANIN HƏRBI VƏZIYYƏTI

Açar sözlər: Ermənistan, hərbi vəziyyət, ordu, işğal

Ermənistanda "müstəqil ordu" 1991-ci ilin əvvəlində Rusiya Federasiyasının bazasında formalaşmağa başlamışdır.

Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın imzaladığı sərəncama uyğun olaraq, hər il 28-yanvar 1991-ci il ölkədə silahlı qüvvələrin yarandığı gün kimi qeyd olunur.

Ermənistan öz arsenalını gücləndirməyə çalışır, lakin onun ordusu zirehli texnika baxımından Azərbaycan ordusundan çox geridə qalır.

Mənbələrdən alınan məlumata görə, Ermənistanın Hərbi Hava qüvvələrinin arsenalı müxtəlif təchizat mənbələrinin hesabına güclənmişdir.

Ermənistan SQ və Dağlıq Qarabağ Müdafiə ordusunun zəifliyini Aprel döyüşləri bir daha sübut etdi.

Ermənistan ordusunda Rusiyanın özünəməxsus xüsusi mövqeyi vardır. Ermənistan Rusiya tərəfindən kifayət qədər silahlandırılır. Ermənistanın hava hücumundan müdafiə sistemi bütövlüklə Rusiyaya tabe edilmişdir.

Son zamanlar Ermənistanda birləşmiş qruplaşmasının yaradılması adı altında qoşunların birləşdirilməsi prosesi gedir.

Ermənistan hərbi qüvvələrinin Azərbaycan Respublikasının hərbi qüvvələri arasında xeyli fərq vardır.

Son zamanların statistik göstəricilərinə görə, Ermənistan ordusunda onlarla əsgərə qarşı hüquq pozuntusu qeydə alınmışdır. Günü-gündən aclıq, səfalət içində boğulan Ermənistanda ümumi vəziyyət daha da gərginləşdiyi, özbaşınalıq, korrupsiya halları tüğyan etdiyi, xalqın orduya qarşı inamsızlığı özünü daha qabarıq şəkildə bürüzə verir.

Ermənistana kənardan nə qədər silah-sursat verilsə də, hərbi sənaye sahəsində Azərbaycan Respublikasından çox geridə qalır. Bunu

Azərbaycan Respublikasının 100 illiyinə həsr edilmiş hərbi parad bir daha sübut etdi.

Azərbaycan Ordusunun gücünü bilən işğalçı Ermənistan ordusu daim qorxu içindədir.

İşğalçı Ermənistanın hərbi xərclərinin 3,1 mlrd. dollara çatdığı məlum olmuşdur.

Ermənistanda müstəqillik elan olunduqdan sonra ölkədə 9 şəxs olmaqla 11 dəfə müdafiə nazirləri dəyişdirilmişdir. Ermənistan Silahlı Qüvvələrinin sabiq generallarının özbaşınalıqları və törətdikləri cinayətlər barədə çoxsaylı məlumatlar verilir.

Ermənistanda yaşayan ən sadə erməni də çox yaxşı bilir ki, H.Bağmanyan bu işlərin hamısını S.Sarkisyansız edə bilməzdi. Belə ki, vaxtilə Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalında iştirak etmiş bu "yaxın dostlar" uzun müddətdir ki, biznesdə də şərikdirlər.

Ermənistan mətbuatındakı yazılara istinadən hər üç generalın özbaşına hərəkətlərinə və törətdiyi cinayətlərə bilavasitə S.Sarkisyanın özü şərait yaratmışdır.

AYGÜN ALIM QIZI HACIYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti

# ƏRZAQ TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSINDƏ AQRAR SAHƏNIN ROLU

Açar sözlər: aqrar sahə, dövlət proqramları, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, milli təhlükəsizlik

Yer kürəsində əhalinin intensiv artımı ərzaq məhsulları ehtiyatının yüksəldilməsini tələb edir. Müasir dövrdə ərzaq təhlükəsizliyi hər bir ölkənin iqtisadi və siyasi mövqeyinin əsasını təşkil edir. Dünyada insanların ərzaq qıtlığından əziyyət çəkməsi və bunun üçün qabaqlayıcı tədbirlərin görülməsi günün ən vacib problemlərindəndir. Bu problemin həlli kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması ilə aradan qaldırıla bilər. Kifayət qədər geniş və çoxtərəfli problemləri əhatə edən milli təhlükəsizlik sisteminin mühüm tərkib hissəsi ərzaq təhlükəsizliyinin təminatıdır.

Ərzaq təminatı qlobal problem olmaqla iqtisadi, sosial, texnoloji, coğrafi, tarixi, siyasi və s. amillərin təsiri ilə formalaşmış və bu problemin həlli sosial-iqtisadi, siyasi, texniki-texnoloji, ekoloji siyasətin həyata keçirilməsi ilə bağlı olmuşdur. Təbiidir ki, ərzaq təhlükəsizliyinə yanaşmada təbii ehtiyatların mövcudluğu, ondan səmərəli istifadə ilə yanaşı iqtisadiyyatda dövlətin rolu və siyasətin düzgün formalaşması həlledici rola malikdir [İbrahimov, 2016, 4-181].

Ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sahə ilə birbaşa əlaqəli olduğundan, bu problemin həll edilməsində də məhz aqrar bölmənin işinin yaxşılaşdırılması prioritet məsələlərdən biridir. Bildiyimiz kimi, ölkə əhalisinin tələbatı olan ərzaq məhsulları əsasən kənd təsərrüfatı istehsalı sahələrində istehsal və emal olunur. Strateji əhəmiyyət daşıyan məhsulların - dənli və texniki bitkilərin, habelə, meyvə - tərəvəz, ət və süd məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, istehsalının genişləndirilməsi, təmiz və gigiyenik şəraitdə qablaşdırılması və saxlanılması ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülə biləcək ən vacib işlərdəndir.

Azərbaycan hökuməti əhalinin ərzaqla etibarlı təminatına dair bir çox sahədə tədbirlər və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirmişdir. 2001-ci ildə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi proqramı" qəbul edildi və bu proqram 10 illik müddəti əhatə edirdi. «Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı» Azərbaycan Respublikası Hökumətinin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə edir. Bu proqramın dövlətin maliyyə öhdəlikləri və büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur. Bu proqram çərcivəsində görülmüş işlər nəticəsində kənd təsərüfatında və ərzaq məhsulları istehsalında xeyli artım olmuşdur [1] .

Bu siyasətin davamı olaraq 2008-ci ilin mayında isə ölkə prezidenti tərəfindən əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair ayrıca Dövlət Proqramı qəbul edilmişdir. Bu proqram 2008-2015-ci illəri əhatə edirdi. Həmin Dövlət Proqramı Azərbaycanda aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından ən mühüm sənəd hesab olunur [2] .

Ölkəmizdə ərzaq təhlükəsizliyi ilə bağlı özünütəminetmə səviyyəsinə görə: mal əti üzrə 92%, qoyun əti üzrə 99%, quş əti üzrə 98,6%, yumurta üzrə 100%, süd və süd məhsulları üzrə 80%, taxıl üzrə 60%, tərəvəz üzrə 100%, bostan məhsulları üzrə 100%, meyvə və giləmeyvə üzrə 120%, üzüm üzrə 98%, şəkər və şəkərdən hazırlanan məhsullar üzrə 170%, bitki yağları üzrə 107%, duz üzrə 87%, makaron məmulatları üzrə 58%, kərə yağı üzrə 60% daxili istehsal hesabına təmin olunub. Ancaq burada nəzərə alınmalıdır ki, şəkər tozunun istehsalının maya dəyərində 64% xam şəkər idxal olunur, 36% dəyər Azərbaycanda formalaşır. Özünü təminetmə səviyyəsinin 100 faizə çatdırılması, kənd təsərrüfatında müasir texnika və texnologiyanın tətbiqi, toxum fondunun yaradılması, istifadəsiz qalmış əkinə yaralı torpaqların taleyinin həll olunması, habelə torpaqların elektron uçotunun həyata keçirilməsi və s. dövlətin qarşısında duran əsas vəzifələrdən biridir [3] .

Kənd təsərrüfatının inkişafına yönəlmiş Dövlət Proqramlarının icrası, fermerlərə güzəştli kreditlərin və əvəzsiz yardımların-subsidiyaların ayrılması, kənd təsərrüfatı texnikası parkının yenilənməsi, kənd təsərrüfatı məhsullarını saxlamaq üçün regionlarda soyuducu-anbar komplekslərinin

tikintisi, məhsuldar toxum növlərinin və cins mal-qaranın alınması və s. tədbirlərin nəticəsi olaraq əhalinin ərzaq məhsulları ilə yerli istehsal hesabına təminatı yaxşılaşmağa başladı.

Statistik göstəricilərə görə 2017-ci ildə Azərbaycanda kənd təsərrüfatının ÜDM-də payı 5,6% təşkil etmişdir. Burada əsas fondların 7,9 %-i, məşğul əhalinin isə 38%-i cəmlənib. Eyni zamanda 1727 kənd təsərüfatı müəssisəsi, 955 fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları və 1826 emal müəssisəsi fəaliyyət göstərir. Belə ki, 2017-ci ildə ölkədə istehsal edilən 6580,0 milyon manatlıq kənd təsərrüfatı məhsulunun 5934,6 milyon manatı fərdi sahibkarlar, ailə, kəndli və ev təsərrüfatlarının, daha doğrusu özəl bölmənin payına düşür [3] .

Əhalinin ərzaqla etibarlı təminatına yönələn dövlət siyasətinin nəticəsi olaraq, 2017-ci ildə ölkə üzrə 453364,5 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2013-cü illə müqayisədə 1,3 dəfə, 2014-cü illə müqayisədə 1,2 dəfə, 2015-ci illə müqayisədə 1,1 dəfə, 2016-cı iilə müqayisədə isə 1,0 dəfə çox olmuşdur. İstehsal edilən məhsulun 282174,0 milyon manatını və ya 62,2 faizini bitkiçilik məhsulları, 171190,5 milyon manatını və ya 37,7 faizini isə heyvandarlıq məhsulları təşkil etmişdir [3] .

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün strateji məhsullar sırasında əsas yeri taxıl tutur. Bu baxımdan iri taxılçılıq təsərrüfatlarının yaradılması istər ölkəmizin özünütəminatına, istərsə də xaricdən idxala yönələn maliyyə sərfiyyatının azalmasına xidmət edir. Belə təsərrüfatların yaradılması hər hektar sahədən bol məhsuldarlıq əldə etməklə yanaşı, yüksək reproduksiyalı toxumların artırılmasını şərtləndirir. Dövlətin əsas siyasəti idxaldan asılılığı minimuma endirmək, ərzaq bolluğu yaradıb ixrac potensialına münbit şərait yaratmaqdır. Hazırda taxılçılıqla respublikanın 66 rayonu məşğul olur. 10 iqtisadi rayondan 7-si taxıl əkinlərinin 95,8%-ni əhatə edir. Ümumi taxıl sahəsinin 66,6%-i payızlıq buğda, 26,7%-i arpa, 6,7%-i qarğıdalı və digər dənli bitkilərdən ibarətdir [3].

Ərzaq təhlükəsizliyinə xidmət edən bir qurumun – Qida Təhlükəsizliyi Agentliyinin yaradılması da əhalinin keyfiyyətli qidalarla təminatı üçün vacib addımdır. Hazırda dünyada orqanik məhsullar daha baha satılır və bu məhsulların istehsalı ilə bağlı ölkəmizdə narahatlıq yoxdur. Belə məhsullar həm də tərəvəz istehsalına aiddir. Son illərdə

tərəvəz istehsalı və ixracı kəskin artmışdır. Təkcə 2017-ci ildə pomidor ixracından 151 milyon dollar gəlirin əldə edilməsi, sözügedən sahəyə maliyyə vəsaiti ayrılmasının düzgün qərar olduğunu göstərir.

Son illər Azərbaycanda heyvandarlığın inkişafı istiqamətində də işlər sürətlənməkdədir. Xaricdən cins mal-qaranın alınması, modern üslublu komplekslərin yaradılması, süni mayalanma yolu ilə alınan hər buzova görə dövlət tərəfindən verilən 100 manat həcmində subsidiya, eləcə də süd zavodlarının açılışı əhalinin süd və süd məhsulları ilə təminatında mühüm rol oynayıb. Ərzaq təhlükəsizliyində ət və quş əti istehsalı da mühüm yer tutur. Artıq bu sahədə ixrac üçün əlverişli şərait yaranıb. Son iki ildə quş ətinin ixracı artıb. Ölkəmiz adıçəkilən sahələr üzrə özünü 100% təmin edir. 2017-ci ildə ölkə üzrə 540,5 min ton, yaxud əvvəlki ilə nisbətən 3,2 faiz çox diri çəkidə ət, 2024,1 min ton süd, 1714,0 milyon ədəd yumurta istehsal olunmuşdur [3].

Azərbaycanda aqrar sektorun inkişafı əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməyə imkan verir və mütəxəssislərə görə ərzaq təhlükəsizliyinin təmin olunması baxımından orta səviyyədə qiymətləndirilir. Azərbaycan kənd təsərrüfatının inkişafı perspektivinə görə böyük potensiala malik ölkələrdən hesab olunur. Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi "Azərbaycan—2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulmuşdur.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı Bakı şəhəri, 2 mart 2001-ci il.

2. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı 2008-2015-ci illər, Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il sərəncamı

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı: http://www.stat.gov.az

4. İbrahimov İ. Aqrar iqtisadiyyat. 2016, səh 655

AYGÜN İSLAM QIZI İSMAYILOVA
Mingəçevir Dövlət Universiteti

# AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMININ FƏAL IŞTIRAKÇISINA ÇEVRILMƏSI PROSESI

Açar sözlər: Ümumqafqaz evi, süpergüclər,
Sülh naminə əməkdaşlıq

Məlum olduğu kimi, Azərbaycan öz müstəqilliyinə bir sıra kəskin problemlə birgə qədəm qoymuşdur. Bir tərəfdən Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları, Azərbaycan ərazisində tüğyan edən erməni separatizmi, digər tərəfdən daxili siyasi qeyri-sabitlik xarici siyasi kursun dəqiq müəyyənləşdirilməsinə mane olurdu. Bütün bunların reallaşdırılması üçün isə böyük əzm və siyasi iradə tələb olunurdu. Ölkənin cəlbedici zəngin karbohidrogen ehtiyatları xarici siyasi kursu müəyyənləşdirərkən daha diqqətli olmağı tələb edirdi.

Belə ki, dünyanın supergüclərinin böyük, barışmaz maraqlarının kəsişdiyi Azərbaycan üçün, mövcud beynəlxalq münasibətlərdə öz milli maraqlarından çıxış edərək iştirak etməsi olduqca böyük siyasi təcrübə və iradə tələb edirdi. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası istər- istəməz beynəlxalq proseslərin iştirakçısına çevrilməli idi və ləng də olsa müstəqilliyimizin ilk illərində bu proses gedirdi. Qurulan diplomatik münasibətlər nəticəsində Azərbaycan Respublikasının dünya ictimaiyyətinə inteqrasiyası üçün kanallar açıldı. Lakin bütün bunlar Azərbaycan Respublikasına beynəlxalq münasibətlərin, öz milli maraqlarından çıxış edəcək və bu maraqları qoruyacaq bir iştirakçsına çevrilməsi üçün kifayət etmirdi. 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə qayıdışı bu sahədə əsaslı dəyişikliklər yaratdı. Belə ki, məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasətinin prioritetləri müəyyənləşdi, ölkənin xarici siyasi konsepsiyası formalaşdı. Heydər Əliyevin əzmkarlığı və siyasi iradəsi nəticəsində 1994-cü ilin senyabrında "Əsrin müqaviləsi" imzalandı. Bu həm Azərbaycan iqtisadiyyatında, həm də diplomatiyasında çox mühüm bir hadisə idi [

Həsənov, 2003, 30-31]. Belə ki, bu müqavilə Azərbaycan Respublikasının dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələri üçün böyük impuls rolunu oynadı, Azərbaycanın beynəlxalq münasibətlər sistemində önəmini nəzərəçarpacaq dərəcədə artırdı. Beləliklə, Azərbaycan Respublikasının beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilməsi prosesi başladı. Ərazisinin 20%-i Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan xarici siyasi strategiyasını müəyyənləşdirərkən bu məsələyə böyük önəm vermişdir. Belə ki, ölkəmiz iştirak etdiyi istənilən beynəlxalq siyasi proseslərdə digər məsələrlə yanaşı, erməni işğalı faktını da daim qabardır. Ermənistanın işğalçılıq siyasəti dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Ümummilli lider Heydər Əliyev dünya dövlətləri ilə əməkdaşlığa imza atarkən bu məsələni həmişə önə çəkmişdir. O, Ermənistana real təsiretmə imkanları olan ölkələrlə münasibətlərin qurulmasına xüsusi əhəmiyyət vermişdir. Məsələn, məlumdur ki, Fransa öz xarici siyasətində ermənipərəst xətti ilə daim seçilmişdir. Bunu diqqətə alan Ulu Öndər prezident kimi xarici ölkələrə ilk səfərini məhz Fransadan başlamışdır. Bu, çox müdrik bir siyasi gediş idi. Bununla, Heydər Əliyev Fransanın qismən də olsa Azərbaycanın mövqelərini dəstəkləməsinə nail olmaq istəyirdi. Bu da öz bəhrəsini vermişdir. Belə ki, Fransanın o vaxtkı prezidenti Fransua Mitteran Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və dəstəklədiyini bəyan etmişdir. Təzəcə müstəqillik əldə etmiş Azərbaycan Respublikası ABŞ, Rusiya, İngiltərə və s, ölkələrlə uğurlu diplomatik münasibətlər formalaşdıra bilmişdir. Rusiya ilə ikitərəfli münasibətlərin formalaşdırılması da müstəqillik yolu ilə addımlayan gənc Azərbaycan Respublikası üçün daha önəmli idi. Sözsüz ki, uzun illər Rusiya imperiyasının nəzarəti altında mövcud olmuş Azərbaycan üçün bərabərhüquqlu tərəfdaş kimi çıxış etmək asan deyildi. Lakin regionda böyük təsir imkanlarına malik olan bu dövlətlə çoxşaxəli əlaqələrin qurulması ölkəmiz üçün önəmli idi [ Mehdiyev,2005,460-462].

Bütün bunları böyük uzaqgörənliklə dərk edən ümummilli lider Heydər Əliyev ən müxtəlif elementləri nəzərə alaraq Rusiya-Azərbaycan münasibətlərinin qurulması istiqamətində önəmli addımlar atmışdır. Bu baxımdan, Heydər Əliyevin 1993-cü ilin sentyabrında Moskva səfəri çox əhəmiyyətli idi. Bu səfər zamanı Rusiya dövlət başçısı ilə Azərbaycanla Rusiya arasında səmərəli münasibətlərin qurulması istiqamətində önəmli

danışıqlar aparmışdır. Bu səfərdən bir az sonra, yəni senyabrın 24-də Azərbaycan MDB-yə daxil oldu. Bu həmin dövr üçün çox vacib idi. Belə ki, uzun zaman postsovet ölkələri ilə iqtisadi, mədəni bağlılıq şəraitində yaşamaq bu yaxınlaşmanı tələb edirdi. Birdən-birə bütün bağların qırılması yenicə müstəqilliyə qədəm qoymuş ölkəyə yaxşı heç nə vəd etmirdi. MDB çərçivəsində Azərbaycan postsovet ölkələri ilə yaranmış yeni geosiyasi vəziyyətin tələblərinə uyğun olaraq münasibətlər formalaşdırmışdır. Belə ki, sovetlər birliyi çökdükdən sonra Azərbaycanın qonşu Gürcüstan, Belarusiya, Türkmənistan ilə münasibətləri nisbətən gərgin idi. Bu ölkələrlə xoşmünasibətlərin formalaşdırılması Azərbaycanın o vaxtkı xarici siyasi kursunun əsas istiqamətlərindən idi. Azərbaycan Respublikası öz xarici siyasi kursunu gerçəkləşdirərkən Qafqazdakı durumun stabilləşdirilməsi məsələsinə də böyük önəm verirdi. Məhz Azərbaycan prezidenti Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi nəticəsində 1994-cü ilin mart ayında təcavüzkar Ermənistanla atəşkəs haqqında razılaşma imzalandı. Bu razılaşma nəinki region üçün, bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün çox faydalı oldu. Belə ki, bu razılaşmanın əldə olunmasından sonra Avropanın enerji təhlükəsizliyinin qarantı olan Bakı-Tiflis-Ceyhan əsas neft ixrac layihəsinin həyata keçirilməsinə start verildi. Atəşkəslə yanaşı, həmin dövrdə Gürcüstanla dostluq münasibətlərinin formalaşdırılması Azərbaycan xarici siyasətinin böyük nailiyyətlərindən idi. Bununla da, ümummilli lider regionda sülhə və sabitliyə xidmət edəcək "Ümumqafqaz evinin" yaradılması ideyasını siyasi müstəviyə gətirmişdir. Lakin məlum səbəblər üzündən bu humanist ideyanın reallaşması mümkün olmadı [Abdullayev, 2000, 450-451].

Bu baxımdan, 1998-ci ilin sentyabrında Bakıda keçirilən beynəlxalq konfrans çox əhəmiyyətli idi. Bu layihə çərçivəsində əməkdaşlıq da Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyası prosesinə böyük təkan vermişdir. "Böyük ipəkyolunun" bərpası istiqamətində təşəbbüslər bir daha ondan xəbər verir ki, Azərbaycan Qərblə Şərq arasında önəmli bir körpü rolunu oynayır. Bu layihədə Azərbaycan Respublikasının əsas subyekt kimi qiymətləndirilməsi ölkəmizə həm iqtisadi, həm də siyasi dividentlər gətirir.

Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa böyük

əhəmiyyət verir. Bunu Azərbaycan Respublikasının 1994-cü ildə NATO-nun "Sülh naminə əməkdaşlıq" proqramına qoşulması da sübut edir. Bu proqrama qoşulmaqla Azərbaycan dünyanın iri dövlətləri ilə daha yaxından və səmərəli münasibətlər qurmağa nail olmuşdur. Bu həm də ondan xəbər verir ki, Ermənistandan fərqli olaraq Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin qorunması istiqamətində bütün mümkün vasitələrdən yararlanır. Müsəqilliyini qazandıqdan sonra, Azərbaycan inkişaf etmiş ölkələrin təcrübəsinə istinad edərək, demokratik cəmiyyətdə azad iqtisadi münasibətlər quruculuğu yolunu seçmişdir. Bu yolu seçməsində əlbəttə ki, dünya ictimaiyyətinə uğurlu inteqrasiya əsaslı rol oynamışdır. Azərbaycan beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirərkən dünyada yaranmış mürəkkəb beynəlxalq və regional vəziyyətin bütün elementlərini nəzərə alır. Bu vəziyyət əsasən ondan ibarətdir ki, istər Azərbaycanın yerləşdiyi coğrafi məkanda, istərsə də digər müsətvilərdə dünyanın supergücləri barışmaz maraqlara malikdirlər. Həmçinin Azərbaycan regional və dövlətlərarası münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edilməsi prinsipindən çıxış edir. Bundan başqa, Azərbaycan xarici siyasətini reallaşdırarkən etibarlı iqtisadi təfərdaşlıq məsələlərinə böyük diqqət yetirir. Azərbaycan Respublikasının beynəlxalq siyasi proseslərinin nüfuzlu iştirakçısına çevrilməsi prosesində diqqəti cəlb edən digər bir məqam da vardır. Belə ki, artıq yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası dünya dövlətlərinin maraqları arasında uğurla manevr edərək balanslaşdırma siyasətini həyata keçirir. Bu da Azərbaycana beynəlxalq və regional səviyyədə səmərəli əməkdaşlıq etməyə imkan verir. Azərbaycan Respublikası bu gün beynəlxalq müstəvidə kifayət qədər nüfuza malik olan müstəqil bir iştirakçıdır. Həyata keçirilən regional enerji layihələrinin demək olar ki, hamısı Azərbaycanın yaxından iştirakı ilə baş tutur. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin fəal və əsas iştirakçılarındandır.

Ədəbiyyat siyahısı::

1. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə. 1945-2000-ci illər). Bakı: 2000, 750 s.

2. Beynəlxalq Müqavilələr Toplusu. Bakı: «Azərbaycan» nəşriyyatı, 1998, 269 s.

3. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik – Bakı: «Azərbaycan» nəşriyyatı, 2005, 752 s.

4. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Heydər Əliyev və müasir Azərbaycan. Bakı: 2003, s. 29-52.

5. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: 2005, 463 s

AYGÜN NIZAMI QIZI SOLTANZADƏ
Azərbaycan Dillər Universiteti

# TÜRKIYƏ ILƏ QAZAXISTAN ARASINDAKI MƏDƏNI ƏLAQƏLƏRDƏ ZIDDIYYƏTLI MƏQAMLAR

Açar sözlər: Türkiyə, Qazaxıstan, təhsil, mədəniyyət

Türkiyənin Qazaxıstanın müstəqilliyini tanıyan ilk ölkə olması və bunun qazaxıstanlılar tərəfindən heç vaxt unudulmayacaq olması türklərin düşüncəsində müsbət bir rəy yaratmışdır. Yəni Qazaxıstanın müstəqilliyinin ilk olaraq Türkiyə tərəfindən tanınmasının, eyni dil və dinə aid olmalarının qazaxıstanlıların yaddaşında Türkiyəni müsbət şəkildə qəbul edilməsinə səbəb olmuşdu [Aydıngün, Tüfekçioğlu, 2012, 117-118]. Ancaq son dövrlərdə Qazaxıstanda qazaxların rəğbət bəslədikləri ölkəni müəyyənləşdirmək üçün keçirilən sorğuda Türkiyə on iki ölkə arasında yeddinci sırada yer aldı. 1991-ci ildən 25 il keçməsinə baxmayaraq qazaxıstanlılar arasında Türkiyənin və türklərin kafi səviyyədə tanınmaması və cəmiyyətlərarası əlaqələr və ünsiyyət nöqtəsində istənilən səviyyədə olmadığı aydın oldu [Akyürek və Bilgiç, 2012, 56-57]. Ancaq iki ölkə arasındakı tarixi bağlar, eyni dil və dinin mənimsənilməsi, Qazaxıstanın müstəqilliyindən sonra türkiyəli iş adamlarının burada işləməsi, turizm baxımından qazaxıstanlıların ən çox seçdiyi ölkənin Türkiyə olması, Türkiyənin təşəbbüsü ilə Qazaxıstanda açılan TİKA, Yunus Emre Türk Mədəniyyət Mərkəzi və Əhməd Yasevi Universiteti təhsil və mədəni əlaqələri artırmağı hədəfləyən layihələr həyata keçirməsi və Qazaxıstan ictimaiyyətin Türkiyəni müsbət şəkildə qəbul etməsi Qazaxıstan - Türkiyə əlaqələrinin inkişafında mühüm rol oynayır [Yılmaz, 2017, 823].

Sovetlər Birliyi dövründə Türkiyədə ölkə xaricindəki türklərdən daha az bəhs edildiyi halda, SSRİ parçalandıqdan sonra, N. Nazarbayevin də dediyi kimi, XXI əsrin türk əsri olacağından və Adriatik dənizindən Çin Səddinə qədər Türk dünyasından bəhs edilməyə başlandı. Qazaxıstan, mədəni və tarixi bir keçmişi paylaşdığı Türkiyənin ona verdiyi dəstəkdən

olduqca məmnun olmuş və xalqların ortaq məxrəcə gəlmələri üçün Türkiyəyə istiqamətləndiyini elan etmişdir [Bal, 2001, 24].

Müstəqillik illərində iki ölkə arasında başlayan "Böyük Tələbə Layihəsi" təhsil siyasəti hesab edilsə də, mədəni əlaqələrin inkişafında əsas rol oynamışdır. Məsələn, 2009-cu ildə bu layihə çərçivəsində məzunlar üçün təşkil edilən mərasimində Orta Şərq Texniki Universitetini bitirən qazaxıstanlı tələbə Oljas Sartayev çıxışı zamanı məzun olan tələbələr adından aşağıdakı açıqlamalar verərək mədəni uğurlarını izah etmişdi: "Türkiyədə aldığımız təhsil bizlərə yeni üfüqlər açmışdır. Həyata baxış bucağımızı dəyişdi. Türk mədəniyyətini sevən bir insan olaraq ölkəmə qayıdıram". 2013-ci ilin sonuna qədər bu layihədən faydalanaraq Türkiyədə oxuyan qazaxıstanlı tələbələrin sayı 518 nəfər olmuşdur. Ümumilikdə Türkiyədə təhsil alan 4000 qazaxıstanlı tələbədən 1050 tələbə məzun olmuşdu . Başqa sözlə, qazaxıstanlı tələbələr üçün orta məzunluq dərəcəsi aşağı idi. 2016-ci ildə isə Türkiyədə müxtəlif universitetlərdə 1980 qazaxıstanlı təhsil almışdı [Yılmaz, 2017, 825]. Tələbələrin ölkə və təhsil sistemi ilə uyğunlaşma problemi, dili yetərli səviyyədə öyrənə bilmədikləri üçün bu maneəni keçə bilməmələri və təqaüd haqlarının olmaması, tibbi sığortanın azlığı və ixtisaslı məsləhətçilərin olmaması tələbələrin məzun ola bilməmələrinin əsas səbəbləridir. Bu işin Türkiyədə davamlılığını və keyfiyyətini təmin etmək üçün Türkiyə Yüksək Təhsil Təşkilatı bir layihə irəli sürdü. Bu layihədə konkret vəzifələr qeyd olunmuşdu. Layihə "məzun tələbələrlə münasibətləri davam etdirməyi" nəzərdə tuturdu.

Təhsilin mədəni dəyərlərə verdiyi töhfəyə əsaslanaraq, Qazaxıstanın Türküstan şəhərində fəaliyyət göstərən Əhməd Yasevi Universitetinin iki ölkə arasındakı münasibətlərə verdiyi töhfədən bəhs etmək vacibdir. Bu universitetin mövcudluğu iki ölkə arasındakı mədəni əlaqələrin inkişafına böyük töhfə verilmişdir. Bu universitetdə oxuyan türk və qazax tələbələr hər iki ölkənin mədəniyyətini və dilini öyrənir və bunu təbliğ edirlər [Yılmaz, 2016, 191]. Əslində tələbələrin əksəriyyəti Türküstan şəhərinin kəndlərinin sakinləridir, xarici tələbələrin sayı azdır və buna görə universitetin səviyyəsi və səmərəliliyi aşağıdır. Universitet Türküstan şəhərində yerləşdiyindən, Almatı və Astana kimi böyük şəhərlərdən olan tələbəsi yoxdur.

"TRT Avaz" televiziya kanalı türk xalqları arasında mədəni əlaqələri inkişaf etdirmək məqsədi ilə yaradılmışdı. Türkiyə büdcəsindən maliyyələşdirilən bu kanal tarix, mədəniyyət və təhsil sahəsinə aid proqramlar, sənədli filmlər hazırlayaraq yayımlayır. "TRT Avaz"ın ən böyük problemi ümumilikdə türk dünyasına müraciət edə bilməməsidir. Bu kanal konkret coğrafiyada çox məhdud sayda insana, əsasən Türkiyə sakinlərinə xidmət edir, başqa sözlə türk mədəniyyətini Türkiyədə yaşayan xalqlara çatdırır [Yılmaz, 2017, 825-826].

Qazaxıstanda yaşayan insanlar "Atayurddan anayurda", "Turandakılar", "Ataməkan" və "Türk Dünyasından İzlər" kimi, Qazaxıstan və onun tarixi ilə bağlı proqramlara baxa bilməməsi və ya "TRT Avaz" kanalının varlığından xəbərdar olmaması məyusluq yaradır. "TRT Avaz" kanalının açılış mərasimində prezident Abdullah Gül demişdi: "TRT Avaz bütün Türk dünyasına səslənəcəkdir". Ancaq bu, baş vermədi. Qazaxıstanda aparılan araşdırmalarda və ya mətbuatda "TRT Avaz" haqqında məlumat yoxdur. Ortada tanıtma və tanıma probleminin olduğu aydındır.

Ədəbiyyat siyahısı

1. Aydıngün A. , Tüfekçioğlu H. Avrasya'nın Merkezinden Dünyaya
Açılan Ülke: Kazakistan, Bağımsızlıklarının Yirminci Yılında Orta Asya
Cumhuriyetleri Türk Dilli Halklar-Türkiye ile İlişkileri (Der), Ayşegül
Aydıngün-Çiğdem Balım, Atatürk Kültür Merkezi Yay., Ankara, 2012, s. 117-118
2. Akyürek S. , Bilgiç M. Sadi. Kazakistan'da Türkiye ve Türk Algısı,
BİLGESAM, 2012, Rapor No: 44, s. 1-78. / http://www.bilgesam.org/
3. Bal İ. Türk Cumhuriyetlerinde Milletleşme Süreci ve İç ve Dış Politikaya
Etkisi, Avrasya Etüdleri, 2001, Sayı: 20 (Özel), s. 21-36
4. Yılmaz S. Kazakistan'ın Türkiye Politikası: İç Yapı, Söylem, Dış Politika ve Lider etkeni, Nobel Yayıncılık, 2016, Ankara.

5. Yılmaz S. Kazakistan-Türkiye Ekonomik ve Kültürel İlişkileri: Vaatler
ve Gerçekler, İnsan ve toplum bilimleri araştırmaları dergisi
Cilt: 6, Sayı: 2, 2017 , s. 813-834

AYNUR RAUF QIZI ƏZIMZADƏ
AMEA-nın Qafqazşünaslıq İnstitutu

ERMƏNISTANIN TƏHSIL SISTEMINDƏ GENDER MƏSƏLƏSI

Açar söz: Ermənistan, gender problemi, orta təhsil, ali təhsil

Ermənistanda ali təhsil sistemini iki əsas qanun tənzimləyir: Təhsil haqqında Qanun (1999) və Yekun və Yüksək Səviyyəli Təhsil haqqında Qanun (2004). Ermənistan regionun digər ölkələri ilə müqayisədə təhsilə daha az vəsait ayırır. Yəni, Ermənistan hakimiyyəti təhsil sahəsinə yatırım etməyi lüzumlu bir faktor kimi görmür. Bu, Ermənistanın ali təhsil sisteminin böhranla üzləşməsi ilə nəticələnir ki, bunu da ali təhsil sahəsində yaranmış problemlər əyani şəkildə göstərir. Bütün bunlar isə aşağıdakı kimi xarakterizə edilir:

- siyasi rejimin şişirdilmiş nəzarəti;
- islahatların orijinal proqramının olmaması;
- geniş yayılmış korrupsiya;
- keyfiyyət standartlarının davamlı olaraq azaldılması;
- gənc istedadların kütləvi miqrasiyası.

Sovet dövründə Ermənistanda ali təhsil sistemi normal təşkil olunmuş və maliyyələşdirilmişdir. Sonrakı illərdə ölkədəki sosial, iqtisadi və siyasi dəyişikliklər ali təhsil sisteminə ciddi təsir göstərmişdir. Bu dəyişiklik özünü əsasən özünüidarəetmə sahəsində göstərmişdir. Ermənistanın dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsaitin azlığı, hökumət tərəfindən təhsil sisteminin lazımi səviyyədə dəstəklənməməsi təhsildə müxtəlif problemlər və qeyri-müəyyənlik yaratmışdır. Səbəb isə ölkənin bazar iqtisadiyyatına keçməsindən sonra universitetlər mövcudluqlarını çətinliklə qoruya bilirlər [2]. Yəni, universitetlər artıq maliyyə cəhətdən hökumətə güvənə bilmir və təhsil müəssisəsinin rəhbərləri müxtəlif gəlir mənbələrinə - tələbələrin illik təhsil haqqı ödənişlərinə, universitet mülkiyyətinə, yerli və xarici biznes və yardım təşkilatlarına müraciət edirlər.

Təhsildə gender məsələsi isə müasir dövrdə Ermənistan təhsilinin ən problemli mövzularından biridir. Dünyada müasir dövrün tələblərindən

irəli gələn inkişafa baxmayaraq, gender fərqləri Ermənistanda davam edir. Bu isə əmək bazarında və gündəlik həyatda qadınlara münasibətdə ayrı-seçkilikdə öz əksini tapır. İdarəetmə və sahibkarlıq sahələri də daxil olmaqla, özəl sektorda qadınlar azlıq təşkil edir. Ali təhsil sahəsində qadınlar və kişilər müxtəlif istiqamətlərdə və tədqiqat sahələrində ixtisaslaşırlar. Qadınlar ictimai elmlər, təhsil, tibb sahələrinə, kişilər isə texniki sahələrə üstünlük verirlər.

Ermənistanda qadınların məktəbə qəbulu və təhsil alması haqqında məlumatlar onların yüksək təhsil almaq imkanından uzaq olduğunu göstərir. Xüsusilə, 2009-cu ildə qızların məktəbə qeydə alınma səviyyəsi çox aşağı idi [3]. Bunun müxtəlif səbəbləri vardır. Ermənistanda bir çox ucqar rayonlarda məktəblər olmur və uşaqlar məktəbə getmək üçün 7 kilometrədək yol qət edirlər. Bu, vəhşi heyvanların uşaqlara hücum edə biləcəkləri qış aylarında son dərəcə təhlükəli olduğu üçün qızların məktəbə getməsi valideyinlər tərəfindən məsləhət görülmür.

Yoxsulluq və uşaqdan işçi qüvvəsi kimi istifadə olunması qızların məktəbdən yarımçıq çıxarılmasının əsas səbəblərindən biridir. Bununla yanaşı, qızların erkən yaşlarda ərə verilməsi, bundan sonra onların məktəbə buraxılmaması təhsildə qızlara qarşı mövcud olan ayrı-seçkiliyin göstəricisidir. Etnik azlıqlardan olan qızlara münasibətdə ayrı-seçkilik daha güclüdür. Məsələn, yezidi və kürd icmaları arasında qızları erkən yaşda və zorla ərə vermək üçün onlara güclü təzyiqlər edilir. Ənənəvi və dini stereotiplər qızların 13-16 yaşları arasında ərə getməsini tələb edir. 18 yaşlı və daha böyük qızlar digər azyaşlı qızlardan kənarda qalır, "yaşlı" və ya "qocalmış" sayılırlar, bu da qızların məktəbdən ayrılmasına və erkən yaşda ailə qurmasına səbəb olur. Ermənistan Yezidi Milli Birliyinin sədri Əziz Tamanonun sözlərinə görə, orta məktəbdən çox az sayda qız məzun ola bilir, çünki bir qayda olaraq, nişanlanandan və ya erkən nigahdan sonra qızlar məktəbdən kənarda qalırlar [3].

Ali təhsilə marağın az olmasının digər bir səbəbi isə qadınlar arasında işsizlik səviyyəsinin yüksəkliyi və universiteti bitirən qadınların iş tapma ehtimalının çox aşağı olmasıdır. Ermənistanın Milli Statistika Xidmətinin 2017-ci il üçün verdiyi məlumatlara görə, Ermənistanda 76,624 nəfər rəsmi qeydiyyatdan keçmiş işsiz olmuşdur, onlardan 50,593 nəfəri, yəni 60 %-dən çoxu qadındır. 2018-ci ildə verilən məlumatlara görə, 25 yaşdan yuxarı

olan erməni qadınların 17,3 faizi iş tapa bilmir. Yerevan Dövlət Universitetinin müəllimi Ani Kojoyan "Azatutyun.am" saytına müsahibəsində bildirib: "Ermənistanda qadınların hüquqlarının qorunmasına kömək edəcək bir mühit yoxdur. Qanunvericilikdə bu məsələ ilə bağlı heç bir problem yaşanmır, lakin kağız üzərində yazılan və tətbiq olunan arasında böyük fərqlər var". Digər bir problem isə, Ermənistanda qadınların orta aylıq əmək haqqıdır ki, iqtisadiyyatın bütün sahələrində kişilərə nisbətən qadınların əmək haqqı daha azdır və kişi işəgötürənlərin sayı qadın işəgötürənlərin sayından 4 dəfə çoxdur [4].

Bu göstəricilərə əsasən demək olar ki, Ermənistanda orta məktəb sahəsində gender problemləri olduğu kimi, ali təhsil sahəsində də qadınların azlığı höküm sürür. Ermənistan Respublikası ölkə daxilindəki gender problemlərini həll etmək üçün qərarlar qəbul etsə də, bu qərarlar kağız üzərində qalır.

Ədəbiyyat siyahısı:

1. Armenia country gender assessment, 2016 : the state of gender equality in Armenia, 01.03.2017
2. http://oc-media.org/armenias-higher-education-in-crisis/ Armenia's higher education in crisis //09.11.2017
3. http://www.campaignforeducation.org/docs/reports/GCE_INTERIM_Gender_Report.pdf Gender Discrimination in Education: The violation of rights of women and girls // 02.2012
4. https://www.azatutyun.am/a/29089151.html // Armenia has highest female unemployment rate among post-Soviet countries // 08.09.2019

AYNUR MƏHƏMMƏD QIZI NAMAZOVA
Mingəçevir Dövlət Universiteti

# İQTISADIYYATIN INKIŞAFINDA INVESTISIYALARIN IDARƏ EDILMƏSININ TƏKMILLƏŞDIRILMƏSI MEXANIZMI

Açar sözlər: investisiya, elmi-texniki tərəqqi, iqtisadi artım, infrastruktur, innovasiya

Müasir şəraitdə cəmiyyətin artmaqda olan sosial-iqtisadi təlabatını ödəmək üçün mövcud istehsal potensialından tam və səmərəli istifadə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi və bu kimi yenilikləri həyata keçirmək investisiya qoyuluşlarını zəruri edir.

İnvestisiya həm mikro, həm də makro səviyyədə iqtisadi artımın təminatçısıdır. Daxili və xarici investisiyalar ölkədə həyata keçirilən struktur dəyişikliklərinin, ETT-nin sürətləndirilməsinin, təsərrüfat fəaliyyətinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasının iqtisadi bazasını təşkil edir. Ölkədə həyata keçirilən iqtisadi islahatlar, sosial-iqtisadi dəyişikliklər, infrastruktur sahələrinin inkişafı bilavasitə investisiyaların aktivliyi ilə bağlıdır.

İqtisadiyyatın hər hansı bir sahəsinə investisiya qoyulması ölkədə olan mövcud investisiya mühitindən asılıdır. İnvestisiya mühiti sosial-iqtisadi, siyasi, hüquqi və digər amillərdən asılıdır. Xarici investorlar ölkəyə investisiya yatırımaqdan əvvəl bütün bu amilləri hərtərəfli təhlil edir, bundan sonra investisiya yatırımları haqqında qərar verirlər. Azərbaycan Respublikasında investisiya mühitini yaxşılaşdırmaq üçün "Xarici investisiyanın qorunması haqqında" 1992-ci ildə, "İnvestisiya fəaliyyəti haqqında" 1995-ci ildə qanunlar qəbul olunmuşdur. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması üçün vergi və gömrük qanunvericiliyində bir çox yeniliklər tətbiq edilmişdir ki, bu da xarici investorların ölkəyə cəlb olunmasına təminat verir. Hazırda ölkəmizdə kifayət qədər cəlbedici investisiya mühiti formalaşmışdır. Qeyd etmək olar ki, Azərbaycan iqtisadiyyatına 2004-2018 illərdə 260 mlrd. ABŞ dolları məbləğində investisiya yatırılıb. Qoyulan investisiyaların təxminən yarısını xarici sərmayə təşkil edir. İnvestisiyaların 60%-i qeyri-neft sektorunun inkişafına yönəldilib [1].

Müasir investisiya siyasətinin əsasını iqtisadiyyatın neftdən aslıllığını azaltmaq və neftdən gələn gəlirləri investisiya şəklində qeyri-neft sektoruna yatırmaq təşkil edir. Bunun üçün isə mövcud istehsal obyektlərinə innovasiyalı investisiyaları yönəltməklə, onların istehsal gücünü artırmaq və elmi texniki tərəqqinin son nailiyyətlərini tətbiq etməklə yeni istehsal müəssisələri yaratmaq lazımdır.

Azərbaycanın zəngin təbii-iqtisadi potensiala və əlverişli coğrafi-nəqliyyat mövqeyinə malik olması xarici investorların ölkəmizə cəlb edilməsində böyük rol oynayır. Ölkəmiz digər ölkələrlə əlaqə yaratmaq üçün beynəlxalq əməliyyat və nəqliyyat şəbəkələrinə malikdir. Bu isə xarici intensiv əlaqələr yaratmaq imkanını asanlaşdırır.

İqtisadiyyatın inkişafı üçün özəl investisiyaların cəlb edilməsi, biznes mühitinin yaxşılaşdırılması biznes və ev təsərrüfatlarının yığımlarının investisiya şəklində iqtisadiyyatın inkişafına yönəldilməsinə imkan verə bilər [2].

İnvestorlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, investisiyaların cəlb olunması, qorunması və onların təşviqinə yönələn qanunvericilik aktlarının təkmilləşdirilməsi, ikitərəfli müqavilə hüquqi bazanın genişlənməsi, investorlara "vahid pəncərə" pirinsipi əsasında göstərilən xidmət növlərinin genişləndirilməsi ölkə iqtisadiyyatına investisiya qoyuluşunun artmasına şərait yaradır.

Son illər ərzində ölkəmiz iqtisadiyyatın bütün sahələrində böyük uğurlara imza atmışdır. Azərbaycanın maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısına çevrilməsi, müasir tələblərə cavab verən infrastukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması Azərbaycanın dünya ölkələri arasında nüfuzunun daha da artmasına səbəb olmuşdur. Bu isə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə, əhalinin həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılmasına gətirib çıxarmışdır.

Ədəbiyyat siyahısı::

1. https://azertag.az/xeber
2. http://iqtisadiislahat.org

AYSEL MÖHÜBBƏT QIZI BAĞIROVA
Azərbaycan Dillər Universiteti

# NÜVƏ SILAHININ YAYILMASINA QARŞI BEYNƏLXALQ MÜBARIZƏ

Açar sözlər: kütləvi qırğın silahı, nüvə silahı, nüvə silahının yayılmaması müqaviləsi, nüvə silahından azad zonalar

Kütləvi qırğın silahlarından (KQS) istifadə genişmiqyaslı insan tələfatına və məhvinə gətirib çıxarır. Bu baxımdan, KQS-nin yayılmaması problemi beynəlxalq münasibətlərin aktual məsələlərindəndir. KQS-nin yayılmaması rejimi dedikdə nüvə, kimyəvi, bakterioloji silahların, KQS-nin çatdırılma vasitələrinin yayılmaması və KQS-nin fiziki mühafizəsi nəzərdə tutulur. Bura eyni zamanda KQS-nin raket vasitəsilə çatdırılmasına nəzarət sistemləri də daxildir. KQS-nin yayılmamasında ilkin məsələ bu silahların belə silahlara malik olmayan dövlətlərin əlinə keçməsinin qarşısını almaq olsa da, son dövrlərdə KQS-nin qeyri-dövlət aktorlarının, xüsusilə də terrorçu qrupların əlinə keçmə təhlükəsi onların yayılmaması rejiminin əhəmiyyətini daha da artırır.

Kütləvi qırğın silahları içərisində nüvə silahı hazırlanma prosesinə görə daha çox maliyyə tələb edən, güclü dağıdıcı təsirə malik və törədə biləcəyi nəticəyə görə çox təhlükəli silah növüdür. Nüvə silahının güc balansını saxlamaq, təsir imkanı yaratmaq məqsədilə əldə edilməsinə daha çox can atılır. Öncə ABŞ, daha sonra SSRİ, zaman keçdikcə isə Böyük Britaniya, Fransa, ÇXR kimi dövlətlərin nüvə silahı əldə etmələri dünyanı VI nəsil - nüvə müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdur. Bu təhlükənin qarşısını almaq məqsədilə dövlətlər nüvə silahının yayılmaması üçün birgə fəaliyyətə başlayaraq, "Nüvə silahının yayılmaması müqavilə"sini, bir sıra ikitərəfli və çoxtərəfli müqavilələri ərsəyə gətirmişlər, həmçinin, nüvədən azad zonalar yaratmışlar.

Nüvə silahının yayılmaması rejimi dedikdə nüvə və qeyri-nüvə statuslu dövlətlərin iştirak etdiyi təşkilatlar, iştirakçı dövlətlərin daxili qanunvericiliyi (1967-ci ilə kimi nüvə silahına malik olmayan dövlətlərin gələcəkdə nüvə silahına sahib olmasının qarşısını almaq üçün) və beynəlxalq müqavilələrin cəmi nəzərdə tutulur.

1945-ci ildə ABŞ Yaponiyaya qarşı nüvə silahından istifadə etmişdi. Bu, onu göstərdi ki, nüvə silahının yayılmaması istiqamətində mühüm tədbirlər həyata keçirmək lazımdır. ABŞ-dan sonra 1949-cu ildə SSRİ, 1952-ci ildə Böyük Britaniya, 1960-cı ildə Fransa və 1964-cü ildə ÇXR nüvə silahı sınağını həyata keçirdilər. Dövlətlərin nüvə silahı əldə etmək məqsədilə apardıqları rəqabət dünyanın gələcək taleyini sual altında qoydu. Geniş sənayə və elmi bazaya malik dövlətlər nüvə texnologiyasından həm hərbi məqsədlər, həm də nüvə energetikasının inkişafı məqsədilə istifadə edirlər. Nüvə silahının yayılmaması məsələsinə maraq göstərən ilk dövlətlər məhz nüvə silahına malik dövlətlər olmuşdur. 1950-60-cı illərdə dünyada nüvə silahının yayılmaması istiqamətində bir sıra uğurlu addımlar atıldı. 1957-ci ildə ABŞ Prezidenti D.Eyzenhauerin "Sülh üçün atom" təşəbbüsü əsasında Beynəlxalq Atom Enerji Agentliyi fəaliyyətə başladı. 1960-cı illərdən başlayaraq, beynəlxalq miqyasda nüvə silahının yayılmaması hərəkatı başladı. Bu hərəkata İrlandiya təşəbbüs göstərmişdi. 1961-ci ildə BMT Baş Assambleyası nüvə silahının yayılmaması haqqında müqavilə xarakterli "irland" qətnaməsini qəbul etdi. Növbəti mühüm hadisə 1965-ci il Cenevrə tərksilah konfransında nüvə silahının yayılmaması haqqında müqavilə (NSYM) layihəsinin hazırlanması oldu. 1968-ci il iyunun 12-də bu müqavilə BMT Baş Assambleyası tərəfindən təsdiqləndi və imzalanması üçün açıq elan edildi [1, s.107]. Müqavilədə nüvə silahına malik və malik olmayan dövlətlərin öhdəlikləri göstərilmişdir. IX maddəyə əsasən, 1967-ci ilin yanvarın 1-dək nüvə silahı istehsal edən və sınağını keçirən dövlət nüvə silahına malik dövlət adlanır. Bu müqaviləyə əsasən qanuni nüvə silahına malik dövlətlər ABŞ, Rusiya Federasiyası (SSRİ), Böyük Britaniya, Fransa və ÇXR hesab olunur [1, s.107]. 1990-cı illərin sonunda Hindistan və Pakistanın, 2006-cı ildə isə Şimali Koreyanın nüvə silahı əldə etmələrinə baxmayaraq, onlar qeyri-qanuni nüvə dövlətləri hesab olunur.

Nüvə silahının yayılmaması üzrə beynəlxalq miqyasda həyata keçirilən digər mühüm tədbirlərdən biri Nüvə Silahından Azad Zonaların yaradılmasıdır. Nüvə silahından azad zonaların yaradılması NSYM-nin VII maddəsində öz əksini tapmışdır [Кулагин, 2007, 108]. Latın Amerikasında, Sakit okeanın cənub hissəsində, Cənub-Şərqi Asiyada, Afrikada, Antraktidada yaradılan nüvədən azad zonalar və Ay və digər

səma cisimləri də daxil olmaqla, kosmik məkanda nüvə silahı istifadəsi və tədqiqində dövlətlərin fəaliyyət prinsipləri haqqında müqavilələr bu qəbildəndir.

Nüvə silahının yayılmaması istiqamətində atılan addımlardan biri də nüvə silahı sınağını qadağan edən dövlətlərarası müqavilələrin imzalanmasıdır. 1963-cü ildə ABŞ, Böyük Britaniya və SSRİ nüvə silahı sınaqlarını qadağan edən müqavilə imzaladılar. Bu müqavilə nüvə silahı sınaqlarının atmosferdə, kosmosda və suyun altında keçirilməsini qadağan edirdi, lakin yerin altında sınaqların keçirilməsi davam etdirilirdi. Bu müqavilə İsrail, Pakistan, Cənubi Afrika, Argentina, Brazilya daxil olmaqla 116 ölkə tərəfindən imzalandı. Nüvə silahına malik iki böyük dövlət Çin və Fransa isə müqaviləyə qoşulmadılar [5].

1996-cı ildə ABŞ, Böyük Britaniya, MDB ölkələri və digər 90 ölkə tərəfindən imzalanmış nüvə silahı sınağının hərtərəfli qadağan edilməsi haqqında müqavilə hər növ nüvə silahının planetin hər yerində qadağan edilməsini nəzərdə tuturdu. Dövlətlərin bir qisminin müqaviləni təsdiqləməməsi onun reallaşdırılmasına mane olur [2].

KQS-nin yayılmaması sahəsində ən önəmli məsələlərdən biri də, bu növ silahların terrorçu qruplarının əlinə keçməməsi sahəsində görülən tədbirlərdir. Nüvə silahının terrorçu qrupların əlinə keçməməsi üçün 2005-ci ildə BMT Baş Assambleyası tərəfindən nüvə terrorizminin qadağan edilməsi haqqında beynəlxalq konvensiya qəbul edildi. Konvensiyanın məqsədi terror təhlükəsinə qarşı mübarizədə qlobal hüquqi çərçivəni inkişaf etdirməkdir. Müqavilə 2005-ci ilin sentyabrından qüvvəyə minmişdir. Konvensiyada nüvə terrorizmi aktları anlayışı öz əksini tapmışdır. Bu konvensiya dövlətlərin terror hücumları haqqında informasiyaları paylaşmaq və cinayətkarların araşdırılmasında və ekstradisiya prosedurlarında bir-birləri ilə qarışılıqlı fəaliyyətinə imkan yaradır [3].

Çoxtərəfli müqavilələrlə yanaşı, nüvə silahının yayılmaması sahəsində ikitərəfli müqavilələr də mövcuddur. 1987-ci ildə ABŞ və SSRİ arasında imzalanan orta mənzilli nüvə silahları haqqında saziş bu qəbildəndir. Sazişə uyğun olaraq, ABŞ tərəfindən 846, SSRİ tərəfindən 1846 orta mənzilli nüvə başlığı məhv edilmişdi [4].

1968-ci il iyunun 12-də "Nüvə silahının yayılmaması müqaviləsi" nin imzalanması, nüvə silahının yayılmaması, tətbiq edilməməsi haqqında dövlətlərarası ikitərəfli və çoxtərəfli müqavilə və sazişlərin mövcudluğu bu sahədə ümumi razılığın əldə olunması baxımından böyük əhəmiyyət daşıyır. Müasir beynəlxalq münasibətlərdə böyük dövlətlərin milli maraqlarının kəsişdiyi bir sıra səhələrdən fərqli olaraq, nüvə silahının yayılmaması sahəsində ümumi fikir, birgə mübarizə mövcuddur.

Ədəbiyyat siyahısı:

1. Кулагин В. М. Международная Безопасность. М.: Аспект Пресс, 2007, 318 с.
2. Comprehensive Test Ban Treaty (1996) // http://www. atomicarchive. com/Treaties/Treaty19.shtml
3. International Convention for the Suppression of Acts of Nuclear Terrorism (2005) // http://www.atomicarchive.com/Treaties/Treaty22.shtml
4. Intermediate-Range Nuclear Forces Treaty - INF (1987) // http://www.atomicarchive.com/Treaties/Treaty15.shtml
5. Limited Test Ban Treaty (1963) // http://www.atomicarchive. com/Treaties/Treaty3.shtml

AYSUN ƏDALƏT QIZI NOVRUZOVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCANIN XARICI SIYASƏTININ ƏSAS ISTIQAMƏTLƏRI

Açar söz: Azərbaycan dövlətçiliyi, Azərbaycanın xarici siyasəti, Beynəlxalq təşkilatlarla əməkdaşlıq

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəlib. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurub.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olub. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir. Bu gün Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşmasına, qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilir.

Azərbaycanın Qərb və Şərq sivilizasiyaları, eyni zamanda Şimal və Cənub arasında dəhliz rolunu oynaması onun əhəmiyyətini və nüfuzunu artırır. Əlbəttə ki, Azərbaycanın bu nailiyyətlərinin praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu hər kəsə bəllidir. Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli münasibətlərinə xüsusi əhəmiyyət verir [Əhmədov, 1998, 2].

Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlət olan və bugünədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində gücünü və nüfuzunu artıran mexanizm qismində çıxış etməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi sıçrayış dövrünü yaşayan Azərbaycan həm də dünya birliyinin fəal və nüfuzlu aktorlarından birinə çevrilib. Rəsmi Bakı Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Avropa İttifaqı, İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan Respublikası qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək, beynəlxalq münasibətlər sisteminin fəal üzvü imicini möhkəmləndirib. Elə həmin ildə Qoşulmamaq Hərəkatına daxil olmaqla Azərbaycan öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirib, Latın Amerikası və Afrika ölkələri ilə səmərəli əməkdaşlıq əlaqələri qurmağa başlayıb. Öz ölkələrinin maraqlarını müdafiə edən bir çox dövlətin səfirləri də Azərebaycanla olan dostluq və tərəfdaşlıq münasibətlərindən məmnundurlar [Qasımov, 1996, 4].

Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində rolu və yeri əvəzolunmazdır. Bütün bunlar isə ölkə daxilində aparılan uğurlu daxili siyasət hesabına baş verir. Çünki hər bir ölkənin daxili siyasəti, onun beynəlxalq aləmdəki güzgüsüdür. Azərbaycan dövləti iqtisadi, elmi-texniki və hərbi potensialına, geosiyasi və geoiqtisadi mövqeyinə uyğun olaraq beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutur, Cənubi Qafqaz regionunda isə ən böyük və qüdrətli dövlətdir. Bu gün regionda Azərbaycanın nəinki tərəfdar olmadığı, heç razılıq vermədiyi beynəlxalq iqtisadi layihələr də həyata vəsiqə ala bilmir. Bu, olduqca böyük uğurdur və hər bir vətəndaş bununla qürur duya bilər. Azərbaycanın bu qüdrətə çatmasında dövlət başçısı kimi İlham Əliyevin misilsiz xidmətləri var. Azərbaycanın iqtisadi və hərbi sahədə qüdrətlənməsi, beynəlxalq aləmdə

nüfuzunun artması, regionda söz sahibinə çevrilməsi bəzi böyük dövlətləri öz siyasətlərində korrektələr etməyə və Azərbaycanın milli maraqları ilə hesablaşmağa məcbur edir. Belə hal təbii ki, "güc mərkəzlərini", özlərini "strateji" müttəfiq adlandıran dövlətləri heç cür qane edə bilməz. Onlar Azərbaycana qarşı gizli fəaliyyətdədirlər. Bu fəaliyyətin də ana xətti ölkəmizi geridə qalmış dövlət kimi dünya ictimaiyyətinə təqdim etmək, iqtisadi və hərbi gücümüzü zəiflətməkdən ibarətdir. "Strateji" müttəfiqlərimizin Azərbaycana qarşı gizli siyasətini həyata keçirən qüvvələr isə əsasən müxtəlif beynəlxalq dövlətlərarası və qeyri-hökumət təşkilatlarıdır. Bu təşkilatların işi Azərbaycanda gedən prosesləri yalnız qara rəngdə görməkdən ibarətdir. Əlbəttə, dövlətimizdə hər şeyin əla səviyyədə olmasını heç kim iddia etmir. Xatasız insan olmadığı kimi, ideal dövlət və ideal quruluş da yoxdur. Amma Azərbaycanda gedən inkişaf və quruculuq işlərini görməmək sadəcə olaraq bəd niyyətin təzahürüdür [Həsənov, 2000, 3].

İlham Əliyevin ölkəmizin milli maraqlarının qorunması istiqamətində apardığı siyasətdə önəmli yerlərdən birini də Azərbaycan Respublikasının terrorizmə qarşı mübarizədə digər dövlətlərlə, habelə müvafiq hökumətlərarası beynəlxalq təşkilatlarla əməkdaşlıq etməsi tutur. Ölkə başçısının bu siyasətinin özəyində bir sıra ölkələrin birbaşa maliyyə və hərbi yardımı ilə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağda yaratdığı terrorçu rejimə qarşı birtərəfli qaydada və ya digər dövlətlərlə birlikdə hərbi qüvvədən istifadə etməyə zəmin yaratmaq durur və cənab Prezident bu məqsədini həm xarici ölkə başçıları ilə görüşlərdə, həm də mötəbər beynəlxalq təşkilatlarda etdiyi çıxışlarda açıq şəkildə bəyan edib. Bu gün İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri demokratik dəyərlərə arxalanan, insan hüquq və azadlıqlarına hörmət edən, sülhün, sabitliyin və təhlükəsizliyin yaradılması uğrunda pozitiv fəaliyyət göstərən dövlətlərlə bir sıradadır, bu dövlətlərlə strateji müttəfiqlik münasibətlərinin qurulması dövlət siyasətinin əsas xəttini təşkil edir. Digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulması da, dövlət siyasətində prioritet istiqamətlərdən biridir [Məmmədov, 2001, 1].

Ədəbiyyat siyahısı:

1. Məmmədov A. Beynəlxalq münasibətlər. Bakı, 2002. 206 s.
2. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, 137 s.
3. Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991- 1996). Bakı, 2000, 368 s.
4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı, 1996, 140 s.

AYTƏKIN ÇINGIZ QIZI YUSIFLI
Bakı Dövlət Universiteti

# AZƏRBAYCANIN BEYNƏLXALQ TƏŞKILATLAR VƏ IQTISADI LAYIHƏLƏRDƏ IŞTIRAKI

Açar sözlər: xarici siyasət, çoxtərəfli əməkdaşlıq, dövlətlərarası münasibətlər

XX əsrin 80-ci illərinin ikinci yarısı – 90-cı illərindən etibarən dünya sosialist sisteminin zəifliyi özünü artıq açıq şəkildə göstərməyə başlamışdı. Sosialist ölkələrindəki kommunist partiyalarının hakimiyyətinə son qoyulmuş, Şərqi Avropa ölkələrində çoxpartiyalı sistem yaranmış, Polşa, Macarıstan, Rumınya, Bolqarıstan, Çexoslovakiya kimi ölkələrdə demokratik prinsiplərə əsaslanan yeni cəmiyyətlər qurulmağa başlamışdı. Bu dövrdə SSRİ-nin artıq öz əvvəlki qüdrətini itirməsi digər sosialist ölkələrində baş verən hadisələrə əvvəlki vaxtlarda olduğu kimi (məsələn, 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada) müdaxilə edə bilməməsindən görünürdü. XX əsrin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının 1991-ci il iyulun 1-də öz fəaliyyətini dayandırması, , SSRİ-nin dağılması, "soyuq müharibə"nin başa çatması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu.[6] Dünya sosializm sisteminin və SSRİ-nin süqutunun beynəlxalq münasibətlərə təsiri böyük oldu - İkinci dünya müharibəsindən sonra yaranmış beynəlxalq münasibətlər sistemi dağıldı və beynəlxalq münasibətlərin tarixində yeni keçid dövrü başlandı. SSRİ-nin süqutundan sonra meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yenidən formalaşmasına səbəb oldu.[Qasımov, 2015, 400] Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnirdisə, digər tərəfdən, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin

kəsişdiyi məntəqələrə çevrilən bir sıra məhəlli mərkəzlərin meydana çıxması demək idi. SSRİ-nin süqutundan sonra mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etdikdən sonra milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi, beynəlxalq sənədlərə qoşulmaq ən vacib məsələlərindən biri idi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Demokratik tərəqqi yolunu seçmiş Azərbaycanın qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub inkişaf etdirilməsi xarici siyasət sahəsində əsas prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığı müxtəlif istiqamətlərdə, əsasən siyasi, təhlükəsizlik, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli və s. sahələrdə həyata keçirilir. BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi məsələsinə yönəltməyə çalışırdı. 1994-cü ildən Azərbaycan Respublikası BMT-nin Uşaq Fondu - YUNİSEF ilə əməkdaşlıq edir. Əməkdaşlığın əsas məqsədi ölkədə Uşaq hüquqları üzrə konvensiyanın tamamilə tətbiqinə nail olmaq, uşaqların hüquqlarının müdafiəsini və qorunmasını təmin etməkdir.

1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, bu qurumlar çərçivəsində qarşılıqlı faydalı çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi üçün bir çox tədbirlərə əl atır, fəal xarici siyasət yeridir. Çox mühüm coğrafi-strateji məkanda yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradır, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirir. 1992-ci ildən etibarən NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (həmin şura 1997-ci ildən Avropa-Atlantik Tərəfdaşlıq Şurası –AATŞ adlanır) qoşulmuş Azərbaycan Respublikasının 1994-cü ildən başlayaraq NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı

çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə onun əlaqələrinin inkişafına mühüm zəmin yaratmışdır. 1998-ci il sentyabrın sonunda NATO-nun baş katibi H.Solananın Azərbaycana səfəri ərəfəsində verdiyi müsahibədə "Qafqaz regionunu NATO-nun birbaşa maraqları olan regionlar" sırasında qeyd etməsi qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və regional təhlükəsizliyin qorunması sahəsində Şimali Atlantika təşkilatı ilə Azərbaycanın maraqlarının üst-üstə düşdüyünü bir daha təsdiq etmişdi. [Həsənov, 2005, 211-219]

Çoxtərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti təmsil olunmuş,Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan vermişdir. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərindən biridir. Bu konfransda "Avropa-Qafqaz-Asiya" dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat şəbəkəsi haqqında çoxtərəfli saziş və Bakı Bəyannaməsi imzalandı. Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu"nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradır. Şərqlə Qərb arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf

etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, tarazlaşdırılmış, fəal xarici siyasətinin nəticəsidir ki, ölkəmiz dünyanın siyasi xəritəsində özünəməxsus layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızda həyata keçirilən demokratik islahatlar və iqtisadi dəyişikliklər, fəal xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə. Bakı,1997
2. Böyük İpək yolu:dünəni,bu günü,sabahı. Məqalələr toplusu,Bakı,1998
3. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, səh. 211-219
4. Qasımov Musa. Azərbaycan Respublikasının diplomatiya tarixi. Bakı,2015 səh.400
5. Ülkü İrfan. Bağımsızlıktan sonra Azərbaycan. İstanbul,2000
6. www.geopolitica.ru – Analitik portal

AYTƏN ZABIL QIZI ABBASOVA-QULIYEVA
Bakı Dövlət Universiteti

# YAXIN ŞƏRQDƏ BAŞ VERƏN PROSESLƏRDƏ ABŞ AMILI (1991-2001)

Açar sözlər: Yeni dünya nizamı, İkili Çəkindirmə siyasəti, Ərəb-İsrail sülh prosesi, Oslo planı

Avropa, Asiya və Afrikanın kəsişməsində yerləşən, qədim mədəniyyətlərin, sivilizasiyaların və səmavi dinlərin beşiyi sayılan, müxtəlif dövrlərdə siyasi aspektlər baxımından Şərq, Orta Şərq, Kiçik Asiya və Levant adlandırılan Yaxın Şərq regionu müəyyən səbəblərdən həmişə fövqədövlətlərin başlıca hədəfinə çevrilmişdir. Bu cür fövqəldövlətlərdən ən önəmlisi isə Amerika Birləşmiş Ştatları olmuşdur.

Soyuq müharibə illərində çəkindirmə siyasəti çərçivəsində SSRİ ilə mübarizə aparan Birləşmiş Ştatlar Sovet Rusiyasının çökməsi nəticəsində xarici siyasət prioritetlərində bəzi dəyişikliklərə əl atmış və təkqütblü dünyada öz hegemonluğunu möhkəmlətməyə səy göstərmişdir. Dövrünün önəmli fiqurlarından olan Zbiqnev Bjezinski "Böyük Şahmat taxtası" əsərində ABŞ-ın fövqəgücünü bu cür izah etmişdir:

"1.Tarixdə ilk dəfə olaraq bir dövlət fövqəlbəşər dövlətidir;

2.Dünya miqyasında bütün ölkələrdən üstün olan dövlət qeyri-Avrasiya dövlətidir;

3.Dünyanın mərkəzi arenası olan Avrasiya qeyri-Avrasiya dövlətinin təsiri altındadır" [Bjezinski, 2015, 299]

Dünyanın, o cümlədən Avrasiyanın ən önəmli ərazilərindən sayılan Yaxın Şərq regionu və burada baş verən proseslər isə əsas prioritetlərdən olduğundan Corc H.Uolker Buş administrasiyası Yeni dünya nizamının formalaşdırılmasına məhz bu regiondan başlamışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, "Soyuq müharibədən sonrakı dövrdə Yaxın Şərqdə baş verən proseslərdə ABŞ amili" tədqiqat işində 1991-2001-ci illər kontekstində Birləşmiş Şatatlar administrasiyasının sözügedən regionla bağlı prioritetləri, dəyişən maraqları, baş verən proseslərə təsir gücü və mexanizmləri diqqətə çatdırılacaq, habelə müasir

dövrümüzdə Yaxın Şərqdə baş verən hadisələrlə müəyyən müqayisələr aparılacaqdır.

XX əsrin 90-cı illərində Birləşmiş Ştatların Yaxın Şərq regionuna ilk müdaxiləsi İraqın Küveytə hərbi hücumu və Körfəz müharibəsi zamanı baş vermiş, məhz bu hadisələrdən donra irəli sürülən Yeni dünya nizamı ideyası ABŞ-ın sözügedən regiona münasibətdə yeni təmayüllərini formalaşdırmışdır. Belə ki, 1992-ci il prezident seçkilərində qalib gəlmiş Uilyam C.Klinton növbəti illər üçün ABŞ-ın Yaxın Şərqlə bağlı məramını bu cür açıqlamışdır:

- Ərəb-İsrail sülh prosesində iştirak etmək;
- İran və İraqa qarşı "Dual-Containment" adlandırılan İkili Çəkindirmə siyasətini həyata keçirmək;
- Regiondakı iqtisadi islahatları və demokratikləşdirməni ABŞ-ın ələ almasını təmin etmək; [The Middle East and the United States, 1996,416]

Məhz bu amilləri əsas götürən Klinton administrasiyası hakimiyyətinin ilk illərindən etibarən ərəb-İsrail sülh prosesi, habelə Fələstin probleminin həlli istiqamətində səy və təşəbbüs göstərmişdir ki, bu fəaliyyəti ABŞ-İsrail xüsusi münasibətləri, habelə yəhudi lobbisinin Birləşmiş Ştatların siyasi dairələrindəki təsir gücü ilə də əlaqələndirmək olardı.

Klintonun prezidentliyi dövründə ABŞ-ın ərəb-İsrail sülh prosesinə ilk töhfəsi Oslo görüşləri və məlum Oslo planı olmuşdur. Belə ki, məhz ABŞ-ın təşəbbüsü və Norveçin təşkilatçılığı ilə 1993-cü ilin yanvarında Osloda gizli olaraq başlanan danışıqlar, həmin ilin sentyabrında "Prinsiplər Bəyannaməsi"nin imzalanması ilə nəticələnmişdir. Bəs ərəb dünyasını Səddam təhlükəsindən xilas edən Birləşmiş Ştatların bu təşəbbüsünə SSRİ kimi güclü himayədardan məhrum olan və Körfəz müharibəsində İraqı dəstəklədiyi üçün nüfuzu bir xeyli sarsılan Yaser Ərəfat, habelə İzhak Rabinin rəhbərlik etdiyi İşçi partiyasının hakimiyyətə gəlməsi nəticəsində liberlallaşan və altı illik İntifada nəticəsində fiziki və iqtisadi cəhətdən sarsılan İsrail höküməti Oslo Bəyannaməsində hansı əsas razılığa gəlmişdilər?

- FAT və İsrail bir-birilərini qarşılıqlı surətdə tanımaqla "iki dövlətli həll" prinsiplərinə ümid yaratmışdılar;

- FAT İsrailin məhvi və terrorizm ideyalarından əl çəkməyə, İsrail isə Qəzza və İordan çayının Qərb sahilindəki Əriha çəhərindən çəkilməyə söz vermişdi;
- İsrail hökuməti İordan çayının qərbində Fələtin nəzarətinin bərqərar olacağına, fələstinlilər isə İntifadanı dayandırmağa söz vermişdilər;
- Bu məsələlərin həllindən sonra Fələstin dövlətini yaradılıb yaradılmayacağı haqqında "yekun status" müəyyən olunacaqdı; [Hook, Steven W, Spainer John, 2014, 219]

Növbəti illər ərzində imzalanan Əriha / Qahirə və Oslo-2 razılaşmaları sülh prosesində müəyyən yumşalmalara səbəb olsa da, İ.Rabinin 1995-ci ildə qətlə yetirilməsindən sonra Benyamin Netanyahu hökümətinin hakimiyyəti ələ alması, Şərqi Qüdsdə əlavə yəhudi yaşayış məskənlərinin salınması ABŞ-ı yenidən təşəbbüsü ələ almağa vadar etmişdi. Nəticədə, 1998-ci ilin sentyabrında Uay-Planteyşnda (Merilənd ştatı) İsrail və Fələstin arasında Qarşılıqlı Razılaşma Memorandumu imazalanmış, 2000-ci ildə keçirilmiş Kemp-Devid görüşündə isə 13 Sentyabr, 2000-ci il tarixindən sonra Fələstin dövlətinin yaradılması, Məbəd dağına (Əl-Haram əş-Şərif) nəzarətin Fələstinə verilməsi kimi qərarların reallaşdırılması nəzərdə tutulmuşdu. [Малышев, 2016, 14; 17]

Klinton administrasiyası dövründə ərəb-İsrail sülh prosesi istiqamətində əldə olunan müəyyən nailiyyətlər İsraildə "Livan qəssabı" adı almış Ariel Şaronun hökümətin başına keçməsi, onun Əl-Aksa məscidini ziyarət etməsi səbəbilə fələstinlilər tərəfindən İkinci İntifadanın başlanması nəticəsində fiaskoya uğramışdır. Bundan sonra isə beynəlxalq aləmi sarsıdan yeni hadisə - 2001-ci il, 11 Sentyabr hadisələri baş vermişdir ki, bu da ABŞ-ın yeni administrasiyasının Yaxın Şərqlə bağlı məramlarını dəyişdirmişdir. Belə ki, Birləşmiş Ştatlar artıq "Beynəlxalq terrorizmə qarşı mübarizə", "unilitarizm", "qabaqlayıcı zərbə" və "Böyük Yaxın Şərq layihəsi" ideyaları ilə gündəmə gələrək həm Yaxın Şərq dövlətlərinin, həm də beynəlxalq ictimaiyyətin taleyini dəyişəcək addımlar atmış, müasir dövrümüzdə isə "Ərəb baharı" adlandırılan burulğanın meydana çıxmasına şərait yaratmışdır.

Beləliklə, nəzərdən keçirdiyimiz bütün hadisələr və tarixi faktlar belə bir fikir yürütməyə əsas yaradır ki, Soyuq müharibədən sonrakı dövrdən

etibarən Yaxın Şərq regiounundа tüğyan edən bütün önəmli proseslərin əsas hərəkətverici qüvvəsi və təşəbbüskarı məhz Amerika Birləşmiş Ştatları olmuşdur.

Ədəbiyyat siyahısı:

1. Bjezinski, Zbiqnev. Böyük şahmat taxtası: Amerikan hökmranlığı və onun geostrateji imperativləri. // Bakı, Qanun nəşriyyatı, 2015 – 328 səh.

2. Hook, Steven W, Spainer John, Amerikan dış politikası, İkinci Dünya Savaşından Günümüze. // İstanbul, İnkilap, 2014 –454 sah.

3. The Middle East and the United States: a historical and political reassessment. / edited by David W.Lesch. // Colorado, West view Press Inc., 1996 – 460 pages

4. Малышев Д.А. Арабо-Израильский конфликт в конце XX века: проблема мирного урегулирования. // Научный Вестник Крыма, 1 (1), 2016 – стр. 1-22

AYTƏN FIRDOVSI QIZI MƏHƏRRƏMOVA
Azərbaycan Dillər Universiteti

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ BÖYÜK BRITANIYA-AZƏRBAYCAN MÜNASIBƏTLƏRINDƏ IQTISADI FAKTOR

Açar sözlər: Böyük Britaniya, Azərbaycan, neft, Xəzər dənizi, ticarət

I Dünya müharibəsinin sonlarına doğru Böyük Britaniyanın Azərbaycanla bağlı siyasətini bir neçə istiqamətdə izləmək mümükündür. İlk öncə geopolitik anlamda rəsmi Londonun Hindistan ilə quru yol vasitəsilə əlaqə saxlaması üçün ən qısa yol məhz Qafqaz və onun tərkib hissəsi olan Azərbaycan ərazisindən keçirdi. Təsadüfü deyildir ki, "Tayms" qəzeti yazırdı: "Böyük Britaniyanın gələcəyi Avropada deyil, bizim ilk emmiqrantlarımızın gəldiyi, sonralar isə gələcək nəsillərin artıq istilaçı kimi geri qayıtdığı qitədə həll olunacaqdır, ...Türküstan, Əfqanıstan, Xəzər, Persiya isə dünya hökmranlığı uğrunda oyun gedən şahmat lövhəsinin bir hissəsidir" [Михайлов, 1979, 31]. Birinci Dünya müharibəsinin gedişində Antanta və Üçlər İttifaqı arasında Yaxın və Orta Şərq uğrunda gedən geopolitik mübarizə əslində Xəzər hövzəsinə nəzarət etmək uğrunda gedirdi. Bu geopolitik naliyyətin açarı isə həmin vaxt Rusiyada hasil olunan neftin 95 faizindən çoxunu verən Bakıya sahib olmaq idi. Göründüyü kimi digər faktor duru yanacaq idi. İngiltərənin Azərbaycan neftinə olan marağını Paris sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin tərkibində Parisə gedən Miryaqub Mehdiyevin xatirələrindən də aydın görmək olar. O, yazırdı: "Tarixən təbii müttəfiq olan İngiltərə ilə ABŞ arasında soyuq münasibətlərin yaranmasının səbəblərindən biri də Mosul və Azərbaycan nefti məsələsi idi" [Səlimov, 2007, 50].

1917-ci ildə Bakının neft sənayesinə yatırılan 112,6 milyon rubl məbləğində xarici kapital qoyulmuşdur ki, bunun da 54,3 milyon rublunu, başqa sözlə təxminən yarısı ingilis kapitalının payına düşürdü [Səlimov, 2007, 49].

Böyük Britaniyanın Azərbaycan ilə iqtisadi-ticari əlaqələri orta əsrlərə gedib çıxır. İngiltərə kraliçası I Yelizavetanın (1558-1603) 25 aprel 1561-ci

ildə Səfəvi şahı I Təhmasibə göndərdiyi məktubu da bunu təsdiq edir [Əzimli, 2012, 114.]. XIX əsrin II yarısından başlayaraq ingilis iş adamlarının sürətlə Bakı neft sənayesinə daxil olması həm maliyyə-iqtisadi, həm də siyasi baxımdan mühüm əhəmiyyətə malik idi. Britaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin əsas sahəsini neft sektoru təşkil edirdi [Səlimov, 2007, 49].

İngiltərənin Azərbaycan neftinə olan marağını əyani şəkildə göstərmək üçün bir statistik məlumatı da qeyd etmək yerinə düşər. 1917-ci ilə qədər Rusiyanın neft sənayesinə təxminən 400 milyon rubl xarici kapital qoyulmuşdur ki, bu da sözügedən müddətdə ümumilikdə Rusiya sənayesinə qoyulan 830 milyon həcmində xarici kapitalın təxminən 50%-ə yaxın olan hisssəsini təşkil edirdi. Maraqlıdır ki, neft sənayesinə yatırılan xarici kapitalın dörddə üç hissəsini ingilis kapitalı təşkil edirdi. Şübhəsiz ki, Rusiya neft sənayesi dedikdə isə əsasən Azərbaycan neft sənayesi başa düşülür.

I Dünya müharibəsinin yekunu olaraq çağırılmış Paris sülh konfransında iştirak edən Miryaqub Mehdiyev neftin bütün nəqliyyat vasitələri üçün əsas yanacaq bazası olduğunu xatırlatmaqla yanaşı böyük güclərin dünyanın ən zəngin neft mənbələrindən olan Bakı nefti uğrunda apardıqları mübarizəni xüsusi olaraq qeyd edirdi. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: "Bir damla neft bir damla qandan daha qiymətlidir" [Karadağ, 2014, 160]. Bu baxımdan ingilislərin Azərbaycana gəlişinin, daha doğrusu bölgədə işğal siyasəti yeritməsi səbəbinin böyük bir hissəsini iqtisadi maraqlarla-neftlə izah oluna bilər. Məşhur türk tədqiqatçısı Raif Karadağ "Petrol fırtınası" adlı əsərində "Times" qəzetinin tanınmış əməkdaşlarından Artur Murun 1 iyul 1922-ci il tarixli məqaləsinə istinadən, ingilislərin Bakı neftinə sahib olmaq üçün Qafqaza gəldiklərini, lakin bolşevik rus hökuməti ilə müharibəyə başlamağa hazır olmadıqlarından bölgəni tərk etmək məcburiyyətində qaldıqlarını qeyd edir. İngiltərənin Azərbaycana olan iqtisadi marağını yalnız neftlə məhdudlaşdırmaq fikrimizcə düzgün olmazdı. Azərbaycanın tarixən formalaşmış şərq-qərb və eləcə də şimal-cənub ticarətində oynadığı tranzit rolu sözügedən dövrdə də davam edirdi. Təbii ki, dünya ticarətinin böyük bir hissəsinə sahib olan İngiltərənin diqqətindən bu qaça bilməzdi.

Avropa ilə Mərkəzi Asiya və Hindistan arasında ən qısa yol məhz Azərbaycandan keçirdi. İngiltərə hökümətinin Londondan Bombeyə qədər uzanacaq 8 min 200 verst uzunluğundakı dəmir yolu layihəsinin bir seqmentini də Azərbaycan təşkil edirdi. Başqa sözlə sözügedən dəmir yolunun marşurutu aşağıdakı kimi idi. Aleksandrov-Rostov-Bakı-Tehran-Kerman-Nişki və sonda Hindistanın Bombey şəhərinə yetişməli idi. Bu sanki. Günümüzdə reallaşmaqda olan Şimal-Cənub marşurutunun əski variantıdır.

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi. Eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi [Qasımlı, 2008, 208].

Bakının işğalı ilə bağlı vaxtilə baş nazir olmuş İngiltərənin məşhur siyasi xadimlərindən Uinston Çörçil (Winston Chuchill) hərbi nazir vəzifəsində işlədiyi dövrdə yazırdı ki, britaniyalılar qısa müddətdə Xəzər dənizində onlara üstünlük təmin edən donanma yaratdılar. İngilis ordusu dünyanın ən böyük strateji xətlərindən birinə sahib oldu. Lakin ingilis ordusunun Cənubi Qafqazda mövcudluğu uzun çəkmədi. Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti ordunu Cənubi Qafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı. İngilislərin Qafqazdan çıxmaq qərarı bu günə qədər tam dəqiqləşdirilməmiş ciddi problemlərdən biri olaraq qalır.

İngilislərin Qahirədən Kəlküttəyə qədər Böyük Britaniyanın nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası mövcud idi. Bu ideya İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu-Xəzər və Qafqazətrafı ərazilər, xüsusilə neft Bakısı üzərində nəzarətin yaradılmasını stimullaşdırırdı. Bu geosiyasi plan eyni zamanda Hindistanın şimal sərhədlərindən Aralıq dənizinə doğru uzanmış bir neçə bufer dövlətdən ibarət zəncirin yaradılmasını da nəzərdə tuturdu. Bu zəncir Hindistana hücumlar zamanı bir qalxan, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiya arasında əsas əlaqələndirici vasitə rolunu oynamalı idi. Qafqaz-

Xəzər regionu əsas əlaqələndirici həlqəyə çevrilirdi ki, bu həlqə İngiltərənin hərbi-siyasi planlarında həmin dövr üçün xüsusi yer tuturdu [Darabadi, 2008, 26]. Aparılan qısa təhlildən bu elmi qənaətə gəlirik ki, XX əsrin əvvəllərində Azərbaycan geosiyasi, geostrateji və xüsusən də duru yanacağa olan təlabat baxımından İngiltərənin xüsusi maraq dairəsində olmuşdur.

Ədəbiyyat siyahısı:

1. Darabadi P.Q. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində // Azərbaycan Xalq cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Qafqaz Universiteti//Qafqaz Araşdırmaları İnstitutu, 2008, 505 s, s.23-38

2. Əzimli D. M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı-XVII əsrin I yarısı) Bakı, "Təhsil", 2012, 282 səh.

3. Karadağ R. Petrol fırtınası. İstanbul: Truva yayınları. İstanbul, "Truna" 2014, 376 s

4. Qasımlı M. C. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr-1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, 505 s, s.58-81

5. Михайлов Я.Л. К вопросу о подготовке английской интервенции в Азербайджане в 1918 году // Известия АН Азерб.ССР. Серия истории, философии и права, 1979, №2, с.28-34

6. Səlimov Ş. D. Beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsi. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2007

АЙТЕН ШАХИНОВНА РАМАЗАНОВА
Азербайджанский Университет Языков

# ОСНОВНЫЕ УГРОЗЫ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВ ЮЖНОГО КАВКАЗА

Ключевые слова: Южный Кавказ, Азербайджан, Грузия, Армения, национальная безопасность, региональная безопасность, конфликты.

Региональная безопасность представляет собой один из важнейших сфер обеспечения стабильности политического режима и развития государства в целом. Феномен региональной безопасности находится в тесной взаимосвязи с феноменом национальной безопасности, поскольку является составной частью (подсистемой) системы обеспечения национальной безопасности страны.

*Уровень безопасности в регионе Южного Кавказа в первую очередь определяется тем, что он привлекает к себе внимание многих стран мира своим геополитическим и геостратегическим положением, а также наличием богатых природных ресурсов. Оценивая возможности обеспечения безопасности Южного Кавказа, возникает вопрос, который не потерял свою актуальность и по сей день: насколько реально сотрудничество государств региона для обеспечения общей региональной безопасности? Так с распадом СССР* оказавшись в иной политико-военной, социально-экономической, геополитической и духовно-культурной системе координат, *государства региона столкнулись с рядом проблем, которые не нашли своего разрешения до сегодняшнего дня. Одной из таких проблем можно назвать Армяно-Азербайджанский, Нагорно-Карабахский конфликт, а также конфликты в Южной Осетии и Абхазии* [Гасанов, 2014,82]

Ретроспективный взгляд на постсоветскую историю стран Южного Кавказа свидетельствует об отсутствии общих подходов у Армении, Азербайджана и Грузии к проблеме коллективной региональной безопасности. На протяжении 20 лет государства региона так и не смогли выработать единую концепцию системы безопасности, несмотря на то, что были предложены такие инициативы как идея «Мирного Кавказа», «Общекавказского дома» и т.д.

*Таким образом, исследуя архитектуру безопасности Южного Кавказа, можно выделить: традиционные и новые угрозы безопасности, которые по масштабности подразделяются на глобальные (транснациональные), региональные (внешние) и локальные (национальные или внутренние).* [Овчинников,2011,15]

К основным внутренним проблемам сфер общественной жизни региона, способных дестабилизировать ситуацию в регионе относятся: проблемы в политической, военной, *энергетической,* экономической, социальной, экологической сфере. а также проблема кавказской идентичности и безопасность в сфере духовно-культурной жизни.

Внешние угрозы безопасности Южно-Кавказских государств связаны, во-первых, с проникновением внерегиональных глобальных сил в регион, который был обусловлен отсутствием прочной и единой системы региональной безопасности, порождающий «конфликт интересов» и «конфликт сил». [Зеркалов,2009]

Во-вторых, близостью «Евразийских Балкан» к Большому Ближнему Востоку, который ныне входит в зону нестабильности, а точнее сказать в «Евразийскую дугу нестабильности», характеризующийся высокой степенью конфликтогенности, включающий обширные территории от Атлантических берегов Африки до Тихого океана в меридиональном направлении в сторону Афганистана и Синьцзяна. [Бжезинский,1998, 150] Согласно «теории управляемого хаоса», государства, попавшие под «дугу нестабильности», оказываются в «вакууме долгосрочной управляемой системы дестабилизации», на примере Сирии, Ирака, Афганистана. И, к сожалению, влияние «управляемого хаоса» на Южный Кавказ, в котором и так существуют конфликты, является главным вызовом и угрозой безопасности региона.

*Транснациональные угрозы – как новые угрозы безопасности Южного Кавказа. Следует отметить, что в последнее время государства Южного Кавказа, в силу глобализационных процессов, сталкиваются с новыми вызовами и угрозами безопасности, к которым относятся: международный терроризм, сепаратизм, религиозный экстремизм,*

*распространение оружия массового уничтожения, наркобизнес и* незаконный наркотрафик. [Звягельская,1999,11]

*Подытожив отметим, что внутренние структурные социально-экономические проблемы, например: этнические и религиозные конфликты, экономические, экологические кризисы и слабая политическая стабильность этих стран; стратегическое соревнование между региональными, западными и транснациональными силами; и слабая технология и инфраструктура [Parvizi,2000]* свидетельствуют о том, что формирование общего подхода к определению будущего Южного Кавказа и выработка системы коллективной безопасности Арменией, Азербайджаном и Грузией наталкивается на серьезные трудности. Расхождения во взглядах о перспективах развития региона, различия внешнеполитических приоритетов Южно-Кавказских стран, выбор стратегических партнеров в деле обеспечения национальных интересов и национальной безопасности, расхождения в подходах к урегулированию региональных конфликтов и в восприятии источников угроз их национальной безопасности препятствуют формированию региональной системы коллективной безопасности.[Гасанов,2014,307]

## Список литературы:

1. Бжезинский Зб. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы). Перевод О. Ю. Уральской. М.: Междунар. отношения, 1998. С.255
2. Гасанов. А. М. Политика национального развития и безопасности Азербайджанской Республики. Баку, "Zərdabi LTD" ММС, 2014. 672 с.
3. Зеркалов Д.В. Политическая безопасность. В трех книгах. Книга 1. Проблемы и реальность. К.: Основа, 2009, с. 631.
4. Звягельская И.Д., Наумкин В.В. Угрозы, вызовы и риски «нетрадиционного» ряда (Центральная Азия и Закавказье). М: 1999
5. Прохожев А. Общая теория национальной безопасности. М.: Изд-во РАГС, 2005, с. 344
6. Овчинников А.И., Мамычев А.Ю., Кравченко А.Г. Основы теории национальной безопасности.– М.: РИОР, 2011, с. 252.

*7. Parvizi A.M. Konflikt und Zusammenarbeit um die Kontrolle der Erdölressourcen im post-sowjetischen Eurasien: Rußland, Türkei und Iran, Jahrbuch für internationale Sicherheitspolitik Verlag E.S. Mittler & Sohn GmbH 2000*

BƏHMƏN FAZIL OĞLU ƏLIYEV
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN-İNDONEZIYA ƏLAQƏLƏRININ PERSPEKTIVLƏRI

Açar sözlər: Yəhya Bakuvi, "Reformasi", SOCAR, Pertamina, ticarət, turizm

Qloballaşma prosesində dövlətlərin, xalqların bir-biri ilə ünsiyyətinin artması müxtəlif səviyyələrdə baş verir. Müəyyən bir dövlətlə əsasən, siyasi, iqtisadi, enerji sahəsində əməkdaşlıq genişlənir, başqa biri dövlətlə münasibətlərdə daha çox mədəni-tarixi əlaqələr, digəri ilə sadaladığımız bütün faktorlar önə çıxır.

Müasir dövrdə Azərbaycan Respublikası üçün Qərblə əlaqələri genişləndirmək vacib olduğu qədər, Şərq ölkələri ilə əlaqələri genişləndirmək bir o qədər prioritet məsələdir. Mühüm məqam odur ki, Şərq ölkələri ilə əlaqələr yenicə qurulan əlaqələr deyil, daha çox bərpa olunan əlaqələrdir.

Şərq ölkələrini bir sıra faktorlara-coğrafi mövqeyinə, inkişaf səviyyəsinə və s. üzrə qruplaşdırmaq mümkündür. Müasir dünyanın gedişatı müstəvisində baxdıqda isə başqa ölkələrin hansı göstəricilərə malik olmasından daha çox regional və qlobal səviyyədə yürütdüyü siyasət diqqəti cəlb edir. Təbii ki, müxtəlif dövlətlərin yürütdüyü siyasət milli-dövlət maraqlarına, eləcə də siyasi, iqtisadi, hərbi gücünə, taktiki və strateji ehtiyaclarına əsaslanır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra İndoneziya Respublikası ilə dərhal diplomatik əlaqələr qurulsa da XX əsrin sonuncu onilliyində münasibətlərdə ciddi irəliləyiş əldə etmək mümkün olmamışdır. Bunu ilk növbədə İndoneziyada Suharto rejiminin xarici siyasəti ilə əlaqələndirmək mümkündür. Suhartonun hakimiyyətdən devrilməsi və "Reforması" dövrünün başlanması ilə İndoneziyada baş verən demokratik dəyişikliklər ölkənin xarici siyasətinin daha çevik, intensiv olmasına şərait yaratmış, qonşu ölkələrlə, eləcə də dünyanın müxtəlif bölgələrində aktiv siyasət yürütməsinə imkan vermişdir. Hazırda

İndoneziya "Post Reformasi" dövrünü yaşamaqdadır, ölkənin daxili və xarici siyasəti dünyaya daha çox inteqrasiya olmaqdadır.

Müasir dövrdə Azərbaycan Respublikası ilə İndoneziya Respublikası arasında əlaqələri üç başlıq altında qruplaşdırmaq mümkündür:

1. Siyasi. İndoneziya və Azərbaycan respublikaları ikitərəfli siyasət-diplomatik əlaqələrdə maraqlı olmaqla yanaşı, beynəlxalq platformada da bir-birini (BMT, İƏT) dəstəkləyir.

2. İqtisadi. Bura əsasən enerji sektorunda əməkdaşlıq aiddir. Məsafə uzaqlığı ticarət və turizm imkanlarını xeyli çətinləşdirsə də bu sahədə geniş əməkdaşlıq perspektivləri mövcuddur.

3. Mədəni-humanitar əlaqələr.

Siyasi, iqtisadi, mədəni-humanitar əlaqələri bir-birindən ayrı şəkildə təsəvvür etmək mümkün deyil. Diplomatik əlaqələr 1991-ci ildə qurulsa da Azərbaycanın İndoneziyada səfirliyi 2006-cı ildə, İndoneziyanın Azərbaycanda səfirliyi 2010-cu ildə fəaliyyət göstərməyə başlamış, bu illər ərzində parlament sədrləri (2010, 2012, 2013), xarici işlər nazirləri (1996, 2006, 2008, 2011, 2013), eləcə də digər nazirlər, yüksək vəzifəli məmurlar, parlament nümayəndə heyətləri səviyyəsində səfərlər olmuş, ölkələr arasında bir sıra müqavilələr imzalanmışdır.

İndoneziyanın dünyanın müxtəlif bölgələrində aktiv siyasət yürütməsinin ən mühüm amillərindən biri ölkənin enerji resurslarına olan tələbatının artmasıdır. XX əsrin ikinci yarısında neft ixrac edən ölkədən neft idxal edən ölkə durumuna düşməsi, hətta bu səbəbdən OPEK üzvlüyündən çıxması rəsmi Cakartanın enerji ehtiyaclarını ödəmək siyasətinə önəm verməsi ilə nəticələnmişdir. Müasir dövrdə neft istehsalı xeyli zəifləsə də İndoneziya ən çox qaz ehtiyatına malik və ən çox qaz istehsal edən ölkələr sırasında Rusiya (23%, 574 milyard kubmetr), ABŞ (21,3%, 550 mlrd.kub.m), Kanada (7,2%, 186 mlrd. kub. m.), Böyük Britaniya (4,4 %, 90 mlrd. kub.m.), Əlcəzair (3,3% 72 mlrd. kub.m.), Hollandiya (3 %, 64 mlrd. kub. m.) sırasında yeddinci yerdə durur. Bu ölkə dünya qaz ehtiyatının 2,6%-nə malikdir və ildə 68 mlrd. kub. metr qaz hasil edir [Ömərov V. , 2013, 13]

Əhalisinin sayına görə dünyanın dördüncü ölkəsi sayılan İndoneziyanın enerji tələbatını ödəmək niyyəti onun neft ixrac edən ölkələrlə intensiv əlaqələr qurmasını zəruri etmişdir, yaxın onilliklər

ərzində bu reallıq dəyişməyəcəkdir. Bu gün Azərbaycanın xam neft və neft məhsulları ixrac etdiyi ölkələr sırasında İndoneziya da yer alır.

İndoneziya Respublikasının Azərbaycandakı səfiri Hüsnan Fanani ölkəsinin Azərbaycandan böyük həcmdə neft idxal edərək Azərbaycandan neft alan ölkələr sırasında İtaliyadan sonra ikinci yerdə durduğunu bildirmişdir. İndoneziyanın Azərbaycandan idxal etdiyi məhsulun həcmi 2,4 milyard dollardır, Azərbaycanın İndoneziyadan idxalı isə 3,2 milyon dollardır [İndoneziya-Azərbaycan münasibətləri getdikcə güclənir. 2017]

İki ölkə arasında neft alqı-satqısına aid rəqəmlər hər il dəyişsə də İndoneziyada "Chevron"dan sonra ikinci ən iri neft istehsalçısı olan "Pertamina"nın vitse-prezidenti Eko Rukmono 2018-ci ilin may ayında bildirmişdir ki, şirkət ARDNŞ ilə "daunstrim" sahəsində əməkdaşlıq edir və gələcəkdə "apstrim" sahəsində də əməkdaşlıq etmək istəyir. E.Rukmono Azərbaycandan olan mütəxəssislərin İndoneziyada neft kəşfiyyatı və hasilatı əməliyyatlarında iştirak etdiyini vurğulamışdır [İndoneziya şirkəti SOCAR-la birgə əməliyyatlara maraq göstərir, 2018]. İndoneziya bazarı "SOCAR Trading"in əməliyyatları arasında xüsusi əhəmiyyət daşıyır. Hazırda İndoneziyanın idxal etdiyi neftin 8%-i SOCAR-ın payına düşür. 2008-ci ildə "SOCAR Trading"in "Azeri light" brendi ilə daxil olduğu İndoneziya bazarının perspektivliyi və bazarda Azərbaycan neftinə olan tələbat artan xətt üzrə inkişaf etməkdədir [SOCAR "Pertamina" ilə əməkdaşlıq məsələlərini müzakirə edib, 2018].

Son illərdə bir sıra Şərq ölkələrinin, o cümlədən İndoneziyanın xarici siyasətində mədəni-humanitar əlaqələrə önəm verilməsi tendensiyası güclənməkdədir. İndoneziya postsovet ölkələri ilə, o cümlədən Azərbaycanla münasibətlərində humanitar-mədəni əlaqələrə önəm verir.

İlk baxışdan iki ölkə arasında tarixi əlaqələrin mövcud olmaması təsəvvürü yaranır. Bu sahədə geniş elmi tədqiqatların aparılmasına ehtiyac vardır. İndoneziya və Azərbaycan arasında mədəni əlaqələr hər iki ölkə əhalisinin müsəlman olması ilə yanaşı, orta əsr təsəvvüf alimi, xəlvətilik təriqətinin yaradıcısı Yəhya əl-Bakuvininin (XIV-XV əsrlər) əsərlərinin İndoneziyada tanınması, XIX əsr səyyahı Hacı Zeynalabdin Şirvaninin Pataviyaya səfəri və s. iki ölkə arasında mənəvi əlaqələrin qədim tarixə əsaslandığını iddia etməyə imkan verir. XX əsrin ortalarında azərbaycanlı

mütəxəssislər İndoneziyanın neft sənayesinin qurulmasında fəaliyyət göstərmişlər və s.

Son illərdə Azərbaycan Dillər Universitetində İndoneziya Araşdırmaları Mərkəzi fəaliyyət göstəriri, "İndoneziya və Cənub Şərqi Asiya ölkələri" ixtisası üzrə bakalavr tələbələr, "İndoneziyaşünaslıq" üzrə magistrlər hazırlanır, azərbaycanlı tələbələr İndoneziyanın ali məktəblərində, eləcə də indoneziyalı tələbələr Azərbaycanın ali məktəblərində təhsil alırlar.

Hazırda iki ölkə arasında əlaqələr növbəti mərhələyə keçməkdədir. Hələlik proses çox ləng getsə də özəl şirkətlərin ticarət və turizm sahəsinə maraq göstərməsi hiss olunur. İndiki mərhələdə özəl şirkətlərin iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən turizmə marağını artırmaq üçün birgə proqramların həyata keçirilməsinə, İndoneziya üzrə ixtisaslaşan gənc kadrların bilik və bacarığından istifadə olunmasına ehtiyac vardır.

Ədəbiyyat siyahısı::

1. Ömərov V. Azərbaycanın dünyaya iqtisadi inteqrasiyası: enerji resursları. "Səs".2013-cü il 21 iyun. N 112.s.13

2. İndoneziya-Azərbaycan münasibətləri getdikcə güclənir - səfir Hüsnan Fanani. 2017-ci il 10 fevral, https://www.salamnews.org/az/news/read/

3. İndoneziya şirkəti SOCAR-la birgə əməliyyatlara maraq göstərir. 2018-ci il 1 iyun, https://report.az/energetika/

4. SOCAR "Pertamina" ilə əməkdaşlıq məsələlərini müzakirə edib. 01.06.2018, http://azadinform.az/az/read/

BƏXTIYAR MIRDAMƏT OĞLUHÜSEYNOV
Bakı Dövlət Universiteti

# MÜSTƏQILLIK ILLƏRINDƏ AZƏRBAYCANIN DÜNYA SIYASI SISTEMINƏ INTEQRASIYASI

Açar sözlər: GUAM, SSRİ, Birləşmiş Millətlər Təşkilatı, ABŞ, Dağlıq Qarabağ

GUAM: Gürcüstan, Ukrayna, Moldova və Azərbaycanın 2007-ci ildə iştirakı ilə yaratdığı təşkilat

SSRİ: 1922-ci ilin dekabrında bolşeviklər tərəfindən yaradılmış güclü dövlət

Birləşmiş Millətlər Təşkilatı: İkinci Dünya Müharibəsindən sonra beynəlxalq münasibətləri nizamlamaq üçün yaradılan aparıcı təşkilat

ABŞ: Dünyada beynəlxalq münasibətlər sistemində öz aparıcı mövqeyi ilə seçilən dövlət

Dağlıq Qarabağ: Cənubi Qafqazda Azərbaycana aid olan, lakin Ermənistanın işğal etdiyi ərazi

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəlib. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurub. [Məmmədov, 2002, 11-12]

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olub. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional

qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir. [Qasımov, 1997, 49-50] Bu gün Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısı tək qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir. Həmçinin, Azərbaycanın Qərb və Şərq sivilizasiyaları, eyni zamanda, Şimal və Cənub arasında dəhliz rolunu oynaması əhəmiyyətli ölkə kimi onun nüfuzunu ortaya qoymuş olur. Əlbəttə ki, Azərbaycanın bu cür nailiyyətlərinin praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu da hər kəsə bəllidir. [Quluzadə , 1999, 24-25]

Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən , qonşu ölkələrlə ikitərəfli münasibətlərə xüsusi önəm verir.

Müstəqil Azərbaycan Respublikasının xarici siyasət strategiyasının prioritet istiqamətləri sırasında ABŞ-la ikitərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi mühüm yer tutur. Azərbaycan-ABŞ münasibətlərinin tarixi XIX əsrə gedib çıxır. [Həsənov, 2005, 225-227] Hələ XIX əsrin 70-80-ci illərində Bakı neft sənayesinin yaranması və formalaşması dövründə ABŞ-ın iri şirkətləri Azərbaycan neftinə maraq göstəriblər. 1991-1992-ci illərdə ABŞ hökuməti SSRİ-dən ayrılmış müstəqil Azərbaycanı hərtərəfli öyrənir, bu dövlətə münasibətdə ABŞ-ın gələcək xarici siyasətinin konturlarını müəyyənləşdirir, Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin, Azərbaycan-Rusiya, Azərbaycan-İran münasibətlərinin xarakterini, mahiyyətini və perspektivlərini, Birləşmiş Ştatların Qafqazda maraq, nüfuz və təsir mexanizmlərinin dayaqlarını araşdırır, strateji planlar hazırlamaq üçün Dövlət Departamentinə bələdçilik və məlumat toplusu hazırlayırdılar. Azərbaycanın rastlaşdığı Dağlıq Qarabağ problemi və erməni təcavüzü də həmin vaxt ABŞ-ın rəsmi dairələrinin diqqətindən kənarda qalmamışdır. 1992-ci il mayın 19-da Dövlət Departamentinin rəsmi nümayəndəsi bildirmişdir ki, onun ölkəsi Dağlıq Qarabağda və Naxçıvanda döyüş əməliyyatlarının gücləndirilməsini qətiyyətlə pisləyir və hər hansı ərazinin statusunun zorakılıq əsasında birtərəfli şəkildə dəyişdirilməsi ilə razılaşmayacaq.

Şimali Amerika ölkələrindən Azərbaycanın bütün səviyyələrdə diplomatik münasibətlər saxladığı ikinci ölkə Kanadadır. Kanada Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də tanımış, iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il avqustun 10-da qurulmuşdur. Bundan 10 il sonra – 2002-ci ildə Kanada Azərbaycanda, 2004-cü ildə isə Azərbaycan Kanadada özünün səfirini təyin etmişdir. [Həsənov, 2005, 266-267]

Şimali Amerika Birliyinə daxil olan üçüncü ölkə - Meksika ilə Azərbaycanın diplomatik əlaqələri 1992-ci il fevralın 10-da qurulsa da, (Meksika Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də tanımışdır) hələ ki, iki ölkə arasında qarşılıqlı əlaqələri tənzimləyən heç bir hüquqi-normativ sənəd imzalanmamışdır. Qarşılıqlı münasibətlər yalnız beynəlxalq təşkilatlar çərçivəsində və iki ölkənin iş adamları arasında həyata keçirilir.

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlıdır. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə özünəməxsus yer tutan Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. [Həsənov, 1998, 112-113]

Hər şeydən əvvəl qeyd edilməlidir ki, dünyanın inkişaf etmiş və nüfuzlu dövlətləri kimi Qərbi Avropa ölkələri Qafqazda, o cümlədən Azərbaycanda xüsusi strateji siyasi və iqtisadi maraqlara malikdirlər. Onu da nəzərə almaq lazımdır ki, bu dövlətlər bütün dövrlərdə öz maraqlarını qorumağa cəhd göstərən ölkələr sırasında həmişə fəallıqları ilə seçilmişlər. Təsadüfi deyildir ki, özünün regiondakı yeri və rolu, zəngin neft yataqları ilə Avropa siyasətçiləri və iş adamlarını keçən əsrin əvvəlində də, sonunda da eyni dərəcədə özünə cəlb edən Azərbaycan Qərb ölkələrinin Qafqaz siyasətinin fəal və daha məqsədyönlü mahiyyət kəsb etməsində əsas amil olmuşdur. İkitərəfli əməkdaşlıq əlaqələrini tənzimləyən hüquqi-normativ

sənədlərin imzalanması və həyata keçirilməsi sahəsində ilk illər heç bir addım atılmadı. Yalnız 1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycanın Qərbi Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın başlanğıcını qoydu. [Hüseynova, 1998, 121-122]

Azərbaycanın Mərkəzi və Şərqi Avropa dövlətləri ilə dostluq və əməkdaşlıq münasibətlərini zəruri edən əsas amillərdən biri qarşılıqlı-faydalı iqtisadi münasibətlərin qurulmasına tələbat hesab oluna bilər. Keçmişdə SSRİ də daxil olmaqla sosializm düşərgəsinin üzvü olan bu ölkələrin ümumi bir iqtisadi sistem çərçivəsində yerləşməsi onların hər birində oxşar iqtisadiyyatın təşəkkül tapmasına və sıx inteqrasiyasına səbəb olmuşdu. Azərbaycan da SSRİ-nin bir respublikası kimi həmin iqtisadi sistem daxilində bu dövlətlərlə sıx inteqrasiya olunmuş və bu gün də onun təsirindən tam xilas ola bilməmişdir. Mərkəzi və Şərqi Avropa dövlətləri ilə bütün sahələrdə ikitərəfli və çoxtərəfli iqtisadi, siyasi və mədəni əlaqələr, qarşılıqlı faydalı və strateji münasibətlər müstəqillik yolu tutmuş Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Avropa dövlətləri sırasında Azərbaycanın müstəqilliyini ilk olaraq tanıyan (11 dekabr 1991-ci il) Rumıniya olmuşdur. Onun ardınca Polşa, Bolqarıstan və başqa Şərqi və Mərkəzi Avropa dövlətləri Azərbaycanın müstəqilliyini tanımış və 1992-ci ilin əvvəllərində ölkəmizlə diplomatik münasibətlər yaratmışlar. Lakin 1991-1993-cü illərdə Azərbaycanda bu dövlətlərlə qarşılıqlı münasibətlərin yaradılmasına və beynəlxalq hüquq normalarına uyğun surətdə inkişaf etdirilməsinə lazımi əhəmiyyət verilməmiş, ölkələrimiz arasında keçmiş dövrlərdə formalaşmış və sosializm düşərgəsinin süqutu ilə pozulmuş iqtisadi və mədəni əlaqələrin yeni prinsiplər əsasında bərpasına səy göstərilməmişdir. [Həsənov, 2005, 296-297]

Azərbaycanın Asiya ölkələri ilə əlaqələri 1991-ci ildə ölkəmiz müstəqillik əldə etdikdən və 1992-ci ildə BMT-yə üzv qəbul olunduqdan sonra başlanır və hazırda müvəffəqiyyətlə inkişaf edir. Asiya dövlətlərinin bəziləri (Çin, Yaponiya, Pakistan və s.) Azərbaycanla sıx partnyorluq münasibətləri yaratmış və onunla hərtərəfli əməkdaşılq edir, digərləri (Hindistan, Cənubi Koreya, İndoneziya, İraq, Suriya, İsrail, Səudiyyə

Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Əfqanıstan) ölkəmizlə diplomatik münasibətlər qurmuş və tərəfdaşlıq istiqamətində hərtərəfli iş aparırlar.

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu-günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycan Respublikasının milli dövlət kimi müasir beynəlxalq münasibətlər sistemində gücünü və nüfuzunu artıran mexanizm qismində çıxış etməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi sıçrayış dövrünü yaşayan Azərbaycan həm də dünya birliyinin fəal və nüfuzlu aktorlarından birinə çevrilib.

Rəsmi Bakı Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Avropa İttifaqı, İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan Respublikası qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal üzvü imicini möhkəmləndirib. Elə həmin il Qoşulmama Hərəkatına daxil olmaqla Azərbaycan öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirib, Latın Amerikası və Afrika ölkələri ilə səmərəli əməkdaşlıq əlaqələri qurmağa başlayıb. Ölkəmizdə öz ölkələrinin maraqlarını müdafiə edən bir çox dövlətin səfirləri də Azərbaycanla olan dostluq və tərəfdaşlıq münasibətlərindən məmnundurlar. [Məmmədov , 2002, 199-200]

Ədəbiyyat siyahısı:

1. Həsənov Ə.H. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 631 səh
2. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998. 224 səh
3. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, -315 s.

4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı,1996, -140s

5. Quluzadə V. "Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər)". Bakı, 1999, -286 s.

6. Məmmədov A. "Beynəlxalq münasibətlər". Bakı, 2002. –206 s.

BƏYIM NADIR QIZI ABDULLA
Azərbaycan Dillər Universiteti

# MƏDƏNIYYƏT SAHƏSINDƏ AZƏRBAYCAN-İSRAIL ƏLAQƏLƏRI

Açar sözlər: Azərbaycan, İsrail, Azərbaycan-İsrail Beynəlxalq Asossiyasası (Azİz), mədəni əlaqələr, iki tərəfli tərəfdaşlıq

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra dünyanın aparıcı dövlətləri ilə siyasi, iqtisadi, humanitar, mədəni və başqa sahələrdə ikitərəfli münasibətlər qurmuş və beynəlxalq aləmdə etibarlı strateji tərəfdaş kimi özünü sübut etmişdir. Müstəqilliyini bərpa etmiş Azərbaycan siyasi, iqtisadi, mədəni sahələrdə islahatlar aparmaqla beynəlxalq aləmə inteqrasiya etmiş, bir sıra dövlətlərlə, eləcə də İsraillə münasibətlər qurmuşdur. İsrail Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanımış və iki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci ilin aprelində qurulmuşdur [Qasımlı, 1999, 114]. Ümummilli lider Heydər Əliyev dövlətin xarici siyasətini müəyyənləşdirərkən demişdir: "Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [Əliyev, 1997, 205].

Azərbaycan və İsrail arasındakı münasibətlər təkcə təhlükəsizlik, ticarət, iqtisadi sferalarla məhdudlaşmamış mədəniyyət, təhsil sahələrində də davam etmişdir. 2012-ci ilin aprelində Bakıda səfərdə olan İsrailin Xarici İşlər naziri Aviqdor Liberman "Azərbaycan İsrail üçün Fransadan daha vacibdir" deyə İsrailin xarici siyasətində Azərbaycana xüsusi önəmi verdiyini vurğulamışdır [Murinson, 2014, 9].

İki dövlət arasında qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri yalnız iqtisadi-strateji maraqlara deyil, həm də ənənəvi tarixi-mədəni köklərə əsaslanır. Hələ sovet hakimiyyətinin son çağlarında SSRİ-də milli şüurların oyandığı dövrdə İsraillə fraqmental səciyyə daşıyan müəyyən əlaqələr

təzahür etməyə başladı. 1989-cu ilin dekabrında SSRİ Mədəniyyət Nazirliyinin xətti ilə Azərbaycana səfər etmiş ilk İsrail nümayəndələrindən İsrail Mədəniyyət Nazirliyinin Mədəniyyət və Təhsil şöbəsinin müdiri, doktor D. Ronen, folklorun öyrənilməsi və yayılması üzrə mərkəzin direktoru İosif Ben Azərbaycanla mədəni əlaqələrin yaradılmasına, yaradıcı kollektivlərinin mübadiləsinə hazır olduqlarını bəyan etmişlər. Onu da qeyd etmək lazımdır ki, artıq bu illərdə Azərbaycan mədəniyyətinin bir çox nümayəndələri İsraildə qastrol səfərində olmuşlar [Manafova, 2008, 15].

1992-ci ildə Azərbaycan-İsrail mədəni əlaqələrini inkişaf etdirmək məqsədi ilə Bakıda Azİz (əzizim) cəmiyyəti quruldu. Cəmiyyət iki ölkə arasında mədəni, elmi, iqtisadi əməkdaşlığın genişlənməsində böyük rol oynayır. 1990-cı ildən başlayaraq yəhudilərin İsrailə köç etməsindən sonra Azərbaycan-İsrail Beynəlxalq Dostluq Assosiasiyasına çevrilmişdi. Təşkilat Azərbaycandan İsrailə köçmüş yəhudiləri bir araya gətirməklə bərabər azərbaycanlıların mədəni irsinin həmin ölkədə tanıdılması, təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Azİz Heydər Əliyev Fondu tərəfindən maliyyələşdirilir və İsraildə Azərbaycan lobbiçiliyini həyata keçirir.

Mütəmadi olaraq İsrail və Azərbaycan mədəniyyət nümayəndələri qarşılıqlı səfərlər həyata keçirərək ölkələrin mədəniyyətlərinin təbliği istiqamətlərində mühüm addımlar atılır. 25 may 2005-ci ildə Azərbaycan əsilli məşhur caz pianoçusu Leonid Ptaşka həmkarı Şlomo Qronixlə birgə Müslüm Maqomayev adına Bakı Filarmoniyasında konsert vermişdir.

2006-cı ilin noyabrın 19-dan başlayaraq Bakıda keçirilən İsrail filmləri həftəsi də bu ölkə ilə mədəni əməkdaşlığın mühüm tədbirlərindən biri olmuşdur. Film həftəsi boyunca İsrail kinematoqrafçılarının lentə aldıqları "Salam, müsyö Şlomi", "Kolumbiya məhəbbəti", "Evlənmək", "Suriyalı gəlin", "Dünyanın sonunda sola dön" və başqa filmlər paytaxt Bakı ilə yanaşı, respublikanın digər şəhərləri – Quba, Sumqayıt, Lənkəranda nümayiş etdirilmişdir. İsrail filmləri həftəsinin açılışı bu ölkə ilə mədəni əməkdaşlıq sahəsində əhəmiyyətli təcrübəyə malik Azərbaycan Dillər Universitetində olmuşdur. 21 iyun 2007-ci ildə Bakıda İsrail-Azərbaycan diplomatik münasibətlərinin 15-ci ildönümünə həsr olunmuş muğam konserti keçirilib. Bu münasibətilə qastrola gələn israilli bəstəkar və zərb

ustası konsert proqramı ilə çıxış etmişdi. Onu qeyd etmək lazımdır ki, Yinen Müallen Azərbaycan musiqisi və muğamına böyük maraq göstərən sənətkarlardan biridir. Özünün xüsusi fərqli ansamblı olan israilli musiqiçi Azərbaycan müğənnisi Alim Qasımovla birgə layihələr də hazırlamışlar [Manafova, 2008, 16].

Azərbaycan musiqisi və mədəniyyəti İsraildə geniş təbliğ edilir Azİz-in təşkilatçılığı ilə 2008-ci ilin noyabrında İsraildə M. Maqomayevin xatirə gecəsi keçirilib. Tədbir İsrailin "Aşdod" Kamera Opera Teatrında baş tutmuş və bu tədbirdə Azərbaycan xalq artistləri Dina Tumarkina və Tofiq Mirzəyev iştirak etmişdirlər [2]. Bundan başqa, 2015-ci ilin dekabrında İsrailin Netanya şəhərində mədəniyyət evində tanınmış müğənni, SSRİ xalq artisti Rəşid Behbudovun anadan olmasının 100 illik yubileyi münasibəti ilə tədbir keçirilmişdir [3].

İsraildə Azərbaycandan gəlmə yəhudilər mədəni əlaqələrin saxlanılmasında çox fəaldırlar. Burada Azərbaycan mədəniyyət guşəsi, Afula şəhərində Azərbaycan mədəniyyət mərkəzi, Azərbaycanda İsrail mədəniyyət mərkəzi fəaliyyət göstərir. 1991-ci ildə İsrailin Hayfa şəhərində Azərbaycandan gedən yəhudilər tərəfindən "Hayfa-Bakı" Cəmiyyəti yaradılıb.

2019-cu ilin iyun ayının 10-15-də Bakıda Muğam Mərkəzində təşkil olunan növbəti "Bakı Yay Caz Günləri" adlı festivalında İsrailin virtuoz kontrabasçı Adam Ben Ezra və onun triosu tamaşaçılar qarşısında çıxış etdi. O, öz əsərlərinə yeni rənglər qataraq ənənəvi alətə tam yeni səslənmə bəxş etmişdir. İfaçının çıxışları izləyənlər tərəfindən maraqla qarşılanmışdı.

Azərbaycan-İsrail mədəni əlaqələri siyasi, iqtisadi sahələrdə olan münasibətlərdən nisbətən zəif inkişaf etsə də bugünkü səviyyəsi məmnunluq doğurur. Ümid edirik ki, iki ölkələr arasında əməkdaşlıq bundan sonra da müvəffəqiyyətlə davam edəcək, bu münasibətlər əlaqələrimizin və əməkdaşlığımızın hərtərəfli inkişafı üçün daim möhkəm zəmin olaraq qalacaqdır.

Ədəbiyyat siyahısı:

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar: 45 cilddə, I c.,Bakı: Azərnəşr. 1997.

2. İsraildə Müslüm Maqomayevin xatirəsi anılıb https://az.trend.az/azerbaijan/society/1347695.html

3. İsraildə Rəşid Behbudovun anadan olmasının 100 illiyi qeyd ediləcək https://news.milli.az/culture/386678.html

4. Qasımlı M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə. 1946-1999). Bakı. 1999

5. Manafova M. Azərbaycanın Şərqi Asiya ölkələri ilə mədəni əlaqələri. Bakı. 2008

6. Murinson A. The Ties Between Israel and Azerbaijan. Mideast Security and Policy Studies No. 110. The Begin-Sadat Center for Strategic Studies. 2014

CAVID VƏKIL OĞLU BAĞIRZADƏ
Gəncə Dövlət Universiteti

# AZƏRBAYCAN XALQ CÜMHURIYYƏTININ IQTISADI ƏLAQƏLƏRI VƏ HUMANITAR IQTISADI YARDIMLARI HAQQINDA

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, Türkiyə, xarici iqtisadi əlaqələr, iqtisadi müqavilələr

Azərbaycan Xalq Cümhuriyyəti olduqca mürəkkəb və gərgin bir tarixi dövrdə mövcud olmasına baxmayaraq qısa zaman ərzində milli maraqlara söykənən fəal xarici siyasət kursu formalaşdırmış, bir çox dövlətlərlə diplomatik münasibətlər qurmuşdur. Gənc dövlətin xarici siyasətində ölkənin tanıdılması, diplomatik münasibətlərin qurulması və iqtisadi əlaqələrin yaradılması başlıca xətt idi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisindən biri də qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Bu sahədə AXC hökuməti təkcə qanun layihələri hazırlamaqla kifayətlənməyib, dünyanın bir sıra ölkələri, o cümlədən 1918-ci il iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, İngiltərə, ABŞ, Fransa, İtaliya, Gürcüstan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlamış, bəziləri ilə şifahi razılıq əldə edilmişdi [Azərbaycan tarixi, V cild, 2008, s.512].

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi proqramında xarici iqtisadi-ticarət strategiyası mühüm yer tuturdu. AXC hökuməti və parlamenti xarici iqtisadi siyasət sahəsində mühüm addımlar atmış, bir çox qanunlar layihəsi hazırlamış və qəbul etmişdir. Xarici iqtisadi əlaqələri həyata keçirən Ticarət və Sənaye Nazirliyinin nəzdində "Xarici dövlətlər və bir birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi" fəaliyyət göstərirdi. Qonşu dövlətlərlə iqtisadi əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti, hələ özünün mükəmməl iqtisadi bazasını yaradıb başa çatdırmadığı halda, humanizm prinsiplərindən çıxış edərək, Dağıstana 50 mln. manat məbləğində yardım

göstərmişdi ki, bu da respublikanın büdcə məxaricinin 1/8 hissəsini təşkil edirdi [AXC Ensiklopediyası, I cild, 2004, s.60].

AXC-nin sıx iqtisadi əlaqələr qurduğu ölkə qonşu Gürcüstan olmuşdur. Azərbaycan və Gürcüstan müstəqillik qazandıqdan dərhal sonra iqtisadi, maliyyə, nəqliyyat və rabitə sahələrində əməkdaşlığı tənzimləmək və dərinləşdirmək zərurərti ilə üzləşmişdilər. 1918-ci il dekabrın 26-da Bakıda Azərbaycanla Gürcüstan arasında mal mübadiləsi haqqında müqavilə bağlandı. 1919-cu il yanvarın 3-də Tiflisdə Azərbaycanla Gürcüstan arasında teleqraf rabitəsi, yanvarın 4-də isə poçt xidməti haqqında sazişlər və poçt bağlamalarının dəmir yolu ilə daşınması haqqında konvensiya bağlanmışdı. 1919-cu il martın 8-də Azərbaycanla Gürcüstan arasında dəmir yolu rabitəsi haqqında saziş imazalanmışdı. 1919-cu il iyunun 4-də Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında əlavə Zaqafqaziya bonu buraxılması haqqında saziş, 1920-ci il fevralın 5-də Bakıda Azərbaycanla Gürcüstan arasında tranzit yüklər haqqında müqavilə bağlanmışdı. 1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında imzanlanmış bu sənədlər hər iki ölkə arasında əməkdaşlığı inkişaf etdirməyə və iqtisadi əlaqələrin dərinləşməsinə imkan vermişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Rusiya ilə iqtisadi əməkdaşlığa da böyük əhəmiyyət verir, neft, pambıq və başqa ixrac məhsulları üçün Rusiya bazarının əhəmiyyətini nəzərə alırdı. 1920-ci il martın 30-da Sovet Rusiyası və Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalanmışdı. Lakin Rusiya Azərbaycanı qane edə biləcək bir sıra şərtlər vəd etsə də, onlara əməl etməmişdi [AXC Ensiklopediyası, I cild, 2004, s.60].

AXC ilə Türkiyə arasında siyasi münasibətlər, hərbi əməkdaşlıq ilə yanaşı iqtisadi əlaqələr də formalaşmışdır. Azərbaycan ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə, Azərbaycan Türkiyəyə neft və neft məhsulları göndərməyi öz öhdəsinə götürmüşdü. Lakin Türkiyəyə göndəriləcək neft Batumdan keçdiyi üçün Gürcüstan hökumətinin razılığı lazım idi. Azərbaycan və Gürcüstan arasında razılaşmadan sonra Gürcüstan hökuməti Bakıdan Türkiyəyə göndərilinən neft və neft məhsullarının 1918-ci ilin oktyabr ayından Batum vasitəsilə ötürülməsinə rəsmi icazə vermişdi [Azərbaycan tarixi, V cild, 2008, s.516]. AXC

hökuməti milli mücadilə aparan qardaş Türk xalqına da mənəvi və maddi yardımlar etmişdir. Türkiyədə milli mücadilənin ən başından etibarən AXC Anadoliya mənəvi dəstəklə yanaşı müxtəlif maddi yardımlar də göstərmişdir. AXC-nin o tarixlərdə yeni bir dövlət olduğunu nəzərə alsaq, maddi dəstək məsələsi çox önəmlidir, çünki özü dünyaya varlığını qəbul etdirmə, həyatda qalma mücadiləsi verməkdədir. Belə bir vəziyyətdə dəstəyinə ehtiyacı olduğu güclərin Türkiyədə Milli Mücadilə hərəkatının düşmənləri olmasına baxmayaraq əlindən gələn hər cür siyasi və iqtisadi köməyi verməyə çalışmışdır [Karabulut, 2018, s.123]. AXC hökuməti, Baş nazir Nəsib bəy Yusifbəyli vasitəsilə 1,5 mln. Fransa frankı dəyərindəki çek və neft sənədlərini Türkiyə Milli Mübarizə hərəkatının səlahiyyətli şəxslərinə təqdim etmişdir. Bu məsələ Mustafa Kamal Paşanının 18 may 1921 və 16 noyabr 1921-ci il tarixlərində TBMM-nin Bakı təmsilçisi Memduh Şevket (Esendal) bəyə yazdığı məktublarda da təsdiq edilmişdir. Birinci məktubda Mustafa Kamal, Memduh Şevket bəydən "İnqilabdan əvvəl, hökumət (AXC hökuməti) Mir Yusif Vəzirov (Yusif Vəzir Çəmənzəminli – C.B.) vasitəsilə müxtəlif çeklərlə bir milyon frank pul göndərmişdi. Bundan əlavə də müəyyən qədər pul göndərmişdi" deməklə, qeyd edilən məbləğin bir qisminin əllərinə çatdığını, ancaq bir milyon frank (qızıl) dəyərindəki yardımın AXC süqut etdiyinə görə göndərilmədiyini qeyd edir, Memduh Şevket bəydən bu pulun Şura Hökuməti tərəfindən təmin etmək üçün çalışmasını istəyirdi [Mustafayev, 2018, s.123-124]. Azərbaycanın Türkiyəyə (Milli Mübarizə Hərəkatına) maliyyə yardımları Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlamış, Şura hökuməti dövründə isə davam etdirilmişdir [Avşar, 2007, s.35]. Mustafa Kamal Paşa tərəfindən qələmə alınan ikinci məktubdan da yeni Azərbaycan hökumətinin Mustafa Kamal Paşanın bu istəyini müsbət qarşıladığı aydın olmaqdadır. Təxminən beş ay sonra yazdığı bu məktubda Mustafa Kamal, AXC hökuməti dövründə söz verilmiş yardımın reallaşması səbəbiylə məmuniyyətini ifadə edtmişdir [Mustafayev, 2018, s.123-124]. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində çekləri təqdim edilən pulun qalan bir milyon franklıq qismi ödənmişdir [Avşar, 2007, s.35].

Beləliklə, qısa müddət ərzində mövcud olmasına baxmayaraq AXC hökuməti mühüm iqtisadi əlaqələr qurmuş, müqavilələr bağlamış, qardaş

Türkiyə və Dağıstana özünün vəziyyətinin o qədər də yaxşı olmamasına baxmayaraq humanitar iqtisadi yardımlar göstərmişdir.

Ədəbiyyat siyahısı::

1. Abdulhamit Avşar. Türkiyənin istiqlal müharibəsində Azərbaycan türkləri: Türkiyə arxiv sənədləri və mətbuatında (1919-1922). Bakı, "AzAtaM" nəşriyyatı, 2007, 47 səh.

2. Azərbaycan tarixi (7 cilddə), V cild, Bakı, "Elm" nəşriyyatı, 2008, 696 səh.+40 səh. İlliüstrasiya.

3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. (İki cilddə), I cild, Bakı, "Lider" nəşriyyatı, 2004, 440 səh.

4. Cəbiyev Fərid. Türkiyə (Milli Mübarizə Hərəkatı) ilə Azərbaycan Xalq Cümhuriyyəti arasındakı iqtisadi əlaqələr. // Bakı Dövlət Universiteti, "Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika" adlı beynəlxalq elmi konfrans 21-23 may 2018-ci il, konfransın xülasələri, Bakı 2018, səh.123-124.

5. Kerem Karabulut. Türkiye (Milli Mücadele Harekatı) ile Azerbaycan (Halk Cumhuriyyeti) arasındakı ilişkiler. // Bakı Dövlət Universiteti, "Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk Parlamentli Respublika" adlı beynəlxalq elmi konfrans 21-23 may 2018-ci il, konfransın xülasələri, Bakı 2018, səh.123.

ÇINARƏ QABIL QIZI SƏFƏROVA
Azərbaycan Dövlət Aqrar Universiteti

# HEYDƏR ƏLIYEV STRATEGIYASI VƏ AZƏRBAYCAN RESPUBLIKASININ BEYNƏLXALQ MÖVQELƏRININ MÖHKƏMLƏNDIRILMƏSI

Açar sözlər: xarici siyasət,səfərlər, diplomatik əlaqələr,sazişlər

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə böyük dönüş başladı. Bu vaxta qədər bacarıqsız, işi bilməyən siyasətçilərin xidməti nəticəsində xarici siyasətdə buraxılan səhvlər beynəlxalq aləmdə Azərbaycan Respublikasına mənfi münasibət yaratmışdı. 1991-1992-ci illərdə xarici siyasət sahəsində respublikamızın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl xarici siyasət kursunun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Keçmiş iqtidarın düşünülməmiş bəyanatları üzündən yaxın qonşular olan Rusiya, İran,Mərkəzi Asiya dövlətləri ilə münasibətlər kəskinləşmişdi. [Hüseynova, 2004, 13]

Heydər Əliyevin hakimiyyətə qayıdışı xarici siyasətin düzgün aparılmasında və həyata keçirilməsində bir dönüş yaratdı. Heydər Əliyev ilk öncə qonşu ölkələrlə Azərbaycan arasında münasibətləri qaydaya salmaq məqsədi ilə iqtisadi, siyasi cəhətdən sıx əməkdaşlıq yaratdı ki, bu da müstəqil Azərbaycanın xarici siyasətində mühüm addım idi. Çünki, Heydər Əliyev bilirdi ki, düzgün siyasət aparmaq üçün ilk öncə sabitlik vacib şərtdir. Heydər Əliyev ölkədə Ermənistanla gedən müharibəni dayandırmaq üçün 1994-cü ildə "Atəşkəs" razılaşması imzaladı. Bu da Heydər Əliyevə xarici siyasətini həyata keçirməyə, Qarabağ probleminin həllində tədbirlər fikirləşməyə şərait yaratdı.

Azərbaycanın dünyada tanınması, dünya ölkələri ilə münasibətlər, əməkdaşlıq yaradılması üçün respublika prezidentinin xarici ölkələrə tarixi səfərləri başladı. Bu xarici səfərlərin Azərbaycan həqiqətlərini dünyaya

çatdırmaq, Azərbaycanla xarici dövlətlər arasında qarşılıqlı mehriban münasibətlər, iqtisadi əlaqələr yaratmaq, dünyaya inteqrasiya olunmaqda, respublikamızın bir çox problemlərinin, xüsusilə Dağlıq Qarabağ məsələsinin, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yollarının axtarılmasında mühüm rolu olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra 1992-ci il yanvar ayının 3-də Fransa onu tanıyan ilk ölkələrdən biri idi. Müstəqil dövlətin başçısı kimi prezidentin ilk rəsmi səfəri Fransaya (19-21 dekabr 1993-cü il) oldu. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra BMT və ATƏT kimi nüfuzlu təşkilatlara üzv olsa da, ancaq Heydər Əliyevin rəhbərliyi dövründə bu təşkilatlarla iş geniş miqyas almışdır. Heydər Əliyev Avropa Şurasında, NATO-da, beynəlxalq forum və yığıncaqlarda işgüzar söhbətlər və görüşlərdə, habelə dünyanın görkəmli siyasi və dövlət xadimləri ilə görüşlərində, dövlətlərarası tədbirlərdə, Azərbaycanı yüksək səviyyədə təmsil etmişdir.

Türkiyə müstəqil Azərbaycan dövlətini dünyada tanıyan ilk dövlət oldu. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra 1993-cü ilin yayından başlayaraq, Azərbaycan Respublikasının xarici siyasətində Türkiyəyə münasibətdə ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Azərbaycan Respublikası Prezidentinin Türkiyəyə ilk səfəri 1994-cü ilin fevralında olmuşdur. Bu bir həqiqətdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Türkiyənin dövlət başçıları -Turqut Ozal, Süleyman Dəmirəl, Əhməd Necdət Sezər, bütün hökumət başçıları respublikamızı həmişə möhkəm müdafiə etmiş, dəstəkləmiş, ona arxa olmuşlar. Hansı partiyanın hakimiyyətə gəlməsindən, hansı hökumətin qurulmasından asılı olmayaraq, Türkiyənin həmişə Azərbaycanla bir yerdə olacağını dəyişməz xətt elan etmişlər. Ulu öndərimizin 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi onu göstərir ki, Heydər Əliyevin Türk dünyasının birliyi yolunda böyük xidmətləri Türkiyədə də layiqincə qiymətləndirilir.[Türk Dünyasının birliyi ideyası və Heydər Əliyev.2011,s.90] Heydər Əliyevin Türkiyə ilə apardığı siyasətdə münasibətlər "İki dövlət, bir millət" prinsipinə əsaslanmışdır. 1991-ci il dekabrın 25-də Türkiyə ilə Naxçıvan arasında Araz çayı üzərində Ümüd körpüsün salınması, Azərbaycanın ilk səfirliyinin də məhz Türkiyədə

açılması, "Əsrin müqaviləsi"-nin imzalanması, TRASEKA lahiyəsi, BTC kimi böyük lahiyənin imzalanması Azərbaycan və Türkiyə münasibətlərinin birlikdə inkişaf etdiyini göstərirdi. Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevi «Çankaya» köşkündə qarşıladığı elə birinci gündə demişdi:«Azərbaycanla əlaqələrimiz heç də ikili xarakter daşımır. Qara Dəniz İqtisadi İş Birliyində, BMT, ATƏT-də, Şimali Atlantika Əməkdaşlıq Təşkilatında, İslam Konfransı Təşkilatında və üzv olduğumuz digər beynəlxalq təşkilatlarda da qarşılıqlı əlaqələrimizi zənginləşdirməyi və gücləndirməyi qərara aldıq» .[1. 1996, s. 38]

1993-cü il sentyabrın 20-də Azərbaycanın MDB-yə daxil olması, Alma-Ata bəyənnaməsi, Kollektivlik Təhlükəsizlik haqqında Müqavilə imzalanması mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanın MDB-yə üzv olması Rusiya-Azərbaycan münasibətlərinin yenidən inkişafına şərait yaratdı. Rusiyanın Aərbaycana qarşı mövqeyi Azərbaycanın Xəzərin status məsələsi ortaya çıxanda özünü göstərdi. 1994-cü il "Əsrin müqaviləsinin" imzalanması zamanı Azərbaycanın Xəzərin milli sektorlara bölünməsi məsələsində Rusiyanın Azərbaycanı dəstəkləməsi bu münasibətlərin işlədiyini göstərdi. Heydər Əliyev beynəlxalq təşkilatların rolundan istifadə etməyə xüsusi əhəmiyyət verirdi.Xüsusilə müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi, dünyanın iqtisadi siyasi prosesinə sıx cəlb olunması prosesinin dərinləşməsində görünürdü. Azərbaycan qısa müddətdə BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Türk Dövlətləri Birliyi (TDB), Müstəqil Dövlətlər Birliyi (MDB), Avropa Şurası (AŞ), Gürcüstan-Ukrayna-Özbəkistan-Azərbaycan-Moldova (GUÖAM), üzvü olmuşdur.

1994-cü və 1997-ci illərdə Heydər Əliyev bir prezident kimi ilk dəfə BMT-nin yüksək tribunasından çıxış etmişdi. Bu çıxışlarında respublikamız üçün ən ağır bəla olan Dağlıq Qarabağ problemi, onun səbəbləri və ölkəmizdə qaçqınlar probleminin yaradılmasını dünyaya çatdırmış, bu məsələlərin həll edilməsində BMT-nin öz qətnamələrini həyata keçirmədiyini yada salmış, qətnamələrin həyata keçirilməsində əməli tədbirlər görməyə çağırmışdı.

Dünyanın ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Ruminya, Yaponiya, Çin Xalq Respublikası, Türkiyə, İran, Pakistan və s. kimi aparıcı dövlətlərinə səfərlər edilmiş həmin ölkələrlə bərabərhüquqlu əlaqələr yaradılmışdı.[Mehdiyev. 2000, 174]

Heydər Əliyevin aprdığı xarici və daxili siyasətin ən uğurlu cəhətlərindən biri 2001-ci ilin yanvar ayının 11-də Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi idi. 2001-ci il aprelin 23-dən 27-dək İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilk dəfə olaraq tamhüquqlu üzv kimi Avropa Şurası Parlament Assambleyasının sessiyasında iştirak edərək azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilmiş soyqrımı haqqında sənədin tanınması,azərbaycanlı girov və hərbi əsirlərin Ermənistanda və Dağlıq Qarabağda saxlanılması barədə rəsmi sənədin qəbul olunması haqqında məsələ qaldırmış və belə bir sənədin qəbul edilməsinə nail olunmuşdu.

Ona görə də İlham Əliyev beynəlxalq aləmdə nüfuzlu siyasətçi kimi tanınınr. Heç də təsadüfi deyil ki, ABŞ konqresmeni Karen Makkarti İlham Əliyevi təkcə Azərbaycanda deyil,beynəlxalq aləmdə tanınmış siyasətçi adlandırmış, onunla hər zaman əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir.[Azərbaycan qəzeti, 2 fevral 2003-cü il]

Heydər Əliyev həyata keçirdiyi xarici siyasətinin nəticəsi olaraq Azərbaycan hal-hazırda dünyanın əksər dövlətləri ilə diplomatik münasibətlər yaratmışdır və planetin beynəlxalq əməkdaşlıq regionlarından mühüm bir hissəsinə çevrilmişdi.

Ədəbiyyat siyahısı:


1. Azərbaycan beynəlxalq aləmdə. I cild. Bakı, 1996, səh.81
2. Azərbaycan qəzeti, 2 fevral 2003-cü il
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu.Bakı 2004, s.205
4. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı 2000,
5. Türk Dünyasının birliyi ideyası və Heydər Əliyev. Bakı 2011,Elm və Təhsil, s.16

DAVUD SOLTAN OĞLU HƏŞIMOV
AMEA Fəlsəfə İnstitutu

# BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ IKILI STANDARTLAR

Açar sözlər: ikili standartlar siyasəti, beynəlxalq münasibətlər, dövlət, milli maraqlar, təhlükəsizlik

Müasir dövrdə ikili standartlar müəyyən bir hadisəyə dar, daha dəqiq desək şəxsi maraqlar prizmasından yanaşmadır. Həmin yanaşmada müxtəlif prinsiplər, qaydalar fəaliyyət göstərir.

İkili standartlar termini müasir ingilisdilli elmi ədəbiyyatlarda "double standart" kimi XIX əsrin ortalarında işlədilməyə başlanmışdır. Bu dövrdə həmin anlayışı kişi və qadınlara qarşı qeyri-bərabər əxlaqi tələblərin qoyulmasını bildirirdi. Keçmiş Sovet İttifaqında ikili standartlar kapitalist ölkələrində sinfi və irqi ayrı-seçkiliyi bildirmək üçün işlədilirdi. [ru.wikipedia.org/wiki]

Yeni dünya düzənində demək olar ki, artıq qəbul edilmiş standartlardan yan keçirilir. Bəs, ikili standartlar nədir? Qeyd etmək lazımdır ki, ikili standartlar mövzusu politologiya, tarix, fəlsəfə, sosiologiya, beynəlxalq münasibətlər nəzəriyyəsi, dünya iqtisadiyyatı, geosiyasət, konfliktologiya, milli təhlükəsizlik nəzəriyyəsi və digər elmlər tərəfindən tədqiq olunur. Bu o demək deyildir ki, həmin problem müasir dövrün məhsuludur. Biz hərb tarixinə nəzər salsaq görərik ki, ikili yanaşmalar bütün zamanlarda olmuşdur. İkili standartlar hadisəyə, hala, insanlara, onların hərəkətlərinin qiymətləndirilməsinə yönəldilmiş bir ayrı-seçkilik yanaşmasıdır. Ikili yanaşma bir sıra ədəbiyyatlarda ikili əxlaq, ikili yanaşma kimi də təhlil olunur. Fikrimizcə, ikili standartlar, yanaşmalar makiavellizmin prinsiplərinə daha yaxındır. Belə ki, müasir dünya siyasi proseslərində, geosiyasi və geoiqtisadi gedişatlarda italyalı filosof N. Makiavellinin "məqsəd vasitəyə bəraət qazandırır" şüarı təəssüf ki, əksər hallarda sanki öncül rol oynayır.

Müasir dövrdə ikili yanaşma prinsiplərinin getdikcə davam etməsi, proseslərin bilərəkdən öz məqsəd və maraqları zəminində izah edilməsi, problemlərin həll edilməməsində maraqlı olan tərəflərin olması, bu ya

digər məsələlər təhlükəsizlik məsələlərinə diqqətin daha da artırılmasına gətirib çıxarır.

Qloballaşan dünyada artıq ikili standartlar vasitəsi bir sıra dövlətlərin siyasətinə çevrilmişdir. Bu isə dövlətlərarasında indiyədək bərqərar olmuş diplomatik, etik, beynəlxalq hüququn və digər qaydalarına uyğun gəlməyən fəaliyyətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya siyasətində hökm sürən ikili standart prinsiplərinin təhlükəsizliyə, ümumi sabitliyə və inkişafa təhdid, münaqişələrin həll edilməsinə bir maneə kimi vurgulamışdır.

Akademik Ramiz Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı konseptual məqaləsində ikili yanaşmaların fəlsəfi, siyasi, tarixi təhlilini verir, dünya siyasətində mərhələlərini göstərir, məqamları qeyd edərək yazır: "XXI əsrdə Qərbin başqa regionlardakı dövlətlərə münasibəti yalnız forma etibarilə dəyişib. İnkişaf etmiş Qərb dövlətləri, o cümlədən ABŞ bu gün də əvvəlki kimi açıq-aydın ikili standartlar siyasəti yürüdür, insan hüquqlarından hökumətlərə təzyiq aləti kimi istifadə etməklə dünyanın əksər ölkələrinin daxili işlərinə qarışır." [Mehdiyev, http://apa.az]

Beləliklə, ikili standartlar siyasəti XXI əsrin aktual problemlərindən birinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, ikili standartlar müasir dövrün mühüm mövzularından biri olsa da, siyasi tarixdə də dövlətlərin siyasətində əsas yerlərdən birini tutub. Azərbaycan Respublikası son illər ikili standartların hədəfinə çevrilmişdir. Bir çox Qərb dövlətlərinin timsalında görürük ki, Azərbaycana, eləcə də bir sıra dövlətlərə qarşı ikili standartlar siyasəti yürüdülür.

Ədəbiyyat siyahısı:

1. Həsənov Ə.Azərbaycanın geosiyasəti. Bakı, Zərdabi LTD, 2015, 1054 s.

2. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 215 s.

3. Məmmədov H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, 2005, 215s.

4. Двойные стандарты // https://ru.wikipedia.org/wiki/% D0% 94%D0%B2%D0%BE

%D0%B9%D0%BD%D1%8B%D0%B5_%D1%81%D1%82%D0%B0%D0%BD%D0%B4%D0%B0%D1%80%D1%82%D1%8B
5. http://apa.az/daxili_siyaset/ramiz-mehdiyev-ikili-standartlarin-dunya-nizami-ve-muasir-azerbaycan.html

ELLADA MƏHƏMMƏD QIZI XANKIŞIYEVA
Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

## AZƏRBAYCANDA QIZIL HASILATI SƏNAYESININ BƏRPASINDA ÜMUMMILLI LIDER HEYDƏR ƏLIYEVIN ROLU

Açar sözlər: qızıl hasilatı sənayesi, qızıl ehtiyatları, qızıl yataqları, qeyri neft sektoru

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyə başladığı dövr iqtisadi tənəzzüllə xarakterizə olunsa da, məhz bu dünya şöhrətli siyasətçinin qəbul etdiyi son dərəcə dəqiq qərarlar, həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində həmin tənəzzülü sürətli tərəqqi əvəz etmişdir.

1994-cü ildə Xəzərin Azərbaycan sektorundakıkarbohidrogen ehtiyatlarının birgə işlənməsi təcrübəsinin uğurlu icrasından sonra, ölkədə digər sərvətlərin də xarici tərəfdaşlarla birlikdə səmərəli, xalqımızın milli maraqlarını tam təmin edən layihələrinin həyata keçirilməsinə başlamışdır. Beləliklə,1997-ci ilin avqustunda Azərbaycan hökuməti ilə Britaniya şirkəti R.V. İnvestment ölkənin cənub-qərbindəki Gədəbəy, Qoşa, Ordubad, Söyüdlü, Qızılbulaq və Vəcnəli qızıl, gümüş və mis yataqlarının birgə işlənməsi məqsədi ilə Hasilatın Pay Bölgüsü Sazişi (PSA) imzaladı.

Sahələr Azərbaycanın müxtəlif bölgələrində yerləşir: 1 - Naxçıvanda, 2 - Gədəbəydə, 3 - hazırda Ermənistanın işğalı altında olan Kəlbəcər və Zəngilanda. İşğal olunmuş ərazilərdə olan yataqları beynəlxalq müqaviləyə salınması uzaqgörən siyasətçi, Azərbaycanın ümummilli lideri Heydər Əliyev bu sahələrin Azərbaycana məxsus olduğunu beynəlxalq səviyyəsində tanınmasını təmin etdi.

Müqavilənin göstəricilərinə görə, bu yataqlarda təxminən 400 ton qızıl, 2500 ton gümüş və 1,5 milyon ton mis çıxarılması nəzərdə tutulur. Bu yataqlarda qızılın keyfiyyəti kifayət qədər yüksək olaraq qeyd olunur. Müqavilənin həyata keçirilməsi üçün zəruri olan ümumi investisiya 500 milyon dollardır. 3 il ərzində kəşfiyyatı nəzərdə tutan müqavilə 15 il müddətinə daha da genişləndirilməsi imkanı ilə hazırlanıb. Müqaviləyə əsasən, səhmlərin 49% -i Britaniya Anglo Asian Mining Plc-ə məxsusdur.

(R.V. İnvestment tərəfindən yaradılmışdır), 51% - Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin. Sazişə əsasən, gəlirlərin təxminən 80% -i Azərbaycana məxsusdur. Qeyd edək ki, PSA prinsipinə əsasən, cəlb edilmiş tərəflər ilk növbədə, metallardan hazırlanan məhsulların istehsalına görə investisiya xərclərini ödəməlidirlər. Qalanlar, müqavilədəki paya görə, tərəflər arasında mənfəət olaraq bölünür. Bu, qeyri-neft sektorunda ilk PSA sazişi idi.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin irsi olaraq Azərbaycanda son illərdə ölkənin inkişafının effektiv yollarını müəyyən etmək üçün işlər aparılır - iqtisadiyyatın innovasiyalı inkişafına, bütövlükdə iqtisadiyyatın, eləcə də sənaye sahələrinin və regionların məhsullarının rəqabət qabiliyyətliliyinə yönəldilmişdir. İqtisadi islahatların effektli bir dəsti həyata keçirilir və yeni iqtisadi mexanizmlərdən istifadə etmək üçün tədbirlər görülür.

Azərbaycan üçün qızılın iqtisadi və sosial-siyasi rolu Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci ilin fevralında "AzərGold" QSC-ni yaradılması ilə təsdiqlənir. Hal hazırda "AzərGold" QSC ölkənin ən iri və uğurlu şirkətlərindən biridir. Qeyd edək ki, indiki mərhələdə Azərbaycanda qızıl sənayesinin bərpası və inkişafı qeyri-neft sektorunun genişləndirilməsi yolu ilə iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş yeni iqtisadi siyasət çərçivəsində baş verir.

Qızıl ənənəvi olaraq valyuta metalıdır, dövlət ehtiyat fondunun rolunu oynayır və dövlətin iqtisadi gücünün sübutu kimi çıxış edir. Onun əksər payı pul kütləsinin sabitliyini təmin edən qızıl ehtiyatı şəklində saxlanılır, xarici ölkələrlə qarşılıqlı hesablaşma və dövlət borclarının ödənilməsi üçün istifadə olunur. Azərbaycan zəngin qızıl ehtiyatlarına malikdir və buna görə də qızıl sahələrin səmərəli istismarı və hasil olunan metalın rasional istifadəsindən ölkə iqtisadiyyatın səmərəli inkişafı asılıdır.

Buna görə də, qızıl hasilatı sənayesinin formalaşmasının və inkişafının tarixi təcrübəsinin öyrənilməsi və bütövlükdə iqtisadiyyata təsirinin qiymətləndirilməsi ölkəmiz üçün xüsusilə vacibdir. Qızıl hasilatı müəssisələrinin fəaliyyətində dövlətin təsiri olmadan qızıl mədənçiliyi bazasının inkişaf etdirilməsi, fərdi investisiyaların bu sahəyə cəlb edilməsi, kəşfiyyat işlərinin həcmini qorunması, sosial gərginliyin azaldılması vəzifələrini həll etmək mümkün deyil. Azərbaycanda öz qızıl emalı

zavodunun qurulması və bununla ölkədə özünə məxsus xammalının emalı, əlavə dəyərlə olan rəqabətqabiliyyətli məhsulların yaradılmasını və qiymətli metallar və daşların idxalın azalmasını təmin edəcək.

Nəticə etibarilə, Azərbaycanın qızıl hasilatı sənayesi, iqtisadiyyatın gənc sektoru kimi, perspektiv gələcəyə sahibdir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan dövlət informasiya agentliyi Azertac, Bakı 27 dekabr 2017-ci il
2. Xankişiyeva E.M. Azərbaycanın qızıl hasiledici sənayesi geosiyasi problemlər kontekstində/ Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər №4 2014 s.341
3. Xankişiyeva E.M. Azərbaycan Respublikası strateji qızıl ehtiyatlarını artırır / Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri/İqtisadiyyat seriyası №4 2013. Bakı-2013 s.166

ELMAN ƏDALƏT OĞLU ƏZIZOV
Azərbaycan Dövlət İqtisad Universiteti

# BEYNƏLXALQ NƏQLIYYAT DƏHLIZLƏRININ INKIŞAFINDA AZƏRBAYCANIN ROLU

Açar sözlər: Nəqliyyat, dəhliz, islahat, beynəlxalq

Son illər bütün inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına geniş diqqət ayrılmaqdadır. Ölkəmizin əlverişli coğrafı mövqe və geosiyasi şəraitə malik olması, onun dünya iqtisadiyyatına inteqrasiyasını zəruri edən başlıca amil olmuşdur. Əsrlər boyu formalaşmış nəqliyyat qovşaqları bu gün də ölkəmizin sürətli inkişafında çox böyük rol oynayır.

Qeyd etmək lazımdır ki, nəqliyyat sahələri arasında əlaqələrın tənzimlənməsi milli mənafelər baxımından çox böyük əhəmiyyət kəsb edir. Nəqliyyat iqtisadiyyatın elə bir infrastruktur sahəsidir ki, onun dövlət tənzimlənməsinə hər zaman ehtiyacı olacaqdır. Bir sıra genişmiqyaslı layihələrin həyata kecirilməsində ölkəmizin iştirakı onun tərəqqisində müstəsna rol oynayır və nəqliyyat - yol kompleksinin inkişafını zəruri edir. Respublikamız müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olunmağa, iqtisadiyyatın rəqabətqabiliyyətinin gücləndirilməsi istiqamətində islahatlar həyata keçirilməyə başlandı. Respublikamızda aparılan uğurlu iqtisadi islahatlar nəqliyyat sektoruna da təsirsiz qala bilməzdi. Nəzər yetirsək görərik ki, nəqliyyat sektorunda islahatlar çox uğurla həyata keçirilir. Nəqliyyatda islahatların aparılması, bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın artım fazasına keçməsi və nəqliyyatın işinin hüquqi əsaslarının yaradılması vahid nəqliyyat sisteminin formalaşmasına, nəqliyyat infrastrukturunun kompleks inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və iqtisadiyyatın inkişafı üçün müxtəlif nəqliyyat növlərinin inteqrasiyasına zəmin yaradır. 2017-ci il üzrə dünya ölkələrinin yük dövriyyəsinin həcminə nəzər yetirsək aydın olar ki, dövriyyənin 62%-i dəniz nəqliyyatı, 16%-i dəmir yolu, 11%-i boru kəməri, 8%-i avtomobil nəqliyyatı, 3%-i isə daxili su yollarının payına düşür.

Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın əlverişli nəqliyyat sisteminə malik olması dünya ölkələrinin marağına uyğun səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə münbit şərait yaradır. Azərbaycanın nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün dəmir yolu, dəniz nəqliyyatı, avtomobil, hava, boru kəməri nəqliyyatı sahələri geniş təhlil olunmalı və iqtisadi səmərəliliyi müəyyən olunmalıdır. Eyni zamanda müasir şəraitdə nəqliyyat qovşaqlarının əmələgəlmə xüsusiyyəti və buraxılış imkanları dərindən araşdırılmalıdır. Ölkənin iqtisadi rayonları üzrə nəqliyyat sistemi hər bir iqtisadi rayonun spesifik xüsusiyyətləri, daxili və beynəlxalq yükdaşımada nəqliyyatın imkanları qiymətləndirilməlidir [1].

İqtisadiyyatın digər infrastruktur sahələri ilə yanaşı, nəqliyyat cəmiyyətin sosial, iqtisadi xarici siyasətinin digər prioritet istiqamətlərinin həyata keçirilməsində iştirak edir.

Ölkəmizdə daha güclü nəqliyyat infrastrukturunun qurulması, milli nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası, nəqliyyat xidmətlərinə olan tələbatın tam ödə-nilməsi, istehsal olunmuş məhsulun maya dəyərində nəqliyyat xərclərinin azaldılması, nəqliyyatda təbii inhisarçılığın dövlət tərəfindən tənzimlənməsi məqsədilə nəqliyyat sisteminin inkişafına dair dövlət proqramları hazırlanıb qəbul olunmuşdur. İqtisadiyyatın müxtəlif sahələri arasında əlaqələrin təşkili, dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və əhalinin artan hərəkət dinamikliyinin təmin edilməsi üçün əsas infrastruktur sahə olan nəqliyyat ölkənin inkişafında çox böyük rola malikdir. Son illər iqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat sektorunda da özəlləşdirmə proqramlarına uyğun olaraq nəqliyyat - yol kompleksinə daxil olan müəssisələrin bir hissəsi özəlləşdirilmiş və bu sahədə işlər sürətlə davam etdirilir.

Ölkəmizdə nəqliyyat sektorunda dövlət büdcəsi, nəqliyyat qurumlarının daxili imkanları, özəl sektorun vəsaitləri və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi sayəsində cəlb olunan kreditlər və qrantlar hesabına son illər nəqliyyat infrastrukturunun inkişafına böyük məbləğdə investisiya qoyuluşları yatırılmışdır.

Avtomobil nəqliyyatı xidmətləri gündəlik həyat və fəaliyyətimizin ayrılmaz hissəsi olmaqla yanaşı, qloballaşma və dövlətlərin bir - birinə

inteqrasiyası kimi prosesləri də nəqliyyat əlaqələri, tranzit xidmətləri olmadan təsəvvür etmək qeyri mümkündür. Başqa sözlə desək, aparıcı inteqrativ əlaqələrdən olan nəqliyyat əlaqələri həm də milli iqtisadi inkişafın mühüm amili kimi qəbul edilə bilər. Ümumiyyətlə hər bir ölkənin nəqliyyat sisteminin vəziyyəti, coğrafi mövqeyi və tranzit imkanları onun dünyaya inteqrasiyasında və iqtisadi inkişafında mühüm rol oynayır. Bu baxımdan ölkəmizin əlverişli coğrafi mövqeyi onu Avropa və Asiya dövlətləri arasında obyektiv olaraq iqtisadi və geosiyasi körpü rolunu oynamağa vadar edir və respublikamızın beynəlxalq tranzitdə yaxından iştirakına şərait yaradır. Hal-hazırda isə TRASEKA, TASİS, İNOQEYT və s. iri regional layihələrin reallaşması ölkəmizin gələcəkdə milli nəqliyyat sistemi, beynəlxalq nəqliyyat layihələrinin yaratdığı tranzit xidmətlərindən daha çox faydalanmasına şərait yaradacaqdır. Bunun üçün Azərbaycan Respublikasında müasir standartlara uyğun nəqliyyat xidmətlərinin göstərilməsi, xidmətlərin keyfiyyətli, operativ və təhlükəsiz təşkilinə nail olmaqla mövcud potensialdan səmərəli istifadənin təmin olunması mümkündür ki, bu da milli iqtisadiyyatın dinamik inkişafı üçün zəruridir.

Digər tərəfdən məlumdur ki, Azərbaycanın iqtisadi qüdrətinin artmasında və dünyaya inteqrasiyasında, onun coğrafi strateji mövqeyi ilə yanaşı müxtəlif nəqliyyat növlərini əhatə edən beynəlxalq və regional layihələrin əhəmiyyəti də xüsusi qeyd edilməlidir. Bu layihələr dünya bazarlarına çıxışa imkan yaratmaqla, həm də ümumi iqtisadi inkişafa ciddi təkan verir. Deməli, istehsal prosesinin tamamlayıcısı və geniş təkrar istehsalın təmin edilməsinin mühüm amillərindən biri olan nəqliyyat sistemi, həm də ölkələrarası inteqrativ əlaqələrin də aparıcı istiqamətlərindən birinə çevrilməkdədir.

Araşdırmalardan aydın olur ki, bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan böyük neft strategiyası 1994-cü ilin sentyabr ayında 15 dövlətdən 33 şirkətin iştirakı ilə 21 müqavilənin imzalandığı "Əsrin müqaviləsi”nin reallaşması üçün labüd şərait yaratdı ki, bu da iqtisadiyyatın digər sahələri ilə yanaşı, nəqliyyat sektoruna da öz təsirini göstərdi. "Əsrin müqaviləsi" ilə milli nəqliyyat sistemində başlanmış müsbət dəyişikliklərin daha bir təkanverici amili isə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında Bakıda

keçirilmiş və qədim "İpək yolu"nun bərpasına həsr edilmiş beynəlxalq konfransla bağlıdır.

Məhz, bu səbəbdən də ölkənin nəqliyyat sistemində, nəqliyyat xidmətlərinin təşkilində böyük uğurlar əldə edilmiş, nəqliyyat xidmətlərinin keyfiyyəti yüksəldilmiş və eləcə də daşıma işlərinin nizamlanması istiqamətində ciddi addımlar atılmışdır. Nəqliyyat sektorunda aparılan quruculuq işlərinin və infrastruktur layihələrin nəticəsidir ki, son dövrlər olkənin iqtisadi inkişafında nəqliyyat sektorunda daha qabarıq şəkildə nəzərə çarpır. Belə ki, Ümummilli Lider Heydər Əlıyev tərəfindən qoyulmuş ənənəyə uyğun olaraq, hazırda da Azərbaycan Respublikasında nəqliyyat sektorunun müasir səviyyədə qurulması, infrastruktur sahələrin təkmilləşdirilməsi, yeni yolların və yol ötürücülərinin tikintisi istiqamətində iri beynəlxalq, regional və yerli layihələr həyata keçirilməkdədir. Respublikamızda magistral avtomobil yollarının beynəlxalq standartlara uyğun yenidən qurulması, qədim İpək Yolunun bərpası, regionlarda beynəlxalq səviyyəli hava limanlarının inşası, Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz kəmərlərinin çəkilişi, Bakı - Tbilisi – Axalkalaki - Qars dəmir yolunun tikintisinin başa çatması, paytaxt Bakı şəhərində biri - birindən yaraşıqlı, möhtəşəm körpülərin və digər yol ötürücülərinin istifadəyə verilməsi nəqliyyat sektorunun imkanlarını xeyli genişləndirmişdir.

Ümumilikdə isə, dünyada gedən qlobal proseslər və müstəqil Azərbaycan dövlətinin əldə etdiyi iqtisadi uğurlar ölkəmizin davamlı inkişaf etdiyini və onun regional güc mərkəzi kimi, artıq formalaşdığını bir daha sübut edir. Bütün bunlar artıq Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf yolunda olduğunu sübut edir, bu da uğurla reallaşdırılan yerli və beynəlxalq layihələrin real nəticəsidir. Bu layihələr nəticəsində milli nəqliyyat sisteminin uzunmüddətli inkişaf tempi təmin edilmiş, coğrafi - strateji mövqeyə uyğun çoxşaxəli tranzit potensialı formalaşmışdır.

Bu baxımdan 26 oktyabr 1998-ci ildə 32 ölkənin və 13 beynəlxalq təşkilatın iştirakı ilə «Böyük İpək Yolunun canlandırılması» mövzusunda keçirilən Beynəlxalq Bakı Konfransının qərarı ilə bərpa edilmiş Böyük İpək Yolunun (BİY) əhəmiyyəti əvəzedilməzdir.

Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşrutlarının kəsişməsində əlverişli geostrateji mövqedə yerləşən Azərbaycan Respublikasının nəqliyyat sektorunun inkişafı ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb etdiyini dəqiqliklə qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukraynadan ibarət 9 ölkənin dövlət başçısı, eləcə də 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi Tarixi İpək Yolunun bərpasına həsr olunmuş Beynəlxalq Konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır [1].

Avropa İttifaqı tərəfindən proqramın reallaşdığı dövr ərzində Azərbaycan Respublikasına investisiya layihələrinin maliyyələşdirilməsi üçün təxminən 16 mln. avro həcmində vəsait ayrılmışdır. TRASEKA Proqramı bu layihələrinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının nəqliyyat - yol kompleksi üçün müxtəlif maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Küveyt İqtisadi İnkişaf Fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) 255 milyon ABŞ dolları həcmində kreditlər alınmışdır. TRASEKA Proqramı və Böyük İpək Yolunun bərpa edilməsi ümumilikdə XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inkişafının təmin edilməsi nə qədər tez mümkün olarsa, Cənubi Qafqaz və Orta Asiya ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının Avropa və dünya ilə inteqrasiyası bir o qədər sürətli olacaqdır.

Qeyd etmək lazımdır ki, Şimal - Cənub nəqliyyat dəhlizi də, öz növbəsində ölkəmizin nəqliyyat əlaqələrinin genişləndirilməsi, tranzit ölkə kimi bu sahədən böyük həcmdə gəlirlər əldə etməyə və s. imkan verəcəkdir ki, bu da Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, Şimal - Cənub nəqliyyat dəhlizinin siyasi əhəmiyyəti də danılmazdır. Başqa sözlə desək, bu dəhliz həm də Rusiya Federasiyası ilə balanslaşdırılmış siyasətin bir nümunəsi kimi də qəbul edilə bilər.

Dəhliz boyunca xüsusi əhəmiyyətə malik olan avtomobil yolu hissələrindən, eləcə də Azərbaycanla İranı birləşdirən avtomobil yolların bir istiqaməti də Biləsuvar - İran sərhədi avtomobil yoludur. 19,5 km-lik bu yolun tikintisinin maliyyələşdirilməsi Azərbaycan tərəfinin hesabana həyata keçirilir ki, bu istiqamətdə də hal - hazırda tikinti - tamamlama işləri görülür.

Beləliklə, yekun olaraq bu nəticəyə gəlinir ki, Azərbaycan Respublikasının Şimal - Cənub nəqliyyat dəhlizinə qoşulması və dəhlizlə yük və sərnişin daşımalarında fəal iştirakı respublikamızın iqtisadi maraqlarına uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb olunmasına, yük həcminin çoxalmasına və gəlirlərinin artmasına, tranzit xidmətlərini büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməsinə, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına və digər problemlərin həllinə şərait yaradacaqdır [2].

Beləliklə, beynəlxalq layihələrin təsir istiqamətlərinin araşdırılmasından aydın olur ki, istər nəqliyyat sisteminin, istər ümumilikdə iqtisadiyyatın, istərsə də regionların sosial - iqtisadi inkişafında bu layihələr əhəmiyyətli rola malikdir. Eyni zamanda layihələrin müsbət təsirlərinin daha da artırılması, yəni beynəlxalq layihələrin səmərəliliyinin yüksəldilməsi bir sıra digər amillərdən də asılıdır. Belə ki, ümumi iqtisadi siyasətin, regional inkişaf siyasəti, xarici iqtisadi siyasət və s. tədbirləri beynəlxalq layihələrlə kompleks şəkildə uzlaşdırılmalıdır. Ümumiyyətlə, beynəlxalq nəqliyyat layihələri xarici iqtisadi əlaqələrin genişlənməsini təmin etməlidir [Кузьмин, 2010].

Ədəbiyyat siyahısı:

1. www.prezident.az/ Azərbaycanın nəqliyyat sektoru

2. Роль государства и частного сектора в предоставлении транспортной инфраструктуры и транспортных услуг (Операционного руководства). Вашингтон.: Изд. ВБ: Май, 2014, 35с.

3. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие Москва: Восток-Запад, 2010, 224 с.

ELMAR ŞIRINBALA OĞLU XƏLILOV
Sumqayıt Dövlət Universiteti

# AZƏRBAYCANIN XARICI SIYASƏT PRIORITETLƏRI

Açar sözlər: Beynəlxalq, geosiyasi, neft sektoru, iqtisadiyyat

XX əsrin sonunda dünyada baş verən qlobal proseslər beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi yaranmasına səbəb oldu. Son dövrlərdə tariximizə nəzər saldıqda ölkəmizin böyük nailiyyətlərə imza atmasının şahidi oluruq. Bu nailiyyətlər dövlətimizin beynəlxaq aləmdə imicinin artmasının və iqtisadi qüdrətinin günü-gündən yüksəlməsinin təkzibolunmaz nümunəsidir. Azərbaycanın qısa zaman ərzində uğurlu daxili və xarici siyasət yeritməsi, beynəlxalq aləmdə söz sahibinə çevrilməsi və region ölkələrini iqtisadi və hərbi gücünə görə geridə qoyması yuxarıda sadaladıqlarımızı bir daha təsdiq edir. Qətiyyətlə deyə bilərik ki, bu daxili və xarici siyasətin təməlində ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu düşünülmüş siyasət dayanır. Artıq Azərbaycan dünya ictimaiyyətinin diqqət mərkəzində olan və beynəlxalq aləmdə öz mövqeyini diktə etməyi bacaran ölkəyə çevrilib. Dünyanın aparıcı söz sahibinə malik olan ölkələri və onların nüfuzlu tədqiqat institutları da bu faktı dəfələrlə etiraf ediblər.

Azərbaycanın milli gəlirinin mühüm bir hissəsini və iqtisadiyyatının əsas qismini neft təşkil edir. 20 sentyabr 1994-cü il ölkəmizin müstəqil daxili və xarici siyasət yolunu seçməsində dönüş nöqtəsi olan həmin gün də dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ABŞ, Türkiyə, Norveç, Yaponiya, Böyük Britaniya, Rusiya və Səudiyyə Ərəbistanı kimi dövlətləri ilə Azərbaycan arasında "Əsrin müqaviləsi" kimi tarixə düşmüş neft kontraktı imzalanmışdır. Məhz bu müqavilə Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşularaq, beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratmışdır. Müqavilənin imzalanması ilə iştirak edən dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsas təməl qoyulmuşdur. Bununla da Azərbaycanın beynəlxalq aləmdə geosiyasi mövqeyinin daha da möhkəmlənməsi və dünya iqtisadiyyatına sürətli inteqrasiyası üçün münbit şərait yaranmışdır.

Onu da qeyd edək ki, bu uğurlu sazişin reallaşması ümummilli lider Heydər Əliyevin bir siyasətçi və dövlət xadimi kimi müdrikliyinin və gərgin zəhmətinin sayəsində mümkün olmuşdur.

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki rolu neft sektorundakı uğurlu nəticələrlə bitmir. Belə ki, müstəqilliyini yenicə qazanmış ölkəmizin gələcək taleyi ilə bağlı müxtəlif təşkilatlar tərəfindən ümidsiz proqnozlar səsləndirilsə də, ulu öndər Heydər Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət bütün bu fikirlərin üstündən xətt çəkmişdir. ATƏT-in Lissabon sammitində 2- 3 dekabr 1996 - cı ildə Heydər Əliyev yüksək siyasi iradə nümayiş etdirərək Azərbaycanın maraqlarını beynəlxalq aləmin gözü önündə qətiyyətlə müdafiə etmişdir. Həmin sammitdə 54 iştirakçı dövlət tərəfindən Avropada XXI əsrdə ümumi və hərtərəfli təhlükəsizlik modeli adlı bəyannamə qəbul edilmişdir. Bəyannaməyə qoşulan dövlətlərin təhlükəsizliyinə yönələn təhdidlər qeyd edilmiş və belə halları aradan qaldırmaq üçün qarşılıqlı əməkdaşlığın vacibliyi vurğulanmışdır. Lissabon Zirvə toplantısında Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə statusunun verilməsi də vilayətin bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəyanat ümummilli lider Heydər Əliyevin uğurlu siyasətinin bariz nümunəsidir.

Ölkəmizin enerji siyasəti bu gün dünyada mühüm və strateji rola malikdir. Qloballaşan dünyada enerji təhlükəsizliyi ən ümdə məsələlərdən biri sayılır. Son illər bu problem bəşəri əhəmiyyətli məsələ kimi dünyanın diqqət mərkəzində qalmaqdadır. Zəngin təbii sərvətlərə, davamlı iqtisadiyyata və müasir texnologiyalara malik olan müstəqil Azərbaycan dövləti dünyanın enerji təhlükəsizliyi məsələlərinin həllində beynəlxalq müstəvidə aparıcı mövqeyə malikdir. Qərbin enerji tələbatının ödənilməsinə önəmli töhfə verməsi Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin ilbə-il möhkəmlənməsinə səbəb olur. Bütün sadalananlara əsaslanaraq deyə bilərik ki, Azərbaycan beynəlxalq müstəvidə öz mövqelərini daha da gücləndirir.

Son illər nüfuzlu beynəlxalq təşkilatların, maliyyə qurumlarının Azərbaycan haqqında hesabatları və rəyləri də bu faktı təsdiqləyir. Məsələn, biznes mühitinin yaxşılaşdırılması sahəsində reallaşdırılan islahatlar, həyata keçirilən səmərəli tədbirlər nəticəsində "Dooing

Business" hesabatı Azərbaycanın nailiyyətlərini yüksək qiymətləndirib. Təbii ki, bütün bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış siyasət nəticəsində mümkün olmuş və ölkəmizi regionun ən güclü lider dövlətinə çevirmişdir.

Ədəbiyyat siyahısı:

1. Həsənov Ə.M.Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, 1998.
2. Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997). Bakı, 1998.
3. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.

ELNARƏ ELÇIN QIZI RƏHIMLI
Azərbaycan Dillər Universiteti

## BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ "ETNODINI MÜNAQIŞƏ" ANLAYIŞI

Açar sözlər: etnodini münaqişə, etnik qrup, din, ideologiya, etnik mənsubiyyət

Etno-dini münaqişə dedikdə, bir və ya bir neçə dövlətdə yaşayan, fərqli dinlərə ibadət edən etnik qruplar arasında baş verən elə bir münaqişə nəzərdə tutulur ki, dini baxışlar burada konfliktin səbəbi və/və ya mobilləşmə faktoru rolunda olsun.

Etnodini münaqişələrin yaranma səbəbini araşdırmamışdan öncə dinin münaqişələrdə oynadığı rola nəzər salmağı zəruri sayırıq. Din nədir? Klassik anlamda din bir ideologiyadır. Çünki hər bir ideologiyanın olduğu kimi dinin də bir çox xarakterik xüsusiyyətləri vardır:

- Din dünyanın idarəolunan olduğunu iddia edir;
- Gözlə görünməyən şeylərin gündəlik həyatda izahını verir;
- Sosial və siyasi quruluşun mövcudluğuna səlahiyyət verir;
- Fərdlərin dünyada və ictimaiyyətdə bir-birilə düzgün formada münasibət qurmağını müəyyənləşdirir. [Mark Juergensmeyer, 1993, 2]

Dinin yuxarıda qeyd olunmuş xüsusiyyətləri eyni zamanda onun sosial funksiyaları rolunu oynayır. Din insana dünyanı anlamağa və özünün bu dünyadakı yerini müəyyənləşdirməyə yardım edən mənbədir. Lakin belə mənbə rolunu yalnız din deyil, eyni zamanda etnik mənsubiyyət də oynayır. Etnik mənsubiyyət genişləndirilmiş ailə bağlarıdır ki, onlar insanın ailə tipli münasibətlərə və birliyə, emosional dəstəyə və qarşılıqlı yardıma, vasitəçiliyə və mübahisələrin həllinə daha geniş miqyasda kömək edir. [Donald L. Horowitz,1985, 1]

Bu minvalla etnik mənsubiyyət dindən fərqli olaraq daha maddi sayılan ehtiyacları da ödəyə bilir ki, bunların sırasında digər etnik qruplar və ya dövlətin hakimiyyət strukturları ilə münasibətlərin qurulması qeyd oluna bilər.

Dini zəmində baş verən münaqişələrin bir çoxu həm də etnik bazaya malik olduqlarından bu tip konfliktləri etno-dini adlandırmışdılar. Belə

konfliktlərə misal olaraq Livanda və İraqda baş vermiş vətəndaş müharibələrini, Yuqoslaviya müharibələrini, Fələstin-İsrail, Kəşmir, Cənubi Sudan münaqişələrini və bir çox digərlərini göstərmək olar.

Yerli siyasi ədəbiyyatda demək olar ki, istifadə olunmayan, lakin qərbdə son dövrlərin ən məşhur fenomeni olan etno-dini münaqişələrin nə olduğunu aydınlaşdıraq.

Ümumilikdə, etno-dini münaqişələri konfliktdə etnik və ya dini səbəblərin daha çox üstünlük təşkil etmə kriterisinə görə iki böyük qrupa ayırmaq mümkündür :

- Əksər etno-dini münaqişələr məhz etnik səbəblərdən baş verir və bu tip konfliktlərdə din etnik qrupları daha da çox fərqləndirən faktor və mobilləşmə üçün bəhanə rolunu oynayır. Nümunə olaraq Yuqoslaviya və Şimali İrlandiya (Olster) münaqişələrini qeyd etmək olar.
- Az qisim etno-dini münaqişələrin baş verməsinin əsas səbəbi isə məhz din olur. Misal olaraq Cənubi Sudan konfliktini gətirmək olar.

1. Bunlarla bərabər hər iki qrup konflikti birləşdirən iki mühüm cəhət vardır. Birincisi, etno-dini münaqişə kimi tanıdığımız bütün konfliktlər beynəlxalq təhlükəsizlik üçün böyük təhlükə mənbəyidir və əfsuslar olsun ki, təhlükə potensialını artırmaqdadırlar. Bu isə dünya ictimaiyyəti tərəfindən bu tip münaqişələrə olan diqqəti artırır. İkincisi isə, onların hər biri məhz etno-dini münaqişə kimi klassifikasiya olunur ki, bu da o deməkdir ki, konflikt müxtəlif dini baxışları olan iki fərqli etnik qrup arasında baş vermişdir. [Mark Juergensmeyer, 1993, 2]

Yəni əgər iki etnik cəhətdən fərqli, lakin eyni dinə ibadət edən qrup arasında münaqişə baş verərsə, bu artıq etnodini münaqişə olmayacaqdır. Səbəblərindən asılı olaraq onu etnik, etnosiyasi və digər tiplərə aid etmək mümkün olacaq. Eyni zamanda qeyd etmək lazımdır ki, eyni etnik mənsubiyyətə, lakin fərqli dini baxışlara malik olan qruplar da vardır. Bu tip qruplar arasında baş verən münaqişələri də etnodini adlandırmaq mümkün deyil, çünki bu artıq dini münaqişələr kateqoriyasına aiddir.

Ədəbiyyat siyahısı:

1. Donald L. Horowitz "Ethnic Groups in Conflict", Berkeley: University of California Press, 1985
2. Mark Juergensmeyer "The New Cold War", Berkeley:University of California, 1993

ELNUR HƏŞIM OĞLU KƏLBIZADƏ
AMEA Qafqazşünaslıq İnstitutu

## ERMƏNISTAN - İRAN MÜNASIBƏTLƏRININ IKILI TƏBIƏTI VƏ PROQNOZLAŞDIRILAN PERSPEKTIVLƏRI

Açar sözlər: Ermənistan, İran, siyasət, ikitərəfli münasibətlər, Qafqaz

2018-ci ildə keçirilən prezident seçkiləri bir sıra təhlilçilər tərəfindən Ermənistan Respublikasının siyasi tarixində dəyişikliklər dövrünün başlanğıcı olduğu kimi, həm də Ermənistanın xarici siyasətində dəyişikliklər mərhələsi hesab edilir. Armen Sarkisyanın prezident vəzifəsinə yiyələnməsindən sonra Serj Sarkisyanın özünü baş nazir təyin etdirməsi fonunda Ermənistanda baş verən hadisələr də, ABŞ və Avropanın bəzi qurumlarının qeyri-rəsmi maliyyə yardımları ilə gerçəkləşməkdə idi. Baş nazir postuna təsdiqlənməsinə qədərki mərhələdə qatı anti-rus mövqeyindən çıxış edən, xüsusən ABŞ və Avropa ölkələrinin dəstəklədiyi şəxs kimi özünü Ermənistan cəmiyyətinə təqdim edən Nikol Paşinyan 2018-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin Baş Assambleyasından sonra İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşdü. İki qonşu dövlətin rəhbərlərinin okeanın o tayında – Nyu-Yorkda görüşmələri erməni hiyləgərliyinin başqa bir göstəricisi idi. Sanki Nikol Paşinyan ABŞ-a İran İslam Respublikası ilə münasibətləri məhz sizin nəzarətiniz altında quracağıq mesajını verməyə çalışırdı. Xatırlamaq lazımdır ki, hələ Paşinyanın baş nazir seçilməsindən sonra İran İslam Respublikasının Prezidenti Həsən Ruhani onu təbrik edərək İrana səfərə dəvət etmiş, lakin Nikol Paşinyan o dəvəti gözardı etmişdi. Yeni baş nazir dəvəti sadəcə 7 ay sonra dəyərləndirmişdi.

2018-ci ilin noyabrında Nikol Paşinyanın mətbuata verdiyi açıqlamada da ABŞ icazəsinin əhəmiyyəti hiss edilirdi. ABŞ-dan alınan icazənin göstəricisi olaraq Nikol Paşinyan qeyd edirdi: *"ABŞ vəziyyətimizi və siyasətimizi anlayır" [asbarez, 2019].*

2019-cu ilin fevralında hökumət proqramının açıqlanmasından sonra İran İslam Respublikası ilə münasibətlərin yenidən canlandırılması üçün addımlar atılmağa başlandı. Qeyd etmək lazımdır ki, 2018-ci ilin

aprelindən sonrakı mərhələdə Ermənistanda baş verən prosesləri diqqətlə izləyən İran İslam Respublikası tərəfi də bu ölkə ilə əlaqələrini sıxlaşdırmağa çox da meyil etmirdi. Rəsmi Tehrana bəlli idi ki, geosiyasi dəyişikliklərin getdiyi belə bir mərhələdə Türkiyə və Qafqazın lider dövləti olan Azərbaycan Respublikası ilə əlaqələri sıxlaşdırmaq, Ermənistan Respublikası ilə hansısa iqtisadi ehtiyatlar üzərindən alış-veriş etməkdən daha vacibdir. Digər tərəfdən Nikol Paşinyanın simasında yeni dalğanın Atlantik okeanının o tayından üfürüldüyünü başa düşən İran İslam Respublikası Ermənistanla ən mühüm ortaq layihələr sayılan İran-Ermənistan dəmiryolu xətti və sərhəddə Azad İqtisadi Zonanın yaradılması ilə bağlı addımlar atmaqda və imzalanan sənədləri ratifikasiya etməkdə tələsmir. Heç də təsadüfi deyildir ki, 2019-cu ilin fevralın 27-də Ermənistanın yeni baş naziri N.Paşinyanın İrana nəzərdə tutulan səfər proqramına İran İslam Respublikasının rəsmiləri ilə bu məsələlərin müzakirəsi əsas istiqamətlər kimi salınmışdı [armeniasputnik, 2019].

Səfər ərəfəsində Ermənistan mətbuatı İrana isti münasibət nümayiş etdirən xeyli yazılar dərc etdi. Halbuki, Ermənistanın bəzi mətbuat orqanları 2017-ci ildə İran prezidentinin Yerevana səfərini o vaxt elə təqdim edirdi ki, sanki bu ölkənin düşdüyü siyasi və iqtisadi böhranın əsas təqsirkarı İran İslam Respublikasıdır. "News arm", "Armenia Report" saytları, Tehranda yaşayan erməni əsilli politoloq və bloqqerlər Prezident Həsən Ruhaninin Ermənistana rəsmi səfəri zamanı qondarma "soyqırımı" abidəsini ziyarət etməməsini yazır, bu səfərin Ermənistan üçün heç bir iqtisadi faydasının olmayacağını diqqətə çatdırırdılar.

Ermənistan mətbuatı İran İslam Respublikasından Ermənistana dəmiryolu tikilməsinə tez-tez toxunaraq, guya əməkdaşlığın yüksək səviyyədə olması görüntüsü yaratmağa çalışırdı. Halbuki, İran-Ermənistan dəmiryolunun tikilməsi iqtisadi baxımdan əlverişli deyildi və bu, İran İslam Respublikasına yaxşı məlum idi. Səbəb isə Ermənistanın ixrac potensialının çox aşağı olması idi. Müqayisə üçün qeyd etmək lazımdır ki, Nikol Paşinyanın səfəri ərəfəsində "Theiranproject.com" saytı İran İslam Respublikasının ixrac potensialı haqqında hesabat yayımlamışdı. İran Baş Dövlət Gömrük İdarəsinin məlumatında yazılırdı ki, 2018-cı ilin 9 ayı ərzində İrandan məhsul idxal edən ölkələr arasında birinci yerdə İtaliya, ikinci yerdə isə Azərbaycan dayanır. Azərbaycan Respublikası həmin

müddətdə İrandan 502 milyon 128 min 355 dollar həcmində məhsul almışdı. Ermənistan isə İrandan cəmi 160 milyon dollarlıq məhsul idxal etmişdi [Kətanov, 2019].

Nəhayət, 2019-cu il fevralın 27-də Nikol Paşinyanın Ermənistanın baş naziri kimi İran İslam Respublikasına ilk səfəri baş tutdu. Qeyd etmək lazımdır ki, bu dövrə qədər Nikol Paşinyan iki dəfə İran İslam Respublikasında olmuşdu. İlk dəfə o qəzet müxbiri kimi, ikinci dəfə isə Ermənistan Milli Assambleyasının deputatı kimi səfər etmişdi. Baş nazir kimi səfəri çərçivəsində Nikol Paşinyanın İranın Ali Dini Lideri Ayətulla Əli Xamneyi, Prezident Həsən Ruhani və İran Məclisinin (parlament) sədri Əli Laricani ilə görüşlərinin keçirdi. Əslində tərəflərin bütün diplomatik gedişlərinə, Ermənistan mətbuatının səfərin yüksək səviyyəli olduğu ilə bağlı təbliğatına baxmayaraq, imzalanan sənədlərin sayı, onu İran İslam Respublikası tərəfdən imzalayan qurumların statusu və sənədlərin mahiyyəti İran İslam Respublikasının Ermənistanın yeni baş nazirinə heç də tam güvənmədiyinin göstəricisi idi.

Beləliklə, İran İslam Respublikasının Ermənistan siyasətinin, iki dövlət arasındakı münasibətlərin təhlili göstərir ki, bu illər özündən əvvəlki illərlə müqayisədə xaraktercə fərqlənir. Birmənalı şəkildə qeyd etmək olar ki, Nikol Paşinyanın Ermənistan Respublikasının baş naziri vəzifəsini ələ keçirməsindən sonrakı illərdə Ermənistan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlərdə tənəzzül başlamışdır. Özünü daha çox Amerika Birləşmiş Ştatları və Avropa ölkələrinin dəstəklədiyi lider kimi nümayiş etdirməyə çalışan Nikol Paşinyan İran İslam Respublikasına münasibətdə ilk dövrlərdə tam mənfi və saymazyana mövqe nümayiş etdirmişdir. Hətta bir çox məsələlərdə Qərb dövlətləri ilə məxfi razılaşmalarda Ermənistanın İran İslam Respublikasına qarşı ərazisindən rezidentura fəaliyyəti ilə bağlı şərait yaratdığı haqqında informasiyalar da olmuşdur. Ermənistanın yeni baş nazirinin İran İslam Respublikasına səfərinə qədərki dövrdə bu məsələlərlə bağlı informasiyaları və ehtimalları dəyərləndirən İran İslam Respublikası bu istiqamətdə Ermənistan üzərində olan nüfuzunu qoruyub saxlamaq üçün bir sıra cəhdlər göstərmişdir. Ermənistanın da iştirakı ilə Şimal-Cənub dəhlizinin yaradılmasına göstərilən dəstək də məhz İran İslam Respublikasının Ermənistan üzərindəki nüfuzunu itirmək istəməməsinin göstəricisi hesab

etmək olar. Tədqiqatlar həmçinin onu da göstərir ki, İran İslam Respublikasının erməni diasporasının təbliğat imkanlarından istifadə etmək istəklərinə baxmayaraq, İran İslam Respublikasındakı erməni icması və Ermənistanın hazırda yürütdüyü siyasət İran İslam Respublikası üçün ciddi problemlər doğura bilər.

Ədəbiyyat siyahısı:

1. Kətanov R. Paşinyanın İran səfəri və doğrulmayan ümidlər. 02.03.2019, https://azertag.az/xeber/Pasinyanin_Iran_seferi_ve_dogrulmayan_umidler-1253526 [06.04.2019]
2. Pashinyan Rules Out Change In Armenia's Policy On Iran. 21.11.2018, http://asbarez.com/176289/pashinyan-rules-out-change-in-armenias-policy-on-iran/ [11.02.2019]
3. Большие ожидания от секретной повестки: с чем Пашинян вернется из Ирана. 19.02.2019, https://ru.armeniasputnik.am/politics/-20190219/17378689/bolshie-ozhidaniya-ot-sekretnoj-povestki-s-chem-pashinyan-vernetsya-iz-irana.html [04.04.2019]

ELNUR ELBRUS OĞLU ZEYNALOV
Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu

# BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMININ INKIŞAFINDA QIYMƏTLI KAĞIZLAR BAZARININ ROLU

Açar sözlər: Qiymətli kağızlar bazarı, qiymətli kağızların emissiyası, pul yığımları, maliyyə riskləri, uçot funksiyası, nəzarət funksiyası

İnkişaf etmiş ölkələrin təcrübəsi sübüt edir ki, ölkə iqtisadiyyatının inkişaf etməsi, qiymətli kağızlar bazarının inkişafına təkan verir. Bu proses kapitalın xüsusi bir forması kimi çıxış edir. Bu baxımdan kapitalın bir forması kimi qiymətli kağızın özünəməxsus cəhətlərindən, yaranma tarixi və müasir inkişaf istiqamətləri xüsusi maraq doğurur. [1]Digər əmtəə mübadilə formalarından fərqli olaraq, qiymətli kağızlar bazarda əmtəə kimi təklif olunmaq, və mənfəət gətirmək imkanına malikdir. Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən - qiymətli kağız hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan bazarda əmtəə kimi təklif ouna, nə də mənfəət əldə etmək hüququna malik olmur. Bu hüquqlar təsdiqləndikdən sonra, qiymətli kağızlar üzrə bütün hüquqlar qarşı tərəfə keçə bilər. [2]

Qiymətli kağızların özünün müxtəlif təsisatı və məqsədli aspektləri, bu sahədəki mövcud problemlərin daim araşdırılmasını tələb edir. Qiymətli kağızlar və fond bazarı dövlət və beynəlxalq bütün növ müəssisələrin maliyyələşdirmə mənbələri olduğunu nəzərə alaraq, kiçik müəssisələrin öz qiymətli kağızlarına sahib olmasına şərait yaradılması vacib olur.

Müasir dövrün tələblərinin daha çox olmasının əsas amillərindən biri qiymətli kağızlar bazarına olan tələbatdır. Azərbaycanda qiymətli kağızlar bazarı infrastrukturunu sxem №1-də daha yaxşı görmək olar.

Qiymətli kağızlar bazarının infrastrukturu

| | | |
|---|---|---|
| İnvestisiya şirkətləri | | Depozitar |
| | Fond bazarı | |
| Şirkətlər | | İnvestorlar |

Qeyd: Sxem müəllif tərəfindən tərtib olunub
Sxem № 1 de göstərildiyi kimi, Qiymətli kağızlar bazarının infrastrukturunu

Kapital əldə etmək məqsədi ilə, biznes sahələri üçün gəlir əldə etmək istəyən şirkətlər əsasən səhmlər və istiqrazlar buraxırlar. Səhmlər və istiqrazlar demək olar ki, ən geniş yayılan qiymətli kağızlardır. Səhm və istiqrazlardan əlavə şirkətlər tərəfindən müxtəlif məqsədlər üçün buraxılan qiymətli kağızların, bir sıra növləri vardır. Azərbaycan Respublikası qanunlarına əsasən, səhm və istiqrazlar investisiya qiymətli kağızları hesab olunurlar və onların buraxılmasında əsas məqsəd hər hansı biznesin fəaliyyəti üçün investisiya cəlb etməkdir. [1]

Ölkədə neft hasilatının yüksək olması amili, qiymətli kağızlar bazarının inkişafına birbaşa və dolayı təsir edir. Belə ki, Azərbaycanda ən çox alınan qiymətli kağız, Dövlət Neft Şirkətinin (SOCAR) daxili bazar üçün buraxdığı SOCAR istiqrazlarıdır. 2016-cı ilin sentyabr-oktyabrında daxili bazar üçün nəzərdə tutulmuş SOCAR istiqrazları 100 milyon dollar həcmində, 5 illik müddətə və illik 5% gəlirliklə buraxılmaqla, 2017-ci ilin ilk iki ayı ərzində Azərbaycanın qiymətli kağızlar bazarında istiqrazlarla 38,6 milyon dollarlıq və ya 69,7 milyon manatlıq əməliyyat həyata keçirməklə, istiqraz bazarında aparılan əməliyyatların 76%-dən çoxunu təşkil etmişdir. [2]

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı bir çox amillər inkişafından asılıdır. Respublikamızda qiymətli kağızlar bazarının müasir tələblər baxımından inkişaf etdirilməsinə bu müstəvidən baxmaq lazımdır. Ölkədə aparılan iqtisadi islahatlara nəzər saldıqda, belə bir nəticəyə gəlirik ki, Azərbaycanda iri həcmli investisiyalara kəskin ehtiyac vardır və respublikaya sivil fond birjasının yaradılması lazımdır. Bu istiqamətdə ölkədə bir çox tədbirlər aparılır ki bunlardan bir, Respublikada Dövlət və kooperativ istiqraz vərəqələrinin, səhmlərin, veksellərin və digər qiymətli kağızların buraxılması, yerləşdirilməsi, alqı-satqı mexanizminin vasitəsilə ictimai təkrar istehsalın bütün sferalarının genişləndirilməsi üçün zəruri olan investisiya mənbələri formalaşdırılır. Eyni zamanda respublikada, dövlət mülkiyyətinin özəlləşdirilməsi işinə başlanmışdır. Bu sahədə qiymətli kağızları müəssisələrin maliyyə

resurslarını və əhalinin əmanətlərini cəlb etmək və ondan daha səmərəli istifadə etmək məqsədi ilə buraxılır. Qiymətli kağızlar bazarı bir qayda olaraq müəssisələrin, eləcə də bankların təsərrüfat əməliyyatlarının maliyyələşdirilməsinin əlavə mənbəyi kimi çıxış edirlər. [4]

Qiymətli kağızlar bazarının inkişaf etdirilməsində əsas məqsəd, bu və ya digər qiymətli kağızların satış əməliyyatlarından əldə edilməsi ilə deyil, həm də onların lazım gəldikdə sərfəli qiymətlərlə satılmasını saxlamaq, və qiymətli kağızlarla əməliyyatlar iqtisadi şəraitdən asılı olaraq aşağıdakı formalarla daha çox təşəkkül tapmasına nail olmaqdan ibarətdir. Nəticə olaraq onu demək olar ki, Azərbaycan Respublikasında qiymətli kağızlar bazarın səmərəli fəaliyyəti üçün aşağıdakı amillərin olması məqsədə uyğundur:

- müxtəlif iqtisadi ərazilərdə satış bazarının formalaşmasına nail olmaq;
- mütəşəkkil və qeyri-mütəşəkkil fəaliyyət göstərən bazarların;
- birja daxili və birjadan kənar fəaliyyət göstərən bütün növ bazarların formalaşmasına şərait yaradılması;
- ənənəvi üsullardan və informasiya texnologiyalarından istifadə etməklə qiymətli kağızlar bazarının elektron sferasının yaradılmasına nail olmaq;
- ölkə ərazisində kiçik biznes sahələrini inkişaf etddirmək;
- qiymətli kağızların satışı üzrə ixtisaslaşan ilkin bazarın yaradılması.

Yuxarıda göstərdiyimiz kimi, Azərbaycan hökumətinin həyata keçirdiyi monetar siyasət təsdiqləyir ki, Azərbaycanda qiymətli kağızlar bazarının formalaşma xüsusiyyətləri, inkişafı və onun dünya maliyyə bazarına inteqrasiyası problemləri aktual əhəmiyyət kəsb edir. Qlobal iqtisadi böhranın Azərbaycan qiymətli kağızlar bazarına təsiri ən aktual məsələlərdən biridir. Hazırda, Azərbaycanın maliyyə sektorunda vəziyyət müsbətdir və dinamik inkişaf tempi qorunub saxlamasına baxmayaraq, qlobal iqtisadi böhranın təsirlərindən qorunmaq baxımından, Azərbaycan inkişaf etmiş ölkələrin təcrübəsindən yararlanması olduqca əhəmiyyətli olardı.

Mövzunu ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2010-cu il tarixli 358 nömrəli

Fərmanının 13-cü bəndinə uyğun olaraq "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafına dair Dövlət Proqramı"nın layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidenti 16 may 2011-ci il tarixli Sərəncamı ilə "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramını təsdiq etmişdir. Dövlət Proqramının başlıca məqsədi ölkəmizin ərazisində qiymətli kağızlar bazarının formalaşdırılmasıdır. [6]

Dövlət Proqramı çərçivəsində qiymətli kağızlar bazarının inkişafı üçün müəyyən olunmuş vəzifələrin mərhələlərlə həyata keçirilməsi ilə bərabər, ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına inteqrasiya olunması üçün müvafiq şəraitin formalaşdırılması vacib amillərdəndir. [5]

Ədəbiyyat siyahısı:

1. https://president.az/articles/15831

2.http://banco.az/az/article/azerbaycanda-en-cox-alinan-qiymetli-kagiz-melum-oldu

3. Banklar haqqında normativ-hüquqi aktlar toplusu Z.F. Məmmədovun elmi redaktorluğu ilə hazırlanmış. Bakı, Qanun, 2009. 1092 s.

4. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi. www.scs.gov.az

5. Bakı Fond Birjasının materialları. www.bse.az

6. http://www.e-qanun.az/framework/20908

ELŞƏN NAZIM OĞLU MƏCIDOV
Azərbaycan Dillər Universiteti

NIKOL PAŞINYANIN SIYASI-PSIXOLOJI PORTRETI

Açar sözlər: Nikol Paşinyan, Ermənistan, Dağlıq Qarabağ

Ermənistan Respublikasının hökümət başçısı Nikol Paşinyanın siyasi-psixoloji portretinin hazırlanması üçün nəzəri baza qismində motivasion analiz, intent analiz, aydın zehni səbəbiyyət nəzəriyyəsi, psixoanaliz, historiometriya, liderlərin inteqrativ mürəkkəblik analizi çıxış etmişdir.

Ermənistan Respublikası Silahlı Qüvvələri ali baş komandanı olan Nikol Paşinyanın siyasi-psixoloji portretinin hazırlanması istiqamətində toplanan çoxlu sayda informasiyanı dörd sahə üzrə qruplaşdırmaq məqsədəuyğundur: a) fərqləndirici xüsusiyyətlər, b) funksional xüsusiyyətlər, c) idarəetmə stili, d) ailə-məişət xüsusiyyətləri. Bununla belə, məlum səbəblərdən tezisdə yalnız fərqləndirici xüsusiyyətlərin təhlilindən bəhs olunacaq. Fərqləndirici xüsusiyyətlər öz növbəsində özünə manipulyasiya, eqosentrizm, dəyanət, üsyankarlıq, populizm, dəyişkənlik, şəxsiyyətlərarası münasibət, ehtiyatlılıq kateqoriyalarını daxil edir.

Manipulyasiya. Ermənistanın baş naziri Nikol Paşinyanın şəxsi keyfiyyətlərində müşahidə olunan əsas xüsusiyyətlərdən biri öz fəaliyyətində və nitqində manipulyativ fənnlərdən geniş istifadə etməsidir. Fikir ayrılıqlarının hökm sürdüyü ölkədə özünə tərəfdar toplamaq məqsədilə Nikol Paşinyan, əsas düşmən obrazı qismində xalqın böyük əksəriyyətinin nifrət etdiyi Serj Sarkisyanı seçmişdi.

Eqosentrizm. N. Paşinyanın şəxsiyyətində müşahidə olunan xüsusiyyətlərdən digəri onun eqosentrik təbiətə malik olmasıdır. N. Paşinyan ilə İrəvan Dövlət Universitetində birgə təhsil alan Alina Ordyana əsasən: «əvvəllər və indi o özünün haqlı olduğuna inanır və bunu dəstəkləyəcək intellektə malikdir» [3].

Dəyanət. N. Paşinyanın şəxsiyyətində nəzərəçarpacaq xüsusiyyətlərdən biri onun zənginliyə can atmamasıdır. Tərəfdarları N. Paşinyanın daim dəyanətli olduğunu vurğulayırlar. N. Paşinyana qarşı hüquq-mühafizə orqanları tərəfindən indiyə qədər edilən ittihamlar

arasında korrupsiya və ya maliyyə məsələləri üzrə maddələr müşahidə olunmamışdır.

Üsyankarlıq. Vikiliks internet portalının yayımladığı məxfi dövlət sənədlərinə əsasən prezident seçkilərində Levon Ter-Petrosyanın namizədliyini dəstəkləyən N. Paşinyan, Ter-Petrosyanın digər tərəfdarları ilə birlikdə siyasi yürüş təşkil etdiyinə görə digər 11 nəfər ilə birlikdə erməni polisi tərəfindən yaxalanmışdı. Buraxılan siyasi fəalları sadalayan sənəd müəllifləri öz növbəsində Nikol Paşinyanı radikal müxalifət olan İmpiçment Blokunun lideri kimi xarakterizə etmişdilər [2].

Populizm. N. Paşinyanın tərəfdarları onu xarizmatik lider kimi qiymətləndirsələr də, tədqiqat obyektinin bioqrafiyasının və çıxışlarının dərin analizi verilən qiyməti təsdiqləməyə imkan vermir. Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyində də populistik meylliklər hiss olunmaqdadır. 2011-ci ildə Ermənistanın birinci prezidenti L. Ter-Petrosyanın komandasında olan N. Paşinyan, münaqişənin həllinə daha mülayim mövqe nümayiş etdirirdi. Həmin dövrdə L. Ter-Petrosyanın açıqlamasına əsasən «Ermənistan Milli Konqresi hakimiyyət və Artsax xalqı tərəfindən qəbul edilən istənilən qətnaməni dəstəkləyəcək» [1].

Dəyişkənlik. Ümumən götürəndə N. Paşinyan öz fəaliyyəti müddətində dəfələrlə baxışlarında dəyişikliklər etmişdir. 2017-ci ildə iki digər müxalifət partiyası ilə «Çıxış» blokunu yaradan N. Paşinyan, öz bloku ilə parlament seçkilərində iştirak etmişdir. Digər müxalifət partiyaları seçki nəticələrinin saxtalaşdırılmasını israr etsələr də N. Paşinyanın bloku 8%-lik göstərici ilə parlamentə daxil ola bildiyi üçün, seçkilərin nəticələrini qəbul etmişdilər. L. Ter-Petrosyanın qruplaşmasında olan müddətdə Dağlıq Qarabağ münaqişəsinə nisbətən mülayim münasibət bəsləyən N. Paşinyan, 2 may tarixində tərəfdarları qarşısında çıxışında «yaşasın Dağlıq Qarabağ Respublikası, hansı ki, Ermənistan Respublikasının ayrılmaz hissəsi olmalıdır» [5] cümləsini işlədir. Baş nazir seçildikdən sonra isə separatçı rejimin müstəqil dövlət kimi Ermənistan və Azərbaycan arasında gedən danışıqlara qatılması təklifi ilə çıxış etdi.

Ehtiyatlılıq. N. Paşinyanın üsyankar xasiyyəti onun ehtiyatlılıq dərəcəsi ilə düz tarazlaşdırılır. 2008-ci il toqquşmalarından sonra hüquq-mühafizə orqanlarından qaçan N. Paşinyan, 16 ay müddətində zirzəmilərdə gizlənirdi. Zirzəmidə bir il yaşadıqdan sonra dövlət, 2008-ci il

iğtişaşlarında iştirak edən şəxslərə amnistiya verəcəyini elan edir. Amnistaniyanın vəd olunmasına baxmayaraq N. Paşinyan təslim olmağa tələsmir və məlumatın alternativ mənbələrdən təsdiqlənəcəyinə qədər əlavə bir neçə ay zirzəmini tərk etmir.

Ədəbiyyat siyahısı:

1. [OS] Armenia - ANC warns authorities against stalling for time; urges to meet demands, The Global Intelligence Files // https://wikileaks.org/gifiles/docs/30/3064242_-os-armenia-anc-warns-authorities-against-stalling-for-time.html
2. Apparent Crackdown On Ter-Petrossian Supporters, from Armenia Yerevan to Group Destinations Commonwealth of Independent States | Millennium Challenge Corporation | Secretary of State, TE - Telegram (cable), 2007 October 24, 12:23 (Wednesday) // https://wikileaks.org/plusd/cables/07YEREVAN1279_a.html
3. Carroll Oliver, Nikol Pashinyan: Who is Armenia's protest leader and probable next prime minister // https://www.independent.co.uk/news/world/europe/nikol-pashinyan-armenia-opposition-leader-prime-minister-biography-a8334861.html
4. Nikol Pashinyan Biography // https://www.thefamouspeople.com/profiles/nikol-pashinyan-40776.php
5. Ваал Томас, Национализм или демократия. Как перестроечная Армения помогает понять нынешнюю // https://carnegie.ru/commentary/76267
6. Маркедонов Сергей, Почему в Армении удалась бархатная революция // https://carnegie.ru/commentary/76157

EMIL RAUL OĞLU AĞAYEV
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

# OQTAY SADIQZADƏ YARADICILIĞINDA "HEYDƏR ƏLIYEV" OBRAZI

Açar sözlər: Heydər Əliyev, rəng, kompozisiya

Ölkənin ictimai, mədəni və siyasi həyatında mühüm yer tutan şəxsiyyətlərin obrazları rəssamlarımız tərəfindən öz tablolarında canlandırılmışdı.Ümummilli lider Heydər Əliyevin incəsənətə göstərdiyi qayğı, rəssamlarla olan səmimi münasibəti və dostluğu, bir çox portretlərin yaradılmasına gətirib çıxardı. Asif Azərelli, Ömər Eldarov, Rafael Abbasov və başqalarının yaradıcılığında "Heydər Əliyev dühasını" görmək olar. Daxili aləmin psixologiyasını, rəng, məkan, kompozisiyada bitkinliyi – bütün bu deyilənləri ilk yaradılan portretin müəlliflərindən biri Oqtay Sadıqzadədir.(1921-2014)

O.Sadıqzadənin portretlərində rəssamın qəhrəmanlarına rəğbəti,portretini çəkdiyi adama onun hörməti və marağı həmişə hiss olunur.Onun modellərindəki incə liriklik, canlılıq adamı təsvir olunan şəxsiyyətin daxili aləminə dərindən şərik olmağa çağırır. Sanki o, Enqrın tapşırığını yerinə yetirir "Hər portretin üzərində işləyərkən birinci növbədə onu etməlisən ki, gözlərini dilləndirə biləsən"

"Heydər Əliyev"-ə həsr edilən portret janrında kətan, yağlı boya texnikasıyla təsvir edilən kompozisiyada şimali Avropa intibahının rəngkarlıq prinsiplərini hiss etmək olar.Əsərin mərkəzində monumental formada təsvir edilən, baxışları ilə öz xalqının gələcəyini fikirləşən obraz yaradılmışdı. Əllərin quruluşunda rəssam işıq-kölgə prinsipindən istifadə etmişdir.Dinamik formada əks etdirilən portretdə soyuq və isti rənglərin sintezindən, qızıl bölgüdən istifadə edən Oqtay Sadıqzadə yaradıcılığının əsas xüsusiyyətləri kimi vurğulanmalıdır.Rəssam kompozisiyada məkan həllində üslubların sintezindən istifadə etmişdir. Kresloda-rokoko, memarlıq orderində-klassisizm, interyerin təsvirində barokkonun incə elementlərinin əks etdirilməsi tamaşaçının diqqətini əsər üzərinə çəkir.

Kompozisiyada simvollardan da istifadə edilmişdir. Arxa fonda yaşıl rəngin əks etdirilməsi islam ölkəsi olduğumuza, obrazın əlindəki sərəncam əsərin gizli təsvir metodu kimi qiymətləndirilməlidir. Oqtay Sadıqzadənin "Heydər Əliyev" kompozisiyasında Avropa və milli təsviri sənət ənələrimizi duya bilərik.

Rəssamın fırçasıyla yaratdığı möhtəşəm portreti gələcək nəsillər üçün mühüm və qiymətli sərvətdir......



Ədəbiyyat siyahısı:

1) Qafarzadə Rima "Oqtay Sadıqzadə portret yaradıcılığında ədəbi simalar silsiləsi", Mədəni həyat 2012 №5, s 56-60

2) Nəcəfov Mürsəl "Oqtay Sadıqzadə yaradıcılığı" (monoqrafiya), Bakı 1968

EMIL ABGÜL OĞLU QASIMOV
Azərbaycan Dillər Universiteti

# FRANSA ILƏ MÜNASIBƏTLƏRDƏ AZƏRBAYCAN MƏDƏNIYYƏT DIPLOMATIYASININ ISTIQAMƏTLƏRI

Açar sözlər:Azərbaycan, Fransa, mədəniyyət diplomatiyası, münasibətlər, muzey

Şərq və Qərb sivilizasiyası qovşağında yerləşən və özünəməxsus mövqeyi ilə seçilən Azərbaycan mədəniyyətlərin qovuşduğu tarixi məkandır. Tarixi mədəni əlaqələri olan Fransa-Azərbaycan münasibətləri sovetlər birliyinin süqutundan sonra yeni müstəvidə inkişaf etməyə başladı. 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulması mədəni əlaqələrin yeni müstəvidə inkişaf etdirilməsinə güclü təkan verdi.

Müstəqilliyimizin ilk illərindən Azərbaycan və Fransa arasında qurulan dostluq və əməkdaşlıq əlaqələri 2009-cu ildə daha da intensivləşmışdır. Ölkələr arasında mədəniyyət diplomatiyasının təbliği istiqamətində Mədəniyyət və Turizm Nazirliyi xüsusi rol oynamişdir. 2009-cu il 2 fevral tarixində Muzey Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Fransanın "Maison des cultures du monde" Assosiasiyası arasında imzalanmış müqaviləyə əsasən istehsal olunmuş "Aşıq musiqisi antologiyası" diskinin təqdimat mərasimi keçirilmişdir [Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat 2006-2010, 65]. Bu Fransa hökuməti tərəfindən Azərbaycan aşıq sənətinə verilən qiymətin nəticəsidir. Fransa Respublikasının Paris və Strasburq şəhərlərində Aşıq musiqisi konsertlərinin təşkili məqsədilə Azərbaycan Aşıqlar Birliyinin rəhbərliyi altında 8 nəfərdən ibarət nümayəndə heyəti 2009-cu ilin mart ayında Fransaya səfər etmişlər. Səfər çərçivəsində ilk olaraq Fransanın "Maison des Cultures du Monde" Assosiasiyasının Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birgə 29 mart 2009-cu il tarixində Parisin məşhur Luvr Muzeyinin Auditorium zalında, daha sonra isə 30 mart 2009-cu il tarixində Strasburq Konservatoriyasının konsert zalında aşıq və musiqiçilərimiz çox yüksək səviyyədə çıxış edərək Azərbaycan

mədəniyyətində xüsusi yer tutan aşıq sənətini xarici vətəndaşlara sevdirməyə nail olmuşdur.

Azərbaycan aşıq musiqisi həmçinin 18-20 may 2009-cu ildə YUNESKO-nun Baş Qərargahında təşkil edilmiş "Müxtəliflik Bayramı" konsert-tamaşası zamanı da təbliğ edilmişdir. Aşıqlarımız çox yüksək səviyyədə iştirak etməklə tamaşaçıları müxtəlif aşıq havaları ilə tanış etmişlər.

Luvr Muzeyi ilə imzalanmış əməkdaşlıq üzrə protokolun icrası ilə əlaqədar olaraq konkret məsələlərin müzakirə edilməsi məqsədilə Nazirliyin Muzey işi üzrə məsul işçisi 2009-cu ilin iyun ayında Paris şəhərinə səfər etmişdir.

Nazirliyin əməkdaşı Azərbaycan Dövlət Film Fondunun yeni binasının müasir avadanlıqla təchiz edilməsi ilə əlaqədar Fransanın "Debri" şirkətinin təqdim etdiyi avadanlıqlara yerində baxılması məqsədilə Paris şəhərinə ezam edilmişdir.

2009-cu il 26 noyabr tarixində Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının ölkəmizdəki Səfirliyinin birgə təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində fransız pianoçu Loran Josum və fleytaçı Katrin Dürinin iştirakı ilə konsert keçirilmişdir [Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2009-cu ildəki fəaliyyəti haqqındakı hesabatı].

İki ölkə arasında mədəniyyət diplomatiyasının istiqamətlərindən biri də universitetlər arası əlaqələrdir. Bu istiqamətdə Fransa səfirliyinin dəstəyi ilə 2009-cu ilin fevralında Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "XX əsr fransız memarlıq irsi" adlı sərginin açılış mərasimi olmuşdur. Səfir Qabriel Keller tərəfindən Universitetin rektoru G.Məmmədovaya təhsil sahəsində göstərdiyi səmərəli xidmətlərinə görə Fransanın "Akademik palma" ordenini təqdim etmişdir. Azərbaycanlı tələbələrin rəsm sərgisinin açılışı və mədəniyyət sahəsində digər birgə layihələrin həyata keçirilməsi, ümumilikdə ölkələr arasında mədəni fəaliyyətin inkişafına xidmət edən istiqamətlərdən biridir [Azərbaycan qəzeti, 2009, №33].

Azərbaycan-Fransa arasında münasibətlərin inkişafı istiqamətində 2009-cu il 18-22 may arasında Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) respublikanın müvafiq dövlət qurumlarının dəstəri ilə "Dəniz və çay sahili şəhərlərinin müasir urbanizmi" mövzusuna

həsr olunmuş Fransa, Mərkəzi və Şərqi Avropa Memarlıq məktəbləri Birliyinin (REA) 14-cü toplantısı işə başlamışdır. Hər il keçirilən bu ilki toplantıda 7 ölkənin 18 milli ali memarlıq məktəblərinin müəllim və tələbələri iştrak etmişlər. Mövzu ilə bağlı iştrakçı universitetlərin tələbələri arasında Bakının Bibiheybət ərazisinin reabilitasiyası və yeniləşməsi üzrə müsabiqə təşkil edilmişdir.

REA qrumunu yaradan Fransa memarlıq məktəbləridir. Sonradan bu təşkilata Avropanın müxtəlif ali məktəblərinin memarlıq universitetləri qoşulmuşlar. Azərbaycandan bu quma ilk olaraq 2004-cü ildə AzMİU üzv olmuşdur. Qrumun məqsədi memarlıq sahəsində mütəxəssislər hazırlayan ali məktəblər arasında əlaqələri genişləndirməkdir [Azərbaycan qəzeti, 2009, №106]. Fransanın təşəbbüsü ilə yaradılan REA çərçivəsində münasibətlər yalnız iki ölkə arasında deyil həmçinin, Azərbaycanın quma daxil olan digər ölkələri ilə əməkdaşlığında mühüm əhəmiyyət kəsb edir. Qruma üzv olan ölkələr arasında təkcə memarlıq sahəsində deyil həmçinin mədəniyyət sahəsində də münasibətlərin genişləndirilməsinə diqqət ayrılır.

XXI əsrdə iqtisadi cəhətdən simasını dəyişən Azərbaycan xarici informasiya vasitələrinin də diqqətini cəlb etməkdədir. Avropanın əksər ölkələrində yayımlanan "Luxe TV" kanalı sentyabrın 12 və 13-də hər 3 saatdan bir təkrar olaraq Azərbaycanın dünəni və bu günü haqqında bir saatlıq veriliş nümayiş etdirmişdir. Verilişin incəsənətə həsr olunmuş hissəsində Azərbaycan Tarix Muzeyndəki zəngin eksponatlar, Xalça muzeyindən hazırlanmış hissədə Azərbaycan xalçaçılığının özünəməx-susluğundan, eyni zamanda Azərbaycanın füsunkar mətbəxindən, ayrı-ayrı rəsm əsərlərindən və digər mədəniyyət istiqamətində hazırlanan veriliş ölkəmizi fransızlara tanıtmaq baxımdan əhəmiyyətlidir [Azərbaycan qəzeti, 2009, №206].

Milli mədəniyyətimizin təbliğinə özünəməxsus töhfələr verən müxtəlif ölkələrinin fəxri adları o cümlədən 1987-ci ildə Fransa Rəssamlıq İnstitutunun fəxri üzvü seçilmiş Azərbaycan rəssamı T.Salahov Fransa hökuməti tərəfindən növbəti dəfə mükafatlandırılmışdır. Parisdə nəşr edilən "La lettre diplomatique" jurnalının avqust 2009-cu il sayında Fransa Mədəniyyət Nazirliyi tərəfindən "İncəsənət və ədəbiyyat" ordeninin

yüksək "Zabit" dərəcəsinə layiq görülməsi haqqında yazı dərc olunmuşdur [Azərbaycan qəzeti, 2009, №208].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8-9 dekabr 2009-cu ildə Fransaya rəsmi səfər etmişdir. Səfər çərçivəsində İ.Əliyev müxtəlif səviyyəli görüşlər keçirmişdir. Aparılan görüşlər əlaqələrin genişlənməsinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı. Nəzərə alsaq ki, 2004-2009-cu illər ərzində 5 dövlət və 2 rəsmi səfər həyata keçirilib ki, bu da əlaqələrimizin yaxşı göstəricisidir [Əliyev İ. İnkişaf- məqsədimizdir, 65-77].

Rəsmi səfər çərçivəsində 9 dekabr tarixində " Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şərtləri haqqında Saziş" imzalanmışdır [Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2009-cu ildəki fəaliyyəti haqqındakı hesabatı]. Dövlət və rəsmi səviyyədə keçirilən görüşlər iki ölkə arasında mədəniyyət diplomatiyası əlaqələrini daim artan qarşılıqlı anlaşma və hörmət şəraitində kök saldığının göstəricisidir.

Ümumdünya səviyyəsində mədəniyyət sahəsində ixtisaslaşmış və mərkəzi Parisdə yerləşən YUNESKO təşkilatı ilə əməkdaşlıq fəaliyyətimizin prioritet hissəsini təşkil edir. 2009-cu ilin 28 sentyabr – 02 oktyabr tarixində BƏƏ-nin Abu-Dabi şəhərində keçirilən YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Komitəsinin 4-cü sessiyasında Azərbaycan Aşıq sənəti və Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irsin Reprezentativ siyahısına daxil edilmişdir [Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat 2006-2010, 72-73]. Bu təşkilatın həyata keçirdiyi mədəniyyət layihələrində ölkəmizin iştirakının təmin edilməsi istiqamətində görülən səmərəli işlər böyük əhəmiyyətə malikdir.

Dünya siyasətində xüsusi nüfuza və təsirə malik Fransa ilə münasibətlərin yüksələn səviyyəsi Azərbaycanın beynəlxalq mövqeyinin artmasına təsir edir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat 2006-2010. Bakı, 2011, 102s.

2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2009-cu ildəki fəaliyyəti haqqındakı hesabatı // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin cari arxivi. 2010-cu il.

3. Əliyev İ. İnkişaf- məqsədimizdir. 39-cu kitab noyabr 2009-fevral 2010. B.,2017, 400 s.

4. Memarlıq və İnşaat Universitetində Fransa sərgisi açılmışdır //«Azərbaycan» qəzeti, 2009, 12 fevral, №33(5137).

5. Fransa, Mərkəzi və Şərqi Avropa memarlıq məktəblərinin 14-cü Bakı toplantısı öz işinə başladı //«Azərbaycan» qəzeti, 2009, 19 may, №106(5210).

6. Fransa televiziyasında Azərbaycanla bağlı veriliş yayımlanmışdır //«Azərbaycan» qəzeti, 2009, 16 sentyabr, №206(5310).

7. Fransız jurnalında görkəmli rəssam Tahir Salahov barədə yazı verilmişdir//«Azərbaycan» qəzeti, 2009, 19 sentyabr, №208(5312).

ETIBAR ADIL OĞLU MUSAYEV
Gəncə Dövlət Universiteti

# ÇINƏ ENERJI TƏHLÜKƏSIZLIYI SIYASƏTI VƏ XƏZƏRYANI ÖLKƏLƏR

Açar sözlər: ABŞ, Rusiya, BTC, TANAP, Qazaxıstan

XX əsrin ən mühüm məsələlərindən biri enerji təhlükəsizliyi siyasətidir. Bu siyasət əsasən Avropanın əsas aparıcı dövlətləri və ABŞ başda olmaqla dünyanın inkişaf etmiş və etməkdə olan ölkələrinin xarici siyasətində mühüm yerdə durur. Bu siyasətə qoşulan böyük dövlətlər özlərinin enerji təhlükəsizliyini təmin etmək üçün yeni-yeni enerji mənbələri ələ keçirtmək uğrunda böyük mübarizəyə qoşulmuşdular. Dünyanın böyük təbii sərvətlərinə malik oalan SSRİ kimi bir imperiyanın süqutundan sonra ondan ayrılmış gənc müstəqil dövlətlərin təbii sərvətlərinə, zəngin karbohidrogen ehtiyyatlarına nəzarət uğrunda dərin mübarizə başladı. Əlbəttə, enerji təhlükəsizliyi məsələsi hələ 1974-cü ildən başlamışdır. Dünyada gedən gərgin siyasi proseslər bir çox dövlətlərin enerji təminatını təhlükə altına almışdır. Dünyada obyektiv və subyektiv səbəblərdən baş verən münaqişə ocaqları və bu ocaqların da xüsusilə də enerji ilə zəngin olan Yaxın Şərq regionunda olması, bu regiondan enerji daşıyan dövlətlərin enerji təhcizatında problemlərin yaşanması bu regiondan enerji təchizatını təmin edən bir çox dövlətlərin öz enerji təhlükəsizliyini təmin etmək üçün alternativ enerji qaynaqları əldə etməsi siyasətini reallaşdırmışdır. Belə dövlətlərdən biri də həm əhalisinin sayına, həm də böyük işçi qüvvəsinin olduğu Çin kimi dövlətin xarici siyasətində enerji təhlükəsizliyini təmin etmək məqsədilə aktivləşməsinə səbəb oldu.

Çin XX əsrin 90-cı illərində yeni bir enerji siyasətinə başladı. Pekinin bu istiqamətdə yeritdiyi siyasət Mərkəzi Asiya ölkələrinin karbohidrogen ehtiyatlarını maneəsiz əldə etmək və neft və qaz idxalı üçün etibarlı marşrutların yaradılması kimi məqsədlərə nail olmağa əsaslanırdı. Ardıcıl olaraq bu hədəflərin diqqətli və davamlı şəkildə həyata keçirilməsi Mərkəzi Asiyada Çinin ehtiyaclarına cavab verən yeni bir boru kəməri infrastrukturunun formalaşmasına imkan verdi. Bu, Böyük İpək Yolunun

tarixi irsinə söykənən və Mərkəzi Asiya ölkələrinə qarşı Çin siyasətində siyasi və iqtisadi dəyişiklikləri əks etdirən Böyük Neft və Qaz xətlərinin formalaşması barədə danışmaq üçün əsas yaratdı.

SSRİ-nin dağılması nəticəsində onun ərazisində yeni müstəqil dövlətlərin formalaşması ilə dünyanın siyasi xəritəsində geosiyasi dəyişikliklər baş verdi ki, bu da enerji daşıyıcılarının bir çox yeni boru kəməri layihələrinin ortaya çıxmasına gətirib çıxardı. Bu layihələrin bəziləri Qərbi Avropanın neft və qaz tədarükü ilə bağlıdır, digərləri isə Mərkəzi Asiya ölkələrindən Çinə karbohidrogen ehtiyatlarının ixracı üçün infrastrukturun yaradılmasına yönəlmişdir. Dünyanın çox dövlətləri karbohidrogen ehtiyatlarına malik olsa da, dünyada elə dövlətlər vardır ki, onların heç birinin enerji ehtiyatı yoxdur və enerji ixrac edən ölkələrdən enerji baxımından asılıdır. Dünyanın geniş və zəngin təbii sərvətlərinə malik SSRİ-nin dağılması dünyanın enerji layihələrinin dəyişilməsinə gətirib çıxardan beynəlxalq siyasi proseslərin yeni mərhələsinə başlamağa məcbur etdi. Əlbətdə SSRİ-nin özündən ayrılan dövlətlərin həm enerji baxımından, həm də geostrateji mövqeyi baxımından əhəmiyyətli dərəcədə diqqət cəlb etməsi dünya siyasətində xüsusi çəkiyə malik dövlətlərin toqquşan maraqlarının mərkəzinə çevrildi. Məhz Xəzər regionu belə maraqların toqquşan düyün nöqtəsinə daxil oldu.

XX əsrin 70-ci illərindən başlayaraq dünyada enerji təhlükəsizliyi siyasətinin aparıcı dövlətləri bu regiona öz maraqları baxımından daha çox diqqət ayırmağa başladılar. Dünya iqtisadiyyatında xüsusi çəkiyə malik dövlətlər regionda enerji payı uğrunda mübarizəyə başladılar. Bu mübarizədə əsasən Avropanın aparıcı dövlətləri, ABŞ, Çin, Yaponiya və enerji ixrac edən bir çox dövlətlər-İran, Səudiyyə Ərəbistanı və s. dövlətlər iştirak edirdi.

Böyük Neft və Qaz xəttinin formalaşmasına yanaşmaların və bu ideyanın həyata keçirilməsi mərhələlərinin təhlili böyük maraq doğurur. Çin, siyasi və maliyyə çətinliyinə və qeyri-regional dövlətlərin Orta Asiyadakı fəaliyyətinə baxmayaraq, geosiyasi məkanda region ölkələrini əhatə edən yeni enerji axını yaratmağa nail olmuşdur. Bu gün Çin Xalq Respublikasının yaratdığı yeni marşrutlar tətbiq olunur.

"Böyük Neft və Qaz xətti" konsepsiyası bir neçə mərhələdən keçib və hər biri müxtəlif amillərdən, ilk növbədə qeyri-sabit geosiyasi vəziyyətdən,

karbohidrogen ehtiyatları haqqında məlumatın dəyişdirilməsindən, karbohidrogen ehtiyatlarına olan tələbatın və dünya bazarlarında neft və qazın qiymətinin, texnoloji imkanları yeni çətin sahələrin inkişafına yönəltməkdən ibarətdir [Zhiltsov S.S. ,76-87]. Bu baxımdan Çin region ölkələrinin energetika sektorunda iştirakını gücləndirmək, geniş miqyaslı yeni boru kəməri layihələrini təşviq etmək üçün siyasətini davam etdirir.

1992-ci ildə illik nəql gücü 30 milyard kubmetr həcmində, uzunluğu 8000 km olan Türkmənistan-Çin-Yaponiya qaz kəməri layihəsi qəbul edildi. Çin Neft Mühəndisliyi və Tikinti Korporasiyası onun tikintisinə qatıldı. Məqsəd Türkmənistandan Cənub-Şərqi Asiyaya qaz nəqli yaratmaq idi. Çinə neft tədarükünün konkret müzakirəsi 1997-ci ilin sentyabrında Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri Li Pengin Qazaxıstana rəsmi səfəri zamanı olmuşdur.

İmzalanmış müqavilə Qazaxıstanın neft və qaz sənayesindəki investisiyaların 11 milyard dollar təşkil edəcəyini və neft yataqlarının inkişaf etdirilməsinə və Qərbi Çin və İrana neft boru kəmərlərinin çəkilməsinə yönəldiyini təsdiq etdi. Çin şirkətinin prioritetləri ya iqtisadi səbəblərdən (CNPC-nin iki tender üçün ümumi xərcləri təxminən 500 milyon dollar təşkil etmişdi), ya da siyasi səbəblərdən - neft boru kəmərinin tikintisi layihələri ilə dəstəklənən strateji tərəfdaşlıq vədinə verilmişdir[Сыроежкин К.Л., 160]. Qazaxıstandan Çinə neft boru xətti layihəsinin texniki-iqtisadi əsaslandırmasına görə nəql edilən neftin həcmi ildə 20 milyon tondan az olmalı idi.

ÇXR tərəfindən bu tapşırığın həyata keçirilməsi Mərkəzi Asiya dövlətlərinin xarici siyasət kursunu asanlaşdırır və Çinin Rusiyadan asılılığını azaltmaq üçün bir vasitə kimi görür. Bundan başqa, region ölkələri öz mövqelərini möhkəmləndirən nəqliyyat infrastrukturunun daha da inkişaf etdirilməsində maraqlıdırlar[АбжекеноваН., 17 ноября 2014]. Öz növbəsində, Çin istiqaməti karbohidrogen ehtiyatlarının tədarükündə Türkmənistan və Qazaxıstan üçün prioritet olaraq qalır[Жильцов С.С, 320].

Uzunmüddətli perspektivdə Çin siyasəti karbohidrogenlərin tədarükündə Qazaxıstan-Çin-Çin və Türkmən-Çin əlaqələrini daha da sıxlaşdırmağa yönəlib. Buna görə də, Çin regionda artıq olduqca güclü

mövqeyə baxmayaraq, Mərkəzi Asiya ilə əlaqələri gücləndirməyə davam edir[Муминов А.14 мая 2015. С. 1.].

Çin belə maraqlarını təmin etmə üçün Orta Asiya enerji mənbələrinə və Çinə uzanan neft –qaz kəmərlərinə yaxın olan Azərbaycan respublikası ilə yaxınlaşmağa da üstünlük verir.

2003-cü il iyunun 4-də Bakıda Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında «Pirsaat» neft yatağında və ona bitişik ərazidə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsünə dair müqavilə imzalanmışdır[«Respublika» qəzeti 5 iyun 2003; «Azərbaycan» qəzeti 5 iyun 2003].

Ədəbiyyat siyahısı:

1. «Azərbaycan» qəzeti №126 (3439) 5 iyun 2003, səh.16.
2. «Respublika» qəzeti, №126 (1763) 5 iyun 2003, səh.3;
3. АбжекеноваН. Старый новый путь // Мегаполис (Казахстан), 17 ноября 2014.
4. Муминов А. Китай станет Шелковым для Евразии // Курсив (Казахстан), 14 мая 2015. С. 1.
5. Zhiltsov S.S. Mərkəzi Asiya və Xəzər regionunun enerji axınları: yeni imkanlar və yeni çağırışlar // Mərkəzi Asiya və Qafqaz, 2014, Cilt 17, Sayı 4. P. 76-87.
6. Сыроежкин К.Л. Казахстан — Китай: от приграничной торговли к стратегическому партнерству. Т. 1. Алматы, 2010. С. 160.

ETIBAR SƏNAN OĞLU BƏDƏLOV
AMEA akad. H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu

AZƏRBAYCAN ŞƏHƏRLƏRINDƏ
ETNODEMOQRAFIK PROSESLƏR

Açar sözlər: Urbanizasiya, şəhər, azsaylı xalq, miqrasiya

Urbanizasiya prosesi ölkənin davamlı inkişafınında "nüvə rolunu" oynayır, şəhər həyat tərzinin və "şəhər" istehsal fəaliyyətinin çoğrafi məkanda genişlənməsi ilə deyil, həmçinin xalqların birgə yaşayışını förmalaşdırır. Qədim şəhərlərimiz hələ orta əsrlərdə ticarət və sənətkarlıqla məşğul olan müxtəlif xalqların məskunlaşdığı məhəllələrlə seçilirdilər. Bu xalqların çoxu uzun bir dövr ərzində azərbaycanlılarla birgə yaşadıqları üçün tamamilə azərbaycanlaşmışlar. Buna misal olaraq lahıc, tat, gilək və d. az saylı xalqları göstərmək olar. Lahıclar sənətkarlar xalqı kimi formalaşaraq, artıq orta əsrlərdən başlayaraq miqrasiya edərək Azərbaycanın tarixi şəhərləri olan Təbriz, Gəncə, Şamaxı, Şəki, Dərbənd, Bakı, Quba, Ağsu və digərlərində məhəllələrini yaratmışdılar. XIX əsrin əvvəllərinə kimi tarixi şəhərlərimizdə əhalinin 90-95%-ni azərbaycanlılar təşkil edirdi.

Azərbaycan ərazisində qədim dövrlərdən çoxsaylı xalqlar məskunlaşmış, onların dilləri, əsasən, Türk, Şimali Qafqaz və Hind-Avropa dil ailələrinə mənsub olmuş, ölkədəki müasir dominantlıq türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan dilinə məxsusdur. Türk mənşəli tayfaların əsasında, uzun tarixi inkişaf prosesinin gedişində Azərbaycan xalqı formalaşmışdır. Azərbaycan ərazisində Şimali Qafqaz dilli xalqlara ləzgi, avar, saxur, udi, xınalıq, haput, buduq və qrızlar aiddir. Bu xalqlar başlıca olaraq ölkənin şimal-şərq və şimal-qərb rayonlarında yayılmışlar. Qafqaz dilli xalqlar içərisində ən geniş yayılanı ləzgi və avarlardır. Azərbaycanın şimal-şərqində yayılmış "Şahdağ qrupu" - xınalıq, buduq, haput və qrız azsaylı xalqları aiddir. İngiloy xalqı Qax, Zaqatala rayonlarında məskunlaşmış və Kartvel dil ailəsinə aid sayılır. Hind-Avropa dil ailəsinin İran qrupuna aid xalqlar Azərbaycan ərazisində tat, talış və kürdlərdir. Tatlar Abşeron yarımadasının bir neçə kəndində, eləcə

də Xızı, Siyəzən, Dəvəçi və Quba rayonlarının ərazisində məskunlaşmışlar. Talışlar ölkənin cənub-şərqində Lənkəran, Astara, Lerik və Masallı rayonlarının ərazisində yayılmışdır. Keçmişdə Laçın, Qubadlı, Kəlbəcər ərazisində yaşayan kürdlər isə hazırda köçkün həyatı sürürlər. Naxçıvan ərazisində yaşayan kürdlər isə tamamilə azərbaycanlılara qaynayıb-qarışmışlar.

Azərbaycan ərazisində yaşayan digər xalqlar isə köklü xalqlardan fərqli olaraq gəlmə olub Azərbaycan Rusiyanın müstəmləkəsinə çevriləndən sonra yəni XIX əsrin əvvəllərində 1830-1860-cı illərdə gələn rus və ermənilər olmuşlar. Birinci miqrasiya dalğası ilə gələnlər əsasən düşünülmüş plan əsasında kəndlərdə məskunlaşırdılar. Bu əsrin 60-cı illərində Bakı və Yelizavetopol quberniyalarının şəhər əhalisinin 48,3 və 55,4% azərbaycanlı idi [4]. 1897-ci ildə Şuşada ermənilər əhalinin 55,7%-ni, Gəncədə 35,9%-ni, Naxçıvanda-25,7%-ni, Bakıda- 17,1%-ni və Şəkidə-16,9%-ni təşkil edirdi [3]. Təhlillər göstərir ki, Çar Rusiyasının Azərbaycanda apardığı ermənipərəst milli siyasəti öz bəhrəsini vermişdi.

İkinci miqrasiya dalğası XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı neft sənayesinin inkişafı əsasında baş verir, bu dövrdə gələn xalqlar əsasən Bakıda və d. şəhərlərdə məskunlaşırdılar. 1913-cü ildə Bakı Qafqazın ən böyük şəhəri olmuş, əhali sayı 214,7 min nəfər idi, əhalinin 20%-dən çoxunu yerli, qalanını gəlmə əhali və onların böyük hissəsini işçi qüvvəsi təşkil edirdi. Onların arasında cənublu qardaşlarımızın payı 11,7% idi, digər gəlmələrdən xüsusi çəkisinə görə ruslar 35,5%, ermənilər 19,4%, yəhudilər 4,5%, gürcülər-1,9%, almanlar 1,5%, tatarlar 1,1%, polyaklar 0,8% və d. fərqlənirdi. Azərbaycanda yaşayan yerli azsaylı xalqlar arasında Bakıya gələn əsasən ləzgilər idi, şəhərdə 1352 və şəhər ətrafında 7213 nəfər məskunlaşmışdı, onların 80%-ni kişilər təşkil edirdi, yəni ailələri ilə gələn az idi [6]. Bakıda məhəllələr etnik xüsusiyyətinə görə fərqlənirdi, yerli əhali və cənublu qardaşlarımız, qala (içərişəhər), Çəmbərəkənd, Təzəpir, Dağlı, Şamaxılı, Yasamal, Kərpicxana, ruslar Avropa Çəmbərəkəndi, Səlyan, Mərkəz, Qara şəhər, Bayıl, Yeni Keşlə, Liman, Yarmarka, Yuxarı Qanlı Təpədə, yəhudilər Ticarət, ermənilər Ermənikənd, Xutor, Aşağı Qanlı Təpə, Vağzalyanı məhəllələrdə daha çox məskunlaşmışdılar.

Sovet dövründə ilk onilliklərində Bakıda, kadr çatışmazlığı adı ilə rus, erməni, ukraynalı, belorus və digər xalqların nümayəndələri iş və evlərlə

təmin edilir, 1939-cu ildə Əhalisinin sayı 787,6 min nəfərə çatmış Bakı şəhərində ruslar əhalinin 43,6%-ni, azərbaycanlılar isə 27,4%-ni təşkil edirdilər [3, s.77].1950-ci illərdən başlayaraq Gəncədə böyük miqyaslı yenidənqurma işlərinin aparılması, həmçinin Sumqayıt, Mingəçevir və Şirvan (Əli Bayramlı) şəhərlərinin salınması və onlarda çoxlu sayda iri sənaye müəssisələrinin tikilməsi Azərbaycana SSRİ-nin Rusiya və Ukrayna Respublikalarından gələn işçi qüvvəsinin miqrasiyanın intensivliyini artırmışdı [2].

Təhlillərə görə Azərbaycanda məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksəldikcə, istehsalın ərazi strukturu dəyişmiş, urbanizasiyanın ərazi təşkilində dəyişikliklər baş vermiş və daxili miqrasiyaların intensivliyi də artmışdır. Bu səbəbdən şəhər əhalisinin etnik tərkibində azərbaycanlıların xüsusi çəkisi sürətlə artır, 1959-cu ildə 51,3%, 1970-ci ildə 60,8%, 1979-cu ildə 68,2%, 1999-cu ildə 91,1%, 2009-cu ildə 92,9% olmuşdur.

1990-cı illərin əvvəllərində rusdilli millətlər ictimai-siyasi proseslərlə əlaqədar olaraq, böyük sənaye mərkəzlərindən köçüb getmişlər. Miqrasiya proseslərinin təhlili göstərir ki, müstəqilliyimizin ilk illərində bu şəhərlərdən əsasən rusdilli əhalinin köçüb getməsi, gələnlərin əksəriyyətinin isə qaçqın və köçkünlərdən ibarət olması ilə səciyyəvi idi.

Azərbaycanda şəhər əhalisini yarıdan çoxunun cəmləndiyi Abşeron iqtisadi rayonunda Bakı aqlomerasiyası yerləşir, burada 2009-cu ildə əhalinin 91,8% yerli əhali təşkil edir, digər xalqlardan ruslar 4,7%, ləzgilər 1,2%, tatarlar 1,1%, ukraynalılar 0,9%, yəhudilər 0,3% olmuşlar. Azərbaycanda yaşayan gəlmə xalqların böyük hissəsi burada yaşayırlar. Azərbaycanın Şəki-Zaqatala regionunun şəhər əhalisinin milli tərkibində azsaylı xalqlardan ləzgilər 2,8%, udinlər 2,4% əsasən Nic qəsəbəsində yaşayırlar, avarlar 1,2%, saxurlar 0,7%, ingiloylar 0,3% təşkil edirdilər, bu xalqlar əsasən kənd yerlərində yaşayırlar. Quba-Xaçmaz regionunun şəhər əhalisinin milli tərkibində azsaylı xalqlardan ləzgilər 16,4%, əsasən Qusar şəhərində yaşayır, dağ yəhudiləri 1,7%, tatlar 1,3%, qrızlar 0,3% təşkil edirdi. Lənkəran-Astara regionunun şəhər əhalisinin milli tərkibində azsaylı xalqlardan talışların payı 4,4% olmuşdur. Ölkəmizdə yaşayan xalqların məskunlaşma xüsusiyyətinin təhlili göstərir ki, azərbaycanlıların 53,9%, gəlmə xalqlardan rusların 96,5%, ukraynalı, belorus, tatarların və digərlərinin 99%-dən çoxu, azsaylı yerli xalqlardan dağ yəhudiləri və

udinlərin 100%, ləzgilərin 34,1%, talışların 9,0%, tatlar və qrızlar 10,4%, saxurlar 9,3%, avarlar 4,6%, kürdlərin19,8%, xınalıqların 2% şəhər yerlərində yaşayırlar.

Azərbaycan şəhərlərində müxtəlif xalqların nümayəndələri bir-birinə yaxın qonşuluq və dostluq şəraitində yaşayırlar. Dövlət tərəfindən ölkə ərazisində yaşayan azsaylı xalqlara hörmətlə yanaşılıb, onların bütün sahələrdə azad fəaliyyəti üçün dövlət səviyyəsində şərait yaradılmışdır. Ölkəmiz insan haqqları və milli azlıqların müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyaya qoşulub. YUNESKO-nun 2005-ci il tarixində qəbul etdiyi "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"ya uyğun olaraq, ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu xalqların milli mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin və dilinin qorunub saxlanılması üçün məqsədyönlü iş aparılır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası əhali siyahıyaalınması 2009 il. Bakı-2011, XIX c. 779 c.

2. Bədəlov E.S. Azərbaycanın iri və böyük şəhərlərində miqrasiyanın əsas meyilləri/ Azərbaycanın dağ geosistemləri: Problemlər və Perspektivlər mövzusunda elmi konfrans materialları, ACC əsərləri XIX cid. Bakı-2017, 364-369 s.

3. Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 səh.

4. Исмаил-Заде Д.И. Население городов Закавказского края в XIX- начале XX вв. / Москва-1991, Наука. 254 с.

5. Козлов В.И. Национальности СССР. Москва, Финансы и статистика, 1982,303 с.

6. Перепись Баку1913 г. Баку-1916 г., III часть, 103 ст.

АДАЛЯТ МУРАД КЫЗЫ АБДИЕВА,
ШУКУФА БАРАТ КЫЗЫ ДЖАБАРОВА
Азербайджанский Университет Языков

# АЗЕРБАЙДЖАН - МОДЕЛЬ НОВОГО ВЗГЛЯДА В БУДУЩЕЕ

Ключевые слова: гуманизм, человеческий капитал, экономическое развитие

Современный Азербайджан – общепризнанный лидер региона. В системе международных отношений Азербайджан зарекомендовал себя как надёжный партнёр и самостоятельный игрок, чьё мнение приобретает всё большее значение в мировой политике в решении вопросов не только регионального, но и глобального значения. В настоящее время Азербайджан стоит на пороге нового этапа развития. Руководством страны объявлена стратегическая цель – Концепция «Азербайджан 2020: взгляд в будущее». Поставлена задача повышения статуса республики от государства – экономического лидера региона до конкурентоспособного участника системы международных экономических отношений. Азербайджан сегодня очень изменился, это уже разрушенная после распада Советского Союза республика, а окрепшая экономически, сильная, миролюбивая и богатая страна. Сегодня Азербайджан является ведущим государством региона и с успехом реализовывает возложенную на него миссию

Президент Ильхам Алиев неоднократно отмечал, что основной целью политики, проводимой правительством Азербайджана, является увеличение добычи нефти, превращение «черного золота» в человеческий капитал: «Мы могли бы превратить наше

« черное золото», в человеческий капитал. В результате нашей активной политики и

энергетической стратегии, в области политических и экономических реформ нам удалось

повысить экономический рост до 96 процентов за последние три года. На протяжении всего этого периода, благодаря политике

экономических реформ и энергетической стратегии, мы стали самой быстрорастущей экономикой в мире». «Человеческий капитал является фактором, определяющим нынешнее состояние развитых стран. Эти страны развивают не свои природные ресурсы, а интеллектуальный потенциал, изобретение новых технологий и их применение. Мы также должны выбрать этот путь » - Президент Азербайджанской Республики Ильхам Алиев

Человеческий капитал воспринимается экономистами и исследователями как один из

главных условий экономического роста страны. Сегодня Азербайджан может получить самые современные знания и технологии в государственном и частном секторах, управляя фондом человеческого капитала. В нашей республике имеются большие потенциальные резервы человеческого капитала. Профессиональная, молодая кадровая армия Азербайджана, которая была направлена в престижные учебные, научно-образовательные учреждения зарубежных стран способствовала широкому проникновению самых передовых научно-технических и культурных, гуманитарных идей нашего современного мира в сознание общества. Развитие человеческого капитала рассматривается как основной элемент для желаемого экономического роста. И последнее время многие страны все чаще обращают внимание на этот фактор при создании будущих планов экономического роста (Ромер, 1986; Лукас, 1988; Нельсон 1966). Природные ресурсы больше не могут считаться основным вкладом в развитие страны. Экономисты считают, что человеческий капитал является одним из основных столпов устойчивого экономического роста. Человеческий капитал имеет прочную связь с технологическими изменениями; хотя некоторые могут предположить, что человеческий капитал стимулирует технологические изменения на уровне исследований и разработок и, в свою очередь, инноваций. Человеческий капитал может быть проиллюстрирован большинством или даже всеми из следующих компонентов: образование, накопление знаний, формальное и неформальное обучение, обучение на практике и квалифицированная рабочая сила с учетом технологических изменений. Задача ясна: для создания инновационной экономики

нам нужно хорошо обучать наших людей и предоставлять им достаточные ресурсы и стимулы для преследования их мечты. Позитивный экономический рост обеспечивается положительным ростом человеческого капитала, что, в свою очередь, стимулирует способность страны внедрять инновации. Способность страны развивать человеческий капитал является основным условием для включения его в ряды развитых стран, которые обладают высоким уровнем производительности, благодаря наличию высокого уровня накопления человеческого капитала. Накопление человеческого капитала способствует достижению странами более высокого экономического взлета, за счет повышения производительности труда работников, сопровождаемого новым мышлением. Человеческий капитал является инструментом содействия всестороннему развитию нации, поскольку человеческий капитал напрямую связан с развитием человека, а когда есть человеческое развитие, качественный и количественный прогресс нации неизбежен. Человеческий капитал и экономический рост прямо пропорционально влияют друг на друга: а именно, человеческий капитал влияет на экономический рост и может помочь в развитии экономики через знания и навыки людей. Он относится к знаниям, навыкам и мотивациям людей, которые обеспечивают экономическую ценность. Сегодня разница в развитии различных государств можно объяснить различием в уровне человеческого капитала, который они развивают. В настоящее время особое внимание уделяется формированию, укреплению и развитию человеческого капитала, который является самым важным социально-культурным фактором современной экономики в Азербайджане и во всем мире. В этом смысле социально-экономические реформы, проводимые в нашей стране, направлены на повышение благосостояния каждого гражданина Азербайджана. По словам президента Ильхама Алиева, человеческий фактор, улучшение социально-экономического благосостояния граждан страны и вхождение страны в высокоразвитые страны являются основными целями многосторонних реформ. В Азербайджане принята программа развития страны на 2020 год. С точки зрения реализации целей, предусмотренных этой программой, институциональный

потенциал будет включать развитие человеческих ресурсов Главной движущей силой экономики Азербайджана в период после 2025 года это стать конкурентоспособной рабочей силой. Особенное внимание будет уделено молодежи и женщинам. Развитие социального диалога и повышения занятости будет достигнуто посредством институтов, обеспечивающие гибкую политику в сфере рынка труда. Развитие человеческого капитала в Азербайджане наряду с требованиями национальной экономики, и с глобализацией мировой экономики, позволит регулировать трудовую миграцию, чтобы в стране осталось больше ценных кадров. Растущий технологический потенциал позволит азербайджанской рабочей силе экспортироваться в определенные зоны обслуживания. Как результат развития навыков и эффективности использование рабочей силы, производительность труда в Азербайджане достигнет соответствующего показателя на уровнях восточноевропейских стран. В общем, во время регулирования рынка труда в период после 2025 года такие факторы как высокие технологии, в том числе использование интеллектуальных машин и систем, будут приняты во внимание для совершенствования способов коммуникации.

ƏFSANƏ ŞAMIL QIZI MƏMMƏDYAROVA
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristeti*

# BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ KÜTLƏVI INFORMASIYA VASITƏLƏRININ ROLU

Açar sözlər: kütləvi informasiya vasitələri,beynəlxalq münasibətlər,internet,media qurumları

XX əsrin sonlarından başlayaq beynəlxalq münasibətlərdə informasiya texnologiyalarının rolu artmağa başlayıb.Kütləvi informasiya vasitələri bu gün dünya ölkələri arasında əlaqələr yaradır, qlobal infrastruktur və dövlətlərarası münasibətlərin praktiki olaraq bütün sahələrinə nüfuz edir. Dünya arenasında beynəlxalq münasibətlərdə aparıcı rollardan biri mediyaya məxsusdur. Bundan əlavə, media ictimai-mədəni və siyasi arenada ünsiyyətə xidmət edir və ictimai fikirin formalaşmasına, dəyişdirilməsinə və inkişafına kömək edir. Bu baxımdan, medianın siyasətdə rolu böyükdür.Kütləvi informasiya vasitələrini xarici rəqiblərlə səmərəli rəqabət edə biləcək bir sistemə çevirmək - bu ölkənin informasiya təhlükəsizliyini təmin etməklə yanaşı,xarici siyasət maraqlarının qorunması üçün mühüm bir vasitədir.

Beynəlxalq münasibətlərdə dünya ictimayyətinin fikri mühüm amilə çevrildikdən sonra , xarici siyasətdə media resurslarının rolu sürətlə artıb. Bu istiqamətdə ABŞ liderlik edir. Belə ki, bu dövlət qlobal bir mexanizm yaradaraq dünyanın bütün bölgələrini öz maraqlarına uyğun informasiya ilə təmin edir. Ağ Evin xarici siyasətin təbliğinə rəsmi illik xərcləri 1 milyard dollardan artıqdır. Analitiklər informasiya cəmiyyətinə keçid dövründə hərbi kampaniyaların strategiyasını dəyişdiyini bildirirlər. Etibarlı “dünya oyunçuları”na tabe olan kütləvi informasiya vasitələri uzun müddətdir reallığı əks etdirmir, lakin onu müəyyən bir tonda formalaşdırır. Bəzən kütləvi informasiya vasitələri ictimai dəstəyi təmin etməklə yanaşı, suveren dövlətin hərbi işğalı üçün bəhanə yaratmağa imkan verən bir vasitə rolunu da oynayır.Vaşinqton, yaratdığı media strukturları şəbəkəsi vasitəsilə yalnız öz ölkəsinin zəruri informasiya

imicini yaratmır, həm də bir çox dövlətlərdə informasiya siyasətini fəal şəkildə tənzimləyir. 2008-ci ildə ABŞ Müdafiə Nazirliyi, siyasi materiallar, xəbərlər, əyləncə və sosial reklamlar hazırlamaq üçün İraqın özəl podratçılarına 300 milyon dollar ödəyib.Kampaniyanın əsas məqsədi yerli əhalinin Amerika siyasətini dəstəkləməsini təmin etmək olub. Bu xəbər "The Washington Post"un bir məlumat sızıntısı sayəsində kütləvi informasiya vasitələrində yer alıb. [3]

Kütləvi informasiya vasitələrinin köməyi ilə ölkədə və dünyada baş verən ən mühüm hadisələr ictimayyətə təqdim olunur.Beynəlxalq arenda baş verən eyni hadisənin müxtəlif ölkələrin kütləvi informasiya vasitələrində işıqlandırılması tərəflərin münasibətlərindən aslı olur. Bu əsasla bəzi ölkələrin hərəkətləri dəstəklənir və əsaslandırılır, digərləri isə məhkum edilir və cəzalandırılır.Bu da münasibətlərdə ikilistadartların göstəricisidir.

Müasir mediya kanalları yalnız ictimaiyyətə güclü bir təsir göstərən informasiya mühiti deyil, həm də güclü bir biznes strukturudur. Kütləvi informasiya vasitələrinin maliyyə qüdrəti xüsusilə beynəlxalq media qurumlarının fəaliyyətində özünü göstərir.Onunlar dünya mənzərəsini yaradaraq gündəlik insanların nəyi izləyəcəyini,dinləyəcəyini və oxuyacağını müəyyənləşdirilər. Bu baxımdan Alman filosofu və mədəniyyət alimi Osvald Spenglerin ötən əsrin əvvəllərində "Avropanın Qürubu" adlı məşhur əsərində verdiyi proqnozlar gerçəkləşib."Yaxın gələcəkdə iki və ya üç beynəlxalq qəzet bütün digər populyar qəzetlərə təsir göstərərək birbaşa "xalqların iradəsini" idarə edəcək." "Avropanın qürubu" əsərində O.Şpenqler yazır. [1]Bu stitatdan çıxış edərək deyə bilərik ki, bu gün BBC, Euronews,CNN kimi xəbər agentlikləri dünyanın xəbər mənzərəsini yaradır və digər xəbər agentlikləri də onlara istinad edır.Bu gün dünyada hərbi konfiliklər zamanı dövlətlər daha çox informasiya müharibəsində uduzurlar.

Kütləvi informasiya vasitələri sahiblərinin mövqeyini ifadə etmək və əks etdirmək məqsədi daşıyır. Bu vəziyyət müxtəlif media kanallarından eyni hadisə və hadisələrin ziddiyyətli şərhlərinə səbəb olur. Qeyd edək ki, mətbuatın müasir forması - İnternet - siyasi maraqların həyata keçirilməsində güclü informasiya vasitəsinə çevrilib. Reallıq göstərir ki, sosial şəbəkələr vasitəsi ilə siyasi qüvvələr və qruplar beynəlxalq

münasibətlərə təsir edə bilir.Müasir siyasi ədəbiyyatda hətta "yeni media" termini formalaşıb ki , bu da internet və onun kommunikativ funksiyasıdır.

D.Q.Baluyev,D.İ.Kamiçenko bilidirlər ki, 2011-ci ildə başlayan "ərəb baharı"nda sosial media ,internet bloqları mühüm rol oynayıb. Bu özünü əvvəlki rejimlərin hakimiyyətinin devrilməsində,ixtişaşların regionu əhatə etməsində göstərib. [2] Bu bir daha təsdiqləyir ki, hazırda İnternet texnologiyaları regional və qlobal geosiyasi məqsədlərin həyata keçirilməsində beynəlxalq əlaqələrə, iştirakçılara təsir vasitəsi kimi istifadə olunur.

Demək olmaz ki, kütləvi informasiya vasitələrinin ənənəvi formaları dövlətin və cəmiyyətin həyatında əvvəlki mövqeyini itirib. İnformasiya mübadiləsi, məlumatların ötürülməsi və işlənməsində yeni elementlərin yaranması vahid funksional xüsusiyyətləri ortaya çıxarır ki, bunlardan da müxtəlif siyasi qüvvələr siyasi texnologiyalar kimi məharətlə istifadə edirlər.

Ümumiyyətlə ,bəşər tarixində müşahidə olunan informasiya inqilabı 3 əsas mərhələ keçmişdir. Birinci dövr (1837-1963) teleqrafın, radio və televiziyanın kəşfi və ondan geniş istifadə ilə bağlı olmuşdur. İkinci mərhələ (1964-1990) İBM seriyalı kompüterlərin tətbiqi və geniş yayılması ilə davam etmişdir. Üçüncü dövr isə 1991-ci ildən İnternetin şəxsi istifadə dairəsinə daxil olması ilə başlanmışdır. Hər bir mərhələdə də beynəlxalq münasibətlərdə, dövlətlərarası əlaqələrdə, qarşılıqlı təsirdə həmin dövrə məxsus üsul və vasitələrdən yararlanmağa çalışmışlar.Birinci mərhələdə qərar qəbulu prosesində xüsusi sektorun iştirakını istisna edən, dövlətlərin idarə etdikləti sistemlər hakim rol oynamışlar. İkinci dövrdə artıq bu prosesə qeyri-hökumət aktorlarının qoşulması labüd olmuşdur. Hazırda hökumətlər mövcud beynəlxalq institutlara və rejimlərə adaptasiya olunmağa çalışır, bununla da yeni idarəetmə formaları yaranır.[4]

Nəticədə qeyd edirik ki, media şirkətlərinin, holdinqlərin və s. maliyyə qüdrəti dövlət sərhədlərindən kənara çıxır. Böyük media qurumlarının beynəlxalq münasibətlərə təsiri bəzi dövlətlərdən daha güclüdür.Bu və ya digər faktlar kütləvi informasiya vasitələrinin siyasi proseslərdə rolunun aktuallığını daha da artırır.

Ədəbiyyat siyahısı:

1. Освальд Шпенглер «Закат Европы»

2. Балуев Д.Г., Каминченко Д.И. Политическая роль «новых» СМИ в ливийском конфликте

3. http://uchebnik-online.com/131/1708.html

4. http://xalqqazeti.com/az/news/1391

ALIYAR AZIMOV
Institute of Caucasus Studies,
Azerbaijan National Academy of Sciences Azerbaijan

## AZERBAIJAN-GEORGIA RELATIONS: GEOSTRATEGIC PARTNERSHIP IN THE CAUCASUS

Keywords: Caucasus, Azerbaijan-Georgia relations, strategic partnership, geopolitics

South Caucasus has always been a focus of geopolitical competitions for centuries with its geo-strategic location and natural resources. The transportation and energy projects, which implemented in the region, have further increased the strategic importance of South Caucasus due to being in the junction West and East in the globalized 21st century. After the dissolution of the USSR two major processes occurred: 1) regional cooperation between independent states in terms of common threats and economic-political projects; 2) geopolitical interests and competition among the regional powers (Russia, Iran, Turkey) and the US and the EU.

After the disintegration of the Soviet Union, the three South Caucasus countries found themselves in a new geopolitical vacuum, which resulted in serious events also (territorial conflicts and separatism). On the other hand, this vacuum enabled two of the newly independent South Caucasus countries – Azerbaijan and Georgia – to build and maintain good neighboring relationships, to jointly implement major and strategic regional oil and gas projects (Baku-Tbilisi-Ceyhan oil pipeline, Baku-Tbilisi-Erzurum gas pipeline) without any intervention of Russia. Until 2008, Russia was a major gas supplier in Georgia. However, the August War in 2008 ended with cut off relations between Russia and Georgia. Starting from 2007, Azerbaijan has steadily been supplying the majority of Georgia's oil and gas demand, especially after the August War Azerbaijan provided more energy flow by completely meeting its strategic ally's energy needs.

The development of the east-west energy corridor in the South Caucasus allowed Azerbaijan and Georgia to involve in the projects as the

main partners and to promote the development of the infrastructure by improving the macro-economic environment and international integration. Turkey also gives support to the international projects in the region and deepening the multilateral relations between Azerbaijan-Georgia-Turkey also promotes and intra-regional cooperation and diplomatic resolutions of regional problems. This cooperation is the most functional; it is built on interdependence by trade and transportation relations.

Since 1992, political relations between Azerbaijan and Georgia has reached a high level, cooperation in all fields has become more strategic year by year, and neighborship relations are based on the principles of the strong friendship and mutual respect. Because of this, all officials in Georgia have always firstly visited Azerbaijan in their terms.

Why Georgia needs Azerbaijan?

The East-West strategic energy cooperation helped to strengthen the state independence of Georgia and Azerbaijan. The projects, which implemented and proposed to be realized, are the basis of a strong foundation for economic stability and prosperity for both countries, even for South Caucasus. Considering this fact, in 2009 Georgia was not affected by the energy crisis thanks to Azerbaijan and energy contracts for the supply of gas and oil. Georgia is especially interested in energy transportation from Azerbaijan because since gaining independence Georgia has had a permanent and stable supply of energy which allowed industries to operate smoothly and contributed the economy of Georgia significantly by making it a transit country.

Azerbaijan also plays a vital role in the transformation of Georgia into the EU and the development of EU-Georgia relations. The lack of stability in the Middle East increases the role of the Caspian Basin not only as a significant energy source but also a more secure and shortest supply route for both countries as well as for the EU. Azerbaijan-Georgia`s good neighborhood relations are vital for the EU in the context of east-west energy cooperation. As the EU is more interested in ensuring a reliable flow of energy resources to the Member States and cooperates with Azerbaijan and Georgia, it makes both countries to be a significant player in the projects and economically and politically powerful in the South Caucasus region.

Azerbaijan and Georgia have been cooperating in several political and economic projects since the early years of independence. Several factors influence the dynamics of the Georgian-Azerbaijani relations in a positive way. Firstly, cooperation in transportation, energy, and economics is interdependent. Georgia's location makes it more essential for Azerbaijan in terms of to reach European and World markets. On the other hand, Georgia has increased its economic prosperity by participating in regional projects. In 2018, Azerbaijan was a third-largest direct foreign investor (33 million dollars) to the Georgian economy, second in Georgian imports (14.4%) and third in Georgian exports (10.7%).

Another key factor in the Azerbaijani-Georgian relations is that Azerbaijan and Georgia support each other's positions on important issues in the international arena. Georgian officials always stress all the official statements that the solution of the Nagorno-Karabakh conflict, which occurred as a result of the occupation of Azerbaijani lands by Armenia, within the framework of Azerbaijan's territorial integrity.

When it comes to energy cooperation, Azerbaijani oil-gas company SOCAR is the main supplier of gas to Georgia as a reliable energy partner. Despite the gas agreement signed between Georgia and Russia in 2017, SOCAR has a large share in the Georgian energy sector. In 2018, gas transportation volume was 2.5 billion cubic meters of natural gas to Georgia. High dependence on Azerbaijani gas arose concerns about national security, but in fact, Azerbaijan never used energy shipments as a political pressure tool. Even Azerbaijan has supplied more energy to Georgia in order to resolve energy shortages during difficult times.

АЛИ САЙАД ОГЛУ МАМЕДОВ
Азербайджанский Университет Языков

# О НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСАХ США И РОССИИ В АЗЕРБАЙДЖАНЕ

Ключевые слова: Азербайджан, США, Россия, национальная безопасность, геополитика

С распадом СССР Азербайджан все больше и больше привлекает к себе внимание мирового сообщества, в частности США и России. Значительный ресурсный потенциал, уникальное географическое положение Азербайджана делает его особенно привлекательным для многих сильных государств мира. Эти государства заинтересованы в присутствии в этом регионе и использование природных ресурсов Азербайджана. Территория Азербайджана и прикаспийский регион в целом, и сегодня привлекают себя внимание многих стран мира не только своими богатыми запасами нефти и газа, но и особенностями геополитического и геостратегического порядка. Это предопределяет экономические, политические и военно-стратегические интересы ведущих субъектов мировой политики.

Азербайджан и прикаспийский регион фактически стали полем многовекторного соперничества и противоборства между теми государствами и военно-политическими блоками, которые хотели бы доминировать в этом стратегически важном регионе мира. Этот регион был и является важнейшим узлом международных торгово-экономических связей. На территории Азербайджана пересекаются торговые пути Восток-Запад и Север – Юг.

В историческом процессе Азербайджан часто становился ареной столкновения крупных держав. Азербайджан во все времена был зоной пересечения и противоборства геополитических интересов различных государств – как своих ближайших соседей, так и стран, находящихся вдалеке. Ныне центральное место в этом процессе занимает Россия и Соединенные Штаты.

Здесь важно подчеркнуть, что особенность формирования внешней политики Соединенных Штатов является отождествление

национальной безопасности США с международной безопасностью. В свою очередь, составной частью международной безопасности является региональная безопасность в ключевых регионах мира. В контексте внешней политики Москвы и Вашингтона в Азербайджане важное значение приобретают такие аспекты международных отношений как региональные конфликты, международный терроризм, а также угроза распространения оружия массового поражения.

Азербайджан в настоящее время развивается весьма динамично. Этому в огромной степени способствуют достаточно значительные запасы нефти, газа и биоресурсов.

Однако Карабахская проблема ставит под угрозу стабильное развитие Азербайджана. В то же время с самого начала было заметно, что Россия, играя определенную роль, не может каким-то образом существенно повлиять на стабилизацию положение и полную нормализацию азербайджано-армянских отношений. Именно это обусловило появление в регионе новой внешней силы – США [Выступление Примакова, 1996, 8]. Вместе с тем, выгодное геостратегическое положение Азербайджана, и наличие *большой* нефти и газа отвечает интересам ведущих мировых держав, в первую очередь, России и Соединенных Штатов. Именно это обуславливает укреплению сильных мира сего в регионе.

Проблематика взаимоотношений России и США с Азербайджаном на сегодняшний день является одной из важных в международных отношениях. Стратегия и политика ведущих держав в последние годы, наиболее рельефно проявились в устремлении России и США во всеобъемлющем закреплении собственных позиций в Азербайджане. Отметим, что Вашингтон в 1997 году обозначил Азербайджан зоной американских жизненно важных национальных интересов. Это составляет часть большой политической игры, которая была развернута Соединенными Штатами в Азербайджане.

Внешняя политика США в Азербайджане после распада Советского Союза способствовала упразднению биполярной системы. Это, в свою очередь, явилось атрибутом глобальной американской

стратеги доминирования – интеграция стран в систему, где миропорядок подконтролен Соединенным Штатам. В рамках геополитики значение Азербайджана для США определяется несколькими факторами:

1. расположение Азербайджана в непосредственной близости с Россией и Ираном, позволяет Вашингтону оказывать давление на своих геополитических конкурентов – Москву, Анкару и Тегеран;

2. для обеспечения энергетической безопасности, контроль над Азербайджаном позволяет США обеспечить доставку энергоресурсов в обход территории Российской Федерации;

3. выход к Каспийскому морю;

4. Выход на богатые ресурсами регион Средней Азии.

Американская стратегия в Азербайджане, несомненно, является лишь частью большой геополитической стратегии США и угрожает национальным интересам другого крупного игрока в этом регионе – интересам России. Азербайджан - фактически сфера противодействия США и России.

И Россия и США реализуют свои далеко идущие планы. Вашингтон и Москва пытаются наращивать свое политическое, экономическое и военное присутствие в Азербайджане.

Азербайджан проводит сбалансированную политику. Азербайджанская Республика готова к сотрудничеству, как с США, так и с Россией. Для Азербайджана это сотрудничество возможно - как в экономической, так и в политической сферах. Для Азербайджана главной задачей является поставка нефти и газа на мировые рынки.

Армения – как известно, сателлит России. Однако, нынешнее правительство Армении во главе с Никол Пашиняном в предвыборной агитации обещала прозападный курс. Но став главой правительства Н. Пашинян понял, что для Армении не выгодно переориентация на Запад, поскольку это приведет к немедленному решению Нагорно-Карабахского вопроса в пользу Азербайджана.

Вместе с тем геополитика России и США в отношении Азербайджана, в итоге определяется внутриполитическим и

международным давлением идеологическими и геостратегическими факторами в международных отношениях.

Литература::

1. Выступление Примакова Е.М., в Швейцарском обществе внешней политики 3.09.1995/7 дипломатический вестник N 10, 1996, с.8.

ƏSGƏR MƏMMƏD OĞLU ZEYNALOV
Azərbaycan Dillər Universiteti

# MUSIQIMIZIN TƏSIR DAIRƏSI

Açar sözlər: bayatı, xalq mahnıları, aşıq musiqisi, muğam, şeir, təsir

Dədə-baba yurdumuz olan ulu Uluxanlının (indiki Masis) Yuxarı Necili (sonralar Nizami) kəndində yaşayarkən tez-tez Yerevan televiziyasından eşidərdim: "Tello", "Sarı gəlin", yaxud, "Uzun dərə" və s. Öz-özümə fikirləşirdim: Bu mahnılar doğurdanmı onlarındır? Əgər onlarındısa, bəs adları nə üçün Azərbaycan dilindədir? Elmi işlə əlaqədar olaraq ayrı-ayrı erməni qaynaqları, Ermənistan SSR xalq yaqradıcılığı evi, Mesrop Maştos adına Ermənistan SSR Əlyazmalar İnstitutu (Matenadaran), Yeqişe Çarens adına Ermənistan SSR ədəbiyyat və incəsənət muzeyində apardığım axtarışlar zamanı bu sualların cavabı təxminən aydınlaşmağa başladı. [Zeynalov, 2006, 162-169]

Bəli, necə olmuşdu ki, Azərbaycan xalq mahnıları erməni xalq mahnılarına "çevrilmişdir?" Məqalədə bu sualla yanaşı Azərbaycan musiqisinin erməni xalqı arasında tutduğu mövqedən və onun erməni musiqisinə təsirindən danışmaq niyyətindəyik. Bu sualın cavabına keçməzdən əvvəl bir haşiyəyə çıxmaq istərdik.

Folklorşünas Qriqoryanın 1956-cı ildə nəşr etdirdiyi "Erməni şifahi xalq ədəbiyyatı müntəxabatı" kitabının 272-ci səhifəsində bir bayatı var. Bu el arasında çox işlənən Azərbaycan bayatısıdır. [Qriqoryan, 1956, 272]

Naməlum tərcüməçi həmin bayatını erməni dilinə çevirmiş və o, erməni xalq nəğməsi xağiki adı ilə oxucuya təqdim etmişdi. İnsafən, bayatı çox sərrast tərcümə olunmuş, məzmunu orijinaldakı kimi qalmış və qafiyələr Azərbaycan dilində olduğu kimi saxlanmışdır: nal, xal, mal. Xatıladaq ki, bu bayatı 1940-cı ildə Aşot Qraşi tərəfindən də erməni dilinə tərcümə edilmişdi.

Bayatılarımız erməni şifahi xalq ədəbiyyatı nümunəsi adı altında necə nəşr edilmişdirsə, Azərbaycan xalq mahnıları da eyni yolla erməni xalq mahnısı kimi tanınmışdı və tanınır.

Əməkdar elm xadimi professor Mirəli Seyidov 1721-ci ildə yazıya alınmış şeirlərin hamısı: Koroğlu qoşmaları, Dədə Kərəmin şeirləri, Nəsiminin, Füzulinin, Şah İsmayıl Xətainin qəzəlləri o zaman erməni xalqı arasında geniş yayılmış, bəziləri hətta mahnı şəklində oxunmuşdur. Bu kitabın müqəddiməsini yazan Elyas adlı bir müəllif yazır: "Nəğmələr kitabın"dakı şeirlər xalq (erməni xalqı – Z.Ə.) arasında hava ilə oxunur". [Seyidov,1960, 93]

Şübhəsiz ki, mahnılar Azərbaycan xalqının mahnılar idi ki, ermənilər də bunlardan öz məclislərində istifadə edirdilər. Qəzəllərin isə əksəriyyəti muğam üstündə oxunurdu.

Erməni qaynaqlarında Azərbaycan muğamlarının "Mahur" (Matenadaran iş № 8084 səh.6a), "Rast" (3 Matendaran iş № 8084 səh.94a ) adı altında XVIII əsrdə yazıya alınmış şeirlərə təsadüf olunur. Sözsüz ki, bu şeirlər həmin muğamların üstündə oxunmuşdur.

Erməni qaynaqlarında zamanın sınağından çıxmış, bu gün də çox səslənən "Apardı sellər Saranı" (5, vərəq 33 b), "Yaxan düymələ" (5, vərəq 33 b), "Yeri dam üstə yeri" (6, vərəq 25 ) kimi xalq mahnıları erməni əlifbası ilə yazıya alınaraq qorunub saxlanır.

Maraqlı cəhət ondadır ki, mahnı necə oxunursa (yəni artırılan əlavə sözlərlə birlikdə) eləcə də yazıya alınmışdır. Məsələn, "Yeri dam üstə yeri" mahnısında da eynidir.

Bir mahnını da qeyd etmək yerinə düşər: Azərbaycan xalq mahnısı: "Tello". Yaşı bilinməyən bu mahnını sonralar dahi bəstəkarımız Üzeyir Hacıbəyov nota salmışdır.

Ancaq "Tello" mahnısının əsas bəndləri arxivdə erməni dilində getmiş, yalnız nəqarəti cüzi dəyişikliklə Azərbaycan dilində "Aman Tello, Tello can, Tello, Şirin Tello, Tellocan, Tello" çalmışdır.

Nalbadyan yazır: " Havaların çoxusu türklərdən (azərbaycanlılardan – Z.Ə.) götürülmüşdür. Mən ermənilərin sakin olduqları bir çox yerləri gəzmişəm. Həmişə xalis ermənicə deyilmiş bir şey dinləməyə çalışmışam. Ancaq indiyədək həmin şeyi eşitmək mənə müyəssər olmayıbdır".

Nalbadyanın bu sözləri ermənilərdə mahnı janrının olmamasını və onların uzun əsrlər boyu Azərbaycan mahnılarından istifadə etdiyini təsdiq edir. İstər yazıçının fikri, istər erməni qaynaqlarında saxlanan xalq

mahnıları istərsə də mahnılarda işlənmiş nəqarət yaxud bu günə qədər qorunub saxlanmış adları "Tello"ların "Sarı gəlin"lərin, "Uzun dərə"lərin məhz Azərbaycan xalqından götürüldüyünə əyani sübutdur.

Ermənilər Azərbacan mahnılarından həm də oyun havaları kmi istifadə etmişlər, Çarens adına Ermənistan SSR ədəbiyyat və incəsənət muzeyində Tarıverdiyanın arxivindəki 19 "q" nömrəli dəftər bu cəhətdən səciyyəvidir. Dəftərin üzərində yazılmışdır: "Azərbaycan sözlərinə erməni xalq oyun havaları". Burada yazıya alınmış mahnıların əsasını bayatılar təşkil edir.

Ermənilər Azərbaycan xalq mahnılarından o qədər geniş istifadə etmişlər ki, sonralar bunları özlərinə çıxaraq "Erməni oyun havaları", "Erməni xalq mahnıları" adı altında toplamışlar. Nə zaman yarandığı bilinməsə də bu günə kimi Ölməz Rəşidin ifasında dünyanı dolaşmış "Ağacda leylək yuva bağlar gedər. Qız sevən oğlan hava bağlar gedər" xalq mahnımız, necə ola bilər ki, erməni xalq oyun havası olsun?

Azərbaycan mahnılarının ermənilər arasında geniş yayılmasının səbəbi mahnılarımızın melodiyası ilə yanaşı, onlarda tərənnüm olunan yüksək fikirlərdir.

Yuxarıda deyildiyi kimi bir çox Azərbaycan xalq mahnılarının mətninin əsasını bayatılar təşkil edir. Bəzən erməni qaynaqlarında "mahnı" başlığı altında toplanmış bayatılara da təsadüf olunur. Yeqişe Çarens adına Ədəbiyyat və İncəsənət muzeyində toplanmış 270 bayatının bir qismi bu qəbildəndir. [İrəvan. Ədəbiyyat və İncəsənət Muzeyi iş № 15, vərəq 25b, 27]

Görünür, mahnı ilə oxunmuş bu bayatılar sonralar erməni arxivlərinə məhz eyni adla daxil olmuşdur.

Ermənilər mahnı kimi oxunan Azərbaycan "Can, gülüm"lərindən də məclislərində geniş istifadə etmişlər. Onların əsasını bayatı təşkil edir və hər bənddən sonra "can gülüm" sözləri işlənir.

Zaman keçdikcə onlar Azərbaycan "Can, gülüm"lərinin təsiri altında öz dillərində "cangcülüm"lər yaratmışlar.

Bu yerdə istər-istəməz N.Nalbadyanın sözlərini xatırlamalı olursan. O, yazırdı: "Yeni dil (aşxarabar – Ə.Z.) türk dilinin təsirinə qapılıbdır".

Ədəbiyyat siyahısı:

1. Erməni şifahi xalq ədəbiyyatının müntəxəbatı /tərtib edəni Q.Qriqoryan/, Yerevan, "haypethrat" nəşriyyatı, 1956
2. İrəvan. Ədəbiyyat və İncəsənət Muzeyi iş № 15, vərəq 33b
3. İrəvan. Ədəbiyyat və İncəsənət Muzeyi iş № 15, vərəq 25b
4. İrəvan. Matenadaran, iş № 8084 s.6a
5. Seyidov M. Erməni əlifbası ilə yazıya alınmış Azərbaycan bayatıları. "Azərbaycan SSR EA xəəbərləri", 1960, № 3, s.93
6. Zeynalov Ə. Azərbaycan bayatıları Qafqaz regionunda. Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, Bakı 2001
7. Zeynalov Ə. Orda bir yurd var uzaqda. Maarif nəşriyyatı, Bakı–2006. səh 162-169

FƏRƏH ADIL QIZI HÜSEYN
AMEA, A.A.Tarix İnstitutu

# OSMANLI IMPERIYASI ILƏ MÜNASIBƏTLƏRDƏ NADIR ŞAHIN TƏSIS ETDIYI "QARDAŞLIQ HÜQUQU"

Açar sözlər: Nadir şah, sultan I Mahmud, Osmanlı-Əfşar münasibətləri, Türkman mirası, Azərbaycan, İraq-i Ərəb, qardaşlıq hüququ.

Nadir şahın (1736-1747) qurduğu dövlət Səfəvi dövlətinin varisi kimi həmin coğrafiyaya sahib çıxmaqla Osmanlı dövləti ilə münasibətlərdə, Səfəvi dövründə bu münasibətləri şərtləndirən təxminən analoji geostrateji çağırışlarla qarşılaşdı. Belə ki, Osmanlı-Səfəvi müharibələrində rəqabət əsasən iki bölgə – Azərbaycan və İraq-i Ərəb uğrunda gedirdi.

Məqaləmizdə hər iki dövlət üçün müstəsna əhəmiyyət daşıyan Azərbaycan və İraq-i Ərəb məmləkətləri uğrunda baş verən Osmanlı-Əfşar müharibələri və eyni zamanda dövlətlərarası diplomatik fəaliyyət kontekstində Nadir şahın Osmanlı dövlətinə olan siyasətinin əsl mahiyyətini açıqlamağa və bu siyasətin nəticələrinə diqqət çəkməyə çalışacayıq.

Xorasanda öz movqeyini möhkəmləndirdikdən və əfqanları məğlubiyyətə uğratdıqdan sonra Nadir xan zəbt olunan Azərbaycan ərazilərinin azad olunmasına başladı. Azərbaycanın azad olunmasında hər-hansı bir güzəşti qətiyyən qəbul etməyən Nadir xanın bu mövqeyi Azərbaycanın Səfəvi dövlətindəki statusuna və Səfəvi hökmdarlarının Azərbaycana olan irsilik haqqına əsaslanırdı. Azərbaycan ölkəsi hər zaman Səfəvi dövlətinin *mülk-i mövrusu*, yəni irsi mülkü hesab olunurudu, və təsadufi deyil ki, Şah I Abbas 1603-cü ildə Osmanlıya qarşı müharibəyə başlayarkən, İsgəndər bəy Münşinin yazdığına görə, hər nə qədər *"İmana gəldikdən sonra imanınızı pozmayın" müqəddəs ayəyə əməl edərək, bağlanmış əhd-peymanı pozmaq istəmirdisə də",* [Münşi İsgəndər bəy Türkman, 2014, 1159 ] lakin mülk-i mövrusu olan Azərbaycanı geri qaytarmaq haqqını bundan üstün görmüşdür.

Nadir xanın Osmanlı dövləti ilə apardığı müharibələri həmin əsnada iki dövlət arasında aparılan diplomatik təmaslar və yazışmalar əlaqəli şəkildə təhlil etdikdə belə qənaətə gəlmək olar ki, шттт bu müharibələrdən məqsədi heç də sırf ərazi iddiası deyildi, və yaxud əsla bu deyildi. Əsl

məqsəd, Osmanlı dövləti ilə bərabər hüquqlu, sağlam zəminə söykənən və nəinki mövcud durumda, gələcəkdə belə özünü doğruldacaq ədalətli sülhün bağlanmasına Osmanlı dövlətini vadar etmək idi.

Bağdad valisi Əhməd paşa ilə 1733-cü il dekabr ayında [Gözalova, Bağırov, 2018, 29] bağladığı sülhün (Türkiyə tarixşünaslığında "Əhməd paşa sülhü" kimi tanınır) əsas müddəası Azərbaycanın bütünlüklə osmanlı qüvvələri tərəfindən azad olunması idi. Bu sülhün imzalanması ilə bağlı Nadir xanın osmanlı sədrəzəmi Həkimoğlu Əli paşaya göndərdiyi məktub mövzumuz açısından olduqca əlamətdardır. Həmin məktubda o, özünün və osmanlıların cədlərinin qardaş olduqlarına istinad edərək tərəflər arasında sülhün münasib olduğunu vurğulayır:

*"... mənim cəddim müqəddimə Çingiz [xan] xürucunda Ruma gələn Əl-i Osmanın cəddi Ərtuğrulun qarındaşı olub, babaları (ataları – H.F.) Süleyman şah suya qərq olduqda mənim cəddim İrana getmiş idi. Bu təqrib səlatin-i Osmaniyyə ilə usubət-i nəsəbiyyə cəhətindən qərabətim (əqrabalığım) vardır. Münasib olan sülhtür..."*. [Şem'dani-zade Süleyman Efendi, 1976, 60]

Nadir şahın Osmanlı dövləti ilə münasibətlərdə başlıca məqsədinin sülh bərqərar etmək olduğunu mənbə məlumatları da təsdiq edir. Bu mənbələr arasında mövzumuz açısından ən qiymətliləri osmanlı sultanı I Mahmud ilə olan yazışmalardır. Məlumdur ki, Nadir şahı dərindən düşündürən və Muğan çölündə şah elan olunduğu gündən (14 fevral 1736) [13, 119; 2, 43] etibarən hakimiyyətdə olduğu müddət boyunca israrla həllinə çalışdığı məsələ, İslam dünyasını parçalayan məzhəblərarası ədavətə son qoymaq və dini həmrəylik yaratmaqidi.

Bir dövlət xadimi olmaqla yanaşı, Nadir şah həm də bir müsəlman idi, özünün ifadəsinə görə bir abid, yəni Allaha ibadət edən bir qul idi. Və buna görə də o, bütün İslam aləmində sülh və qardaşlıq yaratmağı bir müsəlman kimi özünün ən ümdə vəzifəsi kimi görürdü və Osmanlı dövlətini də müqabil tərəf olaraq buna dəvət edirdi. Bağdadın Osmanlı valisi Əhməd paşaya göndərdiyi məktubda o yazırdı: "*Abidlərin hər birinə fərz olunan işidir ki, hər iki tərəfin əhalisi müslüman və Sübhan bəndələri olmalarına binaən (olduqları üçün) cümləmizə lazımdır ki, seyyidül ehkam olan müsələhə (yəni hökümlərin ən gözəli, əfəndisi olan sülh – F.H.) ilə himayət və siyanətləri üçün qüdrətimizi (qüvvətimizi) sərf edək. Və axirətdə yalnız biz deyil, tərəfeyn dəxi (yəni Osmanlı tərəfi – H.F.) cavaba qadir olamazlar..*" [Arı Saim, 2001, 75]

Bu məsələnin həlli istiqamətində Cəfəriliyin həm dövlət dini, həm də beşinci məzhəb kimi qəbul edilməsi üçün diplomatik yazışmalar və elçi mübadiləsi vasitəsilə Osmanlı hakimiyyəti ilə intensif müzakirələr aparan Nadir şah 1746-cı ilin başlarında Fəthəli bəy Türkman adlı bir elçi ilə bir məktub ünvanlayır Osmanlı rəsmilərinə. Qətlindən təxminən bir il öncə yazılmış bu məktubu oxuduqda onun həm nəsihət, həm də sanki vəsiyyət mahiyyətində olduğu təəssuratı yaranır. Osmanlı sarayının tutduğu barışmaz mövqeyi üzündən Cəfəriliyin beşinci məzhəb kimi qəbul olunması niyyətindən əl çəkdiyini məktubda müəyyən dərəcədə giley ilə ifadə edən Nadir şah: *"dostluq, bir olma və sevgi yolu naminə o əbəd-müddət dövlət (Osmanlı dövləti – H.F.) tərəfinə İmam Cəfər-i Sadiqin məzhəb başılığı üçün rükn təyin olunması təklif olundu və bu təklifdən qəsdimiz müslümanlar arasındaki qanayan yaranın qabuq bağlamasını və Hz. Peyğəmbərin ümməti arasında dostluğu təmin etməkdən başqa bir şey olmadı"*, deyə yazır. Lakin bu təklifin Osmanlı dövləti tərəfindən qəbul olunmadığı üçün bundan "*fərağat etdiyini"* bildirir və daha sonra məktubda iki tərəf arasında mütəmadi olaraq savaşlara səbəb olan Azərbaycan və İraq-i Ərəb məmləkətləri mövzusuna müraciət edir. Nadir şah hər iki məmləkətin Türkman mirası olaraq bu tərəfə, yəni Əfşar dövlətinə və sələflərinə aid olduğunu qeyd edir, lakin bununla belə Osmanlı ilə bir cəddən gəldiyini əsas gətirərək bu məsələnin gələcəkdə bir daha qarşıdurmaya səbəb olmaması üçün qardaş hüququna istinadən çözülməsini təklif edir: *"Madəmki həyat davam etmədədir; bu gündən sonra bir daha mal və mülk üçün müxalifət qılıncı qınından çıxıb niza' (çəkişmə, qovğa) və müxalifət girdabına düşdüyümüz təqdirdə qardaşlıq hüququna binaən şunu biliniz ki, Iraq və Azərbaycan məmləkətləri çox əski dövrlərdən bəri Türkman padişahlarının olmaqla, doğrusu bu hayır-hâh dostunuza (Nadir şaha – H.F.) mirasdır... Iraq və Azərbaycandan ibarət olan o iki məmləkətdən birisi birlik və bərabərliyin gərəyi olaraq təqibçiniz olan bu dostunuza əta və ehsan olunursa, təsərruflarında bulunan digəri də kəndilərinə halal olmalıdır... Bunu rədd ya da qəbul etmək sizin seçiminizdədir. Hər nə şəkildə təbiət-ı dövlətinizə uygun düşər, şirin gəlirsə bu səmimiyyət-pərvərlərinə də o şirin gələcəkdir. Daha başqa bir şeyə həmledilməsin. Xilafət günəşiniz baki olsun; cihan-sahibi oluşunuz zəval görməsin".* [1,132]

Nadir şahın Osmanlı dövləti ilə əsl qardaşlıq və qarşılıqlı etimada söykənən münasibətlərin yaradılması istiqamətində atdığı addımlar və, yürütdüyü siyasət öz bəhrəsini vermişdir və iki dövlət arasındakı münasibətlərə tamamilə yeni ruh, yeni mahiyyət qazandırmışdır və

zamanın da sınağından çıxaraq bu gün Azərbaycan-Türkiyə qardaşlığında özünü göstərir.

Ədəbiyyat siyahısı:


1. *I.Mahmud-Nadir Şah Mektuplaşmaları, 3 Numaralı Nâme-i Hümâyûn Defteri,* (Transkripsiyon / Tıpkıbasım). T. C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu: 136 İstanbul, 2014
2. Albayraq Rəcəb, *Türklərin İranı,* Yaxın gələcək, II cild, Türkçədən tərcümə edən Ramiz Əskər, Bakı, 2016.
3. Arı Saim, *Osmanlı Arşiv Kaynakları Işığında Nadir Şah - I.Mahmut Dönemi Ehli Sünnnet-Şiî Diyalogu,* Şanlıurfa, 2001.
4. Ateş Abdurrahman, *Avşarlı Nadir Şah ve Dönemide Osmanlı-İran Mücadeleleri,* Isparta, 2001.
5. Gözalova N., Bağırov Ə., *XVIII əsrin 30-40-cı illərində Nadir Şah Əfşarın Bağdad yürüşləri,* Bakı, 2018.
6. Hammer, Baron Joseph Von Purgstall, *Osmanlı Devleti Tarihi,* I-XVI, çev. Vecdi Bürün, İstanbul ty.
7. Kılıç Remzi, XVI ve XVII. Yüzyıllarda Osmanlı-İran Siyasî Antlaşmaları,İstanbul, 2001
8. Münşi İsgəndər bəy Türkman, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alemaraye-Abbasi),* II kitab, Fars dilindən çevirən: Şahin Fazil, Bakı, 2014.
9. Özer Alâettin, *Vekâ`yi-nâme-i Nâdir Şâh der Mezâhib-i Şi`iyye-i Ca`feriyye,* İstanbul, 1990.
10. Saray Mehmed, *Türk-İran Münasebetlerinde Şiîliğin Rolü,* Ankara, 1990.
11. Şem’dani-zade Süleyman Efendi, *Mür`i’t-Tevarih,* yay. M.Münir Aktepe, Istanbul, 1976.
12. Uzunçarşılı İsmail Hakkı, *Osmanlı Tarihi,* c IV, Ankara, 1982.
13. Локкарт Л., *Надир Шах. Критическое исследование на основе первоисточников,* (Лондон -1938). Переведено с английского Гёзаловой Н.Р., Баку, 2004.

FƏRIDƏ MƏHƏMMƏDƏLI QIZI ALLAHVERDIYEVA
Bakı Dövlət Universiteti

# YAXIN ŞƏRQDƏ DIN VƏ DEMOKRATIYA MÜNASIBƏTLƏRI REGIONAL TƏHLÜKƏSIZLIK KONTEKSTINDƏ

Açar sözlər: Yaxın Şərq, Avropa, ərəb baharı, din, demokratiya

Yaxın Şərqdəki siyasi və dini münasibətlərin dinamikasını başa düşmək üçün bölgənin tarixinə, mədəniyyətinə və əhalinin əksəriyyətinin bağlı olduğu İslam dininə baxmaq lazımdır. İslam və demokratiya arasındakı əlaqələr ötən əsrdən bəri ən çox müzakirə olunan, lakin, hələ də fikir birliyinə gəlinə bilməyən məsələlərdəndir. XV əsrin sonlarında avropalıların dənizdən və qurudan digər bölgələrə yayılmağa başlamasıyla, XX əsrin ortalarında bütün dünya Avropa mədəniyyətinin təsirinə girmiş oldu. Bəzi ərazilərdə məskən salıb, assimilasiya yoluyla yerli əhalini ixrac edən avropalılar, bəzi bölgələrdə isə, qədim sivlizasiyalar və güclü dövlətlərlə qarşılaşdılar. Bunların çoxu, XX əsrə qədər ya məğlub edildi, ya da, boyun əyməyə məcbur edildi. Beləliklə, Avropanın üstünlük təşkil etdiyi yeni siyasi, mədəni və iqtisadi dünya düzənində, ayaqda qalmağa müvəffəq olan bir neçə sivlizasiya da, müəyyən dərəcədə onun üslübunu mənimsəyə bildi. Avropalılar Afrika və Asiyaya yayılarkən, üç böyük sivlizasiya ilə rastlaşdı: Hindistan, Çin və İslam. Ancaq, İslam mədəniyyəti ilə, digər ikisi arasında əhəmiyyətli dərəcədə fərq varıydı. İslam dünyası Avropa reallığıyla qədimdən bəri tanış idi və onu xristian dünyası adlandırmaqdaydı. VII əsrdə islamın doğulmasından bəri, xristianlıq və islam bir-birinə düşmən olmaqdan çox, qonşu idi. VII və VIII əsrlərdə islam inancının və müsəlman dövlətlərin yayılması xristian dünyasının zərərinə oldu. O dövrdə, çoxluqla xristianların yaşamaqda olduğu İraq, Roma imperatorluğunun təsirində olan Suriya, Fələstin, Misir, Şimali Afrika, İber yarımadası və Sicilya onlardan geri alındı. [B.Lewis, 2017, 6-7]. Yaxın şərqdə müasir tarixin başlanğıcı, 1798-ci il Napoleonun Misir səfəri və bölgədə Fransız inqilabının yayılmasıyla oldu. O zamandan bəri başlayan siyasi müzakirələr hələ də davam etməkdədir. Günümüzə

qədər davam edən bu çəkişmələr dövlətlərarası qarşıdurmalardan daha çox, sivlizasiyalar arası qarşıdurmalar olmuşdur.

Yaxın və orta şərqdə 2010-cu ildən indiyə qədər baş verən hadisələr bu bölgənin uzun illərdir qarışıq maraqlar, qeyri-demokratik rejimlər və təzyiqlərin mərkəzində yer almasının nəticəsidir. Əlbəttə, ilk növbədə burada daxili səbəbləri sıralamaq daha vacibdir. Xüsusilə regionun coğrafi mövqeyini və tarixi inkişafını, dini və etnik tərkibini, kimlik problemini, ən əsası isə, bu məqamları nəzərə almadıqda reallaşdırılan siyasi və iqtisadi xətaları diqqətə almaq lazımdır. Belə ki, Tunisdə, Liviyada vətəndaş müharibəsi təhlükəsi aradan qalxmır, Misirdə daxili çəkişmələr davam edir, Suriya vətəndaş müharibəsi şəraitində hər gün minlərlə qurban verir. Yəmən və Bəhreyn də, bu hərəkatlardan öz payını almaqdadır. Bu region üçün xarakterik olan sosial, siyasi proseslər, 2010-cu ildən etibarən yeni bir mərhələyə qədəm qoymuşdur. Bu mərhələnin ən əsas hadisələri isə, "Ərəb baharı" adı altında Tunis, Misir və Liviyada hakimiyyətlərin devrilməsi olmuşdur. Lakin, daima regionda səssiz gedən proseslərin bu dərəcə qabarması və yüksəlməsi üçün digər amillərin də təsiri böyükdür.

Son 30 il ərzində, Yaxın şərqdəki imperialist elementlər, proqramlaşdırılmış bölmə çərçivəsində, regional siyasətin əsasını formalaşdırmağa çalışırdılar. İslam düşüncəsinin isə, bir siyasi fəlsəfəsi var. Amma, bu günün siyasi islamı və islami düşüncənin siyasi fəlsəfəsi ziddiyyət içərisindədir. Bugünkü siyasi İslam əsasən, qərb dünyasının kapitalist istehsal münasibətlərinin yerləşdirilməsinə əsaslanır və Yaxın şərqdəki əsas mübarizənin mərkəzində ideoloji danışıq kimi ortaya çıxır. Siyasi islam, Misirdə Mursi hərəkatının, cənuba endiyimzdə Səudi-Qətər hövzəsinin ümumi siyasəti olaraq təyin oluna bilər. Siyasi İslam, Yaxın və Orta şərqin yenidən qurulması layihəsinin çox əhəmiyyətli bir dirəyidir. Lakin, ərəb dövlətləri öz mövcudluqlarını və birliklərini təmin edən "Pan-Ərəbizm", "Anti-Siyonizm" və "siyasi İslam" kimi güc mənbəyini itirməyə başlamışdır. Qəddafidən Əsədə qədər, Yaxın və Orta şərq siyasəti anti-imperialist, anti-Amerika danışıqları çərçivəsində təzahür edirdi. Buna görə də, Orta Şərqdə bir anti-imperialist və anti-Amerika ənənəsi var. Siyasi islam bu ənənədən kənara çıxdığı halda, bölgə xalqı arasında yad bir anlayış olaraq qəbul edilir və ziddiyətlər yaranır. Növbəti məqam isə, Qərbin regionda daima artmaqda olan təzyiqləridir. Bu isə, dövlətlərin

gücünün və mövqeyinin zəifləməsini yaradır. Qərbin təsiri və təzyiqləri, regionun aparıcı güclərinin təsiri ilə qarşılaşır və nəticə olaraq, Ərəb baharı regionda bəzi dövlətlər üçün mövqelərin yenidən qazanılması, bəzi güclər üçün isə mövqe uğrunda mübarizəyə qoşulma fürsəti yaratmışdır.

Yaxın və Orta Şərqdə bütün maraqlı gücləri bir biri ilə toqquşduran və birləşdirən əsas mərkəz heç şübhəsiz Suriyadır. Suriyanın hər bir dövlət üçün ayrıca bir əhəmiyyəti vardır. Bütün qonşu dövlətləri ilə, sərhəd və ərazi problemi yaşayan Suriya, Ərəb baharı zamanı bu istiqamətdə münasibətlərini daha çox Türkiyə ilə gərginləşdirdi. Suriya, Hatayın ona məxsus olması iddası ilə, Türkiyə ilə münasibətləri pisləşdirdi. Digər məsələ isə, Fərat çayına Türkiyənin nəzarət etməsi Suriyanı hər zaman narahat edən məsələlərdən olmuşdur. [Akyeşilmen, 2013, 40]. Bu problemlər Suriya ilə Türkiyə arasında hər zaman mövcud olmuşdur. Hətta zaman-zaman daha da gərginləşmişdi. Lakin, 1999-cı ildən etibarən nisbətən normallaşmışdı. Əlbəttə bu istiqamətdə, Türkiyənin “Sıfır sorun” siyasətinin də rolu vardır. Lakin, Ərəb baharı ilə birlikdə münasibətlər yenidən gərginləşməyə başladı. Demokratiyanın təməl şərtlərindən biri dinin dövlətdən ayrı olmasıdır. Siyasi İslamın yayıldığı Türkiyə kimi ölkələrdə isə din və dövlət bir – birinin institusional davamı kimi fəaliyyət göstərir. Bununla yanaşı, Yaxın şərq ölkələrində əhalinin əksəriyyəti Türkiyəni İslam və demokratiyanı yanaşı inkişaf etdirən dövlət kimi tanıyır.

Şərqi Avropa, MDB məkanı, Yaxın Şərqdəki proseslər dönə-dönə təhlil edilir və hələ ki, baş verənlərin fonunda siyasi İslam modeli özünü daha qabarıq büruzə verir. Demokratiya bir ənənədir, kültürdür. Demokratiya öz kökünü xalqların tarixindən, inanclarından, ənənələrindən götürür. Demokratiya elə bir fenomendir ki, onun bütün komponentləri birlikdə mövcud olmalı və bir-birini tamamlamalıdır. Azad və rəqabətli seçkilər, qadınların və azlıqların hüquqları, vicdan və fikir azadlığı, dinin dövlətdən ayrı olması, fikir plüralizmi, müzakirə mədəniyyəti kimi komponentlər fərdlər və cəmiyyət tərəfindən mənimsənilməsə və zamanla xalqın tarix və mədəniyyətinin bir parçasına çevrilməsə, o cəmiyyətdə demokratik təsisatlar qurmaq təəssüf ki, çətin olur. Sekulyarlıq, siyasi İslam və sosial ədalətsizlik üçbucağında dolanan Yaxın Şərq "Daha çox demokratiya" şüarını, daha çox səsləndirməyə məcbur olacaq.

Ədəbiyyat siyahısı:

1. Akyeşilmen, N. (2013). İslam, Demokrasi ve İnsan Hakları: Esas Soru(n) Ne?. Uluslararası Katılımlı İslamofobya Sempozyumu kitabından Ankara: Merak Yayınları.
2. Bayat, A. (2015). İslam'ı Demokratikleştirmek. İstanbul: İletişim Yayınları.
3. Bernard Lewis. (2017) İnanç ve İktidar - Ortadoğu'da Din ve Siyaset.
4. Bin Nebi, M. (1992). İslam ve Demokrasi. (E. Göze, Çev.), İstanbul: Boğaziçi Yayınları.
5. Esposito, J. ve Voll J. (1996). Islam and Democracy. New York: Oxford Üniversitesi Yayınları.

FƏRIDƏ ELXAN QIZI MƏMMƏDOVA
Azərbaycan Dövlət Mədəniyyət
və İncəsənət Univeristeti

# XX ƏSRIN ƏVVƏLLƏRINDƏ AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ

Açar sözlər: SSRİ, beynəlxalq münasibətlər, 1920-ci illər, beynəxalq vəziyyət, qurultay, plenum

1920-ci il iyunun axırında Azərbaycan SSR-in xalq xarici işlər komissarı M.D.Hüseynov da Sovet Rusiyası və Sovet Azərbaycanının qarşılıqlı münasibətləri məsələlərini aydınlaşdırmaq, onların arasında sıx ittifaq yaratmaq, habelə beynəlxalq məsələlər barədə fəaliyyət planını razılaşdırmaq və işləyib hazırlamaq məqsədilə Moskvaya getdi.

M.D.Hüseynov bütün bu məsələlər barəsində V.İ.Lenin və G.V.Çiçerinlə ətraflı söhbət etmişdi. V.İ.Leninin iştirakı ilə 1920-ci il avqustun 5-də RK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi və G.V.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamağı tapşırdı.

Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələ sentyabrın 6-da AK(b)P MK və BK-nın birləş miş iclasında, məsul işçilərin iştirakı ilə həmkarlar ittifaqlarının rəyasət heyətlərində də müzakirə olundu.

V.İ.Leninin rəhbərliyi və A.A.Andreyevin, F.E.Dzerjinskinin, M.İ.Kalininin, İ.V.Stalinin iştirakı ilə 1920-ci il sentyabrın 20-də RK(b)P MK plenumu A zərbaycan SSR-lə müqavilənin Xalq Xarici İşlər Komissarlığının təqdim etdiyi layihəsini müzakirə etdi. Plenum "Azərbaycan Respublikası ilə müqavilə XKS-yə təqdim edilənə qədər gözdən keçirilmək və Azərbaycan haqqında bizim siyasətimizin xarakterinə dair partiya qərarını həmin müqaviləyə əlavə etmək üçün" komissiya yaratmağı qərara aldı.

Azərbaycan SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi B.A.Şahtaxtınski müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Müqavilənin layihəsi Azərbaycanda da müzakirə olunmuşdu.

RSFSR ilə Azərbaycan SSR arasında müqavilə haqqında məsələnin həlli prosesi bilavasitə partiya rəhbərliyi altında gedirdi. 1920-ci il

sentyabrın 29-da V.İ.Leninin sədrliyi ilə RK(b)P MK plenumu Azərbaycan SSR ilə RSFSR arasında bağlanacaq müqaviləni təsdiq etdi.

Müqavilə 1920-ci il sentyabrın 30-da Moskvada imzalandı.

Ümumən sovet respublikaları arasında qarşılıqlı münasibətlərin yaranması prosesinə, o cümlədən RSFSR ilə Azərbaycan SSR arasında bağlanan müqavilə layihəsinin hazırlanmasına Stalinin, Q.K.Orconikidze və A.İ.Mikoyanın müdaxiləsi nəticəsində əsil beynəlxalq müqavilə deyil, zahirən ona oxşar olan yarımçıq bir müqavilə imzalandı.

Müqavilədə göstərilirdi ki, bir tərəfdən, Azərbaycan SSR hökuməti və digər tərəfdən isə RSFSR hökuməti "Azərbaycan və Rusiyanın zəhmətkeş kütlələrinin tam mənafe birliyinin dərk olunmasını əsas tutaraq və ancaq hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə - imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların müvəffəqiyyət qazanmalarının təmin oluna biləcəyini nəzərə alaraq, bu müqaviləni bağlamağı qərara almışlar".

Müqavilənin birinci maddəsində deyilirdi: "Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar".

İkinci maddədə göstərilirdi ki, hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər.

Xarici ticarət məsələlərinə dair sazişə əsasən, Azərbaycan SSR başqa ölkələrlə iqtisadi əlaqələr yaratmağı və onlarla müqavilələr bağlamağı yalnız RSFSR Xalq Xarici İşlər Komissarlığı vasitəsilə həll edə bilərdi. Bu baxımdan aşağıdakı fakt maraq doğurur: 1920-ci il iyulun 15-də AK(b)P MK bürosu mal mübadiləsi barədə müqavilə bağlamaq haqqında Gürcüstanın menşevik hökumətinin təklifini (neftlə mübadilə etmək üçün parça, ayaqqabı, kağız və s. təklif olunurdu) müzakirə edərək, belə bir ticarət müqaviləsi bağlamağı qorara almış və bunu onunla əsaslandırmışdı ki, Azərbaycanın Rusiya ilə ümumi iqtisadi siyasəti var (neft məsələsi ümumi məsələdir, onu birgə həll etmək lazımdır); siyasi məsələ iqtisadi məsələ ilə sıx bağlıdır.

1920-ci il noyabrın 5-də AK(b)P MK Siyasi Bürosu xarici ticarət haqqında məsələni müzakirə edərək qərara aldı: "Azərxarici ticarəti Rusiyanın Azərbaycanda, İranda və Türkiyədəki xarici ticarət idarələri ilə birləşdirmək prinsip etibarilə zəruri sayılsın".

1921-ci ilin noyabrında Azərbaycan SSR-də RSFSR-in baş konsulluğu fəaliyyətə başladı. Beləliklə, 1920-1921 -ci illərdə iki respublika - RSFSR və A zərbaycan SSR arasında müqavilə münasibətlərinə əsaslanan federativ əlaqələr yarandı. RSFSR ilə Azərbaycan SSR arasında yaranmış münasibətlər federasiyanın müxtəlif növlərindən biri idi. V.İ.Lenin Kominternin II konqresinə milli və müstəmləkəçilik məsələləri üzrə tezislərində müxtəlif millətlərin zəhmətkeşlərinin tam birliyinə keçid kimi federasiyanın əhəmiyyətini vurğulayaraq yazırdı: "Federasiya həm RSFSR-in başqa sovet respublikalarına (keçmişdə Macarıstan, Finlandiya, Latviya respublikalarına, hazırda isə Azərbaycan, Ukrayna respublikalarına) münasibətlərində, həm də RSFSR daxilində... öz məqsədəuyğunluğunu əməli işdə göstərmişdir".

1920-ci ilin dekabrında A zərbaycan SSR VIII Ümumrusiya Sovetlər qurultayının işində iştirak etmək üçün partiya və dövlət xadimlərindən, fəhlə və kəndlilərin nümayəndələrindən ibarət böyük heyət göndərdi.

Ancaq Azərbaycan zəhmətkeşlərinin ümidləri özünü doğrultmadı. Hətta 1920-ci ildə RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış yarımçıq müqavilə də əslində Mərkəzin Azərbaycana münasibətdə imperiya siyasətini pərdələmək vasitəsi oldu.

Ədəbiyyat siyahısı:

1."Azərbaycan tarixi. Yeddi cilddə. VI cild" (Bakı, Elm,2000)

2. "Azərbaycan tarixi. Yeddi cilddə. VI cild" (Bakı, Elm,2008)

3. Azərbaycan Respublikası Dövlət Arxivi (bundan sonra - ARDA), f.410,s.l,i.78,v.2)

4.Газета "Известия ВПК Азербайджанской ССР" , 29 апреля 1920 г., Номер 1..

FIDAN CƏBRAYIL QIZI ƏLƏSGƏROVA

Azərbaycan Dillər Universiteti

# ABŞ-IN YAXIN ŞƏRQ SIYASƏTINDƏ TÜRKIYƏNIN MILLI MARAQLARI VƏ AZƏRBAYCANIN MÖVQEYI

Açar sözlər: region, milli birlik, ərazi bütövlüyü

ABŞ prezidenti Corc Buş 2001-ci il 11 sentyabr terror aktından sonra qəbul etdiyi yeni təhlükəsizlik doktrinasına əsasən Amerikanın "şər oxu"na daxil olan dövlətləri cəzalandırmaq qərarını rəsmi olaraq media vasitəsiylə yayımladıqdan sonra öncə Əfqanıstana, ardından da İraqa hərbi müdaxilə həyata keçirdi [Yusifli, 2018, 30-31]. Tarixi prosesləri izləyib analiz etdiyimiz zaman ABŞ həmin ölkələrdə mövcud vəziyyəti yaxşılaşdırmaq, sağlamlaşdırmaq yerinə daha da acınacaqlı vəziyyətə gətirdiyini və kütləvi olaraq insan itkisinə, ekoloji vəziyyətin korlanmasına, həmin ölkələrdəki, eyni zamanda həmin ölkələrin yerləşdiyi regionda siyasi proseslərin gərginləşdiyinə, əhalisinin iqtisadi asılılığa düçar olaraq böhranlı günlər keçirdiyinə səbəb olduğunu daha aydın anlayırıq. Hərçənd ki, Suriya ABŞ-ın ondan İraqdaki rejimi qoruması barəsində şübhələrinin əsassız olmasını sübut etmək məqsədiylə onun tələblərini yerinə yetirsə də o,yeganə fövqəlgüc olaraq regional proseslərin idarə olunmasını bu işdə maraqlı olan Rusiya Federasiyası, İran İslam Respublikası, Çin Xalq Respublikası, Avropanın Fransa, Almaniya kimi güclü ölkələrinə həvalə etməmək məqsədiylə müxtəlif bəhanələrlə Suriyaya müdaxilə etdi. Suriya və İraqın qonşu Türkiyə cümhuriyyəti ilə həmsərhəd olması və Türkiyənin də birbaşa bu hərbi müdaxilənin təsirinə məruz qalması ABŞ-ın hər iki ölkəyə hərbi müdaxiləsi zamanı Türkiyənin milli təhlükəsizliyi məsələsinin xüsusilə qabardılmasına rəvac verir.

ABŞ-ın İraqa və Suriyaya müdaxiləsi, Türkiyənin milli təhlükəsizliyi Azərbaycan Respublikası üçün olduqca böyük aktuallıq daşıyır. Belə ki, Azərbaycan geosiyasi nöqteyi-nəzərindən istər ABŞ və Türkiyə, istərsə də İsrail, İran, Rusiya və aparıcı Avropa dövlətləri üçün çox vacib hesab olunur. Azərbaycanın geosiyasi baxımdan əhəmiyyətinin artmasının əsas səbəbi Ulu Öndər Heydər Əliyevin başlatdığı və ardından onun layiqli

davamçısı Cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyi neft və qaz strategiyası nəticəsində böyük dövlətlərin iqtisadi maraqlarını təmin edən qaz və neft boru xəttlərinin ölkəmizdən keçərək Gürcüstan və ardından da Türkiyə vasitəsiylə dünyaya çıxarılmasıdır. Bu səbəbdən həmsərhəd ölkələrdəki müharibələrin birbaşa Türkiyənin milli təhlükəsizliyinə terrorizm, qaçqın axınıyla müşahidə olunan iqtisadi böhran, eyni zamanda siyasi gərginlik kimi müxtəlif aspektlərdə göstərdiyi mənfi təsir Azərbaycan Respublikası üçün həyati əhəmiyyət daşıyır. Belə ki, istər ənənəvi milli bağlılıq, istərsə də müasir geosiyasi proseslərdən doğan reallığa əsasən Azərbaycan regionda zəif Türkiyə görmək istəmir. Bu səbəbdən də qonşu Türkiyə Cümhuriyyətində, onun sərhədlərində baş verən prosesləri dərindən izləmək, analiz etmək Azərbaycan Respublikasının xarici siyasət kursunun prioritetlərindəndir.

Azərbaycan dövləti millətimizin birliyi, sərhədlərimizin bütövlüyünün qorunub-saxlanması naminə əlindən gələni edir. Bu birliyi pozan daxili və xarici qüvvələrə qarşı ciddi cəhdlə mübarizə aparır. Bu baxımdan Azərbaycan Respublikası regional münaqişələrin sülh yolu ilə həllində maraqlıdır. Eyni zamanda, regionda və dünyada maraqları onunla üst-üstə düşən dövlətlərin ərazi bütövlüyünün qorunub-saxlanmasında maraqlıdır. Türkiyə Cümhuriyyəti də belə dövlətlərdən biridir. Türkiyədə kürdlərin muxtariyyət istəyini 1990-cı illərin əvvəllərində seporatizmdən əziyyət çəkmiş Azərbaycan Respublikası dəstəkləmir. Çünki kürd seporatizmi Türkiyədəki digər millətlərin də ayrılma istəklərini gücləndirə bilər. Nəticədə də regionda güclü Türkiyə yerinə zəif Türkiyə görə bilərik. Belə olduğu təqdirdə Suriya və İraq daxil olmaqla Yaxın Şərqdə gedən proseslərdən uzaq qalan və ABŞ, Rusiya Federasiyası kimi böyük dövlətlər tərəfindən idarə olunan Türkiyə Respublikası ilə rastlaşa bilərik. Təbii ki, yaxın qonşumuz və strateji tərəfdaşımız olan Türkiyənin belə zəifləməsi regionda da, ölkə daxilində də Azərbaycanın daha böyük problemlərlə üzləşməsinə səbəb ola bilər. Ümummilli lider Heydər Əliyevin Azərbaycan ərazisində yaşayan müxtəlif millətlərin muxtariyyət əldə etmə tələblərinin dövlətin ərazi bütövlüyünü zəiflətməsinin qarşısını almaq üçün yürütdüyü uğurlu siyasi kurs nəticəsində onların hər birinə münasibətdə tolerant siyasət yürüdülmüş və ölkəmizdəki bütün millətlər konstitutsiyada bərabər hüquqlar əldə etmişdir. Onun bu siyasətini Cənab

Prezidentimiz İlham Əliyev indiyə qədər uğurla davam etdirir. Bu səbəbdən Türkiyədə millətlərin muxtariyyət əldə etmək istəyi rəsmi səviyyədə ölkəmizi narahat edir. Çünki ölkəmizdəki millətlərin muxtariyyət tələbi ərazi bütövlüyümüzün pozulmasına birbaşa hədədir.

Müharibələrin fəsadları, xüsusən də ən inkişaf etdirilmiş texnoloji vasitələrdən istifadə olunaraq insanlıq əleyhinə hazırlanmış öldürücü kimyəvi silahların istifadəsiylə kütləvi ölümlərə rəvac verən müasir müharibələrin fəsadları çox acınacaqlıdır. Təbii ki, bu təsirə təkcə müharibənin birbaşa hədəfi olan ölkə qalmır. Müharibələr ekoloji balansı pozduğu üçün Türkiyə və digər ölkələr kimi bizim ölkəmiz də Amerikanın İraqa və Suriyaya hərbi müdaxiləsindən, xüsusən kimyəvi silah istifadəsindən zərərə məruz qalmışdır. 2018-ci ilin yayında Naxçıvan Muxtar Respublikasının Əylis kəndində ehtimallara görə Suriyada istifadə olunan kimyəvi silahların ekoloji tarazlığı pozması nəticəsində ilk dəfə olaraq bir gecədə ağaclardakı bütün meyvələr yararsız hala düşərək yerə tökülüb, ağacların yarpaqları, göyərtilər və otlar vaxtından əvvəl saralaraq məhv olub. İraq və Suriya kimi ölkələrin yerləşdiyi yaxın regionlarda gedən müharibələrdə istifadə olunan kimyəvi silahların səbəb olduğu xəstəliklərdən ən qorxulusu hesab olunan xərçəngə düçar olanların sayının ölkəmizdə günbəgün artması da regional münaqişələrin fəsadlarını gözlər önünə sərir.

Azərbaycanın müharibə şəraitində yaşadığı və müharibənin hər cür fəsadlarından hələ də əziyyət çəkdiyi üçün dünyada sülh və əmin-amanlığın bərqərar olması naminə əlindən gələni edir. Suriya müharibəsi isə hələ də davam etməkdədir. Təəssüflər olsun ki, müxtəlif yad təsirlərə məruz qalan bəzi iradəsiz gənclərimizin müxtəlif üstünlüklərlə, imtiyazlarla şirnikləndirilərək "cihad", "müsəlmanların xilası" kimi şüarlarla beyinlərinin yuyulması və onların Suriyada gedən müharibədə qeyri-qanuni yollardan istifadə edilərək birbaşa iştiraka sövq edilməsi məsələsi də ölkəmiz üçün ağrılı aktual məsələlərdəndir.

Ədəbiyyat siyahısı:

1. Gülay Yusifli, "Terrorizmin müasir dünya düzəninə təsiri" magistr dissertasiyası, Bakı 2018, 92 səh.

http://unec.edu.az/application/uploads/2018/11/G-lay-Yusifli-q-z-Yusifli.pdf

ФИРУЗА АКИФ ГЫЗЫ ХАЯТОВА
Азербайджанский Университет Языков

## ВНЕШНЯЯ ПОЛИТИКА ВЕЛИКОБРИТАНИИ И АЗЕРБАЙДЖАН

Ключевые слова: Азербайджан, Великобритания, внешняя политика.

Во внешней политике Азербайджанской Республики чрезвычайно большое значение имеет укрепление и развитие взаимных связей с Великобританией. История взаимоотношений между Азербайджаном и Великобританией не ограничивается периодом с момента приобретения Азербайджаном независимости по сегодняшний день. Первые азербайджано-британские отношения возникли в конце XIX – начале XX века, в годы нахождения Азербайджана в составе царской России.

Великобритания, являвшаяся одним из могущественных государств мира оставила глубокий след в системе международных отношений, и отличалась традиционным внешнеполитическим курсом. В начале XX века глобальные интересы Великобритании заключались в охране и расширении своих колоний. На Ближнем Востоке и на Кавказе Великобритания сталкивалась с интересами Российской империи. Британская политика по отношению к Южному Кавказу и британское присутствие на Южном Кавказе в наиболее насыщенный военно-политическими событиями период продемонстрировали империалистические и колониальные планы Лондона, не брезговавшего местными противоречиями и нюансами для достижения своей цели – господства в регионе. [Дарабади, 2006, 196-198].

Во время I Мировой войны британское правительство усилило военно-политическое присутствие в Кавказско-Каспийском регионе. Установление власти Баксовета весной 1918 года стимулировало Великобританию реализовать планы захвата Баку для контроля над Каспийским морем. [Юсиф-заде, 2008, 8]. Именно во имя этой цели британцы взаимодействовали с лояльными к ним дашнаками и

другими силами. Не получив от них ожидаемую поддержку и разочаровавшись в экономических и военных возможностях «союзников», первая оккупация Великобританией Баку, продолжавшаяся 40 дней, завершилась бесславно. Второй этап оккупации, начавшийся по результатам Мудросского перемирия, длился дольше и с большим присутствием британских вооруженных сил.

С установлением независимости и активного наступления турецких войск, отряд Денстервиля покинул Баку. [Генерал-майор Денстервиль, 1925, 109]. До 1920 года, де-факто существование дипломатических отношений между Азербайджанской Демократической Республикой и Британской империей было через Верховного комиссара Великобритании на Кавказе, который находился в Тбилиси.

Как мы знаем, Азербайджан долгие годы был в составе СССР. После распада Советского Союза Азербайджан вновь объявил свою независимость. Великобритания признала независимость Азербайджана 31 декабря 1991 году. Новейшие дипломатические отношения между Азербайджанской Республикой и Соединённым Королевством Великобритании были установлены 11 марта 1992 года. Великобритания поддержала участие Азербайджана на конференции Сотрудничества и Безопасности Европы.

Направления взаимоотношений между Азербайджаном и Великобританией определены Общенациональным Лидером Азербайджана Гейдаром Алиевым. Благодаря его дальновидной политике, политическое и экономическое сотрудничество между государствами достигло своей кульминации. В ходе визита Президента Азербайджана премьер-министр Великобритании Тони Блэр заявил, что Британия признает территориальную целостность Азербайджана. Лондон оказывает определенную поддержку азербайджанской позиции в отношении карабахского урегулирования.

Поездка Гейдара Алиева в Англию 22-25 февраля 1994 года положила основание нового этапа азербайджано-британских отношений. Создание дипломатических отношений соответствовало интересам обоих государств, Англия предпочитает политику восстановления утраченных на Востоке позиций, овладения энергоресурсами посредством Азербайджана. [Пириев, 2005, 261-262.].

Великобритания как в начале XX века, так и сейчас весьма заинтересована в энергоресурсах Азербайджана. Британцы заявили о готовности вложения крупных инвестиций в нефтяную отрасль Азербайджана. В итоге 20 сентября 1994 года во дворце «Гюлистан», в Баку, было заключено соглашение, которое ввиду его огромной значимости получило название «Контракт века». Соглашение о долевом распределении продукции глубоководных месторождений «Азери», «Чыраг», «Гюнешли» нашло своё отражение на 400 страницах и 4-х языках. В контракте представлены две британские компании - BP и Ramco.

Между Азербайджаном и Великобританией был подписан ряд соглашений и деклораций о дружеских отношениях и партнерстве. Также в качестве основы для двусторонних отношений было принято "Совместное коммюнике".

На данный момент Великобритания является одним из крупнейших зарубежных инвесторов в Азербайджане. Сотрудничестве в сферах образования, науки и культуры также развиваются.

Мы считаем что, установление тесных связей между Азербайджанской Республикой и Великобританией чрезвычайно важно, в первую очередь, для национальных и экономических интересов нашей страны. На настоящем этапе, то есть в начале XXI века эти двухсторонние отношения и обмен опытомом поможет дальнейшему развитию и сотрудничеству в сферах политики, экономики, безопасности и т.д.

## Литература:

1. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri: (1991-2003-cü illər). B. Adiloğlu. 2003.173 s.

2. Böyük Britaniya Azərbaycana yeni sərmayələr qoyulması imkanlarını öyrənir: [Azərbaycan Prezidenti Heydər Əliyev London şəhərininmerini qəbul etmişdir] //Azərbaycan.- 2002.- 15 iyun.- S. 1.

3. Azərbaycan Böyük Britaniya ilə əlaqələrin genişlənməsi və dərinləşməsinə xüsusi əhəmiyyət verir: Azərbaycan Prezidenti İlham Əliyevin Londona rəsmi səfəri: [Materiallar] //Azərbaycan.- 2004.- 14 dekabr.- S. 3; 17, 18 dekabr.- S. 1.

4. Əliyev, H. Müstəqilliyimiz əbədidir: 22 kitabda.- B.: Azərnəşr, 2005. 16-cı kitab. 552 s. 20 iyul 1998-ci il. S. 318;

5. Генерал-майор Денстервиль. Британский империализм в Баку и Персии. 1917-1918. (Воспоминания). Тифлис, «Советский Кавказ», 1925, с.109.

6. Парвин Дарабади. Геополитическое соперничество на Кавказе в начале XX века (геоисторический очерк)// «Кавказ и глобализация», Том 1(1). 2006.

7. Пириев Аббас. Политическая стратегия и национальная безопасность. Баку, BDU-2005. 544 стр. Стр. 261-262.

8. Юсиф-заде С. Азербайджано-британские отношения в начале XX века. Баку, 2008.

ФЛОРА АЯЗ КЫЗЫ АЛИЕВА
Азербайджанский Университет Языков

# ТЕРРОРИЗМ КАК УГРОЗА МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ

Ключевые слова: терроризм, безопасность, угроза, международный.

Глобальные проблемы конца XX начала XXI заставили мировое сообщество задуматься о катастрофических угрозах для обеспечения безопасности государств современного мира. Глобализация мировой экономической и политической безопасности непременно оказало влияние на стирании границ между странами. Сегодня ни одно государство не может вести изоляционистский политический курс, поскольку и экономика, и культура, и социальная сфера, и обеспечение безопасности государств напрямую взаимосвязаны друг с другом. Современный мир все чаще начал сталкиваться с различными вызовами и угрозам, такими как международный терроризм, незаконный товарооборот наркотическими средствами, организованная преступность, торговля людьми, и т.д.

В настоящий период времени международный терроризм получил распространение в широком масштабе. Нет ни одного государства, которое бы прямо или косвенно не сталкивалось с данной проблемой. Террористические организации имеют место быть не только в регионах и странах, где существуют какие-либо конфликты, эта проблема присуще и развитым государствам, у которых уровень обеспечения безопасности очень высокий.

Терроризм — это способ достижения целей путём диверсий, шантажа жизнями заложников и нагнетания страха в обществе. Изобретен в незапамятные времена, но особую популярность получил в XX веке. В настоящее время слово "терроризм" используется достаточно часто, особенно посредством телевиденья, газет, интернета. Терроризм основан на применении насилия. Главная его цель – устрашение, запугивание своего противника путем

применения или угрозы применения насилия для выполнения своих требований.

Если рассмотреть само понятие терроризма, к нему можно отнести индивидуальный (действия совершаются со стороны одного или двух лиц и за ними не стоит какая-либо организация) и коллективный (акт планируется и организуется со стороны групп лиц или организацией - данный вид терроризма наиболее распространен в мире). Цели у террористов могут быть совершенно различными. К ним можно отнести: националистические - преследуют сепаратистские или же национально-освободительные цели, религиозные - может быть связан с борьбой приверженцев религии, идеологический – преследует цель коренного или частичного изменения экономической, политической системы страны, а также привлечение внимания общественности к своей проблеме.

Что примечательно, новое поколение террористов часто состоит из молодежи. Зачастую молодежь не задумывается, как на их дальнейшее будущее может сказаться вступление в террористические группировки и организации. Современные международные террористические организации обладают достаточно мощными людскими, материальными и организационными ресурсами, способны действовать в транснациональных масштабах. В современный период существует особая опасность, что ядерное оружие может попасть в руки террористическим группировкам, и тогда последствия будут необратимыми и глобальными.

В таких условиях международный терроризм просто не может рассматриваться как самостоятельная единица, как отдельный феномен. Угроза терроризма заставило мировое сообщество задуматься о своем дальнейшем существовании, ведь террористические организации становятся более мощными, способны оказывать влияние и нести опасность на отдельные города и регионы.

Если делать прогноз на ближайшее будущее, можно отметить, что все нововведения, технологии, внутригосударственное законодательство, безусловно, способствуют противостоянию терроризма. Но терроризм сегодня превратился в глобальную проблему человечества,

которую необходимо решать совместными путями, так как каждое государство может стать жертвой террористических актов.

Литература:

1. Баранов Н. «Международная безопасность: глобальный и региональный аспекты», https://www.nicbar.ru/politology/study/kurs-problemy-natsionalnoj-bezopasnosti-i-kontrol-nad-vooruzheniyami/231-lektsiya-6-mezhdunarodnaya-bezopasnost-globalnyj-i-regionalnyj-aspekty
2. Кулагин В., «Международная безопасность», 2007, с.129;
3. «Терроризм – глобальная угроза. Противодействие экстремизму», с.7, http://www.cherlib.ru/content/images/upload/files/spisok_1.pdf ;
4. Терроризм как угроза национальной безопасности: материалы межвед. науч.-практ. конф. / под общ. ред. С. А. Богданова., 2014. с.102;
5. Трансграничный терроризм. Угрозы безопасности и императивы международного сотрудничества, Коваль Б., Болотина Т., 2006, с 91.

GÜLNAR XANLAR QIZI SƏMƏDOVA
AMEA İqtisadiyyat İnstitutu

# BEYNƏLXALQ IQTISADI ƏLAQƏLƏRDƏ TURIZMIN TƏKMILLƏŞDIRMƏSI ISTIQAMƏTLƏRI

Açar sözlər: turizm, uşaq turizmi, müalicəvi-balneoloji turizm.

Ölkədə fəaliyyət göstərən turizm şirkətlərinin və turistlərin sayının artmasının bu sahədə çalışan işçilərin sayına birbaşa təsir göstərdiyi müşahidə olunur. Belə ki, bir turistə normal 7-9 işçi xidmət göstərir. Bu da ölkədə işsizlik probleminin tədricən həllinə kömək edəcəkdir. Ölkəyə daha çox turist cəlb edilməsi yeni iş yerlərinin açılması deməkdir. Bunun üçün, ölkədə turizmin maddi-texniki bazası, infrastrukturu inkişaf etdirilməli, fəaliyyət göstərən turizm müəssisələrində servis səviyyəsi yaxşılaşdırılmalı, istehsal və təklif edilən milli turizm məhsullarının çeşidi artırılmalı, yüksək hazırlıqlı peşəkar kadrlar hazırlanmalıdır.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan Respublikasında "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" na aid tövsiyələrdə bu amillərin bəziləri artıq öz həllini tapmışdır. Bu proqramda daxili və beynəlxalq turizm marşrutlarının yaradılması, xarici ölkələrdə geniş reklam kompaniyası aparmaq, xarici ölkələrin turizmlə məşğul olan dövlət qurumları ilə əlaqələri möhkəmləndirmək, dövlət səviyyəsində müqavilələr bağlamaq, turizmin infrastrukturunun yaradılması, mövcud infrastrukturun təkmilləşdirilməsi, işsizliyin aradan qaldırılması başlıca vəzifələrdir. Belə ki, turistlərin işgüzarlığı, istirahət və əyləncə məqsədilə mehmanxana, otel, motellərin, restoran, kafe və s. şəbəkələrinin genişləndirilməsinə şərait yaradılmalıdır. Hazırda Böyük Qafqazın bir çox bölgələrində, həmçinin Bakıda dünya standartlarına cavab verə bilən qonaq evləri, əyləncə və istirahət zonaları, restoranlar turistlərin istirahəti üçün əlverişli şərait yaradılır. Həmçinin yeni turizm obyektləri inşa edilir, Bakıda "EDELWEISS Recidence" otel və biznes mərkəzi, Nabranda "Bella Bonty" turizm kurortu, İsmayıllıda "Şirin su", Şamaxıda "Dədə Qorqud" istirahət mərkəzlərinin tikilməsi planlaşdırılır. Ölkəmizin iqtisadi inkişafının sürəti

turizmin maddi-texniki bazasının genişləndirilməsi üçün əlverişli şərait yaradır. [1]

Ölkənin turizm sərvətləri nə qədər dəyərli olarsa, nəqliyyat və yol sistemi yüksək səviyyədə inkişaf etməzsə, o ölkədə turizm əhəmiyyətli dərəcədə inkişaf edə bilməz. Nəqliyyat vasitələrinin sürət, güvənlik, komfort və ucuzluq baxımlarından inkişaf etməri tələb olunur. Ancaq belə bir nəqliyyat sisteminə malik region, turizm sahəsində uğur qazana bilər.

Rekreasiya məqsədləri üçün şəhərətrafı və regional nəqliyyat sistemlərindən geniş istifadə olunur. Regionlarda turizmi inkişaf etdirməkdən ötrü ilk növbədə yollar müasir tələblər səviyyəsinə çatdırılmalıdır. Buraya asfalt örtüyündən yol işarələrinədək hər şey daxildir. Yol turizmin qapısı, turist cəlb etməyin açarıdır. Yaxşı yol iqtisadiyyatı yüksəltməyə, sosial tərəqqiyə, abadlığa səbəb olur. Buna görə də, Azərbaycan Respublikasının inkişafının dövlət proqramlarında nəqliyyat infrastrukturunun bərpasına xüsusi yer verilir. Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının qərarı ilə yaradılmış xüsusi işçi qrupunun üzərində çalışdığı "2007-2016-cı illərdə Azərbaycanda turizmin inkişafı Proqramı" nda bütün bölgələrdə yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Dövlət əhəmiyyətli magistrallar dövlət büdcəsi hesabına, yerli əhəmiyyətli yolları bələdiyyələrin vəsaitləri təzələmək planlaşdırılır. Dünya Bankı və Asiya İnkişaf Bankı Azərbaycanda nəqliyyat şəbəkəsinin modernləşdirilməsinə maliyyə vəsaiti ayırıblar. Rusiya sərhədindən Bakıya qədər, habelə Ələt-Astara və Bakı-Şamaxı-Muğan yolu yenidən qurulur. Şəki, Qax, Zaqatala və Balakən rayonlarında kəndlərarası yollar təkmilləşdiriləcək. Ölkənin yol infrastrukturunun təkmilləşdirilməsi üçün əlavə sərmayə qoyulacaq, yollarımız dünya standartlarına uyğunlaşdırılacaq.

Regionlardakı otellər və mehmanxanalar, restoranlar və istirahət mərkəzləri arxitektura cəhətdən gözoxşayan olsa da, bu sahədə də problemlər var. Bu əsasən ixtisaslı kadrların çatışmamağında özünü büruzə verir. Bu da öz növbəsində xidmət mədəniyyətinin aşağı səviyyədə olmasına gətirib çıxarır. Bu problemi təkcə yerləşdirmə müəssisələrinə və iaşə obyektlərinə deyil, həmçinin nəqliyyata və tur agentliklərə də aid etmək olar. Rayonlarda turizm sahəsində işləyənlər əsasən yerli gənclərdən ibarətdir. Onlar xarici və yerli turistlərə yüksək səviyyədə

xidmət göstərməyə çalışsalar da, lakin xaricilərin əksəriyyəti ingilis, alman, fransız, rus dilində danışdıqlarından onlar lazımi məlumatlar ala bilmirlər. Bu da ondan irəli gəlir ki, son illərə qədər bu sahədə çalışacaq mütəxəssislər hazırlanması lazımi səviyyədə deyildir. Turizm sahəsində xidmət etmək çox məsuliyyətli işdir, turistlər çox həssas olurlar. Onlar xidmətin səviyyəsinə ciddi fikir verirlər. Ona görə də, hava limanından başlayaraq, mehmanxanaya yerləşənədək xidmətin səviyyəsi çox yüksək olmalıdır. Bu həm də növbəti il daha çox turistin ölkəmizə gəlməsinə səbəb olur. Eyni zamanda xalqımız, millətimiz haqqında əcnəbilərdə yaxşı təsəvvür formalaşır.

Ölkəyə gələn turistlərin sayı artdıqca onlarla işləyəcək yüksək ixtisaslı kadrların - peşəkar bələdçi - tərcüməçilər və bələdçi-təlimatçılara tələbat artir, bu baxımdan turizm sahəsində problemlərin mövcud olduğunu xüsusilə qeyd etmək lazımdır. Məhz kadrların peşəkarlığı, dünyagörüşü, mükəmməl biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəticə etibarilə turizm məhsulunun keyfiyyətinə təsir edir.

Turizmin inkişaf etdiyi ölkələrdə bu fakta xüsusi önəm verilir. Bələdçilərin fəaliyyəti bir neçə qurum tərəfindən tənzimlənir və müvafiq idarənin icazəsi olmadan hər hansı turizm müəssisəsi bələdçi xidmətindən istifadə edə bilmir. Üstəlik, bələdçiliklə məşğul olmaq istəyən şəxsin mütləq lisenziyası olmalıdır. Bir çox ölkələrdə bu işə turizm təhsili verən müəssisələr və həmin ölkələrdə fəaliyyət göstərən turizm şirkətləri (assosiasiyaları) məsuldur.

Turizm bazarının funksiyası və dinamikası tez-tez dəyişir. Belə dəyişən şəraitdə ancaq savadlı, yüksək hazırlıqlı və təcrübəli kadrlar rəqabətli turist məhsulu hazırlayar və onu sata bilər. Son illərdə sadalanan problemləri həll etmək üçün Mədəniyyət və Turizm Nazirliyi bir çox tədbirlər həyata keçirir. Azərbaycanda ixtisaslı kadrların hazırlanması üçün dövlət tərəfindən yeni tədris proqramları tətbiq olunur və turizm tədris ocaqları açılır. Belə ki, 2006-cı ildən fəaliyyət göstərən "Azərbaycan Turizm İnstitut" u müxtəlif ixtisaslar üzrə (turizmdə sosial və mədəni servis, turizmdə marketinq, turizm menecmenti, sanatoriyalarda və kurort yerlərində tibbi xidmətin təşkili, səyahət, kurort, mədəniyyət və incəsənət turizmi, linqvistika və idman turizmi və s.) kadrlar hazırlayır. Mütəxəssis hazırlığında çətinliklərdən biri turizm idarə olunması, qonaqpərvərlik

sənayesi, turizmdə reklam və digər məsələlər üzrə sistemləşmiş dərsliklərin olmamağıdır.

Dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması üçün ilk növbədə ölkə daxilində sağlam rəqabət mühitini formalaşdırmaq lazımdır.

Eyni zamanda turizmin inkişafı dövlət büdcəsinə xeyli gəlir gətirir. Turizmin inkişafı nəticəsində bir çox yerli sektorlar xeyli gəlir əldə edirlər. [2]

Müalicəvi-balneoloji turizmin inkişaf etdirilməsi prioritet götürülərək, 100 nəfərlik müalicəvi turizm obyektinin istifadəyə verilməsinin dövlət tərəfindən stimullaşdırılması, bunun üçün təqdim olunan layihənin səmərəliliyi hesablanmaqla mənfəət vergisindən azad olunması;

Əsaslandırma: regionlarda duzaq, isti, kükürdlü su potensialından səmərəli istifadə olunmur. Bunun üçün respublikamızda geniş imkanlar vardır. Bu obyektlərin istifadəyə verilməsi orta sahibkarlığın inkişafına kömək göstərə bilər.

Qiymətləndirmə: 100 nəfərlik müalicəvi turizm obyektinin istifadəyə verilməsinə ən intensiv vaxtla 1.5 il tələb olunur və bu layihəyə 2100000 manat vəsait xərclənir. Hesablamalara görə, bu sahədən əldə olunan gəlir mövsümi xarakter daşıdığından kapital qoyuluşunun özünü ödəmə müddətinə orta hesabla 5-10 il tələb olunur və rentabellik 20% təşkil edir. Nəticədə dövlət büdcəsinə 100 nəfərlik müalicə turizmindən 6,6 il müddətinə orta hesabla 413398 manat məbləğində mənfəət vergisi güzəşt edilsə də, bu 45 nəfər yeni iş yerinin açılması və əlavə olaraq müəssisənin fəaliyyəti dövründə DSMF-na həmin işçilərin əmək haqqından 25%(22+3), muzdlu işlə əlaqədar vergi, əmlak, torpaq vergisi və s. vergilərin ödənilməsini təmin edilməklə büdcəyə 120938 manat əlavə vəsait daxil olacaqdır.

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan Respublikasında 2010 - 2014 - cü illərdə turizmin inkişafına dair dövlət proqramı"
2. Azərbaycanın Statistik Göstəriciləri 2015, 814 s.
3. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az

GÜLNARƏ ADIL QIZI TAĞIYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti

# AZƏRBAYCANIN MÜASIR BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ YERI VƏ ROLU

Açar sözlər: xarici siyasət, beynəlxalq münasibətlər, dövlət suverenliyi, milli mənafe

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət həyata keçirməyə başlamışdır. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm olaraq inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan dövləti öz xarici siyasətini beynəlxalq hüquq prinsipləri, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə və çoxl sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycanın həm də NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirilir. Azərbaycan həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarla əməkdaşlıqda və həm də regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir. Hazırda Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, transmilli layihələrin reallaşdırılmasına, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən regional güc kimi qəbul edilr. Azərbaycanın bu cür nailiyyətləri uğurlu siyasət nəticəsində əldə olunmuşdur. Azərbaycan bütün dövlətlərlə ikitərəfli münasibətlərinə xüsusi önəm verir. Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq tanıyan və Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər çox yüksək səviyyədədir. Bu gün İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər

sistemində yeri demokratik dəyərlərə arxalanan, insanların hüquq və azadlıqlarına hörmət edən, sülhün, sabitliyin və təhlükəsizliyin yaradılması uğrunda pozitiv fəaliyyət göstərən dövlətlərlə eyni sıradadır. Bu dövlətlərlə müttəfiqlik münasibətlərinin qurulması dövlət siyasətinin əsas istiqamətini təşkil edir. Digər dövlətlərlə faydalı münasibətlərin qurulması da, dövlətimizin siyasətində prioritet istiqamətlərdən biridir [3]

Respublikamızın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyinin mühüm əhəmiyyəti var.

Müasir dövrdə strateji inkişaf yolu kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən yararlanmağa çalışır, inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə vəsaitlərini cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir[1].

İqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycan həm də dünya birliyinin fəal və nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Hazırda Bakı Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Avropa İttifaqı, İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan Respublikası qlobal məsələlərin həll edilməsində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal üzvü olmuşdur.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərdən biri də terrorizmə qarşı mübarizədə beynəlxalq proseslərə qatılmaqdır. Azərbaycan Respublikası bütün dünya üçün təhlükə yaradan belə problemlərin aradan qaldırılmasına dair məsələləri özünün daxili və xarici siyasətinin diqqət mərkəzində saxlamışıdır. Azərbaycan terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsini və təsirli tədbirlərin görülməsini həmişə zəruri hesab etmişdir[Həsənov, 2005, 190].

Göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq

təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyət göstərilməlidir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Prezident kitabxanası, Azərbaycan beynəlxalq aləmdə, səh 3.
2. Ə.Həsənov, “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” Dərslik, Bakı – 2005 səh 190
3. https://www.gunaz.tv/

GÜNAY MƏHƏDDIN QIZI FEYZIYEVA
AMEA, Qafqazşünaslıq İnstitutu

# CƏNUBI QAFQAZ REGIONUNUN ENERJI TƏHLÜKƏSIZLIYI

Açar sözlər: Cənubi Qafqaz, enerji, təhlükəsizlik,
Azərbaycan, layihələr, Aİ

Cənubi Qafqaz karbohirdogen ehtiyatları ilə zəngin Xəzər regionuna əsas giriş qapısı hesab olunur və Avropa İttifaqının, eləcə də digər qərb dövlətlərinin enerji təhlükəsizliyində mühüm rol oynayır. Aİ Rusiyadan enerji asılılığını azaltmaq üçün enerji təminatının şaxələndirilməsini əsas prioritetləri sırasına daxil etmişdir. Bu baxımdan Xəzərin enerji ehtiyatlarının Avropa bazarlarına daşınmasında Cənubi Qafqaz strateji tranzit xətti kimi əhəmiyyətə malikdir.

Cənubi Qafqazın hər üç respublikasının milli enerji təhlükəsizliyi strategiyası regional, eləcə də qlobal dövlətlərlə əməkdaşlığa yönəlməklə, ümumilikdə regionun təhlükəsizliyinin müəyyənləşdirilməsinə təsir göstərir. Cənubi Qafqaz ölkələri təbii və bərpa olunan enerji ehtiyatlarını ixrac etmək üçün daha geniş enerji dəhlizlərinin inkişaf etdirilməsi üzərində çalışırlar.

Regionda baş verən geosiyasi dəyişikliklər və həyata keçirilən beynəlxalq layihələr Cənubi Qafqazın regional enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Qlobal səviyyədə enerjiyə olan tələbin artması ekoloji cəhətdən təmiz enerji sisteminə nail olmaq, təhlükəsiz və əlverişli enerji təminatı problemlərini yaratmışdır. Cənubi Qafqaz həm Xəzərətrafı, həm də Mərkəzi Asiya və Orta Şərq dövlətlərinin enerji ehtiyatlarının təhlükəsiz, sabit və davamlı şəkildə Avropa dövlətlərinə nəql edilməsində strateji rol oynayır.

Cənubi Qafqaz regionunun neft və təbii qaz ehtiyatları ilə zəngin ölkəsi Azərbaycan əsas enerji istehsalçısı kimi regionda həyata keçirilən müxtəlif enerji layihələrinin təşəbbüskarı yaxud iştirakçısıdır. Azərbaycan1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq investorlara qapılarını açmağa müvəffəq olmuşdur. 2006-cı ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) neft yataqlarının inkişafı və Bakı-Tiflis-Ceyhan (BTC) neft ixrac boru

kəmərinin açılması bu siyasətin uğurlu nəticələridir. [Gilboa, 2013, 21] Regionda həyata keçirilən digər beynəlxalq miqyaslı layihələrə Cənubi Qafqaz Kəməri (həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəməri adlanır), Transadriatik boru kəməri (TAP) və Trans-Anadolu boru kəməri (TANAP) daxildir. Həmin layihələrdə Azərbaycanı Azərbaycan respublikası Dövlət Neft Şirkəti (SOCAR) təmsil edir. [Vəliyev, Margvelashvili, Asatryan, 2015, 13] Neft sektorunda ən əhəmiyyətli regional layihələr Qara dəniz və Aralıq dənizi limanları vasitəsilə Türkiyə və Avropaya neft tədarük edən Bakı-Tiflis-Ceyhan və Bakı-Tbilisi-Supsa neft kəmərləridir. Hər iki boru kəməri Avropa və Cənubi Qafqaz regionunun enerji təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir. [2014, 7]

Beləliklə, Xəzər və Qara dəniz hövzəsinin enerji ehiyatlarının dünya bazarlarına daşınmasını təmin edən Cənubi Qafqaz həm regionun, həm də Avropa dövlətlərinin enerji təchizatının diversifikasiya edilməsində, enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malikdir.

Ədəbiyyat siyahısı:

1. Veliyev J., Margvelashvili M., Asatryan V. Energy security in the South Caucasus: views from the region. 2015, 25pg.
2. Gilboa A. The geopolitics of energy security in the South Caucasus: determinants and implications for NATO's role in energy security. Leiden University. 2013, 62 pg.
3. South Caucasus Energy Forum. Energy diversification trends in the South Caucasus and the neighborhood. Istanbul, 23-24 May, 2014, 21 pg.

GÜNAY MOBIL QIZI FEYZIYEVA
Azərbaycan Dillər Universiteti

İSRAILIN GEOSIYASI KODU

Açar sözlər: İsrail, geosiyasi kod, strategiya, xarici siyasət, milli təhlükəsizlik.

1948 – cil İsrail dövləti yarandıqdan sonra qonşu dövlətlərin xüsusilə ərəb dövlətlərinin əks münasibəti ilə qarşılaşdı. Müstəqilliyinin ilk illərində İsrail SSRİ ilə münasibətlərinə daha çox üstünlük verirdi. İ.Stalinin İsrailə əks münasibəti, Süveyş böhranı, Eyzenhauer doktrinası çərçivəsində ABŞ – ın yaxınlaşması onun geosiyasi kodunu yenidən işləməyə sövq etdi.

Milli təhlükəsizlik problemləri İsrailin strateji doktrinasında öz əksini tapmışdır. İsrailin əsas strateji planları İsrail Müdafiə Nazirliyi tərəfindən hazırlanır. Strateji Doktrina İsrailin xarici siyasəti ilə birbaşa bağlıdır. 1948 – 1982 ci illərdə İsrail – Ərəb müharibələri çərçivəsində strategiya daha çox preventiv siyasət üzərində qurulmuşdu. Bu illər ərzində əsas təhlükələr qonşu ərəb dövlətləri ilə sərhəddən gözlənilirdi. İsrail öz xarici siyasətini hücum və müdafiə üzərində qurmuşdu.

Strateji doktrinaya siyasi şərait faktları, siyasi – hərbi elementlər, əməliyyat tədbirləri aiddir. Şərait faktları dedikdə, 1967 ci il müharibəsi və İsrailə qarşı dünya ictimaiətindəki "zorakı dövlət" rəyini müsbət mənaya dəyişmək, 1973 – cü il Yom Kippur müharibəsində meydana gələn neft böhranının təsirlərindən xilas olmaq, 1979 – cu ildə Misir-İsrail sülh müqavilsi sayəsində İsrailin Misirə olan münasibətini dəyişməsi kimi misallar qeyd etmək olar [Horin, Posen, 1981, 25-32].

Strateji müdafidə əsas diqqət ərəblərdən gələcək olan aqqressiv niyyətlərə yönəlmişdi. Soyuq müharibə illərində İsrail Yaxın Şərqdə SSRİ – ABŞ hərbi dəstəyinin rəqabəti ilə üzləşirdi. Soyuq müharibə başa çatdıqdan sonra qlobal səviyyədə yeni keyfiyyət və kəmiyyət dəyişiklikləri meydana gəldi. Həmin dəyişikliklər İsrailin gesosiyasi kodunu yenidən işləməyə gətirdi. Yaxın Şərqdə ABŞ - ın əsas partnyoru olan İsrail milli maraq çərçəvəsində lokal, regional və qlobal geosiyasi kodunu müəyyən

etdi. Ümumilikdə İsrailin strateji sərhədləri müsəlman dünyası və qərb çərçivəsindədir [Hasson, 2013, 29].

Lokal səviyyədə hokumətin liderlik qabiliyyətini formalaşdırmaq, siyasi elita, əks qruplara koalisiyalara qarşı mübarizə, sülh prosesinə maneə olan qruplaşmalar, vətəndaş cəmiyyəti, ictimai fikrin formalaşması, regional inkişaf və daxili preferensiyaların kordinasiya olunması, sabotaj qruplara qarşı mübarizə İsrailin əsas diqqət yetirdyi məqamlardır. Həmçinin, İsrail hökuməti, Fələstin muxtariyyatı və Qəzzada Həmas hökumətinin əsas tərəf oldugu İsrail - Ərəb münaqişəsində bütün gözlənilən hallar İsrailin xarici siyasətini formalaşdıran haldır. Ərəb Baharı, Tunis və Misirdəki islamist hərəkatlar və qeyri-demokratik rejimlərin mövcudluğu da hədə təşkil edir [Hasson, 2013, 47].

İsrailin Regional səviyyədə geosiyasi kodu dövlətlərlə münasibətinə görə müəyyənləşmişdir: a) izolyasiya, b) stabilləşdirmə, c) inteqrasiya

*Soyuq sülh Misir və İordaniya*

*İran təhlükəsi*

*S.Ərəbistanı, Körfəz və Şm Afrika dövlətləri*

*Avropa İttifaqı, Rusiya, Çin*

*Strateji əlaqələr-Türkiyə, Hindistan*

*BMT və Üçüncu dünya ölkələri*

Digər tərəfdən İsrail geosiyasi kodunu Geosiyasi rəqabət: təhlükəsizlik və üstünlük cəhətdən də müəyyən etmişdir.

Əsas məsələlər bunlardır: Türkiyə Avropada Böyük Britaniya və Rusiyadan – dan sonra ən böyük orduya sahibdir. İranın regional hegemonluq məqsəd İsrail hökuməti üçün təhdid rolunu oynayır [Hasson, 2013, 39].

Qlobal səviyyə: Ənənəvi qaydada Yaxın Şərqdə Rusiya və ABŞ iki supergüc olmaqla stabillik yarada bilən yeganə qüvvə hesab olunur. Çin və Hindistan yeni supergüc hesab olunur. ABŞ Ərəb-İsrail münaqişəsində iki tərəf arasında mediatr olmağa çalışır. Münaqişə çərçivəsində Kvartet-Aİ, BMT, Rusiya, ABŞ əsas həlledici rol oynayanaktorlardır.

Yeni geostrateji oyun (mövqe və ehtiyatlar uğrunda): Yaxın Şərqdə ABŞ – Rusiya – Çin – Aİ arasında tənzimlənir.

Yaxın Şərqdə ümumilikdə dörd strateji - ideoloji yanaşma var: Böyük oyun; Sivilizasiyaların toqqusması; Anarxiya; Tarixin sonu.

Amerika Kəşfiyyat şurasının Yaxın Şərqdə yeni ssenariləri: Yeni xilafət, Pax Americana, Qorxu dövrü adlanır [Hasson, 2013, 31-39].

İsrail Yaxın Şərqdə ABŞ – ın əsas strateji tərəfdaşıdır. Müəyyən mənada ABŞ – la hesablaşmalı olur. Bəzi məqamlarda isə təkbaşına hərəkət edir. Bu baxımdan İran və ABŞ ın yaxınlaşması olarsa İsrail dilemma qarşısında qalacaqdır. İsrail dövləti müstəqilliyinin 75 illiyinin təsadüf etdiyi 2023 – cü ilə qədər öz stareteji layihəsini hazırlamışdır. Bu layihədə gələcək perspektivlər "Qarşıdurma ssenariləri", "Liminal ssenarilər", "Razılaşma ssenari"-ləri adı altında cəmləşib.

Ədəbiyyat siyahısı:

1. Yoav Ben –Horin, Barry Posen, İsrael's Strategic Doctrine, RAND-1981, p-53.
2. Shlomo Hasson, Israel's Geopolitical Dilemma And the Upheaval in the Middle East, 2013, p-92

GÜNAY RƏŞAD QIZI SƏFƏROVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCANDA YAŞAYAN YƏHUDILƏRƏ TOLERANT MÜNASIBƏT HAQQINDA

Açar sözlər: Qırmızı Qəsəbə, dağ yəhudiləri, tolerantlıq, adət-ənənələr

Əsrlər boyu Azərbaycan burada yaşayan bütün millətlər üçün əlverişli məkan olmuş və burada yaşayan bütün insanlara qarşı tolerant münasibət göstərilmişdir. Bir çox xalqların nümayəndələri kimi yəhudilər də uzun illərdir ölkə ərazisində sülh və əmin-amanlıq şəraitində yaşayır. Əvvəlcə yəhudilərin mənşəyinə qısa nəzər yetirək: Yəhudilərin mənşəyini sami tayfaları ilə əlaqələndirirlər. Belə ki, samilər Aralıq dənizi sahili ölkələrinin ən qədim əhalisi hesab olunur və onlar burada təxminən eramızdan əvvəl IV-III minilliklərdə məskunlaşmışlar.

Bir sıra mənbələrdə yəhudilərin əslən Mesopotamiyadan olduğu söylənilir. Təxminən eramızdan əvvəl XIII əsrdə onlar Fələstinə gəlmişlər. Onu da qeyd edək ki, bir çox tarixi mənbələrdə yəhudilərin 3500 ildən çox tarixi olduğu göstərilir. Belə ki, Yəhudi tarixinin e.ə. XVI əsrdə patriarxlar Avraham, İshaq və Yakovdan başlandığı bildirilir. İkiçayarasında aparılmış qazıntılar zamanı e.ə.2000-1500 illərə aid sənədlərdə Ur şəhərindən Avrahamın köçəri həyatı haqqında məlumatlar vardır. Bu məlumatlar Bibliyadakı məlumatlar ilə üst-üstə düşür. Patriarxlar haqqında səlnamədə göstərilir ki, Avraham Allahların iradəsi ilə Ur şəhərini tərk edərək Kənan torpağına gəlmiş və burada tək Allaha inanan xalqın başlanğıcını qoymuşdur. Quraqlıq üzündən Kənanda aclıq başlayanda Avraham buranı tərk edir və Misirdə məskunlaşır. Avrahamın nəsilləri burada qul vəziyyətinə düşür və 400 ilə qədər bu vəziyyətdə yaşayırlar. Avrahamın oğlu İshaq və nəvəsi Yakov yəhudilərin özünəməxsusluqlarını qoruduqları üçün onun davamçıları hesab olunur. Digər oğlu İsmayıl Misirdə yerli qadınla evləndiyi üçün səhraya qovulmuş və o, ərəblərin başlanğıcını qoymuşdur [Israel Hanukoglu,53-55].

İsrail xalqının və dövlətinin tam formalaşması Musa peyğəmbərin adı ilə əlaqələndirilir. Yəhudi ənənəsinə görə, Musa peyğəmbər təxminən e.ə. XIII-XII əsrlərdə yəhudiləri 400 illik qul əsarətindən sonra Misirdən çıxarmış, 40 il səhrada dolaşdıqdan sonra Sinay yarmadasına gəlmiş, burada ona Tövrat bəxş edilmişdi. Bundan sonra yəhudilər özlərinin Erets-İsrael (İsrail torpağı) adlandırdıqları və Aralıq dənizinin şərqində yerləşən əraziləri ələ keçirərək burada məskunlaşmışlar.

Yəhudilər ilk dəfə Azərbaycan torpaqlarında nə vaxtdan məskunlaşmışlar? Azərbaycanlı tədqiqatçı, Azərbaycan Dövlət Bankının ilk müdiri, iqtisadçı, etnoqraf Məhəmmədhəsən Vəlili (Baharlı) hələ 1921-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" adlı kitabında bu suala belə cavab vermişdir: "Azərbaycan yəhudiləri, Assuri padşahları tərəfindən əsir edilmiş, əvvəl Assuriyada və sonra Midiyada sakin edilmiş qədim yəhudilərin övladlarındandırlar. Buradan yəhudilər Assuri hökmranlığının süqutundan sonra, Salmanasar şahın zamanında, indiki Azərbaycana, Gürcüstana və Dağıstana köçmüşdülər" [Kərim Şükürov, 1].

Ən qədim yəhudi qruplarından biri dağ yəhudiləridir və hal-hazırda Azərbaycanda təxminən 15.000-dən çox yəhudi yaşayır. Azərbaycanda bu etnos daha çox "cuhud", yaxud "yəhudi" adlandırılır. İlk dövrlərdə onlar daha çox dağlıq ərazilərdə məskunlaşdıqları üçün onlara dağ yəhudiləri deyilirdi. Onların Azərbaycana ilk gəlişi Əhəmənilər dövrü ilə əlaqələndirilir. Hələ qədim dövrdən dağ yəhudilərinin Azərbaycanda məskunlaşması xaricdən köçürülmələr və daxili yerdəyişmələr nəticəsində baş vermişdir. İlk köçürülmələr Sasani dövləti ilə (III-VII əsrlər) əlaqələndirilir. Sasanilər Xəzərsahili bölgələrin müdafiəsini təşkil etmək üçün imperiyanın müxtəlif yerlərindən buraya xeyli əhali köçürmüşdür. Onların içərisində yəhudilər də var idi. Bu proses Ərəb Xilafəti (VII-IX əsrlər), monqollar (XIII-XIV əsrlər) və sonrakı dövrlərdə də davam etmişdir. İkinci böyük dalğa kimi Səfəvi (1501-1736) hökmdarı Şah Abbasın dövrü qeyd olunur. Dağ yəhudilərinin daxili məskunlaşmasında əsas dəyişikliklər Səfəvi dövlətinin varlığına son qoyaraq hakimiyyəti ələ alan Nadir Şah Əfşarın dövründə (1736-1747) baş vermişdir. 1747-ci ildə Nadir şahın öldürülməsi ilə Əfşarlar dövləti parçalanmış, xanlıqlar yaranmışdır. Yeni yaranmış Quba xanlığının banisi olan Hüseynqulu xan

(1747-1758) yəhudilərin əvvəlki yerlərindən nisbətən aşağıda məskunlaşmasına icazə vermişdir. Beləliklə, burada Yəhudi qəsəbəsi yaranır. Hüseynqulu xanın oğlu Fətəli xanın dövründə (1758-1789) Quba xanlığına əhali köçürülmələri davam etmişdir [Kərim Şükürov, 1-3].

Qeyd edək ki, İsraildən sonra yəhudilərin kompakt şəkildə yaşadığı ərazi məhz Qubadır. Onlar Qubada Qudyal çayının sol sahilində yerləşən Qırmızı Qəsəbədə məskunlaşmış və uzun illərdir burada sülh şəraitində yaşayırlar. Azərbaycanın şimalındakı İsmayıllı rayonunda yerləşən Muju Haftaran yəhudi icmasından qalan yeganə əlamətlərdən biri kimi qeyd oluna bilər. İcmanın adından da onun yəhudi mənşəli olduğu bəllidir. XVIII əsrin sonlarında Muju Haftaranda 3000 yəhudi, bir sinaqoq və iki yəhudi məktəbi var idi [Çinarə Məcidova, 1-2]. Muju Haftaran kəndindən fərqli olaraq şimalda yerləşən və daha çox "Krasnaya Sloboda" kimi tanınan Qırmızı Qəsəbənin taleyi bir qədər fərqli olub. Bu qəsəbə yəhudi icmasının qiymətli daşı sayılır. Qeyd etdiyimiz kimi 1950-ci illərdə bu qəsəbə İsraildən kənarda olan ən böyük yəhudi kəndi idi. Lakin zaman keçdikcə kəndin insanları İsrailə getmiş və onların azalmağa başlamışdır. Hazırda kəndin təxminən 3500 daimi sakini vardır. Onlar burada onlar üçün yaradılmış şəraitdən çox razıdırlar və Azərbaycanı özlərinin vətəni hesab edirlər. Azərbaycan dünyada yeganə ölkələrdən biri sayıla bilər burada heç vaxt yəhudilərə qarşı antisemitizm dalğası olmamışdır. Hətta yəhudilərin adət ənənələrinə nəzər yetirdikdə yerli əhalinin adətləri ilə çox böyük yaxınlıq və oxşarlıqların şahidi oluruq. Xüsusilə toy və yas adətlərində bu oxşarlıqlar daha çox üzə çıxır.

Azərbaycan Dağ yəhudiləri icmasının sədri Milix Yevdayev başqa ölkələrdə yaşayan yəhudilərin antisemitizimdən əziyyət çəkdiyini xüsusi vurğulayır. Eyni zamanda o bildirir ki, "tam əminliklə deyə bilərəm ki, bu ölkə digər ölkələr üçün tolerantlıq nümunəsidir" [Çinarə Məcidova, 3-4].

Milix Yevdayev Amerikanın "Jewish Journal" qəzetində "Müsəlman torpağında yəhudi parlamentariləri" sərlövhəli məqaləsində qeyd etmişdir ki, həm Azərbaycan Xalq Cümhuriyyəti və Sovet dövründə, həm də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yəhudi millətinin nümayəndələri burada yüksək vəzifələri tutmuşlar. Hətta Cümhuriyyət dövründə yəhudilər Azərbaycan parlamentinə seçilmişlər.

Ədəbiyyat siyahısı:

1. Məcidova Çinarə , Azərbaycan yəhudiləri, keçmişdə və indi https://chai-khana.org/az/azrbaycan-yhudilri-kecmisd-v-indi
2. Şükürov Kərim , Azərbaycan yəhudiləri (qədimdən bu günə) http://zim.az/tarix/3305-azrbaycan-yhudilri-qdimdn-bu-gn.html
3. Israel Hanukoglu, A Brief History of Israel and the Jewish People, (53-55)

https://www.science.co.il/israel-history/A-brief-history-of-Israel-and-the-Jewish-people.pdf

GÜNEL ƏLINIYAZ QIZI QARAYEVA
Azərbaycan Dillər Universiteti

# EKO-SOSIALIZM QLOBAL PROBLEMLƏRIN HƏLLI ÜÇÜN ÇIXIŞ YOLU VƏ YA MÜASIR UTOPIYA KIMI

Açar sözlər: Eko-sosializm, utopiya, kapitalizm, ekoloji siyasət

Ən qabaqcıl mədəniyyət – insanlara və təbiətə olan məhəbbətdir devizi ilə çıxış edən bir çox utopistləri bəşəriyyətin gələcəyi narahat edir və onu idarə etmək üçün müasirlərini onların fəlsəfi və sosial sistemlərini qəbul etməyə çağırırlar. Zamanla və utopistlərin səyləri nəticəsində sosial düşüncənin yeni lüğəti formalaşmağa başladı. Böhran, əxlaq, sistem, inqilab, inkişaf, hərəkat və təhsil emosional və kifayət qədər radikal anlam kəsb etməyə başladı. Utopiyalar və siyasi mifləri birləşdirən dəyərin mövcudluq probleminə dair həll yolları, sosial və siyasi sferada yenidənqurma təklif etmələri oldu (Bottici, 2007,103). Utopik düşüncənin əksi olan disutopiyaya görə isə cəmiyyətin gələcəyə dair heç bir ümidi yoxdur. XX əsrin sosial demokratları utopik təsəvvür və illüziyalarla sağollaşsalar da, ekososialistlər ictimai münasibətlərin yenin sisteminin təbiətə maksimal şəkildə zərbə vurduğunu iddia edərək kapitalizmlə mübarizə ideyasını irəli sürürlər. Məhz kapitalizm insanın təbiətə həris yanaşmasının mənbəyidir, bütün problemlərin kökü kapitalizmdir. İnsanın fəaliyyəti müxtəlif texnoloji proseslərin iştirakçısı kimi təbiətə destruktiv təsir göstərir, bu fəaliyyəti insan orqanizmdəki bəd xassəli xərçəngə bənzətmək olar. Ekososialistlər öz həyatlarını dağıdıcı destruktiv ideallara görə satmamağı təklif edirlər, əvəzində özləri, heyvanlar və biosfer ilə harmoniyada yaşamaq lazım olduğunu vurğulayırlar. Kapitalizmi iqtisadi və mənəvi sistem kimi nəzərdən keçirdikdə bir daha əmin oluruq ki, kapitalizmin mənfi təsirlərini sağlam dəyərlərlə əvəzləmək gərəkdir. Ekososialistlər silahın hesabına istənilən "ovçu"nun özünü heyvandan daha güclü hiss etdiyini və özünütəsdiqləmənin bir yolu olduğunu deyirlər. Bu heç də qida əldə etmək və sağ qalmaq üçün ovla məşğul olmağa bərabər deyil.Onlar insanlara prinsipial olaraq yeni yaşayış modeli təklif edirlər, bu halda mədəni irsi qoruyaraq sivilizasion şərtlər

daxilində dünyaya sağlam yanaşma əksini tapır. İqtisadi inkişafın təbiətə zərər yetirən modellərindən imtina etmək lazımdır, yalnız bu halda ədalətli cəmiyyət qurmaq mümkün olar. Ekososializm marksizm, sosializm, ekoloji siyasət və alterqloballaşmanın birləşməsi ideologiyasıdır. Bu istiqamətin nümayəndələrinin fikrincə, ətraf mühitin deqradasiyasının sosial problemlərin əsasında kapitalist sistem dayanır. İstehsal vasitələrinin üzərində ictimai mülkiyyətiin olmasının vacibliyindən bəhs edirlər. Ekoloji böhrandan çıxmaq üçün antikapitalist təkliflər irəli sürülür. Qlobal istiləşmə kimi ciddi ekoloji problemlərin həlli, həmçinin milyonlarla insanın həyat şərtlərinin normallaşdırılması üçün ciddi siyasi – ekoloji dəyişikliklər baş verməlidir. Bu məqsədlə ciddi ekoloji prinsip tələb olunur. Saral Sarkarın "Eko-sosializm və eko-kapitalizm" kitabında həm kapitalizmin,həm də sovet sosializminin planetimizi məhvə apardığı fikri əsaslandırılmağa çalışılıb. Təklif olunan yeni ekososial cəmiyyət – post konsumerist cəmiyyətdir – istehlakçı anlayışı bu ictimai mühitə yaddır. Sarkar ideal sosializmi təssvir edir, SSRİ – nin isə sosializmi istehlakçılar cəmiyyət üçün istifadə etdiyini deyir, bu səbəbdən də SSRİ ölkələri belə asanlıqla kapitalizmə keçid etdilər. Sarkar ucuz enerjinin əldə olunmasındakı gələcək çətinliklərdən narahtçılığını ifadə edir. Sarkar beş əsas məqsədə əsaslanan möhkəm (ekoloji) cəmiyyəti təsvir edir:

1. İqtisadiyyat möhkəm olmalıdır;
2. Kasıbçılığın qarşısı alınmalıdır;
3. Əmək qabiliyəti olan bütün insanlar cəmiyyətin rifahı üçün çalışmalıdır;
4. Sosial və siyasi bərabərliyə təminat verilməli, iqtisadi bərabərsizlik isə minimuma endirilməlidir;
5. Bütün yaşlılara, uşaqlara və əmək qabiliyyəti olmayanlara sosial dəstək olmalıdır.

Həyati əhəmiyyətli tələbatların ödənməsinin yolları Sarkar tərəfindən araşdırılır. (Sarkar, 1999, 138)

Sarkara görə, eko-kapitalizm uzun müddət fəaliyyət göstərə bilməz, Kəskin ekoloji nəzarət biznesin gəlirini azaldacaq, bu hakimiyyətə baha başa gələcək. Eko-kapitalizm – iqtisadi artım, ətraf mühiti qorumaq və sosial ədalətlilik kimi fantastik vədlərinə əməl etmək istəyirsə: 1) enerjiyə

qənaət qabiliyyətli yeni texnologiya; 2) resurslardan təbiətə zərər vermədən istifadəni təmin etməlidir.

Sarkarın fikrincə, bu mümkün deyil, ya da qısa müdət üçün keçərlidir. Eko-marksizm və bazar sosializmi də eko-sosialistlər üçün məqbul deyildi, onlar hər yerdə sənaye iqtisadiyyatının planlı şəkildə azalmasını istəyirlər. "Doğuşa nəzarət" vacib amil sayılan bu sistemdə əxlaqi dəyərlərin yüksəlməsi vacibdir. Eko-sosialist cəmiyyətdə insanlar iqtisadi artımın imkan vermədiyi şəraitdə tələbatlarını ödəyəcəklər. Sarkar istər kapitalist,istər sosialist cəmiyyətin ən ciddi probleminin konsumerizm – hərislik olduğunu vurğulayaraq, çox təvazökar cəmiyyətə keçidi təklif edib. Bu halda ekoloji cəhətdən davamlı iqtisadiyyata nail olmaq olar. Bir sıra eko-sosialistlər hesab edirlər ki, iqlim dəyişikliyinə qarşı mübarizənin yeganə yolu yerli əhalinin ənənələrinin bərpasıdır. Evo Morales böyük bir stadionu sinif otağına çevirərək kağız boşqablar, plastik fincanlar, tək istifadəlik yağış paltarları, taxta qablar, balqabaqdan müxtəlif əl işləri düzərək bu fikrə aydınlıq gətirdi. İctimai strukturun əsas forması kimi könüllü ekoloji icmalara geri qayıtmaq üçün kapitalizmin aradan qaldırılması aralıq mərhələni təşkil edir. Ekoloji siyasət ənənəvi "sağ" və "sol"lara bölgüdən daha önəmlidir. Qana, nifrətə bulaşmış, ətraf mühitin çirklənməsinə səbəb olan kapitalizmdən və təzyiq, qeyri-müəyyənlik, yoxsulluğa səbəb olan kommunizmdən fərqli olaraq ekososializm sevgi, dostluq, azadlıq, firavanlıq, bərəkətli təbiət, şərəfli insanlar gətirir. Yaşıl kapitalizm mövcud deyil, çünki kapitalizm və ekologiya arasında ziddiyyətlər vardır. Ekososializm sosialist təmələ malikdir. O, demokratik, ekoloji, beynəlxalq sosializmi müdafiə edir. İnsanların kapitalizmnən irəli gələn acizliyinə son qoyulmalıdır. Planetimiz artıq xalq tərəfindən seçilən nankor siyasətçilər tərəfindən deyil, təbiəti mühafizə edən alim və filosoflar - ekososialistlər tərəfindən qorunmalıdır. Artıq yalnız insanların mənafeyini düşünən primitiv demokratiyaya son qoyulmalı, ana təbiətin qurtuluşu hər şeydən önəmli olmalıdır. Yeni parlamentin 25 %-i heyvanların, 25 %-i bitkilərin, 25%-i insanların, qalan 25%-i isə təbii ehtiyatların təmsilçilərindən ibarət olmalıdır. Təbii ki əhali artımının məhdudlaşdırılması istiqamətində aparılan tədbirlər təqdirəlayiqdir. Planetimizin dörddə biri insanlar üçün salınmış ekoloji təmiz şəhərlərdən, dörddə biri heyvanların müdafiəsi üçün tikilmiş xüsusi ərazilərdən,

dörddə biri təbii şərtlərdə bitkilərin yetişməsi üçün ayrılmalı, qalan hissə isə göllər şaylar, dağlar kimi təbii ehtiyatları əhatə etməlidir. Əgər eko-sosialistlər belə universal yaşıl demokratiya qura bilsələr, o halda müharibə anlayışı tarixdən silinər, spirtli içkilər və narkotik vasitələr gərəksiz olar, maddi nemətlərə olan marağı elm və mədəniyyətə olan maraq əvəz edər.

Ədəbiyyat siyahısı:

1. Chiara Bottici, A philosophy of Political Myth, Cambridge University Press, 2007, 286 p.
2. Sarkar Saral, Eco-Socialism or Eco-Capitalism?. London: Zed Books, 1999, 302
3. https://cyberleninka.ru/article/n/realizm-i-utopiya-v-ideologii-evropeyskoy-sotsial-demokratii
4. http://www.dailykos.com/story

GÜNEL MƏNSIM QIZI QURBANOVA
AMEA, Qafqazşünaslıq İnstitutu

# HEYDƏR ƏLIYEVIN DÖVLƏTÇILIK IRSI

Açar sözlər: dövlətçilik, idarəçilik sistemi, müstəqillik, Azərbaycan

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. O cümlədən, qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan hər zaman öz tarixi şəxsiyyətləri ilə seçilmişdir. Bunların sırasında görkəmli, zəkalı, istedadlı sərkərdələr, dövlət və ictimai-siyasi, elm, mədəniyyət xadimləri az deyildir. Lakin bu tarixi şəxsiyyətlər sırasında ulu öndər Heydər Əliyev xüsusilə misilsiz bir mövqe tutur. Həmin mövqe isə tarixin onun öhdəsinə qoyduğu missiyanın, nəhəng vəzifələrin qeyri-adi mürəkkəbliyi ilə bağlı idi.

Azərbaycan tarixinin önəmli bir dövrü - XX əsrin son otuz ili və XXI əsrin başlanğıcı məhz görkəmli dövlət xadimi olan Heydər Əliyevin adı ilə bağlıdır. Həyatının mənasını xalqına və dövlətinə təmənnasız xidmətdə görən ulu öndər istər Sovet hakimiyyəti illərində, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə Azərbaycanın şöhrətini, nüfuzunu daim yüksəklərə qaldırmış, milli mənafeyini, mentalitetini, ən əsası mənəviyyatını qorumuş və inkişaf etdirmişdir. Onun nəhəng və genişölçülü rəhbərlik qabiliyyəti, qeyri-adi siyasi peşəkarlığı sayəsində məhz Azərbaycan hələ Sovetlər dönəmində özünün əsl intibah mərhələsini sözün əsl mənasında yaşadı. Həyatın sərt, çətin sınaqlarına sinə gərən, ən çətin şəraitdən düzgün çıxış yolu tapan, qəlbində Vətən sevgisi, milli ruh gəzdirən qüdrətli şəxsiyyət, sovet illərində Azərbaycana rəhbərliyi zamanı milli-mənəvi dəyərlərimizin dirçəlişi, mədəniyyətin yüksəlişi istiqamətində çox mühüm addımlar ataraq müstəqil düşüncəyə yol açmış və müstəqilliyə gedən yolumuzu işıqlandırmışdır.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bugün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir. Həqiqətən də illər keçdikcə biz bunu daha aydın görür və dərk edirik. Heydər Əliyevin idarəçilik məharəti, olduqca zəngin olan təcrübə məktəbi tükənməz bir xəzinədir. Qeyd edək ki, illər keçdikcə gələcəkdə hələ çox-çox

nəsillər məhz bu təcrübədən bəhrələnəcəklər. Ulu öndər özünün çox böyük təşkilatçılıq məharəti və çoxcəhətli səmərəli fəaliyyəti ilə idarəçilik elmini təkcə əməli cəhətdən deyil, eyni zamanda nəzəri baxımdan da zənginləşdirmişdir. Bütün bunlar dünya təcrübəsi üçün də faydalı olduğundan beynəlxalq əhəmiyyətə malik çox zəngin bir sərvətdir. Biz bununla fəxr etməklə yanaşı, onu qoruyub saxlamalı və daim bu sərvətdən bəhrələnməliyik.

Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımıdır. Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında əbədi qalacaqdır. [Hüseynova, 2008, 12]

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini tamamilə dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti- quruculuq işləri başlandı. Heydər Əliyevin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, o cümlədən, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış evləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Xüsusilə qeyd edək ki, 1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin nəticəsi olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. Lakin 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza, sözün əsl mənasında bir dayaq və təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü.

Yeganə çıxış yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki,Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Burada məşhur fransız mütəfəkkiri Volterin "dövlətin xilası üçün bir dahi insan kifayətdir" kəlamı yada düşür. Heydər Əliyev də tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən bir dahi insan idi. [2]

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi və ən əsası azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Bu gün Azərbaycanda demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan dövlət idarəçilik sistemi yaradılıb formalaşdırılmışdır. Sevindirici haldır ki, dövlət idarəçilik sistemimiz üçün xeyli qabiliyyətli və həm də milli ruhlu kadrlarımız hazırlanmışdır. Fəxr hissi ilə qeyd edə bilərik ki, cəmiyyət həyatının demək olar ki, bütün sahələrində yüksək səviyyəli kadr potensialımız mövcuddur. Biz buna Heydər Əliyevin parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi və zəhməti hesabına nail olmuşuq. Ümummilli lider Heydər Əliyevin bizə irs qoyduğu məhz bu zəngin təcrübəyə əsaslanaraq idarəçilik mədəniyyətimizi daim artırmalı, onu zənginləşdirərək yüksəltməli, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr potensialımızı çoxaltmalıyıq. Unutmamalıyıq ki, ölkəmizin bugünü və gələcəyi bu kadrların peşəkarlıq səviyyəsindən çox asılıdır. Heydər Əliyevin dövlət idarəçilik ideyaları, onun zəngin idarəçilik məktəbi bizə bunu tövsiyə edir və bunları öyrədir.

Ədəbiyyat siyahısı::

1. Hüseynova İ. Heydər Əliyev  və Qafqazda sülh prosesi.  Bakı: Çaşıoğlu, 2008, 672 s.
2. http://www.judicialcouncil.gov.az/view_index.php?id=711

GÜNEL QURBANƏLI QIZI MƏLIKLI
AMEA Fəlsəfə İnstitutu

# SOSIAL-IQTISADI VƏ SIYASI SAHƏDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRI

Açar sözlər: beynəlxalq əməkdaşlıq, sosial sahə, sosial inkişaf, demoktatik mühit, xarici siyasət

Sosial-iqtisadi sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi sahəsində Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq təşkilatına Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur. Yeni yaranan sahibkarlığı daha da inkişaf etdirmək, qeyri-neft sektorunun inkişafına nail olmaq, özəl sektorun əhəmiyyətini artırmaq bununla da gələcəkdə sosial-iqtisadi inkişafı zəmanət altına almaq məqsədilə ölkəmizə xarici investorların cəlb edilməsi iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi inkişaf etmiş, ölkənin sosial inkişafında özəl sektorun rolu daha da artmışdır. Sosial sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycan respublikasının sosial siyasətinin inkişafına yüksək təsir göstərmişdir Nəticədə ölkədə sosial stabillik əldə edilmiş, vətəndaşaların sosial təminatlarında yüksək inkişafa nail olunmuşdur.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyev özündən əvvəl hakimiyyətdə olan qüvvələrin xarici siyasətdə yol verdikləri kobud səhvlərin aradan qaldırılması istiqamətində də ciddi addımlar atdı. Qonşu dövlətlər olan Rusiya və İranla münasibətlər normallaşdırıldı, ölkənin təhlükəsizlik problemi, onun təmin edilməsi yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının məharətlə uzlaşdırılması təmin edildi, geostrateji və geoiqtisadi üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasətin strateji vəzifələrindən birinə çevrildi.[3 səh 88]. Lakin, ermənilərin işğalçı siyasəti nəticəsində topraqlarımızın 20 faizi zəbt edildi, bir milyondan çox

vətəndaşımız qaçqın düşdü və ölkəmiz bu işğalın ağır sosial-iqtisadi nəticələri ilə üz-üzə qaldı. Ulu öndər ölkə daxilində də düşünülmüş siyasət yürütməklə bütün vətəndaşların, milli, sosial təbəqələrin, siyasi, ictimai və digər resursların Azərbaycanın müstəqil dövlətçiliyi və ərazi bütövlüyünün qorunması ətrafında səfərbər edilməsinə nail oldu.[3 səh 89] . Belə ki, neft-qaz sektorunda yeni müqavilələr bağlandı, dünyanın aparıcı neft şirkətləri ölkəmizlə əmkdaşlıq etməyə başladılar. Böyük neft siyasəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə ölkəsinin (ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13-ə yaxın məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) arasında müqavilə imzalanması ilə başlanıldı.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində bir sıra əsas vəzifə və prinsipləri var ki, bunların həyata keçirilməsi üçün dövlət müəyyən məqsədyönlü fəaliyyət aparır. Bu fəaliyyətə aşağıdakıları aid etmək olar.

1) Dövlətin müstəqilliyini, təhlükəsizliyini, ərazi bütövlüyünü, suverenliyini, qorumaq və bu fəaliyyəti beynəlxalq hüquq normaları çərçivəsində öz mənafeyinə uyğun həyata keçirmək. 2)Dövlət öz mənafeyi və milli maraqları ilə uyğun siyasət yeridən digər dövlətlərlə münasibətləri daha da sıx təşkil etməli, bu dövlətlərlə yaxından müttəfiqlik etməlidir. Bu əməkdaşlıq və müttəfiqlik nəticəsində dövlətin beynəlxalq aəlmdə nüfuzu yüksəlir və mövqeyi möhkəmlənir. 3)Dövlət yerləşdiyi regionda baş verən bütün konfliktlərin həll edilməsi, yaranan gərginliyin aradan qaldırılması üçün daim səy göstərməlidir. Nəticədə regionda sabitlik yaranır və belə olan halda siyasi mühit sosial-iqtisadi inkişafın da sürətlənməsinə səbəb olur.

4) Xarici sosial-iqtisadi siyasət mütləq xalqın mənafeyinə uyğun aparılmalıdır.İqtisadiyyat beynəlxalq səviyyədə inkişaf etməli,beynəlxalq sistemdə özünü göstərməlidir.

5)Dünya dövlətləri ilə tək siyasi və iqtisadi əlaqələr deyil, həmçinin humanitar, elmi, mədəni təhsil və s. sahələrdə əlaqələr qurulmalıdır.

Azərbaycan BMT, Aİ, ATƏT və s. təşkilatlarla yanaşı nüfuzlu beynəlxalq qurum olan Avropa Şurası ilə də sıx əlaqələrə malikdir. Hələ

1996-cı ildə Azərbaycan Respublikasının prezidenti "Avropa Şurası ilə Azərbaycan Respublikasının əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncam imzalamışdır. Bununla da Azərbaycanın Avropa Şurasına üzv olan ölkələrlə qarşılıqlı əməkdaşlığının əsası qoyulmuşdur. Getdikcə güclənən əlaqələr nəticəsində ölkəmiz 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv olmuşdur. Azərbaycan həmçinin AŞ-nin Venesiya Komissiyası ilə sıx əlaqələr qurmuş, Avropa Şurasının başlıca sənədi sayılan İnsan Hüquqları və Əsas Azadlıqlarının Qorunması üzrə Konvensiyasına qoşulmuşdur. Bundan başqa Azərbaycan Avropa Şurasının Sosial Xartiyasına da qoşulmuşdur. Avropa Şurası tərəfindən qəbul edilmiş Avropa Sosial Xartiyası ümümilikdə sosial siyasətin həyata keçirilməsi üzrə konvensiyadır. Xartiya 1961-ci ildə qəbul edilmiş, sosial və iqtisadi sahədə insan hüquqlarının təmin edilməsi və onların qorunmasına zəmanət verən müqavilədir. Ümummilli liderimiz Heydər Əliyev 7 aprel 2003-cü il tarixdə Azərbaycan Respublikasında Avropa Sosial Xartiyasının ratifikasiya edilməsinə hazırlıq işlərinin aparılması ilə əlaqədar "Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş normaların tətbiqi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ilə bağlı sərəncam imzalamışdır. Daha sonra Cənab İlham Əliyevin təşəbbüsü ilə 6 yanvar 2004-cü il tarixində ölkəmizin 31 maddədən ibarət olan Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 18 maddəsinə qoşulduğunu təsdiq edən qanun qəbul edilmişdir.

Sosial-iqtisadi sahədə əməkdaşlığı hakimiyyət adından müxtəlif qurumlar həyata keçirir. Dövlət hakimiyyəti orqanlarından həm ali icra hakimiyyəti, həm Milli Məclis, həm də yerli orqanlar beynəlxalq təşkilatlarla sosial sahədə əməkdaşlıqda fəal iştirak edir. Ali icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinin simasında sosial siyasətin strateji xəttini müəyyən edir, sosial yönümlü beynəlxalq təşkilatlarla əlaqədar yaradır, danışıqlar aparır, xüsusi saziş və razılaşmaların layihəsini hazırlayır, beynəlxalq sosial yönümlü sənədləri imzalayır, sosial proqramların həyata keçirilməsinə imkan, şərait yaradır, nəzarət mexanizminin fəaliyyətini təmin edir, sosial hüquqlara riayət olunmasına məsuliyyət daşıyır. [4 səh 298, 299]. Bura əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə fondu, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi ( İnsan Hüquqları sahəsində) daxildir.

Ümumiyyətlə uzun müddətli sovet əsarətindən sonra yenidən müstəqilliyini əldə etmiş dövlətimiz bu qısa müddətdə sosial sahədə böyük uğurlara imza atmış, digər postsovet ölkələri ilə müqayisədə daha güclü inkişaf etmişdir. Totalitarizmdən demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar münasibətlərinə, nəhəng imperiyanın bir hissəsindən milli dövlətə tranzit bütün potsovet ölkələri üçün çox çətin olmuşdur. Azərbaycanda da bu proseslər asanlıqla cərəyan etməmişdir. [1 səh 115]. Hazırda ölkə sürətlə artır və sosial sahədə yüksək inkişaf müşahidə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə qeyd etdiyi kimi, Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Bu gün gerçəyə çevrilənlərin əsası ümumilli lider tərəfindən qoyulan ideyalardır.[2 səh143]

Ədəbiyyat siyahısı:

1. Bakıda humanitar əməkdaşlıq üzrə birinci Azərbaycan-Rusiya forumunun açılışında Azərbaycan prezidenti administrasiyasinin rəhbəri akademik Ramiz Mehdiyevin çıxışı // Dirçəliş XXI əsr :Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu- 141-142/2010, s.

2. Məlikli G; //Dirçəliş XXI əsr :Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu- 141-142/2010.

3. Müasir Azərbaycan dövrün baxışında II cild: Bakı, 2011. "Azərbaycan qəzetinin redaksiyası, buraxılışa məsul; Bəxtiyar Sadıqov.

4. Rəcəbli Hadı. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və korporativ təhlili: Bakı, 2003

ГЮНЕЛЬ МИСИР КЫЗЫ МУСАЕВА
Институт Кавказоведения НАНА

# РОЛЬ ГЕЙДАР АЛИЕВА В УСТАНОВЛЕНИИ ВЗАИМООТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ВЕЛИКОБРИТАНИЕЙ

Ключевые слова: отношения, Великобритания, официальный визит, основа

После восстановления государственной независимости Азербайджана, одним из первых государств, признавших независимость этой республики, стала Великобритания. С первых же дней объявления независимости Великобритания предприняла определенные шаги в создании двусторонних отношений с Азербайджанской Республикой. Английские компании сделали первые попытки подписания соглашений о разработке нефтяных месторождений. Этот взаимный интерес был обусловлен рядом факторов. Великобритания являлась одной из пяти постоянных членов Совета Безопасности ООН и одна из семи самых развитых государств мира и оказывала сильное влияние на мировую политику и международную экономику. Азербайджану, который находился в положении войны, экономической сложности и политического хаоса, было необходимо заручиться поддержкой Великобритании. Заинтересованность Великобритании в развитии отношений определялся выгодным политико-географическим и стратегическим расположением, а также богатыми природными ресурсами, которыми обладал Азербайджан.

В последующие годы хоть и были предприняты определенные шаги в установлении двусторонних отношений, но официальный шаг был сделан после прихода к власти Общенационального лидера Гейдар Алиева. Великобритания на тот момент была спонсором больших гуманитарных программ в республике и отстаивала интересы Азербайджана на международной арене. Г. Алиев выделил эту страну как силу, противостоящую устремлениям России в

нефтяном вопросе. До подписания Контракта века Г.Алиев совершил первый официальный визит в Великобританию (с 22 по 25 февраля). В ходе этого визита было подписано 8 соглашений, среди которых были и «Договор о дружбе и сотрудничестве», «Договор о ликвидации двукратного налогообложения», «Меморандум о сотрудничестве в области энергетики» и т.д. Здесь президенту пообещали твердую дипломатическую поддержку в случае обострения отношений с Ираном и Россией. Состоялся также выбор головной компании проекта Азери-Чираг-Гюнешли в рамках Контракта века, которой стала «БП», получившая 31% из общей доли западных участников международного консорциума.

Этим визитом и была заложена основа будущих отношений Азербайджанской Республики с Великобританией. Благодаря дальновидной политике, которая основывалась на взаимовыгодной, равноправной и дружественной внешней политике как на региональном уровне, а также с ведущими мировыми державами, Гейдар Алиев сумел убедить в лице Великобритании весь мир, что Азербайджан ведет независимую политику, отказавшись от коммунистической идеологии, социалистической системы государственного устройства и экономики. Тем самым он привлек английский капитал в Азербайджан, что сильно повлияло на развитие экономики страны. Этот визит Гейдар Алиева стал также первым шагом в подписании крупного проекта, который ввиду своей значимости получил название Контракта века.

Сотрудничество в разных сферах экономики, энергетической, торговой, промышленной сферах с Соединенным Королевством – страной, известной во всем мире как опора свободной торговли, представляет особую значимость для Азербайджана. Кроме того Гейдар Алиев на примере Азербайджана построил модель, как должны строить совместную работу государство и иностранные инвесторы, на основе каких принципов должна строиться эта работа. За все рассмотренные годы отношения Азербайджана с британской компанией BP строились на здоровой почве, на основе взаимной поддержки, взаимного доверия, взаимных интересов. Вкладываемые

компанией средства, инвестиции в Азербайджан приносили большой доход.

И на сегодняшний день основа внешней политики, заложенная Гейдар Алиевым и конкретные стратегические цели успешно продолжаются Президентом Ильхамом Алиевым.

GÜNƏŞ RAFIQ QIZI AĞAKIŞIYEVA
Azərbaycan Dillər Universiteti

## BEYNƏLXALQ TURIZM – IQTISADI MÜNASIBƏTLƏRIN ƏSAS TƏRKIB HISSƏSI KIMI

Açar sözlər: turizm təsərrüfatı, turizm məhsulu, sosial-iqtisadi proseslər, iqtisadi inteqrasiya, turizm xidmətləri

Son illərdə beynəlxalq turizm dünyada sürətli templə inkişaf etməyə başlamışdır. Ənənəvi turizm regionu olan Avropa ilə yanaşı, digər ərazilər – Amerika, Asiya, Afrika və Okeaniya ölkələri də turistlər tərəfindən aktiv şəkildə səyahət edilir. Hal-hazırda elmi-texniki inqilab sayəsində dünya vahid məkana çevrilmiş, səyahət edənlər üçün böyük məsafə maneə rolu oynamaqdan çıxmışdır. Beynəlxalq turizm yeni texnologiyaların tətbiqi və istifadəsini şərtləndirir, dünya məhsul və xidmətlər bazarının aktivləşməsinə səbəb olur, istehsalın müxtəlif sahələrinin maliyyələşdirilməsinə şərait yaradır, məşğulluq və sağlamlıq problemlərinin həllinə kömək edir.

Beynəlxalq turizm iqtisadi münasibətlərin əsas tərkib hissəsinə çevrilmişdir. Əksər ölkələrdə formalaşan və stabil inkişaf edən turizm təsərrüfatı güclü maddi-texniki bazaya malikdir. Turizm təsərrüfatı iqtisadiyyatın demək olar ki, bütün sahələri ilə qarşılıqlı əlaqədə olmaqla, yeni iş yerləri yaradır. Turizm biznesində müxtəlif dövlət və özəl şirkətlərin maraqları kəsişməklə, bank, sığorta müəssisələri, ticarət firmaları, səhmdar cəmiyyətlər aktiv iştirak edirlər. Turizm iqtisadiyyatın nəqliyyat və rabitə, kənd təsərrüfatı, tikinti, istehlak malları istehlakı kimi sahələrinə təsir etməklə, iqtisadi inkişafın katalizatoru kimi çıxış edir.

Turizm təsərrüfatı iri sənaye mərkəzlərindən uzaqda yerləşən və təbii ehtiyatlarla zəif təmin olunan ərazilərin daha intensiv iqtisadi inkişafına şərait yaradan amillərdən hesab edilir. Bəzi ölkələrdə təsərrüfatın müstəqil sahəsinə çevrilən turizm, iqtisadiyyatda aparıcı mövqe tutur. Belə ki, müasir turizm təsərrüfatı ölkə sərhədlərindən kənarda səyahət zamanı turistlərə böyük çeşiddə xidmətlər təqdim edir.

Turizmin təqdim etdiyi xidmətlərə aşağıdakılar aiddir: turistlərin hər hansı bir ölkə və ya regiona çatdırılması və həmin ərazidə bir məntəqədən digərinə daşınması (nəqliyyat daşımaları); turistlərin yerləşdirilməsi

(mehmanxana şəbəkəsi); turistlərin qida ilə təminatı (restoran, kafe); turizm məhsulunun reklam edilməsi; turizm məhsulunun istehlakı (səyahət marşrutlarının hazırlanması, mehmanxanalarda nömrələrin bron edilməsi); turistlərin mədəni tələbatının təminatı (görməli yerlərə, muzey və sərgi salonlarına səyahət); turistlərin işgüzar və elmi maraqlarının təminatı (elmi konfranslarda, müxtəlif sərgi, konqres, tədbirlərdə iştirak); ümumi və xüsusi təyinatlı ticarət müəssisələri (suvenir, buklet, açıqca, gid-bələdçi kitabşası, turist təchizatlarının satışı); nəzarət-inzibati orqanlar (sənədlərin qeydiyyatı, sərhəd və gömrük nəzarəti); təbiətin, abidə və muzeylərin mühafizəsi xidməti; turistlər üçün informasiya xidməti; turistlərin rabitə vasitələri ilə təminatı; kütləvi informasiya vasitələri (televiziya, qəzet və jurnallar); dövlət turizm orqanları; beynəlxalq hüquqi şəxs və ictimai turizm təşkilatları; sığorta şirkətləri; turistlərin əyləncəsinin təminatı (attraksion).

Turizm təsərrüfatı üçün spesifik xüsusiyyətlər vardır ki, onlara da turizm müəssisələrinin yerləşdirilməsində ehtiyatların nəzərə alınması, turizm xidmətlərində mövsümülük, sosial infrastrukturun inkişaf səviyyəsinə yüksək tələbkarlıq aiddir. İqtisadiyyatın inkişafında əsas funksiya həyata keçirən turizm, yerli gəlirləri artırır, yeni iş yerləri yaradır, turizm xidmətləri ilə bağlı olan sahələrin inkişafını şərtləndirir, turizm mərkəzlərində sosial və istehsal infrastrukturunu inkişaf etdirir, ölkə büdcəsinə valyuta daxilolmalarını yüksəldir [Kuskov, 2005, 340].

İqtisadiyyatla yanaşı, turizm sosial və mədəni mühitə, eləcə də ekoloji şəraitə təsir göstərir. Turizm gəlir mənbəyi kimi deyil, həmçinin ölkə imicinin yüksəldilməsində güclü amil olaraq çıxış edir. Turizm müəyyən neqativ nəticələrə də malikdir. Belə ki, ətraf mühitin çirklənməsi və korlanması, inflyasiya, yerli əhalinin ənənələri və həyat şəraitinin məhv edilməsi və dəyişilməsi də turizmin inkişafı ilə əlaqədardır.

Hal-hazırda turizm milli iqtisadiyyatla yanaşı, ümumilikdə dünya təsərrüfatı və dövlətlərarası münasibətlərə də təsir göstərir. Bu baxımdan turist dövriyyəsini ayrı-ayrı dövlətlər və beynəlxalq səviyyədə idarə etmək məsələsi yaranır. Turizm fəaliyyətinin beynəlxalq idarə edilməsi və onun dövlətlərarası səviyyədə tənzimlənməsi üçün müxtəlif profilli turizm təşkilatları yaradılmışdır [Vavilova, 2005, 104]. Əsas turizm təşkilatı olan Ümumdünya Turizm Təşkilatının (ÜTT) ali idarəetmə orqanı Baş

Assambleya olmaqla, Afrika, Şimali və Cənubi Amerika, Şərqi Asiya və Sakit okean sahili, Avropa, Yaxın Şərq və Cənubi Asiya üzrə 6 regional komissiya ilə təmsil olunur. 1925-ci ildə Haaqada yaradılan ÜTT-nin (Turist Assosiasiyalarının Beynəlxalq Konqresi) iqamətgahı Madrid şəhərində yerləşir.

Ölkələrin iqtisadi inteqrasiyası rəqabət qabiliyyətinin qaldırılmasında əsas amil rolunu oynayır. Belə ki, iqtisadi inteqrasiya ölkə sərhədlərindən məhsul, kapital, işçi qüvvəsinin müstəqil şəkildə keçirilməsinə şərait yaradır. Sosial-iqtisadi inteqrasiya və beynəlxalq turizm qarşılıqlı əlaqəli və bir-birini tamamlayan proseslərdir. Güclü turist axınları digər ölkədə həyat şəraitinə uyğunlaşmağa, təhsil turizmi çərçivəsində səyahətlər isə gənclərə xaricdə özünü təsdiq etməyə imkan verir [Voskresenskiy, 2006, 220]. 1985-ci ilin 14 iyun tarixində Şengen şəhərində bir sıra Avropa ölkəsi ümumi sərhəddə mərhələlər üzrə nəzarətdən imtinaya dair razılıq imzalamışdır ki, bu sazişin də əsas məqsədi iştirakçı ölkələrin sərhədlərindən vətəndaşların keçidinin yumşaldılması idi. XX əsrin 90-cı illərinin sonlarına qədər Şengen razılaşması iqtisadi inteqrasiya prosesi ilə paralel olaraq gedirdi, sonra isə Avropa İttifaqı bu sazişi özləri üçün istifadə etməyə başladılar.

BMT-nin sənədlərinə müvafiq olaraq, iki və daha artıq ölkədə hüquqi forma və ya təsərrüfat sferasız müstəqil filialları olan şirkətlər transmilli statusu daşıyır. Transmilli şirkətlər xarici ölkələrdə fəaliyyətini genişləndirməklə, məhsul və xidmətlərin ixracatından onların istehsalının təşkilinə keçmişlər. Turizmdə transmilli şirkətlər 3 məkanda – ABŞ, Qərbi Avropa (Fransa, Böyük Britaniya) və Yaponiyada cəmlənmişdir. Transmilli şirkətlər nəinki turist qəbul edən ölkələrə, eləcə də turist göndərən ölkələrə iqtisadi təsir göstərir. Transmilli şirkətlər səyahətin daxili bazarının strukturunu və turizm məhsulunun rentabelliyini dəyişə bilərlər.

Aviaşirkətlər istehsaldan iqtisadi mənfəət əldə etmək üçün turizm bazarının zəif olduğu kiçik ölkələrdə iqtisadi strategiyanın ixracat variantına istiqamətlənirlər. Belə aviaşirkətlər dünya iqtisadiyyatına inteqrasiya etmədən mövcud ola bilməzlər. Transmilli şirkətlər yüksək xərcləri təmin edən destinasiyalara investisiyanı istiqamətləndirməklə, yerli turizm təsərrüfatında kapital qoyuluşuna xərclərin orta göstəricisinin artırılmasına şərait yaradır. Transmilli şirkətlər yerli turizm məhsuluna

üstünlük verməklə, daxili bazarda qiymətləri aşağı salır [Aleksandrova, 2002, 323].

Beynəlxalq turizmin sosial-iqtisadi proseslərə təsiri qloballaşmanın istifadə edilməsini şərtləndirir. Qloballaşmanı cəmiyyətin siyasi, iqtisadi və mədəni aspektlərdə qarşılıqlı əlaqəsinə gətirən bir sıra proseslər müəyyən edir. Qloballaşma prosesində beynəlxalq turizmin rolu böyükdür. Belə ki, beynəlxalq turizm ayrı-ayrı region və ya ölkələrin mədəni mühitinin saxlanılmasını şərtləndirməklə, mədəniyyətlərin daha da zənginləşdirilməsinə imkanlar yaradır, onların yeni qlobal məkana çatdırılmasına yol açır, turizm regionuna digər ölkələrdə formalaşan yeniliklər gətirir.

Beləliklə, beynəlxalq turizm müharibə və münaqişə riskini azaldan, ölkə və xalqların mədəni və texniki əməkdaşlığını şərtləndirən əlaqələrin yeni növünün formalaşmasına şərait yaradır.

Ədəbiyyat siyahısı::

1. Александрова А.Ю. Международный туризм. М.: Аспект Пресс, 2002, 470 с.
2. Вавилова Е.В. Основы международного туризма. М.: Гардарики, 2005, 160 с.
3. Воскресенский В.Ю. Международный туризм. М.: Юнити-Дана, 2006, 255 с.
4. Кусков А.С., Голубева В.Л., Одинцова Т.Н. Рекреационная география. М.: МПСИ, Флинта, 2005, 496 с.

HACI NURU OĞLU HƏSƏNOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
CABIR HACI OĞLU HƏSƏNOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

## 1826-1828-CI ILLƏR RUSIYA-QACAR MÜHARIBƏSI DÖVRÜ BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN TARIXINDƏN

Açar sözlər: Güney Qafqaz, çalarlar, qaynaqlar, müvafiq, müraciət

Son iki yüz il ərzində XIX əsrin ilk sülsündə Güney Qafqazda Rusiya, Osmanlı, Qacar, Böyük Britaniya, Fransa imperiyaları arasında getmiş mübarizənin müxtəlif tərəf və çalarları haqqında saysız-hesabsız araşdırmalar aparılmış, yüzlərlə, minlərlə kitab, məqalə və s. yazılmışdır [9; 10; 11 və bir çox başqaları]. Lakin hələ də ilk baxışdan yaxşı öyrənilmiş qaynaqlara belə xüsusi diqqətlə yanaşdıqda hansısa yeni məlumatlara rast gəlmək mümkündür. Elə təkcə tarixşünaslıqda daha çox rusca abreviaturası ilə AKAK kimi tanınmış "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlar"ın müvafiq cildinə müraciət dediklərimizi sübut edə bilər.

Məsələn, bu "Aktlar"ın VII cildinin 516-551-ci sənədlərinə [1; 2; 3; 4; 5; 6; 7; 8] diqqətlə nəzər yetirməklə Qacar şahzadəsi Abbas Mirzənin diplomatik məharəti, Rusiya tərəfinin bu müharibədəki qələbədən mümkün qədər çox qazanc əldə etmək niyyətləri, Qacar sülaləsinin bəzi nümayəndələrinin 1826-1828-ci illər müharibəsinin yekunlarına fərqli münasibətləri, Osmanlı imperiyasının bəzi dairələrinin, xüsusən də Ərzurum sərəskərinin reaksiyası, Fətəli şah məmurlarının xəyanətkarlığı və fəaliyyətsizliyi haqqında çox maraqlı və qəribə məlumatlar əldə etmək mümkündür.

Bu müharibəni tez qurtarmağa hamıdan çox çarizm çalışırdı. Artıq 1827-ci ilin aprelində Obrezkovun və b.-nın Qacarlarla sülh müqaviləsini bağlamaq istiqamətində danışıqlar aparmaq üçün çar tərəfindən xüsusi müvəkkil təyin olunmaqları da bunu sübut edir [2, s.540]. Bu sülh danışıqlarında Rusiya və Qacarlar tərəflərini əsasən A.S.Qriboyedov və Abbas Mirzə təmsil edirdilər [1, s.553].

Sülh danışıqlarının ilkin mərhələsində dövlətçiliyi qabarıq şəkildə üzə çıxan, Abbasabad qalasın süqutundan dərhal sonra belə Qriboyedovla çox şərt danışan Abbas Mirzənin [1, s.566] sonra və danışıqlar prosesində məhz sərt mövqe tutması qələbələrdən sərxoş olmuş Rusiya tərəfinin əvvəlcə 40 mln. gümüş rubl (20 kurur) [2, s.540], bir az sonra 30 mln. gümüş rubl [4, s.571] təzminat almaq iştahını "qısaldaraq" 20 mln. gümüş rublluq (10 kururluq) təzminatla razılaşmağa məcbur etdi. Lakin Rusiya tərəfi bu məbləğə də ürəkdən sevinirdilər. İş o yerə çatmışdı ki, Qafqazdakı Rusiya qoşunlarının baş komandanı İ.F.Paskeviç Türkmənçay müqaviləsinin imzalanmasında xüsusi əməyi olan A.S.Qriboyedovun 4000 çervonla (təxminən 13 min gümüş rubl – H.H., C.H.) mükafatlandırılmasını [8, s.595] xarici işlər naziri Nesselrodedən xahiş edirdi.

Rusların sevinci və tələskənliyinə ciddi əsas var idi: bir tərəfdən Abbas Mirzə, Həsənəli Mirzə və bəzi Qacar şahzadələri heç bir vəchlə məğlubiyyətlə razılaşmayaraq müharibənin davam etdirilməsinə can atırdılar [6, s. 580]. Digər tərəfdən isə Osmanlılarla yeni müharibənin qaçılmaz olduğunu, onun tezliklə başlaya biləcəyini yaxşı başa düşən, Ərzurum tərəfdən osmanlıların Qacarlara köməyə gələ biləcəyindən əndişələnən ruslar bu müharibəni mümkün qədər tez başa çatdırmaq istəyirdilər [7, s.580].

Təsadüfi deyildir ki, bərk sevincək olmuş qraf İ.F.Paskeviç-İrəvanski Türkmənçay müqaviləsinin imzalanmasından dərhal sonra qraf Dibiçdən xahiş edirdi ki, bu müqavilənin belə uğurla və ruslar üçün sərfəli şəkildə imzalanması işinə dəstək vermiş Qacar nümayəndələrinin mükafatlandırılması üçün 15 min çervon vəsait ayrılsın [1, s.590]. Çox təəssüflər olsun ki, bu bişərəflik siyahısına İranın Qacar şahının özü başçılıq edirdi: ona 5000 gümüş rubl Rusiya mükafatı nəzərdə tutulurdu [1, s.590]. Uduzmuş dövlətin başçısının dövləti xəyanətinin qiyməti, sən demə, 5000 rus gümüş rublu imiş...

Ədəbiyyat siyahısı:

1. Акты, собранные Кавказской Археографической Комиссией, т.VII, Тифлис, Типография Главного Управления Наместника Кавказского. Под ред. А.Берже. – 1878. Документ 516. Донесение А.С.Грибоедова ген. Паскевичу от июля 1827 года.

2. Там же, документ №502. Предписание гр. Нессельроде д.с.с. Обрезкову от 19 апреля 1827 года, за №521.

3. Там же, документ 526. Всеподданнейший рапорт ген. Паскевича от 16 октября 1827 года.

4. Там же, документ 528. Всеподданнейший рапорт ген. Паскевича от 29 октября 1827 года.

5. Там же, документ 531. Рапорт кап. Волховского ген. Паскевичу от 20 декабря 1827 года, №5.

6. Там же, документ 535. Отношение Нессельроде к Паскевичу от 27 декабря 1827 года, №10.

7. Там же, документ 538. Всеподданнейший рапорт ген. Паскевича от 5 января 1828 года.

8. Там же, документ 551. Письмо Паскевича Нессельроде от 12 февраля 1828 года за №172.

9. Azərbaycan tarixi, 7 cilddə. 4-cü cild. Bakı: Elm, 2000.

10. Qurbanov R.M. XIX əsrin I yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. – Bakı: 2006.

11. Ибрагимбейли Г.М. Россия и Азербайджан в первой трети XIX века. – Москва: 1969.

HARUN HACI OĞLU SADIQLI
Azərbaycan Dillər Universiteti

# LIVANIN ERMƏNI ICMASININ AZƏRBAYCAN-LIVAN MÜNASIBƏTLƏRINƏ TƏSIRI

Açar sözlər: Azərbaycan, Livan, münasibətlər, diplomatiya

1991-ci il 30 dekabrda Azərbaycanın müstəqilliyi Livan tərəfindən tanınmışdır. İki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 1992-ci il 18 sentyabrda imzalanmışdır. 1996-cı ildən etibarən Livan BMT-də Azərbaycanın irəli sürdüyü düzəliş və əlavələrə bitərəf mövqe nümayiş etdirmişdir. 1997-ci il 19-20 noyabr tarixlərində Azərbaycan Prezidenti Heydər Əliyevin xüsüsi tapşırığı ilə Xarici İşlər naziri H.Həsənov Livanda rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində H.Həsənov Livanın Xarici İşlər naziri Nəbih Bərri ilə görüşmüşdür. N.Bərri Livanın Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini tam şəkildə dəstəklədiyini, ölkəsinin qarşılıqlı maraq doğuran bütuün sahələrdə Azərbaycanla əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir. Görüşlərdə regional və beynəlxalq problemlər, Ermənistanın Azərbaycana qarşı yönəlmiş işğalcılıq siyasətinin ağır nəticələri, Yaxın Şərq problemi və qarşılıqlı maraq doğuran bir sıra siyasi-iqtisadi məsələlər müzakirə olunmuşdur.

1998-ci ilin 11-12 fevral tarixlərində Livanın Baş Naziri Rafiq əl-Həriri Azərbaycana rəsmi səfər etmişdir. Səfər çərçivəsində iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi məqsədilə 4 sənəd imzalanmışdır. 2004-cu il 29 oktyabrda BMT-nin Baş Assambleyasında Azərbaycanın təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" barədə əlavə bəndin salınmasına dair səsvermələrdə Livan bitərəf mövqe nümayiş etdirmiş və bu da öz növbəsində Azərbaycan tərəfinin ciddi narahatlığına səbəb olmuşdur. Azərbaycana dair belə mövqe Livanın daxili ictimai-siyasi həyatında erməni icmasının böyük nüfuzu olması ilə izah olunur.

2007-ci il 12-13 apreldə Azərbaycan Xarici İşlər Naziri E.Məmmədyarov Livan Respublikasında rəsmi səfərdə olmuşdur. 2008-ci ilin 14 mart tarixində BMT Baş Assambleyasında Azərbaycanın təqdim

etdiyi "İşğal olunmuş Azərbaycan ərazilərində vəziyyətə dair" Qətnamə layihəsi ilə əlaqədar keçirilmiş səsvermədə Livan iştirak etməmişdir.

2009-cu ilin 24 sentyabrda Nyu-Yorka səfəri zamanı E.Məmmədyarov Livanın Xarici İşlər naziri Fauzi Salloux ilə görüşmüşdür. Görüşdə Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyət və birgə maraq kəsb edən müxtəlif mövzular müzakirə olunmuşdur. E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Azərbaycanın mövqeyi barədə livanlı həmkarına məlumat vermişdir.

2010-cu ildə Livan Gənclər və İdman naziri Əlki Huseyn Andullahın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri həyata keçirilmiş və səfər zamanı Livan nümayəndə heyətinin başçısı Baş Nazir Artur Rasi-zadə tərəfindən qəbul edilmiş, Təhsil naziri Misir Mərdanovla görüşmüşdür.

Ədəbiyyat siyahısı:

1. Həsənov Ə. M, Vəliyev A. İ. Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, "Zərdabi LTD", 2013. 776 s.

2. İsmayılov. R. İ., Axundova. N. Ç., Bağırova. A. R. Asiya və Afrika ölkələrinin çağdaş tarixi: 1945-ci ildən sonrakı dövr. II kitab. Bakı. Adiloğlu, 2004. 656 s.

3. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) (məqalələr toplusu). Bakı: "Poliart" MMC, 2017, 904 s.

HƏLIMƏ QÜVVƏT QIZI KAZIMOVA
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

# DAĞLIQ QARABAĞ MƏSƏLƏSI BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ

Açar sözlər: Rusiya, Dağlıq Qarabağ məsələsi, beynəlxalq təşkilatlar, vasitəçilik, Ermənistan

XX əsrdə beynəlxalq təşkilatların yaradılması, səlahiyyətlərinin genişlənməsi və strukturlarının mürəkkəbləşməsi müasir beynəlxalq münasibətlər sistemi üçün xarakterik vəziyyət hesab olunur. Beynəlxalq təşkilatlar arasında qarşılıqlı əlaqələr və əməkdaşlıq hallarının güclənməsində dövlətlərin müstəsna rolu göstərir ki, artıq dünyada BMT başda olmaqla beynəlxalq təşkilatlar əsas səlahiyyət sahibidirlər. Beynəlxalq təşkilatlar dövlətlərin üzvlüyü, təyin olunması haqqında beynəlxalq müqavilənin və daimi orqanların mövcud olması, üzv dövlətlərin suverenliyinə hörmət edilməsi ilə səciyyələnir. Beynəlxalq münasibətlər sistemində beynəlxalq və regional təşkilatlar həm dövlətlərarası əməkdaşlıqda, həm də çox tərəfli diplomatiyada mühüm rol oynayırlar. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizindən çoxunun işğal edildiyi, bir milyondan artıq vətəndaşının öz vətənində qaçqına çevrildiyi bir şəraitdə beynəlxalq aləmdə müsbət rəyin yaradılması qarşıya qoyulan əsas vəzifələrindən biridir. Beynəlxalq təşkilatların imkanlarının genişliyini nəzərə alaraq müstəqilliyin bərpa edilməsindən sonra Azərbaycan Respublikası özünün xarici siyasətində beynəlxalq təşkilatlara üzv olmağa və onlarla əməkdaşlıq etməyə xüsusi diqqət ayırırdı. Azərbaycan Respublikasına qarşı müxtəlif istiqamətlərdə ermənilər və onların himayəciləri tərəfindən aparılan siyasət, Dağlıq Qarabağ məsələsində haqlı görünmək həmçinin internet aləmində anti-Azərbaycan xarakterli məlumatlara son qoymaq üçün görüləcək işlər, aparılacaq danışıqlar yetərli deyil. Buna görə də Dağlıq Qarabağ məsələsini beynəlxalq arenaya obyektiv və real hadisələrə dayanaraq çatdırmaq prioritet məsələlərdəndir. Qarabağ münaqişəsini dinc yolla tənzimləmək yolunda BMT, ATƏT, AŞ, AB, NATO, İƏT və digər beynəlxalq təşkilatlar və dövlətlərin vasitəçilik missiyaları, qloballaşan

dünyada nəinki münaqişənin söndürülməsi istiqamətində, həmçinin dünya üçün sabitlik zəmanəti yarada bilər. Dağlıq Qarabağ müharibəsi gedişində və atəşkəsdən sonrakı dönəmində münaqişəsinin ciddilik səviyyəsinə görə beynəlxalq münasibətlər arenasındakı tutduğu həcmin tarixçilərin tədqiqatlarında verildiyi yer birmənalı deyil. Azərbaycandan fərqli olaraq rus və digər xalqaların tarixşünaslığında əksəriyyətən təhlil olunan məsələ ilə bağlı qeyri-obyektiv fikirlər səslənməkdədir. Beynəlxalq təşkilatlar və dövlətlər aralarında olan anlaşılmamazlıqlar və mövqe itirmək təhlükəsi onları münaqişəli məsələlərə obyektiv yanaşma mexanizmindən uzaqlaşdırır. Britaniyanın Qafqaz üzrə mütəxəssisi Tomas de Valın fikirlərinə görə "1994-cü ildə Minsk qrupunda Rusiya ilə Qərb arasındakı münasibətlər nəticədə son həddə çatmışdı. Ruslar, Minsk qrupunu həmin zamanda yeganə mümkün sülh təşəbbüsünə mane olmaqda günahlandırdılar. Qərb nümayəndələri isə rusları geniş beynəlxalq dəstəyə malik alternativ sülh planının inkişafını təcrid etməkdə günahlandırırdılar" [Томас де Ваал, 2015, 197]

Azərbaycanın müstəqilliyini qəbul etmək istəməyən və hər zaman erməniləri himayə edən dövlətlərdən biri olaraq Rusiya həm müstəqil şəkildə həmdə bir sıra nüfüzlu təşkilatların üzvü kimi daima Dağlıq Qarabağ münaqişəsinə aid danışıqlarda vasitəçi rolundan öz ambisiyası üçün istifadə etmişdir. Dağlıq Qarabağda gedən proseslər və münaqişədə vasitəçi dövlət və təşkilatların rolu haqqında Rusiya Federasiyasının 1992-ci ildən 1996-cı ilə kimi səlahiyyətli nümayəndəsi olmuş ermənipərəst siyasətçi V.N.Kazimirovun *Qarabağ münaqişəsinin* nizamlanmasında Rusiyanın vasitəçiliyinə həsr edilmiş irihəcmli monoqrafiyasında bir çox məsələlər "geniş əksini" tapmışdır. V.Kazimirov təkcə "BMT TŞ-nın atəşkəslə bağlı qətnamələrinin tələblərinə Azərbaycanın məhəl qoymur" [Казимиров В, 2009, 268] fikri bütünlüklə monoqrafiyadakı qeyri-obyektiv mövqenin bariz nümunəsidir. Ermənistan Respublikasının Dağlıq Qarabağdakı hərbi təcavüzə gizli və aşkar formada yardım etməsi münaqişənin gedişatına bu və ya digər səpgidə böyük təsir edir. "Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq surətdə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər". [Əhmədov, 2013, 27]

Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki imicinə və münaqişənin həllini manipulyasiya edən dövlətlərdən hətda erməni müəlliflərinin özləri yazır. Qriqoryan .S.Q qeyd edir ki, "Görünür ki, Qarabağ münaqişəsinin sürətli həlli əsasən "xarici" oyunçuların fəaliyyətindən asılıdır" [Григорян, 2010, 90]. Əsasən bölgənin müstəsna əhəmiyyətə malik olma amili münaqişənin taleyində əldə oluna biləcək uğur ehtimalını gecikdirir. "Əlbəttə ki, Qarabağ münaqişəsinin həllinin mümkünsüz olma səbəbi Moskva və Vaşinqton ( digər dövlətlər üçün də - H.K) üçün fərqlidir. Belə ki, görünür Rusiya o səbəbdən münaqişəni həll etməyə tələsmirdi ki, bunun onun üçün ( məqsədləri və mövqeyi üçün- H.K) necə nəticələnəcəyini bilmirdi"[ Григорян, 2010, 91].

Siyasi, iqtisadi və hərbi sahədə güc sahibi olan böyük dövlətlər və beynəlxalq təşkilatların bölgəyə maraqları və Rusiyanın öz gücünü ortaya qoymaq istəyi Dağlıq Qarabağ münaqişəsinə təsirsiz ötüşmür. "Bununla yanaşı, ayrı-ayrı iqtisadi (o cümlədən enerji) layihələr, daha geniş hərbi-siyasi kontekstə çox vaxt zəif uyuşur, bu da, məsələn, bəzi liderlərə, Rusiya siyasətçilərini özlərinin tam anlaşıqlılığına əmin etməklə, nəinki NATO ilə sonrakı inteqrasiya haqqında düşünməyə, habelə bu istiqamətdə daha əməli addımlar atmağa imkan verir" [Захаров, Арешев, 2010, 191].

S.V.Vostrikov *"Qarabağ böhranı və Rusiyanın Qafqazda siyasəti"* başlıqlı yazısında Qarabağ münaqişəsinin həll olunmasında müsbət nəticənin əldə olunması məqsədi ilə beynəlxalq təşkilatların necə vasitəçilik edə biləcəkləri istiqamətində təkliflər vermişdi. Dağlıq Qarabağ böhranının xaricə təsiri onunla şərtlənir ki, münaqişənin miqyası iki tərəfli qarşıdurmadan çıxaraq Rusiyanın, eləcə də regionun digər sərhəd dövlətləri və beynəlxalq ictimaiyyətin yüksək dərəcədə maraqlarına təsir etmişdir. Əlbəttə zaman ötdükcə bu münaqişədə maraqlı olan təşkilatların əsl məqsədləri və münaqişənin həlli yollarında verdikləri "töhfələrin" səmərəli olub-olmaması danışıqlar prosesinin nəticəsində özünü göstərəcək. Müəllifin bu baxımdan ortaya qoyduğu növbəti mövqeyində deyildiyi kimi, "Onların mövqeləri, yanaşmaları və maraqları gərgin qarşılıqlı əlaqələr yaradır ki, bu da əməkdaşlıq, tərəfdaşlıq, qarşıdurma və rəqabətin formasına uyğun olaraq, əlbəttə ki, Ermənistan-Azərbaycan münaqişəsinin dinamikasında əks olunur" [Востриков, 1999, 80].

Münaqişədə bilavasitə maraqlı olan dünya dövlətləri və təşkilatları bölgədə regional maraqlar uğrunda mübarizə aparan, nüfuzunu qoruyub saxlamağa çalışan Rusiya ilə hesablaşmaq məcburiyyətində idilər. A.Areşev Azərbaycana qarşı kəskin mövqedə durmaqla yanaşı, Qarabağ məsələsinin həll olunmamasında günahkar kimi daha çox Azərbaycanı, böyük dövlətləri və təşkilatları göstərir. O, məsələnin obyektiv mürəkkəbliyi ilə yanaşı, müxtəlif "*təhlükəsizlik platformalarının*" irəli sürülməsinə və qəribə "*turizm diplomatiyası*" təkliflərinə baxmayaraq Rusiya, ABŞ, AŞ, Türkiyə və İranın arasında rəqabətin olmasını münaqişənin sonrakı gərginliyi üçün səbəb kimi göstərir" [Арешев, 2010, 13].

Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk vaxtlarda, böyük dövlətlər qəsdən, uzun müddət bu problemi həll etmək istiqamətində hər hansı bir təklif vermədilər. Çünki bu kimi münaqişələr SSRİ-ni daxildən parçalanma prosesini sürətləndirirdi. İstənilən nəticəni görən (SSRİ-nin süqutunu – H.K.) nüfuzlu beynəlxalq qurumları idarə edən dövlətlər, köhnə düşmənlərinin Cənubi Qafqazdakı mövqeyini yenidən ələ almaq niyyətindən ehtiyatlanaraq bu münaqişədə fəal olmaq məqsədində idilər. Öz növbəsində Rusiya Federasiyasının bölgə və münaqişəyə təyin etdiyi vasitəçiləri mövqe uğrunda mübarizə aparırdılar. Görünən mənzərə budur ki, tərəflər arasında sülhə əsaslanan kompromis heçdə onların gizli siyasətinə uyğun deyildi. Düzdür, müxtəlif dövrlərdə BMT-nin, ATƏT-in, Avropa Birliyinin bu barədə müəyyən qətnamələri, bəyanatları verildi, bununla belə, həmin sənədlər münaqişənin baş vermə səbəblərini dəqiq şəkildə açıqlamır, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoymurdu. İllər boyu böyük güclərin maraqlarının daha qlobal və vacib məsələlərə qarışdığı bir zamanda öz istəkləri ilə onların siyasi alətinə çevrilmiş rəsmi Ermənistan və Qarabağdakı separatçı erməni qruplaşmaları, bu güclərin Orta Şərqlə bağlı maraqlarından istifadə edərək münaqişəni qlobal arenaya çıxartmağa müvəffəq olmuşlar.

Ədəbiyyat siyahısı:

1. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı, " Letterpress" nəşriyyat evi , 2013. 452 səh

2. Арешев А.Г. Нагорный Карабах. Становление государственности и переговорный процесс. Москва, «Русская панорама» 2010. 256 с

3. Востриков С.В. Карабахский кризис и политика России на Кавказе. // Общественные науки и современность // Москва, 1999, №3.

4. Григорян С.Г. Карабахский конфликт как «точка пересечения» региональных и глобальных игроков. От Майендорфа до Астаны: принципиальные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта .М, «Информационно-аналитический центр по изучению постсоветского пространства» 2010. 552 с

5. Захаров В.А. Арешев А.Г. Кавказ после 08.08.08: старые игроки в новой расстановке сил. Москва, Квадрига» ,2010. 272 с

6. Казимиров В.Н. Мир Карабаху: посредничество России в урегулировании нагорно- карабахского конфликта. Москва, «Международные отношения»,2009. 456 с

7. Томас де Ваал. Черный сад : Армения и Азербайджан между миром и войной. М.Текст, 2005. 416 с

HUMAY HƏSƏN QIZI TAĞIYEVA
Bakı Dövlət Universiteti

# MÜASIR BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ SÜLHYARATMA FƏALIYYƏTI, ONUN ANLAYIŞI, NÖVLƏRI VƏ ISTIQAMƏTLƏRI

Açar sözlər: vasitəçilik, münaqişə, sülhyaratma əməliyyatları

Etnosiyasi münaqişələrin nizamlanması sahəsində vasitəçilik fəaliyyətinin ən başlıca və geniş yayılmış növlərindən biri də sülhyaratma əməliyyatlarıdır. Müasir dövrümüzdə sülh naminə çoxfunksiyaslı əməliyyatlar xalqlararası ictimai həyatın ayrılmaz hissəsi olmuş və beynəlxalq münasibətlərin əsas həlledici amillərindən birinə çevrilmişdir. Sülhyaratma müharibə təhlükəsinin qarşısını almaq və ya müharibənin dayandırılmasına yönəlmiş ictimai fəaliyyətin bir növüdür.

Sülhyaratma beynəlxalq hüquqa və müqavilələr bazasına əsaslanır. İndi sülhyaratma:hüquqi subyektlərin qarşılıqlı təsir və razılığına əsaslanan siyasi proses; diplomatik fəaliyyət; ayrı-ayrı dövlətlərin daxili işlərinə müdaxilə forması və hərbi əməliyyatların bir forması kimi çıxış edir [Никитин, 2006, 5].

Sülhyaratma əməliyyatları anlayışı öz-özlüyündə çox müxtəlif hərbi və siyasi fəaliyyətləri birləşdirir. Böyük dövlətlərin və beynəlxalq təşkilatların geosiyasi, iqtisadi və digər maraqları sülhyaratma əməliyyatları sahəsində də özünü göstərir və onların xarakterinə, miqyasına, istiqamətinə ciddi təsir edir. Belə ki, dünya ictimaiyyəti heç də həmişə bütün münaqişələrə fəal müdaxilə etmir. Bu müdaxilə bir çox hallarda münaqişələrin kəskinliyindən deyil, bəzi böyük dövlətlərin ayrı-ayrı regionlardakı maraqlarından və bölgələrdə başverən münaqişələrə təsir qüvvəsindən asılı olur.

Maraqlıdır ki, BMT Nizamnaməsində "sülhyaratma" anlayışı (ifadəsi) yoxdur [Charter of the United Nations and Statue of the International Court of Justice, 1945]. Orada yalnız mübahisələrə son qoyulması, müharibələrin dayandırılması və hərbi münaqişələrin tənzimlənməsi sahəsində istifadə olunan metod və vasitələrin müəyyən sistemi mövcuddur. Bu sistemə də 3 əsas komponent daxildir:

1) Sülh vasitələri (Nizamnamənin VI bölməsi); buraya danışıqlar,

vasitəçilik, faktların müəyyən olunması, "xeyirxah xidmətlər", arbitraj və s. daxildir.

2) Yarımhərbi və ya kvazihərbi vasitələr; buraya sülhün qorunması üzrə ənənəvi əməliyyatlar aiddir.

3) Məcburi vasitələr (Nizamnamənin VII bölməsi); həm qeyri-hərbi (iqtisadi, siyasi-diplomatik, hüquqi və maliyyə qadağaları), həm də hərbi, yəni BMT silahlı qüvvələrinin vasitəsilə tətbiq olunan qadağalar.

Sülhyaratma məsələləri ilə bağlı bəzi mübahisəli məqamlar da mövcuddur. Bir çox araşdırmaçılara görə, bir dövlətin ölkələrarası müqavilə və razılaşmalara əsasən və digər dövlətin xahişi ilə olsa belə, onun daxili işlərinə qarışmasını sülhyaratma əməliyyatlarına aid etmək olmaz. Həmçinin QHT-lər tərəfindən münaqişə zonalarında həyata keçirilən fəaliyyətlər də sülhyaratma əməliyyatlarına aid edilmir. Baxmayaraq ki, onlar sülhyaratma əməliyyatlarına paralel olaraq həyata keçirilə bilər.

Bir sıra etnosiyasi münaqişələrin nizamlanması prosesləri və təcrübəsindən çıxış edərək sülhyaratma əməliyyatları çərçivəsində aşağıdakı fəaliyyətləri fərqləndirirlər:

1) Birincisi, hüquqi statusuna görə (Sülhyaratma əməliyyatlarının hüquqi növləri):

- sülhün qorunması əməliyyatları. Onlar, adətən, münaqişə tərəflərinin razılığı ilə və beynəlxalq birlik tərəfindən həyata keçirilir. Habelə bir qayda olaraq münaqişənin gərgin mərhələsindən ya əvvəl, ya da sonra aparılır.
- sülhün qurulması əməliyyatları. Onlar BMT mandatı altında və konflikt tərəflərinin razılığı olmadan, daxili münaqişələrdə isə ərazisində qarşıdurma baş verən dövlətin siyasi rəhbərliyindən icazə alınmadan aparılan məcburetmə səciyyəli əməliyyatlar sayılır.

2) İkincisi, funksiyalarına və davranış vasitələrinə görə (Sülhyaratma əməliyyatlarının funksional növləri):

- beynəlxalq müşahidəçi və ya faktların müəyyənləşdirilməsi missiyaları, habelə mülki, hərbi və ya qarışıq missiyalar;hərbi gücün tətbiqi ilə həyata keçirilən sülhyaratma əməliyyatları;
- beynəlxalq polis və münaqişə zonalarında humanitar yardım göstərilməsi üzrə sülhyaratma əməliyyatları.

Münaqişə tərəflərinin danışıqlar prosesinə cəlb olunması, siyasi nizamlama, konfliktsonrası statusa dair razılaşmalara yardım üçün atılan addımları sülhyaratmanın xüsusi siyasi-diplomatik növünə aid etmək olar. Amma, eyni zamanda, siyasi-diplomatik sülhyaratmanı çoxşaxəli sülhyaratma prosesinin bir mərhələsi və ya komponenti də hesab etmək mümkündür.

3) Üçüncüsü, sübyektlərinə görə:

a) BMT sülhyaratma əməliyyatları;

b) regional sülhyaratma əməliyyatları (BMT Nizamnaməsinə uyğun olaraq ATƏT, Afrika İttifaqı, MDB kimi təşkilatlar və dövlətlərarası birliklər tərəfindən həyata keçirilən sülhyaratma əməliyyatları);

c) daxili sülhyaratma. Beynəlxalq hüquqi nöqteyi-nəzərdən dövlətin ölkədaxili etnik qruplara qarşı reallaşdırdığı polis əməliyyatları daxili sülhyaratma əməliyyatları hesab olunurlar [Торкунов, 2004, 416].

Müasir dövrümüzdə sülh naminə həyata keçirilən çoxfunksiyalı əməliyyatlar beynəlxalq ictimai həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Hal-hazırda bu əməliyyatlara: humanitar yardımların göstərilməsi; seçkilərin keçirilməsinə nəzarət; qaçqınların öz vətənlərinə qaytarılması; silahsızlaşdırma və keçmiş hərbçilərin ictimai həyata inteqrasiyası; dövlətin qanuna və insan hüquqlarına riayət etməsi çərçivəsində ölkədə təhlükəsizliyi qoruya bilməsi; qanuni,səmərəli idarəetməni təmin edəcək orqanların formalaşdırılması aiddir [United Nations, 2008, 6].

Ədəbiyyat siyahısı:

1. Charter of the United Nations and Statue of the International Court of Justice. San-Francisco 1945, 54 p.

2. United Nations, United Nations Peacekeeping Operations: Principles and Guidelines, Department of Peacekeeping Operations, New-York: 2008, 100 p.

3. Никитин А. Международные конфликты и их мирное урегулирование. // Мировая экономика и международные отношения. Москва: 2006, N=2, 128 с.

4. Торкунов А.В. Современные международные отношения и мировая политика. Москва: Просвещение, 2004, 991 с.

HÜSEYN ƏLISAHIB OĞLU BƏXTIYARLI
Gəncə Dövlət Universiteti

# MÜSTƏQIL AZƏRBAYCAN RESPUBLIKASININ XARICI SIYASƏT MƏSƏLƏLƏRI (XX ƏSRIN 90-CI ILLƏRI-XXI ƏSRIN ƏVVƏLLƏRI)

Açar özlər: Azərbaycan, müstəqil, Respublika

Azərbaycan milli müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət yeritməyə başladı. Respublika rəhbərliyi Azərbaycanın dünya miqyasında tanıdılması problemlərini həll etmək naminə xarici siyasətdə Qərb meylini gücləndirməklə yanaşı, qonşu Şərq dövlətləri ilə də münasibətləri genişləndirdi. Onun xarici siyasətində Türkiyə ilə münasibətlər xüsusi yer tuturdu. Azərbaycan Türkiyəyə dünya siyasəti meydanına çıxmaqda və Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etməkdə dayaq nöqtəsi kimi baxırdı. Qeyd edək ki, bu gün də Azərbaycan-Türkiyə münasibətləri H. Əliyevin "Bir millət, İki dövlət" devizi ilə müəyyən olunmuş müstəvidə inkişaf etməkdədir.

Azərbaycan İran İslam Respublikası ilə də normal siyasi, iqtisadi və mədəni münasibətlərin qaydaya düşməsinə daim diqqətlə yanaşır. 2002-ci ildə iki ölkə arasında "Dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilənin bağlanması münasibətləri daha da yaxşılaşdırdı.

1993-cü ildən etibarən Rusiya ilə tarazlaşdırılmış xarici siyasət yeridilir. Qeyd etmək lazımdır ki, iki dövlət arasında ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasını təşkil edən sənəd Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci il iyulun 3-də dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilədir (5,1). Məhz, bunun nəticəsində 2001-ci ildə Rusiyanın hərbi naziri Ermənistanla Azərbaycan arasında müharibə olarsa, Rusiyanın bitərəf qalacağını elan etdi.

Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra "Əsrin müqaviləsi" nin imzalanması üşün şərait yaradıldı. 1994-cü il sentyabrın 20-də XX əsrin böyük hadisəsi-"Əsrin müqaviləsi" nin imzalanması ilə Azərbaycan iqtisadi inteqrasiyanın nüfuzlu dövlətlərindən

biri oldu. Ümumiyyətlə, əsrin sonunadək 14 ölkənin 30 neft şirkəti ilə 57 mlrd. sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı (3,428).

Azərbaycan Respublikası dünya birliyində özünün bərabər hüquqlu yerini tutmaq və Dağlıq Qarabağ məsələsini həll edə biləcək iri dövlətlərlə, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, Almaniya və başqa ölkələrlə də sıx münasibətlər yaratmağa başladı. 1992-ci ildə Azərbaycan və ABŞ arasında səfirlik səviyyəsində diplomatik əlaqə yaradıldı. 1997-ci ildə ABŞ və Azərbaycan prezidentləri tərəfindən "Ağ ev"də iki ölkə arasında münasibətlərin əsas prinsipləri və istiqamətlərini müəyyən edən "Amerika-Azərbaycan" münasibətləri haqqında birgə bəyənat imzalandı.

Böyük Britaniyanın Azərbaycan Respublikası ilə əlaqələri 1992-ci ildə baş nazir M. Tetçerin Bakıya səfəri zamanı başlamışdı. 1994-cü ildə neft çıxarılması sahəsində əməkdaşlıq haqqında memorandum imzalandıqdan sonra iki ölkə arasında əlaqələr daha da genişlənməyəbaşladı.

Fransa prezident H.Əliyevin ilk səfər etdiyi ölkə olmuşdu. 1997-ci ildə iki ölkə arasında iqtisadi əməkdaşlıq, xüsusən, Xəzər dənizində neft yataqlarının birgə mənimsənilməsi barədə saziş imzalandı.

1995-ci ildən Almaniya dövləti ilə əlaqələr genişlənməyə başladı. 1996-cı ildə H.Əliyev bu ölkəyə rəsmi səfər etmişdi. Hətta, 2001-ci ildə Berlində Azərbaycanla Almaniya arasında iqtisadi əməkdaşlıq barədə protokol imzalandı.

Azərbaycan Respublikası dünya birliyinin müstəqil, bərabər hüquqlu dövləti kimi beynəl-xalq və regional qurumlarda təmsil olunmaq, öz hüquqi yerini təmin etmək sahəsində də ardıcıl və məqsədyönlü fəaliyyət göstərirdi.

Bundan başqa Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, YUNESKO, YUNİSEF və digər təşkilatlarla əməkdaşlıq edir. Azərbaycan TRASEKA (Avropa Qafqaz-Asiya) Nəqliyyat proqramının, keçmiş "İpək yolu" nun reallaşmasında fəal iştirak edir.

Azərbaycan Respublikasının dünya birliyi miqyasındakı fəaliyyətində BMT ilə münasibətlər müstəsna yer tutur. 1995-ci ildə H.Əliyevin səyi nəticəsində erməni-azərbaycan münaqişəsinin müzakirəsi zamanı BMT-nin üzvlərindən 100-ü Azərbaycanın mövqeyini dəstəkləmişdi. Bunun

nəticəsi idi ki, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən təkcə 1993-cü ildə Azərbaycan torpaqlarının erməni işğalçıları tərəfindən işğalı ilə əlaqədar 30 aprel 1993-cü il tarixli 822, 29 iyul 1993-cü il tarixli 853, 14 oktyabr 1993-cü il tarixli 874 və 11 noyabr 1993-cü il tarixli 884 saylı dörd qətnamə qəbul edilmişdir (2,445).

Təəssüflər olsun ki, Təhlükəsizlik Şurasının sözü gedən qətnamələrindən heç biri hələ də yerinə yetirilməmişdir. Dünya birliyinin beynəlxalq təşkilatlarından olan ATƏT də Azərbaycan Respublikasının əməkdaşılıq etdiyi qurumlarındandır. Azərbaycan bu təşkilata 1992-ci il yanvarın 20-də qəbul edilmiş, iyulun 10-da isə onun yekun aktını (1975-ci il Helsinki yekun aktı) imzalamışdır. 1992-ci il martın 24-də ATƏT Şurasının qərarı ilə bu təşklilatın himayəsi altında Dağlıq Qarabağ üzrə Minsk konfransı keçirilmişdi (4,1). Onun başlıca vəzifəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqəşəsini nizamlamaq, problemin həlli üçün müvafiq sənədlər hazırlamaqdan ibarət idi. 1997-ci ildən Minsk qrupuna üç ölkə-Rusiya, ABŞ, Fransa həmsədrlik edir.

Dağlıq Qarabağ probleminin həll edilməsi yollarının axtarılması baxımından Azərbaycan üçün ATƏT-in Budapeşt (1994-cü il 5-6 dekabr) və Lissabon (1996-cı il 2-3 dekabr) Sammitləri ən səmərəli olmuşdur. Lissabon zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair iştirakçı dövlətlər tərəfindən bəyanat verildi. Bu sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün birinci, Ermənistan Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, ikinci, Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu-muxtariyyət hüququ verilməsi, üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə-ermənilərə və azərbaycanlılara təhlükəsizlik təminatı verilməsi kimi üç mühüm prinsip irəli sürüldü(1,344).

Azərabayacan Respulikası dünya birliyinin ən nüfuzlu təşkilatlarından biri olan Avropa Şurasına üzv olmaq üçün də ciddi səy göstərmişdi. 2001-ci il yanvarın 25-də, nəhayət, Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması barədə qərar qəbul olundu. Bu qurumda Azərbaycan parlamentinin nümayəndə heyətinin başçısı İlham Əliyev olmuşdu.

Azərbaycan Respublikasının Avropa Birliyi (1991-ci ildən Avropa İttifaqı) ilə də əlaqələri genişlənmişdir. Hələ təşkilat 1991-ci il dekabrın 31-də Azərbaycan Respublikasını tanımışdı. 1995-ci ilin iyununda Avropa İttifaqının Luksemburq toplantısında Cənubi Qafqaz üzrə "ümumi mövqe" layihəsini qəbul etmişdi.

Azərbaycan Respublikası NATO ilə əməkdaşlıq etməyə çalışır. Azərbaycan 1992-ci ildə Əməkdaşlıq Şurasına qoşulmuşdu. 1994-cü ildə isə NATO-nun Avropada və dünyada sülhün və əminamanlığın bərqərar olması naminə "Sülh naminə tərəfdaşlıq" proqramına qəbul edilmişdi.

Azərbaycan Respublikası 1993-cü ildə MDB-yə üzv qəbul olaraq müstəqillik qazanmış dövlətlərlə geniş əlaqələr yaradır. Eyni zamanda Azərbaycan regional təşkilatlarda da, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, GUAM-da, "TRASEKA" proqramında işgüzar fəaliyyət göstərməkdədir.

Beləliklə, Azərbaycan müstəqil dövlət kimi dünya birliyində öz hüquqi və qanuni yerini təmin etmiş, onun bərabərhüquqlu üzvü kimi bəşər sivlizasiyasını öz iqtisadi, mədəni, intellektual nailiyyətləri ilə zənginləşdirmşdir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi.VII cild. Bakı: 2008.

2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005.

3. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. (1945-2007-ci illər).
Bakı: 2011.

4. www.google.az. Azərbaycan-ATƏM əlaqələri.

5. www.google.az. Rusiya-Azərbaycan münasibətləri.

XANIM İRADIL QZI ƏSƏDOVA
Azərbaycan Dövlət Aqrar Universiteti

# MÜSTƏQILLIYIN ILK ILLƏRINDƏ AZƏRBAYCANIN XARICI SIYASƏTI

Açar sözlər: əlaqələr, inteqrasiya, xarici aləm,xarici siyasət

1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa edərək yenidən yaradılan Azərbaycan Respublikası öz suverən hüququndan istifadə edərək müasir dövrün reallıqlarını və xalqın milli mənafelərini nəzərə alaraq fəal xarici siyasət yeritməyə başladı. Azərbaycan dövləti beynəlxalq aləmdə öz xarici siyasəti vasitəsilə aşağıdakı məqsəd və vəzifələri reallaşdırmağa çalışırdı.

1.Müstəqilliyi saxlamaq və möhkəmləndirmək;
2.Təhlükəsizliyi təmin etmək.
3.Daxili quruculuq üçün əlverişli beynəlxalq şərait yaratmaq;
4.Beynəlxalq əmək bölgusundə iştirak etmək;
5.Beynəlxalq münasibətlər sisteminin formalaşmasında iştirak etmək;
6.Beynəlxalq münasibətlər sistemində rolunu artırmaq;
7. Ermənistan –Azərbaycan münaqişəsinə diplomatik –siyasi vasitələrlə son qoymaq;
8. Xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq.[Abdullayev, 2010, 403]

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsindən, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasından ibarətdir. [Həsənov, 2005, 232]

Azərbaycan Respublikasının xarici siyasətində inteqrasiya strategiyasının müxtəlif istiqamətli olması milli iqtisadiyyatın müsbət istiqamətdə dəyişilməsi proseslərinin surətlənməsinə, xarici iqtisadi əlaqələrin diversifikasiya imkanlarının genişlənməsinə, dünya iqtisadi məkanına, xüsusilədə Avroatlantika siyasi və iqtisadi məkanına eləcədə strukturların daha fəal inteqrasiyasına lazımi şərait yaratmışdı.

Müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq,beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər görmüşdü. [Qasımov, 1996, 78]. Xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir. [Həsənov, 2005, 232]

Azərbaycan xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşməsi Heydər Əliyevin adı ilə baqlıdır.Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üşün lazımi tədbirlər görüldü, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirdi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunan, üst - üstə düşən,kəsişən maraq dairələri müəyyənləşdirildi. [Orucov, 2001, 47]

Ədəbiyyat siyahısı:

1.Abdullayev M. "Beynəlxalq münasibətlər tarixi (XX əsr) Bakı 2010

2.Qasımov M.C. " Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər) Bakı 1996

3.Orucov H. "Heydər Əliyev və Azərbaycanda milli siyasət" Bakı 2001

4.Həsənov Ə."Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" Bakı 2005

XATIRƏ İSMAYIL QIZI İLYASOVA
Gəncə Dövlət Universiteti

# ÖZBƏKISTAN RESPUBLIKASININ BEYNƏLXALQ TƏŞKILATLARDA FƏALIYYƏTINƏ DAIR

Açar sözlər:beynəlxalq, əməkdaşlıq, müstəqillik, münasibətlər, təşkilat

1991-ci ildə SSRİ-nin süqutundan sonra Avropa və Asiya qitələri arasında türklərin yerləşdiyi məkan - geopolitik türk qurşağı formalaşdı. Gücünü tarixdən alan ortaq dini-mənəvi dəyərlərə malik Türk Dünyası siyasi-iqtisadi müstəvidə tam bütövləşməsə də, zəngin təbii sərvətləri, Böyük İpək Yolu üzərində yerləşməsi, yaxın qonşu ölkələrə nümunə olacaq müasir dövlət quruculuğu yolunu tutması baxımından dünyanın diqqət mərkəzindədir.

Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliklərini qazanmış türk dövlətlərinin regional inteqrasiya məsələləri aktual xarakter almışdır. Müasir dövrümüzdə müstəqil türk dövlətləri həm ayrı-ayrılıqda, həm də birgə çoxtərəfli münasibətlərdə, yəni beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərirlər.Türk dövlətlərinin xarici siyasətinin əsas prinsipləri aşagıdakılardır: ölkənin milli dövlətçilik prioriteti, beynəlxalq hüquq normaları, digər dövlətlərinin daxili işlərinə qarışmamaq, bütün mübahisəli məsələlərin sülh yolu ilə həll olunması, öz milli dövlətçilik maraqlarını üstün tutmaqla bütün dünyəvi maraqlarla hesablaşmaq, heç bir böyük dövlətlərin təsiri altına düşməmək, tam etibarlıq əsasında ikitərəfli və çox tərəfli xarici əlaqələrin yaradılması və inkişaf etdirilməsi,beynəlxalq iqtisadi və maliyyə təşkilatçılığı çərçivəsində əməkdaşlığın intensivləşdirilməsi[Мавланов,2017, 97-99].

01 sentaybr 1991-ci il tarixində öz dövlət müstəqilliyini əldə edən Özbəkistan məhz bu mərhələdən başlayaraq xarici siyasət strategiyasında mühün bir istiqaməti təşkil edən beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq münasibətləri qurmağa başladı. Hazırda Özbəkistan 100-dən artıq beynəlxalq və məhəlli təşkilatın üzvüdür.

Özbəkistan universal xarakterli təşkilat olan BMT-yə 02 mart 1992-ci il tarixində üzv seçilmişdir.Sözügedən təşkilatla ölkənin qarşılıqlı münasibətlərinin əsasını aşağıdakı istiqamətlər təşkil edir: müasir qlobal təhdidlərə qarşı birgə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması üçün fəal əməkdaşlıq, Əfqanıstanın hazırkı dönəmdə üzləşdiyi problemlərin aradan qaldırılması üçün birgə əməkdaşlıq, qlobal ekoloji problemlərin həll olunması, o cümlədən Aral hövzəsində mümkün ekoloji fəlakətlərin qarşısının alınması üçün profilaktik iş, sosial və iqtisadi, eləcə də insan hüquq və azadlıqlarının qorunması və daha da genişləndirilməsi. [История Узбекистана, 2011, 269]

Ölkə BMT-nin terrorla mücadiləsində fəal iştirak etməklə 13 konvensiyaya qoşulub və eyni zamanda dünya ictimaiyyətinin bu sahədə fəaliyyətinin daha da möhkəmləndirilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Bundan əlavə, regionda narkotiklərin qanunsuz dövriyyəsini dayandırmaq üçün BMT və onun ixtisaslaşmış qurumları ilə birgə fəal əməkdaşlıq da aparılır. Bu qəbildən ölkənin ən təqdirəlayiq fəaliyyəti Mərkəzi Asiya regionunda narkotiklərin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə birgə mübarizə aparmaq məqsədi ilə İnformasiya Koordinasiya Mərkəzinin yaradılması olmuşdur.

Əfqanıstanla bağlı isə iki təşəbbüsün müəllifidir: Ölkəyə silah çatdırılmasının qarşısının alınması üçün embarqonun tətbiq edilməsi və ölkə iqtisadiyyatınının inkişaf etdirilməsi üçün “6+3” formatında dostlar və qonşular qrupunun yaradıması olmuşdur. Burada “6” rəqəmi qonşu dövlətləri, “3” rəqəmi isə dostları (Rusiya, ABŞ və NATO) əks etdirir [Каримов,2011,147].

MDB ilə münasibətlər təşkilatın nizamnaməsi ilə müəyyən edilmiş bütün sahələrdə aktiv xarakter daşıyır. Təşkilatın yaradıldığı ilk günlərdən başlayaraq Özbəkistan iqtisadi inteqrasiyanın dərinləşdirilməsinin, ölkələr arasında təsərrüfat münasibətlərinin siyasiləşdirilməsinin əleyhinə çıxmışdır. Ölkə təşkilat çərçivəsində də bir sıra layihələrin təşəbbüskarı qismində çıxış edir. Siyasi sahədə anlaşmaların qəbul edilməsinin və onların təcrübədə tətbiqinin fəal tərəfdarlarındandır [Мавланов, 2017,306].

Özbəkistan öz dövlət müstəqilliyini elan etdiyi ilk dövrlərdən başlayaraq Avropa ilə fəal münasibətləri özünün xarici siyasət prioritetləri

sırasında bəyan etmişdir. Avropaya daxil olan dövlətlərlə münasibətlər həm ikitərəfli şəkildə, həm də təşkilatlar çərçivəsində özünü göstərir. Bu mənada Avrpopa Şurası ilə münasibətlər ön plana çıxır. Münasibətlərin hüquqi tənzimlənməsinin əsasını 01 iyul 1999-cu il tarixində qüvvəyə minmiş Dostluq və Əməkdaşlıq haqqında Razılaşma təşkil edir. Ölkə inkişaf xüsusiyyətlərini Avropa standartları səviyyəsinə çatdırmaq məqsədilə mütəmadi olaraq dialoq rejimində münasibətlər saxlayır[Məmmədli,2005,64-66].

Özbəkistan 26 fevral 1992-ci ildə ATƏT-in üzvü seçilmişdir. Təşkilat və ölkə arasındakı 2006-cı ildə ATƏT layihələrinin koordinasiya mərkəzinin yaradılması haqqında memarandum imzalanmışdır ki, sözügedən sənəd ölkədə buna qədər mövcud olmuş ATƏT-in Daşkənd ofisini transformasiya etməklə onun fəaliyyət dairəsini və imkanlarını daha da genişləndirmişdir.

NATO ilə münasibətlərin əsası isə 13 iyul 1994-cü ildə imzalanmış “Sülh naminə tərəfdaşlıq” proqramı və 1996-cı ildə qəbul edilmiş fərdi proqram təşkil edir. Sözügedən layihələrdə əsas diqqət hərbi kadrların bilik və bacarıqlarının təkmilləşdirilməsinə, müdafiə siyasətinin işlənilməsinə, terrorla mübarizəyə yönəldilmişdir.

1992-ci ilin sentyabr ayından etibarən Özbəkistan Dünya Bankının tam hüquqlu üzvü seçilmişdir ki, bu da ölkəyə Bretten-Vuds sisteminə daxil olan bütün maliyyə qurumlarına üzv olmağa imkan verir.Ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə Ümümdünya Yenidənqurma və İnkişaf Bankının xətti ilə 2008-2011-ci illər üçün maliyyə strategiyası qüvvədə olmuşdur[Talıbov, 2015,160].

İslam dünyası ilə münasibətlər də Özbəkistanın prioritetləri sırasındadır. Dövlət İslam Konfransı Təşkilatına 1995-ci ildə üzv olmuşdur. Təşkilat çərçivəsində ən fəal əməkdaşlıq İslam İnkişaf Bankı ilə aparılır. Belə ki, bank Özbəkistanda bir sıra infrastruktur layihələrinin dirçəldilməsində fəal iştirak edir. Bundan əlavə, təşkilat çərçivəsində mədəniyyət abidələrinin bərpa edilməsi, elm və təhsil sahəsində mübadilələr də həyata keçirilir. Ölkə İKT çərçivəsində dinlərarası dialoqun daha da inkişaf etdirilməsinin təşəbbüskarıdır [Eyyubova,2009,205].

Şanxay Əməkdaşlıq Təşkilatının yaradılması haqqında deklarasiya quruma üzv dövlətlərin başçıları tərəfindən 15 iyun 2001-ci il

tarixində imzalanmışdır. Təşkilat Asiya regionunda əməkdaşlığın və əmin-amanlığın saxlanılması üçün mühüm instituta çevrilmişdir [Saray,2014,283]. Özbəkistan ŞƏT-in Xartiyası ilə müəyyən edilmiş bütün tədbirlərdə iştirak edir. Təşkilatda iştirakın əsas cizgiləri özünü terror, separatizm və ekstremizm sahəsində birgə və fəal əməkdaşlıqda, iqtisadi anlamda münasibətlərin ən yüksək səviyyəyə qaldırılmasında, mədəni-kütləvi əməkdaşlığın inkişaf etdirilməsində göstərir.

04 yanvar 1993-cü ildə Daşkənddə Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın dövlət başçılarının iştirakı ilə Aral gölünün müdafiəsi üçün beynəlxalq fond yaradılmışdır. Fondun yaradılmasında əsas məqsəd ekoloji və elmi-tətqiqat sahəsində işlərin aparılması üçün maliyyənin ayrılması və mümkün fəlakətlərin qarşısının alınmasından ibarətdir.

Qloballaşmanın imkanlarından maksimum dərəcədə istifadə olunması, beynəlxalq ictimaiyyətdə ölkənin mövqelərinin möhkəmləndirilməsi, xarici investisiyaların cəlb edilməsi, milli təhlükəsizliyin təmin edilməsi – bütün bunlar Özbəkistanın xarici siyasətində əsas istiqamətlər hesab edilir.

Ədəbiyyat siyahısı:

1. Eyyubova S.E. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969- 2007-ci illər). Monoqrafiya. - Bakı: 2009

2. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri vəTürkiyə. Bakı,2005

3.Talıbov R.Asiya olkələri beynəlxalq munasibətlər sistemində.Bakı, 2015

4.Saray M. Yeni Türk Cümhuriyyetleri tarihi. A.,Bilig, 2014

5.Каримов И.А. Узбекистан на пороге достижения независимости. Т.: Узбекистан, 2011

6. Мавланов И. Р. Внешняя политика Республики Узбекистан // Внешняя политика стран СНГ / Ред.-сост. Д. А. Дегтерев, К. П. Курылев. — М.: Издательство «Аспект Пресс», 2017

7. История Узбекистана. частьII. Маҳкамова, Н.В.Мандральская, Б.. Арифханов. Ташкент 2014

KHAYAL İBRAHIM OGLU İSKANDƏROV
Azərbaycan Respublikası Silahlı Qüvvələrin Hərbi Akademiyası

# NON-ALLIANCE POLICY: CHALLENGES AND PROSPECTS

Keywords: non-alliance policy, Non Aligned Movement, balance, neutral, organization

Non-alignment, both as a foreign policy perspective of some particular states is a critical factor of contemporary international relations. The paper focuses on the history of non-alignment policy during the Cold War and after its demise. The evolution of Non Aligned Movement (NAM) is delineated, the challenges are highlighted and prospects are estimated. The paper looks at the current state of the NAM in the face of rapidly changing international order and presents the comparative analysis of Azerbaijan's security policy as a country pursuing non-alignment policy.

The emergence of a bipolar world and the formation of two military blocks (NATO and the Warsaw Pact) after the Second World War ushered in an intense rivalry between different countries. Finding an effective grand strategy to survive between two hostile powers inevitably required a balanced policy. In this context, the underdeveloped countries felt the need to join efforts for the common defense of their interests, to strengthen their independence and sovereignty and to express a strong commitment with peace by declaring themselves as "non-aligned" from either of the two nascent military blocks [Iskandarov, Mammadzada, Sadiyev, 2019]. This need ended up with the formation of new organization, Non-Aligned Movement (NAM). The stated dominant objective of the NAM was to facilitate and provide a viable platform for countries, which did not want to align themselves militarily with the two Cold War era superpowers–the United States and the Soviet Union [Kashinath, 2016]. It in the past enabled the NAM aspired countries to avoid the limitations and entanglements of other alliances. In fact, non-alignment for those countries was a strategy for survival as a free and independent sovereign nation. The NAM was born at a tumultuous time when a plethora of countries was striving to get rid of

the colonial rule. Moreover, the arms race threatened the planet as never before.

The term non-alignment was first coined by George Liska. Who used to describe it the policies of the states, which decided not to join either of the two power blocs in world politics of post war years. George Liska was the first to come close to accepting the term of Non-alignment, in a really scientific manner [Rasool, Pulwama, 2013]. The decision to adopt non-alignment was not merely an idealistic dream of neutrality, but was, rather, based on a realistic assessment particular countries' geopolitical situation. It gave those countries room to maneuver according to their own interest rather than allowing them to become confined within the limitations of a Cold War alliance. Hindsight reveals the consequences of this approach.

Non-Aligned Movement was founded by the countries that wanted to resist the efforts of NATO and Warsaw Pact to enlist them in the Cold War. Despite the criticism and skepticism of some politicians and experts, such as John Foster Dulles and Henry Kissinger, nonalignment functioned throughout the Cold War both as a movement and as a strategy [Sadri, 1999]. With the collapse of Soviet Union in 1991, the détente between former adversaries rendered the NAM useless, where the United States is considered the only superpower. However, approximately thirty years after the end of the Cold War, the Non-Aligned Movement still exists. Is it considered the remnant of the Cold war or today's geopolitical situation also necessitates its existence? NATO was also deemed the vestige of the bygone era, but later proved its relevance, even importance right after 1991 Rome summit, through adopting its new Strategic Concept, which ushered in the whole transformation of the Alliance. The international system or, to be precise, the dynamics of the new world order are constantly changing. This also justifies the need to continue because the system could end up with several rival blocs or power centers in the future. In order to continue and be relevant and efficient, the movement must be revamped and reshaped [Keethaponcalan, 2016]. Today, the main purpose of the NAM is to serve as a mechanism aimed at applying the principles of international law. The movement believes that each country is a sovereign and independent state and everything must be accorded with the status regardless of the size of that country. According to the principles of the

NAM adopted at Bandung conference member countries should refrain from using force against the territorial integrity or political independence of any country, settle all international disputes by peaceful means and promote mutual interests and cooperation [Iskandarov, Mammadzada, Sadiyev, 2019]. In a nutshell it contributes to world peace through creating a third group to water down the tension between different blocs. If the members of this Movement had taken sides in the Cold War between the Eastern and the Western blocs, the war would have been more deepened than it was. Through declaring their non-alignment policy, the countries participating in the NAM avoided being the playgrounds of the confrontation of the superpowers. For instance, through pursuing non-alignment policy India, Brazil Australia and New Zealand managed to survive unscathed unlike Afghanistan, Vietnam, Oman and Korea, those countries suffered most. Because of the positive neutrality that the Movement exhibited, the world has become a more peaceful place to live in. NAM countries have been immensely contributing troops to UN and NATO operations when the objectives coincide.

However, it is no exception that sometimes malign ambitions (because of diverse and competing interests of member states) overcome the founding principles of NAM. Apart from the proclivity towards either blocs (Western or Eastern) some members have even gone to war with one another (for instance, India and Pakistan, Iran and Iraq). As well as, the global powers such as the United States, EU, Russia and China have resources to limit NAM's ability to impact global trends or to enforce its own resolutions. NAM does not have any viable tools and internal mechanisms to enforce UN resolution, which have been pending for years. The NAM has never assumed any mediating role between the countries which are in conflict with each other and has not defined such a role for itself. That is the reason the Movement is broadly accepted impotent in the face of political instability and border disputes amongst member states. Continued ties with their former colonial masters in some countries (control and hegemony of external forces) impose undue limit on their independent policies. NAM is a coalition of nations seeking consensus - the closest possible convergence of views on matters of mutual interest. However, sometimes a conflict of interest and ideological difference among

leaders are inevitable, and of course, it wreaks havoc on the efficiency of the whole Movement. And these are the most sobering challenge for member states looming over future years. In spite of it, the NAM could have a larger role in the future. The Movement has influenced international thinking on many issues including apartheid, decolonization, wars of national liberation, withdrawal of foreign forces from fledgling countries and sovereignty over natural resources. Even though it does not rule out the conflict, but reduces its likelihood. Non-Aligned Movement affords its members a forum where they can discuss their common problems and work out strategies to tackle international complications of peace, security, development, terrorism, human rights and environmental safety. It is important to recognize that when the NAM was founded its principles did not seek to form a third or alternate bloc in order to serve as a counterbalance against the influence of the superpowers [Strakes, 2015]. The bottom line is, we have to perceive the NAM as a movement not an organization which leads to more equitable, peaceful, prosperous and secure world.

References:

1. Iskandarov Kh., Mammadzada V., Sadiyev S. The role of non-alliance policy in shaping the national security of the Republic of Azerbaijan, The European Geopolitical Forum, 14 February 2019, http://gpf-europe.com/upload/non-alliance_policy_sadisadyiev_140219.pdf
2. Kashinath P. "Why the Non-Aligned Movement Needs to Be Resuscitated", https://thediplomat. com/2016/10/why-the-non-aligned-movement-needs-to-be-resuscitated/ (Access date: 20.10.2016).
3. Keethaponcalan S. Reshaping the Non-Aligned Movement: challenges and vision, Oct 4, 2016, https://link.springer. com/article/10. 1186/s40728-016-0032-3 (Access date: 04.10.2016).
4. Rasool A., Pulwama A. "Non-Aligned Movement in 21st Century: Relevant or Redundant? …A Debate" // IOSR Journal of Humanities and Social Science (IOSR-JHSS) Volume 11, Issue 4 (May. - Jun. 2013), pp. 64-70 e-ISSN: 2279-0837, p-ISSN: 2279-0845.
5. Sadri H. Nonalignment as a Foreign Policy Strategy: Dead or Alive, January 1999,

https://www.researchgate.net/publication/292420040_Nonalignment_as_a_Foreign_Policy_Strategy_Dead_or_Alive (Access date: January 1999).

Strakes J. "Azerbaijan and the Non-Aligned Movement: Institutionalizing the "Balanced Foreign Policy" Doctrine" / IAI working papers 15/11 - May 2015 ISSN 2280-4341/ISBN 978-88-98650-35-4, p.6, https://www.iai.it/sites/default/files/iaiwp1511.pdf (Access date: 05.05.2015

XƏYALƏ RAFAEL QIZI AĞAYEVA
Azərbaycan Dillər Universiteti

# Ə.M.TOPÇUBAŞOVUN İSTANBULDA DIPLOMATIK FƏALIYYƏTI VƏ ONUN NƏTICƏLƏRI

Açar sözlər: Azərbaycan nümayəndə heyəti, qərb ölkələri, diplomatik görüşlər

Ə.M.Topçubaşovun rəhbərliyi altında Azərbaycan Nümayəndə heyəti İstanbulda fəaliyyət göstərdiyi müddətdə burada olan xarici ölkə nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişdi.

Ə.M.Topçubaşov ilk olaraq Osmanlı dövlətinin hökumət adamları ilə görüşlər keçirmiş və bu zaman çox səmimiyyətlə qəbul edilmişdi. Dost və qardaş dövlətin rəhbərləri Azərbaycana mümkün olan hər cür köməyə hazır olduqlarını bildirmişdilər.

Əli Mərdan bəyin ilk rəsmi görüşü sədr-əzəm (baş nazir) Tələt paşa ilə oktyabrın 2-də olmuşdu. Tələt paşa son Berlin səfəri barədə Topçubaşova məlumat verərək göstərmişdi ki, o, Berlində eyni zamanda Azərbaycanın da maraqları istiqamətində işləmiş, lakin Avstriya, Macarıstan və Almaniya hələlik Azərbaycan dövlətinin müstəqilliyini qəbul etmək istəmirlər. Buna baxmayaraq Tələt paşa Qafqazda müstəqil Azərbaycan dövlətinin yaranması haqqında illərlə bəslədikləri arzunun gerçəkləşməsi istiqamətində çalışmağa hazır olduğunu bildirmişdi [ARDA, f. 894, 10, iş 150., v. 1-3 a ].

Lakin Mudros müahidəsindən sonra Osmanlı hökumətinin Azərbaycana köməyi artıq minimuma endi. Sultan Türkiyəsinin özü müttəfiqlərdən tam asılı vəziyyətə düşdü. Müttəfiqlər Osmanlının Azərbaycana diplomatik nümayəndə təyin etməsinə pantürkizm meyli kimi baxmış, Osmanlı hökumətinə bunu qadağan etmişdi (Türkiyənin Ermənistan və Gürcüstana rəsmi nümayəndə təyin etməsi isə təbii hal sayılırdı). Əli Mərdan bəyin Bakıya rəsmi diplomatik nümayəndə göndərilməsi haqqında notasına cavab olaraq Osmanlı xarici işlər naziri göstərirdi ki, Azərbaycana diplomatik nümayəndənin təyin olunması məsələsi müttəfiqlərin razılığı olmadan həll edilə bilməz və Azərbaycan

Respublikasının istiqlaliyyətinin qəti tanınmasınadək buna ümid etmək olmaz [ARDA, f. 970, siy. 1, iş 68, v. 11, 14] .

1919-cu il yanvarın ilk günlərində Ə.M.Topçubaşov İstanbulda olan müttəfiqlərin və neytral ölkələrin nümayəndələri ilə görüşmüş, onlara Mudros sazişi ilə bağlı Azərbaycan Respublikasının etiraz notasını təqdim etmiş, İran və Rusiya diplomatları ilə danışıqlar aparmış, yanvar ayının 11-də Türkiyə Sultanı tərəfindən qəbul edilmişdir [ADRA,f. 970, siy.1, iş158, v.3].

Topçubaşov İstanbulda ikən Osmanlı hökumətinin üzvlərindən başqa, Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya və Ermənistanın rəsmi nümayəndələri ilə görüşmüş, beynəlxalq vəziyyət və sülh konfransı haqqında onlarla fikir mübadiləsi etmiş, Qərb ölkələrinin nümayəndələrinə Azərbaycan haqqında məlumatlar vermişdi [Nəsibzadə, 1996, 148].

Hələ dekabrın 30-da Əlimərdan bəy Azərbaycanın hazırkı vəziyyəti haqqında hazırladığı memorandumu İstanbulda olan İsveç səfiri S.Anşarsveldə təqdim etmişdi. İsveç səfiri ilə razılıq əsasında bu memorandumla Stokholmda olan böyük dövlətlərin diplomatik nümayəndələri də tanış edilməli idi. Yanvar ayının 12-də S.Anşarsveld Topçubaşova yazırdı: "Sizin dekabrın 30-da göndərdiyiniz Azərbaycanın indiki vəziyyəti haqqında memorandumu Stokholma, İsveç kral hökumətinin Xarici İşlər Nazirliyinə göndərdim" [ARDA, f.970, s.1,i.37, v.1 ].

Belə bir məlumatı İstanbulda olan ingilis ali komissarı R.Vebb də bildirirdi. O da öz növbəsində, Əlimərdan bəyin dekabr ayında ingilis nümayəndəliyinə təqdim etdiyi sənədi Böyük Briyaniya kral hökumətinə göndərdiyini yazırdı [ARDA,AF.970, S.1, iş 139,V.2].

Azərbaycan Nümayəndə Heyəti Türkiyə paytaxtına yetişənə qədər Ə.B.Topçubaşov İstanbulda çox mühüm görüşlər keçirmişdi. Yanvar ayının 6-da o, İstanbulda olan Amerika diplomatik nümayəndəsi mister Heyklə görüşüb danışıqlar aparmış və prezident V.Vilsonun "on dörd sülh prinsipi"nin Azərbaycana şamil edilməsini, respublikanın istiqlaliyyətinin ABŞ tərəfindən tanınmasına köməklik göstərilməsini ondan xahiş etmişdi [ARDA, f.894, s. 10, i.151, v. 45 ].

Yanvar ayında Əlimərdan bəyin İranın xarici işlər naziri ilə keçirdiyi görüşün mühüm əhəmiyyəti oldu. 1919-cu ilin yanvar ayının 9-da o, İranın

xarici işlər naziri Əliqulu xan Ənsari (Müşavirülməmalik) ilə geniş danışıqlar apardı. Məlum olduğu kimi, İranın Azərbaycan Respublikasının yaranmasına münasibəti o qədər də müsbət deyildi. İstanbuldakı yanvar danışıqları zamanı İran tərəfinin inkarçılıq mövqeyini bir qədər yumşaltmaq mümkün olmuşdu [Həsənli, 2013, 328-330].

Beləliklə,Azərbaycan nümayəndələrinin İstanbulda üç aydan artıq apardığı gərgin mübarizə öz nəticəsini verdi. Əlimərdan bəy Topçubaşov başda olmaqla Azərbaycan Sülh heyəti Versal Sülh Konfransının keçirildiyi Paris şəhərinə buraxıldı. Bu, süni maneələrlə üzləşmiş Azərbaycan nümayəndə heyətinin məqsədyönlü addımlarının ilkin yekunu idi.

Ədəbiyyat siyahısı:

1. ARDA, f. 894, 10, iş 150., v. 1-3 a
2. ADRA,f. 970, siy.1, iş158, v.3
3. ARDA, f.970, s.1,i.37, v.1
4. ARDA,AF.970, S.1, iş 139,V.2
5. ARDA, f.894, s. 10, i.151, v. 45
6. ARDA, f. 970, siy. 1, iş 68, v. 11, 14.
7. Həsənli C. Tarixi şəxsiyyətin tarixi. Bakı: Azərbaycan Diplomatik Akademiyası, 2013
8. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. (1918-1920). Bakı, 1996

İBRAHIM FEYZULLA OĞLU KAZIMBƏYLI
Azərbaycan Dillər Universiteti

# MÜASIR AZƏRBAYCAN RESPUBLIKASININ BEYNƏLXALQ MÜNASIBƏTLƏRININ FORMALAŞMASINDA HEYDƏR ƏLIYEV STRATEGIYASI

Açar sözlər: Azərbaycan, Beynəlxalq, münasibətlər, formalaşma, strategiya

Azərbaycanın tarixi taleyi XX əsrin 70 illərindən başlayaraq, bir neçə il nəzərə alınmazsa otuz ildən artıq bir dövr, dahi şəxsiyyət, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi, gördüyü çoxşahəli işlər nəticəsində 1969-1982-ci illər tarixə intibah dövrü kimi daxil olub.

Azərbaycan xalqı XX əsrin sonlarında ikinci dəfə öz siyasi müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək öz daxili və xarici siyasi xəttini, strategiyasını möhkəmləndirməyə çalışırdı.

Yenicə meydana gəlmiş müstəqil dövlətlər üçün inkişafın Asiya modeli Avropa və Amerika modellərindən heç də az əhəmiyyət kəsb etmir, hətta bir sıra parametrlərinə görə onu ötüb keçməyə başlayır [Həsənov,2005, 211]

Burada Asiya modeli təsadüfən deyilmir. XX əsrin 50-ci illərindən başlayaraq iqtisadi inkişafın yüksək tempi ilə xarakterizə olunan Avstraliya, Cənub Şərqi Asiya ölkələri – Yaponiya, Çin, Cənubi Koreya, Sinqapur, İndoneziya, Malaziya və s. ölkələrin yüksəliş konsepsiyaları aid edilir. Müasir Beynəlxalq münasibətlər sistemində bu model Asiya-Sakit okean kimi də adlandırılır.

Müasir dünyanın hərtərəfli inkişaf yolu keçən, real güc mərkəzi olan dövlətlərinin regional və beynəlxalq münasibətlərin hazırki düzümünün nəzəri təhlili özünün xarici siyasət strategiyasını müəyyənləşdirən, dövlətlərarası regional və beynəlxalq əlaqələrə qatılmaq istəyən hər bir müstəqil dövlət üçün həyati əhəmiyyət kəsb edir. Çünki müstəqil olmuş hər bir dövlət gələcəkdə dünya ölkələri içərisində gələcək yeri və rolu

onun hansı inkişaf modelini seçməsindən, iqtisadi-siyasi və təhlükəsizlik meyillərinin beynəlxalq güc mərkəzlərindən birinə yönəltməsindən, hansı mərkəzlə əməkdaşlıq, tərəfdaşlıq, dostluq və nəhayət, strateji müstəqillik əlaqələrini yaratmasından asılıdır.

1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Ümummilli Liderin adı və fəaliyyəti ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətinin ilk illərindən qarşıya qoyulan düşünülmüş strateji hədəfin əsas prinsiplərini Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkə barəsində formalaşmış mənfi ictimai rəyi dağıtmaq, xalqın əsas ciddi problemlərini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq, respublika ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Bunun üçün ilk növbədə müharibəni dayandırmaq, dinc şəraiti təmin edib gələcəyə düzgün hesablanmış strategiyanı həyata keçirməyə hesablanmışdı. 1994-cü ilin may ayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttini ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Müstəqilliyin ilk illərindən demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyinin getdikcə güclənməsinə aparırdı.

Görkəmli dövlət xadimi Heydər Əliyev çox bacarıqlı, təcrübəli, yetkin siyasi xadim kimi bu çətin və son dərəcə mürəkkəb, qarışıq vəziyyətin həlli yollarını xalqın xeyrinə böyük ustalıqla həyata keçirirdi.

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq imicinin formalaşması, sistemli şəkildə məsələlərin həllinə yanaşmaq üçün məhz düşünülmüş, uzaqgörənliklə hesablanmış zərgər dəqiqliyi tələb edən balanslaşmış siyasətə, addıma ehtiyac duyulurdu.

Bu baxımdan 1994-cü il sentyabrın 20-də imzalanmış " Əsrin müqaviləsi " ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. Bütün bu addımlar Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirirdi. 1994-cü il mayın 4-də "Sülh naminə tərəfdaşlıq " proqramının çərçivə sənədinin imzalanması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu [Qasımlı, 2015, 294].

Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarət idi ki, ölkəmiz NATO- ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı.

Avroatlantik strukturlara inteqrasiya istiqamətində Azərbaycan çoxtərəfli Trans-Atlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirən Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhvə verir.

Ölkəmizin NATO ilə əməkdaşlığı xarici siyasət strategiyasının bir neçə əsas şərtləri ilə bağlıdır. Birincisi, müstəqil Azərbaycan dövləti öz xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan dünya dövlətləri ilə əməkdaşlığa maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncusu, Azərbaycanın müharibə vəziyyətində olması tələb edir ki, bütün vasitə və yollarla beynəlxalq aləmlə təmasda olsun və onu problemlərimizin həllinə daha çox cəlb etsin [Qasımlı, 2015, 459].

Azərbaycanın Avropa insitutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması bu günə qədər öz haqq səsimizi çatdırmaq üçün bir tribuna vermiş oldu. Düzdür hələ bu gün də təəssüf ki, dünya dövlətləri işğalçı Ermənistana qarşı sərt addımlar atmırlar. Sadəcə bəzi qətnamələr, bəyanatlar, vədsiz sülh danışıqları və sairədən ibarətdir.

Fikirlərimizi bu geniş hərtərəfli təhlil etmək imkanı olan mövzu ərtafında ümumiləşdirərək qeyd edə bilərik ki, ulu öndərin müəyyənləşdirdiyi düzgün strateji xətt, ideya və fikirlər, sosial-iqtisadi, siyasi, mədəni sahədə reallaşdırdığı kurs və praktik tədbirlər milli inkişaf siyasətinin formalaşması və həyata keçirilməsi istiqamətində uğurla davam etdirilir. Artıq ikinci mərhələdə bir ictimai siyasi sistemdən

digərinə keçidin, yeni demokratik cəmiyyətin və ictimai həyat normalarının əsaslarını yaratmışdır [Həsənov, 2016, 56].

Ədəbiyyat siyahısı:

1. Həsənov Əli "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları". Bakı "Zərdabi LTD", 2016, 700 səh.
2. Həsənov Əli "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 2005, səh. 211-219.
3. Qasımlı Musa "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)", 2 hissədə, I hissə. Bakı, "Mütərcim" 2015, -648 səh.
4. Qasımlı Musa "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)", 2 hissədə, II hissə. Bakı, "Mütərcim" 2015, səh. 664.

İLYAS VAQIF OĞLU HÜSEYNOV
Bakı Slavyan Universiteti

# MÜASIR DÖVRDƏ AZƏRBAYCAN-YUNANISTAN SIYASI MÜNASIBƏTLƏRININ ƏSAS XARAKTERIK CƏHƏTLƏRI

Açar sözlər: Yunanıstan, Avropa İttifaqı, Şimali Atlantika Müqaviləsi Təşkilatı, Cənub Qaz Dəhlizi, Trans Adriatik Boru Kəməri (TAP), ikitərəfli münasibətlər, diplomatiya

Müasir dövrdə Azərbaycanla Yunanıstan arasında siyasi, iqtisadi və humanitar münasibətlər uğurla inkişaf edir. Azərbaycan müstəqillik əldə etdikdən çox qısa vaxt sonra diplomatik əlaqələrin əsası qoyulmuşdur. Yunanıstan iki ölkəni bir-birinə tanıtmaq və hər iki xalqı mümkün qədər bir-birinə yaxınlaşdırmaqla dostluq, əminlik və qarşılıqlı inam üçün tədricən və ehtiyatla qəti və sürətli addımlar ataraq Azərbaycanda səfirlik açmışdır. Hər iki ölkə hazırda siyasi və iqtisadi sahələrdə sıx münasibətlərə malikdir. Son illərdə möhkəm təməllər üzərində dayanan Azərbaycan-Yunanıstan əlaqələri ikitərəfli münasibətlər çərçivəsindən kənara çıxaraq Avropa regionunu əhatə edən böyük əməkdaşlıq fazasına qədəm qoyub.

Azərbaycan-Yunanıstan münasibətlərinin strateji tərəfdaşlığa doğru genişlənməsi üçün münbit şərait yaranmışdır. Tərəflər əməkdaşlığın çox geniş olan komponentləri üzrə razılaşma əldə etməklə, uzunmüddətli münasibətlərin möhkəmlənməsinə dərin əsaslar yaradıb. Dünyada ən inkişaf etmiş sivilizasiyalardan biri kimi Cənub-Şərqi Avropada yerləşən Yunanıstan, Avropa Birliyinin və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvüdür. Azərbaycan üçün Afrikanın, Asiyanın və Avropanın kəsişmə nöqtəsində yerləşən Yunanıstan ilə siyasi, iqtisadi və humanitar münasibətlərin qurulması çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda öz enerji təhlükəsizliyini təmin etmək üçün böyük karbohidrogen ehtiyatlarına və əhəmiyyətli geosiyasi mövqeyə malik olan Azərbaycanla siyasi və iqtisadi münasibətlərin qurulması Yunanıstanın maraqlarına daxildir. Yunanıstan Avropa İttifaqının Azərbaycanla əlaqələri gücləndirməsi ilə bağlı bütün təşəbbüslərini dəstəkləyir.

Azərbaycanla Yunanıstan arasında rəsmi əlaqələr 1992-ci ilin aprelində yaradılıb. Yunanıstan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımış, 1992-ci il aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. 1993-cü il mayın 27-də Yunanıstanın Azərbaycanda, 2004-cü il aprelin 16-da isə Azərbaycanın Yunanıstanda səfirlikləri təsis olunmuşdur. Diplomatik münasibətlərin yaradılmasından sonrakı ötən dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən hüquqi sənədlər imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstana rəsmi səfər (12-16 avqust 2004-cü il tarixlərində XXVIII Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək məqsədilə işgüzar və 16-17 fevral 2009-cu il, 16-17 iyun 2014-cü il tarixlərində dövlət səfərləri) etmişdir. Yunanıstanın keçmiş prezidentləri Konstantinos Stefanopulos (20-22 iyun 2004-cü il) və Karolos Papulyas (5-6 aprel 2011-ci il) Azərbaycana rəsmi səfərdə olmuşlar [Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016), 2017, 517].

Rəsmi münasibətlər qurulandan sonra Milli Məclis Sədrinin, hər iki ölkənin nazirlərinin və digər rəsmilərinin qarşılıqlı səfərləri reallaşmışdır. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Yunanıstan parlamentində isə Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir.

Vaxtaşırı Prezident və nazirlər səviyyəsində baş tutan görüş və səfərlər dövlətlər arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə imkan yaratmışdır.

Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri olmuş Dimitrios Tsounqas Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə kitabında aşağıdakı fikirləri qeyd edir: "25 ilik müstəqillik dövrünün 24 ilində Azərbaycan və Yunanıstan arasında diplomatik əlaqələr mövcud olmuşdur. Bu, çətin bir proses olmasa da, həmişə asan da olmamışdır. Xarici faktorlar, beynəlxalq hadisələr və fərqli maraqlar heç də həmişə yardımçı təsir göstərməyib. Lakin əgər indi harada olduğumuza nəzər salsaq, sabit təməl və ədalətlilik prinsipləri üzərində qurulmuş etimadın bizi möhkəm bağlılıq və səmimi dostluq münasibətlərinə gətirib çıxardığının şahidi olarıq. Bütün bunlar fərqli rejim, din və ya mentalitetə

baxmayaraq baş verir. Bu, eyni ümumi dəyərləri və prinsipləri bölüşməyin nəticəsidir" [Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə, 2016, 322].

Azərbaycan-Yunanıstan əlaqələrinin mühüm hissəsini enerji təhlükəsizliyi tutur. Bu baxımdan Yunanıstan-Azərbaycan əlaqələri strateji əhəmiyyət daşıyır. Azərbaycan-Yunanıstan münasibətlərində enerji təhlükəsizliyinin strateji xarakter daşıması tam başa düşüləndir. Çünki hazırda qlobal miqyasda enerji ehtiyatları uğrunda gərgin mübarizənin şahidi oluruq. Yunanıstan Azərbaycan qazını əldə etməklə, həm özünün enerji təhlükəsizliyini təmin edərək müəyyən üstünlüyə sahib olacaq, həm də yanacağın Avropa bazarlarına nəql olunmasında tranzit ölkə kimi də mühüm rol oynayacaq.

Xəzərin Azərbaycana aid sektorunda hasil olunan təbii qazın Yunanıstan vasitəsilə Avropaya çatdırılmasını mümkün edəcək TAP təbii qaz boru kəməri dövlətlərarası iqtisadi əməkdaşlığı dərinləşdirir. TAP layihəsi nəinki enerji təhlükəsizliyi layihəsidir, eyni zamanda, iki ölkə arasında dostluq əlaqələrini daha da yüksək pilləyə qaldıran layihədir. Azərbaycanın təşəbbüsü ilə inşa edilən "Şahdəniz", TAP və TANAP hazırda Avropanın ən böyük infrastruktur layihələri sırasındadır. Bu layihələrin icrası nəticəsində bundan sonra uzun illər ərzində Azərbaycan Avropa bazarına öz təbii qazını ixrac edəcəkdir.

TAP Türkiyə-Yunanıstan sərhədində birbaşa TANAP-la birləşəcək və Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən keçərək təbii qazı Cənubi İtaliyaya nəql edəcəkdir. Təbii qazın Azərbaycandan Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu təşkil etdiyi üçün TAP-ın Avropa İttifaqının enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsinə görə strateji məqsədlərində əsas rol oynayacağı şübhəsizdir. Bundan əlavə, TAP lazımi təqdirdə təbii qazın Cənub-Şərqi Avropaya yönəltmək üçün texniki imkana malik olacaqdır.

Yunanıstanla enerji sahəsində əməkdaşlığın güclənməsi ümumilikdə Avropa İttifaqı ölkələri arasında əlaqələrin yeni mərhələyə qədəm qoymasına səbəb olacaq. Azərbaycanla Yunanıstan arasında siyasi münasibətlərin inkişaf etdirilməsi rəsmi Bakı üçün suverenlik baxımından iki mühüm divident qazandırır. Əvvəla, Avropa İttifaqı ilə qarşılıqlı əlaqələr genişlənir, onunla strateji tərəfdaşlıq konkret çərçivədə inkişaf

etdirilir. İkincisi, ölkənin təhlükəsizliyini qorumaq üçün beynəlxalq təminat əldə olunur. Heç kimə sirr deyil ki, bu aspektlər hazırda bütün postsovet ölkələri üçün öz aktuallığını qoruyub saxlayır.

Azərbaycanla Yunanıstan arasında siyasi, iqtisadi və humanitar münasibətləri gələcəkdə daha da sürətlə inkişaf etdirmək üçün geniş imkanlar mövcuddur. Bu imkanlardan maksimum istifadə etmək və hər iki ölkənin ümumi maraqlarına xidmət edən strateji tərəfdaşlıq münasibətlərini formalaşdırmaq zərurəti yaranmışdır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu / . Bakı: "Poliart" MMC, 2017, 904 s.

2. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə / məqalələr toplusu /. Bakı: "BEST-TMS" MMC, 2016, 645 s.

ИРИНА АЛЕКСАНДРОВНА КУНИНА
Азербайджанский Университет Языков

# МНОГОСТОРОННЯЯ ДИПЛОМАТИЯ В КОНТЕКСТЕ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ

Ключевые слова: многосторонняя дипломатия, конференции, международные организации, сетевая дипломатия

Комплексное исследование становления и развития института многосторонней дипломатии, а также механизмов и методов ее осуществления приобретает особую актуальность на современном этапе. В виду усложнения мировых политических процессов, формирование нового миропорядка, сегодня многие ученые, общественные и политические деятели оспаривают ценность многосторонности, что отрицательно влияет на развитие ее институтов.

В теории многосторонняя дипломатия руководствуется некоторыми ключевыми принципами международного порядка. На практике, многосторонняя дипломатия является основным инструментом взаимодействия в поиске согласованных решений, а также осуществление политических целей тех или иных государств-участников.

Появившиеся в ходе исторического развития структуры и механизмы многосторонней дипломатии, равно как и методы ее осуществления не имеют аналогов в истории международных отношений. Современная многосторонняя дипломатия осуществляется в двух основных формах:

-международные целевые конференции, имеющие самостоятельное значение и созываемые по определенному вопросу;

- сессии международных организаций.

Так, подписанием Вестфальского мира (1648), завершились Мюнстерского и Оснабрюкского конгрессов, итоги войны Людовика

XIV и стран Аугсбургской лиги закрепил Рисвикский конгресс, а на Карловицком конгрессе (1698-1699гг) был объявлен конец войны с турками. Эти конгрессы ознаменовали первые попытки дипломатических переговоров в рамках многосторонней дипломатии. В череде конгрессов особое место принадлежит Венскому конгрессу 1814-1815 гг, который положил начало новому этапу многосторонности, а именно конференционной дипломатии в формате «европейского концерта».

Такой формат многосторонней дипломатии стал приносить свои плоды. В этой связи следует особо отметить Гаагские конгрессы мира, в ходе которых были приняты и подписаны конвенции о мирном разрешении международных споров, а также была заложена основа международного гуманитарного права [Зонова, 2003,145].

Окончание Первой мировой войны ознаменовала Парижская мирная конференция, в рамках которой многосторонняя дипломатия вышла на новый уровень своего развития. Появился новый формат согласования решений в области международных отношений, на который также была возложена функция соблюдения определённого политического равновесия. Новым субъектом международных отношений, а также проводником решений в рамках многосторонней дипломатии стали международные организации. Однако, более масштабное развитие этот формат получил после окончания Второй мировой войны, когда на конференции в Сан-Франциско в 1945 году было принято решения об учреждении такой универсальной организации как Организация Объединенных Наций. Механизмы осуществления многосторонней дипломатии в рамках данного формата привнесли новизну в дипломатическую практику. На международной арене помимо международных организаций универсального характера стали появляться региональные и субрегиональные организации.

Стали также появляться и военно-политические альянсы, которые послужили причиной блокового противостояния в период Холодной войны.

Однако, в постбиполярный период, в конце XX – начале XXI века, стали возникать или укрепляться группировки государств,

объединяющих свои усилия в рамках определенно других многосторонних форматов. Это и «двадцатка», и СНГ, и ЕврАзЭС, и АСЕАН, и АТЭС, и ШОС, и ОБСЕ, и БРИКС и другие отраслевые альянсы [Лебедева,2015,86]. На современном этапе многостороння дипломатия развивается также быстро и на региональном уровне. Самый удачный пример- Европейский Союз.

Формирование новой системы международных отношений и нового миропорядка послужили причиной трансформации традиционной дипломатии. Увеличение субъектов международных отношений привело не только к многостороннему взаимодействию, но и к разделению на уровни. В данном контексте наибольшую актуальность стало приобретать сетевое взаимодействие в международных отношениях, и как результат появление нового вида дипломатии –«сетевой дипломатии» [ Гребенкина, 2014,138].

Понятие «сетевая дипломатия» коррелирует с понятием «многосторонняя дипломатия». Во-первых, сетевая дипломатия подразумевает гибкие формы участия в многостороннем формате, который приходит на смену тяжелому блоковому противостоянию. Международные организации, создаваемые государствами на основе многосторонних договоров и в соответствии с нормами международного права, приобретают статус наивысшей формы многосторонней дипломатии.

Во-вторых, механизм решения проблем по сетевому принципу дает возможность участникам расширить круг вопросов;

В-третьих, развитие сетевой дипломатии обусловлено тем, что она открывает возможности для коллективного управления глобальными мировыми процессами в различных сферах. Увеличение количества сторон при обсуждении проблемы ведет к усложнению общей структуры интересов;

В-четвертых, «сетевая дипломатия» приобретает качества «мягкой силы».

Список литературы:

1. Гребенкина Е.В. Проблема сетевого взаимодействия в международных отношениях/ Идеи и идеалы, №3(21), 2014

2. Дегтерев Д.А. Формализованные модели в международно-политической науке /ПОЛИС, 2017, №4

3. Зонова Т.Современная модель дипломатии. Истоки становления и перспективы развития – М.: РОССПЭН, 2003

4. История дипломатии /сост. А.Лактионов –М.:АСТ –АСТ Москва, 2006

5. Лебедева О. Многосторонняя дипломатия в современных международных отношениях /Право и управление XXI в., №1(34), 2015

КАМАЛЯГУСЕЙНАГАКЫЗЫГУСЕЙНОВА
Институт Экономики НАНА

# ЦЕЛИ И ЗАДАЧИ ОТЧИСТКИ ЗЕМЕЛЬ ОТ ЗАГРЯЗНЕНИЙ

Ключевые слова: нефть, экологические проблемы, нефтехимическое производство, нефтедобыча, очистка земель, технология очистки

В основе развития лежит экстенсивное вовлечение в эксплуатацию минерально-сырьевых ресурсов, которое в свою очередь отражается на состоянии окружающей среды. Тысячи новых химических соединений с токсичными свойствами синтезированы в настоящее время и сотни ежегодно добавляются, многие природные элементы, извлеченные из недр и обогащенные в технологических циклах, приобретают токсичные свойства в природных средах. Токсичные элементы и вещества - самый опасный вид загрязнения окружающей среды с еще до конца не исследованными отдаленными последствиями для живых систем и человека. В сущности, проблема рационального природопользования есть проблема поиска компромисса между человеком и природой, между необходимостью использования природного богатства и одновременно сохранить их для жизни следующих поколений. В связи с этим крайне важно учитывать экологические последствия промышленного развития. Ниже перечислены основные цели и задачи очистки от загрязнений:

- Минимизация негативного воздействия производств на окружающую среду.
- Рациональное использование природных ресурсов
- Предотвращение загрязнения и мониторинг подземных вод.
- Переработка и утилизация промышленных отходов
- Переработка нефтяных шламов, использование очищенных от нефти грунтов
- Ликвидация шламовых амбаров

- Ликвидация загрязнений и восстановление естественного состояния почв
- Защита технологического оборудования
- Мероприятия, направленные на ликвидации аварийных ситуаций
- Разработка новых технологий очистки сбросов сточных вод
- Разработка, внедрение и функционирование системы экологического мониторинга
- Экологическое обучение и повышение квалификации сотрудников природоохранных служб и персонала предприятия

Методические основы рекультивации нефтезагрязненых земель

Суть рекультивационных работ состоит в ускорении естественных процессов самоочищения почв, максимальной мобилизации внутренних ресурсов экосистем на восстановление своих первоначальных функций при помощи таких мероприятий, как рыхлые почвы, создание искусственного микрорельефа, внесение торфа, извести, минеральных удобрений, нефтеокисляющих микроорганизмов, высев трав-мелиораторов.

Технологические решения по рекультивации загрязненных нефтью земель принимаются на основе результатов инвентаризации загрязненных участков. При выборе технологии обязателен учет следующих факторов: вид загрязнения; давность разлива; степень загрязнения участка; вид биотопа; особенности ландшафта, почвенно-растительного покрова; обводненность биотопа; облесенность участка; несущая способность нефтезагрязненного грунта; наличие инженерных коммуникаций.

Обследование участков с отбором образцов на комплексный химический анализ, маркшейдерской съемкой проводится осенью предшествующего рекультивации года, весной проводится осмотр участков, отбор образцов почвы для учета произошедших изменений и корректировки плана проведения работ. Данные работы могут быть объединены в подготовительный этап.

В соответствии с восстановлением нефтезагрязненных земель проектов предусматривается проведение технического и биологического этапов рекультивации.

Разработка проектов рекультивации нарушенных земель проводится с учетом следующих факторов:

-природные условия района;

-расположение нарушенного (нарушаемого) участка;

-перспективы развития района разработок;

-фактическое или прогнозируемое состояния нарушенных земель к моменту рекультивации;

-показатели химического и гранулометрического состава, агрохимических и агрофизических свойств, инженерно-геологической характеристики вскрышных и вмещающих пород и их смесей в отвалах в соответствии с требованиями;

-хозяйственные, социально-экономические и санитарно-гигиенические условия района размещения нарушенных земель;

-сроки использования рекультивированных земель с учетом повторных нарушений;

-охрана окружающей среды от загрязнения ее пылью, газовыми выбросами и сточными водами в соответствии с установленными нормами ПДВ и ПДК.

Выбор направлений рекультивации определяется в соответствии с требованиями и осуществляется в два этапа: технический этап и биологический этап.

Выводы

С помощью некоторых исследований было показано на наглядном примере воздействие нефтяного загрязнения на экосистему и меры ликвидации возможного загрязнения, его экономическую эффективность и качественную эффективность восстановления после нефтяного загрязнения.

## Список литературы:

1. Гусейнов Р. Россия-Азербайджан: конъюнктура мировой политики и национальные интересы на долгосрочную перспективу / Гусейнов Р. // Информационно-аналитический сборник. Москва. 6 февраля 2008 г.
2. Годовые отчеты ГНКАР за 2010-2017гг.
3. WWW. SOCAR,AZ

4. www.nglib.ru
5. Сафаров Г.А. Эффективность использования основных фондов в нефтегазодобыче, Баку 2014
6. Алиев Т.Н., Ахмедов Б.А. Совершенствование системы управления нефтеперерабатывающими предприятиями в условиях перехода к рыночным отношениям. Баку, Элм, 1999, 99с.
7. Əhmədov B.Ə. Azərbaycanda neft emalı sənayesinin inkişaf problemləri. Bakı, Elm, 2003
8. Нужина И. П. Оценка эффективности инвестиционного проекта как инструмент эколого-экономического регулирования инвестиционно-строительной деятельности в регионе // Региональная экономика: теория и практика.
9. http://www.1news.az
10. www.bankreferatov.na.

KƏMALƏ XƏLIL QIZI YUSIFOVA
Azərbaycan DillərUniversiteti

# AZƏRBAYCANIN MÜASIR BEYNƏLXALQ VƏZIYYƏTI

Açar sözlər: beynəlxalq münasibətlər, xarici siyasət, beynəlxalq vəziyyət, dünya iqtisadiyyatı

XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər bütün dövlətlərə təsirini göstərmişdir. Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə etdikdən sonra müstəqil xarici siyasət həyata keçirməyə başlamışdır. Həyata keçirilən bu siyasət dövlətçiliyi möhkəmləndirməyə və milli mənafeləri qorumağa yönəlmişdir. Azərbaycan öz xarici siyasətini dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri, həmçinin, beynəlxalq hüquqi normalar əsasında qurmuşdur.

Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir [1].

1998-ci ildə isə 32 dövlət və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərindən biridir. "Böyük İpək yolu"nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı və çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradır.

1994-cü ildən başlayaraq Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə əlaqələrinin inkişafını genişləndirmişdir.

Azərbaycan Respublikası bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı (BMT, 1992-ci il), İslam Konfransı Təşkilatı (İKT, 1991-ci il), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT, 1992-ci il), Müstəqil Dövlətlər Birliyi (MDB, 1993-cü il), NATO (1994-cü il), Avropa Şurası (AŞ, 2001-ci il), Avropa Birliyi (hal-hazırda Avropa İttifaqı, 2001-ci il) və çoxlu sayda digər təşkilatlara üzv olub. Azərbaycan həmçinin, GUAM (1997-ci il) regional qrupunun təsisçilərindən biridir. Bütün bu təşkilatlarda iştirakı ilə Azərbaycan daima öz milli maraqlarını gerçəkləşdirir.

Hal-hazırda Azərbaycan beynəlxalq münasibətlər sistemində transmilli layihələrin reallaşdırılmasına, əməkdaşlıq əlaqələrinin qurulmasına və Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən güc kimi qəbul edilməkdədir.

Azərbaycan xarici dövlətlərlə siyasi, iqtisadi, mədəni və s. əlaqələrə xüsusi əhəmiyyət verir. ABŞ, Rusiya, Avropa İttifaqı və İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. Latın Amerikası, Asiya və Afrika ölkələri ilə də səmərəli əməkdaşlıq əlaqələri qurulub.

Azərbaycanın Şərq və Qərb mədəniyyətlərinin qovşağında yerləşməsi dinlərarası dialoqda iştirak imkanına, vahid dünya mədəniyyətinin formalaşdırılmasındakı fəaliyyətinə və sairə şərait yaradır. Bu mövqe də Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz siyasətinin həyata keçirilməsində əhəmiyyətini artırır.

Azərbaycan qabaqcıl dünya dövlətləri ilə müqayisədə potensialına görə orta dərəcəli dövlətdir. Azərbaycanın geosiyasi əhəmiyyətini artıran, milli maraqlarının təminatında əsas vasitələrdən biri beynəlxalq aləmdə neft amili ilə bağlıdır. Xəzərin 200-dən artıq neft strukturunun 145-i Azərbaycan sektorunda yerləşir.

Azərbaycan dünya enerji bazarında aparıcı qüvvədir. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllində Avropa ilə bu istiqamətdə tərəfdaş kimi işləyir, fəaliyyət göstərir.

Azərbaycanın bu günkü beynəlxalq vəziyyəti xarici siyasət sahəsində hər hansı bir qütbə və yaxud istiqamətə açıq nümayiş etdirilən üstünlük

verilməsini miimkünsüzləşdirir, balanslaşdırıcı və tarazlaşdırıcı siyasi kurs seçilməsini şərtləndirir. Çünki XX əsrin sonunda beynəlxalq aləmdə yaranmış geostrateji maraqların kəskin rəqabəti, iqtisadi və hərbi-siyasi durum yenicə suverenlik əldə etmiş, hələ nisbətən zəif olan ölkələrin müstəqil xarici siyasət yeritməsi sahəsində çoxsaylı problemlər ortaya çıxarır. Dünyada öz ənənəvi təsir dairələri olan fövqəldövlətlər və dövlətlər birliyi yeni müstəqillik əldə etmiş ölkələrin inkişaf modeli seçməsi, beynəlxalq aləmdə siyasi oriyentasiyasını müəyyənləşdirməsi məsələsində yüksək həssaslıq nümayiş etdirirlər. Bu, bir tərəfdən, gənc dövlətlərin xarici siyasət strategiyasının formalaşması qarşısında xeyli çətinlik yaratsa da, digər tərəfdən onların müstəqil xarici siyasət yeritməsi üçün əlverişli manevr imkanları açır [2].

Bu gün Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə qoşulması ölkənin sosial-iqtisadi, siyasi və təhlükəsizlik məsələlərinin tənzimlənməsində xarici siyasətin rolu kəskin şəkildə yüksələrək həlledici əhəmiyyət kəsb etmişdir.

Ədəbiyyat siyahısı::

1. http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
2. https://interaztv.com/politics/13272

QASIM ƏHƏD OĞLU HACIYEV
AMEA,Qafqazşünaslıq İnstitutu

## HEYDƏR ƏLIYEVIN DAĞLIQ QARABAĞA ERMƏNI IDDIALARINA QARŞI MÜBARIZƏSI

Açar sözlər: Azərbaycan, Ümumilli lider Heydər Əliyev, Cənubi Qafqaza, Yuxarı (Dağlıq) Qarabağ

Azərbaycanın müasir tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Tarixi bilik və zəngin məlumatlara malik olduğu üçün Azərbaycan ərazilərinin zaman-zaman parçalanmasına, işğal edilməsinə qarşı barışmaz mövqe tutmuşdur. Tarixən - XIX əsrdə Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülmüş, XX əsrin əvvəllərində Azərbaycan ərazisində ilk dövlət yaratmış ermənilər öz siyasətini anti-türk, anti-azərbaycan ruhunda qurmuşlar.

Erməni millətçiləri Azərbaycanın Yuxarı (Dağlıq) Qarabağ regionu ilə bağlı vaxtaşırı ərazi iddiaları irəli sürmüş, bu iddiaların həyata keçməsi üçün hər cür vasitədən istifadə etmişlər.

Ulu öndər Heydər Əliyev vaxtilə - XX əsrin 60-70-ci illərində yüksək rəhbər vəzifələrdə olarkən Azərbaycan ərazisinə yeni qəsdin - ermənilərin DQMV-nin Ermənistana birləşdirilməsi məqsədi daşıyan gizli fəaliyyətlərinin qarşısını almış, onların separatçılığına son qoymuşdur.

Heydər Əliyev Moskvaya SSRİ-nin ali rəhbərliyinə gedəndən sonra böyük dövlətlərin əlində oyuncaq olan Ermənistanda Azərbaycana qarşı əsassız ərazi iddiası yenidən baş qaldırmışdır.

Heydər Əliyev 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycana təzyiqlər güclənmiş, erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək üçün əsassız qərarlar qəbul etmişlər.

Ermənistan hərbi qüvvələri 1991-ci ildən Azərbaycana təcavüz etmiş, 1992-ci ildə münaqişə dərinləşərək müharibəyə çevrilmişdir. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dərinləşdiyi, Azərbaycanın parçalanmağa, dövlət müstəqilliyini itirməyə doğru getdiyi bir vaxtda – 1993-cü ilin yayında xalq öz böyük oğlu Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etmişdir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələ başlanmışdır. Ümumilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Qarabağ müharibəsinin dayanmasına, atəşkəs müqaviləsinin bağlanmasına, Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionuna iddialarına qarşı yönəlmiş siyasi xəttin və diplomatik fəaliyyətin uğurla davam etməsinə səbəb olmuşdur.

Ulu öndər Heydər Əliyev Ermənistanın Azərbaycana təcavüzünə bəraət qazandırmaq cəhdlərinə qarşı ciddi siyasi mübarizəyə başlamışdır.

Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini tapmamasının səbəbi Ermənistan Respublikasının qeyri-konstruktiv mövqe tutması, bəzi beynəlxalq təşkilatların və böyük dövlətlərin laqeyd münasibət göstərməsidir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu siyasətlə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan əraziləri azad ediləcək, Respublikamızın ərazi bütövlüyü bərpa olunacaqdır.

Ədəbiyyat siyahısı:

1. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: qeydlər / H. Ə. Əliyev; bur. məsul R. Ə.Mehdiyev
46-cı kitab. - Bakı: Azərnəşr, 2013.- 496 s.
2. Əliyev, Heydər Əlirza oğlu. Müstəqillik yollarında / H. Ə. Əliyev; bur. məsul F. Abdullazadə
I cild. - Bakı: Azərbaycan, 1997.- 558 s.
3. Hacıyev Q.Ə. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı, Təknur, 2014, 266 s.
4. Hüseynova, İradə Mehdiqulu qızı. Müstəqil Azərbaycan dövlətinin qurucusu: monoqrafiya /İ. M. Hüseynova; elmi red. Ə. M. Həsənov.- B.: Təhsil, 2004.- 472 s.
5. Qasımlı, Musa. Heydər Əliyev - istiqlala gedən yol: 1969-1987-ci illər / M. Qasımlı; elmi red. Ə. Həsənov.- B.: Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s.
6. Mehdiyev, Ramiz. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr I cild: İyun 1971 – iyun 2001 /red. A. Aslanov, V. Musayev.- B.: XXI-YNE, 2006.- 624 s.

ЛАЛА ХАФИЗ КЫЗЫ ГАСИЛОВА
Бакинский Славянский Университет

# ЛИНГВОКУЛЬТУРОЛОГИЯ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

Ключевые слова: лингвокультурология, афоризмы, традиции, обычаи, описание быта, народные выражения

Прежде чем приступить к изложению основной темы, хотелось бы отметить тот факт, что конференция посвящена актуальным проблемам международных отношений. И важно то, что наш Общенациональный лидер Гейдар Алиев внес неоценимый вклад в развитие и укрепление международных отношений Азербайджана и со многими государствами, в частности, в развитие культурных и гуманитарных связей.

В данном случае мы остановимся на некоторых этапах деятельности Гейдара Алиева в области гуманитарных отношений Азербайджана с Россией и отношений Азербайджана с арабскими государствами.

«Связи, которые существовали между Азербайджаном и Москвой, между Азербайджаном и Россией, не прервались, и они не могут прерваться и не должны прерваться никогда. Это - связи человеческие, это – связи научные, это – связи культурные между отдельными индивидуумами и вместе с тем между научными, культурными учреждениями, между предприятиями, между организациями. Все это является большой необходимостью и для Азербайджана, и для Москвы, и для России» (https://lib.aliyev-heritage.org/ru/9041516.html ). В ходе переговоров глав обеих государств был особо отмечен существенный прогресс по всем спектрам взаимовыгодного сотрудничества, в том числе и в области культуры, образования и науки. Среди факторов, способствующих укреплению азербайджано-российских взаимоотношений в гуманитарной сфере, важным является и образование и деятельность как центральных, так и региональных организаций почти двухмиллионной азербайджанской

диаспоры в России. Выступая с большой речью на учредительном собрании Всероссийского конгресса азербайджанцев в Москве, состоявшемся в двадцатых числах июня 2ООО года, Президент Азербайджана Г. А. Алиев особо подчеркивал, что « мы не должны разделять сейчас азербайджанцев, что это гражданин России, это не гражданин России – все азербайджанцы. Граждане России – азербайджанцы имеют больше возможностей, они могут пользоваться соответствующими государственными структурами России – и это для поддержания азербайджанских общин, и для защиты интересов тех азербайджанцев, которые не имеют российского гражданства». С целью сохранения языка и повышения образовательного уровня азербайджанцев, проживающих в России, реализуется комплекс проектов и мероприятий по созданию совместных российско-азербайджанских образовательных учреждений, открытию в Москве и регионах России новых общеобразовательных средних школ с углубленным изучением языка, истории, литературы, культуры Азербайджана, расширению сети воскресных школ, а также обеспечению социально-правовой защиты студентов-азербайджанцев, обучающихся в российских вузах.

Важным аспектом в российско-азербайджанских отношениях на современном этапе являются культурные взаимосвязи, имеющие достаточно глубокие исторические корни. Начиная с середины Х1Х века, передовые представители азербайджанской и российской интеллигенции – М.Ф.Ахундов, А. Бакиханов, Г. Зардаби, С.А. Ширвани, А.С.Пушкин, М.Ю.Лермонтов, А.Бестужев-Марлинский, Я.Полонский и многие другие сообща укрепляли дружественные связи, вписали яркие страницы в историю азербайджано-российских взаимоотношений. Эти традиции были продолжены и в ХХ веке в лице М.Горького, С.Есенина, В.Маяковского, Н.Тихонова, С.Вургуна, Расул Рзы, Т.Салахова, К.Караева, М.Растроповича и многих других видных представителей творческой интеллигенции обеих стран. Также следует указать, что между азербайджанским и русским народами существуют многовековые взаимные добрососедские отношения, а также семидесятилетние общегосударственные традиции советского периода, в результате чего появились образцы

народного творчества, близкие фольклору обоих народов, среди которых особое место отводится пословицам, поговоркам и афоризмам.

Что касается области языкознания, в частности, сопоставительного и сравнительного анализа языковых процессов нескольких языков, следует отметить, что, несмотря на то что до сегодняшнего дня написано большое количество произведений об азербайджано-арабских и азербайджано-русских литературных связях, комплексный анализ образцов фольклора этих народов, стилистические особенности и культурологические основы этих языков в данном направлении именно в таком сопоставлении изучены не были. С этой позиции тема «Лингвокультурологические основы пословиц, поговорок и афоризмов в азербайджанском, арабском и русском языках» исследуются впервые. Основной целью исследования является выявление лингво-культурологической основы пословиц, поговорок и афоризмов, в которых отражены многовековая история, культура, общественные, социальные и научные связи между азербайджанским, арабским и русским народами, выявление их общих и отличительных сторон. Народные выражения, закрепленные в литературе, в которых нашли широкое отражение социально-воспитательные, морально-этические, культурно-исторические и культурологические аспекты жизни и быта, постоянно исследуются филологами, языковедами, анализируются их художественные и грамматические особенности. Поэты и писатели умело использовали пословицы, поговорки и афоризмы в сюжетах своих произведений, используя их тематически, которые на протяжении длительного исторического отрезка времени постепенно и прочно вошли в письменную литературу.

Пословицы, поговорки и афоризмы играют неоценимую роль в вопросе изучения общественных отношений, которые сложились между различными слоями общества, в определении отношений между разными народами, в анализе философского мышления, в изучении образа жизни народов разных национальностей, живущих на определенных

LAMIYƏ HƏSƏN QIZI QASIMOVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN – TÜRKIYƏ MÜNASIBƏTLƏRI MÜASIR MƏRHƏLƏDƏ

Açar sözlər: Azərbaycan, Türkiyə, strateji tərəfdaşlıq, İlham Əliyev

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Heydər Əliyevin "Biz bir millət iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi qəbul edilməkdədir.

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra noyabrın 9-da onu ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti oldu [Qasımlı, 2015, 427].

8-10 fevral 1994-cü il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri ilə münasibətlər yeni mərhələyə qədəm qoydu. Heydər Əliyev Türkiyə–Azərbaycan münasibətləri haqqında "Bir millət, iki dövlət" şüarını ilk dəfə bu səfərdə Ankarada "Çankaya" köşkündə "...Biz iki ölkəyik, ancaq bir xalqıq" şəklində bəyan etmişdi [Məqalələr toplusu, 2017, 114].

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" nin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin yeni səviyyəyə qalxmasında mühüm rol oynadı. Bu müqavilə iki dövlət arasında strateji tərəfdaşlığı şərtləndirən yeni amillərin təməlini qoydu.

2003-cü il oktyabrın 31-də prezident seçilməsi münasibətilə "Gülüstan" sarayında keçirilən rəsmi qəbulda İlham Əliyev Türkiyə – Azərbaycan münasibətləri haqqında "Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır" fikrini ifadə edərək iki dövlət arasındakı münasibətlərin gələcək istiqamətini göstərmişdir [Məqalələr toplusu, 2017, 120].

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan limanında Şərq – Qərb enerji dəhlizinin mühüm qolunu təşkil edən və ulu öndər Heydər Əliyevin adını

daşıyan Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Bakı – Tbilisi – Ceyhan və Bakı – Tbilisi –Ərzurum kəmərlərinin uğurla gerçəkləşməsindən sonra Azərbaycan Türkiyəyə sərmayə qoyan ölkəyə çevrildi. Bu gün Azərbaycanın Türkiyədəki sərmayəsi 10 milyard dollardır və 2020-ci ildə bunun 20 milyard dollara qədər yüksəldilməsi planlaşdırılır [3].

Türkiyə – Ermənistan münasibətlərinin normallaşdırılmasına dair tərəflər arasında iki protokol –2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu və Ermənistanın xarici işlər naziri Eduard Nalbandyan tərəfindən imzalandı. Protokolların imzalanmasından bir gün əvvəl, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına (AzTV) müsahibəsində "Sərhədlər Kəlbəcərin işğalından sonra bağlanmışdır. Yalnız Kəlbəcər azad olunduqdan sonra açılmalıdır" açıqlamasını verərək rəsmi səviyyədə Azərbaycanın mövqeyini bildirmişdi [Məqalələr toplusu, 2017, 136].

Protokollar Türkiyə parlamentində ratifikasiya edilmədi. Şərt qoyuldu ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər Türkiyə - Ermənistan sərhədləri açılmayacaq.

"Protokol böhranı"nın yaşanması Azərbaycan – Türkiyə münasibətlərinə bir neçə cəhətdən müsbət təsir göstərdi. Birincisi, Türkiyə Azərbaycanın strateji dəyərinin təkrar gündəmə gəlməsinə fürsət yaratdı, ikincisi, Türkiyə və dünya Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində Azərbaycanın qəti mövqeyini bir daha anladı, üçüncüsü, Azərbaycan–Türkiyə münasibətlərindəki boşluqlar və zəif bəndlər aradan qaldırıldı.

Türkiyə ilə Azərbaycan arasında gələcəyi əhatə edən və ikitərəfli münasibətlərdə atılan ən mühüm addımlardan biri də 2010-cu il sentyabrın 15-də "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə"nin imzalanması oldu. Bəyannamənin 2-ci maddəsinə görə tərəflərdən biri hücüma məruz qalarsa, yardım qüvvələri dövrəyə girəcəkdi [Məqalələr toplusu, 2017, 123-124].

Növbəti mühüm addımlardan biri "Əsrin müqaviləsi"nin 20-ci ildönümünün qeyd edildiyi ərəfədə, 2014-cü il sentyabrın 20-də "Cənub"

qaz dəhlizinin təməlinin qoyulması oldu. Bu nəhəng transmilli layihənin icrasında ölkəmiz öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirdi [3].

2014-cü il aprelin 24-də Praqada "Şərq tərəfdaşlığı" proqramının sammitdə Ermənistan prezidenti Serj Sarkisyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr etdi. O, Türkiyə tərəfini Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə çıxış edərək Ermənistan prezidentinin burada fürsətdən istifadə edərək Türkiyəyə hücum etdiyini bildirdi: "Bilirsiniz ki, Türkiyə burada təmsil olunmur, istifadə edirsiniz. Amma mən buradayam, sizə cavab verirəm!" [4].

Azərbaycan Türkiyənin terrorizmə və separatizmə qarşı mübarizəsinə də dəstək verir. YSSƏŞ-nın beşinci iclası 2016-cı ildə Azərbaycanda keçirilməli idi. Lakin Türkiyədə baş verən terror hücumları nəticəsində Prezident Ərdoğanın Azərbaycana səfəri iki dəfə ləğv olundu. Nəticədə terrora qarşı mübarizədə Türkiyənin yanında olduğunu nümayış etdirmək məqsədilə Prezident İlham Əliyev Ankaraya səfər etdi və beləliklə, şuranın beşinci iclası Türkiyədə keçirildi.

Bundan başqa, Türkiyənin gələcəyi üçün dönüş nöqtəsi olan 2016-cı il 15 İyul müvəffəqiyyətsiz hərbi çevriliş cəhdinə qarşı ilk reaksiya verən ölkələrdən biri Azərbaycan olmuş, Azərbaycan Türkiyə hökumətini dəstəkləmişdi.

2018-ci ilin yanvar ayında Türkiyə Silahlı Qüvvələrinin PKK-nın Suriyadakı qolu PYD/YPG-yə qarşı uğurlu əməliyyatı Azərbaycan tərəfindən dəstəkləndi, Bakıda Afrin əməliyyatına dəstək yığıncaqları keçirildi.

Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə paytaxtda keçirilən paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirakı əlaqələrimizin tarixində mühüm hadisə oldu.

Ümumiyyətlə, əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında şəxsi dostluğun da böyük təsiri olmuşdur. İki lider birinə "qardaşım " deyə xitab edirlər. Beynəlxalq əlaqələrdə liderlərin dostluqları dövlətlər arası əlaqələrdə çox əhəmiyyətli təsirinin olduğu məlumdur.

Azərbaycan və Türkiyə bunun müsbət təsirini Prezidenti Heydər Əliyev və Süleyman Dəmirəl dövründə də yaşamışdı.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Poliart, 2017, 904 s.

2. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı: Mütərcim, 2015, 648 s.

3. Prezident İlham Əliyev: "Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına qoyulan sərmayə 20 milyard dollara çatacaq"//https://report.az/region/prezident-i-lham-eliyev-azerbaycan-terefinden-turkiye-iqtisadiyyatina-qoyulan-sermaye-20-milyard-dollara-catacaq/

4. "Mən buradayam, sizə cavab verirəm"- Əliyevdən Sarkisyana// http://qafqazinfo.az/news/detail/men-buradayam-size-cavab-verirem-eliyevden-sarkisyana-75451

LƏTAFƏT ƏLƏSGƏR QIZI HÜMMƏTOVA
Azərbaycan Dövlət İqtisad Universiteti

# MULTIKULTURALIZM VƏ KOMMUNIKASIYA

Açar sözlər: kommunikasiya, multikulturalizm, müxtəliflik, varislik

Yaşadığımız postindustrial cəmiyyətin reallığı ondan ibarətdir ki, bu gün hər bir ölkənin və bəşəriyyətin mütərəqqi inkişafının əsasını insanın özü, onun mənəvi mövqeyi, mədəniyyəti təşkil edir. Şəxsiyətin, onun maraq və hüquqlarının, onun üçün məqbul həyat tərzini sərbəst seçim etmək imkanının birinci dərəcəli əhəmiyyətə malik olduğu bir şəraitdə hər hansı sosial qrupun mədəniyyətinin digər mədəniyyətlərlə qarşılıqlı təsirlərə açıqlığı mühüm əhəmiyyət kəsb edir. Bu zaman mədəniyyətləroin qarşılıqlı nüfuz etməsi, qarşılıqlı zənignləşməsi baş verir ki, bu hadisəni də multimədəniyyət adlandırmaq olar.

Sosial razılıq, insan hüquqları, konsensus və s. kimi geniş müzakirə olunan problemlərlə bağlı konstruktiv fikirlər irəli sürən məşhur alman filosofu Y.Habermas hesab edir ki, bu gün assimilyasiya siyasətinin yeganə alternativi multikultural cəmiyyətdir. Y.Habermasın şərhində multikulturalizm "inteqrativ ideologiyanın xüsusi formasıdır. Onun vasitəsilə polimədəni etnik birliklər mədəni həyatın müxtəlif formalarının bərabərhüquqlu birgəmövcudluğu prinsipləri üzrə sosial razılıq və stabillik strategiyalarını həyata keçirir" [Хабермас,2001,s.417]. Y.Habermasın fikirlərinə görə, müasir multimədəni cəmiyyətdə birləşdirici rolu kommunikasiya yerinə yetirməlidir. Y.Habermasın "kommunikasiya" anlayışında rasionallıq, etika və azadlıq bir araya gətirilmişdir. Kommunikasiya insanların bir-birini tanımasını nəzərdə tutur və heç bir xarici nüfuzu tələb etmir. Mədəni varislik, sosial inteqrasiya və tərbiyə məsələləri ilə bağlı olan sferalar, "həyat aləmi" (bu fenomenoloji anlayışdan Y.Habermas geniş istifadə edir) başqa meyarlara – kommunikativ rasionallıq meyarlarına əsaslanır. Kommunikativ rasionallığı fərqləndirən belə deyək, onun təyinidir: insan və cəmiyyətin inkişafında mənəvi oriyentir kimi xidmət göstərə bilən mədəni mənaların

işlənməsi və onların həyata keçirilməsinin daha optimal vasitələrinin axtarıb tapılması [Хабермас, 2003, s. 38, 45].

Etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət olan multikulturalizmin mahiyyəti də milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaratmaqdan və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan təklif etməkdən ibarətdir.

Deyilənlər müxtəlif mədəni qrupların bütün maraqlarını təmsil etməli olan dövlətin də əsas vəzifəsi şərtləndirir ki, bu da bu konsensusu təyin etməkdən ibarətdir. Başqa sözlə, multikulturalizm titul etnosla milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafı üçün eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradan rəngarənglikdə vəhdət doktrinasıdır. Burada qeyd etmək yerinə düşər ki, dövlətimiz multikulturalizm siyasəti cəmiyyətimizdə müxtəlif mədəniyyətlərin mövcudluğu, coğrafi məkanımızla, multikulturalizmin ən yaxşı modeli olan ölkəmizin inkişafının tarixi reallıqları və müasir Azərbaycanın davamlı inkişaf tələbatları ilə şərtlənmişdir.

Ədəbiyyat siyahısı:

1. Хабермас Ю. Философский дискурс о модерне. М., 2003.
2. Хабермас Ю. Вовлечение другого. Очерки политической теории. СПб. 2001.

LEYLA ŞAHHÜSEYNBƏYOVA
Azərbaycan Dillər Universiteti

# ENERJI VƏ NƏQLIYYAT SAHƏSINDƏ AZƏRBAYCAN – GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI

Açar sözlər: Cənubi Qafqaz, müqavilə, xarici siyasət, əlaqələr, enerji, strateji partnyorluq

Azərbaycan ilə Gürcüstan arasında diplomatik əlaqələr 18 noyabr 1992-ci ildə quruldu. Bakıda 1995-ci il fevral ayında Gürcüstanın, Tbilisidə isə 1996-cı ilin mart ayında Azərbaycan səfirlikləri açılmışdı. Hər iki ölkə arasında diplomatik əlaqələrin qurulması münasibətlərin keyfiyyət baxımından genişlənməsi və inkişafı üçün yeni mərhələnin başlanğıcı hesab olunur.

Azərbaycanın Gürcüstan ərazisindən keçməklə reallaşdırdığı strateji enerji-nəqliyyat layihəsi Bakı – Tbilisi – Ceyhan neft kəməridir. Qeyd edək ki, bu layihənin istiqamətinin müəyyənləşməsi kəskin geoiqtisadi və geosiyasi rəqabət şəklində müəyyənləşdi. 1998-ci ilin oktyabrında Türkiyə Cümhuriyyətinin yaradılmasının 75 illiyinə həsr olunmuş mərasimdə Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentlərinin eləcə də ABŞ energetika nazirinin iştirakı ilə əsas ixrac kəmərinin – Bakı – Tbilisi – Ceyhan istiqamətində çəkilməsinə tərəfdar olan 6 maddədən ibarət "Ankara bəyannaməsi"ni imzaladılar. Uzun sürən gərgin geoiqtisadi, geosiyasi mübarizənin sonunda, nəhayət 1999-cu il oktyabrın 18-də ATƏT-in İstanbul Zirvə Toplantısında 1990-ci illərin əvvəllərindən danışıqlar aparılan əsas ixrac kəməri – BTC-nin reallaşması haqqında Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında saziş imzalandı. Bundan sonra mühüm məsələlərdən biri də tranzit tariflərinin müəyyənləşdirilməsi idi. Əsaas ixrac kəməri ətrafında danışıqlar gedişində Səngəçal terminalından Ceyhan limanına 1 barel neftin ümumilikdə daşınması 2,58 dollara razılaşdırılmışdır. Bunun 1,49 dolları Türkiyənin, 0,17 senti Gürcüstanın qalan hissəsi isə Azərbaycanın payına düşürdü. Xatırladaq ki, Bakı – Supsa xəttində də Gürcüstan eyni tarifi alırdı. Tranzit tarifləri əsasən kəmərin ölkə ərazisində keçmə məsafəsinə görə müəyyən

edilir ki, sözügedən kəmər də ən qısa məsafədə Gürcüstan ərazisindən (249 km) keçirdi. Buna adekvat olaraq Gürcüstan Türkiyə və Azərbaycan ilə müqayisədə daha az tranzit haqqı almalı idi. Amma Gürcüstan tərəfi Borjomi dərəsinin çirklənəcəyi problemini qaldırmaqla daha çox vəsait əldə etmək istəyirdi. Azərbaycan tərəfi güzəştə gedərək tranzit daşımalardan öz payına düşən 52,5 milyon dolları da Gürcüstana güzəştə getdi. 18 sentyabr 2002-ci il tarixində Səngəçal terminalında Azərbaycan prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şvarnadze və Türkiyə prezidenti Əhməd Nejdət Sezərin iştirakı ilə BTC-nin Azərbaycan hissəsinin rəsmi təməlqoyma mərasimi keçirildi. Neft kəmərin Gürcüstan hissəsinə 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə 2005-ci il noyabrın 18-də daxil olmuş, Ceyhan terminalına 2006-cı il mayın 28-də çatmışdır. 28 may 2006-cı ildə Ceyhan limanına çatan Azərbaycan nefti buradan "Britiş Hosorn" adlı tankerə yüklənərək 4 iyun 2006-cı il, Bakı vaxtı ilə saat 14:15-də yola salınmışdır. Gürcüstan həm tranzit daşımalardan həm də enerji təhlükəsizliyinin təmini baxımından böyük dvidentlər əldə etmiş oldu.

Reallaşan enerji əməkdaşlığı layihələri Azərbaycan – Gürcüstan əlaqələrinin inkişafında mühüm rol oynayır. Atılan uğurlu addımlar hər iki ölkənin Avroatlantika məkanına inteqrasiyasını daha da yaxınlaşdırır ki, bu da regionda stabilliyin və demokratik quruculuğun inkişafına tövhə verir.

Ədəbiyyat siyahısı:

1. http://mfa.gov.az/files/file/Azerbaycan-Gurcustan munasibetleri.pdf
2. Məmmədov N. .E. Müasir Türkiyənin neft problemi. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2006, 158 s.
3. «Xalq qəzeti», 2006, 16 iyul.

LEYLA İNTIQAM QIZI TAĞIYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti

# AZƏRBAYCANIN BEYNƏLXALQ IQTISADI ƏLAQƏLƏRININ INKIŞAFINDA PAMBIQÇILIĞIN ROLU

Açar sözlər: pambıqçılıq kompleksi, istehsal, inkişaf, sənaye, gəlir

Pambıqçılıq kompleksinin əhəmiyyəti müxtəlif ölkələrin iqtisadiyyatı üçün bir-birinə bağlıdır və uğurlu inkişafa təsir etməsi göstəricisinə görə üstünlük təşkil edir. İlk növbədə istehsal və xidmət sahələrinin inkişafını şərtləndirir və ölkədə çoxlu iş yerlərinin açılmasını stimullaşdırır. Digər əhəmiyyətli üstünlüyü çoxşaxəli istehsalın və əlaqədar sənaye sahələrinin inkişaf etdirilməsidir. Eyni zamanda, pambıq məhsullarının ixracı ölkənin valyuta ehtiyatlarının möhkəmlənməsində mühüm rol oynayır. Məhz bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2017-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022 – ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Dövlət Proqramının məqsədi ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsulları ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsindən və bu sahənin inkişafının stimullaşdırılmasından ibarətdir.

Kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən aqrar islahatlar, dövlət dəstəyinin əhəmiyyətli dərəcədə gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatında mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə, eləcə də bu sahəyə inamın artmasına, fəallığın yüksəlməsinə səbəb olub.

Pambıqçılıq əmək tutumlu sahədir. Pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaradılıb. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu

insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir.

Eyni zamanda, pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixracyönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. Pambıqtəmizləmə zavodları işləyərək, insanlar işlə təmin olunur.

"Pambıqçılığı inkişaf etdirmək üçün hansı işlər görülməlidir?" məsələsinə gəldikdə, qeyd edək ki, Azərbaycanda pambıqçılığın inkişaf etdirlməsi və dünya arenasına çıxış və dünya iqtisadi əlaqələrində iştirak etmək üçün ilk olaraq qlobal səmərəlilik baxımından pambıqçılıq işinin inkişaf etdirilməsinin səmərəliliyi qiymətləndirilməlidir. Bu, ilk növbədə respublikada pambıq istehsalının dünya pambıq bazarında rəqabət qabiliyyətinin təmin edilməsi baxımından zəruridir. Başqa ölkələrdə pambıqçılığın inkişaf istiqamətlərini öyrənmək, digər məsələlərlə yanaşı, qabaqcıl xarici təcrübələrdən istifadə etməklə sənayenin səmərəliliyini daha da yaxşılaşdırmağa imkan verəcəkdir. Bu baxımdan respublikada pambıq istehsalının səmərəliliyinin səviyyəsinin qiymətləndirilməsi pambığın istehsalını daha da artırmaq və pambıq məhsullarının xarici ticarət strategiyasını inkişaf etdirmək üçün rentabelliyi müəyyənləşdirməyə şərait yaradır.

ЛИЛИЯФИРУДИНКЫЗЫМИРЗАЗАДЕ
Институт Кавказоведения НАНА

# МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ В СТРАТЕГИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Ключевые слова: потенциал, концептуальная установка, менталитет, стратегическое видение Гейдара Алиева, международное сотрудничество

Концептуальная установка национальной безопасности Азербайджана гласит: «Несмотря на то, что Кавказский регион, в котором размещается наша республика, нестабилен, он обладает высоким ресурсным потенциалом и широкими возможностями для совместного, эффективного использования региональными и международными партнерами, нацеленными на дружбу и сотрудничество». [Концепция национальной безопасности Азербайджана, 2007] Стремление изменить ситуацию, превратить регион в процветающий, заложено в менталитете азербайджанской нации.

В 1993 г. во время своей инаугурации на пост главы Азербайджанской Республики Общенациональный лидер азербайджанского народа Гейдар Алиев сказал: «Наша задача состоит в том, чтобы строить и развивать со всеми государствами мира равноправные, взаимовыгодные отношения, эффективно использовать их для укрепления международных позиций нашей Республики… У нас миролюбивая внешняя политика, мы не ставим цели нарушать суверенитет, территориальную целостность какого-либо другого государства…». [Гейдар Алиев, 1993, 46-48] Только такой бескомпромиссный подход в обозрении Гейдаром Алиевым будущего, был способен создать условия для вхождения Азербайджана в мировое сообщество и его широкого признания на мировой арене как уважительного, государства, с которым можно иметь деловые взаимовыгодные отношения.

Под выстроенным стратегическим планом Гейдара Алиева внешнеполитический курс нового независимого Азербайджанского

государства приобретал четкие очертания: сохранение и укрепление национальной независимости; восстановление территориальной целостности; развитие равноправных взаимовыгодных отношений; установление дружественных связей со всеми странами мира.

28 мая 2017 г. по случаю Дня Республики президент Азербайджана Ильхам Алиев дал характеристику современной внешней политики страны: «Сегодня в мире нас знают и уважают.

Растет число стран, желающих сотрудничать с нами. В двустороннем формате у нас нет проблем ни с одной страной, кроме Армении. Мы выдвинули целый ряд трехсторонних форматов сотрудничества». [Мамедъяров, 2017, 19] В соответствии со стратегической линией Гейдара Алиева, с менталитетом азербайджанцев и Концепцией Национальной безопасности, внешняя политика Азербайджана в регионе и за его пределами проникнута духом добрососедства, взаимовыгодного сотрудничества и партнерства. Выступая в роли не «потребителя», а «производителя» и гаранта безопасности в регионе, не входя в военно-политические блоки, Азербайджан сформировал атмосферу «мягкой» безопасности и сегодня он воспринимается как достойный и надежный партнер. Его расширяющиеся связи со странами Латинской Америки, Африки и Юго-Восточной Азии служат наглядным показателем роста авторитета Азербайджана на международной арене. В ходе реализации намеченного внешнеполитического курса и Концепции национальной безопасности в 2017 г. Азербайджан поддерживал дипломатические отношения со 178 [Foreign relations of Azerbaijan, 2019] государствами (включая Палестину [Presidents of Azerbaijan and Palestine made statements for the press, 2019] и Ватикан ) и Европейским союзом. В сложном регионе, в условиях хаотичного миропорядка, в горниле политических, экономических, военных кризисов, Азербайджан проводит свою независимую внешнюю политику и вопреки всему добивается успешного обеспечения не только своей безопасности, но и региональной. Следует отметить, Азербайджан является активным участником многих глобальных и региональных проектов. Он – основной партнер Европейского союза на Кавказе. На него приходится 78 % торгового оборота ЕС со странами Южного

Кавказа. 12 июня 2019 г. в Азербайджане отметили первую годовщину запуска Транснатолийского газопровода (TANAR), ставшего главным этапом крупнейшего энергетического проекта в мировой истории по созданию Южного газового коридора (ЮГК). За этот год инициаторы и реализаторы проекта стали еще ближе к заветной цели – обеспечения диверсификации поставок газа в Европу. На сегодняшний день энергетическое сотрудничество – важнейший аспект экономических взаимоотношений между Азербайджаном и Старым Светом. [Гулиева, 2019, 30] Комиссар ЕС по вопросам расширения деловых связей и политики добрососедства Йоханнес Хан заявил, что сотрудничеству с Азербайджаном, Евросоюз уделяет особое внимание и считает страну основным стратегическим партнером в энергетической сфере. На встрече с президентом Ильхамом Алиевым Йоханнес Хан дал определение Азербайджану, как одной из ведущих стран – партнеров ЕС и отметил, что Брюссель уделяет особое внимание сотрудничеству с Баку во всех областях. [Гулиева, 2019, 31] Следует отметить, что наряду с нефтегазовым сектором, в Азербайджане развивается и ненефтяная сфера, которая в свою очередь, также является составляющей двусторонних взаимоотношений. И, поэтому поводу Й.Хан отметил, что «Брюссель уделяет особое внимание сотрудничеству с Азербайджаном во всех областях.

Международная атмосфера вокруг Азербайджана, его экономическое развитие и общественно-политическая ситуация внутри страны создает благоприятный климат для укрепления позиций Республики как равноправного и самодостаточного участника мировой политики. Соответственно растет стратегическая значимость Азербайджана и для стран Азии. К примеру, его отношения с Китаем по ряду перспективных экономических направлений, вышли на новый уровень расширения сотрудничества и соединились в едином проекте «Один пояс, один путь». Суть данной инициативы заключается в формировании транспортно-логической инфраструктуры и, одновременно, в развитии пояса на протяжении всего Великого шелкового пути. «Азербайджан, пользуясь своим географическим положением и, инвестируя в проект «Один пояс,

один путь», формирует мост между Азией и Европой», - сказал президент Азербайджанской Республики Ильхам Алиев. [Ахундов, 2019, 5]

Литература:

1. Foreign relations of Azerbaijan/https://en.org/Foreign_relations_of_Azerbaijan/ This page was last edited on 20 June 2019, at 20:02 (UTC)

2. Presidents of Azerbaijan and Palestine made statements for the press/ President of the Republic of Azerbaijan Ilham Aliyev/28 june 2011/https://en. president.az/articles/2550 (дата обращения: 20.06.2019)

3. Ахундов Х. Связанные «Одним поясом»/ Region plus. №9. 1.05.2019. Б.: CBS poligraphic production, c.5

4. Гулиева Н. Самое время. Азербайджан становится основным стратегическим партнером Евросоюза в энергетической сфере/Region plus. №12. 15.06.2019. Б.: CBS poligraphic production, c.30-31

5. Клятва на верность Родине, государству, народу. Речь Президента Азербайджанской Республики Гейдара Алиева на инаугурации 10 октября 1993 года. М.: типография № 5, с.46-48

6. Концепция национальной безопасности Азербайджанской Республики. 23 мая 2007 года. № 2198

7. Мамедъяров Э. Внешнеполитическая стратегия Азербайджана основана на национальных интересах и соответствует вызовам времени. Политика №5, 2017, с.19

MAHIR TAPDIQ OĞLU ABBASZADƏ
AMEA İqtisadiyyatİnstitutu

# HEYDƏR ƏLIYEV VƏ IQTISADI ARTIMA SÖYKƏNƏNƏN MILL INKIŞAF MODELI

Açar sözlər: iqtisadi artım, inkişaf modeli, iqtisadi inkişaf

Milli iqtisadi inkişaf modeli dedikdə, ölkədə həyata keçirilən iqtisadi dəyişikliklərin sosial proseslərlə səmərəli uyğunlaşması məntiqinin tam və bütöv ifadəsi kimi, cəmiyyətdəki mövcud dəyərlərin və ənənəvi xüsusiyyətlərin qorunub saxlanması şərti ilə qloballaşan dünyada baş verən iqtisadi yeniliklərə uyğun modernləşməsi başa düşülür. Bu baxımdan, onun düzgün müəyyən edilərək həyata keçirilməsi çoxşaxəli olmaqla, nəzərdə tutulmuş strateji istiqamətlərə uyğun şəkil-də aparılması zəruridir. Təbii ki, yetkin və bütöv iqtisadi inkişaf modeli haqqında mükəmməl fikirlər söyləmək ilk baxışdan çətin görünə bilər. Fikrimizcə, milli iqti-sadi inkişaf modeli və onun modernləşməsinin ana xətti strateji baxımdan işlənilsə də, onun taktiki baxımdan dünyada gedən qloballaşma prosesləri ilə bağlı daim təkmilləşdirilməsi və inkişaf etdirilməsi zəruridir.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da səmərəli bazar münasibətlərinin təşəkkülü və inkişafının əsas məqsədi – milli dirçəlişin, dayanıqlı inkişafın və sürətlə qloballaşan dünya dövlətlərinin iqtisadi inteqrasiyasına qovuşmanın tam təmin edilməsdir Bu gün ölkəmizdə müşahidə edilən sosial - iqtisadi inkişaf, nəticə etibarilə ölkə vətəndaşlarının həyat səviyyəsinin və yaşayış tərzinin yüksəldilməsinə yönəlməklə, liberallaşmanın sürətlənməsini və iqtisadi modernləşmənin mərhələli şəkildə aparılmasını təmin edir. Özünəməxsus xüsusiyyətlərə malik olan bu model – hər bir təsərrüfat subyekti, ölkə regionları və bütövlükdə dövlətimizin möhkəm və dayanıqlı inkişafını təmin edən məntiqlərə söykənərək, sivil bazar münasibətlərinə uyğun aparılan islahatların əsas parametrlərini özündə əks etdirir.

Azərbaycanın yeni iqtisadi inkişaf modelinin müəllifi və qurucusu isə, məhz ümummilli liderimiz Heydər Əliyevdir. "İqtisadiyyatı

güclü olan dövlət hər şeyə qadirdir!" fikrini söyləyən böyük öndər, gənc, müstəqil dövlətin ətrafında baş verən gərgin hərbi-siyasi vəziyyəti, həmçinin dünyada gedən qlobal meylləri düzgün dəyərləndirərək, ölkə iqtisadiyyatının bütün sahələrində quruculuq proseslərinə geniş start vermişdir.

2. Dünya təcrübəsindən məlumdur ki, hər bir dövlət başçısı ölkənin inkişaf tələblərini və xalqın mənafeyini dəqiqliklə qiymətləndirməyə qadir olan, ölkənin mədəni, iqtisadi və təbii resurslarını, potensialını əhalinin rifahı və dövlətçiliyin inkişafına yönəltməyi bacaran şəxs olmalıdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, tarix ona Heydər Əliyev kimi dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan rəhbər, ümummilli lider bəxş etmişdir.

Dahi Heydər Əliyevin müxtəlif vaxtlarda Azərbaycanımıza rəhbərlik etməyə başladığı bütün dövrlərin başlanğıcı iqtisadi tənəzzüllə xarakterizə edilsə də, məhz onun qəbul etdiyi son dərəcə dəqiq qərarlar, həyata keçirilən məqsədyönümlü islahatlar nəticəsində və qısa zaman ərzində tənəzzülü sürətli tərəqqi əvəz etmişdir...

Onu da unutmaq olmaz ki, Azərbaycanın xilaskar oğlu Heydər Əliyevin Azərbaycana rəhbərliyi bir-birindən ciddi surətdə fərqlənən iki müxtəlif sistemə - sosializm və demokratik cəmiyyət dövrünə təsadüf edir. Hər iki sistemdə ölkəyə uzun illər rəhbərlik edərək, istər sosializm, istərsə də bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasını böhrana düşmüş vəziyyətdə qəbul etmişdir. Eyni za-manda, hər iki sistemdə də tezliklə böhran aradan qaldırılmış və sürətli tərəqqiyə nail olunmuşdur. Təbii ki, ölkəyə uğur gətirən başlıca amilin ümummilli lider Heydər Əliyevin islahatçılıq məharəti və yüksək idarəçilik keyfiyyətləri olması danılmazdır [1, 2013, 3-4].

3. Bu gün ümummilli liderin iqtisadi strategiyasını uğurla davam etdirən və "Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir..." söyləyən cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan dövləti müstəqilliyin möhkəmləndirilməsi, ölkədə tarazlı və davamlı inkişafın təmin edilməsi

istiqamətində atdığı addımlar və əldə edilən iqtisadi uğurları ilə dünyanın aparıcı dövlətinə, eləcə də beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Artıq dünya birliyinə yaxından inteqrasiya olunan müstəqil Azərbaycan Respublikasında bütün proseslər xalqımızın milli mentalitetinə və dövlətçilik prinsiplərinə uyğun olaraq beynəlxalq birliyin, nüfuzlu beynəlxalq təşkilatların rəyləri nəzərə alınmaqla müasir dövrün tələbləri səviyyəsində qurulmaqdadır. Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr nəticəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə dünyanın sürətlə inkişaf edən ölkələri sırasındadır [Alıyev, 2013]

4. 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi aşağıdakı fikirlərə diqqət yetirək: "Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənmə-sində, ölkədaxili proseslərin inkişafında, multikultralizmlə bağlı bizim təcrübəmiz öyrənilir. Həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.

...Doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır. Nəzərə alsaq ki, biz bunu qeyri-neft sektorunun hesabına əldə etmişik, bu, çox böyük göstəricidir. Ümumiyyətlə, bu gün bölgədə gedən proseslər, qanlı toqquşmalar, iqtisadi tənəzzül, əlbəttə ki, istər-istəməz bizim iqtisadi inkişafımıza da mənfi təsir göstərir. Ondan əlavə, ilin əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi – 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşməsi, əlbəttə ki, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Ancaq buna baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Hesab edirəm ki, indiki şəraitdə 3,7 faiz ən gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artmışdır və bu da dediyim kimi, aparılan islahatların nəticəsidir." [3]

5.: Göründüyü kimi:

- dünyada gedən mütərəqqi inkişaf meyllərini nəzərə almaqla iqtisadi, sosial və siyasi sahələrdə qloballaşan dünyaya daha sıx inteqrasiya ədsasında cəmiyyətin dünyəviləşməsi və müasirləşməsi;

- milli mənafeləri nəzərə almaqla, yerli potensialın tam amilə hərəkətə gətirilməsi və istifadə olunması, başqa sözlə iqtisadiyyatın inkişafı və strukturunun təkmilləşdirilməsi – bir tərəfdən, milli mənafelərimizə və daxili potensialdan sə-mərəli istifadəyə uyğunlaşdırılmalı, digər tərəfdən isə dünya iqtisadiyyatına inteq-rasiyasının inkişafı tələblərinə hərtərəfli cavab verməlidir.

Beləliklə, Azərbaycanda demokratik cəmiyyətin öz əsasları üzərində yüksək inkişafı və təkmilləşdirilməsinə uyğun düzgün siyasət yeridildiyi şəraitdə respub-ikamızın hərtərəfli inkişafı, həmçinin zəngin və qüdrətli dövlətə çevrilməsi mümkün olunacaqdır. Bizim gələcək cəmiyyətimiz – onun iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi xüsusiyyətləri isə milliliklə dünyəviliyin vəhdətinə əsaslanan key-fiyyətləri özündə birləşdirəcəkdir" [Nuriyev, 2013,336-336].

Bütün bunlar isə, böyük Heydər Əliyevin iqtisadi artıma söykənənn milli inkişaf modelinin uğurlu şəkildə həyata keçirilməsinin nəticəsi kimi çıxış edir.

Ədəbiyyat siyahısı:

1. Alıyev İ.H. Strateji hədəfləri fərh edən yeni təfəkkürlü lider. Bakı: 2013.
2. "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının aktual problemləri" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Avropa, 2013, 268 s..
3. Xalq qəzeti, 13 oktyabr 2015 - ci il
4. Nuriyev Ə.X.Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı:2013.

MAHIR NADIR OĞLU İBRAHIMOV
AMEA A.A.Bakıxanov adına Tarix institutu

# AZƏRBAYCAN RESPUBLIKASI BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMININ SUBYEKTI KIMI

Açar sözlər: AXC, beynəlxalq, siyasət, müqavilə

Müasir Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində yeri və rolunun araşdırılması ilk növbədə ölkəmizin beynəlxalq aləmlə əlaqələr qurduğu tarixi dövrə, yəni AXC (1918-1920) dövrünə nəzər salmağı zəruri edir. Çünki müasir Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu iştirakçısına çevrilməsi yolunda rastlaşdığı problemlər vaxtilə cumhuriyyət dövründə mövcud olmuş, bura erməni şovinistlərinin "Böyük Ermənistan" yaratmaq xülyası da daxil olmaqla analoji proseslərin növbəti davamı idi.

Müstəqilliyinin ilk vaxtlarından mövcud beynəlxalq vəziyyəti nəzərə alaraq Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin iyun ayının 4-də Batumidə Osmanlı imperatorluğu ilə "Qarşılıqlı yardım və dostluq haqqında" müqavilə bağladı. Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəaliyyətə başlamasının sonrakı mərhələsi İstanbul konfransı (1918-ci-il) ilə başladı. Batum müqaviləsi imzalandıqdan iki gün sonra Gürcüstan hökuməti Almaniyanın Xarici İşlər Nazirliyinə verdiyi notada Brest-Litovsk sülhü əsasında Dördlər İttifaqı ilə Gürcüstan arasında əlaqələr yaratmaq üçün konfrans keçirməyi təklif etdi. İki tərəfli danışıqların gedişində Qafqaz respublikalarını öz nüfuz dairələrinə daxil etmək uğrunda Almaniya ilə Osmanlı dövləti arasında gərgin mübarizə gedirdi. Bu mübarizədə azərbaycanlılar türklərin, gürcülər isə almanların tərəfində olduqlarını nümayiş etdirdilər. Ermənilər isə tərəddüd keçirirdilər. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan, Osmanlı və digər dövlətlərin İstanbulda olan nümayəndələri səmərəli danışıqlar apardılar.

Nəhayət, 1920-ci ilin yanvarın 11-də uzun sürən danışıqlardan sonra İngiltərənin təşəbbüsü ilə çağırılan Paris sülh konfransı Ali Şurası AXC-nin müstəqilliyini de-fakto tanıdı. Ali Şuranın həmin ilin yanvarın 19-da keçirilən

iclasında Azərbaycan və Gürcüstana hərbi və maliyyə yardımının göstərilməsi məsələləri müzakirə edildi. İclasın sonunda Qafqaz məsələsinə dair qərar qəbul edildi. Bu qərarda müttəfiq hökumətlərin Cənubi Qafqaza ordu göndərmək imkanı olmadığı bildirilirdi. Lakin ərzaq və hərbi sursatla kömək göstərilməsi nəzərdə tutulurdu. AXC-nin de-fakto tanınması ona olan münasibəti xeyli dəyışdirdi. Artıq Polşa, Hollandiya, Belçika, İsveçrə, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluğu, İtaliya isə diplomatik nümayəndəlik səviyyəsində təmsil olunurdu. ABŞ və İngiltərə ilə bir sıra iqtisadi müqavilələr imzalanmışdı.

Lakin, 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini dünya ictimaiyyətinin qəbul etməsi prosesi bütün istiqamətlərdən – şimal, cənub, qərbdən ölkənin milli təhlükəsizliyinə qarşı ciddi təhdidlərlə müşayiət edilirdi. Gənc respublikanın dövlətlərarası münasibətlərə daxil olması prosesi olduqca çətin və ağır şəraitdə gedirdi. XX yüzilin başlanğıcında Rusiyada baş verən sosialist inqilabının havası Azərbaycandakı ictimai zümrələr arasında bölücülüyə gətirib çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin taleyinin faciəli şəkildə başa çatmasının bir səbəbi də həmin dövrdə Azərbaycanda müxtəlif təşkilatlar, partiyalarda təmsil olunan soydaşlarımız arasında ciddi fikir ayrılıqlarının olması AXC hökuməti daxilində ixtilafların dərinləşməsinə, hökumət böhranına səbəb oldu. Bu isə Azərbaycanda siyasi vəziyyətin gərginləşməsində mühüm rol oynadı. 1920-ci il aprel ayının 28-də AXC süqut etdi. Onun ərazisində Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradıldığı elan olundu, milli siyasət sinfi siyasətlə əvəzləndi.

1922-ci il dekabrın 30-da Azərbaycanın ZSFSR tərkibində SSRİ-yə daxil olması ilə ölkənin formal müstəqilliyinə tamamilə son qoyuldu. Lakin Azərbaycan Sovet Sosialist Respublikası uzun illər SSRİ adlanan imperiyanın tərkibində qalsa da, xalqımız dövlətçilik ənənələrinin iqtisadi və mədəni inkişaf yolunu davam etdirdi. Qeyd etməliyik ki, XX əsrdə Azərbaycan xalqı bir sıçrayış dövrü keçib. Ən böyük nailiyyətlərimizdən biri odur ki, XX əsrdə ilk dəfə Azərbaycanda demokratik respublika yarandı. O, süqut etsə də, Azərbaycan xalqı öz inkişafında davam edib. Azərbaycanın Sovetlər İttifaqı tərkibində olduğu 70 illik dövr onun inkişaf dövrüdür. Müstəqil Azərbaycanın təməli, özəyi, əsası həmin dövrdə yaranmış iqtisadiyyat, o dövrdə yaranmış

elmi potensial, o dövrdə yaranmış mədəni potensialdır. Bunu biz qiymətləndirməliyik.

Göründüyü kimi, tariximizin təxminən son 100 ili sübut edir ki, tamam fərqli siyasi reallıqlardan söhbət getməsinə baxmayaraq AXC dövrü ilə 1991-ci ildə ikinci dəfə qazanılan müstəqillik dövrünün ilk illərindəki oxşar məqamlar çox olub. Belə ki, yenə də Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində regionda dünyanın böyük dövlətlərinin barışmaz maraqlarının toqquşması, milli təhlükəsizliyimiz üçün ciddi təhdid olan erməni təcavüzü, daxili siyasi vəziyyətin olduqca gərgin olması, müstəqil Azərbaycanın gələcək inkişaf strategiyasında fikir ayrılıqları sanki keçən əsrin əvvəllərindəki hadisələrin təkrarı kimi müşahidə olunurdu. Deməli, belə nəticəyə gəlmək olar ki, keçən əsrin sonlarında müstəqilliyini elan etmiş Azərbaycan dövlətinin mövcudluğu yenə də sual altında idi. Bütün bunlara baxmayaraq Azərbaycan hakimiyyəti ilk öncə region dövlətləri, sonra isə dünyanın digər nüfuzlu dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələr qurmaqla respublikamızın beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutması üçün etibarlı zəmin hazırladı. Bu gün ölkəmiz strateji tərəfdaşı olan ABŞ ilə istər siyasi-iqtisadi, istərsə də qlobal problem və təhlükələrə qarşı mübarizədə sıx əməkdaşlıq edir. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yerinin müəyyənləşməsində BMT, ATƏT, AŞ, Aİ, İKT, QİƏT, EKO, MDB, GUAM və s. təşkilatlarla əməkdaşlığının rolu çox böyükdür. Burada BMT və onun İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Qadınlar Fondu, Ümumdünya Səhiyyə Təşkilatı, YUNESKO və digər qurumları xüsusilə qeyd etmək lazımdır. Bu qurumların qəbul etdiyi proqramlar, xüsusilə Avropa Birliyinin "TACİS-TRACECA" proqramı Azərbaycan Respublikasının dövlətlərarası münasibətlərini daha da genişləndirmişdir. Regional iqtisadi layihələrdə tərəfdaş kimi iştirak etməsi və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regionun lider dövlətinə çevirməklə yanaşı həm də beynəlxalq aləmdə etibarlı dövlət kimi tanıdıb. Elə Azərbaycan Respublikasını beynəlxalq münasibətlər sisteminin subyekti kimi şərtləndirən də məhz bu amillərdir.

MEHRIBAN ELDAR QIZI BABAXANOVA
Azərbaycan Dillər Universiteti

## TÜRKSOY TƏŞKILATININ YARANMASINDA ÜMUMMILLI LIDER HEYDƏR ƏLIYEVIN ROLU

Açar sözlər: türk dünyası, təşkilat, türkdilli xalqlar

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını (və ümumən dünyanı!) əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir.[Cəfərov,2011,3] Zəngin dövlət idarəçiliyi təcrübəsi olan Azərbaycan Respublikasının Prezidenti türk dünyasının birliyi üçün nə qədər vacib və miqyaslı işlər görmüşdürsə, onun imkanları daha da böyük işlərin görülməsi gücünə malik idi.

1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev TÜRKSOY Beynəlxalq Təşkilatının Bakıda keçirilən VIII-ci toplantısında söylədiyi nitqində TÜRKSOY-un ötən dövrdə böyük yol keçməsini, yaxşı nailiyyətlər əldə etməsini, özünün çox zəruri və böyük gələcəyi olduğunu həm türkdilli dövlətlərə, həm də dünyaya nümayiş etdirməsindən bəhs etmişdir. Ulu öndər böyük məmnuniyyət hissi ilə TÜRKSOYun artıq beynəlxalq təşkilat olmasını, Birləşmiş Millətlər Təşkilatının bir hissəsi olan YUNESKO ilə bilavasitə əlaqə qurduğunu söylədi. "Böyük məmnuniyyət hissi doğurur ki, bu gün TÜRKSOY təşkilatının növbəti toplantısına artıq Gürcüstan Respublikasının nümayəndələri, mədəniyyət naziri və Rusiya Federasiyasının nümayəndələri, mədəniyyət nazirinin müavini də gəliblər, onlar da bu toplantında iştirak edirlər. Bunlar hamısı mədəniyyətin nə qədər böyük imkanlara malik olduğunu sübüut edir. Bunlar hamısı mədəniyyətin müasir dövrdə insanların qarşısına çıxmış ağır, çətin,siyasi-iqtisadi, sosial problemlərin həllində nə qədər əhəmiyyət kəsb etdiyini və böyük xidmətlər göstərə biləcəyi sübut edilir." [26]

Türk dövlətləri ilə münasibətlər məhz Heydər Əliyevin praqmatik xarici siyasəti nəticəsində düzgün və doğru istiqamətdə formalaşmağa başladı. Ölkələr arası yaranmış soyuqluq onun siyasəti nəticəsində aradan qalxmağa başladı. Heydər Əliyevin apardığı ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyəti nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yarandı. İlk növbədə Türkiyə Cümhuriyyəti ilə münasibətlərin normallaşması və obyektiv təməllər üzərində qurulması istiqamətində addımlar atıldı. Heydər Əliyevin xarici ölkələrə ilk səfərlərindən biri 1994-cü ilin fevral ayında Türkiyəyə oldu. O, səfər zamanı Azərbaycan və Türkiyə xalqları arasında qədimdən dostluq, qardaşlıq münasibətlərinin olduğundan bəhs edərək deyirdi: "Bizim ölkələrimiz … dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır". [Əliyev,1997,359]

1996-cı ilin noyabr ayında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprel ayında böyük türk eposu "Kitabi – Dədə Qorqud"un 300 illiyi ilə bağlı türk dünyasının təmsilçilərini, dövlət və hökumət nümayəndələrini, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıda bir araya gətirdi. Bu yubiley tədbirlərinin möhtəşəmliyi UNESCO səviyyəsində keçirilməsi ilə ümumtürk mədəniyyətinin təntənəsinə çevrilmişdi. "Bu cür tədbirlərin birlikdə keçirilməsinin başlıca məqsədi xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, tarixə sahib olduğumuzu bir daha dərk etməkdir.Eyni zamanda bu cür tədbirləri keçirməklə biz nümayiş etdiririk ki, İbn Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarın, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi – Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir",- deyə Heydər Əliyev 8 aprel 2000-ci il tarixində eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə bildirmişdi. [14] Həmin yubileyin keçirilməsi ilə bağlı ölkə başçısı "Kitabi-dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 21 fevral 1999-cuil tarixli Sərəncamı imzalamışdır.[28]. Onun təşəbbüskarlığı və müəllifliyi ilə türk xalqlarının yaşadığı ərazilərdə uzunmüddətli inkişaf və əməkdaşlığa zəmin yaratdı. 27 aprel 2001-ci il

tarixində İstanbul şəhərində Heydər Əliyevin iştirak etdiyi sonuncu türk zirvəsində bəyan etdiyi bu sözləri isə iyirmi birinci yüzilliyin türk dünyasına nəsihəti və vəsiyyəti adlandırmaq olar: "Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf. Konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin – milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimiz daha da möhkəmləndirilməsi nəticəsində nail olacayıq".[Əliyev,2013,7]

Ümummilli liderimiz daima türkdilli xalqların tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağa və zənginləşdirməyə doğru addımlar atmış və mühüm işlərin müəllifi olmuşdur. Məhz bu məqsədlə TÜRKSOY təşkilatının fəaliyyətinin genişlənməsi və Azərbaycanın bu təşkilatın fəaliyyəti çərçivəsində fəal olması Ulu öndərin daima nəzarətində olmuşdur. Qeyd etmək lazımdır ki, Novruz bayramının YUNESKO təşkilatının qeyrimaddi irs siyahısına daxil edilməsində TÜRKSOYun da rolu olmuşdur. 2010-cu ildə Parisdə YUNESKO-nun mənzil qərargahında Novruz bayramı qeyd olundu.

Yuxarıda qeyd olunan fikirləri ümumiləşdirərək, söyləmək olar ki, türk dünyasının fəxri, böyük türklərdən biri Heydər Əliyevin portretini Ulu Öndərin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cumhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqların yeni dünyanın mühüm amillərindən birinə çevirməkdədir".

Ədəbiyyat siyahısı:

1. Cəfərov N. Türk dünyasının birliyi ideyası və Heydər Əliyev *(Araşdırma)* Bakı, «Elm və təhsil», 2011.168 səh.s.3
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I cild. Bakı, 1997, 612 səh.
3. Əliyev V. Heydər Əliyev və türk dünyası. Mədəniyyət, 2013.

4. Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı // Respublika Sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 11 aprel 2000-ci il.
5. http://lib.aliyev-heritage.org/az/4864141.html
6. http://www.e-qanun.az/framework/5175

МАМЕД АРИФ ОГЛУ АЛИЕВ
Азербайджанский Университет Языков

# АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ МУЛЬТКУЛЬТУРАЛИЗМА

Ключевые слова: Азербайджанская Республика, Мультикультурализм, Религиозная толерантность

Интерес Азербайджанской Республики и общества к мультикультурализму, как к одной из важнейших стабилизационных парадигм, является ярким отражением ответственного подхода нашего государства к своей роли в системе национальных и глобальных координат. Процесс взаимодействия культур с отдельными системами цивилизаций особенно в первое десятилетие нового века стал явлением злободневным. Данный процесс определяет содержание современного и вместе с тем внутренне противоречивого, переходного периода посткоммунистических, а по другой терминологии - постсоциалистических стран. Каждое независимое государство стремится заимствовать ценности той системы, которая исторически уже сумела доказать некоторые свои политические преимущества. В этом контексте взаимодействие религии и политики в мультикультурном Азербайджане на рубеже XX-XX столетий - явление неординарное, так как среди закавказских республик именно Азербайджан отличается многоконфессиональностью и веротерпимостью. Религиозная толерантность – она и ведущих черт азербайджанского народа. Она ка бы изначально заложена в генетическом коде людей. Причём, сочетание религиозного и политического компонентов в республике в известном смысле уникально, так как корни его уходят вглубь веков. Более того, религиозная толерантность лежала в основе целого ряда политических кризисов, сотрясавших государство, следовательно, всегда была тесным образом связана с политикой. Такое положение было предопределено еще в период зарождения политической системы и продолжало формироваться на протяжении всей истории нашей страны.

Характерно, что такие черты характера азербайджанского народа, как терпимость к другим нациям и конфессиям в Азербайджане охватывает не только собственно политику, но и другие сферы человеческой деятельности (культуру, идеологию, семейные отношения и т.д.), формируясь на основе человеческого поведения. Она (религиозная толерантность) в мультикультурном обществе в свою очередь базируется на трёх основных элементах - умениях, навыках и соответствующем мировоззрении, отражающих базовые человеческие потребности - личные и общественные. Сочетание этих трех элементов вырабатывает те общественные устои, в рамках которых и существует то или иное общество. Учитывая, что преобразующее начало ярче всего реализуется в религии, становится очевидным, что структура большинства современных сообществ основана в том числе и на вероучении.

В современном Азербайджане мультикультурализм – это целенаправленная государственная стратегия, которая в первую очередь направлена на достижение определённого уровня не антагонистического сосуществования разных культур. Поэтому в нашей республике, как и в некоторых других странах (Россия, Польша, Болгария, Словения, Сербия, Хорватия, отдельные азиатские регионы) мультикультурализм фактически предусматривает развитие и укрепление богатого культурно-этнического разнообразия, включая сохранение и распространение среди населения религиозных ценностей.

Одной из самых действенных форм религиозной агитации в Азербайджане является проведение в жизнь идеи о том, что люди, относящиеся к разным этносам, должны непременно научиться жить бок о бок друг с другом. Тем самым они лучше и теснее взаимодействуют, но не отказываются от собственного культурного своеобразия. Самобытность отдельной культуры в нашей республике вместе с тем обеспечивается мирным сосуществованием групп людей со своей индивидуальной историей и культурой. А религиозная толерантность как в научно-философском, политическом и обыденном смысле слова выступает цементирующим началом самостоятельного развития культур без ущемления прав людей иного

вероисповедания. Поэтому можно утверждать, что в последние годы мультикультурализм в Азербайджане силовыми структурами, правительством защищается как государственная тенденциозная линия, а на уровне работы всех общественных институтов республики превратился в образ жизни.

Мультикультурализм – это, по нынешним понятиям, настолько масштабное явление, что оно ориентирует теоретиков на использование в своих трудах очень широкого и самого многообразного культурного контекста. Например, помимо многочисленных и разнохарактерных тематических линий соприкосновения, его необходимо учитывать также при чтении и верном восприятии коранических сур. Целесообразно, скажем, исследовать священную Книгу мусульман в тесной взаимосвязи с другими текстами, основанными на исламских традициях.

MƏSMƏ YAQUB QIZI ZÖHRAB-MƏCID
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN – İRAN ƏLAQƏLƏRI

Açar sözlər: əsas amillər, dövlətlərarası, siyasi əlaqələr, adekvat, perspektivlər

SSRİ-nin dağılmasından sonra Tehran bölgənin yeni müstəqil dövlətlərinin siyasi və iqtisadi həyatına təsir göstərən güc mərkəzlərindən birinə çevrildi və regiondakı bütün ölkələrlə yaxın əlaqələrin qurulmasına çalışırdı. Cənubi Qafqaz İran üçün önəmli geoiqtisadi əhəmiyyət daşıyır və Tehran özünün Şimal bölgəsi ilə kommunikasiya əlaqələrini və geoiqitsadi problemlərini məhz bu region hesabına həll etməyi düşünür. İslam respublikası olmasına baxmayaraq, rəsmi Tehran özünün geosiyasətini «sivilizasiyaların dialoqu» formasında quraraq «balanslaşdırılmış siyasət» yeridir. Rusiya, ABŞ və Türkiyədən fərqli olaraq, İran region ölkələrində gedən daxili siyasi proseslərdə tam neytral mövqe tutduğunu nümayiş etdirir və hakimiyyət-müxalifət məsələlərinə ümumiyyətlə müdaxilədən qaçır. SSRİ-dən müstəqilliyini geri əldə etdikdən sonra, Azərbaycan Respublikasında əsasən etnik azərbaycanlılar yaşadığı, İranın tərkibində olan *Cənubi Azərbaycan* bölgəsinə də maraq artırmağa başladı. 1995-ci ilin aprelindən 1996-ı ilin mart ayına qədər aparılan tədqiqat göstərir ki, İran haqqında yazan qəzetlər onun haqqında əsasən Cənubi Azərbaycan məsələsi ilə əlaqəli olaraq yazırdılar [*Cameron, 2004, 4-5 ).*

Azərbaycanla İran arasında mövcud olan müxtəlif sahələrdəki əlaqələrin özünəməxsus cəhətləri var. İki xalqın din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda, ortaq tarixə malik olması Tehranla Bakının əlaqələrinə təsir göstərən əsas amillərdəndir. Təsadüfi deyil ki, bir çox ekspertlər Qafqaz və Xəzər regionundakı sabitliyin İran-Azərbaycan münasibətlərindən daha çox asılı olduğunu etiraf edirlər. Qeyd etmək lazımdır ki, ölkəmizin müstəqillik əldə etməsindən əvvəl də İranla Azərbaycan arasında müxtəlif xarakterli əlaqələr mövcud olub. Hələ sovet dövründə Bakıda İranın konsulluğu fəaliyyət göstərirdi. Lakin Azərbaycanın müstəqilliyinin ilk illərində iki ölkənin münasibətlərində

ciddi problemlər yarandı və bu, ilk növbədə, rəsmi Tehranın bölgədə yaranmış yeni geostrateji duruma adekvat reaksiya verə bilməməsi və Azərbaycana rəhbərlik edən qüvvələrin ziddiyyətli siyasət yeritməsindən irəli gəlirdi. 1993-cü ildə İran Prezidenti Əli Əkbər Haşimi Rəfsəncaninin Azərbaycana səfəri, bir il sonra isə Prezident Heydər Əliyevin Tehrana rəsmi səfəri, səfərlər zamanı imzalanmış sənədlər İran-Azərbaycan münasibətlərinin yaxşılaşmasına təkan verdi və dövlətlərarası əlaqələrin hüquqi bazasını yaratdı. 1996-cı ilin mayında Prezident Heydər Əliyev Prezident H.Rəfsəncaninin dəvəti ilə yenidən İranda rəsmi səfərdə oldu və bu səfər zamanı aparılan danışıqlarda tərəflər bir sıra iqtisadi xarakterli məsələlər barəsində razılığa gəldilər. Prezident Heydər Əliyevin 1997-ci ilin dekabrında Tehranda keçirilən İslam Konfransı Təşkilatının zirvə görüşündə iştirakı zamanı İranın Prezidenti S.M.Hatəmi, Ali dini rəhbər Ayətullah Xamneyi, Məsləhət Şurasının sədri H.Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimləri ilə keçirdiyi görüşlər də ikitərəfli münasibətlərin inkişafına təkan verdi. 2002-ci il mayın 20-də iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında yeni memorandum imzalandı. Prezident İlham Əliyevin 2005-ci il yanvarın 24-26-da İrana rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına öz müsbət təsirini göstərdi. İlham Əliyev İranın Prezidenti, Ali Dini Rəhbəri, Dövlət Məsləhət Şurasının Sədri və digər rəsmi şəxslərlə görüşlər keçirdi. Səfər zamanı sərhədyanı rayonlarda yaşayan vətəndaşların sadələşdirilmiş qaydada sərhədi keçmələri; İİR-in Azərbaycan Respublikasına bir milyon ABŞ dolları həcmində qrant ayırması; Təhsil və Səhiyyə Nazirlikləri arasında əməkdaşlıq; Araz çayının hidroenergetika potensialından birgə istifadə; mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında saziş və memorandumlar imzalandı. Prezident İlham Əliyevin səfərinin ən yadda qalan məqamlarından biri Təbriz şəhərində keçirilən görüşlər oldu.

İranla Azərbaycan arasında indiyə qədər 26 sənəd-dövlətlərarası, hökumətlərarası müqavilələr və digər hüquqi-normativ aktlar imzalanmışdır [Həsənov, 2005, 472]. Dövlət başçılarının qarşılıqlı səfərlərindən başqa, iki ölkənin parlament sədrləri, hökumət rəhbərləri, müxtəlif nazirlik, komitə və şirkət rəhbərləri, rəsmi və qeyri-rəsmi nümayəndələri, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri

yüzlərlə səfərlər etmiş və qarşılıqlı əlaqələri müzakirə etmişlər. Hazırda iki ölkənin vətəndaşları, iş adamları arasında da çoxtərəfli intensiv əlaqələr mövcuddur. İqtisadi əlaqələrin səviyyəsi getdikcə genişlənir. 2004-cü ildə rəsmi Tehran Ələt-Astara avtomagistralının tikintisinə 40 milyon dollar kredit ayırıb. Bu gün blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasının enerji daşıyıcıları ilə təmin olunmasında da İran mühüm rol oynayır. Qonşu ölkədən Muxtar Respublikaya enerji xətlərinin çəkilməsi, qaz probleminin həllinə yönəlmiş birgə layihələr və s. iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qaldırılmasına şərait yaradan amillərdir. Amma bütün bunlarla yanaşı, İran-Azərbaycan münasibətlərində hələ də həll edilməmiş bəzi problemlər mövcuddur. Bir çoxu obyektiv səbəblərlə izah edilən bu problemlər sırasında Xəzərin hüquqi statusu, Cənubi Azərbaycan problemi və İran-Ermənistan münasibətləri hər iki ölkənin ictimai fikrində tez-tez müzakirə obyektinə çevrilir. Amma Azərbaycanla İranın regiondakı geostrateji maraqları o qədər fərqlidir ki, problemləri birdəfəlik aradan qaldırmaq qeyri-mümkündür.

Ədəbiyyat siyahısı:

1. Cameron S. Brown "Wanting to Have Their Cake and Their Neighbor's Too: Azerbaijani Attitudes towards Karabakh and Iranian Azerbaijan". Middle East Journal. US, 2004.

2.Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005

МАТАНАТ ГИДАЕТ КЫЗЫ ШАДЛИНСКАЯ
Бакинский Славянский Университет

# МИРОВОЙ ПОДХОД К ПРОБЛЕМЕ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

Ключевые слова: мировое хозяйство, экономика, глобальная проблема, продовольственная безопасность

Мировое хозяйство это совокупность национальных хозяйств. Эти страны взаимосвязаны системой международного разделения труда. Основу мирового хозяйства составляет экономические и политические отношения между этими национальными хозяйствами.

На развитие современного мирового хозяйства ощутимое влияние оказывает целый ряд проблем. Современная цивилизация порождает этих глобальных проблем. Сегодня самая сложная проблема это определять масштабов производства и потребления энергии (топлива).

Соответственно, одним из главных глобальных проблем являются продовольственная безопасность. Продовольственная безопасность это состояние экономики. Экономика государства гарантирует населению страны обеспечение пищевыми продуктами в качестве, объеме, ассортименте и т.д.

В настоящее время количество голодающих в мире, испытывающие все тяжести продовольственного кризиса находится на высоком уровне. Высокий  процент при этом составляют дети. Продовольственная проблема особо ощутима в развивающих странах. И главным направлением решения этой проблемы в этих странах является повышение урожайности, т.е. развитие сельского хозяйства. Так как сельское хозяйство это ведущая отрасль материального производства.

Сегодня общая забота всего мира является проблема продовольственного обеспечения населения. Пока человечеству не удалось решить эту сложную задачу. С ростом населения потребление продовольствия возросло практически во всех регионах мира. Но это проблема распространяется по отдельным государствам и регионам равномерно.

Ежегодно население мира растет на 95 млн. человек. В основном примерно 80 млн. человек рождается в развивающих странах. Проблема роста населения не только затрагивает его численность, но и благосостояния и развития человека.

В этой зоне уровень продовольственной обеспеченности приближен к норме (эта норма установлена по ВОЗ ООН):

- Индия, Египет, Индонезия, страны Восточной Европы, страны СНГ, по стандартам отклонения от нормы находятся на допустимом уровне.

- развивающие страны, где большинство населения испытывает все тяжести продовольственного кризиса и голод.

Большинство органы ООН, также многие страны занимаются борьбой с голодом. Осуществляется социальные программы стратегические направления этих программ составляет укрепление продовольственной безопасности для беднейших слоев населения, содействуя развитию сельского хозяйства, улучшению количества и качества питания и обеспечению продовольственной безопасности.

## Литература:

1. Альтфатер Э. Продовольственный кризис // Научно-просветительский журнал Скепсис. 2008.

2. Ковалев Е. Мировой продовольственный кризис: эскалация проблем // Мировая экономика и международные отношения. 2010. № 4.

3. Маценович, И. Л. Продовольственная безопасность и продовольственная политика / И. Л. Маценович, А. М. Ходачек. - СПб: ИВЭ-СЭП, Знание, 2004. - 136 с.

4. Ковалев Е.В. Глобальная продовольственная проблема // Мировая экономика и международные отношения. 2004. - №10.

5. Укуев М.М. Глобальная продовольственная проблема и пути ее преодоления // Материалы международной студенческой научной конференции «Преемственность и новаторство», М.: РГТЭУ. 2009. (0,3 п.л.)

6. Ковалев, Е. Новые аспекты мировой продовольственной проблемы / Е. Ковалев // Мировая экономика и международные отношения. - 2005. - № 3. - С. 3-9

MIRSAMIR MIRABBAS OĞLU SEYIDOV

Sillahlı Qüvvələrin Hərbi Akademiyası

# MÜASIR MÜHARIBƏLƏRDƏ INFORMASIYA AMILI VƏ VASITƏLƏRI

Açar sözlər: informasiya müharibəsi, informasiya-psixoloji mübarizə, informasiya texnologiyaları, dezinformasiya

İnformasiya strateji resursdur. O hərbi əməliyyatlarının getdiyi məkanı təsəvvür olunmaz dərəcədə dinamik edir . Bu, milli iqtisadiyyatı qlobal inkişaf qarşısında həssas edir, dünya əhalisinin mədəni və siyasi şüurunu artırır və bəşəri parçalanmaya və destabilizasiyaya rəvac verən radikal hərəkatları stimullaşdırır. İnformasiya erasının texnologiyaları qlobal auditoriyaya kiçik və böyük hərbi əməliyyatların nəticələrini dərhal təqdim edir. Yaşadığımız dövrdə informasiya axını kəşfiyyat informasiyalarının toplanmasına olan tələbatı daha da artırır [1].

Geniş perspektivdə informasiya müharibəsi bir çox istiqamətlərdə aparılır. O dövlət strategiyası olub, strateji səviyyədə üstünlüyü təmin etmək üçün milli gücün bütün elementlərinin tətbiqindən yararlanır.

İnformasiya müharibələri üçün xarakterik cəhətlər aşağıdakılar hesab edilir:

Birincisi, informasiya müharibəsinin aparılması kifayət qədər ucuz başa gəlir. Ənənəvi hərbi texnologiyalardan fərqli olaraq, informasiya texnologiyaları isə nəhəng kapital qoyuluşunu və məcburi dövlət dəstəyini tələb etmir.

İkincisi; ictimai və xüsusi maraqlar, hərbi fəaliyyətlər və cinayət davranışları arasında ənənəvi müxtəlifliklər silinir. Hətta tanınmış dövlətlərarası sərhədlər belə silinir.

Üçüncüsü; sənaye baxımından inkişaf etmiş dövlətlər informasiya hücumları qarşısında daha zəifdir. Məsələn, ABŞ daha inkişaf etmiş dövlət olsa da, informasiya sahəsində hücumlara asanlıqla məruz qalır.

İnformasiya müharibəsinin əsas elementlərindən biri olan informasiya-psixoloji mübarizə düşmənin döyüş gücünün ən mühüm komponenti olan

onun ruhi, mənəvi potensialının dağıdılmasına yönəldilib. İnformasiya-psixoloji mübarizənin qüvvə və vasitələri düşmənin birləşmə və hissələrinin döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə aşağı salmağa qadirdir.

Hərbi əməliyyatlarda informasiya qarşıdurmasının təşkili zamanı əsas informasiya-psixoloji təsir vasitələri kimi aşağıdakıları göstərmək olar [Караяни, 1997]:

1. Dezinformasiya.
2. Çap vasitələri – vərəqələr, qəzetlər, informasiya bületenləri və s.
3. Radio vasitələri- daşınan (avtomobil, təyyarə, qayıq) radio və tele-mərkəzlər, tranzistorlar, düşmənin döyüş radio şəbəkəsinə daxil olmaq üçün vasitələri və s.
4. Səs yayımı- səsyayan stansiyalar, o cümlədən avtomobillər, tank, ZTR, helikopter və təyyarələrə quraşdırılmış səsgücləndirici vasitələr.
5. Qoloqrafik və səs effektlərini canlandıran sintezatorlar (generatorlar).
6. Psixoloji silah – psixotrop, texno-psixoloji, samato-psixoloji və psixotronsilahlar.
7. İnternet və telefon.

Dezinformasiya (qeyri-dəqiq məlumatın yayılması). Tədqiqatlardan məlumdur ki, dezinformasiya "Səhrada fırtına" əməliyyatı zamanı istər hazırlıq istərsə də həyata keçirilmə dövründə keçirilmişdir.

Dezinformasiya antiiraq koalisiyanın geniş istifadə etdiyi vasitələrdən biri olmuşdur. Bu vasitədən bir neçə məqsədlə, hər şeydən əvvəl əməliyyatı hüquqi cəhətdən əsaslandırmaq, koalisiyanı möhkəmləndirmək və ora yeni ölkələri cəlb etmək üçün istifadə olunmuşdur. İraqda iri həcmdə kimyəvi silahın və onu tətbiq etmək planlarının olması haqqında həqiqətdən uzaq məlumatlar, İraq ordusunun say tərkibi barədə şişirdilmiş rəqəmlər dövriyyəyə daxil edilmişdi.

Dezinformasiyanın digər bir məqsədi əməliyyatın başlama tarixini gizli saxlamaqdan, bu məsələdə İraq rəhbərliyində qeyri-müəyyənlik yaratmaqdan və hücumu İraq ordusunun gözləmədiyi bir anda reallaşdırmaqdan ibarət idi. Bu səbəbdən də, ABŞ-ın dövlət və ordu rəhbərliyi əməliyyatın başlama tarixi ilə bağlı istər dünya ictimaiyyətinə, istərsə də İraq cəmiyyətinə və ordusuna müxtəlif və məqsədli informasiya ötürürdü.

Çap vasitələri böyük psixoloji təsir gücünə malikdir. Tədqiqatlardan məlumdur ki, təkcə "Səhrada fırtına" əməliyyatı zamanı İraq qoşunlarına qarşı milyonlarla vərəqə atılmışdır.

İraq hərbçilərinə daha güclü təsir göstərmək, onları tamamilə ruh düşkünlüyünə düçar etmək məqsədilə milyonlarla vərəqədən istifadə olunmuşdu.

Tele-radio verlişləri. Koalisiya qüvvələri informasiya-psixoloji təsir vasitəsi kimi tele-radio verlişlərindən geniş istifadə edirdilər. İraqda həyat səviyyəsinin aşağı olması səbəbindən əhalinin az bir hissəsi televizordan, sputnik antenalarından, internetə qoşulmuş kompüterlərdən istifadə edirdi. Bu səbəbdən də, radio iraqlılar üçün əsas informasiya mənbəyi idi və koalisiya qüvvələri də əsas diqqəti radio verlişlərinə yönəltmişdilər.

Səs ötürücü stansiyalar taktiki səviyyədə aparılan informasiya-psixoloji aksiyaların ən effektlisi hesab edilir. Yük maşınlarına bərkidilmiş səsuçaldıcılardan arxa cəbhədə, tanklara bərkidilmiş səsucaldıcılardan cəbhə zolağı boyu istifadə etmək məsləhət görülür. Səs ötürücü stansiyalar "Səhrada fırtına" əməliyyatı zamanı da geniş istifadə olunmuşdur. Xüsusi avtomobillərdə və vertolyotlarda yerləşdirilmiş bu mobil stansiyalar vasitəsilə bütün cəbhə boyu komandirlərə koalisiyanın quru qoşunlarının hərəkətləri barədə məlumat çatdırılır, onlara taktiki yardım göstərilir və İraq hərbçilərini əsir düşməyə meyllәndirilirdi. Bu məqsədlə mütəxəssislərdən ibarət 66 qrup yaradılmışdı. Səs ötürücü stansiyalar vasitəsilə İraq hərbçilərinə koalisiya qüvvələrinin yerdəyişməsi barədə qeyri-dəqiq məlumatlar ötürülür və onlar aldadılırdı.

Qoloqrafik generatorlar vasitəsilə səmaya, yer səthinə müxtəlif təsvirlər proyeksiya olunur. Səmada işıqlandırılan şəkil (təsvir) uzaq məsafədən göründüyünə görə düşmən qoşunlarının əksər heyətini əhatə edərək ona güclü psixoloji təsir göstərir. Bununla yanaşı müasir audio texnikanın inkişafı imkan verir ki, sintezatorlar vasitəsilə insanlara psixoloji təsir göstərən səs və küylərdən istifadə olunsun. Bu vasitələrin köməyi ilə döyüşçülər döyüş zamanı gözlənilmədən öz siyasi liderlərindən birinin səsi ilə tərk-silah olmaq çağırışını eşidəbilərlər.

İnternet və telefon. Ünvanlı psixoloji əməliyyatlar istifadə olunan yeni metodlar sırasındadır. " İraqa azadlıq" əməliyyatı zamanı koalisiya qüvvələri informasiya-psixoloji təsir vasitəsi kimi internetin imkanlarından

və telefon zənglərindən də istifadə edirdilər. İraqda internet dövlətin total nəzarəti altında idi və məhdud dairənin bu kanala çıxışı var idi. Məhz bu məhdud dairə yüksək ictimai statusa malik idi və həlledici qərarların qəbul edilməsinə təsir göstərə bilirdi. Bunu nəzərə alan ABŞ komandanlığı xüsusi "e-mail-hücum" əməliyyatları həyata keçirilirdi. Hərbçilərə ünvanlanmış məlumatlarda koalisiya qüvvələrinə müqavimət göstərməməyə çağırış edilir, həmçinin buna əməl edənlərə və ailələrinə təhlükəsizlik təminatı verilirdi. Hərbi sənaye kompleksi mütəxəssislərinin internet üzərindən aldıqları məlumatlarda İraqın kütləvi qırğın silahları barədə istənilən informasiyanı BMT müfəttişlərinə təqdim etmək tələb olunur, əvəzində təhlükəsizlik təminatı verilirdi. İraq silahlı qüvvələri komandanlığının ayrı-ayrı nümayəndələri və hərbiçiləri ilə telefon zəngi və faks vasitəsilə əlaqə yaradılır və onları hərbi əməliyyatlarda iştirakdan daşındırmağa cəhd olunurdu.

Ümumilikdə, ABŞ-ın rəhbərliyi altında təşkil olunmuş koalisiya qüvvələrinin İraq silahlı qüvvələri üzərindəki qələbəsində informasiya-psixoloji təsir vasitələri əsas rol oynayıb.

Ədəbiyyat siyahısı:

1. Караяни Информационно-психологическое противоборство в современной войне.
M-1997.

MURAD ELÇIN OĞLU ƏSƏDOV
Bakı Dövlət Universiteti

# CƏNUBI QAFQAZDA YENI ETNIK MÜNAQIŞƏ OCAĞININ YARANMASI: GÜRCÜSTANDA ERMƏNI AZLIQ MƏSƏLƏSININ REGIONAL TƏHLÜKƏSIZLIYƏ TƏSIRI

Açar sözlər: Cənubi Qafqaz, Gürcüstan, Ermənistan, münaqişə ocağı

Qafqaz keçmişdən qalan etnik qarşıdurmalarla böyük bir mirasa sahibdir. Tarix boyu Qafqaz bir çox imperiyaların işğallarına məruz qalmışdır. Müstəmləkə siyasəti olaraq özlərinə dayaq yaratmaq üçün müxtəlif xalqları bu ərazilərə köçürürdülər. Bu da regionda etnik müxtəlifliyin yaranmasına gətirib çıxarırdı ki, hazırda bölgədə olan etnik qarşıdurmaların əsas səbəbidir. Bu faktor regionda marağı olan böyük dövlətlərin həmişə köməyinə çatmışdır.

SSRİ-nin dağılması ilə dünyada əmələ gələn qlobal dəyişikliklər ermənilərin tarixi xülyalarında bir dəyişiklik yaratmadı. Əksinə "Böyük Ermənistan" xəyalının şərq torpaqları hesab olunan Azərbaycanın tarixi torpaağı olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilməsi bu yolda atılan atdımlardan idi. Ermənilər "Böyük Ermənistan" xəyalının şərq torpaqları hesab olunan Gürcüstanın cənub-qərb torpaqlarına da göz dikmişdilər. Lakin bu dövdə Dağlıq Qarabağ məsələsinin ortaya çıxması bu məsələni bir qədər geri plana atmışdır. Hətta xaricdəki diasporası dünyanı inandırmağa çalışırlar ki, bir vaxtlar "dənizdən dənizə Erməni dövləti" olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi bu dövrdə Dağlıq Qarabağın işğal edilməsi, Samsheti-Cavaxetiyadakı erməni iddiaları və təşkilatlanması bir daha onu göstərdi ki, ermənilərin "Böyük Ermənistan" xəyalı boş deyil.

Bu məqsədlə də Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan ermənilər son zamanlar separatçı əməllərini və iddialarını getdikcə artırır. Bəzən bu proseslər Dağlıq Qarabağı xatırladır. 1988-ci ildə Dağlıq Qarabağda ermənilərin fəallaşması Gürcüstandakı ermənilərin də təşkilatlanmasına səbəb oldu. Cavaxetiyada yaşayan ermənilər Gürcü hakimiyyətinə qarşı mübarizə aparmaq məqsədi ilə Cavax Xalq Hərəkatı

təşkilatını da qurdular. Bu təşkilat erməni milliyyətçi partiyası "Daşnaksütyun"un dəstəyi ilə Gürcüstanda ixtişaş yaramaq üçün yaradılmışdı. Bundan başqa "Virk" təşkilatı da fəaliyyət götərirdi(Marhuliya, 27 sentyabr 2012). Gürcüstanın keçmiş prezidenti Zviad Qamsaxurdiyanın gürçü milliyyətçi planları ermənilərin müstəqillik tələblərini artırdı. Lakin tezliklə Gürcüstanda hakimiyyət dəyişikliyi və Dağlıq Qarabağın işğalı buradakı ermənilərin müstəqillik tələblərini arxa plana atmasına səbəb oldu. Hətta Gürcüstan Azadlıq Partiyasının lideri Rezo Şaşirvili o dövrdə bu haqda yazırdı: ermənilər Dağlıq Qarabağ məsələsini ortaya atmasaydılar Gürcüstandakı ermənilər yaşayan ərazinin Ermənistana birləşdirilməsini tələb edəcəkdilər [Akopyan, www.azg.am.ru ]. Xüsusən də Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın hakimiyyəti zamanı Gürcüstan ermənilərinin siyasi fəaliyyətinə çox köməklik etmişdir. 1997-ci ildə Gürcüstan prezidenti Eduard Şvarnadze və Ermənistan prezidenti L.Ter-Petrosyan arasında danışıqlar aparılmış və nəticədə Cavaxetiyada yaşayan ermənilərə mədəni muxtariyyət verilmişdir. Ermənistan isə öz növbəsində buradakı ermənilərin separatçı hərəkətlərinə dəstək verməkdən əl çəkərək Daşnaqsütyun partiyasının "Lragin"(Qəzet) bağlatdırmışdır [Kanbolat və Gül,11]. Lakin Robert Koçaryanın Ermənistanda hakimiyyətə gəlməsi ilə bu məsələ yenidən canlandı. Ermənistanda parlamentin tərkibində komisiya yaradıldı və komisiyanın rəhbəri Vaan Ovanisyan öz çıxışında Erməsitan və Gürcüstan sərhəddinin yenidən müəyyənləşdirilməsinin vacibliyini qeyd edirdi [Akopyan.www.azg.am.ru].

Ermənistan Gürcüstanda yaşayan ermənilərin siyasi və mədəni təşkilatlanması üçün hər cür köməklikləri edir. Ermənistan Cavaxetiyanın Gürcüstan ərazisi kimi tanımamaqla yanaşı buradakı əhalinin iqtisadi və sosial problemlərinin olduğunu qeyd edir. "Yerkir" təşkilatı erməni diasporasını bu məsələdə daha diqqətli omağa çağırır. Cavaxetiyada qanunsuz fəaliyyət göstərən erməni terror qrupunun üzvü olan Sevak Artsruni iddia edir ki, Gürcüstan müstəqilliyini elan edəndən sonra ermənilərə qarşı çox qəddar siyasət aparmışdır [Zeynal,www. 1news.com.tr]. Gürcüstanda ərazi məsələsilə bağlı yeni problemlər yarada biləcək belə iddialar fonunda bundan əvvəl ermənilər Tiflisi Cavaxetiya sakinlərinə qarşı «demoqrafik terror»da ittiham etmişlər. Ermənilər

Gürcüstan tərəfindən ermənilərin siyasi hüquqlarının davamlı olaraq pozulduğunu iddia edirlər [Доклад Международной Кризисной Группы, 22 noyabr 2006]. «Virk» partiyası isə bildirir ki, Cavaxetiya ermənilərinin Vaan Çaxalyan, Qriqor Minasyan, Sarkis Akopcanyan və Qrişi Avakyan kimi ictimai və siyasi xadimlərinin həbsi, həmçinin digər fəallara qarşı repressiyalar bölgənin erməni əhalisində qorxu və həyəcan yaradır, buradan ermənilərin köçməsi hallarını artırır. Bütün bunlar ermənilər tərəfindən Gürcüstan hökumətinin məqsədyönlü şəkildə yürütdüyü demoqrafik terroru adlandırılır. «Cavakx» cəmiyyəti, «Mitk» analitik mərkəzi, «Yerkir» Birliyi, Virk Partiyası və "Cavak" xalq hərəkatı Cavaxetiyanın «qədimdən ermənilərin məskunlaşdığı ərazi olduğu»nu daima bildirir və guya XVIII əsrin sonlarında bu bölgənin erməni əhalisinin böyük hissəsinin itirilməsi və bir hissəsinin başqa yerlərə köçməsi, bir hissəsinin isə sadəcə məhv edilməsi haqqında əsassız, dəlilsiz məlumatlar yayır.

Ermənilərin bu ərazilərə iddia etməsinin səbəbləri istər Dağlıq Qarbağın, istərsə Cavaxetiyanın geosiyasi və geoiqtisadi cəhəddən əlverişli mövqedə olmasıdır. Başqa bir tərəfdən dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənən və Cənubi Qafqazda həyata keçirilən lahiyələrin (Bakı-Tbilisi-Ceyhan, Bakı-Batumi-Supsa neft, Bakı-Tiflis-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars-Axalkalaki dəmir yolu) marşurutunun buradan keçməsi ermənilərin buradakı iddialarına təsir göstərən amillərdəndir.

Beləliklə, Qafqazda potensial münaqişə ocağılarından biri olan Cavaxetiya təkcə Gürcüstan deyil, ümumilikdə regionda sülhün və sabitliyin həmişəlik olmasında problem yaradır. Cavaxetiya Dağlıq Qarabağ kimi erməni siyasi ideologiyasının bir hissəsini təşkil edir. Sonunda Cavaxetiyanın yerli sakinləri olan ahıska türkləri öz ərazilərinə qayıdacaqlar. Ermənilərin də qorxduğu budur. Bu səbəbdən də onların Ahıskada deyil Gürcüstanın başqa ərazilərində məskunlaşmasını istəyirlər. Bu bir daha göstərir ki, ermənilər başqalarının torpaqlarına yiyələnmək planlarından əl çəkməyəcəklər. Bu isə öz növbəsində böyük problemlərə yol açır və bu da regionda daimi sülhün qalmasında olmasında maniələr yarada bilər.

Ədəbiyyat siyahısı:

1. Arutyunyan Armen. Проблема джавахка и ответственность Армении.// Джавахк проблемы и перспективы. 2008.

2. Армянское и азербайджанское меньшинства Грузии; Доклад Международной Кризисной Группы, N°178 Европа 22 ноября 2006

3. Akopyan Tatul, 'Separatistskoe Dvijenie Na Yuge Gruzii Ugrojaet Territorialnoy Çelestnosti Gosudarstva'. www.azg.am.ru/20020327/2002032702.shtm

4. Kanbolat Hasan ve Nazmi Gül. Kafkasya'da (Cavahetya) ile Krasnodar (Rusya) Ermenilerinin Jeopolitiği ve Özerklik Arayışları, Stratejik Analiz, Cilt: 1, Sayı: 6

5. Zeynal Asef. Gürcistan'ın Ermeni surunu, www.1news.com.tr

NAMIQ CƏMALƏDDIN OĞLU ƏSƏDOV
Azərbaycan Dillər Universiteti

## AZƏRBAYCAN RESPUBLIKASININ BOLQARISTAN, MOLDOVA VƏ RUMINIYA ILƏ ƏLAQƏLƏRININ IQTISADI VƏ GEOSIYASI ƏHƏMIYYƏTI

Açar sözlər: Azərbaycan, Bolqarıstan, Moldova, Rumıniya.

Azərbaycan həyata keçirdiyi müstəqil xarici siyasət strategiyası ilə öz ikitərəfli əlaqələrini genişləndirərək, regionun geostrateji ve geosiyasi cəhətdən aparıcı ölkəsinə çevrilir. Gerçəkləşdirdiyi və iştirakçısı olduğu beynəlxalq əhəmiyyətli layihələr ilə Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən Azərbaycan Respublikasının, xüsusilə Cənub-Şərqi Avropa ölkələrindən olan Bolqarıstan, Moldova və Rumıniya ilə müxtəlif sahələri əhatə edən beynəlxalq səviyyəli əlaqələri çağdaş xarici siyasətin prioritetləri sırasında yer alır.

Azərbaycanın Cənub-Şərqi Avropa regionu ölkələri ilə ikitərəfli əlaqələri müxtəlif sahələri əhatə edərək öz inkişafında sürətli artım tempinə malikdir. Bu ölkələrdən biri Bolqarıstandır.

Bolqarıstan Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 14-də tanımış və iki ölkə arasında diplomatik münasibətlər həmin ilin 5 iyununda qurulmuşdur. Bolqarıstanın Azərbaycandakı səfirliyi 1999-cu ilin dekabrında açılmışdır. 2004-cü il aprelin 16-da isə Azərbaycanın Bolqarıstandakı səfirliyinin təsis edilməsi haqqında sərəncam imzalanmışdır. 1995-ci il Heydər Əliyevin Bolqarıstana səfəri ilə başlayan yüksək səviyyəli qarşılıqlı səfərlər 2008-ci ildən etibarən daha da intensivləşmişdir. Bolqarıstan Azərbaycanla mövcud əlaqələrin daha da inkişaf etdirilməsində və genişləndirilməsində maraqlıdır [4].

Beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərindən biri kimi sərhədlərin toxunulmazlığını rəhbər tutan Bolqarıstan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək verdiyini dəfələrlə təsdiqləmiş, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmiş və Azərbaycanın, habelə beynəlxalq ictimaiyyətin bu istiqamətdə

göstərdiyi səyləri dəstəkləmişdir. Bu dəstəyi bugün də davam etdirməkdədir [4].

İki ölkə arasında müxtəlif sahələri əhatə edən 68 sənəd imzalanmışdır. İki ölkə arasında əlaqələr siyasi, hüquq-məhkəmə, iqtisadi, humanitar, mədəni, turizm, sosial-müdafiə, səhiyyə və idman sahələrini əhatə edir. Qeyd edilməlidir ki, Bolqarıstandakı Trapezitsa Memarlıq Muzeyi Qoruğunun bərpasını Heydər Əliyev fondu maliyyələşdirmişdir [5]. Ölkələr arasında ümumi ticarət dövriyyəsinin həcmi 2014-cü ildə 121 mln. ABŞ dolları təşkil etmişdir. Həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələrdə Bolqarıstanın da payı vardır. Belə ki, "Şahdəniz" konsorsiumunun Bolqarıstanda satışını həyata keçirmək üçün danışıqlar aparılır. Konsorsium Bolqarıstana istiqamətlənən boru kəmərinin nəqletmə həcmindən istifadə payı almaqda maraqlı olduğunu bildirməyi planlaşdırır [1]. Xatırladaq ki, Bolqarıstan Rumınya ilə birlikdə Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan Nabucco layihəsinin tərəfdaşlarından idi.

Azərbaycan Respublikasının geniş əməkdaşlıq etdiyi Cənub-Şərqi Avropa ölkələrindən biri də Moldovadır. İki dövlət arasında diplomatik əlaqələr 1992-ci il mayın 29-da qurulmuşdur. Azərbaycan Respublikasının Moldovadakı səfirliyi 2005-ci il oktyabrın 5-də açılmışdır. 1 ay sonra, 2005-ci il noyabrın 1-də Moldovanın Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başlamışdır. 1997-ci ilin oktyabrında yaradılan Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Azərbaycanla yanaşı təsisçilərindən biri olan Moldova da elə Cənub-Şərqi Avropa ölkəsidir. İki ölkə AŞ, Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) təşkilatı daxilində də fəal əməkdaşlıq edir. Bu çoxtərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan və Moldova arasında qarşılıqlı ikitərəfli əlaqələr də fəallaşır. Ölkələr arasında yüksək səviyyəli- dövlət və hökümət başçıları, nazirlər, parlament sədrləri səviyyəsində qarşılıqlı səfərləri 2004-cü ildən etibarən reallaşmağa başlamışdır. Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupu 8 aprel 2011-ci ildə Milli Məclisdə təsdiq edilmişdir [2].

Ölkələr arasında siyasət, iqtisadiyyat və mədəniyyəti əhatə edən 53 sənəd imzalanmışdır. Azərbaycan-Moldova prezidentlərinin qarşılıqlı səfərləri digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin inkişafına müsbət təsirini göstərib. 26 noyabr 1997-ci ildə Moldova

prezidenti Petru Luçiniski Azərbaycanda rəsmi səfərdə olarkən ona Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilib. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moldova prezidenti Petru Luçinskiyə Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilməsi mərasimində çıxış edib: "...Görün, nə qədər böyük səadətdir - 35 il öncə gənclərin rəhbəri kimi ilk dəfə Azərbaycanda olmusunuz, tələbələrlə görüşmüsünüz. 35 ildən sonra isə öz ölkənizin prezidenti olub Bakı Universitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşürsünüz və sizə elmlər doktoru fəxri adı verirlər...". 2005-ci il aprelin 21-də Prezident İlham Əliyevin Moldovaya səfəri zamanı Moldovanın paytaxtı Kişinyov şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılışı olub. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Moldova Prezidenti Vladimir Voronin iştirak ediblər. 2007-ci ilin may ayında Kişinyov və Komrat şəhərlərində Azərbaycan Mədəniyyəti günləri keçirilib. 2008-ci il aprelin 23-də isə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin təntənəli açılışı olub. Mərasimdə Prezident İlham Əliyev və Prezident Vladimir Voronin də iştirak ediblər. İki ölkəni yaxınlaşdıran ən əsas cəhətlərdən birincisi ölkələrin seperatizmdən əziyyət çəkmələridir. Qeyd edilməlidir ki, Azərbaycan Moldovanın ərazi bütövlüyünün bərpa edilməsini, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyir. Dağlıq Qarabağ və Dnestryanı münaqişələrinin həllində hər iki ölkə vahid mövqedən çıxış edirlər. Eləcə də, 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Baş Məclisin Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini ifadə edən qətnamə layihəsinin müzakirələri zamanı Moldova qətnamənin lehinə səs verib. Moldova Prezidenti hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəyini bəyan etmişdir. İkitərəfli iqtisadi əlaqələrdə də fəal əməkdaşlıq mövcuddur. 2007-ci il fevralın 23-də Bakıda Azərbaycan – Moldova biznes forumu keçirilib. 2010-cu ilin I rübündə Azərbaycanın Moldova ilə ümumi ticarət dövriyyəsi 734 min ABŞ dolları təşkil etmişdir [2].

Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində Rumıniya dövləti də xüsusi yer tutur. Rumıniya ilə Azərbaycan arasında əlaqələrin kökləri çox əvvələ dayanır. Rumıniya Azərbaycanın müstəqilliyini 1991-ci il

dekabrın 11-də tanıyıb. 1997-ci ildə Rumıniyanın Azərbaycanda səfirliyi fəaliyyətə başlamış, 2001-ci ildə isə Şərqi Avropa dövlətlərində ilk dəfə olaraq Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır. İki ölkə arasında diplomatik münasibətlər xüsusilə, Heydər Əliyevin Rumıniyaya 1995-ci ilin iyul səfərindən sonra inkişaf etməyə başlamışdır. Bu səfərdən sonra parlament sədrləri, nazirlər səviyyəsində də səfərlər həyata keçirilmişdir. 5 noyabr 2000-ci ildə Azərbaycanın yeni seçilmiş Parlamentində Azərbaycan – Rumıniya parlamentlərarası dostluq qrupu yaradılmışdır [3].

İki ölkə arasında müxtəlif sahələri əhatə edən 56 sənəd imzalanmışdır. Qeyd edək ki, Rumıniya Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və ölkələrin sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinin tərəfdarıdır. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq təşkilatlarda Azərbaycana Rumıniya tərəfindən davamlı dəstək verilir. İki ölkə arasında siyasi münasibətlərlə yanaşı, iqtisadi, humanitar, mədəni, turizm sahələrində də əlaqələr mövcuddur. Rumıniya – Azərbaycan iqtisadi münasibətləri yüksək templə inkişaf etməkdədir. Rumıniya Azərbaycan neftinin Avropa bazarlarına ixracında iştirak etmək istədiyini dəfələrlə bəyan edib. Bu ölkələr müxtəlif regional layihələrdə, o cümlədən TRASEKA proqramı çərçivəsində fəal əməkdaşlıq edir. 2012-ci ildə Rumıniyaya ixrac 59,60 milyon ABŞ dolları (bütün ixracın 0,25%-i), Rumıniyadan idxalın həcmi 23,99 milyon ABŞ dolları (ümumi idxalın 0,25%-i) təşkil etmişdir. Ticarət balansı isə Azərbaycanın xeyrinə 35,61 milyon dollara çatmışdır. Hal-hazırda Azərbaycanın SOCAR brendinin 16 yanacaq stansiyaları Rumıniyada fəaliyyət göstərir [3].

İki ölkə arasında mədəni əlaqələr getdikcə genişlənir. Məlum olduğu kimi, Bakıda "Azərbaycan – Rumıniya dostluq cəmiyyəti", Buxarestdə isə "Rom-Azer" Rumıniya – Azərbaycan dostluq cəmiyyəti fəaliyyət göstərir. 2006-cı ildə məşhur rumın bəstəkarı olan J.Eneskuya Bakıda abidə ucaldılıb. Tanınmış jurnalist Minodor Mitrikanın Azərbaycanın tarixinə, müstəqillik dövründə əldə etdiyi nailiyyətlərə, Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr edilmiş "Azərbaycanın dirçəlişi" kitabı rumın və ingilis dillərində çapdan çıxmışdır. Böyük Azərbaycan şairi Məhəmməd Füzuli Rumıniyada rumın dilinə tərcümə edilmiş yeganə klassik şairdir.

Yazıçı Anarın, Çingiz Abdullayevin, Elçinin əsərləri, B. Vahabzadənin poemaları rumın dilinə tərcümə edilərək çap olunmuşdur [3].

Azərbaycan Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynayır. Bunu qiymətləndirən digər Avropa ölkələri kimi Rumıniya da Azərbaycanı regionda əsas tərəfdaş ölkə hesab edir. Regional və beynəlxalq təşkilatlarda Azərbaycan və Rumıniya yaxından əməkdaşlıq edirlər. Rumıniya Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılması mövqeyindən çıxış edir [3].

Azərbaycanın xarici siyasətinin yeni istiqamətlərindən biri olan Cənub-Şərqi Avropa ölkələri ilə əməkdaşlıq ölkəmizin siyasi və iqtisadi mövqeyini gücləndirməklə yanaşı Avropa strukturlarında tərəfdaşlarımızın artması istiqamətində də perspektivlərimizi artırır. Bu isə Azərbaycana qarşı Qərbin qeyri-obyektiv münasibətinin zərərli təsirlərindən sığortalanmaq istiqamətində də uğurlu xarici siyasət kursu kimi dəyərləndirilə bilər.

Ədəbiyyat siyahısı:

1. Atakişiyev V. Uğurlu şaxələndirmə siyasəti Azərbaycanın iqtisadi və geosiyasi maraqlarını təmin edir // http://www.azerbaijan-news.az/ index. php? mod=3&id=54539
2. Azərbaycan – Moldova münasibətləri // http://lib.aliyevheritage.org/ az/1921443.html
3. Azərbaycan – Rumıniya münasibətləri // http://lib.aliyev-heritage.org/az/5800868.html
4. Hacıalıyev E. Azərbaycan-Bolqarıstan münasibətləri qarşılıqlı maraq və etimada söykənir // http://www.azerbaijan-news.az/ index.php? mod=3&id=3926
5. Bulgaria and Azerbaijan currently enjoy strategic partnership relations – Mehriban Aliyeva // http://caspianenergy.net/en/events/35719-2016-09-23-10-23-48

NAMIQ ƏLIŞAH OĞLU KƏRIMOV
Azərbaycan Dillər Universiteti

# İRANIN NEFT-QAZ EHTIYATLARI VƏ ONLARIN YERLƏŞMƏ XÜSUSIYYƏTLƏRI

Açar sözlər: İran, Xəzər dənizi, neft, qaz, Fars körfəzi

Ümumilikdə neft-qaz resursları ilə zəngin olan sahələrin ehtiyatlarının dəqiq və dürüst təsviri çox vaxt gizlədilir və yaxud bilərəkdən səhv məlumat verilir. Bunu da doğuran müxtəlif səbəblər mövcuddur. Hər şeydən öncə hasilatçı dövlətlər öz təbii sərvətlərinin daha böyük həcmdə olduğunu göstərməklə dünyaca məşhur neft və qaz şirkətlərinin marağını çəkmək, əlverişli şərtlərlə investisiya cəlb etməyə və müqavilələr bağlamağa çalışırlar. Sərmayə qoymaq istəyən tərəf qəsdən ehtiyatların az olduğunu göstərir və bununla özünə daha sərfəli formada kredit yatırmasına çalışmaqdadır. Bu səbəbdən də ehtiyatlarla bağlı müxtəlif mənbələrdə müxtəlif rəqəmlərə rast gəlinir və bu İran üçün də keçərlidir.

2014-cü ilin məlumatına görə İranın neft ehtiyatları 157,8 milyard barrel, təbii qaz ehtiyatları isə 34 trilyon kub metr həcmində qiymətləndirilir. Dünyanın toplam neft ehtiyatlarının da 9,3%-i, təbii qazın isə 18,2%-i İranın payına düşməkdədir ki, bu da İranın neft-qaz ölkəsi kimi əhəmiyyətini bir daha təsdiqləmiş olur [Karagül, Ateş , Kaya, Kızılkaya, 2016, 49]. Qeyd edək ki, İranın əsas neft-qaz yataqları Fars körfəzində və ölkənin əsasən cənubunda yerləşir. Cənubi Fars bölgəsində İranın qaz rezervləri 14 trilyon kubmetr həcmində qiymətləndirilir ki, bu da onun bütün təbii qaz ehtiyatının 40%-i təşkil edir. Sözügedən yataq 1990-cı ildə Bəsrə körfəsinin 100 kilometrlik sahəsində aşkar edilmiçdir. [6; 1, 1-2]. Bundan əlavə Kiş, Şimali Fars, Lavan, Gülşən və Firdevs (Firdovsi) cənub qonşumuzun əhəmiyyətli qaz yataqlarıdır. İranın neft ehtiyatlarının 70%-i sahil zonasında, 30%-i isə quruda yerləşir. Xəzərin İrana aid olan sektorunda neft ehtiyatları 500 milyon barrel həcmində qiymətləndirilir ki, bu da cənub qonşumuz üçün prioritet təşkiletmir.

Böyük Britaniyanın BP şirkətinin məlumatlarına əsasən isə İranın təsdiqlənmiş neft ehtiyatları 2010-cu il məlumatına görə 137,0 milyard barel, təbii qaz ehtiyatları isə 29,6 trilyon kubmetr təşkil edir. İranın təbii qazı dünya qaz ehtiyatlarının 14%-ni təşkil edir. [Həsənov,2016, 22-23].

Neft ehtiyatlarının isə təxminən 70%-i əsasən İraq ilə sərhəd ərazilərdə, Körfəz sahili bölgələrdə yer almaqdadır [Akhundzade, Özkan, 2014, 1-2]. Sahildən kənar, birbaşa quruda yerləşən neftli ərazilər içərisində Abuzər adlanan sahə öz zənginliyi ilə seçilir. İranın cənub əraziləri tək karbohidrogen ehtiyatlarının zənginliyi ilə diqqəti çəkmir, həm də neft və sıxılmış qazın (LİNG) daşınmasında mühüm keçid hesab edilən Hörmüz boğazında mühüm üstünlüklərə malikdir. Boğazın əhəmiyyətini göstərmək üçün qısaca olaraq qeyd edək ki, dünya dəniz neft və sıxılmış qaz ticarətinin üçdə bir hissəsi bu boğaz vasitəsi ilə həyata keçirilir.

İranın Xəzərdə neft ehtiyatları isə elə də böyük deyildir. Dənizin dərin sularında axtarış kəşfiyyat işlərinin aparılması və hasilatı üçün lazım olan yeni texnoloji avadanlıqlar, eləcə də kifayət qədər maliyyə yatırımları edilmədiyindən bu ehtiyatları tam reallaşdırmaq hələ ki, mümkün deyildir. Xəzərin səthindəki su axını da İran üçün əlavə problemlər yaratmaqdadır. Belə ki, axımın istiqamətinin şimaldan cənuba olması quzey və qərbdəki çirkli suları İran sahəsinə gətirir ki, bu da işləri çətinləşdirir [Gökçe, 2011,164; Mehdiyoun, 2000, 182].

İrana tətbiq edilmiş sanksiyalar və Qərb ilə münasibətlərin pozulması səbəbi ilə böyük həcmdə investisiya və qabaqçıl texnologiya İrana daxil ola bilməmişdir. Xəzərin İrana aid olan hissəsində neft və təbii qaz ehtiyatlarının kəşfi məhdud şəkildə aparılır. Sanksiyalar səbəbindən Tehran kəşf olunmuş və real istismara cəlb olunmuş yataqlarının karbohidrogen məhsullarına bazar tapmaqda xeyli çətinliklərlə qarşılaşmışdır. Bu isə təbii olaraq ixrac-boru kəməri sisteminin də zəif olmasını şərtləndirmişdir. 2012-ci ildə İran dənizdə 700 metr dərinlikdə yerləşən Sərdar-e Cəngəl neft və qaz yatağının perespektivliyini açıqladı. [Azernews,2015,11, 67]. Sözügedən yataq texnoloji baxımdan işlənməli, onun resurslarının kommersiya baxımdam rentabelliyi müəyyən edilməlidir. Amma bu tətbiq olunmuş sanksiyalar nəticəsində xarici investisiyaya "möhtac" qalan aparıcı beynəlxalq neft şirkətlərinə

investisiya yatırmaq və birgə işlənilmə üçün təklif olunan 55 quru və dəniz yataqlarından biridir.

Yeri gəlmişkən qeyd edək ki, Sərdar-e Cəngəl neft-qaz yatağı Gilan əyalətində İran sərhəddinin qurtaracağında yerləşir. Sözügedən yataq 24 kilometr uzunluğunda, 16 kilometr enində olub və bir neçə laydan ibarətdir. Yatağın 2001-ci ildə tapıldığı və 2011-ci ildə isə kəşfiyyat qazma işlərinə başlanıldığı qeyd edilir. Bundan əlavə rəsmi Tehranın Xəzərdə Nur və Royan, Ramsar və Rodsar yataqlarında neft-qaz ehtiyatlarının olduğu İran geoloqları tərəfindən bildirilir. [Хорами,2017,107]. İranın Xəzərdə perespektivli hesab edilən qaz yataqlarından biri də Qonbədli yatağıdır ki, onun da bir hissəsi Türkmənistan sektoruna düşür. Daha doğru söyləsək, yataq Xəzərin İran və Türkmənistan sərhəddində yerləşir. Təbii olaraq ilk yanaşmada yatağın hansı dövlətə məxsus olması üstündə mübahisə yarandığını zənn etmək olar. Amma məsələyə rassional yanaşdıqda Tehrana tətbiq olunmuş sanksiyalar fonunda İran üçün sözügedən yatağın Türkmənistanla birgə istismarı daha məqsədəuyğun hesab edilə bilər. Başqa sözlə, Türkmənistan İran kimi sanksiyalara məruz qalmadığından xarici investisiyaların cəlbi onun üçün daha əlyetən görünür. Qonbədli yatağında faktiki olaraq üç quyu fəaliyyət göstərir və gündəlik qaz istehsalı 1 milyon kubmetrdir [7]. Yataqda qazılmış 9 quyunun hanısı istismara verilərsə gündəlik 2-3 milyon kubmetr qaz hasil edilə bilər. İran kəşfiyyat və işlənilmə üçün Xəzərin özünəməxsus hissəsində xarici investorlara dörd layihə təklif etmişdir [10] ki, bunlar da 24, 26, 29-cı bloklar və Sərdar-e Cəngəl neft yataqlarıdır. Ümumilikdə İran Xəzərin ona aid olan sektorunda 46 bloka sahibdir, onlardan 8-i prioritet təşkiledir.

Yeri gəlmişkən qeyd edək ki, xarici investisiyanın cəlbi və yeni texnologiyaların tətbiqi, eləcə də bu sahədə kifayət qədər elmi-texniki təcrübəyə malik olan Azərbaycan ilə əməkdaşlıq İran üçün faydalı ola bilər. Bu həm də Azərbaycan üçün də maraq doğuran məsələlrdəndir. Məsələnin iqtisadi-kommersiya əhəmiyyəti ilə yanaşı İranla münasibətlərin istiləşməsi heç kimə sir olmayan Tehran-Yeravan "yaxınlığı"na da öz "təsirini" göstərəbilər..

İrana üçün mövcud və daha böyük Fars körfəzi bölgəsindəki neft-qaz yataqları Xəzər region ilə müqayisədə daha cəlbedici görünür. Rəsmi Tehran Xəzərdə iqtisadi siyasətdən daha çox təhlükəsizlik məsələlərinə

diqqət yetirir və bu haqlı olaraq bəzi İran iqtisadçıları tərəfindən tənqid olunur. Apardığımız tədqiqat və təhlilin nəticəsində bu qənaətə gəlirik ki, İran çox böyük neft və qaz resurslarına malikdir və bunlar ölkənin cənubunda, eləcə də İraq ilə sərhəd ərazilərdə yerləşir.

Ədəbiyyat siyahısı:

1. Akhundzade Emin, Seray Özkan. İran enerji görünümü. Hazar Strateji Enstitüsü Enerji ve Ekonomi Araştırmalar Merkezi.. İstanbul, Aralık 2014, 13 s

2. Сейед Хамид Хоссейни Хорами Каспийский ресурс и интересы Ирана в этом регионе. Theories and Problems of Political Studies. 2017, Vol. 6, Is. 4A, c.101-112. c.107

3. Details of 21 Iranian gas fields, offered to foreigners, Azernews, 4 December 2015 http://www.azernews.az/region/90492.html

4. Erdal Tanas Karagül, Seyithan Ahmet Ateş, Salihe Kaya, Mehmet Kızılkaya,Türkiyənin enerjidə mərkəz ölkə olma arayışı SETA Baskı: Turkuvaz Matbaacılık Yayıncılık A.Ş. İstanbul, 2016, 83 s

5. Həsənov.Ə. M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2016, 295 s

6. Iran, U.S Energy Information Administration-EIA, 19 . June 19, 2015 http://www.eia.gov/beta/international/country.cfm?iso=IRN

7. Iran to exploit gas from Turkmenistan joint field, Mehrnews, http://en.mehrnews.com/news/113716/Iran-toexploit-gas-fromTurkmenistanjointfield

8. Kamyar Mehdiyoun, "Ownership of Oil and Gas Resources in the Caspian Sea", The American Journal of International Law, Vol. 94, No. 1, January 2000, 237 p. pp.179-189

9. Mustafa Gökçe. Soguk savaş öncesinden günümüze İranın Hazar denizi siyaseti. Tarihin Peşinde-Uluslararası Tarih ve Sosyal Araştırmalar Dergisi. Yıl: 2011, Sayı: 164, s.153-176;

10. Overview: The Caspian Sea Fields Iran's Offering to Foreigners, http://www.naturalgaseurope.com/irans-oilgas-projects-caspian-sea-foreigners azerbaijan

11. Rzayeva G. Sanksiyalardan sonra enerji sahəsində Azərbaycan-İran əməkdaşlığı. s. 65-81 Azərbaycan-İran əməkdaşlığı əsas istiqamətlər və imkanlar. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. B, 2018 204 s. s. 65-81

NAMIQ ELDAR OĞLU MƏMMƏDOV
AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

TÜRKIYƏDƏ 2015-CI IL PARLAMENT SEÇKILƏRI: PKK-NIN "XƏNDƏK" SIYASƏTI VƏ ONUN NƏTICƏLƏRI

Açar sözlər: Türkiyə, parlament seçkiləri, HDP, PKK, YDG-H, xəndək siyasəti

Müasir dövrdə demokratik dövlətlərdə seçkilərə və onun nəticələrinə maraq mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Türkiyə parlament demokratiyasının inkişaf etdiyi dövlətlərdən biri kimi bu sahədə müstəsna yer tutur. Türkiyədə seçkilər həmişə hakimiyyətin mahiyyəti, onun müddəti, forması, xarakteri və s. məsələlərə öz təsirini göstərmiş və göstərməkdə də davam etməkdədir. Buna görə də seçkilər əhəmiyyətli dərəcədə diqqət mərkəzində durur, seçki kampaniyalarının yüksək səviyyədə təşkil olunmasına çalışılır. Siyasi partiya və liderlər qələbə qazanmaq üçün demək olar, bütün mümkün variantlardan istifadə etməyə səy göstərirlər.

2015-ci il parlament seçkiləri müasir Türkiyə tarixinin ən əhəmiyyətli hadisələrindən biri hesab oluna bilər. Seçicilərin səsvermədə iştirak aktivliyi də bunu söyləməyə əsas verir. İl ərzində təşkil edilən hər iki seçki kampaniyasında seçicilərin iştirak göstəricisinin 80 faizdən artıq olması qeyd edilənlərin əyani sübutudur. Seçkilər iki mərhələdə reallaşmışdır. Birinci mərhələ iyunun 7- də, ikinci mərhələ isə noyabrın 1-də həyata keçirilmişdir.

Kürdyönümlü Halkların Demokratik Partisi (HDP, Xalqların Demokratik Partiyası - XDP) də bu seçkilərdə iştirak edirdi və bu partiyanın seçki bəyannaməsi 2015-ci il aprelin 21-də "Biz Məclisə" şüarı ilə ictimaiyyətə təqdim edilmişdi. [1, s. 24-25]. Seçki bəyannaməsi HDP-yə səs verən kürd seçicilərlə yanaşı, AK Parti və R.T.Ərdoğan əleyhdarlarına, ələvilər və sekulyar kütlələrə xitab edirdi. Bəyannamədə parlamentar sistemin gücləndirilməsinin vacib olduğu vurğulanırdı. Seçki bəyannaməsində demokratiya və əsas hüquqlar sahəsində vədlər verilsə də, HDP-nin PKK (Partiya Karkeren Kürdistane - Kürdistan Fəhlə

Partiyası) ilə əlaqələrinin kəsilməməsi baryeri keçməyəcəyi halda partiya və Türkiyənin yenidən şiddətlə qarşılaşacağı təhlükəsini yaradırdı [9, s.66].

2015-ci il iyun ayının 7-də Türkiyə Böyük Millət Məclisinə (TBMM) keçirilən növbəti seçkilər AK Parti üçün çox da uğurlu olmadı. Ümumilikdə 21 siyasi partiya və 166 müstəqil namizədin qatıldığı bu seçkilərdə 10 faizlik baryeri keçən cəmi 4 siyasi partiya oldu. Bunlardan AK Parti – 40.9 faiz (müqayisə üçün qeyd etmək olar ki, 2011-ci ildəki seçkilərdə bu göstərici 49.83 faiz idi) səs toplamaqla 258, CHP – 25 faiz səs toplamaqla 132, MHP – 16.3 faiz səs toplamaqla 80, HDP isə 13.1 faiz səs toplamaqla 80 deputat yeri qazandı [6; 8].

2015-ci il seçkiləri ərəfəsində Türkiyənin qarşısında həllini gözləyən bir sıra problemlər vardı. Bunların içərisində kürd millətçiliyi və PKK xüsusi yer tutur.

Bu və digər şərtlərin təsirilə 2015-ci ilin iyun ayında Türkiyədə parlament seçkilərinin birinci mərhələsindən sonra qarşıdurmalar başlanılmışdı. PKK-nın gənclər təşkilatları kimi şəhərlərdə təşkil edilən YDG-H (Yurtsever Devrimci Gençlik Hareketi- Vətənpərvər İnqilabçı Gənclik Hərəkatı) üzvləri bəzi məhəllələrdə xəndəklər qazmış, barrikadalar quraraq təhlükəsizlik qüvvələri ilə mübarizəyə başlamışdılar [5, s.3)

Kürdlər tərəfindən beynəlxalq aləmdə "xalqın özünümüdafiəsi" şəklində təqdim olunan bu hadisələr zamanı 5 aya qədər davam edən müddətdə müxtəlif vilayətlərdə 100 nəfərdən artıq təhlükəsizlik nümayəndəsi və təxminən həmin sayda mülki vətəndaşın ölümünə, 250 mindən artıq insanın köç etməsi və ya evlərini uzun müddətə tərk etməsinə və 800-dən artıq təşkilat üzvünün məhv edilməsinə gətirib çıxarmışdır. Bundan əlavə, üzunmüddətli küçəyə çıxma qadağaları, PKK-nın boykotları və münaqişə səbəbilə bölgədə sosial-iqtisadi həyat iflic olmuşdur.

Ümumiyyətlə, AKP-nin hakimiyyətinin ilk dövrlərindən başlayaraq kürd probleminin həlli istiqamətində bir sıra addımlar atılmağa başlanmışdır və bu proses ictimaiyyətdə "sülh prosesi" ("barış süreci") kimi adlandırılmışdır. Lakin PKK bu müddətdən özünün gücləndirilməsi istiqamətində istifadə etməyə başlamışdır. PKK-nın formal şəkildə bir neçə qrupu şimali İraqa göndərməkdən əlavə öz nümayəndələrini Türkiyə

ərazisindən çıxarmaması bunun ən mühüm sübutudur. Təxminən üç il ərzində yürüdülən "sülh prosesi" xəndək siyasəti ilə sona yetdi. Bəzi tədqiqatlara görə, 7 iyun 2015-ci il seçkilərində HDP-nin gözlənilənlərdən daha çox dəstək qazanması PKK-nın panikaya düşməsinə səbəb oldu. Çünki bununla onlar (PKK) öz güc və təsir imkanlarının azalacağını gördülər. Bunun nəticəsində yenidən şiddətdən istifadə edərək leqal siyasətin qarşısını almağa çalışırdılar[5, s.27].

2015-ci ilin iyun ayından Türkiyənin cənub və cənub-şərqində yerləşən 7 vilayətdə (Hakkari, Şırnak, Mardin, Diyarbakır, Muş, Batman, Elazığ) xəndəklər qazılmış, barrikadalar qurulmuş və yerli özünüidarəetmə elan edilmişdi. Buna qarşılıq olaraq həmin vilayətlərdə və 19 qəsəbədə qısa və uzunmüddətli olmaqla 58 komendant saatı elan edilmişdi. [5, s.36-37].

Lakin xəndək siyasəti xalqın sosial-iqtisadi vəziyyəinə ağır təsir göstərdi. Bu siyasət kürdyönümlü siyasi partiya olan HDP-yə də təsirsiz ötüşmədi. Həmin bölgələrdə HDP onsuz da orta hesabla 70 faizdən yüksək səs qazanmışdı. Xəndək siyasətinin təsirinin əhatə etdiyi bölgələrdəki əhali sayının 1.3 mln. nəfərdən artıq olduğu müəyyən edilmişdir. Bölgənin ümumi əhali sayı isə 4.7 mln. nəfərdən artıq olmuşdur [4].

HDP-yə mənfi təsirin ən mühüm göstəricisi isə 2015-ci il noyabrın 1-də təşkil olunan seçkilərin ikinci mərhələsində səs faizinin aşağı düşməsində ifadə olundu. 2015-ci il noyabrın 1-də reallaşan seçkilər AK Partinin qələbəsi ilə yekunlaşdı. Səsvermə nəticəsində AK Parti – 49.5 faiz səs toplamaqla 317, CHP – 25.3 faiz səs toplamaqla 134, MHP – 11.9 faiz səs toplamaqla 40, HDP isə 10.8 faiz səs toplamaqla 59 deputat yeri qazandılar [2, 12.11.2015; 7].

Türkiyə İnsan Hüquqları Vəqfinin 22 mart 2016- cı il tarixində əməliyyatlarla əlaqədar hesabatına əsasən, 7 vilayətdə və 22 ilçədə umumilikdə 63 dəfə komendant saatı elan edilmiş və ən azı 310 mülki vətəndaş həlak olmuşdur[3]. 2016-cı ilin ortalarına qədər davam edən əməliyyatlar nəticəsində PKK şəhər mərkəzlərindən geri çəkilməyə məcbur edildi.

Ədəbiyyat siyahısı:

1. Alkan H. HDP Seçim Beyannamesinin Değerlendirilmesi // 7 Haziran 2015'e Doğru AK Parti, CHP, MHP ve HDP'nin Seçim Beyannamelerinin Deyerlendirilmesi. SDE Analiz. Ankara, Haziran 2015.

2. Habertürk, 12.11.2015

3. Hendek operasyonları // https://ipfs.io/ipfs/QmT5NVUtoM5nWFfrQdVrFtvGfkfmG7AHE8P34isapyhCxH/wiki/Hendek operasyonu.html [2.04.2019]

4. Türkiye'nin il il nüfus sayıları açıklandı. İşte illerin nüfusu // Yeni Şafak- 2.08.2016 [24 iyun 2019] https://www.yenisafak.com/turkiyenin-il-il-nufus-sayilari-aciklandi-iste-illerin-nufusu-h-2503236

5. Yanmış M. Hendek siyaseti, sokağa çıkma yasakları ve 7 Haziran sonrası şiddet olaylarının kürt kamuoyu üzerindeki etkileri: kürtler süreci nasıl değerlendiriyor? Dicle Universitesi, 2016, s.3 (72 s.) // serdargunes.files.wordpress.com/2015/8/kurtler_sureci_nasil_degerlendiriyor.pdf [2.04.2019]

6.2002'den 2015'e AK Parti'nin seçim zaferleri // www.iha.com.tr/haber-2002den-2015e-ak-partinin-secim-zaferleri-508490/

7. 2015 Genel Seçim Sonuçları // www.hurriyet.com.tr/secim-2015/

8. 2015 seçim sonuçları açıklandı! İşte AK Parti, CHP, MHP ve HDP sandık sonuçları //www.milliyet.com.tr/2015-secim-sonuclari-aciklandi--gundem-2072537/

9. 2015'te Türkiye. SETA. İstanbul, 2015.

NAZILƏ KAMIL QIZI DOSTIYARI
Azərbaycan Dillər Universiteti

# BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ AZƏRBAYCANIN AVROPA ENERJI TƏHLÜKƏSIZLIYININ TƏMIN OLUNMASINDA MÜHÜM ROLU

Açar sözlər: Avropa, əməkdaşlıq, boru kəməri, TAP, TANAP

Dərin mənəvi, mədəni, elmi iqtisadi potensiala, əlverişli coğrafi – siyasi mövqeyə malik Azərbaycan, həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Məhz bu səbəbdən respublikamız digər, istər region ölkələri, istərsə də dünya dövlətləri tərəfindən daim diqqət mərkəzində olmuş və bu proses bu gün də davam etməkdədir. Bu sərvətlər içərisində neft əsas yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra dünyada əsas enerji mənbələrinə nəzarət uğrunda mübarizənin kəskinləşməsi sözügedən müqavilə çərçivəsində hasil olunacaq milyonlarla ton xam neftin hansı əsas marşrutla Qərb bazarlarına nəql ediləcəyi məsələsini də başlıca mübahisə predmetinə çevrilmişdi. Bu məsələ ilə bağlı fərqli təklif və ideyalar təkcə layihənin iştirakçısı olan dövlətlərin iqtisadi deyil, həm də təhlükəsizlik maraqlarından irəli gəlirdi. Eyni zamanda, region dövlətləri əsas ixrac boru kəmərinin məhz onların ərazisindən keçməsinə, beləliklə də, külli miqdarda tranzit gəlirinə sahib çıxmağa, eyni zamanda alternativ enerji mənbələri əldə etməyə çalışırdılar. Mümkün marşrutlar içərisində hansının siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrilmişdi. Məsələnin aktuallığı həm də Bakı - Novorossiysk və Bakı - Tbilisi - Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, xüsusən də birincinin geosiyasi baxımdan əlverişli olmaması ilə şərtlənirdi. Həmin vaxt layihənin əleyhdarları bu strateji

kəmərin Bakı - Tbilisi - Ceyhan (BTC) marşrutu üzrə gerçəkləşməsini əfsanə hesab edir, onun reallıqdan tamamilə uzaq olduğunu bildirirdilər. "Bizim Bakı - Ceyhandan başqa yolumuz yoxdur. Bu, bizə həm iqtisadi baxımdan faydalıdır, həm siyasi baxımdan, həm də ən mühümü müstəqilliyimizi möhkəmləndirmək üçün ən əsas amildir" - deyən ulu öndər Heydər Əliyev böyük diplomatik səylər hesabına sözügedən layihənin siyasi baxımdan altemativsiz olduğunu beynəlxalq miqyasda tam sübuta yetirdi və müvafiq sazişin imzalanmasına nail oldu. [Əliyev, 1997, 253] Respublikamız neft kəmərlərinin şaxələndirilməsi siyasətini həyata keçirir və bu da ölkənin enerji təhlükəsizliyinin daha səmərəli təşkilinə xidmət edir. Hazırda Azərbaycan nefti üç neft kəməri - Bakı - Tbilisi - Ceyhan, Bakı - Supsa və Bakı- Novorossiysk xətiti vasitəsilə Avropa bazarlarına çıxarılır. Növbəti layihə kimi Odessa - Brodı - Plotsk - Qdansk marşrutunun reallaşdırılmışdır.

2007-ci ilin mayında Polşanın Krakov şəhərində, həmin ilin oktyabrında Litvanın paytaxtı Vilnüsdə, 2008-ci ilin mayında Ukraynanın paytaxtı Kiyevdə keçirilmiş enerji sammitləri Xəzərin zəngin karbohidrogen ehtiyatlarının nəqlində alternativ neft və qaz kəmərləri sisteminin yaradılması zəruriliyi ətrafında geniş fikir mübadiləsi aparılmış, bir sıra konkret nəticələr əldə olunmuşdur. Vilnüs Konfransının yekunu kimi Azərbaycan, Gürcüstan, Litva, Polşa, Ukrayüna və Qazaxıstanın dövlət başçılarının 10 oktyabr 2007-ci ildə imzaladıqları birgə kommunikeyə əsasən, Xəzər neftinin karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınması üçün mili şirkətlərin iştirakı ilə yeni konsorsiumun əsas məqsədi Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa respublikalarının ərazisindən keçməklə Xəzər dənizindən Avropa bazarlarına və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasının mümkünlüyünü təhlil etməkdir. Azərbaycan təbii qazını Gürcüstan -Türkiyə sərhədlərinə qədər daşıyacaq. Cənub Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) Türkiyədən keçərək Yunanıstanadək uzanacaq Trans-Anadolu (TANAP) və Yunanıstan, Albaniya, Adriotik dənizindən keçməklə Italiya sahillərində çıxacaq. "Trans Adriotik" ( TAP) boru kəməri ümumilikdə "Cənub Qaz Dəhlizi" nin əsas seqmentidir. [4, 2017, 9] Həmin boru xətləri vasitəsi ilə Xəzər dənizinin Azərbaycan sektorunun "Şahdəniz-2" yatağından hasil

olunacaq qaz Türkiyədə və bu ölkədən də Avropaya çatdırılacaq. Uzunluğu 3500 km olan "Cənub Qaz Dəhlizi" vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard mm3, Avropaya 10 milyard mm3 təbii qazın nəqlini nəzərdə tutulur. Azərbaycan təbii qazın 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ildən isə Avropaya çatdırılması planlaşdırılır. Uzunluğu 1850 km olan TANAP layihəsinin dəyəri hazırda 7, 99 milyard ABŞ dolları təşkil edir. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcəkdir. TAP layihəsi Cənubi Qafqaz Boru kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2" də hasil olunacıq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə Italiyanın, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutulur. TAP boru kəməri TANAP-la birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhədində yerləşən Kipoi ərazisindən başlayaraq TAP boru kəməri TANAP-la birləşəcək və Albaniya ərazisinə qət edərək şərqdən qərbə Adriotik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqliya bölgəsində sahilə çıxacaqdır. Boru kəməri "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı çəbəkəsinə birləşəcəkdir [4, 2017, 9] Bu lahiyə Azərbay¬can qazının, İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsvecrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

Xəzər dənizi Avropanın mərkəzi ilə birləşdiriləcək bu lahiyə yalnız kəmər deyil. XXI əsrin mühüm strateji əhəmiyyətli tarixi hadisəsi, xalqlar arasında əməkdaşlığı eyni məqsəd naminə birləşdiriləcək dostluq körpüsüdür. Qlobal enerji layihələrinə marağın artması həmin ölkələrin iqtisadi imkanlarının genişlənməsi, risklərdən qorunması və milli təhlükəsizliyin təminatı üçün də başlıca şərtlərindəndir. [3, 2016,15]

Çıxarılmış 2 miyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə çıxarılmışdır. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra dəqiq desək, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra region dünya ölkələri və beynəlxalq qurumlara səmərəli əməkdaşlıq edir. Bu səmərəli əməkdaşlığın və münasibətlərin nəticəsində dövlətimiz reqional və beynəlxalq əhəmiyyətli layihələri uğurla reallaşdırılmışdır.

"Azərbaycan nefti, Azərbaycanın təbii sərvətləri Azərbaycan xalqının xidmətindədir və bu əsas məqsəddir" söyləyən dövlət başçısı neft strategiyasının uğurlu həllini digər aspektlərdən qiymətləndirərək inamla

vurğulayır ki, neft Azərbaycana sülh, sabitlik, əməkdaşlıq gətirir, gözəl imkanlar yaradır, iqtisadi cəhətdən qüdrətli dövlətə çevirir, beynəlxalq münasibətlərdəki mövqeyini möhkəmləndiri. Tərəfdaşlıq əlaqələrini çoxaldır. [1]

Ədəbiyyat siyahısı:

1. Dünya iqtisadi sistemində Azərbaycanın mövqeyi möhkəmlənir http://www.anl.az/down/meqale/ses/2011/fevral/154491.htm]
2. Əliyev H. "Azərbaycan nefti dünya siyasətində: Bakı, 1997. 253 s.
3. İki sahil qəzeti, 20 oktyabr 2016-cı il, s.15
4. "SOCAR" 2017-ci illik hesabat, s.9

NAZILƏ XASAY QIZI SƏFƏROVA
Azərbaycan Dillər Universiteti

BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ KONFLIKT

Açar sözlər: ziddiyyət, konflikt, dövlət, hakimiyyət, münasibət

Reallığın obyektiv və subyektiv ziddiyyətlərinin təzahürü kimi konfliktlər cəmiyyətin bu və ya digər sferalarına müvafiq müxtəlif formalarda baş verir. Belə ki, hakimiyyət səlahiyyətləri və sərvətlər uğrunda mübarizəni əks etdirən siyasi münaqişələrin ən geniş yayılmış növlərindən biri beynəlxalq konfliktdir. Beynəlxalq konflikt beynəlxalq münasibətləri daim müşayiət edən hadisədir. Onun məzmun və xarakterinin təhlili ilə bağlı elmi ədəbiyyatlarda müxtəlif baxışlar mövcuddur.

"Beynəlxalq münasibətlərdə siyasi realizm" nəzəriyyəsinə görə beynəlxalq münasibətlər hakimiyyət və dünya sahibliyi uğrunda mübarizədir. Bu mübarizə beynəlxalq münasibətlərin başlıca amilləri ilə şərtlənir. Belə amillərdən biri milli dövlət və onun mənafeləridir. Məhz mənafe beynəlxalq aləmdə baş verən siyasi hadisələrin əsasında durur və xarici siyasəti müəyyənləşdirən siyasi və mədəni amillərdən asılıdır. Həmin amillərdə baş verən dəyişikliklər mənafelərin transformasiyası ilə nəticələnir. Beynəlxalq münasibətlərin digər amili əxlaqi dəyərlərdir. Bu dəyərlər ayrı-ayrı dövlətlərin iddiaçılığını müəyyən dərəcədə məhdudlaşdıraraq beynəlxalq münasibətlər sferasında bütün millətlərə qarşı humanist davranış ehtimalını yüksəltməlidir.

Beynəlxalq münasibətlərin digər nəzəriyyəsi "Müharibə və sülh" konsepsiyasıdır. Həmin konsepsiya beynəlxalq münasibətləri dövlətlər arasında münasibətlər hesab edir. Dövlətlər arasında münasibətlər isə simvolik fiqurların davranışında öz ifadəsini tapır. Beynəlxalq münasibətlərdə dövləti konkret şəraitdən asılı olaraq ya əsgər (müharibə şəraitində), ya da diplomant (diplomatiya sahəsində) təmsil edir. Bu konsepsiyaya görə dövlətlər arasında münasibətlərin inkişafı ölkələrin daxili həyatında baş verən hadisələrin təsiri ilə müəyyən edilir. Daxili siyasətin məqsədi leqal hakimiyyəti təmin etmək üçün güc tətbiq etmək

olduğu halda, xarici siyasət dövlətin mövcudluğunu mühafizə etmək üçün silahlı qüvvələrə arxalanır. Deməli, müharibənin məqsədi ya dövlətin mövcudluğu, ya dövlətin məhvi, ya da dövlətin yaradılmasıdır.

Beynəlxalq münasibətlərin başqa bir nəzəriyyəsi "Beynəlxalq tarazlıq" (ekvilibrium) konsepsiyasıdır. Bu konsepsiya beynəlxalq münasibətlərin sabitləşməsi və dəyişkənliyi şərtlərinin öyrənilməsi məqsədilə yaradılıb. Bu baxımdan beynəlxalq tarazlığın başlıca amilləri və modeli aşağıdakı kimi təsəvvür olunur:1) Hər bir cəmiyyət özünün sabitliyini təmin etmək qayğısına qalır və müvafiq mexanizm hazırlayır. Lakin cəmiyyətin inkişafı tələbləri sabitliyi daimiləşdirməyə imkan vermir. Cəmiyyətin inkişafı qərarlaşmış sabitliyin pozulması yolu ilə baş verir. Maddi istehsal sahəsində, mənəvi dəyərlərin yeniləşməsi ilə nəticələnən hər bir irəliləyiş sabitliyi pozan amil rolunu oynayır. 2) Sabitləşmə cəmiyyətin yeni vəziyyətə keçməsinə hazırlıq mərhələsi kimi mütərəqqi rol oynayır. Sabitliyi təmin edən başlıca alət təsisatlanmış tarazlıqdır. 3)Beynəlxalq aləmdə mövcud olan beynəlxalq təşkilatlar sabitləşdirici tarazlıq imkanlarına malikdir. Bu imkanların reallaşması üçün tələb olunan şərtlər isə aşağıdakılardır: a) həmin təşkilatın üzvlərinin onların üzərinə qoyulan vəzifələr və bundan irəli gələn məhdudiyyətlərə razı olmamaları; b) ayrı-ayrı orqanlarda təmsil olunan gücün, təşkilatın üzvlərinin tərkib uyğunluğu və s. [Əfəndiyev, 1998,30-31]

Bu nəzəriyyələri ümumiləşdirərək deyə bilərik ki, beynəlxalq konflikt iki və daha çox tərəfin-xalqların, dövlət və ya dövlətlər qrupunun iqtisadi, sosial-siyasi, ərazi, milli, dini və başqa maraqlarının dolayısı, yaxud bilavasitə toqquşması formasında meydana gələn xüsusi siyasi münasibətdir. Şübhəsiz ki, beynəlxalq konflikt xüsusi, lakin mühafizəkar olmayan siyasi münasibətdir.

Siyasi münasibətlərin bir növü kimi beynəlxalq konfliktə səbəb yuxarıda göstərilmiş məsələlər ətrafında formalaşan fikir ayrılığı və ziddiyyətlər, eləcə də onların inkiçafındakı qeyri-bərabərlikdir. Beynəlxalq konflikt yalnız obyektik deyil, subyektiv ziddiyyətlərlə də şərtlənir. Subyektiv ziddiyyətlər isə hər hansı ölkənin siyasi elitasının baxışları və siyasi qərarları qəbuletmə üsullarının xüsusiyyətlərilə müəyyənləşir. Yəni real ziddiyyətləri özgəninkiləşdirən tərəfin məqsəd və maraqlarını əks etdirən subyektiv zidiyyətlər bir çox hallarda konfliktin meydana gəlməsi

və inkişafı vasitəsi kimi çıxış edir. Ümumiyyətlə, istər obyektiv, istərsə də subyektiv ziddiyyətlərin inkişafı beynəlxalq konfliktə səbəb olur. Beynəlxalq konflikt isə beynəlxalq böhran və dövlətlərin silahlı mübarizəsi formalarında təzahür edir.

Beynəlxalq böhran silahlı toqquşmadan fərqli konflikt şəraitini əks etdirir. Belə ki, beynəlxalq konfliktin subyektlərindən (dövlət və ya dövllətlər birliyi, siyasi təşkilatlar) hər hansının həm siyasi sisteminin fəaliyyətində (durğunluq, yaxud inkişaf), həm də onların mövqelərində yaranan dəyişiklik əvvəlki kimi xarici siyasəti davam etdirməyə imkan vermir. Xüsusilə də, böhran zamanı subyektiv səbəblərin rolunun artması bütövlüklə beynəlxalq konfliktin inkişafına ciddi təsir edərək, onu idarə olunmasını çətinləşdirir. Yəni gərgin vaxt məhdudiyyəti şəraitində kiçik qruplar tərəfindən qəbul edilən siyasi qərarlar konfliktin baş verməsini tədricən sürətləndirər. Ancaq böhran uzun müddət gizli vəziyyətdə qalaraq konfliktlə nəticələnməyə də bilər. Siyasətçilərin səyi ilə dəf olunan böhran dövrü xarakter daşıdığına görə müəyyən şəraitdə yenidən təzahür edə bilər.

Beynəlxalq konfliktin daha kəskin və son dərəcə təhlükəli forması silahlı mübarizədir. Siyasi xarakterli konfliktin genişlənməsi və beynəlxalq münasibətlər sistemi subyektlərinin bir-birinə əks maraqlarının toqquşması nəticəsində silahlı mübarizə baş verir. Böyük dağıdıcılıq potensialna malik olan silahlı mübarizə yaranmış şəraitdən asılı olaraq şəraitdən asılı olaraq yekunlaşdırıla bilər. Lakin konflikt və onunla əlaqəli hadisələrin inkişafı hərbi qüvvədən istifadə olunmadan uzun müddət sülh şəraitində davam edər. Bununla belə, müəyyən vaxtdan sonra konfliktin silahlı mübarizə formasında (məsələn, Yaxın Şərq konflikti) təkrarlanması heç də istisna olunmur [Əliyev, 1998, 22-23,24].

Beynəlxalq silahlı mübarizənin digər növü terrorizmdir. İctimai-siyasi və ideoloji problemlərin nəticəsi kimi terrorizmin hər hansı formada təzahürü öz miqyasına görə təhlükəlidir. Ölkələr və onların vətəndaşlarının təhlükəsizliyini qorxu altına alan terrorizm böyük siyasi-iqtisadi və mədəni itkilərə səbəb olmaqla, kütlə psixologiyasına təsir göstərir.

Bu gün dünyada 500-ə qədər qeyri-leqal terrorçu təşkilatlar vardır. Buna Şimali İrlandiya və İngiltərədə "İAO" (İrlandiya azadlıq ordusu),

İspaniyada "BAT" (Basqoniyanın azadlıq təşkilatı), YaxınŞərqdə "Hamas", "Hezbollah" və s. misal göstərmək olar. Həmin təşkilatlara neftçıxaran ərəb və inkişaf etmiş qərb dövlətləri təərfindən maddi kömək edilir. Beynəlxalq terrorizmin maliyyə bazasının formalaşması nəticəsində onun, milli, dini, etnik xarakteri konfliktlərlə, xilaskar və separatçı hərəkatlarla bağlı fəaliyyət növləri genişlənir.

Həm ənənəvi düşmənçilik, həm birtərəfli mənfəət qazanmaq, həm də kooperativ münasibətlər əsasında baş verən beynəlxalq konfliktlərin həlli onların tədricən fəallığının zəifləməsi və məhdudlaşması ilə səciyyələnir. Bu zaman diplomatik vasitələrdən daha aktiv istifadə edilməsinə, qarşılıqlı kompromisin axtarışına və milli dövlətçilik maraqlarının yenidən təhlilinə cəhd göstərilir. Beləliklə də, beynəlxalq konflikt bir və ya bütün tərəflərin, yaxud üçüncü tərəfin (üçüncü tərəf rolunu böyük dövlət, beynəlxalq təşkilat, eləcə də BMT simasında dünya birliyi oynaya bilər) səyi ilə həll olunur. Son döbrlərdə beynəlxalq konfliktlərin həll edilməsində beynəlxalq təşkilatların (ATƏT), o cümlədən BMT-nin rolunu və əhəmiyyəti artmaqdadır. Belə təşkilatların meydana gəlməsi və beynəlxalq həyatda rolunun yüksəlməsi beynəlxalq münasibətləri tənzimləyən, onları nəzarətdə saxlayan ümumdünya və regional mərkəzlərin yaradılması cəhdlərini ifadə edir.

Beynəlxalq konflikt bir sıra funksiyaları həyata keçirərək özünün cəmiyyətdə rolunu ifadə edir. Həmin funksiyaları destruktiv, kommunikativ-informasiya, inteqrasiya və s. kimi qruplaşdırmaq olar: 1.Destruktiv funksiya-beynəlxalq aləmdə öz yeri və rolunu müvafizə etməyə cəhd göstərən dövlətlərin əks maraqlarını itkilər hesabına həll edir. 2. Kommunikativ-informasyon funksiya- beynəlxalq aləmdə qarşılıqlı münasibətləri dəyişən beynəlxalq gərginliyin xəbərdaredicisi rolunu yerinə yetirir. Beynəlxalq konfliktlərə ikitərəfli, regional, yaxud qlobal səviyyəli münasibətlər sisteminə beynəlxalq hüquq dairəsində baxılmasının zəruriliyini ümumdünya birliyinin nəzərinə çatdırır. 3. İnteqrasiya funksiyası- dövlətlərarası qarşılıqlı münasibətlərin beynəlxalq hüquq normaları dairəsində daha fəal həyata keçirilməsi üçün onların həmrəyliyinə, fəaliyyətlərində inteqrasiya kömək edir [Əfəndiyev, 1998, 392-393].

Buradan göründüyü kimi, qeyd edilən funksiyaların cəmiyyətin inkişafında rolu heç də bir mənalı olmamışdır. Onun həm tənəzzülünə, həm də tərəqqisinə xidmət etmişdir. Buna görə də beynəlxalq sülhə təhlükə yaradan beynəlxalq konfliktllərin aradan qaldırılmasına imkan verən təsirli vasitələr sisteminin tədqiqi aktual bir problem kimi cəmiyyətşünaslığın qarşısında durur [Əfəndiyev, 1998, 392-393].

Ədəbiyyat siyahısı:

1. Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı, Siyasət, 1998, s.538
2. Əliyev Q. Dayızadə H. "Konfliktologiyaya giriş" . Bakı, Təbib, 1998, s. 121
3. Анцупов А.Я., Шипилов А.И. Конфликтология. М.: Юнити, 1999, 551 с.

NƏRGIZ ESMAIL ESPANDI
Bakı Dövlət Universiteti

# İNGILIS-İRAN ƏDƏBI ƏLAQƏLƏRININ TƏŞƏKKÜL MƏRHƏLƏSI

Açar sözlər: fars dili, ingilis alimlər, İran dilçiləri, Orta Şərq

XVIII əsrin ikinci yarısından XIX əsrin ortalarınadək iranşünaslıq bir elm kimi formalaşaraq Avestanın qədim İran mixi yazılarının sirrinin açılması, fars dilində klassik poeziyanın öyrənilməsi, İran tarixinin öyrənilməsi üzrə tədqiqatları əhatə edir.
olmaqla alimlər İran tarixi və mədəni abidələrini, bədii ədəbiyyat nümunələrinin tərcümələrini ingilis dilində nəşr etməyə başlamışdılar. Sonralar fars dilindən tərcümələr və mətnlərin nəşri Londonda, Oksforda və Kembricdə cəmləşdirildi. Əslində Kembric universiteti, London universitetinin Şərq və Afrika tədqiqatları məktəbi iranşünaslıq ilə məşğul olurlar [Chopra, 2013].

Qeyd etmək lazımdır ki, Britaniyada İran haqqında məlumatlara, fars ədəbiyyatına marağın artması iki ölkə arasında ilk rəsmi əlaqələrin yarandığı islam dövründə baş vermişdir. Belə ki, bu Böyük Britaniyanın şərq ticarətində iştirakının gücləndiyi XVI əsrə təsadüf edir. Bu dövrdən başlayaraq bir çox tədqiqatçılar İran ədəbiyyatını öyrənməyə səy göstərmişlər. Hətta xarici alimlərin bir çoxu uzun illər boyu Britaniyada yaşamış və Britaniya təhsil müəssisələri ilə bağlı olmuşlar. Onlardan German Etye (1844-1917), Çarlz Riyo (1820-1902) və Vladimir Minorski (1877-1966) bu sahədə böyük uğurlar qazanmışlar.

Fars ədəbiyyatı nümunələrinin xarici dillərə, xüsusən də dünyada geniş yayılmış ingilis dilinə tərcüməsi İranın əsrlər boyu yaradılmış zəngin mənəvi sərvətlərinin tanınması və öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki bu, həm də bütövlükdə İranın tanınmasına, İran ədəbiyyatının və mədəniyyətinin təbliğinə imkan yaradır. Ona görə də İran ədəbi nümunələrinin ingilis dilinə tərcüməsi, eləcə də bu tərcümələrlə bağlı tədqiqatlar aparılması aktuallığını itirmir.
Kembric universitetində İranın orta əsrlər dövrü ədəbiyyatının

öyrənilməsinə mühüm əhəmiyyət verilir. 1986-cı ildə orada çap edilmiş ədəbi əsərlər bununla əlaqədar bəzi məsələlərin üzərinə aydınlıq gətirir. Məlumdur ki, fars poeziyasında İraq üslubu və ya İraq məktəbi adlanan yönümün ən yaxşı nümayəndələri Sədi Şirazi və Hafiz Şirazi olmuşlar. Bu dövrə qiymət vermiş İran tarixçisi Ehsan Yarşaterin kitabının ingilis dilinə tərcümə edilməsi Britaniya oxucularının diqqətini özünə cəlb etmişdir. O, Səfəvilər sülaləsi dövrünün fars məhəbbət lirikası ənənələrini nəzərə alaraq baş verən hadisələri təhlil etmişdir. Bu cəhətdən kitab ədəbi proseslərin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir [Ehsan,1986, 973].

1995-ci ildə Oksford universiteti tərəfindən buraxılmış ədəbiyyatda qeyd olunur ki, orta əsrlərdə İranda lirik poeziya üstünlük təşkil etmişdir. Sanai və Əttar kimi iranlı şairlər Rumidən ruhlanmışlar, həmçinin XIII əsr İran poeziyasının bir sıra nümayəndələri də əsasən şeir formalı qəzəllərin müvafiq inkişafı ilə lirik poeziyanın ağalığı ilə xarakterizə olunur.

Oksford və Kembricdə erkən ərəbşünasların bir çoxu fars dilini də bildiklərindən həm onu tədris edir, həm də İran ədəbiyyatı ilə məşğul olmaq imkanı əldə edirdilər. Şərqşünas S. E. Vilson (1848-1938) Kembric universitetində fars dili və ədəbiyyatını tədris edirdi. O, sonralar London universitetinin kollecində professor vəzifəsində çalışmışdı (1903-1917). S. E. Vilson eyni zamanda Rumi və Caminin rübailərini, həmçinin Nizami Gəncəvinin "Həft peykər"ini tərcümə etmişdi [Wilson, 1924].

Kembric universitetində fəaliyyət göstərmiş iranşünaslardan biri olan Ruben Levinin (1891-1966) fars ədəbiyyatının tədqiq edilməsi sahəsində səylərini də xüsusi qeyd etməliyik. O, universitetdə fars dili və ədəbiyyatı üzrə professor vəzifəsini tutmuş, fars ədəbiyyatı və islam tarixi üzrə bir sıra əsərlər yazmışdır. O, Banqor kollecini bitirmiş, Oksford universitetində təhsil almış, fars, türk və semit dillərini öyrənmişdir. Birinci dünya müharibəsi illərində Mesopotamiyada Xəbərlər Baş qərargahında kapitan rütbəsində xidmət etmiş (1916-1918) və İraq siyasi xidmətində (1918-1920) olmuş, 1920-1923-cü illərdə Oksford universitetində İran ədəbiyyatından mühazirə oxumuş sonra 1923-1926-cı illərdə Birləşmiş Ştatlarda yaşamışdır [2]. İran ədəbiyyatının tədqiq edilməsində ingilis şərqşünası Dik Devisin də rolunu qeyd etmək lazımdır. O, fars şairi Hafiz və onun müasirlərindən xeyli sayda şeirlər tərcümə etmişdir. Təsadüfi deyil ki, professor Dik Devis orta əsrlər fars poeziyası üzrə Qərbdə böyük alim hesab olunur. Çoxsaylı

mükafatları onun istedadlı bir iranşünas olduğunu sübut edir. O, Britaniya İran Tədqiqatları İnstitutunun Quqqenxaym Fondunun mükafatlarını almışdır. Etdiyi tərcümələrə görə alim 2000 və 2001-ci illərdə İran tədqiqatları üzrə beynəlxalq cəmiyyətin mükafatlarını almışdır. 2001-ci ildə isə Firdövsinin "Şahnamə"sini tərcümə etməsi müqabilində "fars poeziyası qarşısındakı xidmətlərinə" görə "İran Ensiklopediyası"nın mükafatını almışdır.

Britaniya iranşünaslıq mərkəzlərində elmi kataloqların tərtib olunması öz-özlüyündə fars ədəbiyyatının bütün sahələrində elmi araşdırmalarda böyük uğurlara təkan vermişdir. Fars dilində əlyazmaların ən mühüm kolleksiyaları Londonda Britaniya kitabxanasında, Oksford kitabxanasında, Kembric universiteti kitabxanasında, Mançestrda Con Reylandsda və Dublində Çester Bittidə saxlanılır. Britaniya muzey eksponatlarının artması hesabına bu ədəbi nümunələrin də sayı artmaqdadır.

Görkəmli ingilis şərqşünası Edvard Braun (1862-1926) Qərbdə İran ədəbiyyatının və mədəniyyətinin öyrənilməsində mühüm rolu olmuş alim və tədqiqatçılardan biridir. O, klassik fars poeziyası nümunələrinə də böyük maraq göstərmişdir. Bu məqsədlə o, şərq dillərini, ilk növbədə isə fars və ərəb dillərini öyrənmişdir. Edvard Braunun şərq dillərini, xüsusilə fars və ərəb dillərini bilməsi ona imkan vermişdir ki, İran ədəbiyyatını dərindən təhlil etsin. 1887-ci ildən Kembric universitetinin Pembrouk Kollecinin tədqiqatçı və təqaüdçüsü olmuşdur. Şərq dillərində biliyini genişləndirmək üçün bir il müddətinə (1887-1888) İrana ezam olunmuş Braun Kembricə qayıtdıqdan sonra "Bir il farslar arasında" adlı klassik səyahət hesabatını nəşr etdirmişdir [3].

Qeyd etmək lazımdır ki, Britaniya yazıçısı E.Braun əslində görkəmli şərqşünas alim kimi öz şöhrətini fars ədəbiyyatına dair yazdığı məqalə və kitabları ilə qazanmışdır. Onun dörd cildlik "İranın ədəbi tədqiqatı" (1902-1924) kitabı yüksək qiymətləndirilmişdir.

Böyük Britaniyanın iranşünaslıq mərkəzlərində aparılan elmi fəaliyyətin ən mühüm yekunu və Britaniya məmurları tərəfindən İranda iri miqyasda kitabların və əlyazmalarının əldə edilməsi İngiltərədə son yüz ildə İran tədqiqatları sahəsində müxtəlif elmi araşdırmaların daha ətraflı və dərindən aparılmasına imkan vermişdir.

Ədəbiyyat siyahısı:

1. Chopra, R. M. "Sir William Jones (1746 - 1794): As a Philologist, a Persian Scholar and Founder of Asiatic Society."INDO-IRANICA. 66 (2013): 1-4.
2. "Dr. Reuben Levy – Oriental Scholar." The Times. 8 Sep (1966): 14.
3. "Edward Granville Browne." Encyclopedia Iranica. n. d. http://www.iranicaonline.org/articles/browne-edward-granville#pt2
4. Yar-Shater, Ehsan. "Persian Poetry in the Timurid and Safavid Periods." Cambridge History of Iran. Cambridge: Cambridge University Press, 1986.
5. Wilson, C. E. ed. A Commentary to the Haft Paykar. By Nizami Ganjavi. 2 vols. London: N.P., 1924.

NƏRGIZ MƏHƏMMƏD QIZI NƏSIROVA
Sumqayıt Dövlət Universiteti

# ENERJI SIYASƏTININ AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏKI MÖVQEYINƏ TƏSIRI

Açar sözlər: enerji siyasəti, Xəzər dənizi,Avropa, diaspora

1994-cü il Azərbaycanın yeni enerji siyasəti strategiyasının başlanğıc ili oldu. Hökumətimiz ilə dünyanın tanınmış neft şirkətləri arasında imzalanan müqavilə "Əsrin müqaviləsi" adlandırıldı. Bu yatırımların mənbəyi olaraq sayılan "Azəri-Çıraq-Günəşli" yatağının dünyadakı ən böyük neft yataqlarından biri olması ilə əlaqədar idi. Beləliklə, Xəzər dənizi ilk dəfə olaraq xarici yatırımlar üçün açıq elan olundu [Akiner, İbrahimov, Hüseynov, 2013, 54]. 1996-cı ildə Azərbaycanla BP –nin başçılığı ilə xarici şirkətlər arasında Şahdəniz yatağına dair anlaşma imzalandı və "Şahdəniz" qaz yatağı "Cənub qaz dəhlizi" üçün əsas baza oldu. 1997-ci ildə "Çıraq" platformasında ilk neftin istehsalı neft sənayesinin rekordu hesab edilir, çünki, müqavilə imzalanması ilə neft istehsalı arasındakı fərq sadəcə üç il idi. Ölkəmizin eneji siyasətinin uğurlarından bəhs edərkən, təbii ki, 1999-cu il Bakı-Supsa borusunun çəkilməsi, 2006-cı il Aralıq dənizi ilə Xəzər dənizini birləşdirən Bakı-Tiflis–Ceyhan neft borusunun istifadəyə verilməsi, 2011-ci il Avropa Komissiyası ilə imzalanan Cənub qaz dəhlizi üzrə imzalanan deklarasiyada "Şahdəniz yatağı" və digər təbii qaz yataqlarının beynəlxalq bazarlara Cənub qaz dəhlizi vasitəsilə çıxarılması, 2012-ci ildə Türkiyə ilə imzalanan Cənub qaz dəhlizinin həyata keçirilməsində vacib yer tutan Trans-Anadolu (TANAP) müqaviləsi, yunan-türk sərhəddində TANAP borusuna birləşən 2020-ci ildə istismara veriləcək Trans Adriatik-TAP layihəsi vurğulanmalıdır. "Şahdəniz -2" layihəsinin həyata keçirilməsi və TANAP-ın mövcudluğu yaxın gələcəkdə Avropanın təbii qazla təminatında Azərbaycanın statusunu daha da yüksəldəcək. [Pamir, 2010, 361]

Belə bir sual ortaya çıxır: nə üçün dünya ölkələrinin çoxu Azərbaycanla neft və qaz istehsal və istehlak əməkdaşlığına maraq göstərirlər? Suala bu cür aydınlıq gətirmək olar: Azərbaycan siyasi sabitliyi olan ölkədir; İqtisadi

baxımdan inkişaf etmiş ölkələrdən biridir ; zəngin enerji mənbələri vardır; milli valyuta manat sabit qalmaqdadır.

Xarici investorlar və dövlətlər ilk öncə iqtisadi əlaqələr qurarkən siyasi sabitliyə sahib olan ölkə tələb edirlər. Əlbəttə,ölkəmizdə son 20 ildən çoxdur ki, siyasi sabitlik, xalq və ölkə başçısı arasında sıx birlik təmin olunmuşdur. İqtisadi baxımdan isə davamlı inkişaf edən ölkə ilə əməkdaşlıq bir ölkənin xarici siyasətinin əsas öndə gedən məsələsidir.[ Rzayeva, Paul, 2015, 14-15]

Azərbaycanın xarici siyasətində əsas olaraq işğal olunmuş torpaqlar və Xəzərin statusu məsələləri mövcuddur. Ermənistan tərəfindən işğal olunmuş torpaq problemi üzrə 11 may 1994-cü ildə Atəşkəs imzalamaqla uğur əldə edilmişdir. Xəzərin statusu məsələsinə gəlincə isə Qərbi neft şirkətlərinə anlaşmalar təklif edərək vəziyyəti yaxşılaşdırmaq və Xəzərin sektoral bölünməsi fikri üzərində durmaq cəhdini göstərmişdir. Nəticədə Xəzəryanı dövlətlərlə anlaşmalar əldə edilmişdir. [Aslanlı, 2014, 37 ]

Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyi onun erməni diasporasına qarşı sərbəst siyasət aparması və Xəzərin bölünməsi məsələsində öz fikrində dayanmasıdır. Beynəlxalq aləmdə erməni diasporasına qarşı müstəqil siyasət aparmasında və erməni diaspoarsının Azərbaycan əleyhinə fəaliyyətlər aparmasına baxmayaraq dövlətimiz öz imicini yeniləməkdə və erməni tərəfdarı olan Qərb ölkələrinin Dağlıq Qarabağ məsələsində neytral mövqedə durmasında uğur əldə etmişdir. Xəzər məsələsinin həllində isə Xəzərin sektoral bölünməsi fikrindən əl çəkməyərək Qərbi neft şirkətləri ilə eneji əməkdaşlığı quraraq, digər Xəzəryanı ölkələrin dənizin ortaq bölünməsi fikrinin əleyhinə çıxmışdır. Bunun nəticəsində Qazaxıstan da sektoral bölünmənin tərəfdarı olmaqla yanaşı Rusiya, Türkmənistan da eyni fikrə gəlmişlər. Azərbayacan enerji əməkdaşlığı quraraq məsələlərin həllinə cəhd göstərir. [İbrahimov, 2009, 375-378]

Qısacası, Azərbaycanın enerji siyasətinin beynəlxalq münasibətlərdəki mövqeyinə təsiri üçün bu nəticəyə gələ bilərik ki, hal –hazırda Azərbaycan erməni diasporasına qarşı müstəqil siyasət aparır və təbii ki, burada da enerji zəngini olan ölkə olması böyük rol oynamaqdadır. Çünki, enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın xarici siyasət məsələlərinin Qərb mətbuatında yer almasına, eyni zamanda Avropa və ABŞ-dakı

erməni lobbisinin Azərbaycan əleyhinə fəaliyyətlərinin tarazlaşdırmasına səbəb olmuşdur. Digər tərəfdən də Xəzərin bölünməsi məsələsində Qərbi neft şirkətləri ilə əməkdaşlıq edərək, enerji anlaşmaları imzalayaraq, həm məsələlərin həllini, həm də Rusiya və İranın bölgədəki nüfuzunu azaltmışdır.

Enerji siyasətinin güclənməsi iqtisadiyyatın güclənməsi deməkdir. Azərbaycan enerji üzrə qərblə müqavilələr quraraq öz xarici siyasət məsələlərini həll etməyə cəhd göstərməklə yanaşı Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyini təmin edir. Ölkənin iqtisadi gücünün artması beynəlxalq aləmdə mövqeyini gücləndirən ünsürlərdən biridir. Hazırda, Azərbaycan özünü etibarlı ortaq olaraq təsdiq etmiş mövqedədir. Ölkənin əməkdaşlıq məkanına çevrilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin elməsində rolu və digər faktorlar Azərbaycanın beynəlxalq arenada vacibliyini daha da artırır.[Nəsirov,2010,75]

Ədəbiyyat siyahısı:

1. A.Aslanlı. Xəzərin statusu və transxəzər əməkdaşlığı kontekstində İran-Azərbaycan münasibətləri.Tbilisi-Konrad-Adenauer-Stiftung, 2014.
2. E.Nəsirov. Azərbaycanın neft və qaz sənayesi, Nailiyyətlər və perspektivlər, Bakı, 2010.
3. G.Rzayeva, A.Paul. "Azerbaijan- the key to EU energy security", Baku,2015.
4. M. İbrahimov. Xəzər bölgəsi Rusiya –sovet iran tarixşünaslığında Bakı, 2009.
5. N.Pamir. Guney kafkazya ve enerji. Ankara ,2010.
6. Ş.Akiner,R.İbrahimov,A.Hüseynov.interregional cooperation in Eurasia, SAM Review, Baku,2013.

Nərmin Fərzəli qızı Qədirova
Azərbaycan Dillər Universiteti

# TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCANIN HUMANİTAR XARİCİ SİYASƏTİNİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

Açar sözlər: Fond, humanitar, siyasət, xarici

Azərbaycan Respublikasının xarici humanitar siyasətinin başlıca istiqamətini təbii ki, milli mədəni dəyərlərin dünya miqyasında tanıdılması və təbliğ olunması təşkil edir. Bu istiqamətdə də Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzsiz rolu olmuşdur. Belə ki, Mehriban Əliyevanın təşəbbüsü nəticəsində 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu yaradılmışdır. Fondun yaradılmasından sonra Azərbaycan mədəniyyətinin dünyada tanınması istiqamətində daha sistemli fəaliyyətə start verilmişdir. Belə ki, Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, qorunması və təbliğ olunması üçün mühüm layihələr məhz Fondun yaxından dəstəyi sayəsində reallaşdırılmışdır. Məsələn, belə layihələr sırasında muğam müsabiqələrini, uşaq musiqi festivallarını və s. xüsusi qeyd etmək olar. Qeyd edək ki, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaradılmasından sonra milli mədəniyyətin beynəlxalq aləmdə təbliği istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər artıq öz səmərəsini vermişdir. Belə ki, bu gün dünya artıq Azərbaycan mədəniyyətini tanıyır. Təbii ki, Azərbaycanın humanitar xarici siyasətinin digər istiqamətlərinin inkişaf etdirilməsində də Heydər Əliyev Fondunun əvəzsiz rolu olmuşdur. Belə ki, əsası 2004-cü ildə qoyulmuş Heydər Əliyev Fondu dünyanın müxtəlif ölkələrində tarixi və mədəni abidələrin bərpası sahəsində genişmiqyaslı işlər həyata keçirmişdir. Bu işlər ölkənin beynəlxalq humanitar əlaqələrinin inkişaf etdirilməsi üçün unikal imkanlar açmışdır. [4] Rəsmi səviyyədə beynəlxalq mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının uyğun şöbələri, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Diasporla iş üzrə Dövlət Komitəsi və s. məşğul olurlar. Beynəlxalq təşkilatlar vasitəsilə mədəni əlaqələrin qurulması YUNESKO,

Avropa Şurası, İSESKO, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, GUAM və s. çərçivəsində reallaşdırılır. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2004-cü ildə YUNESKO-nun Xoşməramlı Səfiri adına layiq görülmüşdür. Heydər Əliyev Fondunun yaxından iştirakı və dəstəyi ilə YUNESKO dəyərlərinin genişləndirilməsi və ya tanıdılması məqsədi milli və beynəlxalq səviyyələrdə silsilə tədbirlər həyata keçirilmişdir. Belə tədbirlər zamanı humanitar əməkdaşlığın genişləndirilməsi üçün imkanlar nəzərdən keçirilir, qarşılıqlı əməkdaşlıq qurulur. Mehriban Əliyeva YUNESKO çərçivəsində mədəni irsin qorunması istiqamətində yorulmaz fəaliyyətinə görə 2008-ci ildə təşkilatın baş direktoru tərəfindən xatirə medalı ilə təltif edilmişdir. 2010-cu ildə isə, fəaliyyətdə olan Baş direktor İ. Bokova Mehriban Əliyevanı "Qızıl Motsart" medalı ilə təltif etmişdir. [3]

Azərbaycan Respublikasının humanitar xarici siyasətinin mühüm istiqamətlərindən birini də təhsil və elm sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi təşkil edir. Təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ölkənin ümumi inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edirdi. Bu, həm dövlət, həm də özəl sektorun yüksək tələblərə cacvab verən kadrlarla təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikası özünün humanitar xarici siyasəti çərçivəsində təhsil və elm sahələrində səmərəli əməkdaşlıq sistemini formalaşdıra bilmişdir. Bu istiqamətdə nüfuzllu beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərmək, beynəlxalq konvensiyalara qoşulmaq olduqca səmərəli nəticələrin əldə olunmasını şərtləndirmişdir. Tədqiqatlar nəticəsində müəyyənləşdirə bildik ki, hazırkı mərhələdə Azərbaycan Respublikası YUNESKO, YUNİSEF, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası və Avropa Birliyi ilə çoxistiqamətli əməkdaşlıq qurmuşdur. Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığın olduqca böyük əhəmiyyəti vardır. [2] Təhsil sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi rəsmi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Xüsusilə də Azərbaycan vətəndaşlarının xaricdə təhsili məsələsi dövlətin diqqət mərkəzindədir. Hələ 2006-cı ilin oktyabrında "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" sərancam imzalanmışdır. Bu proqram 2007-2015-ci illəri əhatə etmişdir. Proqramın

həyata keçirilməsi sayəsində azərbaycanlı gənclər ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, İsveç, Yaponiya, Cənubi Koreya və s. kimi ölkələrin ali məktəblərində təhsilin müxtəlif pillələri üzrə oxumuşlar. Proqramın ümumilikdə 5000 gənci əhatə etməsi nəzərdə tutulmuşdur. Təbii ki, həmçinin, qeyd etmək lazımdır ki, Azərbaycanda çoxsaylı xarici vətəndaşları təhsil almaq üçün qəbul etmişdir. Bu da ondan xəbər verir ki, Azərbaycan təhsili beynəlxalq rəqabətə davamlılığı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, hazırda Azərbaycanın müxtəlif ali məktəblərində yeddi minə yaxın əcnəbi tələbə təhsil almaqdadır. Azərbaycan Respublikasının humanitar xarici siyasətinin mühüm nəticələrindən biri də ondan ibarət olmuşdur ki, TEMPUS/TASİS proqramı Azərbaycanın ali məktəblərini də əhatə etmişdir. Qeyd edək ki, bu proqram Avropa Birliyi tərəfindən maliyyə dəstəyi alır. Bu proqram çərçivəsində Azərbaycan ali məktəblərinə göstərilən maliyyə dəstəyinin həcmi təxmini olaraq 5,5 milyon avro təşkil etmişdir. Bu da Azərbaycan təhsilinin inkişafında və beynəlxalq əməkdaşlığının genişlənməsində olduqca təsirli rol oynamışdır. [1]

Beləliklə, aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikası müasir mərhələdə fəal beynəlxalq əməkdaşlıq sistemini formalaşdıra bilmişdir. Humanitar diplomatiyanın həyata keçirilməsi üçün siyasi əlaqələrin genişləndirilməsi vacib idi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra, Azərbaycan respublikası sürətlə beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməyə başlamışdır. Xarici siyasi münasibətlərin genişləndirilməsi fonunda Azərbaycan Respublikası həm də xarici humanitar siyasətini inkişaf etdirməyə başlamışdır. Azərbaycan Respublikasının xarici humanitar siyasətinin əsas istiqamətlərini elm, təhsil, mədəniyyət sahələrində qarşılıqlı əlaqələrin qurulması və inkişaf etdirilməsi təşkil edir. Xüsusilə də, beynəlxalq mədəni əlaqələrin inkişaf etdirilməsi istiqamətində Azərbaycan böyük uğurlar qazanmışdır. Xarici humanitar siyasətin əsas məqsədlərinə və prinsiplərinə uyğun olaraq, Azərbaycan Respublikası xarici fəaliyyəti çərçivəsində milli mədəni dəyərlərin qorunması və dünyada təbliğ olunmasına yönəldilmişdir. Azərbaycan Respublikasının xarici humanitar siyasətinin başlıca prinsiplərindən biri ondan ibarətdir ki, bu siyasət təkcə Azərbaycan xalqının milli mədəni dəyərlərinin qorunmasını deyil, bəşəri mədəni dəyərlərə həssaslıqla

yanaşılmasını tələb edir. Həqiqətən, dünya mədəni irsinin qorunması sahəsində Azərbaycan dövlətinin böyük töhfələrini təsdiq edən çoxsaylı faktlar mövcuddur. Deməli, Azərbaycanın xarici humanitar siyasəti mədəniyyətlərarası dialoqun dəstəklənməsi yolu ilə ümumi mədəni dəyərlər elemetlərini formaşdırmağa, bəşəri mədəniyyətin birgə səylərlə qorunmasını nəzərdə tutur.

Ədəbiyyat siyahısı:

1. Təhsil sahəsində beynəlxalq əməkdaşlığın təbliği/Səs.- 2010.- 24 iyun.- S. 13
2. http://unazerbaijan.org/az/un_agencies/birl%C9%99smis-mill%C9%99tl%C9%99r-t%C9%99skilatinin-t%C9%99hsil-elm-v%C9%99-m%C9%99d%C9%99niyy%C9%99t-t%C9%99skilati/
3.http://1news.az/az/news/azerbaycan---unesco-emekdasligi-beynelxalq-medeni-elaqelerde-yeni-merhele
4. https://heydar-aliyev-foundation.org/az

NIHAD YAQUBLU NƏSIMAN
Bakı Dövlət Universiteti

# BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ SIVILIZASIYA VƏ MƏDƏNIYYƏT FƏRQLƏRININ KONFLIKTLƏRIN YARANMASINDA MÜMKÜN ROLU

Açar sözlər: sivilizasiya, dialektik, konflikt, geopolitika

1993-cü ildə Harvard Universitetinin professoru Samuel Hantinqton məşhur siyasi-elmi jurnal "Foreign Affairs" də "Sivilizasiyalar toqquşur?" adlı məqaləsini yayımlamışdı.Bu məqaləyə görə Soyuq müharibə sonrasındakı dövrdə konfliktlərin əsas səbəbi artıq siyasi-iqtisadi maraqlar, geopolitik hədəflər və ideolojik ayrılıqlar yox sivilizasional-mədəni ziddiyyətlər olacaq. Samuel Hantinqtonun bu yanaşması əlbəttə çox böyük maraq, təəccüb və bəzən də tərif alsa da, həm də tənqid edildi. Çünki tarixə baxıldığında yer üzündə meydana gəlmiş müharibələrin və konfliktlərin ümumi olaraq əsas baş vermə səbəbləri başqa idi.

İnsan ilk yaranandan bəri bir-birilə müharibə edib; tayfalar və qəbilələr halında müharibələr, dövlətlər qurulandan sonra hər hansısa hökmdarın, padşahın və ya kralların torpaq ələ keçirmə ambisiyalarına görə müharibələr, dinlər yaranandan sonra dinlər arası savaşlar, milliyyətçilik adı ilə döyüşlər və ən sonda ideologiyalara (ideolojik ziddiyyətlərə) görə müharibələr. İkinci Dünya hərbini və Soyuq müharibəni axrıncısına aid etmək olar.

Sivilizasiyanın komponentlərinə cəmiyyətin dünya görüşü, adətləri kimi bir neçə sosial faktoru, tarixi keçmişi, etnik kökü və milliyyəti, geosiyasət və ən əsası da din amilini misal göstərmək olar. Sivilizasiyaların toqquşmasına ən böyük ehtimal nə qədər əks-intuitiv görünsə də artan qlobalizm, multikulturalizm və böyük həcmdə imiqrasiya faktorlarına görədir. Xüsusilə imiqrasiya- sərbəst hərəkət azadlığı bu prosesi gücləndirir. Multikulturalizmin o qədər də asan və sadə konsepsiya olmadığı indi daha aydın seçilir. Məsələn Fransada əhalinin təxminən 8,5%-indən çoxu Şimali Afrika və Yaxın Şərq regionundan olan köçmələrdən ibarət olsa da [2] onlar Fransada ümumi kriminal işlərə görə

həbs olunanların 60-70%-ini təşkil edir [4]. Ümumi olaraq götürdükdə Avropada 2014-2017-ci illər aralığında radikal-dini zəmində 65 terror aktı olub və bunun nəticəsində 351 nəfər dinc sakin qətlə yetirilib, 2505 nəfər terrorist həbs edilib [1]. Elə buna reaksiya olaraq da Avropada son illərdə ksenofobiya, islamafobiya, anti-imiqrant və Avro-skeptik ritorika güclənib. Və nəticədə siyasi olaraq sağçı partiyalar seçkilərdə çox böyük populyarlıq qazanmış, bəzən də qalib olmuşdurlar.

Ancaq maraqlısı odur ki, bütün dünyada bu siyasi dəsti xətt tənqid olunsa da Azərbaycanda multikulturalizm çox uğurla gedir. Bunun da əsas səbəblərindən biri odur ki, Azərbaycanda nə qədər fərqli milliyətin və dinin təmsilçiləri olsa da onların hamısını ortaq dəyərlər və tarix birləşdirir. Buradakı milli-etnik və dini azlıqlar tarix boyu əhaliylə bir yaşayıb və keçmişin həm müsbət həm də mənfi anlarını birgə keçiriblər. Bu da onların müvvəffəqiyyətlə inteqrasiya və assimilyasiya olmalarına yol açıb. Əlavə olaraq, Azərbaycan oz vətəndaşlarının təhlükəsizliyi və ümumi stabillik baxımından ölkəyə gəlmək istəyənləri ətraflı yoxlanış tədbirlərindən keçirdir. Bütün bunları nəzərə aldıqda və müqayisə etdikdə belə nəticəyə gəlmək olar ki, multikulturalizm kualifikasiya və ortaq dəyərlər prinsipləri olmadan cəmiyyətləri uçuruma apara bilər, parçalayıcı və bölücü ola bilər.

Keçmişə nəzər yetirdikdə müşahidə etmək olar ki, inkişaf heç vaxt düz xətt üzrə olmayıb; G.V.F. Hegelin də tanımladığı kimi tarix dialektik tərzdə inkişaf edib [3]. Yəni hər hansısa bir ideyanın və yanaşmanın düzgün olduğuna inanılıb və onu tətbiq edərkən müxtəlif problemlər, mənfi nəticələr meydana gəlib. Bu çatışmazlıqlar müşahidə ediləndən sonra isə ya bu siyasi xətdən tam vaz keçilib, ya da mənfi cəhətləri düzəldilərək yeni mərhələyə qədəm qoyulub. Məsələn Rusiya imperiyası zamanı təhkimçilik və ədalətsiz qanunlar ücbatından kəndlilər istismar olunur, onların fundamental haqları və azadlıqları əllərindən alınırdı. Ancaq illər boyu buna qarşı narazılıqlar artdı və müxtəlif cür fikir mübadilələri, müharibələr və hərəkatlar yolu ilə sistem kommunizmlə əvəz oldundu. Kommunizm kəndli sinfinin istismarına etiraz olaraq stimul qazanmışdı. Fəqət bu sistemdəki çatışmazlıqlar da çox keçmədi ki, özünü biruzə verdi və o daha yeni və effektiv sistemlə-demokratiya və azad bazar

iqtisadiyyatı ilə əvəz olundu. Göründüyü kimi proqress əsasən tam düz xətt boyu deyil, səhv edib sonra da onları düzəldərək baş verib.

Avropa və Qərb yarımkürəsində də aşırı liberal və qlobalist siyasət İkinci Dünya müharibəsindəki faşizmlə öz kuliminasiya nöqtəsinə çatan, əsrlər boyu torpaq, hakimiyyət, milliyyətçilik və din üzrə baş vermiş konfliktlərə son qoymaq məqsədi ilə yerinə yetirilmişdi. Lakin indi də bu sistem "laxlamağa" başlayıb və tarixin dialektik irəliləyiş tendensiyasını nəzərə alaraq yaxın gələcəkdə yeni bir dəyişimin olması labüd görünür.

Əlavə olaraq, Soyuq müharibənin bitməsi və XX əsrdən başlayan dekolonizasiya ilə əlaqədar çoxlu sayda millət və ölkə müstəqillik qazandı. SSRİ, Yuqoslaviya və Çexoslaviyanın parçalanması, Şimali Afrika, Yaxın Şərq və Cənubi Asiyada kolonizasiyanın bitməsi ilə azadlıq qazanan dövlətlərdə milli kimlik axtarışları, dünyada öz yerini müəyyən etmə və möhkəmləndirmə istəkləri və hətta bəzi ölkələrin həm regional, həm də qlobal hegemonluq ambisiyaları mədəniyyətlər toqquşmasını tətikləyən amillər ola bilər.

Ədəbiyyat siyahısı::

1. Avropa Parlamenti Terrorizm Reportu, 2018, http://www.europarl.europa.eu/news/en/headlines/security/20180703STO07125/terrorism-in-the-eu-terror-attacks-deaths-and-arrests
2. Eurostat Statistika Reportu- Xaricdə doğulan əhali , 2016, 1
3. Stenford Fəlsəfə Ensiklopediyası, 2016, https://plato.stanford.edu/entries/hegel-dialectics/
4. Vaşinqton Post qəzeti, nüsxə 29 aprel 2008, səhifə A01

NURANGIZ YANVAR GIZI MIKAYILOVA
Labor and Social Relations Academy

# BP'S ROLE IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

Key words : BP Company, Economic Growth, Entrepreneurship Development, Social Projects

In January 1991, Azerbaijan announced a tender for oil projects. BP, Statoil, Amoco, Unocal and other companies participated in this tender. In 1991, a group of foreign companies, including Amoco, BP, McDermott, Pennzoil, Ramco, Unocal, Turkish Petroleum Corporation (TPAO) and Statoil, started to conduct research in Chirag and Gunashli in Azerbaijan in the sector of the Caspian Sea for 3 years.

In 1992, companies wishing to operate in the Caspian oil fields, joined the consortium and signed contracts. However, the non-political stability in Azerbaijan led to the ineffectiveness of the discussions. When Heydar Aliyev elected , again negotiations began. Finally, after long negotiations, the "Contract of the Century" was signed on September 20, 1994. About 30 international oil contracts were signed in Azerbaijan with participation of 33 companies from 19 countries in the world. Oil contracts signed for the discovery and development of energy resources accelerated the flow of foreign capital into the country, and at the same time , foreign aid and loans from international financial institutions have increased.

Since the BP's first visit to Azerbaijan 27 years ago, the Company's goal was to build and maintain a sustainable company that has earned the safety and the environment as a priority, gaining public confidence and respect, as well as creating value for all stakeholders. The Government and the people of Azerbaijan, as well as our partners, have trusted BP [ "Contract of the Century", Baku, 20 September, 1994, http://e-qanun.az 1, p. 12] in order to benefit for both the government and the partners, BP in its turn has produced and exported oil and gas safely and reliably from the Caspian using advanced technologies.

With the transportation of Azerbaijani hydrocarbon resources to world markets through Georgia and Turkey, the Caspian region has become one of the major oil and gas extractor in the world.

Since the start of operations in 1995, $ 69 billion has been spent on ACG, BTJ, Shah Deniz, and SCP projects. After starting operations in Azerbaijan, $ 78 million has been spent on social programs with community partners, including community development and education initiatives.

At the same time, since 1997 to the end of 2017, 3.3 billion barrels of oil were extracted from the ACG. Since 2006, 89 billion cubic meters of gas have been extracted from the Shah Deniz field by the end of 2017.

A new signing ceremony was held in Baku on September 14, 2017, which will be in effect until the end of 2049. Azerbaijani government and the State Oil Company of the Azerbaijan Republic (SOCAR), as well as BP, Chevron, INPEX, Statoil, ExxonMobil, TP, TOCHU and ONGC Videsh signed amended and revised Agreement on Joint development of Deepwater part of Azeri, Chirag and Gunashli (ACG) and and production sharing.

In 1994, when the "Contract of the Century" was signed, the bonus was supposed to be paid, and then the Azerbaijani government was paid $ 300 million. But, of course, the bonus is not paid once. The current bonus is 12 times more than 23 years ago - $ 3.6 billion. Usually after the contract is concluded, initial tranche is given from bonus and then paid in the form of tranches in accordance with the contractual arrangements.

BP is the operator of large oil and gas fields in the sea. Onshore Company manages one of the world's largest complex oil and gas processing terminals (Sangachal), as well as pipelines linking it with the region and the world markets.At the end of 2017, 115 oil wells, as well as 54 water and gas wells were exploited in the ACG. In 2017, BP continued its secure and reliable stable production, generating 588,000 barrels per day from the ACG fields throughout the year. (215 million barrels or 29 million tons in total). [https://www.bp.com/az_az/caspian/aboutus.htm,4]

The BP Company's goal of implementing the Entrepreneurship Development and Training Program (EDTP), launched in 2007, is to identify local companies with strong business potential, to support their

international standards, and to increase their competitiveness. In the long term, the EDTP is designed to increase the number of local companies that can provide products and services to the industry in the region, thereby contributing to the development of the local economy. This program has led local companies to conclude international contracts with BP worth more than $ 93 million in2017.

In 2017 this program was completed by 19 companies, and the number of companies that completed the program reached to 218. Initially, 51 companies in the EDTP were evaluated in 2017. As a result of the program, in 2017, together with our partners, 279 local companies have been established, of which 231 are small and medium-sized enterprises and individuals. In total, about $ 5.4 billion was spent on joint operations and projects in Azerbaijan in 2017, with almost $ 1.8 billion in direct spending on local businesses. The equal participation of local companies in the implementation of world-class projects can be regarded as a further contribution of BP to Azerbaijan.

Performance indicators of BP depend on highly skilled, persistent and talented workforce. The company regularly organizes trainings to ensure that the operations are carried out in a safe and secure manner, with a clear understanding of the employees' skills and abilities. The Company has a commitment to respect individual diversity and to create equal opportunities for all employees. The company is always looking for ways to increase its competitiveness by increasing its economic efficiency and better costs within severe market conditions. The company believes that a strong national workforce in Azerbaijan remains one of the key priorities. Company invests in young people with little or no work experience, involves new talents, and offers a wide range of development and career opportunities to employees at all career levels.

By the end of 2017, the proportion of country citizen in BP's qualified staff was 86%, whereas this figure was 87% in the previous year. Taking into account only permanent employees, the indicator is 90%, which is an increase compared to 2016. It is no coincidence that the number of local BP employees in Azerbaijan has reached 343 in 2017. This means 60% of senior employees working at local office and about 2% in comparison with the

previous year. Approximately 19% of them are women. 94% of BP middle-ranking employees working in Azerbaijan are citizens of the country.

The "Contract of the Century" states that Azerbaijani citizens have the right to use medical insurance and other social privileges as foreign citizens. For example, as part of a social package of privileges in Azerbaijan, the Loan Support Program is intended to assume the employee's debt obligations to the bank.

The main purpose of the Loan Support Program is :

- To extend the privileges package of local employees of BP Azerbaijan and ensure the level of competitiveness;;
- Motivate employees by giving loan and contribute to their stay in the company;
- Involve talented employees to the organization.

This support applies to loans received for the following reasons:

- Purchase of Apartment / House (within the territory of the Republic of Azerbaijan only);
- Construction of houses (within the territory of the Azerbaijan Republic only);
- Renovation of the apartment / houses (within the territory of the Azerbaijan Republic only);
- For education of employee’s children under 18 years of age. [Mikayilova , 2018 , 100]

Over 2017, more than 300 employees have applied for a loan for this program, and a total number of participants is more than 2400 since the start of the program in 2012. In total, the amount of loans provided by the program exceeded $ 52 million.

Encouraging open communication between employees and contractors is crucial for ethical conduct and compliance strategies. It is important for everyone to express their dissatisfaction with any existing violations, as well as talking about improvements, sharing views or even new ideas. Speaking clear is crucial for the success of the business, allowing for improvement of processes and operations. At the same time, there are any conditions for expressing employee’s ideas openly if there are concerns about the failure to comply with the code of conduct of employees, contractors or other third parties or simply suspicions of any situation.

Senior employees are directly responsible for the Code of Support for the BP's Zero-tolerance principle. When it is necessary to speak freely, the greatest fear of workers is often the result. BP's OpenTalk Global Assistance is a confidential tool for both employees and third parties to raise concerns. This helpline, operated by an independent company, works every day, day and night at any time and accepts calls in more than 75 languages. Issues raised through OpenTalk are provided for evaluation and, where relevant, for taking action.

In 2017, 55 appeals have been received to OpenTalk helpline in connection with the events in Azerbaijan, Georgia and Turkey. As a result of non-observance of the norms in Azerbaijan, Georgia and Turkey, there were 18 facts that resulted in disciplinary action in 2017.

BP regularly reports to communities located along the route of the Baku-Tbilisi-Jeyhan (BTJ) and the South Caucasus Pipeline (SCP) and explores issues that worry them. In order to achieve this purpose, the company uses many forms, ranging from distribution of educational resources and formal inquiries and community-level questions or complaints. Responsible employees condust public consultation and review community complaints and suggestions.

At the same time, the Company acts as an official partner with the National Olympic and Paralympic Committees. This includes sponsorship of the Azerbaijan National Olympic and Paralympic Team and a team of athletes. BP was proud to be the official partner of Baku Fourth Islamic Solidarity Games held on May 12 - 22. This partnership was part of BP's commitment to promoting sport in Azerbaijan and completed the company's long-term successful partnership with Azerbaijan's National Olympic and Paralympic Committees.

In general, the benefits that the alliance with foreign oil companies bring to Azerbaijan can be summarized as follows:

- The "Contract of the Century" provided beautification of the capital of Baku, the regions of the country, in whole Azerbaijan, the realization of large social projects, and established Oil Fund for our contemporaries and future generations. [Mehdiyev 2010, 24]
- create the opportunity to modernize oil industry assets and modernize oil and gas industry in Azerbaijan with the introduction of

modern exploration, oil extraction, utilization and transportation technologies;

- Increased oil production as a result of signed contracts has resulted in considerable increase in budget revenues;
- Azerbaijan has made it possible for the global business and raw material markets to be able to successfully utilize its raw material advantages as a source of income for the country's development;
- Increased oil and natural gas production has resulted increase in employment and the implementation of new infrastructure projects;
- Realization of projects such as "Entrepreneurship Development and Training", "Loan support program" , "Environment and its monitoring", "Culture of speaking freely", development initiatives ", working with communities, support of education, culture and sport is part of the commitment undertaken by BP within the framework of the "Contract of the Century" that is still being successfully implemented currently.

Reference:

1. "Contract of the Century", Baku, 20 September, 1994, http://e-qanun.az
2. Mehdiyev R.A., Azerbaijan's model of development, "Oskar"NPM, Baku: 2010
3. Mikayilova N.Y., Azerbaijan economy, textbook, Baku:2018
4. https://www.bp.com/az_az/caspian/aboutus.htm

NURLANƏ ƏLIRZA QIZI MƏLIKLI
Lənkəran Dövlət Universiteti

# CƏNUBI QAFQAZ REGIONUNUN ENERJI TƏHLÜKƏSIZLIYI

Açar sözlər: Enerji təhlükəsizliyi, Cənubi Qafqaz,
Xəzər hövzəsi, Böyük Güclər

Beynəlxalq münasibətlərin günümüzdəki ən əhəmiyyətli başlıqlarından biri də enerji sahəsində yaşanan proseslər və qlobal aktorların enerjiyə olan ehtiyaclarıdır. Qlobal siyasətdə enerji resurslarının effektiv istismarı və bu sahədə söz sahibi olmaq aparıcı dövlətlərin prioritet maraqlarını təşkil edir. Belə ki, qloballaşan dünyada super güclər artıq ərazi, torpaq uğrunda deyil, məhz enerji yataqlarının istismarının ələ keçirilməsi uğrunda mübarizə aparırlar. Bu məzmunda dünya, enerji qaynaqlarının sıx olduğu və enerji qaynaqlarının dünya bazarına çatmasını təmin edən əhəmiyyətli keçid koridorları üzərində olan dövlətlərin ön planda olduğu rəqabət sahələrindəki inkişafları izləməkdədir. Bu bölgələrdən biri də Qafqaz, o cümlədən Cənubi Qafqaz coğrafiyasını əhatə edən bölgədir. Dünyanın ən böyük təbii qaz və ikinci böyük neft istehsalçısı mövqeyindəki Rusiyanın dünya bazarına açıldığı ən əhəmiyyətli nöqtə olan bu coğrafiya sahib olduğu bu xüsusiyyətləri ilə yanaşı yenə buna bağlı olaraq bir çox siyasi qarşıdurmaların da mərkəzindədir [Ismayıl, 625-626].

Enerji təhlükəsizliyi bəzi elmi ədəbiyyatlarda enerjinin davamlı təmiz və diversifikasiya olunmuş resurslardan/ölkələrdən, diversifikasiya olunmuş marşrutlarla *(müxtəlif boru xətləri, dəniz yolu və s.)* müəyyən miqdarda və iqtisadi inkişafa müsbət təsir göstərəcək uyğun qiymətlərlə təmin olunması kimi izah edilir. Bəzi ədəbiyyatlarda isə enerji təhlükəsizliyi həm də iqtisadiyyatın enerjiyə olan tələbatının qarşılanması məqsədi ilə qlobal enerji ehtiyatlarının qənaətlə və səmərəli istifadəsi kimi izah edilir [Bayramzadə, 2012, 55]

Enerji tələbatının dünya səviyyəsində artması və Cənubi Qafqazdakı enerji ehtiyatlarının varlığı digər ölkələrin Cənubi Qafqazla bağlı siyasətlərində əsas yeri tutur. Region ölkələri baxımından enerji resursları

ərazi bütövlüyünün qorunması, digər ölkələrlə münasibətdə vasitə və siyasi-iqtisadi dirçəliş mənasına gəlir. Regional və qlobal güclər tərəfindən isə enerji ehtiyatlarının təhlükəsizliyinin bərpası ilə enerji kəmərlərinin diversifikasiyası və dünya bazarlarına təhlükəsiz nəqli uzun müddətli strategiya kimi dəyərləndirilir [Quliyev, 2010, 31-32].

Xəzər Hövzəsi enerji qaynaqlarının vəziyyətinə baxıldığı zaman Xəzər Hövzəsi enerji qaynaqları həm ciddi bir alternativ yaradacağı, qlobal aktorların asılılıqlarının azalacağı bir proses yaradacağı üçün və qlobal hegemoniyanın kilidinin açıldığı bölgədə olması səbəbiylə bu günün beynəlxalq mühitini təyin edən ən əhəmiyyətli elementlərdən birini təşkil edir. Rusiya, Çin, İran və Hindistan kimi regional güclərin tam mərkəzində yerləşən Xəzər Hövzəsi enerji qaynaqları ABŞ və Avropa Birliyinin enerji siyasətləri baxımından narahatlıq ifadə edir. Qərbin bu gün ən əhəmiyyətli tələbi regiondaki enerji qaynaqlarının ən qısa zamanda və ən uyğun şəkildə dünya bazarına açılması istiqamətindədir [Seb & Sipos-Kecskeméthy, 2009, 403-404].

XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir. Bu gün dünyanın müxtəlif güc mərkəzlərinin Avrasiyada geosiyasi maraqlarının kəsişməsindən danışarkən, ilk növbədə enerji resursları ilə zəngin olan Xəzər hövzəsi və Qərb-Şərq, Şimal-Cənub geosiyasi münasibətlərinin, onların iqtisadi-ticarət və digər əlaqələrinin üzərində yerləşən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz göz önünə gəlir. Bu bölgə əvvəlki dövrlərdə özünün xüsusi geosiyasi, geostrateji və geoiqtisadi xarakteristikası ilə XVIII əsrin sonu - XIX əsrin əvvəllərindən Rusiya imperiyası və Osmanlı dövlətinin, XX əsrin əvvəllərindən Avropa imperiyalarının və ABŞ-ın, SSRİ dağılandan sonra-XX əsrin sonlarından bütün transmilli qlobal dünyanın diqqətini cəlb etməyə başlamışdır. Region ümumi xarakteristikasına görə Avrasiyanın

böyük geosiyasi oyunlar məkanı hesab edilsə də, ilk növbədə neft-qaz amili və transmilli əlaqə imkanları onu güc mərkəzlərinin diqqətinə cəlb etmişdir [Həsənov].

Xəzər regionunun regionda geosiyasi və geoiqtisadi əhəmiyyəti həm bölgənin əsas güc mərkəzi hesab olunan Rusiya üçün, həm regionda "yeni transmilli güc mərkəzi" olmaq istəyən Qərb üçün, həm də digər maraqlı ölkələr üçün şübhəsizdir. Əvvəla, Rusiya buradakı SSRİ dövründən qalmış ənənəvi rəqabətdənkənar üstün mövqelərini, bölgənin geosiyasi, geoiqtisadi, hərbi-geostrateji hədəfləri, transmilli nəqliyyat-kommunikasiya sistemi, Xəzər hövzəsi ölkələrinin mövcud karbohidrogen sərvətləri üzərindəki təsirini qoruyub saxlamaq istədiyi kimi, Qərb də eyni sahələr üzrə regiona daxil olmaq və möhkəmlənmək, buradakı əlavə təbii ehtiyatlar hesabına Avropanı yeni yüzillikdə "qeyri-sabit Yaxın Şərq" və "monopolist mövqeyə malik Rusiya"nın neft-qaz asılılığından qurtarmaq istəyir. İkincisi, regionda möhkəmlənməklə Rusiya yenə də özünün ənənəvi hərbi-geostrateji mövqelərini qorumağa çalışdığı halda, ABŞ və onun NATO üzrə müttəfiqləri Xəzər-Qara dəniz hövzəsində, Mərkəzi və Orta Asiyayada yeni-yeni təsir mexanizmləri qazanmağı, geosiysi, geoiqtisadi və hərbi-geostrateji cəhətdən öz mövqelərini gücləndirməyi və əsrlər boyu bu regionda davam edən Rusiya hegemonluğunu azaltmağı düşünür.

ABŞ-ın Cənubi Qafqaz siyasəti onun enerji təhlükəsizliyinin və qlobal təhlükəsizlik hədəflərinin bir nəticəsi şəklində qiymətləndirilə bilər. Enerji təhlükəsizliyi çərçivəsində Xəzər regionu buradan əldə edilən enerjinin qlobal dövriyyədəki rolu baxımından əhəmiyyət kəsb edir. Xəzər regionundan əldə edilən enerjinin növ və mənbə baxımından diversifikasiyasına nəzər salındığı zaman, ABŞ-ın regiona olan diqqətini görmək mümkündür. Cənubi Qafqazın Xəzərdəki enerjinin nəqli yolu üzərində olması ilə əlaqədar ABŞ-ın maraq sahəsinə daxil edilir. Digər tərəfdən, ABŞ-ın Cənubi Qafqazda hərəkət sərbəstliyini qoruma hədəfi regiona istiqamətlənən siyasətinin amillərindən biri kimi görülə bilər. Bu siyasətin nəticəsi kimi, ABŞ Xəzərdəki enerji qaynaqlarının nəqlini nəzarətdə saxlamağı hədəfləyir. Bundan başqa, ABŞ qlobal enerji tələbatı üzərində təsir gücünü əlində saxlamağa əhəmiyyət verir. Bu səbəbdən, ABŞ üçün bu hədəflərin təmin edilməsində Cənubi Qafqazda demokratiya

və iqtisadiyyatın sərbəstləşməsi kimi liberalizm amilləri bir vasitə kimi istifadə edilə bilər.

Geoiqtisadi parametrlər üzrə qiymətləndirmə apardıqda Xəzər hövzəsindəki böyük güclər arasındakı rəqabətin əsas hədəfləri ilk növbədə, Xəzər hövzəsinin enerji ehtiyatlarına sahiblənmək, yaxud onlardan istifadə sahəsində üstün mövqeyə malik olma; hövzənin enerji resurslarının istehsalı və dünya bazarlarına çıxarmasında iştirak; enerji istehsalında istifadə edilən texnologiya və maliyyə vəsaitinə sahiblik, yaxud malik olmaq; regionun enerji ixracı marşurutlarının və nəqliyyat-kommunikasiya sistemlərinin seçiminə təsir etmək və onların fəaliyyətinə nəzarət; neft-qaz istehsalı, istehlakı və ixracı sahəsindəki digər geoiqtisadi dividentlərə sahib olma və s. ibarətdir.

Ədəbiyyat siyahısı:


1. Bayramzadə, Yaşar, "Qlobal enerji təhlükəsizliyi: problemlər, imkanlar", Azərbaycan Milli Elmlər Akademiyası Xəbərlər jurnalı (elm və innovasiya seriyası), 2012, № 4 (12), ss.55-57 http://www.innovasiya.az/_assets/uploads/jurnal_4_2012.pdf
2. İsmayıl, Toğrul, "Azərbaycanin strateji enerji qaynaqlarinin milli təhlükəsizliyinə təsiri", ss. 625-626 http://www.academia.edu/2358150 (24.02.2018)
3. Həsənov, Əli, "Transmilli dünya gücləri və bölgə dövlətlərinin Xəzər hövzəsindəki geoiqtisadi siyasəti, maraqlari və fəaliyyətinin xarakteristikası", http://az.strategiya.az/old/?m=xeber&id=10213 (26.02.2018)
4. Quliyev, Samir, "Cənubi Qafqazda təhlükəsizlik problemləri", Journal of Qafqaz University - 30 - 2010, http://journal.qu.edu.az/
5. László Seb, Klára Sipos-Kecskeméthy "Energy security and the Caucasus region", AARMS, Vol. 8, No. 3 (2009) pp. 403–412

NURLANƏ MUSA QIZI MUSTAFAYEVA
Azərbaycan Dillər Universiteti

# BIRINCI DÜNYA MÜHARIBƏSI ILLƏRINDƏ AZƏRBAYCAN-TÜRKIYƏ ƏLAQƏLƏRI

Açar sözlər: Türkiyə, Qardaş köməyi, Anadolu, Azəbaycan Xalq Cümhuriyyəti, Bakı- İslam Ordusu

Birinci dünya müharibəsi illərində Azərbaycan-Türkiyə ictimai-siyasi, iqtisadi və ədəbi-mədəni əlaqələri daha da intensiv xarakter almışdır. Tarixi şərait bu iki qardaş ölkənin daha da yaxınlaşmasını tələb edirdi. Məhz bu dönəmdəki yaxınlaşma və yardımlaşma ilk əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, daha sonra isə Türk ordusunun Bakını azad etməsi ilə nəticələndi. Belə ki, rus işğalına uğrayan Osmanlı torpaqlarında Azərbaycan Bakı Müsəlman Cəmiyyəti və müxtəlif cəmiyyətlər vasitəsilə azərbaycanlılar türk qardaşlarına həm maddi, həm də mənəvi yardımlar etmişdilər. Bu yardımların kökündə qardaşlıq hissləri, sevgi və türkün türkə mənəvi borcu dayanırdı. Azərbaycandan yüzlərlə insan Osmanlı torpaqlarında işğalçılara qarşı döyüşdü və şəhid oldu. Çanaqqala döyüşlərində saysız azərbaycanlının qəhrəmancasına şəhid olması bu qardaşlığın, sevginin bariz nümunəsidir.

Azərbaycanın böyük romantik şairi Məhəmməd Hadi türk qardaşlarına mənəvi yardım üçün Birinci Dünya müharibəsi illərində bir müddət Anadolu insanıyla yaşadı, burada insanları mənən qidalandıran, qələbəyə səsləyən, ruhlandıran məqalə və şeirlər yazdı. O, burada qələmə aldığı əsərlərində türk dünyasının bugünü və gələcəyi ilə bağlı narahatlıqlarını da dilə gətirirdi.

Məhəmməd Hadi ilə yanaşı digər azərbaycanlı yazarlar, ictimai-siyasi xadimlər türklərin apardığı istiqlal mücadiləsinə Azərbaycanda onlarla əsərlər yazmış, Osmanlı torpaqları uğrunda canından keçən insanların şücaəti əsərlərdə bədii təsvirini tapmışdı. Məhz bu çətin zamanda "Qardaş köməyi" məcmuəsinin nəşr edilməsi də qardaşlığın növbəti nümunəsi idi. Toplunun üz qabığında Əzim Əzimzadənin çəkdiyi rəsm əsəri yer almışdı. Maraqlıdır ki, Sovet dövründə "Qardaş köməyi" adlı məcmuə ilə bağlı heç

bir məlumat verilməmişdi. Son illərdə Türkiyə ədəbiyyatşünaslığı bu məcmuənin varlığı barədə araşdırmalar apardıqdan sonra Azərbaycanda da həmin məcmuə yenidən nəşr edildi.

Akdes Nimet Kurat "Türkiyə və Rusiya" adlı əsərinin ön sözündə Birinci Dünya müharibəsi illərində Azərbaycanın Türkiyəyə, Anadoluya etdiyi yardımlardan "Azərbaycanlılar tərəfindən qurulan Xeyriyyə Cəmiyyətinin Sarıqamış, Qars və Ərzurum ətrafındakı türk-müsəlman qardaşlarına və türk əsirlərinə çox böyük köməklər göstərmişlər. Təəssüf ki, bunlara aid materialları əldə edə bilmədik. Dolayısıyla bu dönəmdə Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər çox az işıqlandırılmışdır" [Kurat, 1996, s.5], - deyə bəhs edir.

Müharibə illərində Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara kimi ictimai-siyasi xadimlər bu hadisələrin canlı şahidləri olmuşlar. Onların əsərlərində bu yardımlaşma haqqında geniş məlumatlar verilir. Eyni zamanda Mövlüd Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında bu barədə geniş məlumat verilir [Süleymanov, 1987, s.154].

Türkiyəli tədqiqatçı Betül Aslanın "I.Dünya Savaşı Sırasında Azerbaycan Türklerinin Anadolu Türklerine "Kardeş Yardımı" ve Bakü Müslüman Hayriye Cemiyeti" monoqrafiyasında həmin dövrdəki "Qardaş köməyi" geniş tədqiq olunmuşdur. Tədqiqatın böyük bir hissəsi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin yaranması və Bakıda fəaliyyət göstərməsi, eləcə də XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslərə həsr edilib. Buna baxmayaraq, monoqrafiyada Azərbaycan ədəbiyyatının, ictimai fikrinin bir çox məsələləri həm Azərbaycandakı sənədlər, həm də Türkiyədəki sənədlər əsasında araşdırılmışdır. Müəllif rus-erməni zülmündən əziyyət çəkən türk xalqına maddi və mənəvi yardım edən Azərbaycan xalqının bu istiqamətdəki işini "dünyada tayı-bərabəri olmayan" [Aslan, 2000, s.7] kömək kimi dəyərləndirmişdir. Tədqiqatçı Azərbaycan türklərinin Azərbaycan və bütün Qafqazda "Qardaş şüarı" adıyla başladıqları yardım toplama fəaliyyətləri, eləcə də işğal bölgəsində qalan yetim türk uşaqlarının bir yerə yığılması və yerləşdirilməsi, o cümlədən türk əsirləri üçün hər cür köməklik göstərilməsini faktların, sənədlərin dili ilə əks etdirməyə nail olmuşdur.

Məlumdur ki, 1908-ci ildən sonra Azərbaycandan Türkiyəyə bir çox ziyalılarımız (Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə və b.) getmişdir. Bu proses sonrakı illərdə ictimai-siyasi hadisələrin gedişi ilə daha intensiv xarakter almış, Birinci Dünya müharibəsi illərində qarşılıqlı yardımlaşma ilə nəticələnmişdir. Birinci Dünya müharibəsi ərəfəsində Balkan ölkələrindəki türklərin vəziyyətinin ağır olması, Rusiyadan bir çox ermənінin türklərə qarşı silahlanaraq vuruşması getdikcə cəbhələrin artıq müəyyənləşməsinə gətirib çıxarmışdır. Rusiyada yaşayan müsəlmanlar isə Türkiyəyə kömək etmək üçün müəyyən işlər görmüşlər. Bunun üçün hər şeydən əvvəl, cəmiyyətlərin yaradılması şərt idi. Fəxrəddin Ərdoğan bu illərdə Bakıda müsəlmanların Türkiyəyə yardım üçün pul topladıqlarına dair xatirələrində belə qeyd edir: "...yardım siyahısının başında Hacı Zeynalabdin Tağıyevin adı var idi. Onun yarım milyon qızıl pul verdiyi qeyd edilirdi [Erdoğan, 2007, s.10]. Hətta tanınmış milyonçuların həyat yoldaşları da boş dayanmır, köməklərini əsirgəmirdilər. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Əlimərdan bəy Topçubaşovun xanımları da qızıllarını Türkiyəyə yardım kampaniyasına verdikləri sənədlərdə öz əksini tapmışdır" [Erdoğan, 2007, s.10]. Araşdırmalar göstərir ki, hətta adi adamlar belə böyük həvəslə Türkiyəyə maddi yardım etməyə hazır idilər. Bunu görən Rusiya Türkiyə konsulluğunu bağlaması haqqında göstəriş də vermişdi. Türkiyədə mühacirət həyatı yaşayan Məhəmməd Əli Rəsuloğlu da Fəxrəddin Ərdoğanın bu fikrini təsdiq edərək yazırdı: "Bakıdakı türk konsulluğunun binası önündə "Hilali-əhmərə"yə yardım göstərmək üçün Azərbaycan xalqı kütləvi şəkildə toplandı. Bu həyəcandan qorxan rus çar hökuməti Türk konsulluğunu bağladı" [Resuloğlu, 1936, s.11].

Fəxrəddin Ərdoğan Türkiyəyə qardaş köməyinin göstərilməsi istiqamətində Bakıdakı işləri ilə bağlı sonralar belə yazırdı: "Bakıdakı yetimxanaları gedib gəzdim. Burada minə qədər Ərzurum cəbhəsindən gətirilən uşaq və qadınlara qayğı göstərilirdi. Hər on uşağa bir nəzarətçi baxırdı. Hər cümə günləri onlara fərqli rənglərdə paltarlar geyindirilərək gəzməyə aparılırdı. Oxuma yaşı çatanlara gündə dörd saat dərs keçirilirdi. 4 saat da kömək üçün fabriklərə aparılırdılar" [Erdoğan, 2007, s.121]. Türkiyənin Ərzurum, Qars, İğdır bölgələrinə Azərbaycanın yardımları davam edirdi.

Ədəbiyyat siyahısı:

1. Aslan B. I.Dünya Savaşı Esnasında Azerbaycan Türklerinin Anadolu Türklerine "Kardaş Kömeği" (yardımı) ve Bakü-Müslüman Cemiyeti Hayriyesi. Atatürk Kültür Merkezi Yayınları. Ankara, 2000.
2. Erdoğan F. Türk Ellerinde Hatıralarım. I.Baskı. İstanbul, 2007.
3. Kurat A.N. Türkiye ve Rusya. XVIII.Yüzyıl Sonundan Kurtuluş Savaşına Kadar. Türk-Rus İlişkileri. I.Baskı. İstanbul 1996.
4. Resuloğlu M.A. Müsavat Partisi'nin Kuruluşu. // Azerbaycan Dergisi, s.282, Nisan 1936, s.505-506.
5. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Azərnəşr, 1987.

ПАРВАНА ТЕЛЬМАН КЫЗЫ МУСТАФАЗАДЕ
Институт истории А.А.Бакиханова НАНА

# ЭНЕРГЕТИЧЕСКИЙ И ТРАНСПОРТНЫЙ ДИАЛОГ МЕЖДУ ЕВРОПЕЙСКИМ СОЮЗОМ И АЗЕРБАЙДЖАНОМ В КАСПИЙСКОМ РЕГИОНЕ

Ключевые слова: Азербайджан, Южный Кавказ, энергетическая политика

Построение равноправного сотрудничества с Европейским Союзом является одним из стратегических целей внешней политики Азербайджана. Важным аспектом такого сотрудничества является вопрос энергетической политики. Стоит подчеркнуть, что к началу 2000-х годов структура взаимоотношений между ЕС и Азербайджаном была подобной схеме отношений ЕС с южно-кавказскими республиками. Постепенно Азербайджан стал приобретать особое значения в приоритетах ЕС, что было обусловлено наличием энергетического потенциала государства. Однако, в отличие от США, ЕС менее активно проявил инициативу по сотрудничеству с государствами Южного Кавказа, опасаясь конфронтации с Ираном и Россией.

После того как Азербайджан был включен в программу «европейской политики соседства» 13 ноября 2004 года в Баку была проведена Международная конференция «Энергетическое Сотрудничество между европейским Союзом, Прикаспийскими государствами и соседними странами». В связи с подписанием этого документа в международной практике появилось понятие «Бакинская инициатива». В заключительном документе конференции подчеркивается важностьэнергетического сотрудничества государств Каспийского региона с ЕС в двустороннем и многостороннем формате. Азербайджан выступил с заявлением о неприменении норм и принципов заключительного документа относительно Армении к моменту решению конфликта [Conclusion of the Ministerial Conference

on Energy Co-operation between the EU, the CaspianL ittoralStatesandtheirneighboringcountries, 2004].

Энергетическое сотрудничество Азербайджана с международными организациями базируется на важности реализации национальных интересов, поэтому государство использует энергетическую дипломатию как инструмент давления на конфликтующую сторону.

Известно, что Азербайджан является государством-партнером INOGATE – программа технической помощи в сфере энергетики, финансируемого Европейским Союзом, которая действует с 1996 года. INOGATE также действует в рамках программы Восточного партнерства и Бакинской инициативы. В Азербайджане эта программа способствует эффективному развитию энергетического сектора. Вместе с Международным энергетическим агентством INOGATE проводит сравнительный анализ прогресса стран-партнеров в достижении четырех целей Бакинской инициативы, а также предоставляет стратегические рекомендации по совершенствованию энергетических секторов стран-партнеров.

В 2004 году Совет Европы принял решение о включении государств Южного Кавказа в сферу действий Европейской политики соседства. Такое решение стало доказательством готовности Евросоюза по расширению сотрудничества с Азербайджаном и выходом за рамки того, что было предусмотрено Соглашением о партнерстве и сотрудничестве. Новым шагом в этом направлении стал доклад от 2 марта 2005 года об оценке прогресса в Азербайджане в сфере политических и экономических реформ. В документе были выделены сферы, в котором двустороннее сотрудничество имело реальные перспективы развития [Гусейнов, 2011, 90].

Стратегия энергетической политики ЕС предусматривает двустороннее, многостороннее и региональное сотрудничество. Развитие двусторонних отношений с государствами Африки, Кавказа, Каспийского бассейна, Центральной Азии, Персидского залива и Латинской Америки входит в перечень внешних энергичных интересов ЕС [PaperfromCommission/ SG/HRfortheEuropean CouncilAn ExternalPolicyToServeEuropesEnergyInterests].

Важным событием в процессе формирования энергетического диалога между ЕС и Азербайджаном стало подписание Меморандума о взаимопонимании в энергетической сфере от 7 ноября 2006 года. Документ включает четыре основные принципы: 1) гармонизация законодательства Азербайджана в соответствии с законодательством ЕС в энергетической сфере; 2) усиление системы безопасности энергоресурсов и транзитных систем из Азербайджана и Каспийского бассейна; 3) разработка всеобъемлющей политики управления энергопотреблением в Азербайджане, включая конкретные меры по энергосбережению и решения проблемы изменения климата, при использовании соответствующих механизмов по Киотскому протоколу. В связи с этим первостепенное внимание должно уделяться развитию возобновляемых источников энергии; 4) техническое сотрудничество и обмен опытом [Memorandum of understanding on a Strategic Partnership between the European Union and the Republic of Azerbaijan in the field of energy].

Реализация Южного газового коридора будет иметь такие последствия во внешнеполитических отношениях Азербайджан - ЕС:

1. Азербайджан и ЕС начнут строить новый формат двусторонних отношений, построенный по принципам равноправия. Политика ЕС в отношении государств бывшего Советского Союза всегда была менее справедливой и более требовательной, однако растущая стратегическая важность Каспийского региона с имеющимися энергетическими проектами сменит «устаревшую» геополитическую ситуацию.

2. будет наблюдаться повышение уровня энергетической безопасности Каспийского бассейна и Европейского Союза.

3. Проблема территориальной целостности и суверенитета приобретает актуальность. Мирное урегулирование нагорно-карабахского конфликта станет предметом двусторонних переговоров между ЕС и Азербайджаном.

Согласно положениям документа «Рекомендации Совета сотрудничества ЕС - Азербайджан» №1 / 2018 по приоритетным направлениям сотрудничества между ЕС и Азербайджаном», который был ратифицирован 28 сентября 2018 в Брюсселе,

подчеркивается стратегическая важность Южного газового коридора и роль Азербайджана в этом проекте: «Скорая реализация проекта Южного газового коридора и своевременное начало доставки газа на европейский рынок являются ключевыми приоритетами. Это повысит роль Азербайджана не только как поставщика энергии в Европу, но и как потенциальную транзитную страну, которая сможет предложить широкий спектр услуг транспортной логистики производителям энергии в Каспийском регионе и за его пределами» [Recommendation on №1/2018 of the EU – Azerbaijan Cooperation Council of September 2018 on the EU – Azerbaijan Partnership Priorities].

Таким образом, между ЕС и Азербайджаном формируется энергетический диалог, который способствует углублению двусторонних отношений. Растущая значимость Каспийского региона влияет на формирование стратегического партнерства между сторонами. Потенциально ЕС и Азербайджан могут подписать новый документ по сотрудничеству. Энергетический проект Южный газовый коридор является важным инструментом в укреплении двусторонних отношений между ЕС и Азербайджаном.

Список литературы:

1. Гусейнов Ф. Геополитические аспекты сотрудничества Европейского Союза и Азербайджанской Республики. Дисс.д-рафилос.пополит.наукам:23.00.04, М-во Образования Азерб.Респуб., БГУ. – Баку, 2011. с.90

2. Conclusion of the Ministerial Conference on Energy Co-operation between the EU, the Caspian Littoral States and their neighboring countries/Annex 2 – Statements by Participating countries. 13 November 2004, Baku, p.1. – library.euneighours.eu

3. Paper from Commission/SG/HR for the European Council An External Policy To Serve Europes Energy Interests, S160/06 of 15-16.06.2006.

https://www.consilium.europa.eu/uedocs/cms_data/docs/pressdata/en/reports/90082.pdf

4. Memorandum of understanding on a Strategic Partnership between the European Union and the Republic of Azerbaijan in the field of energy//IP/06/1516, Brussels, 7 November 2006

5. Recommendation on №1/2018 of the EU – Azerbaijan Cooperation Council of September 2018 on the EU – Azerbaijan Partnership Priorities [2018/1598]. Official journal of the European Union – L265/18.

РАФИГ ИЛДЫРЫМ ОГЛУ АББАСОВ
Азербайджанский Университет Языков

# НОВЫЙ ШЕЛКОВЫЙ ПУТЬ: ИЗМЕНЕНИЕ ТРАНСПОРТНО-ТОРГОВОЙ КОНФИГУРАЦИИ ЕВРАЗИИ

Ключевые слова: Один пояс – один путь, ТРАСЕКА, Шелковый путь

Прошедший в Пекине недавний Второй международный саммит сотрудничества "Один пояс – один путь" безусловно, стал новым этапом в развитии сотрудничества государств, расположенных на транспортных евразийских маршрутах, дал возможность в широком формате обсудить перспективы китайской модели экономического развития Евразийского континента. Очень важно, что Председатель КНР Си Цзиньпин подчеркивал, что Китай открыт для сотрудничества со всеми государствами в рамках инициативы "Один пояс - один путь" и это - открытая платформа для сотрудничества. Фактически выдвигая эту инициативу, Председатель КНР Си Цзиньпин продемонстрировал пример нового подхода к развитию интеграции в области энергетики, транспорта, промышленности, а также гуманитарного сотрудничества и использовал исторический опыт углубления человеческого взаимопонимания в XXI веке. Второй международный саммит сотрудничества "Один пояс – один путь" фактически определил новые приоритеты по созданию и развитию принципиально новой транспортно-торговой конфигурации Евразии, основанной на равноправии, уважении национального суверенитета, на нормах международного права и взаимной выгоды. Сегодня, когда перед Китаем стоит грандиозная задача превращения страны к 2050 году в богатое, могущественное, демократическое, гармоничное, цивилизованное модернизированное социалистическое государство, сохранения Китаем лидирующего положения в мировой экономике, трудно переоценить значимость реализации глобального проекта по возрождению Исторического Шелкового пути, превращающегося в важный инструмент для создания современной

инновационной экономики Китая, осуществления государственной политики открытости внешнему миру. Реализация инициативы «Один пояс, один путь» приносит ощутимые результаты в политическом и социально-экономическом развитии КНР. В условиях перехода Китая к новой модели экономического развития, к интенсивным методам управления экономикой, существенно выросла инвестиционная активность китайских компаний за рубежом, были освоены новые рынки для экспорта китайской продукции и импорта минерального сырья, произошел переход к более сбалансированной внешнеторговой политике, развивалась региональная валютно-финансовая интеграция, повышалась роль юаня в международных финансовых операциях, начала решаться проблема избыточных производственных мощностей и перепроизводства. Азербайджанская Республика с ее уникальным геостратегическим положением в центре Евразии, широкими инфраструктурными возможностями и богатые нефтегазовыми ресурсами является важным региональным узлом в реализации глобальной китайской инициативы "Экономический пояс Шелкового пути". Одновременно активное участие Азербайджана в реализации проекта Экономического пояса Шелкового пути, позволит расширить и азербайджано-китайское сотрудничество в промышленном производстве, нефтегазовом секторе, в области высоких технологий, инфраструктуры и в других сферах, превращая нашу страну в важного стратегического партнера Китая. Основополагающим этапом в истории участия Азербайджана в трансевразийских транспортных проектах стало проведение в 1998 году в Баку по инициативе Президента Азербайджанской Республики Гейдара Алиева международной конференции «ТРАСЕКА - Восстановление исторического Шелкового Пути». Активизация участия Азербайджана в реализации программы "Один пояс и один путь", связана в первую очередь с историческим визитом Президента Азербайджанской Республики Ильхама Алиева в Китай в декабре 2015 года, в ходе которого им совместно с Председателем Китайской Народной Республики Си Цзиньпином был подписан Меморандум о взаимопонимании по совместному поощрению создания «Экономического пояса Шелкового пути», заложившего

прочный фундамент для дальнейшего многостороннего сотрудничества между двумя странами. Президент Азербайджанской Республики Ильхам Алиев, принимая участие в 2019 году в Давосе в дискуссии на сессии на тему «Развитие инициативы «Один пояс, один путь»: взгляд Китая на триллион долларов» отмечал, что Азербайджан, поддерживая инициативу правительства Китая «Один пояс, один путь», одновременно создает для стран, расположенных не только к Востоку и Западу, но и к северу и югу от него возможность для присоединения к данному проекту цепочки транзитных государств - соседей, соединяя континенты, страны и создавая более прогнозируемое будущее. В своем интервью китайскому телеканалу CGTN в Давосе Президент Ильхам Алиев также отмечал, что важным аспектом расширения участия Азербайджана в реализации программ создания торговых коридоров и транспортной инфраструктуры, развития инклюзивного регионального сотрудничества является и создание политической атмосферы мирных межгосударственных отношений и экономического сотрудничества. Важно также отметить, что масштабное строительство транспортных инфраструктур, успешная поддержка и развитие межрегиональных торговых коридоров в первую очередь обусловлено устойчивой политической и макроэкономической стабильности в Азербайджане, в стране с развитой экспортной нефтегазовой промышленностью и благоприятным и либеральным инвестиционным климатом для зарубежных компаний. В связи с геополитическим положением Азербайджана и его расположением на пересечении торговых путей различных мировых направлений, наша страна стала одним из важных участников программы ТРАСЕКА, осуществляемой в рамках восстановления Великого Шелкового пути и нацеленной на создание транспортного коридора Европа-Кавказ-Азия. Новый транспортный коридор, имеющий большое значение в диверсификации евразийской транспортной инфраструктуры, превращает Азербайджан в главный транзитный узел международных грузовых перевозок в регионе, а железнодорожный Шелковый путь Баку-Тбилиси-Карс не только будет способствовать обеспечению устойчивого развития и

безопасности региона, но и установлению прямых транспортных связей стран Прикаспийского региона и Центральной Азии с Европой. Необходимо подчеркнуть, что Азербайджан является также страной, которая вкладывает серьезные инвестиции в восстановление Шелкового пути, осуществляет модернизацию транспортной инфраструктуры. И создание эффективных многомодульных транспортных коридоров, способствующих облегчению торговли и координации внутрирегиональных и трансрегиональных инфраструктур, безусловно, внесет большой вклад и в развитие азербайджано-китайских отношений и в повышение устойчивого развития на всем пространстве Евразии.

## Список литературы:

1. https://azertag.az/xeber/1274810
2.https://azertag.az/xeber/1236772
3.https://ru.euronews.com/2019/04/27/belt-and-road-forum-2019
4.http://kavkasia.net/Azerbaijan/article/1557530521.php

RAIBƏ MƏMMƏDBAĞIR QIZI CƏFƏROVA
Yeganə Əziz qızı Abbasova
Azərbaycan Dövlət Aqrar
Universiteti

## BU ILIMIZ SOSIAL INKIŞAF VƏ RIFAH ILIDIR

Açar sözlər: Sosial müdafiə, sosial inkişaf, dövlətçilik, rifah

Əhalinin sosial müdafiəsinin daha da güclənməsi ilə xarakterizə olunan 2019-cu ilin ilk aylarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar insan amilinin uğurlu siyasətin mərkəzində dayandığını bir daha təsdiq etdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycan iqtisadiyyatındakı eniş bütövlükdə reğionların öz inkişafında böyük təsir etdi. Bu illərdə işsizlik, yoxsulluq kəskin surətdə artmış, siyasi sabitlik tamamilə pozulmuş, vətəndaş müharibəsi başlamış və respublikamız öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Heydər Əliyevin çevik siyasəti sayəsində 1993-cü ildən başlayaraq görülən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın bütün regionlarında siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olundu, müstəqil dövlətçilik qorunub saxlandı və demokratik-hüquqi dövlət quruldu.

İlham Əliyev Hakimiyyətə gələndən sonra Heydər Əliyevin uğurlu siyasətini təkmilləşdirdi, onun reallaşmasının yeni üsul və vasitələrni müəyyən etdi. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə qəbul edilmiş dövlət proqramları yerinə yetirməklə Azərbaycan güclü infrastrukturu formalaşdırdı, işsizliyin, yoxsulluğun artmasının qarşısı alındı. Azərbaycaan bütün dünyaya sübut etdi ki, o müstəqil yaşamaq və öz daxili problemlərini müstəqil və tamamilə həll etmək qabiliyyətinə malikdir. Bu proqramlarla keçid dövrü vəzifələri müvəffəqiyyətlə yerinə yetirildi və yeni dövrün vəzifələri layiqincə yerinə yetirilməyə başlandı.

Bütün çətinliklərə baxmayaraq bu proqramların vəzifələri yerinə yetirilməkdədir. Proqramların icrası dövründə Azərbaycanda sürətli sosial və iqtisadi inkişaf təmin olunmuşdur.

2004-2017-ci illərdə respublikamızda ÜDM 3,2 dəfə, qeyri-neft sektoru 2,8, sənaye məhsulu 2,6, kənd təsərrüfatı 1,7 dəfə artmışdır. Nəticədə respublikamızın maliyyə imkanları genişlənir, 2004-2017-ci illərdə valyuta ehtiyatları 23 dəfə artıb. Ölkəmizin həyatının digər sahələrində də yüksək nailiyyətlər qazanılmışdır.

Yeni inkişaf mərhələsində iqtisadi potensialı gücləndirmək və ixrac yönümlü məhsul istehsalını artırmaq üçün əsas vəzifə respublikanın istifadəsi mümkün olan bütün potensialını istifadə etməklə qeyri neft sektorunun hərtərəfli, innovasiya yönümlü və yüksək səviyyədə inkişaf etdirmək, onun ixrac yönümlü məhsul istehsalını sürətlə artırmq, neft sektorundan asılılığını aradan qaldırmaq və tamamilə özünümaliy-yələşdirmə sisteminə keçməsini təmin etməkdir.

Bütün bunlarla əlaqədar milli ruhda iqtisadçı kadrların və mütəxəssislərin hazırlanması regional və milli mənafelər baxımından prinsipial əhəmiyyətə malikdir [Abbasov, 2017, 9].

2017-ci il Azərbaycan iqtisadiyyatının sabitləşməsi, 2018-ci il iqtisadi inkişaf kimi xalqımızın tarixinə düşdüsə, 2019-cu il sosial inkişaf və rifah ili kimi öz təsdiqini tapdı. 01.01.2019-cu ildən artan minimum aylıq əmək haqqına yenidən baxılması fərəhləndirici hal kimi qiymətləndirilir. Belə ki Prezident İlham Əliyevin 2019-cu il 18 iyun tarixi Sərəncamı ilə sentyabrın 1-dən minimum aylıq əmək haqqının 180 manatdan 250 manata çatdırılması, dövlət ümumi təhsil və peşə təhsili müəsisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması ölkədə həyata keçirilən siyasətin mərkəzində insan amilinin olduğunu bir daha sübut etdi.

Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına və dövlət büdcəsinin imkanlarına uyğun həyata keçirilən inqilabi islahatlar həm də təsdiq etdi ki, ölkəmizin güclü iqtisadi imkanları var. Çünki bu gün sosial sahədə atılan addımların təməlində İlham Əliyevin düşünülmüş islahatları və müdrik qərarları dayanır.

Ədəbiyyat siyahısı:

1.Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə qəbul edilmiş dövlət proqramları.

2.V.H.Abbasov Aqrar iqtisadiyyat Bakı 2017.

3.http://www.economy.gov.az

4.http://www.az.stat.org/region

RAMILƏ BƏHLUL QIZI DADAŞOVA
AMEA Qafqazşünaslıq İnstitutu

# ERMƏNISTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSINƏ TÜRKIYƏ, İRAN, RUSIYA VƏ ABŞ-IN MÜNASIBƏTI

Açar sözlər: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Türkiyə, İran, Rusiya, ABŞ, vasitəçilik cəhdləri

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Türkiyə, İran, Rusiya, ABŞ-ın mövqeyi araşdırılmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində Türkiyə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə münasibətdə ehiyatlı mövqe tuturdu. Ermənistanı açıq şəkildə müdafiə edən Rusiya ilə, erməni diasporasının güclü olduğu ABŞ və Fransa ilə münasibətləri soyuqlaşdırmaq istəmirdi. Lakin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Xocalı soyqırımını törətməsi Türkiyəni hiddətləndirdi. Azərbaycana gələn Türkiyə Böyük Millət Məclisinin insan hüquqları komitəsinin üzvlərindən ibarət nümayəndə heyəti Xocalı soyqırımında Ermənistanı günahlandırdı və bundan sonra bir neçə xarici ölkələrdə olaraq dünya ictimaiyyətini soyqırım barədə məlumatlandırdı. Türkiyə hökuməti xarici ölkələrdəki türk səfirliklərinə Azərbaycanın mövqeyini izah etməyi tapşırdı [Qasımov, 2015, 434]. 1993-cü il aprel ayında Kəlbəcərin işğal edilməsindən sonra Türkiyənin münaqişəyə münasibətdə mövqeyi dəyişdi. Türkiyə Ermənistanla sərhədlərini bağladı. Sərhədlərin bağlanmasına digər səbəblər Ermənistanın Türkiyədən uydurma "erməni soyqırımı"nı tanımanı, əsassız ərazi iddiaları və təzminat tələb etməsi ilə bağlı idi. Bu vaxtdan etibarən Türkiyə münaqişənin nizama salınmasına cəhd edərək, Azərbaycanın ədalətli mövqeyini birtərəfli qaydada müdafiə etdi və münaqişənin nizama salınması barədə BMT Təhlükəsizlik Şurasına müraciətlər etdi, bəyanatlar verdi. Türkiyə rəhbərliyi Ermənistanı öz qonşusu Azərbaycana qarşı təcavüzü kəsməyə, Azərbaycan torpaqlarını tərk etməyə, BMT Nizamnaməsi və ATƏT prinsiplərinə riayət etməyə

çağırırdı [Письмо представителя Турции, 1993, 145; Сборник документов ООН, 2009, 30-31].

Münaqişənin ilk mərhələsindən etibarən Azərbaycan müsəlman dövləti olduğu üçün İran İslam Respublikası tərəfindən dəstəklənəcəyinə ümid edirdi. 1992-ci il fevralın 25-də İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Bakıya səfəri zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında vasitəçilik etmək təşəbbüsü ilə çıxış etdi. Lakin, İranın vasitəçilik cəhdləri nəticəsiz qaldı. 1992-ci il mayın 8-də İranın vasitəçiliyi ilə Tehranda Azərbaycan və Ermənistan arasında Azərbaycan-Ermənistan sərhəddi boyu və Dağlıq Qarabağda atəşin dayandırılması haqqında üçtərəfli saziş imzalandı. Həmin gün Ermənistan tərəf sazişi pozaraq Azərbaycanın Şuşa şəhərini işğal etdi. Ardınca 1993-cü ilin avqust ayında Füzuli və Cəbrayıl rayonlarının işğal edilməsi bütün ölkələr tərəfindən müzakirə edildi, xüsusən də İran İslam Respublikası XİN Ermənistanın Füzuli rayonuna qarşı hücumları dayandırmağı tələb edən bəyanatla çıxış etdi. İran onun sərhəddinin yaxınlığında baş verən hadisələrin sülh və təhlükəsizliyi hədələdiyinə əsaslanaraq, Ermənistanı təcavüzü dayandırmağa, işğal etdiyi ərazilərdən çıxmağa çağırdı [Письмо представителя Азербайджана от 16 августа 1993 года, 239-240.]. İran Ermənistan Silahlı Qüvvələri və yerli erməni qüvvələrinin Azərbaycan ərazilərinin dərinliklərinə hücum etməsinin İranın şimal rayonlarını təhlükədə qoyduğunu, ölkənin milli təhlükəsizliyini hədələdiyini bildirdi. İranın narahatlığına səbəb bir tərəfdən ərazisinin təhlükə altında qalması, bəzi hallarda artilleriya mərmilərinin ora düşməsi, digər tərəfdən Azərbaycanın işğal edilən ərazilərindən qaçqınların bu ölkənin ərazilərinə axışması idi. Zəngilanın işğalı zamanı 30 min azərbaycanlı öz yurdlarını tərk edərək sığınacaq tapmaq məqsədilə İranın ərazisinə keçdi. Sonralar 13 mindən çox qaçqın İmişli yolu ilə Azərbaycana qayıtdı. İlkin məlumata görə 11 minə yaxın insan Araz çayında boğulmuş, minlərlə insan itkin düşmüşdü [Письмо представителя Исламской Республики Ирана от 28 октября 1993, 145].

Lakin son zamanlar İİR Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili münasibət göstərir, bütün bəyanatlarında və beynəlxalq təşkilatlarda, BMT-də, İƏT-də çıxışlarında, eləcə də Azərbaycan rəhbərliyi ilə rəsmi görüşlərində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə,

əməllərində əksinə hərəkət edir. Təcavüzkar siyasət yürüdən dövlətə qarşı iqtisadi və siyasi sanksiyaların verilməsinin beynəlxalq təhlükəsizliyin müdafiə edilməsində mühüm amil olmasına məhəl qoymayan İran İslam Respublikası son zamanlar Ermənistanla siyasi və iqtisadi əlaqələri yüksək səviyyədə inkişaf etdirir və bu da münaqişənin nizama salınmasına bu və ya digər dərəcədə mənfi təsir göstərir.

Rusiya SSRİ-nin devrilməsi ilə əlaqədar müstəqil olmuş dövlətlərin müstəqilliyi ilə barışa bilmir, hələ də onları özünkü hesab edir. Hələ münaqişənin ilkin mərhələsində Rusiya Ermənistanın təcavüzündən, Cənubi Qafqazda sabitsizlikdən istifadə edərək keçmiş sovet respublikalarında əvvəlki hərbi-siyasi nüfuzunu bərpa etməyə çalışırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanğıc mərhələsində Azərbaycan ərazilərinin işğalı keçmiş sovet hərbçilərinin, xüsusən də Xankəndində yerləşən 366-cı motoatıcı polkun iştirakı ilə həyata keçirilirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı da həmin polkun iştirakı ilə Ermənistan tərəfindən həyata keçirildi. Rusiya Müdafiə Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri 1993-1995-ci illər ərzində Ermənistana qanunsuz olaraq ümumi dəyəri 1 milyard dollar olan silah və döyüş sursatı göndərdi. Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın belə hərəkəti münaqişənin nizama salınmasında onun ədalətli mövqe tutmadığını sübut edir. Bu məsələ ilə bağlı 1997-ci ilin mart ayında Heydər Əliyev Boris Yeltsinə məktub göndərdi, və Rusiyaya rəsmi səfəri zamanı bu barədə danışdı. B.Yeltsin təqsirkarların aşkar ediləcəyini bildirdikdə, Heydər Əliyev təkcə təqsirkarların aşkar edilməsi deyil, həm də bu silahların aşkar edilərək, Ermənistandan alınıb Rusiyaya qaytarılmasının lazım olduğunu vurğuladı [Azərbaycan beynəlxalq aləmdə, 1997, 43].

Məhz BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Rusiya Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasını təklif etdi. Aparılan tədqiqatlar göstərir ki, hazırda münaqişənin həll edilməməsinin səbəbi Minsk qrupunun həmsədrliyinə Rusiyanın daxil olmasının Ermənistana münaqişənin onun xeyrinə həll olunacağına ümid verməsidir. Cəzasız qalan, Rusiyanın havadarlığından

ruhlanan Ermənistan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə məhəl qoymur.

2001-ci il 11 sentyabr terror hadisələrindən sonra Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-ı dəstəkləyən ilk dövlətlərdən biri oldu, Azərbaycanın ABŞ ilə birgə Əfqanıstan və İraqda antiterror fəaliyyətdə iştirak etməsi iki dövlət arasında münasibətlərə müsbət istiqamətdə təsir göstərdi. Oktyabr ayının sonlarında ABŞ Senatı "907-ci əlavə"nin müvəqqəti dayandırılması barədə Prezidentə səlahiyyət verdi. Erməni diasporasının təsiri ilə ABŞ Konqresinin erməni məsələləri üzrə işçi qrupuna daxil olan bir sıra üzvləri işğal nəticəsində yaradılmış qondarma qurumun tanınmasını, Dağlıq Qarabağ əhalisinin öz müqəddəratını təyinetmə hüququnu dəstəkləsə də və "DQR"-a yardımın artırılmasını xahiş etsə də, 2005-ci ilin fevralında "ABŞ və Dağlıq Qarabağ" başlığı altında faktlar siyahısında ABŞ-ın Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımadığı, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi, Dağlıq Qarabağın statusunun isə tərəflər arasında danışıqlar nəticəsində müəyyənləşdirilməsi zəruriliyi göstərilmişdi [Ermənistan-Azərbaycan münaqişəsi, 2005, 70].

Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, Rusiyanın, İranın münaqişənin davamlı olmasında maraqları var. ABŞ və Fransanın bu istiqamətdə siyasətinə erməni lobbisinin güclü təsiri var. Bu dövlətlər də Dağlıq Qarabağ qondarma qurumuna yardım etməklə münaqişənin kəskinləşməsinə səbəb olurlar. ABŞ-ın, eləcə də Cənubi Qafqazda Ermənistandan öz forpostu kimi istifadə edən və münaqişənin ilkin mərhələsindən ona dəstək duran Rusiyanın, ermənipərəst siyasət yeridən Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizamasalmada ədalətli mövqe tutacaqları inandırıcı deyildir. Vasitəçilik missiyasının həyata keçirilməsində həmsədrlik qurumu mühüm rol oynaya bilər. 1907-ci il 18 oktyabr tarixli Beynəlxalq mübahisələrin dinc yolla tənzimlənməsi haqqında Haaqa konvensiyasının 5-ci maddəsində yazılır ki, mübahisə tərəflərindən biri barışıq təklifini qəbul etmirsə, həmin vaxtdan vasitəçinin səlahiyyətləri dayandırılır, başqa sözlə vasitəçi tərəflərdən birinə rəğbət bəsləyirsə, hüquqları pozulan digər tərəf həmin vasitəçidən imtina edə bilər. Hazırkı həmsədrlərin münaqişə bölgəsində öz maraqları vardır. Həmsədrlər sırasına ya Türkiyə daxil edilməli, ya da er-

məniləri müdafiə edən Fransa, Rusiya həmsədrlikdən kənarlaşdırılmalıdırlar.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, 776 s.

2. Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.63-70.

3. Qasımlı M.Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 1 hissə. Bakı: Mütərcim, 2015, 648s.

4. Письмо представителя Турции от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26665, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997, 415с.

5. Письмо представителя Азербайджана от 16 августа 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26323, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996, 455с.

6. Письмо представителя Исламской Республики Ирана от 28 октября 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26662, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за октябрь, ноябрь, декабрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1997 год, 415с.

7. Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, 368 с.

RAMILƏ ASIF QIZI HÜSEYNOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# AZƏRBAYCAN DEMOKRATIK RESPUBLIKASI DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASIBƏTLƏR

Açar sözlər: ADR, beynəlxalq münasibətlər, xarici siyasət, müqavilələr, müstəqilliyin tanınması

Beynəlxalq münasibətlər siyasi elmin bir qolu olub, beynəlxalq sistemdə dövlətlərin bir-biri ilə, eləcə də beynəlxalq hökumətlərarası təşkilatlar (BHT), transmilli korporasiyalar (TMK) və digər qeyri-dövlət aktorları ilə münasibətlərini öyrənir.

1918-ci il 28 may tarixində Şimali Azərbaycanda müstəqil dövlət və Müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Demokratik Respublikası yaradılmışdır. M.Ə.Rəsulzadənin sədrlik etdiyi Milli Şura tərəfindən 1918-ci il 28 may tarixində qəbul edilən İstiqlal Bəyənnaməsinin 3-cü maddəsində deyilirdi:

"Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə beynəlxalq dostluq əlaqələri yaradacaq"[3].

ADR dövründə beynəlxalq münasibətlərdə xarici siyasət mühüm yer tutmuşdur. Xarici siyasətin qarşısında aşağıdakı vəzifələr dururdu:

– Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinin beynəlxalq diplomatik zəminləri müəyyən edilməli;

– 1918-ci ilin əvvəllərində Qafqaz regionunda qüvvələr nisbəti və konkret siyasi durum aydınlaşdırılmalı;

– ADR rəhbərliyinin xarici siyasət konsepsiyası və Azərbaycan hökumətinin yeritdiyi xarici siyasətin üstün istiqamətləri araşdırılmalı;

– Azərbaycanın Osmanlı imperiyası ilə münasibətlərinin ümumi istiqamətləri izah edilməli və səciyyələndirilməli, Osmanlı Ordusunun Azərbaycana gəlişi və Bakının azad edilməsinə obyektiv qiymət verilməli;

– Azərbaycan Respublikasının birinci dünya müharibəsinin qurtarmasından sonra düşdüyü vəziyyət və yeni şəraitdə onun diplomatik fəaliyyəti tədqiq edilməli;

– Azərbaycanın qonşu Gürcüstanla münasibətləri, sərhədləri, iqtisadi, hərbi sahələrdə əməkdaşlığı araşdırılmalı;

– Azərbaycanın qonşu Ermənistanla mübahisəli məsələləri, o cümlədən onları törədən səbəblər izah edilməli, bu ölkə ilə iki il ərzində özünü göstərmiş daimi münaqişənin nəticələri müəyyənləşdirilməli;

– Cənub-Qərbi Qafqaz Respublikasının yaranmasının etnik-siyasi kökləri araşdırılmalı, Azərbaycanın bu dövlət qurumuna münasibəti göstərilməli;

– Azərbaycan hökumətinin qonşu Dağıstana Azərbaycanın təhlükəsizliyi baxımından verdiyi önəm, Şimali Qafqazla Azərbaycan Respublikası arasında yaranmış birbaşa əlaqələr araşdırılmalı, bu əlaqələrdə general Denikinin oynadığı rol müəyyən edilməli;

– Azərbaycanın digər qonşusu İranla qarşılıqlı münasibətləri, bu münasibətlərə təsir edən amillər müəyyən edilməli;

– Azərbaycanın dövlət müstəqilliyinin tanınması yolunda Azərbaycan hökumətinin fəaliyyəti, o dövrdə dünyanın əsas dövlətlərinin yeni yaranmış dövlətlər məsələsinə münasibəti və yürutdükləri strateji xətt araşdırılmalı;

– Sovet Rusiyasının Azərbaycanın müstəqilliyinə münasibəti, Bakı nefti və digər amillərin sovet Rusiyasının Azərbaycana münasibətdə yeritdiyi siyasətdə oynadığı rol izah edilməli;

– 1920-ci ilin aprel siyasi böhranını şərtləndirən daxili amillər müəyyənləşdirilməli, dövlət müstəqilliyinin itirilməsində xarici amillərin rolu araşdırılmalıdır [Nəsibzadə, 1996].

ADR-nin xarici siyasətinin əsas istiqamətlərindən birini beynəlxalq aləmdə özünün tanınmasına nail olmaq və qonşu dövlətlərlə mehriban münasibətlər yaratmaq təşkil edirdi.

Azərbaycan diplomatiyasının ilk addımı respublikanın suverenliyinin elan edilməsi haqqında qabaqcıl xarici dövlətlərə məlumat vermək oldu. 1919-cu il mayın 29-da ABŞ, Fransa, Böyük Britaniya, Sovet Rusiyası, Osmanlı, Almaniya, İtaliya və s. dövlətlərin xarici işlər nazirliklərinə bu barədə rəsmi məlumat verildi.

Azərbaycan hökumətinin 1918-ci il 4 iyun tarixində Osmanlı dövləti ilə bağladığı "Sülh və dostluq haqqında müqavilə" ADR-nin beynəlxalq nüfuzuna müsbət təsir göstərdi və onun ərazi bütövlüyünün, xalqın fiziki varlığının qorunub saxlanması üçün mühüm addım oldu.

ADR-nin xarici siyasətində mühüm məsələlərdən biri də qonşu dövlətlərlə ərazi mübahisələrini dinc yolla nizama salmaqdan ibarət idi. Gürcüstan dövləti ilə Zaqatala dairəsi ətrafında ərazi mübahisəsi dinc yolla nizama salındı.

1919-cu il iyunun 16-da Denikin təhlükəsinə qarşı səyləri birləşdirmək məqsədilə Azərbaycan ilə Gürcüstan arasında hərbi-müdafiə müqaviləsi bağlandı. Gürcüstanda Azərbaycan səfirliyi yaradıldı.

Azərbaycan diplomatiyası qonşu İran dövləti ilə beynlxalq münasibətlərin yaradılması istiqamətində müəyyən işlər gördü. İran ilk dövrlərdə Cənubi Azərbaycan məsələsindən ehtiyatlanır, hətta Şimali Azərbaycana da ərazi iddiaları irəli sürərək onunla hər hansı bir əlaqədən imtina edirdi. Lakin Azərbaycan hökumətinin səyi nəticəsində İranla beynəlxalq münasibətlər qaydaya salındı. 1920-ci il mart ayının 21-də İranla Azərbaycan arasında "Dostluq haqqında müqavilə" imzalandı. Tehranda Azərbaycan səfirliyi, Təbrizdə Baş Konsulluq yaradıldı və fəaliyyətə başladı.

ADR hökuməti Sovet Rusiyasına və daşnak Ermənistanına qarşı da sülhməramlı siyasət yürüdür, onları bərabərhüquqlu qarşılıqlı beynəlxalq münasibətlər qurmağa dəvət edirdi. Lakin "Böyük dövlətçilik" mövqeyindən əl çəkməyən Sovet Rusiyası və Azərbaycana qarşı əsassız ərazi iddiaları sürdürən Ermənistan Azərbaycanla normal əməkdaşlıq və qonşuluq münasibətləri yaratmaq istəmirdilər.

Azərbaycan hökuməti Bakı neftinə çox maraq göstərən Böyük Britaniya ilə də beynəlxalq münasibətləri qaydaya salmağa səy göstərirdi. Bunun nəticəsi idi ki, 1918-ci il noyabr ayının 17-də Bakıya gələn ingilis qoşunlarının komandanı general Tomson əvvəllər Azərbaycan hökumətini tanımayacağını elan etsə də, sonradan onu tanıdı. Hətta F.Xoyskinin başçılıq etdiyi hökuməti yeganə qanuni hökumət kimi qiymətləndirdi.

Hökumət 1918-ci il dekabr ayının 28-də Paris sülh Konfransında iştirak edəcək nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinə Paris sülh Konfransında respublikanı təmsil etmək, Azərbaycan

Respublikasının de-fakto tanınmasına nail olmaq, Azərbaycanın milli mənafeyini və suverenliyini qorumaq səlahiyyətləri verilmişdi.

Nümayəndə heyəti 1919-cu il yanvar ayının 8-də İstanbul vasitəsilə Parisə yola düşdü. İstanbulda Fransa hökumətinin vizasını üç ay gözləmək lazım gəldi. Nəhayət, may ayının ortalarında nümayəndəlik çox böyük çətinliklə Parisə gəldi. Azərbaycan məsələsi ilk dəfə mayın 2-də Böyük Britaniya, ABŞ, Fransa və İtaliya dövlət başçılarının görüşündə müzakirə edildi. ABŞ prezidenti Vudro Vilson Azərbaycan nümayəndəliyinin Paris sülh Konfransına buraxılmasının əleyhinə çıxış etdi. Mayın 28-də nümayəndə heyəti V.Vilson tərəfindən qəbul edildi. Görüş zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi. Oktyabr ayının əvvəllərində general Xarbordun başçılığı ilə Amerika nümayəndəliyi Cənubi Qafqaza göndərildi.

Ermənistan hökuməti ABŞ vasitəsilə Azarbaycana olan ərazi iddialarına nail olmaq istəyirdi. Lakin ABŞ-ın Ermənistandakı Ali Komissarı V.Hasıkel yerlərdə vəziyyətlə ətraflı tanış olduqdan sonra avqust ayının 29-da Bamda apardığı danışıqlarda Qarabağ və Zəngəzurun Azərbaycana məxsus olduğunu bildirdi. Naxçıvan, Şərur və Dərələyəzdə ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılmasını təklif etdi. Oktyabr ayının 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması və Amerika polkovniki E.Dellinin buraya qubernator təyin edilməsi barədə V.Haskelin bəyanatı elan edildi. Lakin Azərbaycan hökumətinin qəti mövqeyi, Naxçıvan əhalisinin ciddi müqaviməti amerikalıların planlarını puç etdi.

Böyük Britaniyanın baş naziri Lloyd Corc noyabr ayının 12-də Böyük Britaniya parlamentində çıxışı zamanı Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınmasının mümkün olduğunu bildirdi. O, həmin ideyasını Paris sülh Konfransında da tərkrar etdi. Nəhayət, 1920-ci il yanvar ayının 11-da Böyük Britaniyanın Xarici İşlər naziri Lord Kerzonun təklifi ilə "Antanta"nın Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini de-fakto səviyyəsində tanıdığını bildirdi.

Beləliklə, gənc respublikanın diplomatiyasının uğurlu fəaliyyəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti faktiki olaraq dünya birliyinin üzvünə çevrildi.

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. Bakı-2007.
2. Azərbaycan Cümhuriyyəti (1918-1920). "Elm" nəşriyyatı. Bakı-1998.
3. İstiqlal Bəyannaməsi. http://axc.preslib.az/az_b1.html
4. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. (1918-1920-ci). Ay-Ulduz, Bakı-1996, 304 səh.
5. Mahmudov Y. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild. "Lider Nəşriyyat".Bakı-2004.

RAUF NABIL OĞLU SƏMƏDOV
Azərbaycan Dövlət
İqtisad Universiteti

# MÜASIR DÖVRDƏ ISLAM DININƏ XAS OLAN MEYLLƏR DINLƏRARASI ANLAŞMANIN ƏSAS ŞƏRTLƏRINDƏN BIRI KIMI

Açar sözlər: islam dini, dialektika meylləri, inkişaf, mədəniyyət, multikulturalizm

Qloballaşma dövründə dinlərə xas olan dialektika meyllərinin məzmunu nədən ibarətdir? Bunu cavablandırdıqda biz müxtəlif din, mədəniyyət, fəlsəfə və həyat tərzinin bir-birinə qarşılıqlı şəkildə təsir etmək, təqlid etmək, burada məqbul olanları yaradıcı şəkildə mənimsəmək və özünə aid olanlarla bərabər zənginləşdirmək; yüksəlişlə səciyyələnən irəliləmə prosesini inkişaf mərhələlərinə bölmək və onları müqayisə etmək nəticəsində qarşıdurma, ziddiyyət və onların mübarizəsi, staqnasiya (stasik vəziyyətdə qalma mənasında), tərəflər arasında qarşılıqlı vəhdət və sülh elementlərini aşkar etmək; hər bir mərhələnin zəruri şəkildə digər inkişaf mərhələsi ilə əvəz olunmasını əsaslandırıb növbəti mərhələnin daha tərəqqipərvər və çox fayda verə biləcək dövr kimi qiymətləndirilməsini və digər məsələlərin açıqlanmasını nəzərdə tuturuq.

Bu baxımdan islam dini bir fəlsəfə və əxlaq, elm və əməli fəaliyyət nümunəsi olaraq istər təkamül, istərsə də dialektika baxımından inkişaf yolu ilə irəliləyir. Bəşər tarixi və müasir reallıq həyatın hər bir sahəsində bunu təsdiqləyən fakt və misallarla zəngindir.

Qloballaşma prosesləri islam dinindən də yan keçmir. Tərəqqipərvərlik dünyagörüşünü ifadə edərək o yeni və müsbət dəyişikliklərdən faydalanır, onları qəbul edir. Lakin burada əvvəlki inkişaf mərhələlərində olduğu kimi, islam dini istər siyasi, istər mənəvi, istərsə də elmi baxımdan bidətçiliyə qarşı çıxaraq xüsusiliyini, təkrarolunmazlığını, möhtəşəmliyini qoruyub saxlamış və nəticədə inkişaf ənənəsinə sadiq qalmışdır.

İslam dininin dinamikliyi onun əzəldən multikulturalizm və tolerantlıq ideyaları ilə bağlı olması ilə əlaqədardır. Bütün insanlar Allahtəalanın qullarıdır, onun yaratdığı və ona qayıdacaq olan kəslərdir. İslamın rəmzi

olan və Allahın verdiyi nur ilə işıq saçan hilal özü müxtəlif vəzifələrin daşıması ilə yanaşı bütün insanların fərqinə varmayaraq onların bütöv şəkildə müvcud olmasına bir işarə və çağırışdır. Lakin bununla yanaşı insanlar müxtəlif olduğu kimi onlara məxsus mədəniyyət də fərqlidir. İslam dini multikultural dünyanın mövcudluğunu qəbul edir və bunu Allahın kreasionizmi kimi qiymətləndirir. Buna misal olaraq Quranda müxtəlif mədəniyyət və dinlərin müqəddəs kitabları, müasir Azərbaycan tarixinin reallıqlarını və s. göstərmək olar.

Müasir dövrdə cərəyan edən siyasi münasibətlər sferasında da islam dini üçün tipik olan dialektika əlamətləri müşahidə edilir. Bu – özünü müxtəlif, o cümlədən sırf iqtisadi və iqtisadi siyasət səhəsində göstərir. Qərb dünyasının mənfi ünsürləri tərəfindən müqəddəs dinimizə, peyğəmbərimizə göstərilən təpkilər, böhtan və təfriqə yaratmaq niyyətləri, təxribat əməlləri, ikili standartları tətbiq etmək cəhdləri hal-hazırki dövrün reallıqlarıdır. Digər problemlər islam dünyasının daxilində də müşahidə edilir. İran və Türkiyə, İran və Səudiyyə Ərəbistanı arasındakı münasibətlərdə rast gəlinən anlaşılmazlıqlar, Suriya, İrak və Əfqanıstan ərazisində müsəlmanların amansızcasına bir birini qətlə yetirməsi, MDB-ni təşkil edən ölkələrin əksəriyyəti müsəlman mənşəli olduğu təqdirdə onların arasında dostluq əlaqələrinin heç də arzuolunan ən yüksək səviyyəyə çatmaması bu fikri söyləməyə əsas verir. Lakin bu məsələnin müsbət tərəfləri kimi qeyd etdiyimiz İƏT-nin fəaliyyəti, Türkiyədəki hakim AKP-nin həyata keçirtdiyi və xüsusilə iqtisadi sahədə böyük uğur və nailiyyətlərə gətirib çıxartdığı siyasəti, Malayziya, İndoneziya və digər müsəlman ölkələrinin əldə etdiyi müvəffəqiyyətlər islamın dünya siyasət sahəsində inkişaf etməsini göstərir.

İslamın inkişaf yolu ilə irəliləməsində sezilən elementlərdən biri – onun yeniliyə doğru meyl etməsidir. Dialektik prinsiplərdən biri olan yeni keyfiyyət halına keçidin baş verməsi islam dini və xüsusilə onun ideoloji məzmunu üçün çox əhəmiyyətlidir. İslam dininin avropa dünyagörüşü və həyat tərzinə müəyyən mənada yaxınlaşması meylləri, onun dəyərlərini bütün bəşəriyyət üçün son dərəcə vacib olması və müxtəlif xalqların ayrı-ayrı nümayəndələrinin islamı qəbul etməsi və ona uyğunlaşması, Qərbdə yaşayan bəzi insanların islamofobiyası üzündən ona təpki göstərilməsi və digər səbəblər üzündən islam dininin yeni siyasi, ideoloji, elmi, mənəvi

formalar alması gerçək olan hadisədir. Müasir dövrdə avroislam yaxud "liberal islam" (T.Ramadan), "mötədil müsəlmanlar" hərəkatının banisi N.Hader, dini plyuralizm ideyası və islam demokratiyası konsepsiyasının yaradıcısı Abdulkarim Soruş və b. dinşünas-filosoflar dinimizin modernləşməsinə və yeniləşməsinə (ictihada) çalışırlar və həmin proses davam etməkdədir.

Orta əsrlərdə bir sıra Şərq alimləri nəinki öz dini baxışları ilə məhşur olur və həmçinin maddi aləmin məntiqi və praktiki aşkarlanmasına səy göstərib böyük elmi kəşf və nailiyyətlərin müəllifi kimi çıxış etmişlər. Orta əsr tarixində "Şərq Renessansı" dövrü hamıya bəllidir. Bu – islam dininin nüfuzunun daha da artmasına səbəb olmuşdur. Lakin müasir dünyada islam ölkələrində yaşayıb çalışan alimlər elmin bütün sahələrində daha fəal olmalıdır. Bununla yanaşı islam dini sistem olaraq predmetli şəkildə müasir elmi nailiyyətlərə müraciət etməlidir ki, bu da çağdaş dunyada dinimiz haqqında təsəvvürləri daha dolğun, aydın və geniş şəkildə formalaşmağa imkan verə bilsin

İslamın inkişaf prosesində müşahidə edilən digər xüsusiyyət ondan ibarətdir ki, əgər islam aləminin içində daxili çəkişmələr və gərginlik ideoloji zəmində baş verirdisə müasir dövrdə - bunun siyasi müstəvidə yəni dövlətlərin apardığı siyasət şəklində daha çox rast gəlindiyini qeyd etmək olar. Bunun səbəbi – milli mənafelərdə müxtəliflik, dini doqmatizmi siyasi münasibətlər sahəsində keçirtmək cəhdləri və s.

RƏNA RIZVAN QIZI BAXIŞOVA
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

# RUSIYA IMPERIYASININ ŞIMALI AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSINDƏ MÜSTƏMLƏKƏÇILIK SIYASƏTININ TARIXINDƏN (XIX ƏSRIN SONU – XX ƏSRIN ƏVVƏLLƏRI)

Açar sözlər: Qarabağ, Rusiya imperiyası, köçürmə siyasəti, işğal, Cənubi Qafqaz

Qafqazda siyasi və iqtisadi maraqlarını təmin etməyə can atan Rusiya XIX yüzilin əvvəllərində Cənubi Qafqazın işğalına nail oldu. Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay (1805), Rusiya ilə Qacarlar arasında bağlanan Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Şimali Azərbaycanın digər əraziləri kimi Qarabağ ərazisinin də Rusiya imperiyası tərəfindən işğalı rəsmiləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı tam ləğv edilərək Qarabağ əyaləti təsis edildi [AKAK, T.4,1].

İşğaldan sonra ermənilərin kütləvi şəkildə Qarabağ bölgəsinə köçürülməsi ilə bölgənin inzibati-ərazi, idarəçilik sistemində dəyişikliklər edilməyə başlandı. Hələ 1724-cü ildə I Pyotr (1682-1725) erməniləri qəbul edərək onların Xəzəryanı ərazilərdə məskunlaşdırılması haqqında fərmanı ilə "xristianlıq naminə" erməni xalqını öz mərhəmətində saxlamaq və himayəyə götürmək qərarını vermişdi. [Езов, 392] 1726-cı il fevralın 22-də imperatriçə I Yekaterina (1725-1727) ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verirək [Собрание, 43], sələfinin ermənipərəst siyasətini davam etdirmişdir. Bu siyasətin davamı olaraq, Ruslar özlərinə etnik-siyasi dayaq yaratmaq üçün 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay, 1829-cu il Ədirnə müqavilələrinin şərtlərinə əsasən Qacarlar və Osmanlı imperiyaları ərazilərindən Azərbaycana köçürülən ermənilərin əksəriyyətini məhz Qarabağ bölgəsində məskunlaşdırdı. [Mahmudov, 34] 1828-1830-cu illərdə Şimali Azərbaycana, o cümlədən Qarabağa, rəsmi olaraq İrandan 40 min, Osmanlı imperiyasından 84 min (bəzi məlumatlarda 90 min), qeyri-rəsmi olaraq 200 mindən çox erməni köçürülmüşdür [Шавров, 63]. Rusiya imperiyasının Cənubi Qafqaza köçürdüyü erməniləri işğal etdiyi Şimali

Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində yerləşdirməsində məqsədi əhalinin xristianlaşdırılması ilə yanaşı yeni sahib olduğu torpaqlarla Osmanlı imperiyası və Qacarlar dövlətinin sərhədlərində ermənilərdən ibarət sədd yaratmaq idi.

Kütləvi köçürmələr nəticəsində, Şavrovun təbirincə desək, "ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında" ermənilərin sayının süni olaraq artırılması əhalinin milli-etnik tərkibində ciddi dəyişikliyə səbəb oldu.

İşğaldan sonra çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda yaratdığı komendant idarə üsulu 1840-cı il aprelin 10-da Cənubi Qafqazda inzibati məhkəmə islahatı haqqında qanun [Мильман, 132] qəbul edildikdən sonra ləğv olundu və yerli inzibati-ərazi idarəçiliyi Ümumrusiya inzibati sisteminə uyğunlaşdırıldı.

Qarabağ əyaləti 1840-cı ildə Şuşa qəzası adı altında Kaspi (Xəzər) vilayətinin, 1846-cı ildə Şamaxı, 1859-cu ildə isə Bakı quberniyalarının tərkibinə daxil edildi. Mehrı (Mğrı), Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərəndə sahələrinə bölünən Şuşa qəzasından 1867-ci il dekabrın 9-da Zəngəzur ayrılaraq müstəqil qəzaya çevrildi və elə həmin fərmanla da 1868-ci ildə yaranan Yelizavetpol quberniyasının tərkibinə daxil edildi. [ПСЗ РИ, 384] 1883-cü ildə bu quberniyanın tərkibində Cavanşir və Cəbrayıl qəzaları yaradıldı. 1904-cü ildə Cəbrayıl qəzasının adı dəyişdirilərək Qaryagin (general Koryaginin şərəfinə - R.B.) adladırıldı [Şükürov, 159].

Hələ XIX əsrin ikinci yarısında Rusiya imperiyası tərəfindən həyata keçirilməyə başlayan inzibati-ərazi dəyişiklikləri və idarəetmə sistemi ilə bağlı rus çarı tərəfindən 1865-ci ildə verilən "Kənd cəmiyyəti haqqında qanun"la bəy və ağalar kəndlərin inzibati məhkəmə işlərindən uzaqlaşdırıldılar. Kəndlərdə idarəçiliyi həyata keçirmək üçün vahid kənd idarələri yaradılmağa başladı. Bu barədə 1866-cı ildə Bakı, 1870-ci ildə Yelizavetpol quberniyaları üzrə əsasnamələr təsdiqləndi [*Ляйстер*, 263].

Şimali Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Qarabağ regionunda XIX əsrin ikinci yarısında mülkədar təsərrüfatlarının daha da genişlənməsinin əsas səbəblərindən biri də müstəmləkəçi hökumətin - çar Rusiyasının yerlərdə həyata keçirdiyi islahatlar idi.

1870-ci ildə Moskvada kəndli sahibkarların II qurultayında [Кавказский вестник, s. 82] mərkəzi Rusiya ərazisindən əhalinin imperiyanın cənubunda yerləşən zəngin gələcəyi olan Qara dəniz və Xəzər dənizi arasındakı əraziyə köçürülməsi haqqında məsələ qoyulmuşdu. 1899-cu il aprelin 15-də rus çarı "Cənubi Qafqaza köçürməyə icazə haqqında" daha bir qanun verdi. Rus millətinə və pravoslav dininə mənsub kəndlilərin xəzinə torpaqlarında yerləşdirilməsi haqqında 1900-cü il dekabrın 22-də verilmiş yeni qanuna görə 1901-ci ilin martında köçürmə sahələrinin müəyyənləşdirilməsinə başlanıldı. 1904-cü ilin iyulunda verilmiş "Kənd sakinlərinin və əkinçi kəndlilərin könüllü surətdə köçürülməsi haqqında müvəqqəti qaydalar" [Seyidzadə, 13] adlı qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub adamların imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Qafqaz diyarına köçürülməsinə icazə verildi. Həmçinin, 1896-1908-ci illərdə regiona daha 400 min erməni köçürələrək onların sayı 1 mln. 300 minə çatdırıldı [Шавров,64].

Beləliklə, Qarabağ ərazisində münbit torpaqlara sahib olan, "Erməni dövləti" yaratmaq xülyası ilə yaşayan ermənilərə hər cür hərbi-siyasi dəstək verən Qərb dövlətləri, habelə çar Rusiyası ermənilərin terror dəstələri yaratmasına göz yummuş və onların Şimali Azərbaycan ərazisində fəaliyyətinə şərait yaratmışdılar. 1905-1906-cı və 1914-1918-ci illərdə Şimali Azərbaycanın müxtəlif bölgələrində, xüsusən də Qarabağ ərazisində ermənilərin azərbaycanlı əhaliyə qarşı vəhşilikləri buna bariz nümunədir.

1918-ci ildə regionda movcud olan geosiyasi vəziyyət nəticəsində Azərbaycanın qərb torpaqlarının bir hissəsində Ararat Respublikası yaradıldı. Qarabağın Azərbaycanın tərkibində qalması vəziyyəti daha da gərginləşdirdi. Ararat Respublikasının hakim dairələrinin göstərişi ilə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində olmaqdan imtina edən Qarabağda məskunlaşdırılmış ermənilər 1918-ci ilin iyul ayında Şuşada qurultay keçirərək Dağlıq Qarabağın müstəqilliyini elan etdilər.

Ədəbiyyat siyahısı:

1. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: "Təhsil", 2009, 143 s.
2. Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Ulduz, 1998, 187 s.
3. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: 2004, 974 s.
4. Акты собранные Кавказской Археографической Комиссией: Т.4. Тифлис: Типография Главного управления Наместника Кавказского, 1874, 942 с.,sənəd 681.
5. Езов Г.А. Сношение Петра Великого с Армянским народом, СПб, 1898
6. Кавказский вестник: ежемесячный научно-литературный журнал. Год первый, №1, январь, 1900 г. Тифлис: Скоропечатня М: Мартиросянца, 1900
7. Ляйстер А.Ф., Чурсин Г.Ф. География Кафказа. Природа и население. Тифлис: Издание ЗКУ, 1924
8. Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX вв. Б., 1966, 218с.
9. Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 42, отделение второе. 1867 год. СПб., Типография 2 отделении собственной его императорского величества канцелярии, 1871, 1209 с.
10. Собрание актов, относящихся к обозрению истории армянского народа: ч. 1. М.: В типография в Лазаревых института восточных языков, 1933, 407 с.
11. Шавров Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку, 1990, 82 с.

RƏNA ARIF QIZI KƏRIMOVA
AMEA, Hüquq və İnsan Haqları İnstitutu

## DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSINDƏ TÜRKIYƏNIN MÖVQEYI

Açar sözlər: Türkiyə, Azərbaycan, Dağlıq Qarabağ, münaqişə

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal Atatürk, 14 Oktyabr 1921-ci ildə Azərbaycan Hökumətinin Ankara Nümayəndəsi İbrahim Əbilovun Etimadnaməsinin təqdimetmə mərasimində demişdir: "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri də bizim kədərimizdir".

Özünü region dövlətləri üçün bir model kimi verən Türkiyə Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsinin baş verməsi ilə Azərbaycan ərazilərinin işğalı zamanı ilk əvvəl Qərb müttəfiqlərinin reaksiyasından ehtiyatlanaraq bu müharibədə Azərbaycanlılardan yana mövqe tutmamış, onlara təsirli hərbi və siyasi dəstək vermədiyi kimi, yenə Qərbli müttəfiqlərinin təsiri ilə məsələnin diplomatiya yolu ilə həll edilməsinə qərar vermişdir.

Türkiyə S.Dəmirəlin 11 Fevral 1992-ci il tarixli ABŞ səfərində ABŞ-ı Dağlıq Qarabağ münaqişəsində Ermənistanı dəstəkləməkdən imtina etməyə dəvət etmişdir. Ancaq Dəmirəlin səfərinin ardından 28 Fevral 1992-ci ildə ABŞ Konqresi Azərbaycan- Ermənistan toqquşmalarını xristian-müsəlman hadisəsi kimi qələmə vermiş, konqresə təqdim olunan qətnamə layihəsində isə hadisələri başlayanların Azərbaycanlılar olduğunu və Ermənistana istiqamətlənən Azərbaycan blokadasının qalxmadığı təqdirdə Azərbaycana embarqo tətbiq edilməsini istəmişdir. Fevralın 19-də TBMM-də Qarabağ problemini müzakirə edən Türkiyə, 27 Fevral 1992-ci ildə problemi NATO-nun siyasi komissiyasının gündəliyinə çıxarmışdır. Baş verən Xocalı soyqırımı Türkiyədə böyük aksiyalara səbəb olmuş, prezident T.Özal Azərbaycanın dəstəklənməsi üçün Ermənistana blokada, hava və quru embarqosu tətbiq etməni qərarı almış, hərbi mənada da müdaxilə edə biləcəyini və başqa müdaxilələrin də qoyulması eyhamını eşitdirmişdir. Baş nazir S.Dəmirəl isə Ermənistana yönələcək hərbi hücumun Türkiyəni Rusiya və İran ilə müharibəyə sürükləməsindən,

müsəlman-xristian savaşına yol aça biləcəyindən və Türkiyəni 20 il geri atacağından ehtiyatlanaraq Azərbaycana fəal hərbi dəstək verməkdən çəkinmişdir. Martın 13-də S.Dəmirəlin təşəbbüsü ilə atəşkəsin təmin olunması və daha sonra Türkiyənin fəal təşəbbüsü ilə ATƏT-in Helsinki sammitində Dağlıq Qarabağda sülhün təmin olunması üçün beynəlxalq Minsk Konfransının keçirilməsi və aralarında Türkiyənin də olduğu 11 ölkədən ibarət olan Minsk Qrupunun yaradılması qərara alınmışdır. Lakin 6 dekabr 1994-cü ildə yaradılan Minsk Qrupu həmsədrləri arasında Türkiyə yer ala bilmədi və bu hadisə Türkiyənin Qarabağ məsələsinə diplomatik müdaxilə imkanlarını məhdudlaşdırdı.

Ermənilərin hücumları davam edərkən Rusiyanın 366-cı motoatıcı alayı Şuşa şəhərini top atəşinə tutmuş, Türkiyə buna qarşı sərt reaksiya göstərmiş, ABŞ və Rusiyanın Ankaradakı səfirləri Xarici İşlər Nazirliyinə çağırılaraq Qarabağ məsələsində obyektiv olmaları tələb olunmuşdur. Türkiyənin sərt xəbərdarlığı və Türkiyə ilə birlikdə ABŞ, Rusiya və Fransanın sülh təşəbbüsləri nəticəsində Azərbaycan ilə Ermənistan arasında martın 1-ədək üç günlük atəşkəs qərara alınmışdır. ATƏT prosesinə daxil olan Türkiyə may ayında Naxçıvan və Şuşada erməni hücumlarının artmasının qarşısını almaq üçün səylərini artırmış, ABŞ Prezidenti Buşun köməyi ilə Naxçıvanda atəşkəs təmin edərkən Şuşa üçün BMT Təhlükəsizlik Şurasına müraciət etmişdir. Xocalı soyqırımından sonra Prezident T.Özal yenidən Türkiyənin müharibəyə daxil olma ehtimalından söz açmış və bu Türkiyədə ciddi mübahisələr doğurmuş, Rusiyanın müdafiə naziri Yevgeni Şapoşnikov isə Türkiyənin müdaxiləsinin üçüncü dünya müharibəsinə yol aça biləcəyini bildirmişdir. Türkiyə ermənilərin Kəlbəcəri işğal etməsi ilə Ermənistanla arasındakı sərhəddi bağlamış, iqtisadi və siyasi mənada sərt reaksiya göstərmişdir. 12 may 1994-cü ildə imzalanan atəşkəs haqqında saziş bir çox pozuntuya baxmayaraq hələ də qüvvədədir.

Türkiyə 1996-cı ildə keçirilən Lissabon Sammitində Azərbaycana dəstək verərək ATƏT-in rəhbərliyinin Azərbaycan ərazi bütövlüyünün təsdiq edən bir bəyanatını dərc etdirməsi üçün ciddi diplomatik səy göstərmişdir. Türkiyə münaqişənin ATƏT çərçivəsində həll olunmasını və qəbul edilə bilən həlli üçün lazımlı ünsürlərin Azərbaycanın ərazi bütövlüyünün qorunmasını, erməni qoşunlarının işğal altında saxladığı

Azərbaycan torpaqlarından geri çəkilməsini və qaçqınların öz yurdlarına qayıtması olduğunu müdafiə edir.

Avropa Şurası Parlament Assambleyasının Ermənistan- Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2005-ci ildə 1416 saylı qətnaməsinin qəbul olunmasına Türkiyə də töhfə vermişdir. Bu qərar Ermənistanın Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi.

2008-2009-ci illərdə də Azərbaycan və Türkiyə münasibətlərinin gərginliyinə səbəb olan bəzi irəliləyişlər baş vermişdir. Azərbaycan ərazilərinin işğalı ilə bağlı Ermənistanla sərhədlərini bağlayan Türkiyə qonşularla "sıfır problem" siyasətini İrəvana da tətbiq etməyə cəhd göstərmək istəmişdir. Cenevrədə Ermənistan-Türkiyə danışıqlarından xəbərdar olan Azərbaycanı bu vəziyyət narahat etmiş və iki ölkə arasında münasibətlərdə soyuqluq baş vermişdir. Rəsmi Bakı Türkiyəni bu siyasətinin yanlış olduğuna inandırmağa çalışmışdır. Baş nazir Ərdoğan 13 may 2009-cu ildə Bakıda Azərbaycan parlamentində çıxışında Azərbaycan torpaqlarının işğalı sona çatmadıqca, Ermənistanla sərhədin açılmayacağına və əlaqələrin inkişaf etdirilməyəcəyinə Bakını inandırmağı bacarmış, "bir millət, iki dövlət" ritorikasını dilə gətirdikdən sonra böhran dayandırılmışdır.

Vəziyyəti çətinləşdirən digər məqamlar isə 2009-cu ilin 14 oktyabrında Ermənistan ilə Türkiyə arasında Bursada oynanan milli matça Azərbaycan bayrağının stadiona buraxılmaması və Azərbaycan bayraqlarının Atatürk stadionu ətrafındakı zibilliklərə atılması, adekvat olaraq, Bakıda olan Türk səfirliyindəki türk bayraqlarının endirilməsinin ardından, Türk səfirliyinə məxsus bayraqların endirilməsi üzərində tərəflərin bir-birinə sərt reaksiya göstərməsi oldu. Daha sonra Türkiyə Dəyanət İşləri Rəhbərliyi altında açılmış və fəaliyyət göstərən bəzi məscidlər təmir, qanunsuz tikinti və s. əsaslarla bağlanıldı, Azərbaycan Türkiyəyə satdığı qazın qiymətini yenidən müəyyən etdi.

Vəziyyəti obyektiv təhlil etmək üçün 25-27 iyun 2009-cu il tarixlərində SEDA Fondu, İstanbulda Türkiyə-Azərbaycan Əlaqələri Çalıştayını keçirdi. Çalıştayda iki ölkə münasibətlərindəki əsas məsələlər və xüsusilə "Bir millət, iki dövlət" şüarı, Ermənistanla aparılan normallaşma prosesinin Türkiyə Azərbaycan münasibətlərinə təsirləri və münasibətlərin siyasi, iqtisadi-enerji və təhlükəsizlik ölçüləri müzakirə

olundu. Çalıştay iştirakçıları Türkiyə ilə Ermənistan arasında quru sərhədlərinin açılmasının Türkiyədən daha çox Ermənistana fayda verəcəyini, bununla da Ermənistanın ticarət dövriyyəsinin 14 dəfə artacağını, eyni zamanda məsələnin təkcə iqtisadi deyil, siyasi məsələ olduğunu da vurğuladılar.

Nəticə olaraq deyə bilərik ki, 1993-cü ildən bu günədək Türkiyənin Ermənistanla bağlı tezisləri: Ermənistanın ərazi iddialarından əl çəkməsi, Azərbaycan torpaqlarının işğalını sona çatdırması və soyqırımı müzakirə etməyən yanaşmadan ibarətdir.

Türkiyə-Ermənistan sərhədlərinin açılması haqqında müxtəlif fikirlər səslənmişdir. Bir qisim bunu Türkiyənin Dağlıq Qarabağ münaqişəsinə dair Ermənistan üzərindəki təzyiqləri artırma şansı olacağını, digərləri bunu Azərbaycana "xəyanət" kimi qəbul etmiş və kommersiya baxımdan Türkiyəyə heç bir fayda gətirməyəcəyinə bəyan etmişlər. Türkiyə daxilində bəzi dairələr isə Ermənistanla olan münasibətləri, demokratikləşmənin və dövlətin millətçi meyllərindən təmizlənmənin bir göstəricisi kimi xarakterizə edərək, bu əlaqələri Ankaranın ABŞ və Aİ ilə olan əlaqələri kimi qəbul etmişlər. Qeyd etmək lazımdır ki, istər H.Əliyev, istərsə də İ.Əliyev dövründə Türkiyə ilə münasibətlərin daha da inkişaf etməsi və strateji tərəfdaşlığın dərinləşməsi üçün fəal siyasət aparılmış, hər iki ölkə arasındakı münasibətlər regional amillər nəzərə alınaraq təkmilləşdirilmişdir. İki ölkə arasındakı əlaqələr tədricən inkişaf etdirilərək, bu gün Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı nəzərdə tutan müqavilələrin imzalanması ilə nəticələnmişdir. Tarix boyu baş verən müxtəlif çətinliklər iki ölkə arasındakı münasibətlərin istənilən səviyyəyə çatmasını ləngitmişdir. Rusiyanın Azərbaycan üzərindəki bitməyən nəzarət arzusu, regiondakı beynəlxalq güc müdaxiləsi Türkiyə-Azərbaycan münasibətlərinin formalaşmasını əngəlləyən proseslər zaman-zaman baş versə də, bütün bu mənfi amillərin təsirini azaltmaq üçün hər iki dövlət bir birinə sıx qardaşlıq əlaqələri ilə birləşmişdir. Baş nazir Rəcəb Tayyub Ərdoğan Türkiyənin Dağlıq Qarabağ münaqişəsində səssiz qalmasının mümkün olmadığını təkrar-təkrar qeyd etməsi Dağlıq Qarabağ problemi həll olunmadan sərhəd qapıları açılmayacaq ifadəsini qətiyyətlə işlətməsi, Türkiyənin Azərbaycana nə qədər önəm verdiyini göstərir.

RINARD ŞƏRAFƏDDIN OĞLU ŞƏRIFOV
Azərbaycan Turizm və Menecment Universiteti

## QLOBALLAŞAN DÜNYADA MƏDƏNIYYƏTLƏRARASI DIALOQ BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN MƏNƏVI ƏSASI KIMI

Açar sözlər: beynəlxalq münasibətlər, mədəniyyətlərarası dialoq, mədəniyyətləarası təmas, mədəniyyətlərarası kommunikasiya

Sosiomədəni gerçəklik kimi mədəniyyətlərarası təmasın tarixinin minilliklərə söykəndiyinə baxmayaraq, mədəniyyətlərin dialoqu ideyası elmi-fəlsəfi tədqiqatlarda XX əsrin ortalarında meydana gəldi. Lakin əvvəllər bənzər təmas fraqmentar, yarımçıq və situativ səciyyə daşıyırdısa, onda indiki zamanda milli mədəniyyətlər bir-biriləri ilə daimi təmasın zəruriliyi qarşısında qalırlar.

Mədəniyyətlərin dialoqu problemi XX əsrdə xüsusi aktuallıq kəsb edir və hazırki dövrdə dünyada gedən qloballaşma prosesləri səbəbindən öz aktuallığını saxlayır. Mədəni müxtəlifliyin artması tendensiyası dünya mədəniyyətinin və sivilizasiyasının məhvinə deyil, əksinə bəşəriyyətin inkişafına gətirib çıxarmalıdır. Mədəniyyətlərarası dialoq prosesi beynəlxalq münasibətlərdə mədəniyyətlərarası əlaqələrin güclənməsini şərtləndirir.

İlk baxışda qeyd olunan prosesin tədqiq olunmasında öncül problem çıxış mövqeyi kimi "mədəniyyətlərarası dialoq" anlayışının müəyyənləşdirilməsi dayanır. Bu fenomenin düzgün anlaşılmaması və şərhi tədqiqata yanlış yanaşmaları və metodları cəlb edəcək. Bizi maraqlandıran mövzu üzrə işlərin öyrənilməsi qeyd etməyə imkan verir ki, bir çox tədqiqatçılar "mədəniyyəltəarası dialoq" və onunla oxşar olan "mədəniyyətləarası kommunikasiya", "mədəniyyətlərarası qarşılıqlı əlaqə" kimi hadisələr arasında xüsusi fərq görmürlər və ya, bir anlayışı digəri ilə əvəzləyirlər.

Müasir dövrdə multikultural dəyərlərin, mədəni tolerantlığın üstün mövqedə olduğu Azərbaycanda mədəniyyətlərarası dialoqun önəmi başa düşülür və dövlətimizin beynəlxalq əlaqələrinin tərkib elementinə çevrilməkdədir. Mədəniyyətlərarası dialoq prosesinə sürətlə inteqrasiya

edən Azərbaycan Respublikası artıq bu istiqamətdə nəzərə çarpacaq nailiyyətlər əldə etmişdir.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, "Bu gün dünyada qloballaşma haqqında, mədəniyyətlərarası dialoq haqqında, multikulturalizm haqqında geniş diskussiyalar aparılır. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Çünki bu məsələlər ətrafında daim fikir mübadiləsi aparılmalıdır. Ancaq bir məqsədlə - necə edək ki, xalqlar bir-birinə daha da yaxın olsunlar. Necə edək ki, dünyada dini zəmində qarşıdurma olmasın, xalqlar, sivilizasiyalararası məsələlər müsbət istiqamətdə inkişaf etsin".[Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. Bakı. 07.04.2011. http://president.az/articles/1845]

2007-ci ilin mayında Avropa komissiyası mədəniyyət sferası üçün 3 prinsipə əsaslanan Avropa Strategiyasını təklif etdi. Burada əsas prinsip kimi mədəni müxtəliflik və mədəniyyətləarası dialoq götürülürdü.

Bu məqsədlə, 2007-ci ildə Avropa Komissiyası tərəfindən Avropa Birliyi ölkələrində mədəniyyətlərarası dialoqun inkişafı durumunun və perspektivlərinin tədqiqi üzrə vəzifələr müəyyənləşdirilərək tədqiqat qrupu formalaşdırıldı. 2007-ci ilin yanvarından 2008-ci ilin martına qədər Mədəniyyətin müqayisəli araşdırılması üzrə Avropa İnstitutunun əməkdaşları 10 ekspert, 2 xüsusi məsələlər üzrə ekspert və 34 milli müxbir tərkibi ilə Avropa məkanını tədqiq etdi. Geniş tədqiqat işində bir sıra məsələlər nəzərdən keçirilmişdir. Mədəniyyətlərarası dialoqun hansı konseptləri mövcuddur? Hansı fəaliyyət göstərən şəxslər və institutlar onun inkişafını həyata keçirirlər? Artıq indi mədəniyyətlərarası dialoq üçün hüquqi və siyasi səciyyəli şərtlərdən danışmaq mümkündürmü? Hansı hədəflərə və prisiplərə müvafiq mədəniyyətlərarası dialoq siyasəti inkişaf etdirilir? Proqramların, tədbirlərin və layihələrin kontrolunun meyarları mövcuddurmu?

Tədqiqat mədəniyyət və incəsənərt, tədsil və idman sahələrində aparılmışdır. Tədqiqatın nəticələri müzakirə olunmuşdur və "Birgəyaşayışın mədəni çoxşəkilliyi Avropada mədəniyyətlərarası dialoqun milli konseptləri" adı altında əlyazması şəklində təqdim olunmuşdur.

Tədqiqat nəticələri sıradakı müəyyənləşdirməni etməyə imkan verir: mədəniyyətlərarası dialoq - müxtəlif mədəni köklərə və dünyagörüşə malik fərdlər, qruplar və təşkilatlar arasında qarşılıqlı hörmət çərçivəsində inkişaf edən, gedən interaktiv mübadilə prosesidir. Əgər, biz, mədəniyyətlərarası dialoqun mənasını və məqsədini tamlıqla anlamaq istəyiriksə, dialoqun özünün mahiyyətində əsaslı aydınlaşdırma aparmalıyıq.

Beləliklə, mədəniyyətlərarası dialoqun ilkin şərti milli mənliyin, milli identikliyin dərkidir. Mədəniyyətlərası dialoq cəmiyyətin bütün üzvlərinə milli, dini, dili mənsubiyyətindən asılı olmayaraq, bərabər hüquqların verilməsinə istiqamətlənib. Mədəniyyətlərarası dialoq ilk öncə başqasının deyil öz milli identikliyinin ifadəsidir. Mədəniyyətlərası dialoq cəmiyyətin bütün üzvlərinə milli, dini, dil mənsubiyyətindən asılı tolerant yanaşılmasını nəzərdə tutur və multikultural dəyərlərə, mədəni plüralizm prinsiplərinə əsaslanaraq formalaşır.

Qeyd olunanaları yekunlaşdıraraq bildirmək olar ki, mədəniyyətlərarası dialoqu şərtləndirən münasibətlərin qurulması və kəsişmə nöqtələrinin axtarışı müasir qloballaşan dünyada getdikcə daha böyük əhəmiyyət kəsb edir. Belə ki, "təfəkkürdə stereotiplərin ləğv edilməsi və şüurda humanistik prinsiplərin bərqərar edilməsi avtomatik olaraq, ümumbəşəri problemlərin həllinə gətirib çıxarmır". Önəmlidir ki, insanlar şəxsi maraqları ilə yanaşı digərlərinin də maraqlarını nəzərə almağa, onların arqumentlərini dinləməyə və eşitməyə, müxtəlif nöqteyi-nəzərləri diqqətə almağa hazır olsunlar. Ümumbəşəri qarşılıqlı asılılıq şərtlərində, insanların kütləvi məhvinin külli miqdarda vasitələrinin varlığı şərtlərində beynəlxalq konfliktlərin şiddət vasitəsilə həllinin istənilən cəhdləri istina edilməlidir və yalnızca konstruktiv dialoqa ümid etmək lazımdır. Əlbəttə ki, dialoq bütün problemlərin həllinin, o cümlədən, mədəniyyətlərin çoxşəkilliyinin və uzlaşmayan maraqların toqquşması şərtlərində münaqişəsiz mövcudolmanın universal üsulu deyildir, lakin o, müasir qloballaşan dünyada bəşəriyyətin mövcudluğunun yeganə mövcud formatını və beynəlxalq münasibətlərin mənəvi əsasını özündə təcəssüm edir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1995.

2. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullanın çıxış nitqi. http://azpress.noip.org/blog/index.php?newsid=11339

3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunu. Azərbaycan Respublikasının qanunvericilik toplusu. Bakı. 1998.

4. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. Bakı. 07.04.2011. http://president.az/articles/1845

5. Xəlilov S.. Mədəniyyət: genezisi və mahiyyəti. AFSEA. Fəlsəfə və sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal - 1(33). Bakı. 2012. s.79-99.

6. Библер В.С. От наукоучения - к логике культуры. Два философских введения в двадцать первый век. – М.: Наука, 1991. - 413 с.

7. Парех, Б. (2007) Переосмысливая мультикультурализм: культурное разнообразие и политическая теория (фрагмент) // Хомяков, М. Б.(авт.сост.). Хрестоматия по дисциплине «Современная политическая философия: либерализм, коммунитаризм, мультикультурализм». Екатеринбург. С. 80–92.

8. Ильяева И.А., Кожемякин Е.А. Межкультурные коммуникации в современном мире. –Белгород, 2001. -159 с.

SAMIRƏ İLHAM QIZI HƏBIBBƏYLI
AMEA Qafqazşünaslıq İnstitutu

## AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASIBƏTLƏRININ TƏŞƏKKÜLÜ

Açar sözlər: diplomatik-siyasi münasibətlər, qarşılıqlı səfərlər, siyasi-iqtisadi əlaqələr, dövlətlərarası müqavilələr, tranzit ölkə, hökumətlərarası sazişlər

Azərbaycan və Gürcüstan arasında ilk diplomatik-siyasi münasibətlər hər iki dövlətin birinci dəfə dövlət müstəqilliyinin elan edildiyi XX əsrin əvvəllərində qurulmuşdur. 1918-ci ilin iyunun 4-də Batumda Azərbaycan, Gürcüstan və Osmanlı nümayəndələri Bakı-Batum ağ neft kəmərinin normal işləməsini təmin etmək haqqında razılığa gəldilər və saziş bağladılar. [1, s.154] Azərbaycan və Gürcüstan arasında əmtəə mübadiləsi, tranzit müqavilələri, teleqraf, dəmiryol rabitəsi haqqında sazişlər, qarşılıqlı müdafiə paktı imzalandı.

Müstəqillik dövründə Azərbaycan-Gürcüstan münasibətlərinin 3 mərhələsini fərqləndirmək mümkündür:

Birinci mərhələ, 1991-ci ildə Azərbaycan və Gürcüstanın müstəqilliklərini əldə etməsindən 1996-cı ilin martına qədər olan dövr münasibətlərin qurulması mərhələsidir.

1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həyata keçirdiyi Gürcüstan səfəri ilə başlanan ikinci mərhələni münasibətlərin möhkəmləndirilməsi və inkişafı mərhələsi kimi xarakterizə etmək mümkündür [3, s.203].

Üçüncü mərhələ isə 2003-cü ildən sonrakı mərhələdir ki, bu mərhələni strateji əməkdaşlıq mərhələsi adlandırmaq olar.

1992-ci ilin noyabrın 18-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Gürcüstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı. Bu, diplomatik münasibətlərin qurulması üçün atılan ilk addım idi [2, s.286].

1993-cü il fevralında Gürcüstan Parlamentinin sədri E.Şeverdnadze Azərbaycana səfər etdi [12, s.611]. Səfər əsnasında iki ölkə parlamentləri

arasında əməkdaşlığa dair sənəd, Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə, mədəni, elmi və humanitar əlaqələr haqqında, hava əlaqələri haqqında, səhiyyə sahəsində əməkdaşlıq haqqında, gömrük işi sahəsində münasibətlərin əsasları haqqında və digər sənədlər imzalandı.

İki ölkə arasındakı münasibətlərin dönüş nöqtəsi Azərbaycanda Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə başlandı. 1993-1996-cı illər arasında çoxsaylı qarşılıqlı səfərlər gerçəkləşdirildi, iki ölkə üçün mühüm əhəmiyyətə malik olan razılaşmalar əldə edildi, sazişlər bağlanıldı. Bu illər ərzində tərəflər arasında aparılan müzakirələrin əsasını diplomatik-siyasi münasibətlərin inkişaf etdirilməsi, bağlanılmış saziş və müqavilələrin həyata keçirilməsi, beynəlxalq aləmdə razılaşdırılmış birgə mövqedən çıxış edilməsi, Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyətinin araşdırılması və problemlərinin həll edilməsi, iqtisadi əlaqələrin bərpa edilməsi, Azərbaycanın karbohidrogen ehtiyatlarının nəqli və ixracı perspektivlərinin müzakirəsi təşkil edirdi.

Azərbaycan-Gürcüstan diplomatik-siyasi münasibətlərinin qurulması və inkişafı hər iki dövlətin xarici siyasət xəttinin əsas istiqamətlərindən biridir. Hər iki dövlət bu münasibətlərə xüsusi əhəmiyyət verir və inkişaf etdirilməsi üçün səy göstərir. Azərbaycan Gürcüstanın Asiyaya, Gürcüstan isə Azərbaycanın Avropaya açılan qapısıdır. İki dövlət arasındakı münasibətlərin inkişafı həm hər iki dövlətin inkişafının, həm də ümumilikdə Qafqaz regionunun inkişafının təminatıdır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Xalq Cumhuriyyəti ensiklopediyası, 2 cilddə, I cild, Bakı "Lider Nəşriyyat", 2004, 440 s.
2. Azərbaycan-Gürcüstan münasibətləri tarixi XVIII əsr-XXI əsrin əvvəlləri, Bakı: "Şərq-Qərb", 2013, 392 s.
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, 500 s.
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, 500 s.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 8-ci kitab, Bakı: Azərnəşr, 1998, 448 s.

6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 14-cü kitab, Bakı: Azərnəşr, 2005, 520 s.
7. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2005, 528 səh.
8. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 21-ci kitab, Bakı: Azərnəşr, 2007, 536 s.
9. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 23-cü kitab, Bakı: Azərnəşr, 2009, 512 s.
10. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 36-cı kitab, Bakı: Azərnəşr, 2011, 512 s.
11. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir, 46 kitabda, 41-ci kitab, Bakı: Azərnəşr, 2012, 488 s.
12. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə, Bakı: Mütərcim, 2015, 648 s.

SEVDA FIZULI QIZI ABDULLAYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti

# MÜASIR DÖVRDƏ AZƏRBAYCANIN QƏRBI AVROPA DÖVLƏTLƏRI ILƏ MÜNASIBƏTLƏRI

Açar sözlər: dövlət, münasibət, əlaqə, iqtisadi, təşkilat

Ölkəmiz ikinci müstəqilliyi əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlıdır. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə özünəməxsus yer tutan Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Qərbi Avropa dövlətləri beynəlxalq münasibətlərə təsiretmə gücünə görə dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxildir. Müstəqillik yolu tutmuş Azərbaycan Respublikası üçün dünyanın bütün dövlətləri, o cümlədən Qərbi Avropanın ən böyük və nüfuzlu dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri qurmaq çox böyük siyasi və beynəlxalq əhəmiyyət kəsb edir. Bu əlaqələrin siyasi əhəmiyyəti onunla şərtlənir ki, həmin dövlətlər Azərbaycanın üzv olduğu bütün beynəlxalq və regional təşkilatlarda ləyaqətlə təmsil olunmasına, onun beynəlxalq təhlükəsizlik və iqtisadi əməkdaşlıq sisteminə, Avropanın müxtəlif struktur və institutlarına inteqrasiyasına hərtərəfli əməli yardım göstərmək imkanına malikdirlər.[Axundov, Qasımov, 1996] Digər tərəfdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in prinsip və qərarlarının həyata keçirilməsinə[Həsənov, 1997], Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin bərqərar olmasına da çox mühüm təsir göstərmək imkanına malikdirlər[«Xalq» qəzeti, 2001]. Nəhayət, enerji

ehtiyatları ilə zəngin olan Xəzərin Azərbaycan sektorunun ölkəmizin taleyüklü məsələlərinin həllində həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, Qərbi Avropa dövlətləri ilə bu sahədə səmərəli iqtisadi əməkdaşlığın da Azərbaycan üçün çox böyük siyasi və iqtisadi dəstək rolu oynaması şübhə doğurmamalıdır. Xüsusən Xəzərin statusu ətrafında ayrı-ayrı dövlətlərin əsassız iddiası və münaqişə törətmək cəhdlərinin aradan qaldırılmasında, Xəzərin ədalətli sektor bölgüsünün bütün dünyada dəstəklənməsində həmin dövlətlərin rolu əvəzolunmazdır. Azərbaycanın Qərbi Avropa dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı və dostluğu həm də çox mühüm iqtisadi amillərlə şərtlənir. Bütün bu siyasi və iqtisadi amillər sistemi müstəqillik qazanmış Azərbaycan dövləti ilə Qərbi Avropa dövlətləri arasında fəal və səmərəli qarşılıqlı münasibətlər yaradılmasını zəruri etmişdir[Məmmədov,2002]. Azərbaycanın Qərbi Avropa ilə əlaqələrini xarakterizə edən və şərtləndirən cəhətlərdən biri də həmin ölkələrin rəsmi dairələrinin və iş adamlarının özlərinin bu əlaqələrə və qarşılıqlı əməkdaşlığa can atmaları olmuşdur. Ümumiyyətlə, bu dövlətlərin Azərbaycanla bağlı yeritdikləri siyasət tarixən özünün bir çox xüsusiyyətləri ilə fərqlənir. Hər şeydən əvvəl qeyd edilməlidir ki, dünyanın inkişaf etmiş və nüfuzlu dövlətləri kimi Qərbi Avropa ölkələri Qafqazda, o cümlədən Azərbaycanda xüsusi strateji siyasi və iqtisadi maraqlara malikdirlər. Beləliklə, yuxarıda qeyd edilən bütün siyasi, iqtisadi və digər amillər Azərbaycan və Qərbi Avropa ölkələri əlaqələrinin qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasbətləri üzərində qurulmasını şərtləndirmiş və zəruri etmişdir. Bu zərurəti dərk edən və qarşılıqlı əlaqələrin hər bir dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikası və Qərbi Avropa ölkələrinin dövlət və hökumət rəhbərləri diplomatik münasibətlərin qurulmasından sonra qarşılıqlı əlaqələrin inkişafı sahəsində müvafiq addımlar atmış və ikitərəfli münasibətləri tənzimləyən çoxsaylı sənədlər imzalamışlar. Azərbaycanın dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən 1991-ci ilin dekabrında, Fransa, Almaniya və İtaliya tərəfindən isə 1992-ci ilin yanvarında tanınmış və həmin ilin əvvəllərində diplomatik münasibətlər yaradılmışdır. 1992-ci ilin martında Fransa, sentyabrında Almaniya, 1993-cü ilin sentyabr ayında isə Böyük Britaniya Azərbaycanda öz səfirliyini açmışdır. Azərbaycan isə əvvəl Almaniyada (1992, sentyabr),

daha sonra Böyük Britaniya (1994, yanvar) və Fransada (1994, oktyabr) diplomatik nümayəndəliyini təsis etmişdir [Həsənov, 2000]. İtaliyanın Azərbaycanda səfirliyi bir neçə il sonra – 1997-ci ildə, Azərbaycanın İtaliyada səfirliyi isə 2003-cü ildə açılmışdır. İkitərəfli əməkdaşlıq əlaqələrini tənzimləyən hüquqi-normativ sənədlərin imzalanması və həyata keçirilməsi sahəsində ilk illər heç bir addım atılmadı. Yalnız 1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycanın Qərbi Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın başlanğıcını qoydu. Səfər dövründə qarşılıqlı maraq doğuran məsələlər hərtərəfli müzakirə olundu, "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşılq haqqında" müqavilə və digər sənədlər imzalandı. Azərbaycanın fəal xarici siyasət yeritməsi və Avropa dövlətləri ilə inteqrasiya sahəsində ardıcıl addımlar atması Qərbdə Azərbaycana olan marağın artmasına səbəb olurdu. Məhz bunun nəticəsində Böyük Britaniyaya rəsmi səfərə dəvət olunan Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü ilin fevralında Londonda bir sıra yüksək səviyyəli görüşlər keçirdi. Müzakirələrin yekunu olaraq iki ölkə arasında "Dostluq və əməkdaşlıq haqqında" Birgə Bəyannamə və başqa ikitərəfli sənədlər imzalandı. Bununla da Azərbaycanın Avropa ölkələri ilə inteqrasiyası yolunda növbəti addım atıldı. 1994-cü il sentyabrın 20-də Qərb ölkələri şirkətlərinin geniş təmsil olunduğu konsorsiumla Azərbaycan Dövlət Neft Şirkətinin neft hasilatına dair imzaladığı "Əsrin müqaviləsi" Avropa dövlətləri ilə Azərbaycan arasında əməkdaşlığı yeni səviyyəyə qaldırdı [Həsənov, 1998]. "Azərbaycan Respublikası və Norveç Krallığı arasında Birgə Bəyanat", "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında münasibətlərin əsasları haqqında" Birgə Bəyanat, eləcə də imzalanmış digər sazişlər ölkələr arasında qarşılıqlı əlaqələrin hüquqi-normativ bazasını genişləndirdi. 2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya, Fransa və Böyük Britaniyaya işgüzar səfərləri, Yunanıstan Prezidenti K. Stefanopulosun Azərbaycana rəsmi səfəri və aparılan danışıqlar, siyasi və iqtisadi sahədə əməkdaşlığa dair imzalanmış sənədlər, habelə bir sıra beynəlxalq toplantılarda Qərbi Avropa dövlətlərinin başçıları ilə keçirilən görüş və danışıqlar Azərbaycanın Qərb ölkələri ilə inteqrasiya proseslərinin güclənməsinə mühüm təsir göstərmişdir

[Hüseynova, 1998].Azərbaycanın Qərb ölkələri ilə siyasi və iqtisadi əlaqələrinin dərinləşməsinə, qarşılıqlı faydalı əməkdaşlığın daha yüksək səviyyəyə qalxmasına əsaslı təkan verən amil 2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi oldu. Neft kəmərinin açılış mərasimində Böyük Britaniya, İtaliya və Norveçin müxtəlif səviyyəli hökumət nümayəndələri iştirak etmiş, bu böyük iqtisadi layihənin gerçəkləşməsi münasibətilə Fransa, Böyük Britaniya, Norveç və b. dövlətlərin prezidentləri və hökumət başçıları Azərbaycan Prezidentinə təbrik məktubları göndərmişlər [Hüseynova, 1998].Azərbaycan Respublikası Qərbi Avropa dövlətləri ilə hərtərəfli əlaqələrin inkişaf etdirilməsi sahəsində məqsədyönlü xarici siyasət yeridir və öz milli maraqlarını qorumaq üçün ardıcıl addımlar atır.

Ədəbiyyat siyahısı:

1. Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı, 1996, -88 s.
2. Aydın Məmmədov. Beynəlxalq münasibətlər. Bakı, 2002. –206 s.
3. Heydər Əliyev və Şərq. (VI cildlik) V cild. Bakı, 2005. ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair təklifləri// «Xalq» qəzeti, 21 fevral 2001-ci
4. 4.Həsənov Ə.M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, -80 s. 620
5. 5.Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991- 1996). Bakı, 2000, -368 s.
6. 6.Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, -315 s.
7. 7.Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998.

SEVDAGÜL FAZIL QIZI ƏLIYEVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN-NORVEÇ MƏDƏNI ƏLAQƏLƏRININ INKIŞAF TARIXI

Açar sözlər: mədəniyyət siyasəti, mədəni əlaqələr, birgə mədəni layihələr

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin inkişaf etdirilməsi dövlətin mədəniyyət siyasətinin başlıca məqsədlərindən biridir. XX əsrin 90-cı illərində formalaşdırılan Azərbaycanın mədəniyyət siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının dünya dövlətləri ilə əlaqələrinin genişləndirilməsi, qarşılıqlı anlaşma, bərabərhüquqlu tərəfdaşlıq, iqtisadi və siyasi münasibətlərin inkişaf etdirilməsi və Azərbaycanı dünyada tanıtmaqdan ibarətdir [Усубалиев]. Qısa zaman ərzində Azərbaycan Respublikası mədəniyyət sahəsində YUNESKO, İSESKO, Avropa Şurası, TÜRKSOY, İslam Əməkdaşlıq Təşkilatı, MDB, GUAM və digər beynəlxalq təşkilatlar və onlara üzv olan dövlətlərlə sıx əlaqələr yaratdı. Ölkə Prezidenti İlham Əliyevin sözləri ilə desək “ Zəngin mədəni irs və ölkə daxilində müxtəlif mədəniyyətlərin birgə mövcud olması kimi tarixi təcrübə nümunəsinə malik olan Azərbaycan, regional miqyasda mədəniyyətlərin dialoqu üzrə ideal platformaya çevrilmişdir [Алиев , 2011] .

Planlı şəkildə inkişaf etdirilən mədəni əlaqələr arasında Azərbaycan Norveç mədəni əlaqələrini qeyd edə bilərik. Norveç Avropanın Şimalında yerləşir. Şimal qütb dairəsinin keçdiyi bu unikal ölkənin Azərbaycanla əlaqələrinin tarixi sovet dövrünə təsadüf edir. Məşhur Norveç səyyahı Tur Heyerdal XX əsrin 60-cı illərində ilk dəfə Azərbaycanda olmuş və norveçli tayfaların buradan şimala miqrasiya etməsi fərziyyəsini irəli sürmüşdür [Əliyev ,2002, 145-148].

Sovet dövlətinin “qapalı cəmiyyət” kontekstindən irəli gələrək, hətta mədəni əlaqələr məhdud şəkildə həyata keçirilirdi. O dövrün mədəni əlaqələri kitab mübadiləsi, musiqi, təsviri sənət sahəsində sərgi, konsert və yaradıcılıq ezamiyyətlərinin təşkili kimi qarşılıqlı əlaqələr idi. 1964-cü ildə Norveç dirijoru Odd Qrunnerin Bakıda konserti, 1971 –ci ildə

Azərbaycan musiqiçilərinin Norveçdə konserti, 1986-cı ildə norveçli musiqiçilərin Azərbaycandakı çıxışları belə mədəni əlaqələrin nümunəsidir.1968-1969 –cu illərdə Oslo şəhərində Azərbaycan rəssamları: S.Bəhlulzadə, T.Nərimanbəyov, T.Salahov və başqalarının 65 əsərindən ibarət sərgi təşkil olundu. Oslonun Rəssamlar Assosiasiyasının direktoru Yan Askaland Azərbaycanlı rəssamların bu sərgisini Norveç paytaxtının mədəni həyatının əlamətdar hadisəsi adlandırmışdı [ Azərbaycan Tarixi, 2008, 222] .

1991-ci ildən sonra isə Azərbaycan- Norveç mədəni əlaqələri digər sahələrdə olduğu kimi həm keyfiyyət həm də kəmiyyət baxımından yeni müstəvidə davam etməyə başladı. Müstəqilliyini bərpa etdikdən az sonra Norveç krallığı Azərbaycan Respublikasını tanıdı. Azərbaycan və Norveç arasında diplomatik münasibətlər 1992-ci ildən qurulmuş, 1995-ci ildə Norveç Krallığının Azərbaycanda Baş Konsulluğu, 1998-ci ildə isə Səfirliyi açılmışdı. Müstəqilliyin ilk illərindən Ümummilli lider Heydər Əliyev Norveç Azərbaycan əlaqələrinin genişləndirilməsini dəstəkləmişdir. 1996 –cı ilin aprel ayında Azərbaycanın Ümummilli lideri Norveçə rəsmi səfər etdi. Norveç Krallığının vəliəhdi Haakon 2011 –ci ildə Azərbaycana səfər etdi. Bundan əlavə bu illər ərzində hər iki tərəfdən bir sıra yüksək səviyyəli siyasi səfərlər baş tutmuşdur. Bu səfərlər adətən, mədəni tədbirlərlə müşayiət olunurdu.

Müstəqil Azərbaycan Respublikasının və Norveç Krallığının mədəni əlaqələri artıq bir birinə mədəni nailiyyətləri nümayiş etdirmək mərhələsindən qarşılıqlı şəkildə tədqiq, təhlil və yardım etmək mərhələsinə gəlib çıxmışdır. 1994-cü ildə Azərbaycanda Norveç Humanitar Müəssisəsi fəaliyyətə başladı. Bu Müəssisə bir sıra tarixi abidələrin, xüsusilə də, Şəkinin Kiş kəndində yerləşən Alban kilsəsinin bərpasını həyata keçirdi [Ömərov].

1994-cü ildə elmi axtarışların strateji orqanı və siyasi araşdırmaları üzrə hökumət məsləhətçisi funksiyasını yerinə yetirən Norveç Elmi-Tədqiqat Şurasının nümayəndələri Azərbaycan EA Rəyasət Heyətinin üzvləri ilə görüşmüş və ətraflı fikir mübadiləsindən sonra elm sahəsində qarşılıqlı anlaşma və əməkdaşlığa dair memorandum imzalamışlar. Bu görüşdə Norveçin məşhur səyyahı və alimi 80 yaşlı Tur Heyerdal da iştirak etmişdi. Tərəflər müxtəlif sahələrdə birgə tədqiqatlar aparmaq, bunların

nəticələrini Azərbaycan və Norveçin dövri elmi mətbuatında dərc etdirmək, qarşılıqlı maraq doğuran istiqamətlər və proqramlar haqqında bir-birinə müntəzəm məlumat vermək, hər iki ölkənin alimlərini maraqlandıran layihələrin işlənib hazırlanmasına kömək etmək barədə razılığa gəlmişlər [Əfəndiyeva, 2016,212].

2006-cı ildə Norveçin Stavanger şəhərində "Karvansaray. Azərbaycan Odlar yurdu" sərgisi keçirildi. 2007-ci ildə Azərbaycan Muzey Mərkəzi və Stavanger Arxeologiya Muzeyi arasında əməkdaşlıq haqqında saziş imzalandı [Ömərov].

Azərbaycanın bir sıra müğənniləri Norveç xoru ilə birgə müxtəlif layihələr həyata keçiriblər. 1994-cü ildən Bakıda fəaliyyətə başlayan Norveç Humanitar Müəssisəsinin dəstəklədiyi layihə çərçivəsində Azərbaycan xalq mahnıları məşhur sənətkarlarımız Brilliant Dadaşova, İlqar Muradov və SKRUK xoru tərəfindən ifa olunmuşdur. İfanı müşayiət edən musiqiçilər Azərbaycan musiqi alətləri olan tar, saz, ud, kamança, tütək, balaban, qarmon, nağara və qoşa nağara istifadə etmişlər. Layihənin prodüseri Siyavüş Kərimi və koordinatoru Qalib Məmmədov olmuşdur. Norveç Humanitar Müəssisəsinin Məlumat Mərkəzinin direktoru Bjorn A.Wegge bu layihəni CD formatına salmaq təşəbbüsü irəli sürmüşdür. Wegge öz çıxışlarında qeyd etmişdir: "Biz Azərbaycanın zəngin musiqisi və mədəni həyatı ilə yaxından tanış olduqdan sonra Azərbaycan musiqisinin dünyada tanınması üçün nə edə bilərik deyə düşündük." Məhz bu məqsədlə ərsəyə gələn əməkdaşlıq layihəsini həyata keçirtmək üçün 45 ifaçıdan ibarət SKRUK xoru 1997-ci ilin mart ayında Azərbaycana gəldi [Əfəndiyeva,2016,212] .

1992-ci ildən 2019 –cu ilədək demək olar ki, hər il mayın 17-də milli Bayramını qeyd edən Norveç səfirliyi hər dəfə Norveçdən dəvət olunan mədəniyyət xadimləri ilə yanaşı azərbaycanlı musiqiçilər birgə layihələr həyata keçirmişlər.

Azərbaycan –Norveç mədəni əlaqələri bundan sonrada yüksək səviyyədə davam edəcəkdir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Tarixi .Yeddi cilddə, VII cild, Bakı, Elm, 2008

1. 2. Əliyev T. Azərbaycan arxeologiyası "Tur Heyerdal və Azərbaycan" 4-cü nəşri, Nöm. 1-2, Bakı 2002, səh. 145-148

2. Əfəndiyeva V. Azərbaycan Norveç mədəni əlaqələri // "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransın materialları. 3-5 may, I hissə, Bakı Slavyan Universiteti, Bakı 2016, s.211-213;

3. 4.Ömərov V. Azərbaycan Norveç mədəni əlaqəlıəri http://sesqazeti.az/news/kivdf/364994.html

5.Sadıqoğlu Afət. Azərbaycan Norveç əlaqələri, Bakı, 2002

6.Sadıqoğlu Afət. Tur Heyerdal Azərbaycanda, Bakı, 2006

4. 7.Алиев И. Доклад на Всемирном форуме по межкультурному диалогу. 7-9 апреля 2011. http://ru.president.az/articles/1845

5. 8.Усубалиев А. Культурная политика или новые акценты в политической системе. http://www.azeri.ru/papers/echo-az_info/39989/

SEVDA İMANOVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN DÖVLƏTI AZSAYLI XALQLARIN TƏHLÜKƏSIZLIYININ QARANTIDIR

Açar sözlər: azsaylı xalqlar, milli-etnik qruplar, regionda təhlükəsizlik

Geosiyasi cəhətdən mühüm bir regionda yerləşən Azərbaycanın yürütdüyü daxili və xarici siyasət dünyanın və regionun aparıcı dövlətlərinin maraqlarına toxunur və onların diqqətindən kənarda qalmır. Bu reallıq bölgənin və ya ölkənin daxili təhlükəsizlik mühitinə birbaşa təsir göstərir.

Azərbaycan tarixən mültikulturalizm üçün münbit şərait olan ölkədir. Əsrlər boyu ölkəmizdə rus, yəhudi, gürcü, ləzgi, talış, avar, kürd, udi, ingiloy, tat və sair kimi müxtəlif xalqlar yaşamışdır.

Mənfur qonşu dövlətin separatçı siyasətinə baxmayaraq Azərbaycan müstəqillik qazandığı ilk illərdən azsaylı xalqların, milli-etnik qrupların mədəni inkişafını onların hüquqlarının, təhlükəsizliyinin qorunmasını əsas vəzifəsi kimi irəli sürmüşdü və "1992-ci il 16 sentyabr tarixində "Azərbaycan Respublikasında yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qrupların qorunması, dil və mədəniyyətinin inkişafına dövlət yardımı" imzalanmış fərmanı geniş imkanlar açmışdır.

Heydər Əliyev siyasi hakimiyyətə qayıdışından sonra mövcud separatçı qüvvələri yox etmək, millətlərarası münasibətlər siyasətini demokratik prinsiplər əsasında inkişaf etdirmək siyasətini əsas götürərək, azsaylı xalqların hüquqlarının, təhlükəsizliyinin qorunması, mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində mühüm işlər görmüşdü.

Azərbaycan Respublikası 1995-ci ildə Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası" nı imzalamış və 2000-ci ildə ratifikasiya etmişdir.

YUNESKO-nun 2005-ci ildə qəbul etdiyi "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya" nı Azərbaycan Respublikası 2009-cu ildə təsdiq etmişdir.

Ümummilli Liderimizin müdrik siyasəti yalnız müxtəlif konvensiyalara qoşulmaq, rəsmi sənədlər imzalamaq, sərəncamlar verməklə bitməmişdir. Heydər Əliyev milli azlıqların yaşadığı bölgələrə mütəmadi səfərlər etmiş, onların yaşayış, təhlükəsizlik və mədəni irslərinin qorunması ilə bağlı göstərişlər vermişdir. Bu gün Azərbaycanın uğurlu milli siyasətinin, regionda təhlükəsizliyin təminatçısı olmasının əsası 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması ilə qoyulmuşdu.

Ümummilli Liderimizin uzaqgörən və müdrik siyasəti nəticəsində müxtəlif xalqların əmin-amanlıqla təhlükəsizlik və sülh şəraitində yaşadığı multikultural ölkəmizdə terror yoxdur və Azərbaycan dünyanın ən sakit ölkələr siyahısına daxildir.

Dahi rəhbər Heydər Əliyev qarşısına qoyduğu vəzifənin öhdəsindən ləyaqətlə gələn və özünün ən böyük şah əsəri olan Azərbaycan bu gün regionda dövlətin, çox saylı xalqların suverenliyini, təhlükəsizliyini, hüquqlarını, əmin-amanlığını daxili və xarici təhdidlərdən qoruyan və təmin edən ən güclü multikultural dövlətdir.

Bu gün Ümummilli Lider Heydər Əliyevin təhlükəsizlik siyasəti və strategiyası onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

СЕВДА ЭЛЬШАД КЫЗЫ МАГЕРРАМОВА
Азербайджанский Университет Языков

# ГЛОБАЛИЗАЦИЯ И ЕЁ ВЛИЯНИЕ НА ЭКОНОМИЧЕСКИЕ ПРОЦЕССЫ АЗЕРБАЙДЖАНА

Ключевые слова: глобализация, интеграционный процесс, экономическая глобализация

Глобализация на современном этапе развития человечества определяет его основное содержание. Невозможно правильно понять социальные, экономические, культурные, геополитические и другие процессы, которые происходят в нашем современном мире, без выяснения основных причин этого процесса, его форм проявления, его последствий и различных аспектов.

Как процесс, глобализация затрагивает такие сферы, как экономика, политика, культура, безопасность, окружающую среду и др. Рассмотрим экономическую сферу глобализации, которая измеряется обменом товаров и услуг, капитала и информации, а также увеличивает мобильность населения в интеграционном масштабе. В общем, глобализацию мировой экономики возможно определить, как увеличение зависимости между национальными экономиками стран и слиянием между ними различных процессов в определенной сфере мирового хозяйства.

В экономической глобализации одно из важных мест занимает развитие рыночной экономики, которой присущ процесс интернационализации хозяйственной жизни. Следовательно, международная экономическая интеграция, как главное ядро процесса глобализации, развивается с более быстрыми темпами, где сближаются и становятся взаимозависимыми национальные экономики, т.е. идёт единый интеграционный процесс в интернациональных масштабах, который суммируется на едином рынке, унифицируя экономическую политику. Таким образом, ликвидируются национальные границы и создаются целостные

региональные комплексы с общими национальными и межгосударственными органами управления.

В настоящее время процесс глобализации невозможно описать без роли международных экономических организаций. Международные экономические организации создавались в основном после Второй мировой войны. В процессе глобализации в основном принимают участие такие международные экономические организации, как Международный валютный фонд, Всемирный банк, Генеральное соглашение по тарифам и торговле и созданная на её основе Всемирная торговая организация, специализированные учреждения ООН (ЮНКТАД, ЮНИДО, МОТ, ФАО и др.), а также многочисленные организации, сформировавшиеся на региональной основе. Их деятельность способствует, с одной стороны, снижению уровня протекционизма, либерализации всего комплекса международных экономических отношений, а с другой стороны, внедрению единых критериев проведения макроэкономической политики и унификации требований к налоговой, антимонопольной политике, политики в области занятости и др.

Процессы глобализации не обошли стороной и Азербайджан. С восстановлением государственной независимости в 1991 году перед Азербайджаном открылись новые возможности для интеграции в мировое хозяйство. Благодаря данной интеграции Азербайджан начал сотрудничество с рядом крупнейших международных финансовых и экономических организаций. В 1993 году же Азербайджан вступает в Содружество Независимых Государств (СНГ), образованное на постсоветском пространстве новыми независимыми государствами.

Благодаря нефтяной промышленности и её стратегическому развитию, проблемы макроэкономической и финансовой стабильности в Азербайджане добились определенных успехов по формированию и усилению модели экономического развития страны. Особые усилия предпринимаются по расширению деятельности не нефтяных секторов экономики страны и повышения экспортного потенциала. Стимулируется объем экспорта не нефтяных продукций, расширяется ассортимент брендовых

экспортных продукций под маркой "Made in Azerbaijan". Необходимо также на долгосрочный период эффективно использовать ресурсный потенциал экономики страны и успешно реализовать выход на мировые рынки наряду с нефтепродуктами и другими экспортно-ориентированными продукциями не нефтяного сектора, тем самым ослабить давление глобальных влияний на экономику страны [Шакаралиев, 2016].

Несмотря на то, что Азербайджан независимое государство, необходимо отметить, что по сей день существует ряд нерешенных фундаментальных задач, которые обеспечили бы достойное социально-экономическое благополучие для развития экономики страны. Это, прежде всего, должно создать устойчивую, многомерную и конкурентоспособную экономику с учетом истощенных энергетических ресурсов.

Существует очень важное решение для интеграции Азербайджана в глобализирующуюся мировую экономику. Основной целью этих задач является построение устойчивой, конкурентоспособной экономики, которая обеспечит устойчивое социально-экономическое развитие и безопасность граждан страны.

Таким образом, глобализация мировой экономики создает реальные проблемы для многих стран, усиливая некоторые негативные тенденции, характерные для рыночной экономики в целом. Однако глобализация представляет собой объективный, необратимый процесс, развивающийся в соответствии с определенными закономерностями. Бороться с глобализацией – все равно, что пытаться остановить прогресс. Поэтому, в современных условиях особенно актуальным становится проведение адекватной социальной политики, осуществление финансового контроля и регулирование со стороны государства, а также улучшение международной координации экономической политики с целью смягчения негативных последствий глобализации и использование тех возможностей, которые она представляет для ускорения.

Список литературы:

1. Аббасов Чингиз Микаил оглы. Пути интеграции Азербайджана в мировую экономику. Баку, «Элм», 2004,263 стр.
2. Алиев Ш.Т. Внешнеэкономическая политика Азербайджана. Сумгайыт, 2015. - 185 с.
3. Глобальные трансформации: политика, экономика, культура / Д. Хелд, Д. Гольдблатт, Э. Макгрю, Дж. Перратон ; пер. с англ. В.В. Сошова [и др.]. М., 2004. 576 с.
4. Медведев В. Глобальная экономика: тенденции и противостояния // Мировая экономика и международные отношения. 2004. № 2. С. 3–10.
5. Миклашевская Н. А., Холопов А. В. Международная экономика / под ред. А. В. Сидоровича. М.: Дело и Сервис, 2004. С. 12–20
6. Субботин А. Перспективы глобального рынка // Мировая экономика и международные отношения. 2006. № 1. С. 14–22.
7. Стиглиц Дж. Э. Глобализация и ее последствия. Баку, 2004.
8. Шакаралиев А.Ш., Шакаралиев Г.А. Экономика Азербайджана: реалии и перспективы. Баку, “Турхан”, 2016. - 536 с.

SEVINC ƏFQAN QIZI HACIYEVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ SOSIAL IŞIN ETIK PRINSIPLƏRI

Açar sözlər: beynəlxalq münasibətlər, sosial iş, etika, etik prinsiplər

Beynəlxalq münasibətlər sistemində bütün elmi sahələrdə etik prinsiplər mövcuddur. Hər birimiz bu etik qaydalara əməl etməliyik. Etika insana harada, nəyi və necə hərəkət etməyin yolunu göstərir. Etik pinsiplərin formalaşmasına sosioloji, psixoloji, bioloji, dini faktorlar təsir edir. Beynəlxalq münasibətlər sistemində sosial işçi etik prinsipləri niyə öyrənməli və əməl etməlidir? Sosial işin 3 səviyyəsi var: mikro, mezo və makro.

Mikro səviyyə - birbaşa fəaliyyət və fərdlərlə iş,

Mezo səviyyə- qruplar, təşkilatlar, icmalarla iş,

Makro səviyyə- idarəetmə və beynəlxalq sistemdə siyasi məsələlərlə iş.

Ümumiyyətlə tək sosial işçilər deyil bütün peşə işçilər öz fəaliyyət göstərdiyi sahədə peşəsinə xas olan etik qaydaları bilməlidir. Peşə etikası işçiyə öz peşə sahəsini professional yerinə yetirməsi üçün lazım olan qaydalardır. Sosial işçinin 2 əsas dəyər forması var:

1. Peşəkar dəyərləri;
2. Şəxsi dəyərləri.

Hər bir sosial işçi bu iki dəyəri bilməli və bir-birindən ayırmağı bacarmalıdır. Əks halda bu qaydaları bilməsələr professional sahəsini düzgün yerinə yetirə bilməz. Etik prinsiplər sosial işin hansı səviyyəsindən asılı olmayaraq sosial işçini kliyentlərlə iş prosesində tələb olunan etik bilik və bacarıqlar ilə tanış edir. Sosial işin etikası sosial işçi üçün 2 məna kəsb edir. 1. Etik dəyərlərin özünə olan münasibət 2. Sosial işinin cəmiyyətə qarşı etik davranışları və münasibəti. Sosial işçi kliyentlərlə işləyərkən bir çox etik prinsipləri yerinə yetirməlidir. Etik prinsiplər sosial işçiyə ona görə lazımdır ki, sosial işçi öz şəxsi dəyərlərini kliyentə qarşı istifadə etməsin. Bildiyimiz kimi sosial işçinin bir insan olduğunu nəzərə alaraq onun da şəxsi dəyərləri var. Sosial işçi professional iş zamanı şəxsi dəyərləri müəyyən edə bilməsi üçün öz

dəyərlərindən agah olmalıdır. Sosial işçi professional iş zamanı peşəkar etikası ilə şəxsi dəyərlərini səmərəli istifadə etməyi bacarmalıdır. Eyni zamanda etik prinsiplər təcrübə zamanı sosial işçinin kliyentə arasında davranış qaydalarını, münasibətlərini düzgün qurmasını və ünsiyyət vərdişlərini aşılayır. Hər iki tərəfin öhdəlikləri qeyd olunur.

Sosial işin hər üç səviyyəsində etik prinsiplər müxtəlif kateqoriyalara bölünür:

1. Sosial işçinin kliyentlərə qarşı;
2. Həmkarlarına qarşı;
3. Peşəsinə qarşı;
4. Cəmiyyətə qarşı və s.

Sosial işçinin kliyentlərə qarşı etik məsuliyyətinə daxil olan prinsiplər:

1. Kliyentə qarşı öhdəlik;
2. Səriştəlilik; Mədəni səriştəlilik;
3. Konfidensionallıq (məxfilik);
4. Maraqların toqquşması;
5. Məlumat razılığı;
6. Müstəqillik bacarığını formalaşdırılması (öz müqəddəratını təyin etmək).

Kliyentə qarşı əsas etik qaydalardan biri məxfiliyin qorumasıdır. Keysdən asılı olmayaraq məxfiliyin qorunması bütün yollarla sosial işçi tərəfindən yerinə yetirməlidir. Əks halda kliyentin ətrafındakı insanların ona qarşı münasibətini dəyişməsi halları müşahidə oluna bilər. Eyni zamanda psixoloji zorakılığa və yaxud onların və ətrafındakı insanların həyatı üçün təhlükə yarada bilər. Sosial işçinin kliyentə qarşı əsas öhdəliyi onun maraqlarını müdafiə etmək və rifahını yüksəltməkdir. Ola bilər ki, onlar arasında hər hansı konflikt yaşana bilər. Keysin həll zamanı sosial işçi bu konfliktlərdən uzaq olmalıdır. Problemin həli zamanı atılan addımlar haqqında kliyent məlumatlanmalı və razılığı alınmalıdır.

Sosial işçi etik qaydaları həmkarlarına və cəmiyyətdəki hər bir insanlara (dinindən, cinsindən, irqindən və s.) qarşıda gözləməlidir. Bu öhdəlikdən biri həmkarlarının ləyaqətinə və şərəfinə hörmətlə yanaşmalı, ikili münasibətlərdən uzaq qaçmalıdır. Digər bir öhdəliyi isə

cəmiyyətə qarşı etik qaydaları gözləməkdi. Hər bir sosial işçinın əsas öhdəliyi ədalətli cəmiyyətin yaranmasına təşəbbüs etməli, onun rifahını önə çəkməli və sosial problemlərin həlli istiqamətində çıxış yolları tapmalıdır. Hər şeyə ədalətli yanaşmaq, insanların rifahını önə çəkmək tək peşəkar sahədə deyil gündəlik həyatında da bu dəyərləri gözləməlidir. Bu qaydalara əməl etmək hər bir sosial işçinin borcudur.

Bu gün sosial iş beynəlxalq münasibətlər sistemində insanların rifahını önə çəkən humanist peşə sahələrindən biridir. Sosial işin etik prinsiplər bir sosial işçi kimi mənə ətrafımdakı insanlara qarşı heç bir diskriminasiya qoymadan kömək etmək, humanist münasibətlər əsasında əməkdaşlıq etmək, başqalarının maraqlarına xələl gətirməmək qaydalarını öyrətmişdir.

Ədəbiyyat siyahısı::

1. https://uafa.az/ngo/az%C9%99rbaycanda-sosial-isin-t%C9%99skili/
2. https://az.wikipedia.org/wiki/Sosial_i%C5%9F_t%C9%99cr%C3%BCb%C9%99sinin_etik_prinsip_v%C9%99_d%C9%99y%C9%99rl%C9%99ri
3. http://muhaz.org/sosial-isin-etik-qaydalarnen-ve-prinsiplerinin-umumi-icmal.html
4. https://www.ifsw.org/az/global-social-work-statement-of-ethical-principles/
5. https://www.ifsw.org/az/policy-and-guiding-principles-for-international-social-work-assessment-of-children/
6. https://sosialish.wordpress.com/etik-kodeks/

SEVINC AKIF QIZI QURBANOVA
Gəncə Dövlət Universiteti

# HEYDƏR ƏLIYEVIN NEFT STRATEGIYASININ DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSININ HƏLLI ISTIQAMƏTINƏ TƏSIRI

Açar sözlər: Yeni neft strategiyası, münaqişənin həllində neft faktoru, balanslaşdırılmış siyasət

Azərbaycan Respublikasının neft strategiyasında əsas məqsəd Qərbə inteqrasiya edərək ölkənin inkişaf yolunu tutması olsa da, Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi həmişə prioritet məsələ olmuşdur.Yeni neft strategiyası çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik problemləri, xüsusilə Dağlıq Qarabağ problemi müzakirə obyektinə çevrilmiş və onun həlli istiqamətinə müsbət təsir etmişdir.Əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan neft strategiyasının mərhələli şəkildə həyata keçirilməsi əməkdaşlıq çərçivəsində xarici siyasət kursunun reallaşmasına səbəb olmuşdur.Bu çoxtərəfli əməkdaşlıq nəticəsində isə Azərbaycan bütün beynəlxalq layihələrdə balanslaşdırılmış siyasətə müvəffəq olmuşdur. Heydər Əliyev ilk öncə "Əsrin Müqaviləsi"nə Rusiyanı cəlb etməklə onun Dağlıq Qarabağ problemində tərəfsiz olmasına nail olmuşdur.Bildiyimiz kimi, Rusiyanın Ermənistanı sürətlə silahlandırması Qafqazda mövcud olan münaqişə tərəflərinin, xüsusilə Azərbaycan və Ermənistanın yaranmış probleminin həlli üçün danışıqları beynəlxalq normalar əsasında davam etdirmələrinə öz mənfi təsirini göstərmişdir.Məhz bu səbəbdən Heydər Əliyev Rusiya ilə münasibətləri normallaşdırmaqla və neft danışıqlarına dəvət etməklə Rusiyadan gələ biləcək hər hansı bir neqativ təsirin qabağını almışdır. 1996-cı il iyunun 4-də "Gülüstan" sarayında "Şahdəniz" yatağının birgə işlənməsi haqqında HPBH sazişində Azərbaycanın payı 40%, "BP", "STATOİL","TPAO"-60% müəyyənləşdirilsə də hazırlanmış bu müqaviləyə Rusiyanın "LUKOİL ", Fransanın "ELF-AKİTEN", İranın isə "OİEK" neft şirkətləri də qoşulmuşdur [4, s 44-45]. Rusiyanın adı çəkilən şirkətinin neft layihəsinə cəlb edilməsi həm də siyasi anlam daşıyırdı.Müqavilənin əhəmiyyətli tərəflərindən biri Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən olması və bu mənada Azərbaycanın

Dağlıq Qarabağ münaqişəsinin həlli müzakirələrində maraqlarının təmin olunması idi. Bununla da Azərbaycan neft strategiyasını həyata keçirməklə regionda iqtisadi və siyasi baxımdan Rusiya-İran-Ermənistan bloku tərəfindən təcrid olunmaqdan qorunmuşdur.Azərbaycan neft strategiyası çərçivəsində nefti cazibə mərkəzinə çevirərək müxtəlif gücləri, xüsusilə Rusiya ilə də münasibətlərin normallaşmasına nail olmuş və bu bloklaşmanın fəsadlarını ortadan qaldıra bilmişdir.

Yeni neft strategiyasının həyata keçirilməsi zamanı ABŞ dövləti ilə əlaqələrinə xüsusi diqqət ayıran Ulu öndər Heydər Əliyev onun da diqqətini Qarabağ probleminə yönəltməyə cəhd edirdi. Müstəqilliyinin ilk illərində ABŞ, Fransa və bir çox ölkələrdə erməni lobbisinin Azərbaycan əleyhinə ciddi fəaliyyəti nəticəsində Azərbaycan haqqında dezinformasiya yaradılmışdır. Bu siyasətin nəticəsində 1992-ci ilin axırlarında ABŞ konqresi Azərbaycan Respublikasına hər cür yardım göstərilməsini qadağan edən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi qəbul etdi [ 3, s61]. Heydər Əliyev 1993-cü ilin sentyabrında ABŞ Prezidenti Bill Klintona məktub göndərərək 907-ci düzəlişin qeyri-obyektiv olduğunu əsaslandırmış və Azərbaycan Respublikası barədə ayrı seçkiliyin ləğvi üçün tədbirlərin görülməsini xahiş etmişdir [5, s125-126]. Heydər Əliyevin 3 ilə yaxın yeritdiyi ardıcıl siyasət, keçirdiyi görüşlər ABŞ-ın nüfüzlu senatorları, konqresmenləri, siyasi xadimləri ilə apardığı danışıqlar, ABŞ neft şirkətləri, xüsusilə "AMOKO" ilə əməkdaşlığı bu ölkənin Azərbaycana münasibətinin müsbət istiqamətdə dəyişməsinə, Azərbaycan Respublikasının "Amerikanın tərəfdaşı olan" dövlətlər qrupuna daxil edilməsinə gətirib çıxartdı.ABŞ Prezidenti Corc Buşun Administrasiyasında Azərbaycana birbaşa yardım üzərində qoyulmuş qadağanın aradan götürmə meyilləri daha çox hiss olunmuşdur. Heydər Əliyevin yürütdüyü neft siyasətinin buna təsiri danılmazdır.Heydər Əliyev 1997-ci il avqustunda ABŞ-da səfərdə olan zaman "907-ci düzəliş"-in ləğv olunması barədə "Şevron", "Penzoyl", "Yunokal", "Amoko" korporasiyasının rəhbərləri ilə söhbətlərində Azərbaycan tərəfinin haqq işinin müdafiə olunmasının vacibliyini xatırlatmış, Konqresmen Kinqin 907-ci düzəlişin ləgv edilməsi ilə əlaqədar təqdim etdiyi layihəni yüksək qiymətləndirmişdir."AMOKO" korporasiyasının direktorlar şurasının sədri Lourens Fuller ilə görüşündə ümummilli lider Heydər Əliyev bu

şirkətin bir çox sahələrdə Azərbaycana yaxından köməklik etdiyini yüksək qiymətləndirərək demişdir: " Bildirirəm ki, Azərbaycanın haqq işinin beynəlxalq aləmdə geniş təbliğ edilməsi, üçün "Amoko"nun göstərdiyi səylərin böyük əhəmiyyəti vardır.Bu səyləri yüksək qiymətləndirərək vurğulayıram ki, hazırda 907-ci düzəlişin ləğvinə xüsusi diqqət yetirməyin vacibliyi olduqca zəruridir [6, s.330]. 2001-ci ildən Azərbaycan Respublikasının anti-terror koalisiyası tərkibində ABŞ-la bərabər məqsədyönlü fəaliyyət ədalətsiz "907-ci düzəliş" in qüvvəsinin dayandırılması ilə nəticələndi. 2002-2003-cü illər üçün 907-ci düzəlişin dondurulması barədə ABŞ Administratoru siyasi qərar qəbul etmişdir. Bundan əlavə Buş Administrasiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün diplomatik təşəbbüsləri artırmışdır.

ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi Fransanın da Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyətinin artırılmasına nail olmaq siyasəti aparılmışdır. 1997-ci il yavarın 13-də Parisdə "Yelisey" sarayında Fransa Prezidenti Jak Şirakın və Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı "Lənkəran Dəniz" və "Talış Dəniz" yataqlarının kəşfiyyatı, işləməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə Fransanın "ELF-AKİTEN" və "TOTAL" şirkətləri arasında müqavilənin imzalanması mərasimi oldu [2]. Azərbaycan tərəfi beynəlxalq xarakter almış Dağlıq Qarabağ probleminin ədalətli həllinə ümid edərək, Fransa ilə əməkdaşlığı həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amil hesab etmişdir Məhz bundan sonra Fransanın təklifi ilə münaqişənin həlli ilə bağlı bir sıra əhəmiyyətli müzakirələr keçirilmişdir. Hətta, 1997-ci ildə Fransa Prezidenti Jak Şirakın cəhdləri sülh müqaviləsi ilə nəticələnməyə çox yaxın idi. Ancaq, Ermənistanda prezident Ter-Petrosyanın yerinə Robert Koçaryanın hakimiyyətə gəlməsi bu prosesə maneçilik törətmişdir.

Göründüyü kimi, neft müqavilələrinin imzalanmasında neft şirkətlərinin maraqlarının təmin edilməsi nəticəsində nüfuzlu ölkələrin Azərbaycanla münasibətləri inkişaf etmişdir.Azərbaycan öz neftini xarici siyasətində lobbi vasitəsi kimi istifadə etməsi nəticəsində,Azərbaycanın neft strategiyasının təsiri nəticəsində ABŞ,Fransa,İngiltərə və digər ölkələrdə Azərbaycanın imici doğru şəkildə dəyərləndirilmişdir.Heydər

Əliyev neft strategiyası nəticəsində Dağlıq Qarabağ probleminin həlli istiqamətində müəyyən mənada irəliləyişə nail ola bilmişdir.Neft strategiyasının siyasi cəhəti barədə Heydər Əliyev "Frans-presss" agentliyi müxbirinin neft amili Qarabağ münaqişəsinin həlli üçün vasitələrdən biri ola bilərmi, sualına belə cavab vermişdir: "Biz bu amildən istifadə etməyə çalışırıq.Artıq bizdə işləyən ölkələr nüfuzlu beynəlxalq təşkilkatların üzvləridir.Bu ölkələrin nümayəndələrini həmin problemin həllinə daha fəal şəkildə cəlb edib çalışmaqla məqsədimiz bu dövlətlərin Ermənistana öz işğalçılıq niyyətlərindən əl çəkməyin zəruriliyini inandırmaqdır" [Həsənov , 2002, 151].

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq şöbəsinin materialları.1992-2005-ci illər.
2. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi.Fond 2941, siy.122, iş 486, v.v.114.
3. Qasımlı M.C. Azərbaycan Beynəlxalq Münasibətlər Sistemində 1991-1995-ci illər. Bakı: Gənclik, 1996,450s
4. Heydər Əliyevin neft strategiyası:Azərbaycan xalqının rifahı naminə.2 hissədə, I hissə. Azərbaycan Respublikası prezidentinin Katibliyi.Bakı: 2001,491s.
5. Heydər Əliyev.Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublər, müsahibələr.I kitab: iyun, 1993- may, 1994.- Bakı: Azərnəşr, 1997.- 612 s.

SEVINC ƏŞRƏF QIZI QURBANOVA
Azərbaycan Dillər Universiteti

## MÜASIR DÖVRDƏ AZƏRBAYCAN-ARGENTINA ƏLAQƏLƏRI

Açar sözlər: Azərbaycan, əlaqələr, Argentina, əməkdaşlıq, müasir

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən etibarən fəal xarici siyasət kursunu ən vacib məsələ kimi ön plana çəkdi. 1991-93-cü illərdə Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərin yaradılması onun dünyaya inteqrasiyasına geniş yol açdı [Həsənov, 2005, 213].

Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi mühüm yer tuturdu. Müstəqillik əldə etdikdən etibarən Azərbaycan Respublikası Cənubi Amerika ölkələri ilə də diplomatik münasibətlər yaratmışdır. Bu ölkələrə ərazisi, əhalisi və iqtisadi inkişafına görə seçilən, Cənubi Amerikanın ən böyük dövlətlərindən biri olan Argentina Respublikası da daxildir. Argentina Respublikası 1992-ci il martın 9-da Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. İki ölkə arasında diplomatik münasibətlər isə 1993-cü ilin noyabrın 8-i qurulmuşdur [Həsənov, 2005, 329].

Azərbaycan ilə Argentina arasında əlaqələrin intensivləşməsi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun 2006-cı ildə Argentinaya rəsmi səfərindən sonra nəzərə çarpır. Səfər zamanı Argentina rəsmiləri ilə bir sıra əhəmiyyətli görüşlər keçirilib, iki ölkənin Xarici İşlər nazirlikləri arasında Anlaşma Memorandumu imzalanıb [Məmmədli, 2014].

1993-cü ildə hər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına baxmayaraq, qarşılıqlı səfirliklər bir müddət sonra açılmışdır. Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursunu davam etdirən Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Argentinada səfirliyi 2010-cu ildə, Argentinanın Azərbaycandakı səfirliyi isə 2013-cü ildə açılmışdır. [Azərbaycan Respublikası - Argentina Respublikası münasibətləri, 2015, 1]. Bununla

qeyd etmək lazımdır ki, Azərbaycanın Cənubi Amerika regionunda səfirliyi ilk dəfə məhz Argentinada təsis olunmuşdu. Qarşılıqlı səfirliklərin təsis olunması ilə iki ölkə arasında əlaqələr yeni inkişaf mərhələsinə daxil olur.

Azərbaycanın Argentinada səfirliyi açıldıqdan sonra, Argentina xarici işlər nazirinin müavini Alberto Pedro D`Alotto 2010-cu il noyabrın 24-25 tarixlərində Azərbaycana səfər etmişdir. Səfər nəticəsində iki ölkənin Xarici İşlər nazirlikləri arasında Siyasi Məsləhətləşmələr haqqında Anlaşma Memorandumu imzalanmışdır. Bir il sonra 2011-ci ildə Argentina Respublikası Milli Konqresinin Senat və Deputatlar Palatasında Azərbaycanla ümumilikdə 17 üzvü olan dostluq qrupu yaradılmışdır [Məmmədli, 2014].

İki dövlət arasında ikitərəfli siyasi münasibətlərin qurulması iqtisadi, mədəni və digər əlaqələrin inkişafına da əlverişli zəmin yaradır. Azərbaycan Argentina ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Qeyd etmək lazımdır ki, Argentinanın iqtisadiyyatının əsas sahələrindən biri kənd təsərrüfatıdır. Hər iki ölkə 2011-ci ildə kənd təsərrüfatı nazirlikləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıb. Beləki, yalnız 2012-ci ildə Argentinadan Azərbaycana təxminən 6 mln.dollar həcmində kənd təsərrüfatı və ərzaq məhsulları ixrac olunub [Argentinanın coğrafiyası, 2018, 153]. Ümumiyyətlə, Argentinadan Azərbaycana idxal olunan əsas məhsullar şəkər çuğunduru, yağlar, taxıl məmulatları, süd məhsulları, yer fındığı, tütün məmulatları və sitrus meyvələridir [Məmmədli, 2014].

Hər iki ölkə əlaqələrin genişləndirilməsində maraqlı olaraq, Azərbaycan - Argentina ticarət və iqtisadi əməkdaşlıq üzrə birgə işçi qrupunu təsis edib. Bu işçi qrupunun ilk iclası 2014-cü ilin noyabrında Buenos-Ayres şəhərində keçirilmişdir. İki ölkə arasında əlaqələrin genişlənməsini göstərən amillərdən biri 2012-ci ildə 300 nəfərdən ibarət Argentina rəsmiləri və iş adamlarından ibarət biznes missiyasının Azərbaycana səfər etməsi olub. Qeyd etmək lazımdır ki, bu Argentina biznes nümayəndələrinin Azərbaycana ilk səfəri idi. Səfər zamanı I Argentina-Azərbaycan Biznes Forumu keçirilib. Bunun ardınca 2012-ci ilin 26-27 iyul tarixində Azərbaycanın xarici işlər naziri və iqtisadi inkişafı naziri Azərbaycanın ən iri şirkət rəhbərləri ilə birlikdə Argentinaya səfər

edib. Səfər zamanı II Argentina-Azərbaycan Biznes Forumu təşkil olunub [Məmmədli, 2014].

Göründüyü kimi, iki ölkə münasibətləri olduqca müxtəlif sahələri əhatə edir. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 18-dən çox sənəd imzalanmışdır. Bu əlaqələr elm və təhsil sahələrində də inkişaf etməkdədir. Bunun təsdiqi olaraq, 2011-ci ildə Argentina Milli Elm və Texniki Araşdırmalar Şurası (CONİCET) ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında əməkdaşlıq haqqında saziş imzalanıb [Məmmədli, 2014]. İki ölkə arasında təhsil sahəsində əməkdaşlığın ən bariz nümunələrindən biri Argentina Səfirliyinin Azərbaycanın qabaqcıl universitetləri ilə sıx əməkdaşlıq etməsidir. Bununla, Azərbaycan Dillər Universiteti uzun illərdir ki, Argentina səfirliyi ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində ADU-nun Beynəlxalq Münasibətlər və Regionşünaslıq fakültəsində Argentinaşünaslıq ixtisası açılmış, Argentina universitetləri ilə əlaqələr yaradılmışdır. Argentina Səfirliyinin maliyyə dəstəyi və ADU-nun professor-müəllim heyətinin əməyi nəticəsində "Argentinanın iqtisadiyyatı", "Argentinanın coğrafiyası", "Argentinanın etnoqrafiyası" kitabları nəşr olunmuş və tələbələrin istifadəsinə verilmişdir. 2019-cu ilin 30 may tarixində ADU-nun "Səfir saatı" layihəsi çərçivəsində Argentinanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella tələbələrlə görüşmüş və onların Argentina ilə bağlı suallarını cavablandırmışdır [Azərbaycan müəllimi, 2019].

Hər iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq çərçivəsində Argentina Səfirliyinin təşkilatçılığı ilə Bakıda 2017-ci ildən artıq iki dəfə Tanqo festivalı keçirilmişdir. Festival zamanı tanqo və argentina folkloruna dair seminarlar, master klasslar, açıq dərslər keçirilmişdir [Вестник Кавказа, 2017].

Beləliklə, Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə əlaqələr uğurla inkişaf edir.

Ədəbiyyat siyahısı:

1. Argentinanın coğrafiyası. Dərs vəsaiti. Müəllif kollektivi. Bakı, 2018
2. Azərbaycan Respublikası - Argentina Respublikası münasibətləri. 28.01.2015. http://www.mfa.gov.az/files/file/AR-Argentina_munasibetleri__28.01.2015.pdf

3. Azərtac. Azərbaycan-Argentina əlaqələri inkişaf edir. 29.04.2019. https://azertag.az/xeber/Azerbaycan_Argentina_elaqeleri_inkisaf_edir-1276094

4. Azərbaycan müəllimi. Argentina səfiri "Səfir saatı" layihəsi çərçivəsində tələbələrlə görüşüb. 30 may, 2019. https://muallim.edu.az/news.php?id=5965

5. Həsənov Əli. Müair beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005

6. Məmmədli Hülya. Azərbaycan-Argentina münasibətləri intensiv inkişaf edir. Yeni Azərbaycan. 2014. 28 iyun. S.8. http://anl.az/down/meqale/yeni_az/2014/iyun/380033.htm

7. Вестник Кавказа. Первый фестиваль танго проведут в Баку. 3 окт. 2017, http://vestikavkaza.ru/news/Pervyy-festival-tango-provedut-v-Baku.html

SƏBINƏ İLHAM QIZI MURADOVA
Azərbaycan Dillər Universiteti

## AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINƏ INTEQRASIYASI PROSESINDƏ HEYDƏR ƏLIYEV FAKTORU

Açar sözlər: H. Əliyevin hakimiyyətə gəlməsi, "Əsrin müqaviləsi", beynəlxalq təşkilatlar

Ümummilli Lider Heydər Əliyevin fərqli istiqamətlərdə həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan olduqca inkişaf edib, beynəlxalq aləmdə öz sözünü deyən bir dövlətə çevrilmişdir. Xüsusi ilə də XX əsrin 90-cı illərinə nəzər salsaq gürərik ki, qlobal miqyasda çətin və mahiyyəti tam aydın olmayan geosiyasi proseslər məhz bu zaman kəsiyini əhatə edir. Belə çətin bir vəziyyətdə yeni müstəqillik əldə etmiş Azərbaycanın yaranmış situasiyadan çıxması üçün onun siyasi müdriklik, zəngin təcrübə və strateji təfəkkürə malik bir liderə ehtiyacı var idi. Ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi və bundan sonra Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası sürətli şəkildə inkişaf etməyə başladı.

Bu istiqamətdə atılan ilk addımlardan biri 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. Müstəqillik illərində Azərbaycanın xarici siyasətində qazandığı ən mühüm nailiyyətlərdən biri də 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı olmuşdur. [ Həsənov, 2005, 211-219]

Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmasını sürətləndirən sonrakı hadisələr isə onun təşkilatlara üzv olması və onlarla birlikdə həyata keçirdiyi bir sıra proqramlar olmuşdur. Bu siyasət xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli

münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir 1994-cü ildən başlayaraq NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə onun əlaqələrinin inkişafına mühüm zəmin yaratmışdır. Azərbaycanın 1992-ci 30 yanvarda qəbul olduğu ATƏM ölkəmizin ilk daxil olduğu Avropa təşkilatı olmuşdur və 1997-1998-ci illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Minsk Qrupunun Həmsədrləri tərəfindən bir sıra təkliflər tərtib edilmişdir. Bu hadisə isə birbaşa Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir. [Həsənov, 2005, 172-173]

Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən birini Avropa İttifaqı ilə əməkdaşlıq təşkil edir. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın strateji mövqeyi Aİ-nın üzv dövlətlərinin Azərbaycanla siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək marağını artırır. 2000-ci ildə Azərbaycan Avropa İttifaqında da öz Daimi Nümayəndəliyini açmışdır. Azərbaycan Respublikasının xarici siyasətində Avropa məkanına, Avratlantika strukturlarına inteqrasiya xüsusi yer tutsa da, öz tarixi, mədəniyyəti, dini etiqadı və adət-ənənələri ilə islam aləminin ayrılmaz hissəsi olan ölkənin müsəlman dövlətləri ilə, bu dövlətlərin təmsil olunduğu beynəlxalq təşkilatlarla əlaqələrinə də böyük əhəmiyyət verilir. İslam Konfransı Təşkilatına üzv olan Azərbaycan Ümummilli Lider Heyder Əliyevin hakimiyyəti illərində bu təşkilat ilə bir çox əlaqələr qurmuşdur. 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmışdır.[ Az. Resp. Prez. Kitab. 30-31]

Ədəbiyyat siyahısı:

1. Əli Həsənov. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası

SƏBINƏ ƏLIHEYBƏT QIZI YUSIFOVA
240 №li tam-orta məktəb

# DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSI CƏNUBI QAFQAZIN ƏSAS TƏHLÜKƏSIZLIK PROBLEMI KIMI: BEYNƏLXALQ, REGIONAL VƏ YERLI MARAQLAR VƏ AZƏRBAYCANIN ƏRAZI BÜTÖVLÜYÜ MƏSƏLƏSI

Açar sözlər: Dağlıq Qarabağ münaqişəsi, regional münaqişə, beynəlxalq təşkilatlar

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi SSRİ-nin dağılması və postsovet respublikalarının öz müstəqilliyinə qovuşması dövründə, qonşu Ermənistanın Azərbaycan Respublikasına ərazi iddiaları, bəzi xarici geosiyasi qüvvələrin təsiri və yardımı ilə etnik separatizmin qızışdırılması zəminində meydana çıxmışdı. Cənubi Qafqazın, eyni zamanda, bütün Avrasiya bölgəsinin, Avropa və dünyanın təhlükəsizlik mühitinə çox mənfi və pozucu təsir göstərən regional münaqişələrdən birinə çevrilmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla insanın taleyinə ciddi təsir göstərib. 1988-ci ildə erməni tərəfinin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələndi. Sovet rəhbərliyinin baş verən hadisələrə ermənipərəst mövqeyi, Dağlıq Qarabağın qeyri-qanuni olaraq Ermənistana birləşdirilməsi cəhdinin qarşısını vaxtında almaması, baş verənlərə göz yumması, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə bilərəkdən qəsd yolu tutması respublikada haqlı və kütləvi etirazlara səbəb oldu. Münaqişənin qarşısının vaxtında alınmaması və bəzi beynəlxalq, regional və yerli qüvvələrin ondan öz geosiyasi maraqları çərçivəsində istifadə etmək cəhdləri, sonrakı illərdə ciddi problemə çevrilmiş, qırğın və qətliamlara, bu tipli onlarla yerli və regional münaqişənin başqa ərazilərdə alovlanmasına səbəb olmuşdur. Bu münaqişənin nizama salınması və onun ağır maddi və mənəvi nəticələrinin aradan qaldırılması, demək olar ki, dünyanın bütün aparıcı dövlətlərinin, beynəlxalq və regional təşkilatlarının gündəliyində

hazırda mühüm yer tutur. Lakin Dağlıq Qarabağ münaqişəsi ilk yarandığı vaxtlar problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmədi. Günü-gündən öz təcavüzkar siyasətini genişləndirməsinə baxmayaraq beynəlxalq təşkilatlar hamının gözü qarşısında baş verməkdə olan və beynəlxalq hüquq normalarını kobud şəkildə tapdalayan bu işğalçılıq əməllərinə beynəlxalq birliyin laqeyd münasibəti müşayiət olunurdu, hadisələrə obyektiv qiymət verilmədi. Bunun əsas səbəblərindən biri odur ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki bu problem SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi çıxış edirdi və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi.[Dedeoğlu Beril.2003]

1991-ci ildə yenidən öz müstəqilliyinə qovuşan Azərbaycan Respublikası bu barədə bütün beynəlxalq təşkilatlara, o cümlədən BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Həmin müraciətdə demokratiya, azadlıq və bərabərlik prinsiplərinin respublikanın əsas strateji yolu olduğu göstərilir və ölkənin BMT-yə qəbul olunmaq arzusu ifadə edilirdi. 1992-ci ilin martında BMT-yə üzv qəbul edilən Azərbaycan müraciət edərək Ermənistanın təcavüzkar siyasətinə münasibət bildirməyi və bu ölkənin işğalçılıq əməllərinin qarşısını almağı tələb etdi. Müraciətə əsaslanaraq regiona səfər edən BMT-nin nümayəndə heyəti BMT Baş katibinə müvafiq məlumatlar verdi. Baş katibi isə münaqişənin həllində ATƏM-in (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi -1995-ci ilin yanvarından ATƏT - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) səylərini dəstəklədiyini və bu təşkilata müvafiq nəticələr əldə etmək üçün kömək göstərməyə hazır olduğunu bildirdi.[Əli Həsənov.Bakı,1997] Bu artıq beynəlxalq ictimaiyyətin məsələyə soyuq münasibətinin ilk simptomları idi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən, Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəbləri, xarakteri və mahiyyətinin qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirilmişdir. Şuranın daimi üzvləri bu münaqişəyə Ermənistanın

ərazi iddiaları əsasında başlanmış "Ermənistan - Azərbaycan müharibəsi" kimi deyil, "Azərbaycanın Dağlıq Qarabağla etnik münaqişəsi" kimi yanaşaraq, ona fərqli rəng vermişlər.[Kasım Kamer. Ankara,2004]

Müstəqilliyini qazanan Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi də bu təşkilatın prinsiplərinə uyğun olaraq, üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən görüşündə Dağlıq Qarabağdakı vəziyyət müzakirə edildi və "münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyini artırmaq məqsədi ilə" "ATƏM-in Dağlıq Qarabağa dair xüsusi sülh konfransının çağırılması haqqında" qərar qəbul edildi. Lakin ATƏT Avropada sülhün qorunub saxlanılmasına və dövlətlərarası əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir təşkilat olaraq bu günə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirsə də, heç bir konkret addım atmağa nail olmayıb.

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın tarixi 1993-cü ildən başlanır. 1993-cü ilin aprel ayının 7-də AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatla çıxış etmişdir. Həmin bəyanatda təşkilata üzv ölkələr münaqişənin dərinləşməsindən narahatlıq keçirdiklərini, Kəlbəcər və Füzuli rayonlarında əməliyyatların genişlənməsindən təəssüfləndiklərini ifadə etmişdilər. Lakin bu bəyanatda Ermənistanın respublikamızın ərazilərini işğal etməsi faktına dair heç bir konkret münasibət ifadə olunmur və münaqişənin əsl səbəbləri barədə fikir bildirilmirdi. AB məsələyə daha çox neytral mövqedən yanaşmağa və təcavüzkarın kim olduğunu etiraf etməməyə çalışırdı.[Mahmudov Y.M., Şükürov K.K. I cild. Bakı,2009]

Bununla yanaşı, qlobal və regional məsələlərin həllində Azərbaycan İslam Konfransı Təşkilatı ilə də sıx əməkdaşlığını inkişaf etdirərək, təşkilatın struktur və funksiyalarının daha da genişləndirilməsi, Avropa təşkilatları ilə əməkdaşlıq mexanizmlərinin yaradılması istiqamətində səylər göstərməklə qurumun siyasi rolunun artırılması və beynəlxalq problemlərin həllində təsiri imkanlarının gücləndirilməsi istiqamətində fəal siyasətini davam etdirir. Azərbaycanın İKT ilə apardığı səmərəli və

faydalı əməkdaşlığın bütövlükdə İslam aləmində qazandığı nüfuzun mühüm göstəricisi olmuşdur.

Azərbaycanın beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasət prioritetləri sırasına regional təhlükəsizlik maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən vacib işləri də aid etmək olar. Məsələn, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etməklə yanaşı, Azərbaycan İran, Türkmənistan və Rusiya ilə kəsişən və toqquşan təhlükəsizlik maraqlarının ortaq nöqtəsini tapmaq və əlaqələri daha da yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizin maraqları ilə üst-üstə düşən digər region ölkələri ilə bu sahədə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusu, TRASEKA, Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihələrinin təhlükəsizliyinin təmin olunmasında onlarla birlikdə çalışmaq kimi vəzifələri də həll etməlidir.

Hazırda beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını təsdiqləsələr də, bu halı birmənalı formada pisləməkdən, işğalçı dövləti ittiham etməkdən və beynəlxalq təsir mexanizmlərindən istifadə edərək, onu BMT-nin Qətnamələrinə tabe etdirmək iradəsi nümayiş etdirməkdən çəkinirlər. Ən yaxşı halda, həm BMT, həm ATƏT və Avropa Birliyi, o cümlədən sülhyaratma prosesinə cəlb olunmuş Minsk qrupunun həmsədrləri "iki ölkə arasında kompromis mövqelər axtarmaq" və "onların özlərinin ortaq nöqtələr tapması" yolu ilə gedərək, bu münaqişəni həll etməyə cəhd edirlər ki, bu da faktiki olaraq vəziyyəti neçə illərdir ki, uzatmaqda davam edir.

Ədəbiyyat siyahısı::

1. Dedeoğlu Beril. Uluslararası Guvenlik ve strateji. 2003
2. Həsənov Əli. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı,1997.
3. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində (1991-1997-ci illər). Bakı, 1998
4. Kasım Kamer. Uluslararası güvenlik sorunları. Ankara,2004.
5. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi (dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları). 4 clddə. I cild. Bakı,2009.

SƏDDAM QÜDRƏT OĞLU ALIYEV
Bakı Dövlət Universiteti

# XARICI IQTISADI FƏALIYYƏTIN TƏNZIMLƏNMƏSINDƏ GÖMRÜK XIDMƏTININ ROLU

Açar sözlər: gömrük nəzarəti, tariflər, beynəlxalq iqtisadi münasibətlər, dünya təsərrüfatı,tənzimləmə prinsipləri

Azərbaycan Respublikasında gömrük siyasətinin uğurlu həyata keçirilməsi, gömrük yoxlamalarının aparıldığı ərazilərdə gömrük nəzarəti və tənzimlənməsinin uğurla həyata keçirilməsinə, həmçinin daxili bazarda ticarət-iqtisadi və sosial-siyasi vəzifələrinin həll edilməsinə, Respublika iqtisadiyyatının daha da inkişaf etməsinə xidmət edir.

Ölkə iqtisadiyyatının tədricən ümumi təsərrüfat sisteminə daxil olması onun xarici iqtisadi fəaliyyətində öz təsirini göstərmişdir. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin əsas xüsusiyyəti bu siyasətin həyata keçirilməsi prinsiplərinin yenilənməsidir.

Nümunə üçün qeyd etmək lazımdır ki, Xarici İqtisadi fəaliyyət Subyektləri (XİS) öz işlərini yerinə yetirərkən bir sıra prinsiplərə əsaslanırlar. Bunlar aşağıdakılardır:

Birinci prinsip: Azərbaycan Respublikasının suverenliyi prinsipi, həmçinin xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin vacibliyi prinsipi xarici iqtisadi fəaliyyətin reallaşdırılması zamanı əsas prinsiplərdən hesab edilir.

Burada ardıcıllığın əldə edilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur.

-müstəqil olaraq xarici iqtisadi fəaliyyətin reallaşdırılması və tənzimlənməsi iqtisadi tarazlığın və daxili tarazlığın təmin olunmasına, iqtisadiyyatda mütərəqqi struktur yenilənməsi və dəyişikliklərin aparılmasına, milli iqtisadiyyatın daha əlverişli şərtlərlə və şəraitdə bəynəlxalq əmək bölgüsündə iştirakının təmin edilməsinə xidmət edir;

- Azərbaycan Respublikasının başlıca öhdəliklərindən biri beynəlxalq iqtisadi əlaqələr sferasında bütün müqavilə və öhdəliklərinin yerinə yetirilməsidir;

- Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsinin yaradılması ölkədə gömrük orqanları sisteminin yaradılmasına, həmçinin ölkə ərazisində gömrük nəzarəti və tənzimlənməsinə mərkəzləşdirilmiş, sistemli və kompleks halda həyata keçirilməsinə xidmət edir..

<u>İkinci prinsip:</u> idxal-ixrac əməliyyatları həyata keçirən subyektlərin xarici iqtisadi sahibkarlıq fəaliyyəti sahəsində hüquq və azadlıqlarının təmin olunması:

- Azərbaycan Respublikasının bilavasitə qanunvericiliyində qadağan edilməyən istənilən xarici ticarət əlaqələrinin qurulması, ticarət-iqtisadi əməliyyatlarının reallaşdırılması;
- Könüllülük prinsipi əsasında, mülkiyyət forması və digər xüsusiyyət və əlamətlərindən asılı olamayaraq Ümumdünya Ticarət Təşkilatına daxil olma;
- Xarici iqtisadi fəaliyyət zamanı bütün nəticələri mənimsəmə, onlarla bağlı qərarlar qəbul edilməsi və istifadəsi;
- Xarici ölkələrin qanunlarına uyğun fəaliyyət göstərərək, həmin ölkələrin ərazilərində öz nümayəndəliklərinin açılması;
- Milli, qeyri-hökumət iqtisadi təşkilatlarının işində iştirak etmək.

<u>Üçüncü prinsip</u>: hüquqi bərabərlik və heç bir diskriminasiyaya yol verilməməsi. Üçüncü prinsipin təmin olunması üçün bir sıra şərtlərə əməl olunması tələb olunur:

-Mülkiyyət formasından, eyni zamanda xarici iqtisadi fəaliyyətin hansı ölkədə reallaşdırılmasından asılı olmayaraq bütün xarici iqtisadi fəaliyyət subyektlərinin qanun qarşısında bərabər hüququnun olması;

- Xarici iqtisadi fəaliyyət subyektlərinin hüquqlarını məhdudlaşdıran və diskriminasiyaya yol açan istənilən akt və təşəbbüsün qadağan edilməsi;

-İstənilən xarici iqtisadi fəaliyyət subyektinin fəaliyyətini məhdudlaşdıran heç bir siyasətə yol verilməməsi;

- Qanunun aliliyi. Onun mahiyyətini aşağıdakı kimi təqdim etmək olar:

-Xarici iqtisadi fəaliyyətin ancaq Azərbaycan qanunları ilə tənzimlənməsi;

-Bütün xarici iqtisadi fəaliyyət subyektlərinin Azərbaycan Respublikasının qanunları çərçivəsində "oyunun qaydalarına" əməl etməsi;

- ölkədə xarici iqtisadi fəaliyyət subyektlərinə əlverişiz şərait yaradan yerli orqanların aktlarının tətbiqinin qadağan edilməsi.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyət sahəsində yeni prinsiplərin formalaşması aşağıdakı mütərəqqi amillərin təsiri ilə baş vermişdir:

-1991-ci ildə SSRİ-nin süqutu və keçmiş müttəfiq respublikalarının müstəqillik əldə edərək, gənc dövlət kimi dünya səhnəsinə gəlməsi;

-Şərqi Avropa dövlətlərində dərin və ciddi sosial-iqtisadi dəyişikliklərin baş verməsi;

-Şimali Atlantika hərbi blokunun fəaliyyətinin və onun keçmiş sosialist dövlətləri ilə münasibətlərinin yenilənməsi, ciddi dəyişikliklərin baş verməsi. Ən başlıca yenilik mövcud əlaqələrin yenilənməsi və genişlənərək, sosial-siyasi və iqtisadi qarşıdurmadan qarşılıqlı inam və etibar əsasında, uzunmüddətli perspektivdə inkişafa keçilməsidir..

Ümumiyyətlə, qeyd etmək yerinə düşərdi ki, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin müəyyən xüsusiyyətləri diqqəti cəlb edir. Birinci mühüm xüsusiyyət kimi xüsusi olaraq qeyd etmək lazımdır ki, artıq inkişaf etmiş ölkələrdə təşəkkül tapmış tənzimlənmə sisteminin ölkədə formalaşmasına bir qədər ehtiyatla yanaşılır. Digər tərəfdən son illərdə ticarət-iqtisadi əlaqələrin intensiv inkişafına müsbət təsir göstərən ən mühüm amillərdən biri, həmin ölkələrdə ümumi hüquqi, təşkilati, inzibati, texniki norma və qaydaların olmasıdır. Belə bir vəziyyət birbaşa ticarət fəaliyyətində bir çox əngəllərin aradan qalxmasına səbəb olmuşdur.

Dünya təsərrüfatında intensiv surətdə vahid hüquqi, inzibati, təşkilati-texniki məkan yaradılır. Həmin məkan hüdud və çərçivəsində ayrı-ayrı ölkələrin xarici ticarət əlaqələri inkişaf edir.

Hüquqi, texniki, inzibati uyğunluğa nail olmaq üçün dövlətlərarası, çoxtərəfli müqavilələr bağlanır, həmin müqavilələr sistemi vasitəsi ilə xarici iqtisadi fəaliyyət üçün ümumiləşdirilmiş hüquqi əsas formalaşdırılır.

*İkinci xüsusiyyət* ondan ibarətdir ki, beynəlxalq ticarət iqtisadi cinayətlərə də cəlb olunmuşdur, belə bir vəziyyət isə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi üçün ciddi təhlükə mənbəyidir.

*Üçüncü xüsusiyyət*: xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sistemində mühüm yerlərdən birini idxal-ixrac əməliyyatlarının iştirakçılarına iqtisadi

siyasətin həyata keçirilməsinin çox saylı alətlərindən istifadə etməklə müəyyən təsir göstərilir.

Təcrübədə xarici ticarət fəaliyyətində aşağıdakı alətlər xüsusi olaraq göstərirlər:

- İqtisadi tənzimlənmə, bir sıra gömrük vergiləri və töycüsü, sərhəd vergisi, milli əmətəə istehsalçılarına müəyyən subsidiyaların verilməsi.
- İnzibati tənzimlənmə üsullari: idxal və ixraca qoyulmuş qadağalar, lisenziyalaşdırma, həmçinin idxalın kontingentləşdirilməsi, ixraca qoyulmuş könüllü məhdudiyyətlər:

-texniki alətlər, standartlar, texniki normalar, təsbit olunmuş standartlara, normalara, təhlükəsizlik qaydalarına uyğunluğun yoxlanılması üsulları, əmtəələrin sertifikatlaşdırılması, bir sıra sanitar-baytar və tibbi normalar, insanın həyatı və yaşaması arealının qorunması ilə bağlı normalar;

-milli məhsul istehsalçısı və ixrac edənlərə dəstək tədbirləri;

-valyuta-maliyyə tədbirləri kompleksi: bank faizləri və borc faizləri ilə manevrlər, milli valyutanın kursuna təsirlər.

Beləliklə, gömrük nəzarəti xidmətinin rolu bir çox mühüm məsələlərin həllində olduqca böyükdür. Bunlar xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və təlükəsizliyinə nəzarət, ölkələr arasında xarici ticarət əlaqələrinin fasiləsizliyi və sabitliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Gömrük töycüsü vasitəsi ilə dövlət əmtəələrin idxal-ixrac əməliyyatlarını ya stimullaşdıra ya da məhdudlaşdıra bilər. Bunlar isə, öz növbəsində, ölkədə həyata keçirilən elmi-texniki, iqtisadi, ekoloji, valyuta-maliyyə siyasəti ilə bilvasitə bağlıdır. Göründüyü kimi, gömrük vergisinin iqtisadi təbiəti xarici iqtisadi fəaliyyət subyektlərini ümumilli maraqların təmin olunması istiqamətində yönləndirməyə imkan yaradır.

SƏVVARƏ DÖVLƏT QIZI RZAQULIYEVA
Sumqayıt Dövlət Universiteti

# AVROPANIN ENERJI TƏHLÜKƏSIZLIYINDƏ AZƏRBAYCANIN ROLU

Açar sözlər: Avropa Birliyi, enerji siyasəti, iqtisadiyyat, infrastruktur

Azərbaycan , Gürcüstan və Türkiyə Avropa və Aralıq dənizi regionu ölkələrini Xəzər dənizinin enerjisi ilə təmin edən üç dost ölkələrdir. Bu gün Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum boru xətti, TAP və TANAP layihələri Avropa və digər beynəlxalq bazarlara Azərbaycan və Orta Asiya neft və təbii qazını çatdırır. Bu cür layihələr Azərbaycan, Gürcüstan və Türkiyənin inkişaf və rifahına xidmət edir, bütün bölgənin təhlükəsizliyini gücləndirir.[Sadıqov,2011,96] Azərbaycan enerji üzrə ən geniş əməkdaşlığı Avropa Birliyi ilə qurmuşdur. Avropa Komissiyası enerji təhlükəsizliyi strategiyasını təmin etmək üçün əldə etdiyi sənədlər "Green paper" və "Enerji-2020: rəqabətçi,dayanıqlı və təhlükəsiz enerji" adlanır. Bu sənədlər enerji məhsuldarlığı, enerji qiymətinin dayanıqlılığı, enerji qaynaqlarına yatırımların olunması və ümumilikdə xarici siyasətin inkişaf etdirilməsi məqsədlərini daşıyır. [Hacıyev,2013,12]

Avropanın enerji ehtiyaclarının qarşılanmasına görə Avropanın qaz təminatı 35% Norveç, 34% Rusiya, 13% Əlcəzair, qalanları isə Nigeriya, Tirnidad, Misir kimi ölkələrin hesabına düşür. Avropanın Azərbaycana ehtiyacı artmaqdadır, belə ki, 2014-cü ildə Rusiyadan qaz nəqli nəzərdə tutulan Cənub axını layihəsi dayandırıldı. Buna səbəb Avropa Komissiyasının 3-cü Enerji üzrə şərtlərinə uyğun olmaması və yaxın 10 ildə dəstəklənəcək layihələr sırasına aid olmamasıdır, eləcə də Krım məsələsinə görə AB ilə Rusiya münasibətlərinin pozulması idi. Bu həm də Bolqarıstanın Rusiyadan asılılığı demək idi, layihənin dayandırılması səbəbi ilə ildə ən az 400 milyon avro itirməsi deməkdir. AK Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində baş tutacaq TANAP və TAP –a üstünlük verir. [Nuri,2001,5]

Azərbaycanın Avropaya enerji nəqli uğurunu Gürcüstan və Türkiyə ilə əməkdaşlığı sayəsində əldə etmişdir. Türkiyə ilə Azərbaycan arasında

26 dekabr 2011-ci ildə imzalanan Azərbaycan təbii qazını Avropaya daşıyacaq xəttinin Trans Anadolu Təbii Qaz Boru xətti (TANAP) üçüncü tərəflərin müdaxiləsi olmadan həyata keçiriləcək layihəsidir.[ Rzayeva,2011,10] Regiondakı enerji balansını sabitləşdirmək üçün Türkiyə, Gürcüstan və Azərbaycan Avropa təbii qaz bazarına daxil olmaq üçün əməkdaşlığa başlamışlar. Avropanın enerji ilə təminatında daha bir rol oynayan layihə TAP layihəsidir. Bu layihə nəticəsində Yunanıstan 1 milyard kub metr təbii qaz əldə edəcəkdir. Qeyd edilən rəqəm böyük deyil, lakin Yunanıstan üçün olduqca kifayət rəqəmdir. Yunanıstanın baş naziri Antonis Samarasın da dediyi kimi Yunansıtanla yanaşı Xorvatiya və İtaliya kimi ölkələrə də aiddir: "TAP layihəsi Balkan ölkələrini, Mərkəzi və Şərqi Avropa ölkələrini təbii qazla təmin edəcəkdir". Azərbaycanın təbii qazının Avropaya nəql edildiyi 2019-cu ildə Avropa enerjisi tarixinin yeni dövrünü başlamış olacaqdır. AB ölkələri Azərbaycan kimi güvənli bir yeni enerji təminatçısı vasitəsilə yeni enerji mənbəyi əldə etmiş olacaqlar [Vaiciuniene,2015,12] .

Ədəbiyyat siyashısı:

1. G.Rzayeva, Amanda Paul, "Azerbaijan the key to EU security" Bakı, 2011
2. V.Sadıqov. Azərbaycan və Avropa Azerbaijan focus. Say 2(2) Bakı,yanvar-mart 2010
3. R.Vaiciuniene. Azerbaijan to open new stage in European Security.2015
4. Ş.Hacıyev. EU energy security challenges. SAM comments vol.12 Bakı,dekabr,2013
5. O.Nuri. Azərbaycanın Hazar ekonomisi və stratejisi, İstanbul,2001

SOLMAZ MUXTAR QIZI GÖZƏLOVA
Azərbaycan Dövlət İqtisad Universiteti

MÜASIR BEYNƏLXALQ TƏHLÜKƏSIZLIK

Açar sözlər: Təhlükəsizlik, qlobal, iqtisadiyyat

"Beynəlxalq təhlükəsizlik" anlayışı təqribən 100 il əvvəl beynəlxalq münasibətlər lüğətinə daxil edilmişdir. Beynəlxalq münasibətlər üzrə müasir ədəbiyyatlarda "beynəlxalq təhlükəsizlik" anlayışının yekun tərifi hələ də verilməyib. Çox vaxt "beynəlxalq təhlükəsizlik" ənənəvi olaraq, proseslərin hərbi-siyasi ölçüsü kimi başa düşülür və onun genişlənməkdə olan qeyri-hərbi, "mülki" komponentinə (ekoloji, iqtisadi və bir sıra digər təhlükələrə qarşı mübarizə) əhəmiyyət verilmir. Digər hallarda isə demək olar ki, beynəlxalq münasibətlərin bütün problemlərini təhlükəsizlik baxımından nəzərdən keçirmək meyli müşahidə olunur.

Müasir beynəlxalq təhlükəsizliyin durumu "soyuq müharibə" dövründən sonrakı "təhlükəsizlik" kimi xarakterizə edilir. Postsoyuq müharibə dövründə beynəlxalq təhlükəsizlik şəraiti və ona istiqamətlənən çağırış və təhdidlər aşağıdakı faktlarla əlaqələndirilir [ADU, 2017].

1990-cı illərin başlanğıcı beynəlxalq gərginliyin zəifləməsinə və münaqişələrin tezliklə həll ediləcəyinə olan kövrək ümidləri doğrultmadı. Yalta-Postdam nizamının süqutu beynəlxalq arenada qüvvələr nisbətini ciddi şəkildə dəyişdi. O, dünyada bir sıra maneələri dağıtdı və qloballaşma prosesini sürətləndirdi. Eyni zamanda, beynəlxalq sistemdə yeni qütbləşmə və desentralizasiya baş verdi [Барановский, Богатуров,2010,170]. Dövlətlərin nisbi iyerarxiyasında əhəmiyyətli dəyişikliklər özünü büruzə verdi. Siyasi, iqtisadi və hərbi sahədə öz üstünlüyünü dərk edən inkişaf etmiş və güclü dövlətlər qrupu daha fəal və hücum siyasətinə keçdi. Həmin dövlətlərə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri (Böyük Britaniya, Çin, Rusiya, ABŞ və Fransa), həmçinin BMT TŞ genişlənəcəyi təqdirdə üzvlüyə mümkün namizədlər (Braziliya, Almaniya, Hindistan, CAR, Yaponiya) aid edilir.

Müasir dünya nizamında ABŞ yeganə fövqəldövlət kimi qalmaqda davam edir. Hətta bəzi politoloqlar müasir beynəlxalq münasibətlərin

geostrukturunu ABŞ-ın liderliyi altında birqütblü (monopolyar, mondialist) dünya nizamı kimi qələmə verir. Lakin məlum 11 sentyabr hadisələri bir daha isbat etmiş oldu ki, müasir qloballaşan dünyada hətta ABŞ kimi fövqəldövlət təkbaşına hərəkət etmək iqtidarında deyil. 2003-cü ilin martında İraqa qarşı ABŞ-ın başçılığı altında təşkil edilmiş koalisiya belə düşünməyə əsas verir. Bununla belə, nəhəng iqtisadiyyata malik olan ABŞ hərbi texnologiya sahəsində aparıcı yer tutur, ölkənin hərbi potensialı artmaqda davam edir.

Dünyanın birqütblü modelinə qarşı çıxan Rusiya və Çin onun daha çox çoxqütblü (multipolyar) olduğunu bəyan edir və Avropa Birliyini, Hindistanı, Yaponiyanı, Almaniyanı, Braziliyanı, CAR-ı alternativ geostrateji mərkəzlər qismində qeyd edirlər.

2014-cü ilin fevralında Rusiyanın Krımı ilhaq etməsi onunla ABŞ və Avropa İttifaqı üzvləri arasında "soyuq müharibə"nin restavrasiyasına səbəb olub. Digər tərəfdən, Çinin artmaqda olan iqtisadiyyatı və hərbi modernizasiya üzrə proqramları onu dünya siyasətində güclü və rəqabət qabiliyyətli qütbə çevirib.

Qeyri-dövlət aktorların beynəlxalq təhlükəsizlik sferasında daha ciddi və dağıdıcı nəticələr doğurması beynəlxalq ictimaiyyəti bərk narahat etməkdədir. Heç şübhəsiz, bu gün əksər silahlı münaqişələrdə qarşı duran tərəflərdən biri qeyri-dövlət aktoru – terrorçular, silahlı ekstremistlər, separatçı və ya digər antihökumət silahlı birləşmələr, dəniz quldurları, narkotik alverçiləri və s. hesab edilir.

Qlobal demokratiyanın əsas nəticələrindən biri insan hüquq və azadlıqlarının çəkisinin artması və onun suveren dövlətin daxili səlahiyyətləri çərçivəsindən kənara çıxması məsələləri arasında artmaqda olan konsensus hesab edilir. Müasir dünyada münasibətlər sisteminin açıqlığı və qloballaşma prosesləri sayəsində insan hüquqlarının kütləvi şəkildə pozulması və hakimiyyətin digər qanunsuz əməlləri dünya ictimaiyyətinin nəzərindən yayına bilməz və məhz bu səbəbdən beynəlxalq müdaxiləyə həqiqi ehtiyac yaranır [Торкунов, 2012]. Münaqişələrin sayının artması və beynəlxalq terrorizm təhdidinin durmadan artması dünyanın böyük dövlətlərini hansısa dövlətin hökumətinin razılığı belə olmadan zorakılığın qarşısını almağa vadar edir.

Müasir dünyada xarici siyasətin aləti qismində humanitar müdaxilələrin əhəmiyyətinin yüksəlməsi bu mövzunun aktuallığını getdikcə artırır.

Ədəbiyyat siyahısı:

1. Beynəlxalq təhlükəsizlik. Azərbaycan Dillər Universiteti (Beynəlxalq münasibətlər kafedrası). 2017.
2. Современные глобальные проблемы / Отв. ред. В.Г.Барановский, А.Д. Богатуров. М.: Аспект Пресс, 2010, 350 с.
3. Современные международные отношения: Учебник / Под ред. А.В. Торкунова, А.В. Мальгина. – М.: Аспект Пресс, 2012. – 688 с.
4. Концепция «трех волн» демократизации С. Хантингтона. 22 октября 2017. www.zavtrasessiya.com Конспекты Политология.

SOLMAZ RƏHMAN QIZI YAQUBZADƏ
SƏMAYƏ OQTAY QIZI BABAYEVA

Azərbaycan Dövlət Aqrar Universiteti

# QLOBAL EKOLOJI PROBLEMLƏR VƏ ONLARIN HƏLLI ISTIQAMƏTLƏRI

Açar sözlər: qlobal , ekoloji problem, tullantısız texnologiya, su ehtiyatları, deqradasiya

Qlobal ekoloji problemlərin yaranması – yeni insan həyatına 20-ci əsrdə daxil olmuş problemdir.İnsan daima ətraf mühitlə əks münasibətdə olmaqla qazır,sökür,yandırır və planetin sərvətlərini məhv edir,suyun və havanın strukturunu dəyişir,torpaqların məhsuldarlığını azaldaraq kasıblaşdırır və bu idarə olunmayan prosesi bəşəriyyətin inkişafı adlandırır.Elmi texniki inqilabın təsiri biosferin iri miqyaslı dəyişdirilməsinə gətirib çıxarır,dərin izlər buraxaraq ekoloji təzahürlərin yaranmasına səbəb olur.Elə bütün bunlara görə də ekoloji problemlər müasir dünyanın ən vacib qlobal problemlərinə çevrilərək siyasi əhəmiyyət kəsb edir.Ekoloji problemlər – müxtəlif ekoloji amillər nəticəsində təbiətin strukturunun və funksiyasının dəyişməsi nəticəsində yaranan problemdir.Bəşər inkişaf etdikcə oksigen ehtiyyatı azalmağa və karbon qazı çoxalmağa doğru getmişdir.Bu proses 20-ci əsrdə daha da çox güclənmişdir.Milyonlarla avtomobillərdən çıxan tüstülər,qazanxanalar, zavodların tüstüsü,kondisionerlər və s.texnika dünyamızı addım-addım məhvə doğru aparır.Ekoloji halın dözülməz hala gəlməsi, ozon qatının məhvi və oksigen qazının çox-çox azalması zəncirvari olaraq digər fəsadların yaranmasına səbəb olur və olacaq.İri şəhərlərdə sənaye və məişət tullantılarının uzun illər yığılıb istifadəsiz qalması öz növbəsində gərgin ekoloji vəziyyətin yaranmasına səbəb olmuşdur. Ən dəhşətli ekoloji faciələrdən biri 1986-cı ilin aprel ayında Ukrayna ərazisində baş vermişdir. Çernobıl faciəsi Ukrayna ərazisinə və xalqına böyük zərbə vurmuşdu. Həmçinin, Belorusiya ərazisinin on səkkiz faizi radioaktiv maddələrlə çirklənmişdir. Kənd təsərrüfatına, meşələrə və insanların sağ-

lamlığına böyük ziyan dəymişdir. Atom stansiyasında baş verən partlayış ukraynalılara, beloruslara və digər millətlərə faciəvi surətdə zərbə vurmuşdur.

Ekoloji problem cəmiyyət və təbiətin qarşılıqlı münasibətlərindən,ekoloji tarazlığın pozulmasından,çirklənmədən,antropogen yüklərin artmasından yaranan problemdir.Yer kürəsində meşə örtüyünün azalması təhlükəli həddə çatmışdır.Planetimizin "ağ cüyərləri" olan meşələr sürətlə qırılaraq otlaq-biçənək və əkin sahələrinə,yol tikinti obyektinə çevrilir.Meşə materialından selliloz kağız mebel istehsalında istifadə edilir.Hər il amazonda ,Cənubi –Şərqi Asiyada, Ekvatorial Afrikada 13-15,5 milyon ha meşə sahəsi qırılır.

Atmosfer yer kürəsində həyatın mövcud olmasında əsas şərtlərdən biridir.Atmosferdə baş verən çirklənmənin ən başlıca problemlərindən biri də havada karbon qazının artmasıdır. Atmosferdə təbii və antropogen yolla çirklənmə baş verir. Ancaq ən çox antropogen təsir daha güclüdür. Atmosferin mühafizəsi üçün:

- Müasir texnoloji prosesləri gücləndirmək;
- Tullantısız texnologiyanı tətbiq etmək;
- Qoruyucu qurğular qurmaq;
- Qeyri-ənənəvi enerji mənbələrindən istifadə etmək;
- Meşələrin qırılmasının qarşısını almaq və yeni meşə zolaqları salmaq;
- Nüvə silahının sınağını azaltmaq;

Hər bir ölkə üçün müəyyən aktual ekoloji problemlər olduğu kimi Azərbaycan Respublikasının əsas ekoloji problemləri vardır:

- Su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsi, o cümlədən transsərhəd çirklənməyə məruz qalması;
- Yaşayış məntəqələrinin keyfiyyətli su ilə təminatının aşağı səviyyədə olması, şirin suların tələbatçılara çatdırılana qədər itkisinə yol verilməsi, kanalizasiya xətlərinin azlığı;
- Sənaye müəssisələri və nəqliyyat vasitələri tərəfindən atmosfer havasının çirklənməsi;
- Münbit torpaqların deqradasiyaya uğraması (eroziya, şoranlaşma və s.);

- Bərk sənaye və məişət tullantılarının, o cümlədən təhlükəli tullantıların tələb olunan səviyyədə idarə olunmaması;

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması problemlərinin həllinə böyük diqqət yetirilir.Bu baxımdan, ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ-hüquqi sənədlər, dövlət proqramları hazırlanmış və təsdiq edilmişdir. Respublika üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasında həll edilməsi məqsədilə müvafiq dövlət proqramları çərçivəsində tədbirlər görülür.[Hüseynov, Mehdiyeva,2012,75-189]

Sahələrin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə artan mənfi təsiri və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir.Əksər ölkələrdə olduğu kimi Azərbaycanda da ətraf mühitin mühafizəsi və sərvətlərdən səmərəli istifadə olunması problemlərinin həllinə böyük diqqət yetirilir. Bu baxımdan, ekoloji siyasətin əsasını təşkil edən ətraf mühitin sağlamlaşdırılması sahəsində nəticə əldə etmək məqsədilə respublikamızda Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ-hüquqi sənədlər, dövlət proqramları hazırlanmış və təsdiq edilmişdir. Respublika üçün aktual olan ekoloji problemlərin dayanıqlı inkişaf prinsipləri əsasında həll edilməsi məqsədilə müvafiq dövlət proqramları çərçivəsində tədbirlər görülür.

Demoqrafik problem ən böyük ekoloji problemdir. Bilirik ki, əhali cəmiyyətin başlıca məhsuldar qüvvəsidir. Tarixi baxımdan dünya əhalisinin sayı çox dinamik olmuşdur. Bir qayda olaraq planetimizdə, onun ayrı-ayrı regionlarında və ölkələrində də demoqrafik vəziyyət bu dinamiklikdən asılı olmuşdur. Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit qalmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Bu hadisə daha çox aramsız müharibələr, epidemiyalar, insanların həyat səviyyəsinin aşağı olması ilə əlaqədardır. 1900-cü ildə dünya əhalisi 1.6 mlrd., 1960-cı ildə 3 mlrd., 2000-cı ildə 6 mlrd. olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmağa davam etsə 2040-cı ildə dünyada 10 mlrd. insan yaşayacaq. Dünyada ən sürətli təbii artım 1950-1970-ci illərində müşahidə olunmuşdur. Bu zaman təbii artım 1.8 %-in üstündə olmuşdur. Ən

çox təbii artım 1963-cü ildə olmuşdur. Bu zaman dünyanın təbii artımı 2.2% təşkil edib.[ Xəlilov,Zeynalova,2013,34-35]

Ekoloji təhlükəsizlik sisteminin hazırlanması yönümündə müəyyən müsbət addımlar atılmışdır. BMT-nin üzvü olan 159 dövlət ətraf mühitin qorunmasına dair agentlik yaratmışlar. Bu agentliklər tərəfindən ətraf mühitin qorunmasına dair çoxlu sayda konfranslar keçirilmişdir. Bu konfranslarda həmçinin, ekoloji vəziyyəti ağır olan ərazilər - Aral dənizi, Cənubi Ural, Kuzbass, Donbass, Semipalatinsk və Çernobılla bağlı problemlər müzakirə olunur. Baykal gölündə ətraf mühitin tədqiqatına dair beynəlxalq mərkəz yaradılmışdır. «Qrinpis» beynəlxalq təşkilatı ətraf mühitin qorunması üçün bir çox işlər görməkdədir.

Ədəbiyyat siyahısı:

1. Hüseynov T.B. , Mehdiyeva V.Z. EKOLOGİYA Dərs vəsaiti, B A K I – 2012, səh.389.

2. Xəlilov T.A.,Zeynalova M.Ə. Qlobal ekoloji problemləri (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, "MBM", 2013, 212səh.

SÜDABƏ NOVRUZƏLI QIZI HÜSEYNOVA
AMEA, Qafqazşünaslıq İnstitutu

# HEYDƏR ƏLIYEV VƏ SIYASI LIDER ŞƏXSIYYƏTININ FORMALAŞMASI

Açar sözlər: Heydər Əliyev, şəxsiyyət, siyasi lider, ümummilli lider, psixoloji portret

Siyasi və psixoloji ədəbiyyatda siyasi lider haqqında fikirlər olduqca müxtəlifdir. Bu müxtəliflik siyasi liderlərin unikallığı, bir-birlərini təkrarlamaması və fərdi-psixoloji xüsusiyyətlərinin özünəməxsusluğu ilə əlaqədardır.

Tarixdə şəxsiyyətin rolundan danışarkən iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, şərait və onun tələbini, ikincisi, şəxsiyyəti və onun şəxsi keyfiyyətlərini. Liderin şəxsi keyfiyyətləri həm bütövlükdə, həm də yaranmış siyasi şərait kontekstində vətəndaşlar tərəfindən qavranılan siyasi lider üçün çeviklik ən mühüm keyfiyyətlərdir. [Əliyev, 2004, 5].

Ümummilli lider Heydər Əliyev öz psixoloji keyfiyyətləri və siyasi təfəkkürü ilə siyasi liderlər arasında müstəsna yer tutur. İlk növbədə ona görə ki, onun psixoloji keyfiyyətlərini onun siyasi fəaliyyəti tamamlayır, fəaliyyətinin nəticələri ümumbəşəri əhəmiyyət kəsb edir. Heydər Əliyevin bütün siyasi fəaliyyəti, psixoloji keyfiyyətləri zəmanəmizi ifadə edən, onun daşıyıcısına çevrilən əzəmətli abidədir. Özü də bu digərlərinə bənzəməyən qeyri-adi, fenomenal abidədir. Heydər Əliyev Azərbaycana rəhbərliyinin istər birinci dövründə, istərsə də müstəqillik dövründə zamanın və şəraitin diktə etdiyi çərçivələrdən müdrik uzaqgörənliklə çıxaraq öz dövrünü qabaqlamış və həlli mümkün olmayan problemləri də reallaşdıra bilmişdir.

Ümummilli lider Heydər Əliyevin müasir dövrümüzün ən görkəmli dövlət xadimlərindən, liderlərindən birinə çevrilməsi yalnız onun xarakterinə xas olan şəxsi keyfiyyətləri, özünüdərketməsi, özünü adekvat qiymətləndirməsi, intellektual bacarığı, şəxsi fikirlərində çevikliyi ilə deyil, həm də özünün şəxsi intellektual bacarıqlarından, aldığı tərbiyə və təlimdən lazım gələndə istifadə etmək qabiliyyətini özündə əks etdirən bacarığa malik olması ilə bağlı idi.

Heydər Əliyevin siyasi taleyinin tədqiqi göstərir ki, müasir siyasi lider hər şeydən əvvəl, təşkilatçılıq qabiliyyəti ilə üzvi surətdə birləşən təbii intuisiyanın qeyri-adiliyidir. Komandanı formalaşdırmaq, onu möhkəmlətmək, məqsədləri müəyyən etmək, cəmiyyəti birləşdirən proqramı yaratmaq bacarığı – siyasətçi qarşısında qoyulan müasir tələblər bunlardır. Onda formalaşan işgüzarlıq, əməksevərlik, enerjililik kimi məziyyətlər hər kəsə nəsib olan xüsusiyyətlər deyildir. [Mamayeva, 2008, 3].

Ulu öndər nəinki natiq-diplomat, həm də tükü-tükdən seçən psixoloq-siyasətçi kimi tanınmışdır. Xalqın, ölkənin hər bir vətəndaşının eşitdiyi sözün məhz ona müraciətlə deyildiyi kimi başa düşməsi səviyyəsində danışmaq hər kəsin hünəri deyil. Onda hər kəsin ağrı-acısını seçmək qabiliyyəti olmaqla yanaşı, həm də şəxsiyyətin əhvalında ən kiçik dəyişmə hallarını, insanların daxili dünyasını duymaq bacarığı vardır. Bu ulu öndərin fenomenol şəxsiyyət olduğunun bariz göstəricilərindən biridir.

Heydər Əliyev elə bir tarixi şəraitdə rəhbərliyə gəlmişdir ki, daxili problemlərlə yanaşı, xarici təzyiqlər, Respublikanın stateji mövqeyi, neft amili, Qarabağ müharibəsinin daha da şiddətlənməsi, ərazilərin işğalının günü-gündən artması və s. məsələlər siyasi liderdən uzaqgörənlik, perspektiv hesablanmış siyasət, çevik qərar qəbuletmə qabiliyyəti və s. tələb edirdi. Təcübəli dövlət xadiminin idarəçilik məharəti nəticəsində dövlətimiz onu təhdid edən fəlakətlərdən, məhv olmaq təhlükəsindən, etnik parçalanmadan xilas edildi. Sabit sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna qədəm qoydu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində uzunmüddətli atəşkəs əldə olundu. Problemin sülh yolu ilə həlli üçün ardıcıl fəaliyyət göstərilməyə başlandı.

Akademik Ramiz Mehdiyev haqlı olaraq yazır: "Gələcək nəsillər üçün güclü və müstəqil Azərbaycan yaratmaq onun həyat amalıdır. Bugünki Azərbaycan Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. [Mehdiyev, 2003, 136-137].

Azərbaycan alimi S.S. Xəlilovun ümummilli lider Heydər Əliyevin dövlətçilik ənənəsi, quruculuğu haqqında yazır: "Ümumiyyətlə, Heydər Əliyevin dövlətçilik nəzəriyyəsi və praktikasında gətirdiyi ən böyük yeniliklərdən biri sosial-siyasi sistemləri öz daxili enerjisi hesabına dəyişdirmək

bacarığıdır. Bu zaman ən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakurslarda yanaşmaq qabiliyyətidir. Heydər Əliyev dövlətçilik problemini də etik-milli və milli-siyasi aspektləri arasında optimal nisbəti nəzərə almaqla ümumi ahəngi pozmadan, təkamül yolu ilə inkişaf üçün zəmin hazırlayır". [Xəlilov, 2001, 52].

Ümummilli liderin dövlət quruculuğunda rolunu hərtərəfli tədqiq edən Azərbaycan psixoloqu B.H.Əliyev yazır: "Qısa bir müddət əzində ilk dəfə olaraq Şərqlə Avropanın qovuşacağında demokratik dünyəvi dövlət quruculuğuna başlandı. Təssüf ki, milli dəyərlərə demokratik prinsiplərə söykənən yeni bəşəri dövlətin qurulmasına o dövrdəki daxili və xarici qüvvələr imkan vermədi. Bunun səbəbləri bu gün tarixçilər, politoloqlar və digər mütəxəssislər tərəfindən araşdırılır. Yəqin ki, burada çox səbəblər ola bilər. Lakin onlardan biri, bəlkə də ən birincisi, sosial-psixoloji baxımdan həqiqi ümummilli liderin, siyasi iradəyə malik liderin olmaması idi. Çünki, həlledici tarixi məqamlarda məhz şəxsiyyət tarixin inkişaf istiqamətlərini müəyyən edir. Tarixlə şəxsiyyətin dialektik vəhdəti özünü həlledici məqamlarda büruzə verir". [Əliyev, 2003, 7].

Siyasi liderin psixoloji portretini yaratmağa cəhd edərkən, onun intellektual keyfiyyətləri, o cümlədən işgüzarlığı və iş qabiliyyəti xüsusi təhlil olunmalıdır. Ümummilli lider Heydər Əliyevin fenomenal iş qabiliyyətinə malik olması heç kimdə şübhə doğurmur. Saatlarla ayaqüstə auditoriya qarşısında nitq söyləməsi, onların hər bir problemindən geniş şəkildə danışması, onun fenomenal iş qabiliyyətinə malik olduğunu görsədir. Ulu öndərin möhkəmliyi, prinsipiallığı hər kəsdə ona qarşı simpatiya hissi yaradırdı.

Əsl rəhbərə və liderə xas olan cəhətlər – idarəetmə qabiliyyəti, uzaqgörənlik, düzgün və yerində qərar qəbul etmə bacarığı, təşkilatçılıq onun şəxsiyyətində cəmlənmişdir. Onda formalaşan işgüzarlıq, əməksevərlik, enerjililik kimi məziyyətlər hər kəsə nəsib olan xüsusiyyətlər deyildir.

Respublikada rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin doğma Azərbaycan mühitinə, milli zəminə, milli köklərə bağlı olması onu bir şəxsiyyət, dövlət xadimi və lider kimi səciyyələndirən keyfiyyətlər sırasında xüsusi yer tuturdu. Azərbaycan dilinin inkişafı, milli mədəniyyətin, əxlaq normalarının, dinimizin, mənənəviyyatımızın yüksəlməsi, gənclərin

milli ruhda tərbiyə edilməsi bu böyük şəxsiyyətin liderlik qayəsini təşkil edən ümdə cəhətlərdəndir. [Mirzəyeva, 2017, 142].

Heydər Əliyev şəxsiyyəti hamıya ən yaxşı nümunə, ən yaxşı örnəkdir. Ümummilli lider öz həyatı, şəxsiyyəti ilə böyük bir məktəb yaratdı. Bu məktəbdə vətənpərvərlik, milli şərəf və ləyaqət, milli-mənəvi dəyərlər, əqidə və amal, rəhbərlik və idarəetmə vardır.

Ulu öndərin psixoloji keyfiyyətləri, şəxsiyyət xüsusiyyətləri, idarəçilik qabiliyyəti ilə çulğalaşaraq, inteqrasiya edərək onu fenomenal şəxsiyyətə, dahi şəxsiyyətə, dahi siyasətçiyə, ulu öndərə çevirmişdir.

Ulu öndərin psixoloji keyfiyyətləri, şəxsiyyət xüsusiyyətləri, idarəçilik qabiliyyəti ilə çulğalaşaraq, inteqrasiya edərək onu fenomenal şəxsiyyətə, dahi şəxsiyyətə, dahi siyasətçiyə, ulu öndərə çevirmişdir.

Ədəbiyyat siyahısı:

1. Əliyev B.H. Siyasi psixologiyada ümummilli lider problemi // Psixologiya jurnalı, 2004,
№1, s. 3-11
2. Əliyev B.H. Milli lider dövlətçiliyin və demokratik inkişafın təzahürü kimi // Psixologiya jurnalı, 2003, №2, s.3-20
3. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 358 s.
4. Mamayeva N.Ə. Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri. Psixol. elm. nam... dis. avtoref. Bakı, 2008, 18 s.

ŞAHNAZ HEYDƏR QIZI TAĞIYEVA
AMEA Qafqazşünaslıq İnstitutu

# AZƏRBAYCAN-DAĞISTAN IQTISADI MÜNASIBƏTLƏRI

Açar sözlər: Azərbaycan, Dağıstan, iqtisadi münasibətlər, region, ixrac

Tarix boyu və elə günümüzdə də Rusiyanın regionları sırasında Azərbaycanın əsas ticarət tərəfdaşı Dağıstan Respublikasıdır. Əsasən Dağıstanın cənub hissəsi Azərbaycan mallarının alınıb-satılması ilə məşğul olmuşdur.

Dağıstan hissəsində Rusiya və Azərbaycan arasında sərhədin uzunluğu 300 kmdir. Təkcə 2010-cu il ərzində bu sərhədi hər iki tərəfə 2 milyondan çox adam keçib (ən yüksək axın isə Rusiya tərəfə idi, bu amil isə sərhəd boyunca yerləşən kəndlərə çoxlu sayda gəlir gətirir). Gün ərzində sərhəddən keçən ağır yük daşıyan maşınların sayı isə 300-ə qədərdir. Lakin əlavə meyvə yığımı mövsümləri zamanı bu göstərici daha çox olur.

Qeyd edək ki, Azərbaycan ilə əmtəə dövriyyəsinə görə, Rusiya regionları arasında Dağıstan birinci yeri tutur. 2010-cu ildə bu dövriyyənin həcmi 202 mln. dollar olmuşdur. Bu isə Azərbaycan və Rusiya arasında əmtəə dövriyyəsinin 10%-ni təşkil edir (ümumiyyətlə, bu əmtəə dövriyyəsi artıq 2 mlrd. dolları ötüb və 3 mlrd.-a çata bilər).

Dağıstandan Azərbaycan, İran, Türkiyə və başqa ölkələrə mineral məhsullar gətirilmir, burada əsas meyl istehsal məhsullarınadır. Belə ki, 2010-cu il ərzində Dağıstan Azərbaycana maşınqayırma istehsalının növləri olan motorlu nəqliyyat maşınları, traktorlar və paltaryuyan maşınlar ixrac edib. Bundan əlavə, Azərbaycana ağac emalı məhsulları da gətirilib.

Əgər kimya sənayəsinə baxsaq, görərik ki, bu sahə üzrə məhsulları Dağıstan iki ölkəyə ixrac edib: Azərbaycan və Monqolustan (burada kauçuk, rezin, əczaçılıq məhsulları və s. var). Dağıstanın ən iri sənayə məhsulları, yəni toxum istehsalı məhsulları da Azərbaycana ixrac edilib. Dağıstandan yun və ayaqqabı idxal edən ən böyük alıcı isə Azərbaycandır.

Azərbaycanın ixrac quruluşu Dağıstan ixracından 9 dəfə çoxdur. Qeyd edək ki, Azərbaycan ixracatı sərhədyanı yaşayan əhalinin orta yaşam sə-

viyyəsini təmin etməyə kömək edir. Belə ki, Azərbaycan və Dağıstan sərhədində ucuz qiymətə alınan məhsul, Dağıstanın ərazisinə çatdırılır və sərhədin yaxınlığında yerləşən bazarlarda satılır.

Azərbaycanın Rusiyaya ixracatını neftdən başqa ərzaq məhsulları, tərəvəz və meyvələr təşkil edir. Azərbaycanın şimalında isə Azərbaycanın bütün bölgələrindən meyvə və tərəvəzləri Rusiyaya və böyük bazarlara satmaq üçün gətirirlər.

Dağıstana Azərbaycan ixracatının əsasını ərzaq malları ilə yanaşı çay fabriklərinin, yağ zavodlarının, süd zavodlarının və s. məhsulları təşkil edir. Ümumiyyətlə, Dağıstan idxalının 77%-i məhz ərzaq məhsullarından ibarətdir.

Son illər ərzində Dağıstan Azərbaycanın əsas idxalçısı olmuşdur və bu sahəyə görə Azərbaycanın ən mühüm tərəfdaşı hesab oluna bilər (Azərbaycanın payına Dağıstanın ümumi idxalının 41,3%-i düşür). [Vəliyev, 2012, 2] Həmçinin Rusiyanın cənub regionu və Azərbaycanın şimalı arasında əmtəə dövriyyəsi ildən-ilə artır və bu amil cənubi Dağıstanın əhalisinin həyat şəraitinin yaxşılaşmasına gətirib çıxarır.

Qeyd edək ki, Dağıstan Azərbaycanla iqtisadi əlaqələri intensivləşdirmək niyyətindədir. Respublikalar arasında sərnişin daşımalarının yaradılması ilə bağlı layihələr, turizmin inkişafı, birgə balıqçılıq müəssisələri, gömrük prosedurlarının sadələşdirilməsi, mədəni, sosial və siyasi əməkdaşlıq və s.istiqamətdə müzakirələr aparılır. Belə bir müzakirə 2019-cu il 18 yanvarda keçirilmişdir.

Belə ki, hər iki ölkə müxtəlif sahələrdə qarşılıqlı faydalı layihələrin həyata keçirilməsinə böyük əhəmiyyət verir. Bu addımlar onlar arasında əməkdaşlığı daha da inkişaf etdirmək və gücləndirmək məqsədi daşıyır . [Гаджиев, 2019, 1]

Ədəbiyyat siyahısı:

1. Гаджиев К. АиФ-Дагестан, Аргументы и факты, Дагестан намерен активизировать экономические связи с Азербайджаном, Махачкала. 18.01.2019// http://www.dag.aif.ru/politic/dagestan_nameren_aktivizirovat_ekonomicheskie_svyazi_s_azerbaydzhanom
2. Vəliyev T. Cəmiyyət e-jurnalı, Azərbaycan-Dağıstan iqtisadi əlaqələri, 29.04.2012// http://cemiyyet.org/azərbaycan-dagistan-iqtisadi-əlaqələri/

ŞƏFƏQ HÜSEYN QIZI ABDULLAYEVA
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCANIN BEYNƏLXALQ SOSIAL-IQTISADI VƏ MƏDƏNI-HUMANITAR ƏLAQƏLƏRI

Açar sözlər: beynəlxalq münasibət, sosial-iqtisadi əlaqə, xarici siyasət, coğrafi mövqe, iqtisadi potensial

XX əsrin sonlarında dünyada baş verən qlobal hadisələr, xüsusən sovet imperiyasının dağılması, NATO-ya qarşı təşkil olunmuş Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi və bununla da "soyuq müharibə"nin başa çatması beynəlxalq miqyasda siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin formalaşmasına səbəb oldu. Sovet imperiyasından ayrılaraq yaranan yeni müstəqil dövlətlərin dünya dövlətləri siyahısına daxil olması və həmin dövlətlərin öz maraqlarına rəğmən xarici siyasət kursu həyata keçirməsi dünyada olan dövlətlər arasında münasibətlərin yeni formasının meydana gəlməsinə gətirib çıxardı.

Məhz belə bir vaxtda sovet imperiyasının tərkibindən çıxaraq öz müstəqilliyini bəyan etmiş Azərbaycan üçün ən ümdə məsələ belə bir geosiyasi məkanda öz maraqları çərçivəsində milli dövlətçilik prinsiplərinə müvafiq xarici siyasət kursunu formalaşdırmaq və bu siyasəti həyata keçirmək idi. Azərbaycanın mühüm geosiyasi məkanda yerləşməsi və iqtisadi potensialı imkan verdi ki, qısa müddət ərzində dünyanın bir çox dövlətləri tərəfindən rəsmi tanınsın. Bunun nəticəsində Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi.

Çox mürəkkəb bir şəraitdə elan edilmiş müstəqilliyi möhkəmləndirmək və dövlətçilik mənafelərini qorumaq çox vacib amil idi və Azərbaycan bu məqsədinə nail olmaq üçün əlverişli geosiyasi mövqeyindən və iqtisadi potensialından məharətlə istifadə etdi.

Dünya ölkələri tərəfindən müstəqilliyinin rəsmi tanınması Azərbaycanın dünya birliyi sisteminə inteqrasiyasına geniş yol açaraq inkişaf etmiş ölkələrlə diplomatik münasibətlərin yaranmasına imkan yaratdı. İnkişaf etmiş ölkələrlə ikitərəfli siyasi əlaqələrin yaradılması həm iqtisadi, həm də mədəni əlaqələrin inkişaf etdirilməsi üçün əlverişli zəmin yaradırdı. Azər-

baycanın iqtisadi potensialı imkan verirdi ki, inkişaf etmiş ölkələrlə qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq etsin. Bu isə öz növbəsində həmin ölkələrlə qarşılıqlı etimadın güclənməsi, siyasi münasibətlərin dərinləşməsi yolunda mühüm əhəmiyyət kəsb edirdi [Abbasov, 2005].

Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində yerləşməklə xeyli resurslara malik olması, eləcə də tranzit ölkə kimi ümumi coğrafi mövqeyi və şəraiti, nəhayət iqtisadi potensialı dünya dövlətləri üçün böyük marağa səbəb olurdu.

Bildiyimiz kimi, digər ölkələrlə iqtisadi diplomatik fəaliyyətin tənzimlənməsi üçün vacib amillərdən biri ölkənin malik olduğu təbii ehtiyatlar üzərində dövlət suverenliyinin təmin olunması və bu təbii ehtiyatlardan düzgün istifadə edilməklə iqtisadi əməkdaşlığın genişləndidirilməsidir [Məhərrəmov, 2013, 92-93]. Ona görə də beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində iqtisadi əməkdaşlıq prinsipinin müəyyənləşdirilməsi və qoyuluşu ciddi olan məsələdir. Bu baxımdan, Xəzər dənizinin Azərbaycana aid olan hissəsində neft yataqlarının istismar olunmasına dair 1994-cü il sentyabrında dünyanın yüksək inkişaf etmiş ölkələri də daxil olmaqla imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə, eyni zamanda beynəlxalq səviyyədə mövqelərinin möhkəmlənməsinə səbəb oldu. "Əsrin müqaviləsi", həmçinin sonrakı illərdə müxtəlif ölkələrlə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiya olunmasını sürətləndirir, qarşılıqlı maraqlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi isə həmin ölkələrlə sıx münasibətlərin yaranmasına səbəb olurdu. Məhz bu əməkdaşlığın nəticəsində "Əsrin müqaviləsi"ndən keçən qısa müddət sonra, 1998-ci il sentyabrında 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə beynəlxalq Bakı konfransı keçirildi. Bu konfransın nəticələri Azərbaycanın müstəqilliyi dövründə xarici siyasətində qazandığı ən mühüm nailiyyətlərindən biri oldu.

Dünya ölkələri ilə iqtisadi əlaqələri və aparılan xarici siyasət kursu sayəsində dünya birliyinə inteqrasiyası sürətlənmiş Azərbaycanın xarici əlaqələrinin, qarşılıqlı iqtisadi əməkdaşlığının yeni istiqamətlərinin yaranmasına perspektiv imkanları yaranırdı. Çünki qloballaşmanın əsas mahiyyəti dünya ölkələri ilə bütün mümkün olan sosial, iqtisadi, mədəni, siyasi sfera-

da əməkdaşlıq üçün ortaq nöqtələrin tapılması və bu əməkdaşlığın genişləndirilməsidir [İqtisadi nəzəriyyə, 2001].

Bu prinsipi əsas götürərək 1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi uğurlu və ardıcıl xarici siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa nüfuzlu təşkilatlarla sıx əlaqələr yaratmışdır. Hazırda, Azərbaycan yürütdüyü müstəqil xarici siyasət nəticəsində bu qurumların dünya səviyyəsində həyata keçirdiyi fəaliyyətlər çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi istiqamətində fəal xarici siyasətini davam etdirir. Çox mühüm coğrafi-strateji məkanda yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradaraq dünya ölkələri arasında etibarlı əməkdaş kimi tanınmışdır. Məhz bu etibarlı əməkdaşlıq Azərbaycan Respublikasının 1994-cü ildən başlayaraq NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəaliyyətinə qoşulmaqla dünyanın inkişaf etmiş ölkələri ilə əlaqələrinin inkişafına, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə səbəb olmuşdur.

Göründüyü kimi, iqtisadi əlaqələrin genişləndirilməsi və daha da inkişaf etdirilməsinin zəruri şərti ölkənin iqtisadi imkanlarının dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyası və sosial-iqtisadi inkişafının təmin edilməsidir.

Dünya ölkələri, həmçinin nüfuzlu beynəlxalq təşkilatlarla sosial-iqtisadi və mədəni-humanitar əlaqələr ölkə üçün çox vacib və əhəmiyyətlidir. Çünki qloballaşan dünyada dövlətlər arasında əlaqələr o dərəcədə inkişaf edib ki, istənilən fəaliyyətin beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilməsi günün reallığına çevrilməklə xüsusi əhəmiyyət kəsb edir. Bu bağlılıqda mədəni-humanitar sahədə əməkdaşlıq ayrıca əhəmiyyət daşıyır [Əhmədov,2005].

Bu faktı nəzərə alaraq Azərbaycan Respublikası nüfuzlu beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlıq edir. Xüsusən, BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə Təşkilatı olan UNESCO ilə əməkdaşlığa Azərbaycan xüsusi önəm verir. Belə ki, Azərbaycanın xarici siyasətində UNESCO ilə əməkdaşlıq rəsmi olaraq prioritet istiqamətlərdən biri kimi qəbul olunub. Ölkənin bu qurumla aktiv əlaqələri 1993-cü ilin ikinci yarısında Ulu öndər

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra 1993-cü il dekabrın 19-21-də Parisə səfəri zamanı UNESCO-nun baş direktoru Federiko Mayorla görüşü xüsusi rol oynayıb.

UNESCO BMT-nin ixtisaslaşmış təşkilatıdır. O, təşkilata üzv olan ölkələrə bir sıra fəaliyyət istiqamətləri üzrə yardımlardan bəhrələnmək imkanı verir. Həmçinin, bu təşkilat təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsində, maddi-mədəni irsin qorunmasında əhəmiyyətli rol oynayır. Lakin UNESCO fəal üzvlərlə əməkdaşlıqdan daha çox faydalana bilir. Yəni başlıca şərt bu təşkilata üzv dövlətlərin təşkilatın işində fəal iştirakı və xoşməramlı mövqe tutması ilə bağlıdır. Bu aspektdə heç də bütün üzvlər eyni qiymətləndirilmir. Azərbaycan isə bu istiqamətdə də digər üzv ölkələrdən müsbət mənada fərqlənir.

Dünya ölkələri ilə bütün sahələrdə əlaqələri genişləndirən Azərbaycan hazırda dünyanın 100-ə yaxın ölkəsi ilə qarşılıqlı sosial-iqtisadi və mədəni-humanitar əlaqələr qurub. Qeyd olunanlar Azərbaycanın xarici fəaliyyət sahəsində keyfiyyət dəyişikliklərinin əyani sübutu, eyni zamanda, Azərbaycan dövlətinin beynəlxalq iqtisadi inteqrasiya əlaqələrinə qoşulmasının nümunəsidir.

Ədəbiyyat siyahısı:

1. Abbasov Ç. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Elm, 2005, 252 s.

2. Əhmədov N.H. Azərbaycanda xarici iqtisadi əlaqələrinin inkişafı və istehlak bazarının formalaşması. Bakı. 2005

3. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Çaşıoğlu, 2001, 691 s. səh.598

4. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Bakı, Adventa MMC, 2013, 386 s

ŞƏFƏQ FƏRMAN QIZI MUSTAFAYEVA
Azərbaycan Dillər Universiteti

# AVROPADA ISLAMAFOBIYA

Açar sözlər: İslamafobiya, Avropa, multikulturalizm

Avropada İslamafobiyadan bəhs etmədən öncə, İslamafobiya nədir? və necə təqdim olunur? Sualına cavab vermək düzgün olardı. Vaşinqtonun Corctaun Universitetinin Beynəlxalq əlaqələr və İslam Tədqiqatları fakültəsinin professoru John Esposito bu anlayışı bu cür ifadə edir : " İslamafobiya müsəlmanların din azadlığını, mülki azadlıqlarını və insan haqlarını pozan və ayrı-seçkiliyə və nifrət cinayətlərinə yol açan, və ya bunların baş verməsini təşviq edən söz və fəaliyyətlərdir" [ 1 ].

Avropada İslamafobiyanın intensivləşməsində xüsusilə 11 sentyabr 2001-ci il hadisələrinin rolu mühüm olmuşdur. Bu hadisə ilə Amerikada başlayan antiislam kampaniyası qısa müddətdə Avropaya da yayılmış və bütünlükdə Qərb dünyasına nüfuz edərək əhəmiyyətli dərəcədə artmışdır. Ardınca Əfqanıstanın, iki il sonra İraqın hərbi əməliyyatlar meydanına çevrilməsi, NATO-nun "terrorla mübarizə" adı altında İslam coğrafiyasına fokuslanması, ABŞ və Avropada siyasilərin və medyanın "müsəlman=terrorist" düşüncəsini formalaşdırmaq cəhdləri bütün Avropada antiislam fəaliyyətlərin yolunu açmışdır. Tədqiqatçılar müsəlmanlara yönəlmiş ayrıseçkiliyin əsas iki səbəbini qeyd edirlər. Birincisi, artmaqda olan "qorxu", ikincisi isə "manipulyasiya edilmiş rəylər" dir. Bunları birləşdirib insanların zehnlərinə yeridən başlıca vasitə isə "medya"dır. Avropadakı islamafobik düşüncələri daha detallı nəzərdən keçirmək üçün "İslamic Human Rights" tərəfindən İngiltərədə yaşayan müsəlmanlara qoyulan ayrı-seçkilik ilə bağlı sorğu keçirilmişdir. Sorğunun nəticələrinə görə iştirakçıların 74 %-i islam haqqında düşmən rəftara, 63%-i irqçi davranışa, 53,6%-i birbaşa sözlə istismara məruz qalmışdır, 41,9 %-i etnik və dini kimliyindən ötrü ələ salındığını bildirmişdir. Eyni hesabatda İngiltərədə müsəlmanları irqçilik və ayrı-seçkilik anlamında ən çox narahat edən məsələlərə "medyada İslamla bağlı mənfi fikirlər, özlərinə tuşlanan yad baxışlar və müsəlmanlara mənfi təsir edən siyasətlərin şahidi olmaq" göstərilmişdir. 2013-cü ildə İs-

lam Əməkdaşlıq Təşkilatı ilə Nazirlik-medya və informasiya müdürlüyü tərəfindən İstanbulda təşkil olunan "İslamafobiya haqqında beynəlxalq konfrans: Hüquq və Medya" adlı toplantıda islamafobiya, çoxmədəniyyətlilik, medyanın rolu və məsuliyyəti, insan haqları kimi bir sıra mühüm məsələlərə toxunulmuşdur. Konfransda çıxış edən John Esposito İslamafobiyanın 1990-cı illərdən bəri Avropada intensivləşdiyini vurğulamış, burada müsəlmanların nüfuz təhdidi olaraq görüldüyünü qeyd etmişdir [ 2, s. 118].

Günümüzün demokratiya, insan hüquq və azadlıqlarının müdafiəsi prinsipləri Qərbin artıq bir dəfə təcrübədən çıxardığı rekonkista siyasətinə yenidən imkan vermir. Avropanın Rekonkista siyasətini islamafobiyamı əvəzləyir sualı ortaya çıxır. Avropanın bir sıra ölkələrində islamafobiya elementləri özünü islam memarlığına qarşı qadağa, islami həyat tərzinə ikrah dolu münasibət, xüsusilə də təhqirlərlə dolu karikatura qalmaqalı, Qərb cəmiyyətində islama qarşı digər mənfi münasibət əks olunan hadisələr ilə özünü göstərir. Lakin islam dəyərlərinə qarşı bu cür münasibət qlobal və universal dəyərlərin müdafiəçisi kimi çıxış etməyə iddia edən Qərb üçün heç nə yaxşı vəd etmir.

Ümumiyyətlə, hücum və təzyiqlərə, müəyyən dairələrin bunu istəyib-istəməməyindən asılı olmayaraq islam dəyərləri artıq Qərbin bir hissədir. Buna tolerant yanaşma olmasa, islam faktoru Qərb dəyərlər sistemində öz layiqli yerini tutmasa, bu da ilk növbədə Avropanın gələcəyi üçün problemə çevriləcək.

Ədəbiyyat siyahısı:

1. Obama da İslamafobiyi güçlendirdi
http://www.yenisafak.com.tr/roportaj/obama-da-islamofobiyi-guclendirdi-
568827
2. Turkan H. İncreasing discrimination in Europe: Hatred, İslamophobia and Racism, İstanbul

ŞƏHLA RAFIQ QIZI MƏMMƏDLI
AMEA, A.A.Bakıxanov adına Tarix institutu

# MÜASIR MƏRHƏLƏDƏ TƏHLÜKƏSIZLIK VƏ TƏRKSILAH MƏSƏLƏLƏRI VƏ AZƏRBAYCAN RESPUBLIKASI

Açar sözlər: beynəlxalq təhlükəsizlik, tərksilah, ATƏT, Azərbaycan və BMT

Müxtəlif tarixi şəraitdə ölkələrin sabit inkişafının mühüm amillərindən biri təhlükəsizliyin təmin edilərək qorunmasıdır. Təhlükəsizlik sahəsində dövlətlərin siyasi fəaliyyətinin müəyyən edilməsi cəhdləri uzun illər ərzində özünü göstərmiş və dövlətlərin bu məsələyə münasibəti beynəlxalq siyasətin tarixi inkişaf mərhələlərinin xüsusiyyətləri ilə əks olunmuşdur. Beynəlxalq təhlükəsizlik hazırda dövlətlərin xarici siyasətində aparıcı yer tutaraq bir çox elmlərin, xüsusilə sosial-ictimai elmlərin tədqiqat obyekti olaraq qalır. XX əsrin II yarısında ABŞ, İngilərə, Fransa kimi dövlətlərdə siyasi proseslərin demokratikləşməsi təhlükəsizlik məsələsinin qavranılması probleminə də nufuz etmiş oldu [Бобров Р. Л.1964, 152-54.]. Beynəlxalq siyasətin indiki vəziyyəti təsdiq edir ki, təhlükəsizlik beynəlxalq münasibətlər sistemi iştirakçılarının (xüsusilə millətlərin, dövlətlərin) əsas məqsədi olaraq özündə iki dəyəri :müstəqillik və suverenliyi əks etdirir.

20-ci illərin siyasi təcrübəsində təhlükəsizliklə sıx bağlı olan tərksilah məsələsinə münasibətdə bir neçə əsas yanaşma özünü göstərirdi. Birinci yanaşma mövcud silahların ixtisar edilməsini nəzərdə tuturdu. İkinci yanaşmaya əsasən silah toplanması və hərbi istehsal üzərində razılaşdırılmış nəzarətin yaradılması əsas hesab olunurdu. Üçüncü isə diqqəti tərksilah və dövlətlərin milli təhlükəsizliyinə siyasi zəmanət arasında qarşılıqlı əlaqənin təmin olunmasına yönəldirdi. Dördüncü kompleks yanaşma olaraq, ümumdünya-təhlükəsizlik-tərksilah qarşılıqlı əlaqəsindən ibarət idi. 20-ci illrədə tərksilahla bağlı tədbirlər mühüm nəticələr verməsə də, onları az təsirli hesab etmək də doğru olmazdı. Həyata keçirilən cəhdlər sayəsində tərksilah məsələləri siyasətçilərin və diplomatların vəzifələri dairəsinə daxil edilmişdir ki, onlar da tədricən zəruri ekspert və danışıq təcrübəsi

toplamağa başlamışdı [Богданов O.B., 1964, 65-66]. Qeyd edək ki, silahların məhdudlaşdırılması barədə bəzi özəl danışıqlar həqiqətən tətbiqi əhəmiyyət kəsb edirdi, belə ki, bu danışıqlar beynəlxalq münasibətlərin hərbiləşdirilməsi prosesini ləngidirdi. Tərksilah məsələsi "pasifizm erası" nın ən çox yayılmış şüarlarından biri idi. Dövlətlərin tərksilah yolu ilə müharibələrə son vermələri Millətlər liqasının nizamnamə qaydalarında (milli silahların məhdudlaşdırılması və hərbi sənaye üzərində nəzarət), bu şüar altında çağrılan beynəlxalq konfransların qərarlarında əksini tapırdı. Nəticə etibarı ilə tərksilah irimiqyaslı məsələ olaraq dövlətlərarası uzunmüddətli danışıqlar mövzusuna çevrildi və beynəlxalq sülh tərəfdarları hərəkatının məqsədlərini müəyyən etdi.

BMT-nin nizamnaməsi ümumi qaydaları da tərksilah siyasətinin əsas vəzifələrini müəyyən edir. BMT-nin Ali Asambleyasının 1978, və 1988-ci illərdə çağrılan xüsusi sessiyaları məhz tərksilah məsələlərinə həsr olunmuşdu. Tərksilah məsələləri ilə məşğul olan BMT-nin əsas orqanları TŞ SNP (silahların nizamlanması sisteminin və mümkün tərksilah sisteminin yaradılması); tərksilah üzrə BMT Komissiyası (nüvə və adi silahlanma sahəsində ümumi prinsiplərin işlənib –hazırlanması və etibarın möhkəmləndirilməsi tədbirləri ilə məşğul olur); Tərksilah üzrə BMT Konfransları (kütləvi məhvetmə və bəzi adi silah növlərinin ləğv edilməsi və məhdudlaşdırılması üzrə beynəlxalq müqavilə layihələrini işləyib -hazırlayır); BMT-nin tərksilah üzrə Ümumdünya konfransına aid Xüsusi komitəsidir. Dünya birliyi çərçivəsində tərksilah proqramları hazırlanmışdır ki, bura da tam tərksilah və qismən tərksilah daxildir.

XX əsrin 90-cı illərdən başlayaraq beynəlxalq vəziyyətdə baş verən köklü dəyişikliklər Azərbaycanın təhlükəsizliyinə də təsirini göstərmiş oldu. Bu hadisələr Azərbaycan Respublikasının milli təhlükəsizliyik konsepsiyasının bünövrəsinin qoyulmasına təkan verdi. Təhlükəsizlik sahəsində təsirli siyasətin aparılması milli və beynəlxalq təhlükəsizlik subyektinə çevrilən Azərbaycan üçün son dərəcə əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanın milli təhlükəsizliyində əsas problem Dağlıq Qarabağ məsləsinin həll edilərək Ermənistanla münaqişə vəziyyətindən çıxılması, işğal altında olan torpaqlarımızın geri qaytarılması, bütün ölkə ərazisində suverenliyin bərpa edilərək, sərhədlərinin toxunulmazlığının təmin edilməsidir.

Cənubi-Qafqaz regionunda yaranan situasiya ilə əlaqəli BMT-nin narahatlığı Şimali Atlantika Şurası tərəfindən 1994-cü ilin yanvar ayında qəbul olunan deklarasiyada öz əksini tapmışdır. Deklarasiyada ərazilərin zəbt edilməsi məqsədi ilə qüvvə tətbiq edilməsi qınanılır , ərazi bütövlüyünə, müstəqillik və suverenliyə hörmət Cənubi Qafqaz ölkələrinin sülh, əməkdaşlıq, sabitlik şəraitində yaşamaları üçün əsas şərtlər olaraq irəli sürülür [ Гасанов А. , 2014,321].

1999-cu ilin sentyabr ayında Azərbaycan Respublikasının sülhsevər qrupu Türkiyə nümayəndələri tərkibində Kosovoda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etdilər. 2000-ci ilin 20-21 iyulunda NATO çərçivəsində "Qafqazda energetika təhlükəsizliyi" adı altında konfransda region üzrə təhlükəsizlik, həmçinin ətraf mühit məsələləri müzakirə olundu.

2001-ci ilin 21-22 iyununda Bakıda Avro Atlantik Tərəfdaşlıq Şurasının kiçik və atıcı silahlar üzrə xüsusi işçi qrupunun iştirakı ilə Azərbaycan və İsveçrə hökumətlərinin "Yüngül və atıcı silahlar: ATƏT və AATŞ cari öhdəliklərinin həyata keçirilməsi yolunda təcrübi tədbirlər" birgə seminarı keçirilir. ATƏT üzv-dövlətlərinin çoxsaylı nümayəndələrinin iştirakı ilə baş tutan bu tədbir, BMT-nin siyahısına daxil edilmişdir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində əsas vəzifələrdən biri təhlükəsizliyimizə qarşı yaranan təhlükənin aradan qaldırılması, ya da ən azından nəzarət altında saxlanılmasıdır. Azərbaycan əməkdaşlıq etdiyi dövlətlərlə birlikdə regional və beynəlxalq problemlərin həlli istiqamətində fəaliyyətini davam etdirir. Bu istiqamətlər sırasında əsas yerdə regional təhlükəsizlik, terrorizm ilə mübarizə, kütləvi məhv silahlarının yayılmaması və energetika təhlükəsizliyinin təmin edilməsi dayanır. Azərbaycan Respublikası regionda sülh və sabitliyə nail olunması yolunda gərəkli addımlar atılmasının vacibliyini qeyd edir.

Ədəbiyyat siyahısı:

1. Гасанов А. Политика национального развития и безопасности Азербайджанской Республики, Баку, 2014
2. Гасанов Али. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, «Şərq-Qərb», 2007.

3. Бобров Р. Л., Малинин С.А., Богданов О.В. Всеобщее и полное разоружение (Международно-правовые вопросы), изд. «Международные отношения», М., 1964, 360 с.

4. Богданов О.В. Всеобщее и полное разоружение. М. : Международные отношения, 1964.

5. Краткое изложение решений, консультативных заключений и постановлений Международного Суда 1948–1991. Организация Объединенных Наций, 1993.

6. Советское государство и право. 1964. № 8. с. 152–154.

7. BMT AA qətnamələri 14 dekabr 1978, A/33/PV.84. Nüvə silahının tətbiq edilməməsi və nüvə müharibəsinin qarşısının alınması

8. BMT AA qətnaməsi 7 dekabr 1988, A/43/ PV.73 Tərksilah və beynəlxalq təhlükəsizlik haqqında

9. BMT AA qətnamələri Tərksilah və beynəlxalq təhlükəsizlik haqqında 9 dekabr 1982, A/37/PV.98. Tərksilah həftəsi,tərksilah məqsədi ilə beynəlxalq əməkdaşlıq.

ШАХЛА КЯМИЛЬ КЫЗЫ РАГИМОВА
Институт Истории А.А.Бакиханова НАНА

# УКРАИНА-НАТО: ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА

Ключевые слова: Украина , НАТО, европейская интеграция, внешняя политика

В 1991 г. Украина стала независимым государством. После обретения государственной независимости Украина получила очень благоприятные перспективы и реальные возможности присоединиться к интеграционным процессам. Перед Украиной открылись новые возможности формирования и осуществления своей внешней политики. Достаточно сложной проблемой была выработка собственной стратегии на международной арене, определение национальных интересов, разработка геополитических приоритетов.

Украина еще в первой половине 1990-х гг. провозгласила курс на европейскую интеграцию. В этом контексте, помимо улучшения отношений с международными и региональными организациями и становления полноправным членом большинства этих организаций, Украина придает большое значение отношениям с НАТО.

Диалог между Украиной и НАТО был очень интенсивным с первых дней. Политический диалог основан на регулярных контактах должностных лиц Украины и НАТО, участии на встречах на высшем уровне. Во взаимоотношениях между НАТО и Украиной следует, в первую очередь, обратить внимание на ожидания обеих сторон и условия, которые заставляют Украину устанавливать отношения с НАТО.

С точки зрения безопасности и скорейшего вхождения Украины в общеевропейский интеграционный процесс в контексте развития и усиления общеевропейской системы безопасности за период 90-х гг., важной задачей была подготовка Украины к присоединению Европейскому Сообществу и НАТО.

Развитие отношений между Украиной и НАТО началось с участия Украины в январе 1992 г. в работе Совета

Североатлантического сотрудничества и впоследствии перешел в плоскость прямых контактов. В феврале 1992 г. состоялся визит Генерального секретаря НАТО М. Вернера в Киев, а 8 июля этого же года штаб-квартиру Североатлантического альянса в Брюсселе посетил президент Украины Л. Кравчук.

Украина – одна из государств, которая строит свои отношения с НАТО на основе расширенных и углубленных отношений. Это нашло отражение в таких документах, как Хартия об особом партнёрстве между Украиной и НАТО (1997 г.), Стратегическая Концепция НАТО (1999 г.), Плане Действий Украина-НАТО (2002 г.).

В Совете НАТО, проведенном 10-11-го января 1994 г. в Брюсселе, была одобрена программа Партнерство во имя мира. Украина стала первым государством среди бывших советских республик, которая в феврале 1994 г. присоединилась к программе сотрудничества с НАТО "Партнерство ради мира", и с этого же года ее военнослужащие начали участвовать в учениях и других мероприятиях, предусмотренных программой [http://www.nato.int/cps/en/natolive/of-ficial_texts].

Основополагающим событием в деле развития двусторонних отношений между Украиной и НАТО стало подписание в Мадриде 9 июля 1997 Хартии об особом партнерстве между Украиной и НАТО. Хартия была подписана с целью развития отношений «особого и эффективного» партнерства, которое, как отмечается в Хартии, «будет способствовать большей стабильности и продвижению общих демократических ценностей в Центрально-Восточной Европе» [Хартия об особом партнерстве между Украиной и Организацией Североатлантического, 1997].

Украина – страна-партнер, которая принимает участие во всех основных миротворческих миссиях под руководством НАТО. Украинские миротворцы выполняют миротворческие задания в Косово, Афганистане и Ираке [Александров,2011,9]. Украина направила воинские контингенты для участия в миссиях под руководством НАТО в Афганистане и Косово. Украина участвовала в сухопутных учениях "Cossack Express 2001" и "Peace Shield-2001", а также морских учений "Sea Breeze-2001" у черноморского побережья.

Принятие 23 мая 2002 г. решения по курсу страны на евроинтеграцию и достижения Пражского саммита стали своеобразным поворотным периодом в истории Украины. В частности начался интенсивный диалог про вопрос, которые касаются членства в НАТО.

Главной задачей Украины должно быть проведение внутренних реформ с целью модернизации страны и достижения европейского уровня жизни. Внутренняя ситуация в Украине обязывает страну определиться со своей внешней политикой, так как от этого зависит благосостояние народа и это отвечает стандартам, которые присущи всем членам Альянса [Вступ до НАТО – стратегічний вибір України,2008,59].

Подытоживая, должны сказать, что руководство Украины все предыдущие годы осуществляло поиск основных векторов внешней политики от намерений членства в НАТО провозглашения внеблокового нейтрального статуса, от одновекторной ориентации на Запад к признанию стратегическим партнером Российской Федерации при сохранении курса на евроинтеграцию.

## Список литературы:

1. http://www.nato.int/cps/en/natolive/official_texts_24470.htm?selec-tedLocale=en
2. Хартия об особом партнерстве между Украиной и Организацией Североатлантического Договора. - Брюссель, 1997. http://www.nato.int/cps/en/natolive/official_texts_25457.htm?selectedLoca-le=en
3. Александров О. С. Україна – НАТО: нові умови та реалії співробітництва: аналіт. доп. / О. С. Алек-сандров; упорядн. В. М. Бегма, Н. Г. Діденко, О. О. Резнікова; за заг. ред. О. В. Литвиненка. – К. : НІСД, 2011. – 56 с.
4. Вступ до НАТО – стратегічний вибір України / За загальною ред. О. І. Соскіна. –
5. К.: Вид-во «Інститут трансформації суспільства», 2008. – 192 с.

ŞƏRQIYYƏ MEHDI QIZI İMAMƏLI
AMEA-nın Qafqazşünaslıq İnstitutu

## ERMƏNI KILSƏSININ ANTI-ISLAM VƏ ANTI-TÜRK FƏALIYYƏTINƏ DAIR

Açar sözlər: Qriqorian kilsəsi, erməni, xristian, tarix, din

Bildiyimiz kimi Erməni kilsəsinin erməni xalqı üzərindəki təsiri tarixdən günümüzə qədər davam etmişdir. Buna görə də, erməni xalqının xristian şəxsiyyətinin formalaşması, bu sahədə fəaliyyət göstərməsi və ölkədəki mövcud problemlərə görə başqa ölkələrə səpələnmiş ermənilərin ölkə ilə əlaqələrini kəsməmək üçün onları tək mərkəzdə toplamaq məhz kilsənin hesabına həyata keçirilmişdir. Məlumdur ki, erməni millətçiliyi din üzərində qurulmuşdur. Hal-hazırda kilsə ermənilərin mövcudluq simvoluna çevrilmişdir. Tarixən ermənilərin etnik kimlik axtarışında olmaları indiyə qədər də davam etməkdədir. Qriqoryan kilsəsinin təməl prinsiplərinə görə ermənilərin etnik kimlikləri onların dini (xristian) identikliyindən ayrılmazdır. Müasir dövrdə ermənilər etnik mövcudluqlarını saxlamaq üçün əsasən "qondarma erməni soyqrımı", "böyük Ermənistan" və "böyük Ermənistanın" işğal altında qalması kimi siyasi ideyalardan istifadə edirlər.

Erməni millətinin öz mövcudluğunu dərk etmələrində Qriqoryan erməni kilsəsinin rolu böyük olmuşdur. Buna görə də ermənilər özlərini kilsədən ayrı görməmiş və hakimiyyətləri altında yaşadıqları xristian millətlər tərəfindən assimilyasiya olunmaqdan qurtulmuşlar. Ümumiyyətlə, kilsə ermənilər üçün siyasi və ictimai müzakirələrin mərkəzi olmuş, erməni partiyalarını və terror təşkilatlarını tarixin hər bir mərhələsində dəstəkləməşdir. [Qurbanov,2017].

Ermənilər hər fürsətdə öz dinlərinin və kilsənin tarixini özlərinə sərf edən formada təqdim etmişlər. Müasir dövrdə mövcud olan hər bir xristian qrup və kilsə özlərini İsaya və onun həvarilərinə aid etməyə çalışırlar. Bunun əsas səbəbi özlərinə qədimlik qazandırmaqdır. Erməni mənbələrində kilsənin tarixi 301-ci ilə təsadüf edir və Ermənistanın dünyada ilk xristian ölkəsi olması qeyd olunur. [Qurbanov, 2017].

Tarix boyu ermənilər və erməni Qriqorian kilsəsi müasir Ermənistan ərazisində yaşayan digər xalqları zorla erməniləşdirməyə çalışmışlar. Ukraynalı türkoloq A.Qarkavets qeyd etmişdir ki, orta əsrlərdə müasir Ermənistan ərazisində ermənilərlə birlikdə yaşayan qıpçaqların qriqorianlaşdırıldığını və daha sonra erməniləşdirildiyini qeyd edir. Ermənistanın Şirak bölgəsində Artiksk rayonuna bağlı Ariç kəndinin əvvəllər Qıpçaq adlanması və burada XII əsrə aid Xpçaxavank ("Qıpçaq monastırı") adını daşıyan və hələ də mövcud olan monastır orta əsrlərdə qıpçaqların indiki Ermənistan ərazisində yaşadığını göstərir. [2].

Türkiyə-Ermənistan, Ermənistan-Azərbaycan arasında olan bütün münaqişələrə nəzər salsaq görərik ki, bütün münaqişələr, Türkiyə və Azərbaycan türklərinə qarşı düşmənçilik, Qarabağda aparılan qırğınlar, 1905-1907-ci illərdə soydaşlarımıza qarşı həyata keçirilən vəhşiliklərin başında erməni kilsəsi dayanmışdır. [Məmmədov].

XIX əsrin sonlarında türklər və azərbaycanlılar arasında böyük qırğınlar törətmiş Daşnaksütunun partiyasının yaratdığı gizli silahlı erməni komitələrinin yaranmasına xeyir-dua verənlərdən birincisi məhz erməni Qriqoryan kilsəsi olubdur. Eyni zamanda, XX əsrin 50-60-cı illərində olduqca fəallıq göstərən ASALA, erməni terrorçu təşkilatının ərsəyə gəlməsində və fəaliyyətində erməni Qriqoryan kilsəsinin köməkedici rolu danılmazdır. Bütün bunlar isə, onu göstərir ki, erməni kilsəsi dünyanın hər yerində ermənilərə münasibətdə bir növ dövlətçilik missiyasını da öz üzərinə götürür.

Ermənilər daim beşikdən məzaradək türklərə qarşı nifrət hissi aşılanaraq tərbiyələnmişlər. Bu da ilk öncə ailədən, kilsədən və dövlətin apardığı siyasətdən qaynaqlanır.

Azərbaycan Respublikasının Qarabağ regionunda və bütün Cənubi Qafqazdakı xalqların maddi-mədəni və qeyri-maddi mədəni irslərini bir qayda olaraq qriqorian kilsəsi mənimsəməyə və ermənininki kimi təqdim etməyə səy göstərirlər. Eyni zamanda müasir dövrdə Azərbaycan dövləti alban-xristian mirasına ermənilərin istinad edərək yaymağa çalışdıqları "ilk xristian dövləti Ermənistandır" iddiasına qarşı vacib addımlar atmağa başlamışdır.

Bu gün də ermənilərin qanunsuz strukturlarının intiqam prinsipinin həyata keçirilməsində "kilsə-partiya-diaspor" erməni triadası fəal iştirak

edir. Ermənistan-Türkiyə, Ermənistan-Azərbaycan arasında baş verən mübahisəli məsələlərin əsasında demək olar ki, erməni kilsəsi dayanmışdır. Digər tərəfdən xarici ölkələrdə fəaliyyət göstərən erməni diasporunun əsas istinad mərkəzi məhz kilsədir.

Ədəbiyyat siyahısı:

1. Qurbanov Araz, Müsəlman ermənilər : regionda geosiyasi oyunların yeni iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. - Bakı : Avropa, 2017. - 404 s
2. http://www.elibrary.az/docs/jurnal/jrn2017_766.pdf
3. http://haypedia.com/makale/Osmanl%C4%B1%20Tarihi/6c5a7371-7243-4778-84bf-42658c04ec43.pdf
4. Məmmədov Şamxal, Erməni kilsəsi və onun Rusiyanın Cənubi Qafqaz siyasətindəki yeri

ТАИР АСКЕР ОГЛУ РАДЖАБЛИ
Полицейская Академия МВД Азербайджанской Республики

# ПРОБЛЕМАТИКА СОВРЕМЕННЫХ РЕАЛИЙ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

Ключевые слова: международные отношения, кризис международного права, универсальные организации, международная безопасность

За последние 70 лет спецификация международных отношений обуславливается и реконструируется двумя мировыми войнами, экономически-технологическим развитием науки и общества, а также объективным подходом к разрешению межгосударственных споров. Разрабатывание и реализация международно-правовых норм обеспечивает «формальную» стабильность между субъектами международого права и не даёт им погрузиться в пучину беззакония и хаоса. Несомненно то, что вся эта т.н. «система сдерживаний» является детищем ООН и других смежных с ним гуманитарных, военных и экономических организаций. Их работа в сфере создания международно-правовых норм (защита и обеспечение) позволяет человечеству преодоливать многочисленные прблемы, которые в прошлом являлись катализаторами дистабилизации международных отношений и нередко приводило к плачевнм результатам (война и т.д.). Устав ООН, Европейская Конвенция 1950-ого , Всемирная Декларация 1949-ого,Пакты ООН 1966-ого и Заключительный Акт в Хельсинки от 1975-ого года должны были стать своеобразным «орудием» в руках свободолюбивых, демократических и правовых стран по профилактике, прдотвращению и прогнозированию межгосударственных споров и войн, так как их действие наносит непоправимый урон самой идеи « мирного сосуществования» и «взаимного уважения национальных интересов» стран мира.

Не секрет, что универсальные и региональные организации начиная с периода «холодной войны» не обладают реальной и

эффективной властью из-за закулисных политических войн «великих держав», факт остаётся фактом что их государственные доктрины и интересы в некоторых сферах международного права идут вразрез с Jus Cogens принципами. Такой негативный пример в лице стран
«пятерки» Совбеза ООН не позволет механизмам организации работать на полную силу, дискритизирует его функционирование, а также создаёт негативный имидж «пустозвонной организации» в глазах международного сообщества. В результате вышеуказанного, на современном этапе международных отношений большая доля стран мира неверят в объективное и результативное руководство ООН. Политика «двойных стандартов», экономические и политические инструменты давления и посредственное участие универсальных организаций наиболее видно в нижеследующих фактах:

- Азербайджан
- Иран, Ирак и Йемен
- Северная Корея
- Сирая, Венесуэла, Куба и т.д.

Проанализировав сегоднявшие международные процессы и их проблематику можно прийти в выводу, которые обуславливают нижеследующие факторы:

- поляризация внешних приоритетов государств
- использование организаций в целях запугивания и необъективной санкционализации стран мира не угодных «пятёрке»
- двойные стандарты по многочисленным вопросам
- использование экономического шантажа с целью давления на правительства отдельных стран мира
- фактическое отмирание результативности ООН в связи с системой ветонизации организации в СовБезе существующей с 1945-ого года
- отсутствие синхронизированной системы отслеживания и предотвращения фактов массовых нарушений прав и свобод на фоне гражданский и международных конфликтов
- использание гуманитарных миссий в необъективных целях

Перед началом 59-ой сессии некоторые страны-участники ООН предложили свои кандидатуры в кресло постоянного члена Совбеза

ООН, а именно: Япония и ФРГ (так как они гланые меценаты организации), Индия ( как одна из двух стран с миллиардным населением; Бразилия ( как самая густонасенная страна Латинской Америки); Индонезия ( как самая большая мусульманская страна мира) и т . д

Реорганизация международных институтов является единственным выходом из сложившийся ситуации.

TƏRANƏ ADIL QIZI BAĞIROVA
Azərbaycan Dövlət Aqrar Universiteti

## AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ YERI VƏ ROLU

Açar sözlər: beynəlxalq münasibətlər, siyasət, dövlət, uğur, "əsrin müqaviləsi", nüfuz

Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni düzümünün formalaşmasına gətirib çıxardı.

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olub. Azərbaycan həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də anti-terror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Azərbaycan Respublikası həm də GUAM regional qrupunun təsisçilərindən biridir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan Respublikası öz milli maraqlarını gerçəkləşdirir. Bu gün Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısı tək qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir. Həmçinin, Azərbaycanın Qərb və Şərq sivilizasiyaları, eyni zamanda, Şimal və Cənub arasında dəhliz rolunu oynaması əhəmiyyətli ölkə kimi onun nüfuzunu ortaya qoymuş olur. Əlbəttə ki, Azərbaycanın bu cür nailiyyətlərinin praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu da hər kəsə

bəllidir. Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli münasibətlərinə xüsusi əhəmiyyət verir[Xasbulatov,2015,721-723].

Ümumiyyətlə, Azərbaycan beynəlxalq müstəvidə özünü etibarlı tərəfdaş kimi təsdiq edib. Eyni zamanda, ölkəmizdə həyata keçirilən uğurlu siyasət dövlətimizin əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirib, dinamik inkişafı şərtləndirib. Təbii ki, Azərbaycanın sürətli inkişafı, iqtisadi gücünün artması, əhalinin rifahının yüksəlməsi bir sıra digər məsələlərdə təsiredici rol oynayır. Sözsüz ki, qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Son bir neçə ildə Azərbaycanın əldə etdiyi ugurlar, hərtərəfli iqtisadi nailiyyətlər bizim ölkəmizi regionda güc mərkəzlərindən birinə cevirir. Və buna bizim coğrafi baxımdan çox strateji bir yerləşməmizi əlavə etsək, biz birmənalı olaraq böyük bir maraq oyadırıq, bütün beynəlxalq təşkilatlar, böyük dövlətlər bizə maraq göstərir, bizimlə yaxın olmaq, tərəfdaşlıq etmək istəyirlər.

Qeyd etdiyimiz kimi Azərbaycanın beynəlxalq müstəvidə yeri və rolu güclənməkdədir. Ölkəmizin həyata keçirdiyi xarici siyasət prinsipial, qətiyyətli və xalqımızın mənafeyinə tam uyğundur. Bu gün Azərbaycanda dövlətimizin güclənməsinə xidmət edən və xalqımızın siyasi iradəsinə əsaslanan siyasət həyata keçirilir. Əlbəttə, Azərbaycan dünyanın diqqət mərkəzində olan geosiyasi məkanda yerləşir, böyük enerji ehtiyatlarına malikdir. Bu amillərə görə, ölkəmizin inkişafını istəməyən bir sıra xarici qüvvələr mövcuddur. Bununla belə, Azərbaycan balanslaşdırılmış xarici siyasət həyata keçirməkdədir. Bu siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev bu siyasəti müasir dövrün tələblərinə uyğun olaraq həyata keçirir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi də bu siyasətin məntiqi nəticəsidir. Təşkilat yaranan zamandan ona bu qədər böyük səs çoxluğu ilə seçilmiş nadir ölkələr var. 200-ə yaxın dövlətin içərisində 155 dövlətin dəstəyini almaq həqiqətən də, Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna dəlalət edir. Ümumiyyətlə, uzun illərə hesablanan siyasət Azərbaycanın beynəlxalq aləmdə imicini gücləndirib. Bu gün Azərbaycan BMT TŞ-da söz sahibi olan dövlətdir. 20 ildir müstəqil olsa da, ölkəmiz beynəl-

xalq müstəvidə böyük nailiyyətlər qazanır. Nəticə etibarilə qeyd etmək istəyirəm ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış edən və müstəqil xarici siyasət yürüdən milli dövlətlərin etibarlı strateji tərəfdaşına çevirib.

Azərbaycan balanslaşdırılmış xarici siyasət həyata keçirir. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri və tranzit daşımalarında əsas koridor olacaq Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi və digər layihələr Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artırır[Həsənov,2010,156-157] .

Bildiyiniz kimi Prezident İlham Əliyev milli və dövlət maraqlarımızı ifadə edərək "Trans Anadolu" qaz kəməri layihəsinə dair saziş imzaladı. Bu, həqiqətən də, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalananda necə böyük sensasiya doğurmuşdusa, eləcə də, TANAP layihəsi də XXI əsrin çox əhəmiyyətli layihəsi kimi qəbul olunur. Bu layihə yalnız iqtisadi cəhətdən deyil, siyasi əhəmiyyətə malik olan önəmli layihədir. Prezident İlham Əliyevin uzaqgörən diplomatiyasının nəticəsidə bu saziş imzalandı. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində vacib rol oynayır və bundan sonra da oynayacaq. Biz Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdən qürur duyuruq. Çünki dövlətimizin başçısı milli maraqlarımıza uyğun siyasəti qətiyyətlə həyata keçirir. Prezidentimiz vurğulayıb ki, Azərbaycanın razılığı olmadan regionda hər hansı layihə reallaşdırıla bilməz. Bu, həqiqətən də belədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu Azərbaycan Respublikasının milli dövlət kimi müasir beynəlxalq münasibətlər sistemində gücünü və nüfuzunu artıran mexanizm qismində çıxış etməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi sıçrayış dövrünü yaşayan Azərbaycan həm də dünya birliyinin fəal və nüfuzlu aktorlarından birinə çevrilib. Rəsmi Bakı Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Avropa İttifaqı, İslam ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq edir. 2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçilən Azərbaycan Respublikası qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal üzvü imi-

cini möhkəmləndirib. Elə həmin il Qoşulmama Hərəkatına daxil olmaqla Azərbaycan öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirib, Latın Amerikası və Afrika ölkələri ilə səmərəli əməkdaşlıq əlaqələri qurmağa başlayıb. Ölkəmizdə öz ölkələrinin maraqlarını müdafiə edən bir çox dövlətin səfirləri də Azərbaycanla olan dostluq və tərəfdaşlıq münasibətlərindən məmnundurlar[3] .

Ədəbiyyat siyahısı:

1. Həsənov Ə.. "Geosiyasət". Bakı 2010
2. 2.Xasbulatov F.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakı 2015.
3. https://interaztv.com/polities//3272 .

TƏRANƏ ƏSMAN QIZI ƏLIYEVA
Mingəçevir Dövlət Universiteti

## BEYNƏLXALQ IQTISADI MÜNASIBƏTLƏRIN IDARƏ EDILMƏSI MEXANIZMININ MÜHÜM ELEMENTI KIMI BEYNƏLXALQ BIZNESIN INKIŞAFI

Açar sözlər: beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq biznes, dünya təsərrüfat sistemi, beynəlxalq ticarət

Beynəlxalq iqtisadi münasibətlər müxtəlif dünya ölkələrinin milli iqtisadiyyatları arasında yaranan elmi-texniki, istehsal, ticarət, maliyyə-valyuta, pul-kredit və informasiya münasibətlərindən ibarət olan və beynəlxalq əmək bölgüsünə əsaslanan müxtəlif təsərüfatçılıq münasibətləri sistemi kimi özünü göstərir. Müasir şəraitdə hər hansı ölkə ümumbəşəri nailiyyətlərə əsaslanaraq özünün milli iqtisadiyyatını sürətlə inkişaf etdirmək, ölkə əhalisinin maddi rifah halını yüksəltmək istəyirsə, onda beynəlxalq iqtisadi münasibətlərin iştirakçısına çevrilməli və xalqın milli mənafelərini daha yüksək səviyyədə əks etdirən mövqe qazanmalıdır [Abbasov, 2017].

Beynəlxalq əməkdaşlıq şəraitində beynəlxalq biznes əlaqələrinin inkişaf etməsi müasir dövrün regional, iqtisadi inteqrasiyasının artması, dünyada qloballaşma proseslərinin daha da inkişaf etməsi, beynəlxalq aləmdə, dünya mədəniyyətinin yaxınlaşmasına, başqa sözlə mədəniyyətlərin inteqrasiyasına köməklik göstərir. Beynəlxalq biznes fəaliyyəti beynəlxalq ticarətin yeni forma və metodlarının öyrənilməsi, kommersiya əməliyyatlarının aparılması haqqında müqavilələrin hazırlanması və bağlanması, beynəlxalq əmtəə birjalarında, hərraclarda, yarmarkalarda və sərgilərdə əməliyyatların təşkili, elmi-texniki biliklərin və xidmətlərin beynəlxalq ticarətinin təşkili və xarici şirkətlərlə beynəlxalq istehsal-texniki əlaqələrin qurulması və s. kimi məsələlərin ardıcıl həllini tələb edir.

Beynəlxalq biznes beynəlxalq iqtisadi münasibətlərin idarə edilməsi mexanizminin mühüm elementlərindən biridir, yəni müxtəlif ölkələr arasında beynəlxalq əmək bölgüsü əsasında qurulan və reallaşdırılan obyektyiv dayanaqlı münasibətlərdir. Beynəlxalq iqtisadi münasibətlər ölkələr arasında malların, elmi-texniki biliklərin, xidmətlərin və iqtisadi-texniki

əməkdaşlığın nəticələrinin tədavülü formasında təzahür edirlər. Beynəlxalq biznesə iki və daha çox ölkələr tərəfindən həyata keçirilən istənilən təsərrüfat əməliyyatları aiddir. Bu cür qarşılıqlı münasibətlər həm özəl şirkətlər və həm də dövlət təşkilatları səviyyəsində baş verə bilər. Beynəlxalq biznesdə özəl şirkətlər əsasən mənfəət əldə etmək məqsədilə təsərrüfat əməliyyatları aparırlar [Fərhadi, 2017].

Beynəlxalq biznesin istehsal və elmi-texniki əməkdaşlıq sahəsini xüsusi qeyd etmək lazımdır. Bu cür əməkdaşlıq müəyyən təşkilati-idarəetmə fəaliyyətinin nəticəsi kimi çıxış edir. Beynəlxalq biznesdə məhsul istehsalı hər hansı bir ölkə şirkətlərinin digər ölkənin ərazisində sənaye-istehsal müəssisələri təşkil etməklə, burada yeni sənaye sahəsi yaratmaqla məhsul istehsalını təşkil edir. Bu zaman həmin ölkənin xammalından və ya işçi qüvvəsindən istifadə olunması əsas amillərdəndir. Onu da qeyd etmək lazımdır ki, məhsul istehsalında biznes əlaqələri zamanı istehsal olunan məhsul istehsal olunan ölkənin və ya bu ölkəyə yaxın ölkələrin bazarlarında satılır.

Azərbaycan iqtisadiyyatı dünya təsərrüfat sisteminə sıx inteqrasiya olunur, beynəlxalq əmək bölgüsünə daha fəal qoşulur, ölkədə fəaliyyət göstərən firma və şirkətlərin xarici bazarlara çıxmaq hüququ vardır. Belə bir şəraitdə dünya təsərrüfat sistemində baş verən real iqtisadi prosesləri, o cümlədən, ayn-ayrı firma və şirkətlər səviyyəsində istehsal-təsərrüfat fəaliyyətinin idarə olunmasının konkret forma və metodlarının dərindən öyrənilməsi zəruriyyətə çevrilir.

Bazar iqtisadi münasibətlərinin formalaşmasında, istehsal sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində, dayanaqlı iqtisadi artımın təmin edilməsində iri təsərrüfat subyektləri-transmilli şirkətlər, maliyyə-sənaye qruplan böyük rol oynayırlar. Beynəlxalq biznes fəaliyyətinin forma və metodlarında keyfiyyət dəyişiklikləri hakim mövqe transmilli şirkətlərə məxsus olan istehsal sferasında baş verən irəliləyişlərin nəticəsidir. Bu dəyişikliklər o faktları əks etdirir ki, istehsalı genişləndirməkdən ötrü təkrar istehsal problemi daha çox bazar probleminə çevrilir, transmilli şirkətlər özlərinin xarici şəbəkələrini yaratmaq yolu ilə beynəlxalq tədavül sferasında daha fəal iştirak edirlər. Həm transmilli şirkətlər arasında və həm də onların daxilində istehsal kooperasiyasının və istehsal əlaqələrinin nəticələrini özündə əks etdirdiyinə görə beynəlxalq biznes fəaliyyətinin xarakteri və məzmunu əhəmiyyətli dəyişikliyə məruz qalır[Şəkərəliyev, 1996].

Beynəlxalq biznesdə diplomatiya müstəsna əhəmiyyət kəsb edir. Beynəlxalq biznesdə danışıqlar çox vaxt şirkətin başqa ölkədə fəaliyyət göstərməsi və ya fəaliyyətini dayandırması üçün şəraitin formalaşdırılmasına yönəldilir. Xarici investisiya axınını istəyən ölkələrə bəzən aydın olur ki, investorların onlar haqqında kifayət qədər məlumatları yoxdur, yaxud onların ərazisində biznesin imkanlari haqqında səhv informasiyalara malikdirlər. Nəticədə bəzi investorlar inkar etmirlər ki, onlar maraqlı ölkələrin diqqətindən kənarda qalırlar. Deməli, potensial investorların beynəlxalq biznesdə geniş miqyasda iştirakını təmin etmək üçün müasir diplomatiyadan, diplomatik danışıqlardan istifadəyə xüsusi diqqət yetirilməlidir.

Ədəbiyyat siyahısı:

1. Abbasov A.B. Abbasov S.A.. Biznesin əsasları. Dərslik. Bakı, 2017.
2. Fərhadi P. Beynəlxalq biznes. Bakı, 2017.
3. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Beynalxalq iqtisadi münasibətlər və beynalxalq bazarın təşəkkülü. Bakı, 1996.

TƏRANƏ ƏHMƏD QIZI SÜLEYMANOVA
Mingəçevir Dövlət Universiteti

# MILLI IQTISADIYYATIN INKIŞAFINDA BEYNƏLXALQ MÜNASIBƏTLƏRIN ROLU

Açar sözlər: xarici siyasət, milli dövlətçilik, beynəlxalq qurumlar, milli mənafe, iqtisadi əməkdaşlıq

Azərbaycanın malik olduğu zəngin iqtisadi potensialı və əlverişli geo-siyasi mövqeyi dünya ölkələrini qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq üçün əsas amil hesab olunur. Milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyət göstərilməlidir. Bu baxımdan Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorun-masında ölkənin xarici siyasəti mühüm əhəmiyyət kəsb edir. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradır. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət həyata keçirməyə başladı. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən bu siyasət milli iqtisadiyyatı möhkəmləndirib inkişaf etdirməyə və milli mənafelərin qorumasına yönəldilmişdir. Azərbaycan hökuməti öz xarici siyasətini dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi şərtləri daxilində beynəlxalq hüquq norma və prinsipləri əsasında qurur [Həsənov, 2005].

Müstəqillik əldə etmiş Azərbaycan Respublikası dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv

olmağa başladı. Bundan başqa, respublikamız NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq edir. Azərbaycan Respublikası həm də GUAM regional qrupu-nun təsisçilərindən biridir. Azərbaycan Respublikası üzv olduğu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə öz milli maraqlarını təcəssüm etdirir. Müasir dövrdə Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasında öz töhfəsini verən fəal və daima inkişaf edən ölkə kimi qəbul edilməkdədir. Bundan başqa, Şimal və Cənub arasında dəhliz rolunu oynaması əhəmiyyətli ölkə kimi Azərbaycanın nüfuzunu üzə çıxarır. Bu o deməkdir ki, Azərbaycan bu nailiyyətləri həyata keçirdiyi xarici siyasət nəticəsində əldə etmişdir və Azərbaycan hökuməti ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli münasibətlərinə xüsusi əhəmiyyət verir [Şəkərəliyev, 1999].

Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan Türkiyə Cümhuriyyəti ilə münasibətlər dünya miqyasında öz mövqeyinin qorunub saxlanması və nüfuzunun artırılmasında əsas rol oynamışdır və bu günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edir. Milli maraqlar baxımından bir-birilə sıx bağlı olan bu iki qardaş ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Ölkə başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çox istiqamətli xarici siyasət Azərbaycan Respublikasının milli dövlət kimi müasir beynəlxalq münasibətlər sistemində gücünü və nüfuzunu artırır.

Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir. İkitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri

ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirir, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün ortaq təmas nöqtələrinin geniş şəbəkəyə malik olduğunu nümayiş etdirir [Abbasov, 2017].

Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur. Çox mühüm coğrafi-strateji məkanda yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradır, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirir.

Göründüyü kimi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə qoşulması ilə ölkənin sosial-iqtisadi, siyasi və təhlükəsizlik məsələlərinin tənzimlənməsində xarici siyasət sahəsində fəaliyyətin rolu kəskin şəkildə yüksələrək həlledici əhəmiyyət kəsb etmişdir. Azərbaycanın bugünkü beynəlxalq vəziyyəti xarici siyasət sahəsində hər hansı bir qütbə və yaxud istiqamətə açıq nümayiş etdirilən üstünlük verilməsini miimkünsüzləşdirir, balanslaşdırıcı və tarazlaşdırıcı siyasi kurs seçilməsini şərtləndirir.

Məlumdur ki, hər bir ölkə üçün beynəlxalq nüfuzunun artırılmasında onun gücü və intellekti əsas rol oynayır. Bu baxımdan Azərbaycan həm güclüdür, həm də böyük intellektual cəmiyyətə malikdir. Buna isə Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində nail olunubdur. Ona görə də Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu durmadan artır və nüfuzu daha da güclənir. Sonda qeyd etmək olar ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən böyük və qüdrətli dövlətdir və hər bir vətəndaş bununla qürur duya bilər.

Ədəbiyyat siyahısı:

1. Abbasov A.B. Abbasov S.A.. Biznesin əsasları. Dərslik. Bakı, 2017.
2. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
3. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999.

ТОФИК РАХМАН ОГЛЫ ГУРБАНОВ
Матанат Гидает кызы Шадлинская
Бакинский Славянский Университет

# РУССКИЕ В АЗЕРБАЙДЖАНЕ

Ключевые слова: русские, Азербайджан, поселения

С установлением российского управления в Азербайджане, первые русские поселения на территории Азербайджана стали появляться только в 1830—50-х годах. Первым законодательным актом, санкционирующего переселение стало издание 20 октября 1830 года правительственного распоряжения о переселении раскольников и сектантов в «закавказские провинции». Первым добровольным было переселение молокан из Оренбургской губернии в 1830 году. Среди первых русских селений в Азербайджане были Вель, Привольное, Пришиб, Николаевка, Ивановка. Начиная с середины 1833 года происходит переселение русских сектантов в Шемахинский и Ленкоранский уезды.1848г. Шемахинский губернии их количество 9,8 тыс. чел.(1756 семей), из них городах проживало 5,5%-508 чел., в Шемахе 328 ч., в Ленкорани 172 ч., в Шеки 8 ч.[Исмаил-Заде,1961]. Некоторое время «сектантам» запрещалось селиться в городах. Чуть позже они основали слободы в Шемахе и Ленкорани и лишь в 1859 году им было разрешено поселение слободой в Баку. За 1841—1847 гг. в Елисаветпольской губернии были образованы селения Славянка, Ново-Горелое, Ново-Троицкое и Ново-Спасское, состоящие исключительно из духоборов.

Русские переселялись из Тамбовской, Воронежской и Самарской губерний что сказалось не только на топонимии, Русские селение: в Бакинской губернии - Новоголовка, Головине, Славянка, Новогорелое, в Елизаветпольской губернии-Новотроицкое, Новоспасское, Михайловка, Всего было зафиксировано 300 русских названий поселений, включая к настоящему времени исчезнувшие и переименованные.

Следующая волна миграции русского населения приходится на конец XIX-начала XX вв. и связанна прежде всего с развитием промышленности, особенно нефтяной, и ростом городов. Численность русских мигрантов в Баку в период с 1897 по 1913 год увеличилось с 39,0 до 76,3 тыс. человек [Бадалов,2017,61-63]. Русскими рабочими преимущественно заселялись Чёрный и Белый город, промышленный пояс на северо-восточной окраине Баку. Русские мигранты преобладали Завакзальном, центральной части, Кубинке, Салянском, Баилове и др. Заселение русскими Мугани относится к 1897 году, где до 1917 года возникло 48 селений. 1902 по 1917 гг., на Мугани образовалось около 55 русских посёлков с населением общей численностью свыше 20 тыс. человек [Бабаханов,1968]. В эти же годы несколько десятков русских поселений образовались вдоль Каспийского побережья: в северной части — на территории Кубинского уезда, а также на юге — в Ленкоранском уезде. На рубеже XIX-XX вв. в Азербайджане в общей сложности появились более ста русских православных селений. В конце XIX — начале XX веков, в Ленкоранском уезде жили русские молокане и другие сектанты. В шемахинском уезде также есть оседлое русское население из сектантов. Кроме сектантов в этих уездах русские в значительном числе жили лишь в Бакинском. 1897 г. в Бакинской губернии насчитывалось 73,6 тыс., а в Елизаветпольской — 14,1 тыс. человек. Значительная часть русского населения Мугани в 1918 году ушла на Северный Кавказ. Менее половины из них (2,8 тыс. человек) вернулось в 1921 году [Бабаханов,1968].

По сельскохозяйственной переписи 1921 года в Азербайджане насчитывалось примерно 80 русских селений, из которых 30 являлись сектантскими (около 30 тыс. жителей), а остальные православными (около 12 тыс. человек). Миграционные тенденции продолжались и в советское время, когда в Азербайджан (преимущественно в города) переезжали квалифицированные специалисты из других концов Советского Союза. С октября 1928 года по январь 1933 года число русских рабочих, занятых в нефтяной промышленности, выросло с 21,9 тыс. до 40,7 тыс. человека, что составляло 58,5 % всех работавших в «Азнефти». Русские продолжали оставаться крупнейшим этническим

элементом Баку. В этом периоде новых поселениях Разин (Бакиханов), Серебровского (Карачухур), Кирова (Ресулзаде), Артем (Пираллахи), Локбатан, Насосный (Гаджи Зейналабдин), преобладало русские. В Гяндже русские составили 8,2 % населения в 1926 году. В целом 26,6 % всего городского населения Азербайджана в 1926 году и 35,7 % — в 1939 году составляли русские. 1921-1941-гг. в Азербайджан прибыло 473,5 тыс. мигрантов, из них большинство составляли русские. Последняя массовая волна русской миграции в Азербайджан наблюдалась в 1949 году, в связи с возведением промышленного города общесоюзного значения Сумгаит в нескольких километрах к северу от Баку. В 1950-х гг. количество сёл, в которых проживало русское население, превысило 120. Однако спустя десятилетие начинается уже обратная тенденция, резкое и неуклонное снижение русского сельского населения. Начавшийся в 1960-х гг. отток русских из Азербайджана, который усилился с начала 1980-х гг., шёл в основном из сельских районов.

В течение 1970-1990-х такие старинные сёла, как Павловка и Алексеевка Хачмасского района, Владимировка Кубинского района, Астрахановка и Хильмили Шемахинского района и др. почти полностью остались без русского населения. 1959-1989- гг. в Баку численность русских уменьшилось от 337,8 тыс. до 295,5 тыс.ч. 1981-1990-гг. отток русских из Азербайджана составило 80 тыс.ч.

Развал СССР и события Чёрного января в Баку, внутриполитическая нестабильность, резкое ограничение сферы применения русского языка, возрастание психологического дискомфорта, вывод с территории Азербайджана советских вооружённых сил (лишь по некоторым оценкам их общая численность, вместе членами семей, достигала 70-80 тысяч человек) и.т.д., всё это обусловило значительный отток русского населения из республики и привело к тому, что в первые годы независимости Азербайджана русские в значительной степени оказались отчуждены от политической жизни страны. Самый большой отток русских из Азербайджана в Россию был отмечен после событий Чёрного января 1990 года, а также в 1992 году, после чего он заметно сократился. В миграционного обмен Азербайджана с Россией за что в период с 1989

по 1994 г. как минимум 766 тыс. человек покинули республику, а прибыли - 465,5 тыс. человек. Таким образом, в указанный период Азербайджан недосчитался более 300 тыс. своих граждан, из них 247,7 тыс.человек русских покинули республику. Количество русских, так с порядка 400 тысяч число русских в этой стране упало до 120 тысяч. 1999 году 84,3 % и 2009 году 93% всех русских проживали в Баку, их число уменьшилось от 119,5 до 111 тысяч ч., они являлись второй по численности этнической группой города. Они также проживают в Исмаиллинском (с. Ивановка), Хачмазском и в Кедабекском (с. Славянка и Новоивановка) районах Азербайджана.

В настоящее время, в Азербайджане в более чем 300 общеобразовательных школах по всей стране, 18 местных вузах и 38 средних специальных учебных заведениях преподавание ведётся и также на русском языке. 2000 года в Баку на базе Азербайджанского педагогического института русского языка и литературы имени М. Ф. Ахундова был основан Бакинский славянский университет.

## Список литературы:

1. 1.Бабаханов Н.А. Изминения характера расселения в Мильской и Муганской равнинах Азербайджана в годы советскойв
2. ласти.Баку-1968, Автореферат.
3. 2.Бадалов Э.С. Расселение славянских народов в Азербайджане. Материалы международной научно-практической конференции «Проблемы изучения и преподавания русского языка и литературы в Азербайджане» Баку, БСУ, 2017 г., 61-63 ст.
4. 3.Исмаил-Заде Д.И. Население городов Закавказского края в XIX- начале XX в. Москва-1991, Наука, 254 ст.
5. Перепись населения Азербайджанской Республики 1999 и 2009 гг. I часть, Баку. ГСК. 2000 и 2010 гг.

TURAL AKIF OĞLU VƏLIZADƏ
Qərbi Kaspi Universiteti

# XOCALI SOYQIRIMI: SIYASI VƏ IDEOLOJI TƏRƏFLƏRI

Açar sözlər: Sovet Rusiyası, Ermənistan, soyqırım, Xocalı, Azərbaycan

Sovet Rusiyasının hər növ dəstəyi ilə ermənilər tərəfindən törədilən Xocalı soyqırımı bəşəriyyətə qarşı dəhşətli cinayət, vəhşilikdir. Bu türk-müsəlman qırğını ilə bağlı məsələlər aşağıdakı istiqamətlərdən dəyərləndirilə bilər:

1. Müasir qlobal siyasət və beynəlxalq münasibətlər;
2. Beynəlxalq hüquq baxımından;
3. İdeoloji baxımdan

Xocalı soyqırımı Sovet Rusiyasının tarixi geostrategiyası və geosiyasəti baxımından düşünülən və həyata keçirilən çoxsaylı planlardan biridir. Belə ki, Sovet Rusiyası 1990-ci ildə Qanlı 20 Yanvar və 1992 ildə isə Xocalı faciəsi - soyqırımlarını törətməklə Azərbaycanı azadlıq mübarizəsindən çəkindirmək və onun əhalisini qorxutmaq üçün səylər göstərmişdir.

Tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağın Xocalı şəhərində törədilən bu soyqırım uydurma "böyük ermənistan"ın bərpasına xidmət edən "yandırılmış torpaq" – "etnik təmizləmə" taktikasının bir nümunəsidir. Bunu sübut edən xeyli sayda rəsmi sənədlər vardır. [Genocide in Khojaly, 2014, 15-16; Nagy, 2011, 47]. Ermənilər Xocalıda hərbi əməliyyat məqsədli döyüş aparmamışdılar. Onların əsas istəyi yerli azərbaycanlı əhalini işgəncələrlə öldürmək idi. Yerli mülki əhali tərəfindən də onlara heç bir silahlı müqavimət göstərilməmişdir.

Bu soyqırım ermənilərin Rusiyanın himayəsi ilə Anadoluda və Azərbaycanın şimalı ilə cənubunda 1895-1896, 1905-1906, 1915, 1918-1920 və b. illərdə törətdikləri soyqırımların davamıdır. Xocalı soyqırımını Azərbaycanla hərbi mübarizədə dəfələrlə məğlub olan ermənilərin dinc yerli əhalini soyqırıma məruz qoymaqla qazandığı bir intiqam kimi də dəyərləndirmək olar.

Bu soyqırım nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından həmişəlik əlil oldu, 8 ailə tamamilə məhv edildi, 25 nəfər uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onlardan 150-sinin taleyi indi də məlum deyil.

Xocalı soyqırımı ilə BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli Bəyannaməsinin 2, 3, 5, 9 və 17-ci maddələri, eyni zamanda BMT Baş Assambleyasının 16 dekabr 1966-ci il tarixli 2200 A (XXI) saylı qərarı ilə qəbul edilən və 23 mart 1976-ci il tarixində qüvvəyə minən BMT-nin Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Konvensiyası 6-9-cu maddələrinin tələbləri, şərtləri pozulub [Aliyev, 2012, 53-55; Genocide in Khojaly, 18-19]. Bu qətliam hətta kiçik 1 və 2 yaşlı uşaqların (Y.Əliyeva, A.Həsənova, S.Səfiyev, A.Şükürova, S.Quliyev və b). [Garabagh: Memory Book, 2014, 19-21] öldürülmələri və insanların ağılasığmaz işgəncələrə məruz qaldığı bir cinayətidir. Bu səbəblədə tam bir soyqırım cinayətidir.

Xocalıda törədilən türk-müsəlman soyqırımı, mühüm bir hissəsi ermənilərdən təşkil edilmiş 366-cı Rus motoatıcı alayının və Ermənistan silahlı qüvvələrinin birlikdə cinayət fəaliyyətdir. "Balkan qəssabları" S.Miloşeviç, R.Karaçiç və başqalarından fərqli olaraq "Xocalı qəssabları" (S.Sarqsyan, S.Ohanyan və digərləri) beynəlxalq qurumlar və ictimaiyyət, ayrı-ayrı dövlət başçıları tərəfindən qətiyyətlə pislənməmiş, sərt reaksiyalara məruz qalmayıblar. Əksinə onlar Ermənistanda yüksək dövlət vəzifələrinə (Prezident, Müdafiə naziri) yiyələnmişlər.

Tarixdən digər bir nümunə: 1918-1920-ci illərdə İrəvan və ətraf rayonlarda çoxsaylı türk - müsəlmanı qırğına məruz qoyan Dro az sonra Sovet Ermənistanının Müdafiə naziri olmuşdu. Xocalı faciəsi ermənilərin apardıqları "Türk-müsəlman düşmənçiliyi" ideologiyası, siyasəti və təbliğatının acı bəhrəsi, nəticəsidir. Belə siyasət-təbliğat isə heç bir tutarlı əsaslara söykənmir. Atatürkün 1936-cı ildə söylədiyi kimi "biz heç kəsin düşməni deyillik. Yalnız insanlığın düşməni olanların düşmənləriyik" [Qocatürk, 1991, 168].

Nəticədə bu mühüm mövqeyimizi bildirməyi əsas və əhəmiyyətli görürük: Bizlər – azərbaycanlı elm adamları – "Tarix sənəd ilə yazılır" möv-

qeyinə əsaslanaraq yalanlarla deyil, tarixi həqiqətlərlə apardığımız elm mübarizəsini davam etdirməliyik.

Ədəbiyyat siyahısı:

1. Aliyev R. The Volce of History. Baku, 2012; Genocide in Khojaly. Baku, 2014.
2. Garabagh: Memory Book. Baku, 2014.
3. Genocide in Khojaly. Baku, 2014; A.Nagy. Garabagh war. Short history. Baku, 2011.
4. Qocatürk U. Atatürk. Bakı, 1991

Turan Nazim qızı İsmayılova
AMEA Qafqazşünaslıq İnstitutu

# ERMƏNISTAN RESPUBLIKASININ İRAN İSLAM RESPUBLIKASI ILƏ SIYASI-DIPLOMATIK MÜNASIBƏTLƏRININ QURULMASI VƏ INKIŞAF MƏRHƏLƏLƏRI

Açar sözlər: Ermənistan, İran, siyasi, diplomatik, münasibətlər

SSRİ-nin dağılmasından sonra post-sovet ölkələri, əsasən Qafqaz respublikaları ilə münasibətlər İran İslam Respublikasının xarici siyasətinin xüsusi istiqamətini təşkil etmişdir. Müstəqillik əldə etmiş Ermənistan Respublikasının İran İslam Respublikası ilə münasibətlər qurması xüsusi əhəmiyyət daşıyırdı. 1991-ci il dekabrın 25-də İran İslam Respublikasının Ermənistan Respublikasının müstəqilliyini tanıması ilə iki dövlət arasında diplomatik münasibətlərin yaradılmasına zəmin yarandı. 1992-ci ilin fevralında Ermənistan Respublikasının Xarici İşlər naziri Raffi Hovannisyanın rəhbərlik etdiyi nümayəndə heyəti Tehrana səfər etdi, iki həftə sonra isə İranın Xarici İşlər naziri Əli Əkbər Vilayətinin rəhbərlik etdiyi nümayəndə heyəti Yerevanda oldu, tərəflər arasında rəsmi görüşlər keçirildi. Bu səfərlərlə iki dövlət arasında diplomatik münasibətlər praktik mərhələyə qədəm qoydu.

Ermənistan Respublikası özünün təcavüzkar siyasətinə yəni, Azərbaycan torpaqlarının işğalına bəraət qazandırmaq, müsəlman ölkələrinin dəstəyini qazanmaq, iqtisadi böhranlardan xilas olmaqdan ötrü İran İslam Respublikasına ehtiyac duymuşdur. İran İslam Respublikası isə Qərb dövlətlərinin təcrid və sanksiyalarını xilas olmaq üçün Ermənistan Respublikasından və erməni lobbisinin gücündən istifadə etməyə çalışmış, eyni zamanda ABŞ və İsrail kimi dövlətlərin Ermənistanda güclənməsinin qarşısını almaqdan ötrü onunla əlaqələrini genişləndirmişdir. Sonuncu məqamda İran İslam Respublikasının mövqeyi Rusiya Federasiyasının Qafqazdakı maraqları və geosiyasi planları ilə üst-üstə düşürdü. Ermənistan Respublikası Rusiya Federasiyasının razılığı ilə İranın mövqeyini bu cəhətdən maksimum nəzərə almışdır.

İran İslam Respublikası-Ermənistan Respublikası münasibətlərini aşağıdakı mərhələlərə bölmək olar:

1. 1991-1997-ci illəri əhatə edən birinci mərhələ;
2. 1998-2008-ci illəri əhatə edən ikinci mərhələ;
3. 2008-2018-ci illəri əhatə edən üçüncü mərhələ;
4. 2018-ci ildən sonrakı mərhələ.

1991-1997-ci illəri əhatə edən ilk mərhələ münasibətlərin qurulması və geosiyasi dəyişikliyə uyğun olaraq yaxınlaşma mərhələsi olmuşdur. Bu dövrdə iki ölkə arasındakı münasibətlərə təsir edən determinantlara xüsusilə Dağlıq Qarabağ münaqişəsini, İranın Rusiya və Qərblə əlaqələrini aid etmək olar. Eyni zamanda Ermənistan Respublikasının və İran İslam Respublikasının rəhbərləri hər iki tərəf arasındakı münasibətlərin gücləndirilməsi üçün bütün imkanları dəyərləndirmiş və bunun nəticəsində iki dövlət arasında xüsusilə nəqliyyat və enerji sahəsində bir sıra layihələr həyata keçirilmişdir.[ Kəlbizadə E., Baxşıyeva Y., Əzimov Ə., 2019,88]

1998-2008-ci illəri əhatə edən ikinci mərhələ Ermənistan Respublikasının ikinci prezidenti Robert Koçaryanın hakimiyyəti illərinə təsadüf etmişdir. Tədqiqatçılar tərəfindən bu dövr Ermənistan Respublikasının xarici siyasətində "əlaqəli təkamül" dövrü adlandırılır. [Talıblı, 2016] Bu mərhələdə Ermənistan Respublikası regionda Rusiya-İran cütlüyü ilə yanaşı, ABŞ və Avropa dövlətləri ilə də əlaqələrini tədricən inkişaf etdirməyə çalışmış, lakin birmənalı şəkildə Rusiyanın siyasi orbitindən çıxa bilməmişdir. İran İslam Respublikası bölgədə cərəyan edən proseslərə uyğun olaraq Ermənistanla münasibətlərini daha da yaxınlaşdırmağa çalışırdı. Xüsusən, 2001-ci ildən sonrakı mərhələdə İranın bu istiqamətdə cəhdləri daha da artmışdır. Ermənistan isə bu dövrdə İran İslam Respublikası ilə münasibətlərini ABŞ-ın Rusiya Federasiyası ilə birgə terrorizmə qarşı əməkdaşlığına uyğun müəyyənləşdirməyə çalışırdı. ABŞ-Rusiya yaxınlaşması İran İslam Respublikası-Ermənistan Respublikası münasibətlərinə mənfi təsir göstərirdi. İran İslam Respublikasını terrorizmə dəstək verməkdə daim ittiham edən ABŞ 2002-ci ildə Ermənistanı İrana kimyəvi avadanlıq satmaqda təqsirləndirərək bir sıra sanksiyalar tətbiq etmişdi. [Qasımlı V., Şiriyev Z., Vəliyeva Z,2011, 38] Bu təzyiqlər Ermənistan Respublikasının geri addım atması ilə nəticələndi və Qərb dövlətləri ilə münasibətlərinin pozulmaması naminə

Ermənistan ABŞ-ın terrorizmə qarşı mübarizə tədbirlərinə dəstək verməyə başladı.

2008-2018-ci illəri əhatə edən üçüncü mərhələnin əvvəlki mərhələdən əsas fərqi onda idi ki, əgər 1998-2008-ci illər münasibətlərin yaxınlaşması əsasən İran İslam Respublikasının mənafelərinə xidmət edirdisə, 2008-ci ildən sonrakı mərhələdə münasibətlərin intensivləşməsinin tərəfdarı kimi daha çox Ermənistan çıxış etmişdi. Belə ki, 2008-ci ildə Rusiya Federasiyası ilə Gürcüstan Respublikası arasında baş verən hərbi münaqişə, Rusiya Federasiyasının separatçı Abxaziya və Cənubi Osetiya rejimlərinin müstəqilliyini tanıması Ermənistanın Rusiya ilə Gürcüstan üzərindən qurduğu iqtisadi-tranzit əlaqələrə mənfi təsir göstərdi. Ermənistanla Abxaziya arasında tikilməsi planlaşdırılan dəmiryol layihəsi münaqişə səbəbindən ləğv edildi. Artıq Gürcüstan üzərindən dünya bazarlarına çıxışın mümkünsüzlüyünü görən Ermənistan Respublikası Türkiyə Cümhuriyyəti ilə münasibətlərin bərpasına çalışmağa başladı [Görgülü, 2008, s. 23-26]. Lakin bu cəhdlərin uğursuzluğu Ermənistanın son çarə kimi yenidən İran İslam Respublikasına üz tutması ilə nəticələndi. 2009-cu ildən başlayaraq iki dövlət arasında enerji, kənd təsərrüfatı, elm və mədəniyyət sahələrində sıx əlaqələr qurulması üçün sazişlər imzalandı. Nəticədə İran İslam Respublikası və Ermənistan Respublikası arasında ticarət əlaqələrinin həcmi 2010-cu ildə 1 milyard dollar həcminə yüksəldi. [Kəlbizadə E., Baxşıyeva Y., Əzimov Ə., 2019,99].

Həm geosiyasi proseslər, həm Ermənistanda baş verən hadisələr, İran-Ermənistan münasibətlərində "sükut dövrü" və "qeyri-səmimi" yaxınlaşmalar 2018-ci ilin aprelindən sonrakı mərhələni xüsusi dövr kimi fərqləndirməyə imkan verir. Özündən əvvəlki dövrlərlə müqayisədə bu dövrdə Ermənistan İran İslam Respublikası ilə münasibətlərə nisbətən Qərb ölkələri ilə münasibətlərə daha çox diqqət verdiyini nümayiş etdirir. Bu mərhələdə Ermənistanda baş verən "məhməri inqilabı" nəticəsində Baş Nazir postuna yiyələnən Nikol Paşinyanın ABŞ başda olmaqla Qərb ölkələrinin dəstəyini qazanmağa çalışması, Rusiya ilə strateji münasibətlərdə bir sıra dəyişikliklər etməsi İranla da münasibətlərə təsir edən mühüm amillərdən biridir. N.Paşinyan Baş Nazir postuna yiyələndikdən sonra İran İslam Respublikası Prezidenti ilə ilk görüşü 2018-ci ilin sentyabrın 26-da baş tutmuşdur. Həmin görüşün Birləşmiş Millətlər Təşkilatının növbəti illik toplantısı

ilə əlaqədar olaraq Nyu-Yorkda [Armenian news: breaking news. 26.09.2018] keçirilməsini də Ermənistanın ABŞ-a "Nəzarətiniz altında İran-la münasibət qururuq" jesti kimi qəbul etmək olar.

İran İslam Respublikası ilə əlaqələrindən istifadə etməklə özünə müsəlman ölkələrin dostu imicini yaratmağa çalışan Ermənistan İran İslam Respublikasının ictimaiyyətini çaşdırmaq üçün müxtəlif vasitələrindən istifadə edir. Bəzi məsələlərdə üst-üstə düşən maraqlara uyğun olaraq İran bir sıra məsələlərdə qeyri-obyektiv mövqedən çıxış edir.

Ədəbiyyat siyahısı:

1. Kəlbizadə E., Baxşıyeva Y., Əzimov Ə.D. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. – Bakı: Mütərcim, 2019. – 360s.
2. Qasımlı V., Şiriyev Z., Vəliyeva Z. İran-Ermənistan münasibətləri: geosiyasi reallıq versus siyasi iddialar. Bakı: SAM, 2011, - 48 s.
3. Talıblı S. İranın Qafqaz siyasətində Ermənistan (1991-2006-cı illər). 28.10.2016 https://www.blogcatalog.com/s-ubhan-talibli-iranin-qafqaz/
4. Görgülü A. Türkiye-Ermenistan ilişkileri bir kısır döngü. İstanbul: Tesev Yayınları, 2008, s.23
5. Armenian news: breaking news. 26.09.2018, https://www.youtube.com/watch?v=S35vK-uO9iM

ÜLVIYYƏ YADULLA QIZI HÜSEYNOVA
Azərbaycan Dillər Universiteti

# BÖYÜK BRITANIYANIN "BREXIT" SIYASƏTI

Açar sözlər: Avropa İttifaqı, iqtisadiyyat, milli suverenlik, inteqrasiya, ticarət

Birləşmiş Krallıq və Avropa İttifaqı arasında münasibətlərdə 23 iyul 2016 tarixində referendumun keçrilməsilə yeni bir mərhələyə qədəm qoydu. Birləşmiş Krallıq 28 üzvü olan Avropa İttifaqının 60 illik tarixində ittifaqdan ayrılacaq ilk ölkə olacaq. Hər nə qədər Birləşmiş Krallıq Avropa İttifaqından ayrılma qərarı almış olsa da cəmiyyətdə fikirlər birmənalı deyil. Referendum ayrılma tərəfdarı olanların 51.9%, Avropa İttifaqına qalma istiqamətində səs verənlərin isə 48.1% səs almasıyla nəticələndi [Oliver, Tim, 2017, 4-7]. 2008 iqtisadi böhranının nəticələrinin 2010-cu ildən hiss olunmağa başlanması ilə Breksitin reallaşdığı tarixə qədər hətta referendumun baş verdiyi gün də daxil olmaqla alimlər, jurnalistlər, siyasətçilər, tədqiqat inistitutları Breksitin reallaşacağına ehtimal vermirdilər. Breksit əslində həm Birləşmiş Krallıq üçün, həm də Avropa və dünya siyasəti üçün gözlənilməz bir hadisə oldu. Tereza Meyin başçılıq etdiyi hökumət Lissabon Müqaviləsinin 50-ci maddəsini müzakirələrin başlanması üçün kifayət hesab edirdi. Meyin müzakirələrə sürətli başlamaq istəməsinin səbəblərindən biri və bəlkə də ən əhəmiyyətlisi Avropa İttifaqının sərt mövqeyidir. Brüsseldə, İttifaqı tərk etmək istəyən ölkələrin danışıqlarda tez bir nəticəyə gəlməsinin vacibliyi göstərildi. Zamanın qısa olduğunu nəzərə alan Mey aşağıdakı şərtləri tez bir zamanda təqdim etdi [Stevenson, Jonathan, 2016, 7-16 ].

1- Şəffaflıq
2- Birləşmiş Krallığın milli suverenliyini qorumaq
3- Birləşmiş Krallığın bütövlüyünü qorumaq
4- İrlandiya ilə ümumi səyahət zonasının qorunması
5- Miqrasiyaya nəzarət
6- Böyük Britaniyada Avropa İttifaqı və Böyük Britaniya vətəndaşlarının hüquqlarını qorumaq

7- İşçilərin hüquqlarının qorunması
8- Avropa bazarları ilə ümumi ticarət
9- Digər ölkələrlə yeni ticarət sazişləri
10- Elmin və ixtiraların əsas inkişaf mərkəzinə çevrilmək
11- Cinayət və terrorla birgə mübarizə
12- "Yumşaq və sabit" Breksiti reallaşdırmaq

Beləliklə, 2017-ci il iyunun 19-da müzakirələr başlandı.

Avropa Ittifaqı Böyük Britaniyanın ən böyük ticarət tərəfdaşıdır. Böyük Britaniya Avropa İttifaqının üzvü olduğu üçün ittifaq ölkələri ilə ticarətdə aşağı tarif şərtlərindən faydalanır. Bu səbəbdən də Böyük Britaniya vətəndaşları məhsul və xidmətləri daha ucuz əldə edə bilir və iş adamları daha çox məhsul ixrac edə bilirlər [Inkster, Nigel, 2016, 25-29]. Breksitin ölkənin ticarət həcminə mənfi təsir göstərəcəyi haqqında mülahizələr var. Eyni zamanda Breksit Böyük Britaniyanı Avropa İttifaqının gələcəkdə yeni inteqrasiya imkanlarından və bazarlarından məhrum edəcəyi də söylənilən mülahizələr arasındadır.

Ədəbiyyat siyahısı:

1. Inkster, Nigel, "Brexit, Intelligence and Terrorism", Survival, Cild 58, No 3, 2016, ss.23-30

2. Oliver, Tim, "Fifty Shades of Brexit: Britain's EU Referandum and It's Implications for Europe and Britain", The International Spectator, Cild 52, No 1, 2017, ss.1-11.

3. Stevenson, Jonathan "The UK Brexit Vote and Its Potential Strategic Impact", The Internatioanal Institute for Strategic Studies, London 2016, ss 4-42

VAHID ALLAHVERDI OĞLUÖMƏROV
AMEA Qafqazşünaslıq İnstitutu

# ERMƏNISTAN CƏNUBI QAFQAZDA REGIONAL TƏHLÜKƏSIZLIYƏ TƏHDID MƏNBƏYIDIR

Açar sözlər: Cənubi Qafqaz, işğal, hərbi təcavüz, ərazi iddiaları, təhlükəsizlik, təhdid

Cənubi Qafqaz üç müstəqil respublokadan ibarət olsa da Rusiya səhv olaraq Abxaziya və Cənubi Osetiyanı da "müstəqil dövlət" hesab edərək bölgənin beş dövlətdən ibarət olduğunu iddia edir. [İvanov, 2018]

Cənubi Qafqaz, xüsusən Azərbaycan və Gürcüstan dünya siyasəti və iqtisadiyyatında coğrafi mövqeyi, təbii ehtiyatları, dənizlərə çıxışı, Şərq-Qərb, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi rolu oynamaları ilə mühüm yer tutduqları halda Ermənistan hərbi təcavüzü, Azərbaycan ərazilərini işğal etmələri və Gürcüstana ərazi iddiaları irəli sürmələrilə Cənubi Qafqaza regional təhlükəsizliyə ciddi təhdid mənbəyidir.

Cənubi Qafqazda regional təhlükəsizliyə təsir edən mənfi amillər içərisində Rusiyanın bölgəyi öz milli maraqları dairəsinə daxil etməsidir.

Ermənistan MDB ölkələrinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təçkilatına daxil olmuş, xarici himayədarlarının köməyinə arxayın olaraq Azərbaycanla sülh danışıqlarında konstruktiv təkliflərdən yan qaçır, əsassız iddiaları ilə sülh proseslərini pozur. Bu azmış kimi Ermənistan əzəli Azərbaycan torpaqları olan Naxçıvana da iddialarından əl çəkmir. Ermənistan Demokratik Partiyasının sədri Aram Sərkisyan EA Daily-nun erməni müxbiri Liya Xocayana verdiyi müsahibədə "əzəli erməni Naxçıvan torpağının Azərbaycana verilməsini (1921-ci il Qars və Moskva müqavilələri əsasında) qanunsuz qərar həsab edir". [Xocayan, 2018] Erməni siyasətçisini Naxçıvanda Azərbaycanın 40 min hərbi qulluqçu və müasir silahlardan ibarət Əlahiddə Ümumqoşun Ordusunun yerləşdirilməsini, müasir zərbə silahlanma sistemi ilə təchiz olunmuş çoxminli Türkiyə ekspedisiyasının olmasını təşvişlə təkcə regional deyil, qlobal təhlükəsizliyə təhdid hesab edir.

Əzəli Azərbaycan torpağı Dağlıq Qarabağı erməni Artsax torpağı sayan üzdəniraq erməni siyasətçisi hələ həyasızçasına guya Artsaxın Qetaşen

(ermənilər Azərbaycanın Göygöl rayonunun Çaykənd kəndini belə adlandırılar) və Martuni (Azərbaycanın Xocavənd rayonu nəzərdə tutulur) rayonlarının Azərbaycan tərkibində qaldığını və onun Ermənistanın iddia etdiyi ərazilər olduğunu sərsəmcəsinə sayaqlayır.

Emənistanın milli təhlükəsizlik strategiyasında qanuni olaraq öz işğal olunmuş ərazilərini erməni işğalçılarından azad etməyə cəhd edən Azərbaycan Respublikası və ədalətli mövqe nümayiş etdirən onun strateji müttəfiqi Türkiyə Respublikası rəsmi olaraq Ermənistanın milli təhlükəsizliyinə ən ciddi təhdid hesab olunur.

Ermənistanın Gürcüstanın Samtsxe-Cavaxeti ərazisinə də iddia edir. Erməni tədqiqatçısı S.Minasyan yazır ki, "qədim dövrlərdən regionun köklü əhalisini ermənilər təşkil etmişlər, çünki bu ərazinin tarixi "Ermənistanın tərkib hissəsi olmuşdur". [Minasyan, 2005, 179]

Ermənistan yaranmış şəraitdən çıxış yolunu yerli ermənilərin təhlükəsizliyinin təmin olunmasında, Cavaxetiyə ABŞ-nın müvəqqəti məhdud hərbi kontingentnin yerləşdirilməsində görür.

Gürcüstana XIX əsrdə Türkiyə və İrandan köçürülən ermənilər əsassız olaraq özlərinin bu yerlərin köklü əhalisi hesab edirlər.

"Daşnaksütyun" partiyasının təsiri altında olan Gürcüstandakı erməni təşkilatlarının bəziləri muxtariyyət, bəziləri isə Ermənistana birləşmək tələbi ilə çıxış edirlər. Yerevanın bölgəyə böyük diqqət yetirməsini "Ermənistanın baş nazirinin Cavaxeti üzrə müşavirinin olması sübüt edir. Güya ki bu ərazi Ermənistan Respublikasının tərkib hissəsidir". [Ramişvili, 2007, 15]

Beləliklə, Ermənistan xarici himayədarlarının köməyilə Azərbaycan ərazilərinin 20 faizini işğal etməklə kifayətlənməyib, yeni ərazilər iddia etməklə, eləcə də Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsini özünün qədim ərazisi və ayrılmaz tərkib hissəsi hesab etməklə Cənubi Qafqazda regional təhlükəsizliyə ciddi təhdid törədir. Bunun üçün beynəlxalq qurumlar və bəzi dövlətlər ikili standartlardan əl çəkib beynəlxalq hüquqa və ədalətə əsaslanıb Ermənistanı işğalçı, təcavüzkar dövlət kimi cəzalandırmalı, sanksiyalar vasitəsilə ona ciddi təzyiq göstərməlidirlər.

Ədəbiyyat siyahısı:

1. Вокруг Нахчивани назревает война: интервью лидера Демпартии Армении // https://eadaily.com/ru/news/2018/06/12/vokrug-nahichevana-nazrevaet-voyna-intervyu-lidera-dempartii-armenii
2. Проблемы региональной безопасности на Южном Кавказе // https://www.imemo.ru/files/File/ru/events/2018/20072018/20072018-IV-TEZ-01.pdf
3. Минасян С. Социально-экономическая ситуация в Джавахети // Центральная Азия и Кавказ, № 3 (39), с. 178-185
4. Рамишвили В. Армяно-грузинский вопрос: Джавахети или Джавахк? // Кавказ и глобализация. 2007. № 5, Т.1. с 15-25

VALIDƏ RƏCƏB QIZI ƏLIYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti

# H.ƏLIYEV TƏHSIL HAQQINDA

Açar sözlər: Xalq, beynəlxalq aləm, dahi, psixoloji, təhsil

Xalqların milli varlığı və özünüdərkinin parlaq təcəssümünə çevrilmiş müstəqil dövlətçilik konsepsiyasının formalaşması bir qayda olaraq milli liderin adı ilə bağlı olur.Tarixin məhz həlledici mərhələsində optimal inkişaf modelinin siyasi və iqtisadi əsaslarını yaratmaq kimi məsuliyyəti üzərinə götürən belə nadir şəxsiyyətlər, həm də mənsub olduqları xalqların gələcək yaşam fəlsəfəsini müəyyən edirlər.Azərbaycanın Ulu öndəri Heydər Əliyev məhz belə şəxsiyyət, milli lider,psixoloq, təəssübkeş və vətənpərvər övlad, müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir.

Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, inkişaf edərək dünya dövlətləri arasında beynəlxalq münasibətlər zəminində öz layiqli yerini tutması, qüdrətli bir ölkə kimi təşəkkülü və davamlı inkişafı üçün dahi öndərimiz Heydər Əliyevə borcluyuq.

Heydər Əliyevi nadir dövlət xadimi edən, onu ucalara qaldıran, xalqın Ümummilli liderinə çevirən keyfiyyətlərdən birincisi onun xalqına qırılmaz tellərlə bağlı olması idi.Heydər Əliyev bütün ömrünü xalqının rifahının yaxşılaşdırılmasına, Azərbaycanın tanınmasına, onun beynəlxalq nüfuzunun artırılmasına həsr etmişdir. Onun bu fədakarlığı nəticəsində güclü, psixoloji cəhətdən yenilməz və müstəqil bir dövlət qurulmuşdur.

Azərbaycan xalqının böyük oğlu, dünya azərbaycanlılarının milli lideri Heydər Əliyev tarix baxımından cismən bizdən uzaqlaşdıqca millətimiz üçün bu əvəzsiz itkinin ağırlığı bir o qədər daha çox duyulmaqdadır. Mübaliğəsiz demək olar ki, bu qüdrətli şəxsiyyət, nadir zəka sahibi yaşadığı, fəaliyyət göstərdiyi dövrün canlı əfsanəsidir. Tarixə nəzər salsaq, çox az dövlət xadimi göstərmək olar ki, öz xalqının, vətəndaşı olduğu ölkənin ictimai-siyasi, sosial-iqtisadi, milli-mənəvi, tərəqqisindəki xidmətlərinə görə Ulu Öndərimiz səviyyəsinə yüksələ bilsin.

İnkar olunmaz həqiqətdir ki, ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin dirçəlişi və dinamik

inkişafı, eləcə də dövlət müstəqilliyinin möhkəmləndirilməsi, qısa bir zamanda Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuz qazanması bilavasitə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndərin genişmiqyaslı, çoxcəhətli fəaliyyətində təhsilin inkişafına diqqət və qayğı prioritet sahə kimi mühim yer tuturdu. Təhsilin aktual problemlərini və perspektivlərini incəliklərinə qədər dərindən bilən, təhsilin cəmiyyətdə rolunu və şəxsiyyətin formalaşdırılmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi rəhbərin təhsillə bağlı dəyərli mülahizə və müddəaları, sözün əsl mənasında, müasir pedoqoji fikir tariximizin nadir incilərindəndir. Aparılan araşdırmalar göstərir ki, Ulu öndər özünün nitq və çıxışlarında, pedoqoji ictimaiyyətlə görüşlərində təhsilin bütün pillələrini əhatə edən ən zəruri, aktuallığı ilə hamını düşündürən psixoloji məsələlərə toxunmuş, təhsilin məzmunu, idarəolunması, təlim-tərbiyə prosesinin mahiyyəti, cəmiyyətdə müəllimin rolu barədə konseptual müddəalar irəli sürməklə dövrünə görə təhsil sistemi işçiləri qarşısında dayanan vəzifələrə aydınlıq gətirmişdir.

Gənc nəslin müasir tələblər zəminində təhsillənməsi, gənclərin bilik və intellektual səviyyəsinin yüksəldilməsi, onların gələcəkdə kamil mütəxxəssis və ləyaqətli vətəndaşlar kimi yetişməsi ulu öndərimizi daim düşündürürdü.

Cəsarətli və uzaqgörən siyasətçi, müdrik dövlət rəhbəri olan Heydər Əliyev Azərbaycanın müstəqillik üfüqlərini hələ sovet hakimiyyəti illərində respublikaya rəhbərlik etdiyi dövrlərdə yaxşı görürdü. O, əmin idi ki, gələcək müstəqil dövlətin bünövrəsinin möhkəm qurulması üçün təhsilin inkişafına indidən güclü təkan verilməlidir.

Son illər belə bir fikir tez-tez səslənir ki, hər hansı bir ölkənin maddi ehtiyatları, yeraltı və yerüstü sərvətləri nə qədər çox olsa belə təhsil sahəsində irəliləyişləri yoxdursa, orada inkişaf sürəti də zamanın tələbindən geridə qalacaqdır.Müdrik dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycanın təhsilinin inkişafındakı ölçüyəgəlməz və danılmaz xidməti, heç şübhəsiz, ölkəmizin ümumi təhsil sistemində əsaslı islahatların başlanmasının təşəbbüskarı və ilhamçısı olmasıdır.

Şübhəsiz, bir tezis çərçivəsində dahi şəxsiyyət Heydər Əliyevin təhsillə bağlı proqram müddəalarının mahiyyətini, bunlarda ifadə olunmuş konseptual ideyaların məna tutumu baxımından miqyasını açıqlamaq və təhlil

edib müvafiq nəticələr çıxarmaq qeyri mümkündür. H.Əliyev bizlərə və gələcək nəsillərə ərməğan etdiyi zəngin irsi qiymətli bir xəzinədir.İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin işıqlı psixoloji təfəkküründən süzülüb gəlmiş nadir fikir inciləri uğurlu gələcəyə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcəkdir.

Bu gun Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı Ilham Əliyev başçılıq edir. Onun uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır, həyata keçirilən müdrik daxili islahatlar və uzaqgörən məqsədyönlü xarici siyasət Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevririr.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri İnstitutu "Elmi əsələr" №3 2018-ci il.
2. "Azərbaycanda təhsil siyasəti prioritetləri: müasir yanaşma" mövzusunda beynəlxalq elmi konfrans materialı- Naxçıvan şəhəri 2016-cı il 25noyabr.

VƏFA XANLAR QIZI RÜSTƏMOVA
AMEA İqtisadiyyat Institutunun elmi işçisi

# AZƏRBAYCANIN KADR POTENSIALININ BEYNƏLXALQ MÜNASIBƏTLƏR SISTEMINDƏ YERI VƏ ROLU

Açar sözlər: kadr potensialı, milli iqtisadiyyat, dövlətlər suverenliyi, etnik mədəniyyət, regional əməkdaşlıq, insan kapitalı

Öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası müstəqil xarici siyasət həyata keçirilməklə, milli mənafeləri qorumağa, kadr potensialının inkişafına xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə üdaxilə edilməməsi prinsipləri əsasında, öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri əsasında qurur. Bu baxımda dövlət tərəfindən görülən tədbirlər mühüm əhəmiyyət daşıyır.

Müstəqil dövlət kimi, Azərbaycan Respublikası bir sıra beynəlxalq təşkilat və qurumlarla əməkdaşlıq etməklə, öz milli maraqlarını gerçəkləşdirir. Məhz onun kadr potensialı, bu gün Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırında kadr potensial əhəmiyyətli rol oynamayır.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İ.H. Əliyev 4 may 2009-cu ildə imzaladığı "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı dövlət proqramı, eyni zamanda 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" milli iqtisadiyyatın perspektiv inkişafı üçün tutulmuş tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, xarici siyasətini beynəlxalq hüquqi norma və prinsiplərini nəzərə alaraq, kadr potensialının inkişaf etdirilməsi aktual məsələlərdən hesab olunmaqdadır. [1]

Müasir dövrdə, hər bir dövlətin davamlı iqtisadi inkişafını insan kapitalı şərtləndirir. Elmi – texnik və texnoloji baxımından inkişaf etməyən bir dövlət yüksək inkişafa nail ola bilməz. Azərbaycan iqtisadiyyatının çox şa-

xəli və dinamik inkişafı məqsədi ilə, zəngin təbii sərvətlərdən səmərəli istifadə etmək üçün, kadr potensialının hazırlanması sisteminin təkmilləşdirilməsi tələb olunur.

XX əsrin ortalarından etibarən elmtutumlu sənaye sahələri surətlə inkişaf etməyə başlamışdı. Bu dövrlərdən etibarən, elm istehsalatda əsas rol oymağa başladı. 40-50-ci illərdə isə elmi təşkilatların, elmi işçilərin və elmi kadrların tədqiqatların səviyyəsi xeyli yüksəldi. Bu illərdə elm sahələrində çoxlu yeni ixtisaslar yarandı.

Müasir dövrə, elmtutumlu sənaye məhsullarının istehsalı dünya bazarında üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, Almaniya, ABŞ, Yaponiya, Cənubi Koreya, Fransa, İngiltərə və başqa inkişaf etmiş dövlətlər məhz istehsal etdikləri elm tutumlu məhsullarının rəqabərqabliyyətli olmaları ilə, dünya bazarında mühüm mövqe qazanmışlar. Müasir dünyada transmilli-kooperasiyalar (TMK) fəaliyyət göstərirlər. Statistik məlumatlara əsasən, bu sahədə dünya üzrə 6 ABŞ şirkəti üstünlük təşkil edir. Bundan başqa Yaponiyanın 5, Almaniyanın 3, Böyük Britaniyanın 3 (ondan 2-si Almaniya ilə birlikdə yaradılmışdır), Fransa və İsveçrənin müvafiq olaraq iki şirkəti vardır.

Beynəlxal iqtisadi əlaqələrin inkişafı baxımından, 2018-ci ilin birinci yarımilində Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 174 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 102 ölkəyə məhsul ixrac olunmuş, 166 ölkədən idxal olunmuş, eyni zamanda ölkənin xarici ticarət dövriyyəsi 20275,7 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 13412,2 milyon dollar, idxalın dəyəri 6863,5 milyon dollar təşkil etmiş, nəticədə 6548,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 15,5 faizi Rusiya, 14,6 faizi Türkiyə, 10,5 faizi Çin, 6,3 faizi Almaniya, 5,2 faizi ABŞ, 4,0 faizi Ukrayna, 3,2 faizi İtaliya, 2,8 faizi Yaponiya, 2,6 faizi İran, 2,4 faizi Cənubi Afrika Respublikası, 2,3 faizi Birləşmiş Krallıq, 2,2 faizi İsveçrə, 28,4 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Müasir dövrə, elmtutumlu sənaye məhsullarının istehsalı dünya bazarında üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, Almaniya, ABŞ, Yaponiya, Cənubi Koreya, Fransa, İngiltərə və başqa inkişaf etmiş dövlətlər məhz istehsal etdikləri elm tutumlu məhsullarının rəqabərqabliyyətli ol-

maları ilə, dünya bazarında mühüm mövqe qazanmışlar. Müasir dünyada transmilli-kooperasiyalar (TMK) fəaliyyət göstərirlər. Statistik məlumatlara əsasən, bu sahədə dünya üzrə 6 ABŞ şirkəti üstünlük təşkil edir. Bundan başqa Yaponiyanın 5, Almaniyanın 3, Böyük Britaniyanın 3 (ondan 2-si Almaniya ilə birlikdə yaradılmışdır), Fransa və İsveçrənin müvafiq olaraq iki şirkəti vardır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmi biliklərə malik yüksək ixtisaslı kadrlar olmadan, millətin dünya miqyasında tanınmasına və dünya bazarında elmtutumlu məhsulların çıxmasına, beynəlxalq aləmdə mövqe qazanması mümkün deyildir. Bu baxımdan kadrların inkişafında dövlətin dəstəyi olmalıdır. İnkişaf etmiş ölkələr öz elmi nailiyyətləri ilə müvəffəqiyyətlər əldə etmiş və hal - hazırda da bu sahədə çox mühüm uğurlar qazanmışlar.

Bu baxımdan, kadr hazırlığı heç vaxt rəqabət qabiliyyətini itirmir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dünya bazarında gedən rəqabət prosesində, yalnız yüksək ixtisaslı kadrları olan ölkələr qalib gəlirlər. Dünya təcrübəsində insanın hazırlanmasına qoyulan investisiyalar çox gəlir gətirən investisiya kimi dəyərləndirilir. İxtisaslı və peşəkar kadrlar müəssisə və ya təşkilatın dəyərli resurslarından hesab olunur.

Ədəbiyyat siyahısı:

1. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may 2009/77464.htm

2. https://www.stat.gov.az/news/index.php?id=3995, Xarici ticarət əlaqələri haqqında,

3.Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri",/AMEA-nın müxbir üzvü Ş.M.Muradovun elmi redaktəsi ilə/ müəlliflər: Muradov A.N., Qəmbərov F.Ə., Sadıqov Ş.T., Musayeva F.Q., Abdullayeva R.S., Həsənov P.S., Efendiyev R.C., Nuruyeva G.B., İsmayılova A.A., Bakı, Elm, 278s, səh...

4. https://www.stat.gov.az/source/trade/

VƏSILƏ ƏLIF QIZI İBADLI
Azərbaycn Dillər Universiteti

ABŞ-IN İRAQA MÜDAXILƏSI VƏ FRANSA

Dünyanın mühim diplomatik və iqtisadi güclərindən biri hesab edilən Fransa ənənəvi Yaxın Şərq siyasətində regiondakı münaqişələrdə daim status-kvonun saxlanılması yönümlü dəyişməz bir mövqe tutmuşdur. Ümumiyyətlə, İraqla olan münasibətlərini də bu çərçivədə həyata keçirmişdir. İran-İraq müharibəsi zamanı da İraqın dünyəvi BƏƏS rejimini İranın teokratik idarəçiliyindən üstün tutaraq, İraqı dəstəkləmişdir. Küveyti işğal edən İraqa qarşı həyata keçirilən Körfəz müharibəsinə aktiv olaraq qatılmış, amma müharibədən sonra beynəlxalq ictimaiyyətin diqqətini İraq probleminin insani tərəfinə çəkmiş və tətbiq olunan embarqoların yüngülləşdirilməsinə çalışmış, BMT Təhlükəsizlik Şurasında "Neft əvəzinə qida proqramı"nın (986 sayl qərar) qəbul olunmasına təsir göstərmişdir. ABŞ-ın, kütləvi qırğın silahlarının varlığı və Yaxın Şərq və dünya sülhü üçün birinci dərəcəli təhlükə olaraq qiymətləndirdiyi Səddam Hüseyn diktaturası bəhanəsiylə İraqa müdaxiləsi zamanı Paris yenə də İraqın ərazi bütövlüyü və unitar quruluşunun qorunması yönümlü bir mövqe tutmuşdur.

2002-ci ilin payızında İraq probleminin həll olunması istiqamətində diplomatik təşəbbüslər əsnasında da Fransanın səyi nəticəsində BMT Təhlükəsizlik Şurasının iclasında İraq əleyhinə tətbiq olunacaq siyasət məsləsində fikir birliyi əldə olunmuşdur. 1441 saylı qərar çərçivəsində İraq, öhdəliklərini yerinə yetirməməyə davam etdiyi təqdirdə məruz qalacağı problemlər barəsində TŞ tərəfindən dəfələrlə xəbərdar olunmuşdu.

2003-cü ilin yanvar ayına qədər İraqda silah müfəttişləri tədqiqatlarına davam etdiyi və hələ heç bir KQS aşkar olunmadığı üçün İraq probleminin BMT-nin sülh yönümlü tədbirləri ilə sonlandırılması gözlənildiyi bir zamanda, ABŞ-ın siyasəti gözlənilmədən dəyişildi. Buş administrasiyası KQS yerinə, İraqa liberal demokratiya ixracının domino təsiri göstərərək bütün Yaxın Şərqi demokratikləşdirməsinin əhəmiyyətindən bəhs edirdi. Buş hökümətinin bu ani siyasət dəyişikliyi bir yandan problemin həlli ilə bağlı BMT, NATO və Aİ daxilində fikir birliyini pozarkən, digər tərəfdən

də "Anti-Amerikan üçlüyü"nün yaranmasına yol açırdı. "Anti-Amerikan üçlüyü" üzvləri olan Rusiya, Fransa və Almaniya fərqli geosiyasi, geoiqtisadi və strateji maraqlara və beynəlxalq statuslara malik olsalar da, bu üç dövlətin müharibə əleyhinə cəbhədə birləşməsini təmin edən ortaq maraqlar da var idi:

- BMT Konvensiyasına zidd olan ABŞ-ın "preventiv müharibə doktrinası"nı rədd etmək;
- beynəlxalq tədqiqat və audit prosedurlarını dəstəkləmək;
- İraqın sülh yolu ilə silahsızlaşdırılmasını təmin etmək. [Musaoğlu, 2006]

Analitiklərin fikrincə, İraqa müdaxilə etməkdə ABŞ-ın əsl məqsədi İraq neftinə sahib olmaq idi. Belə ki, İraq, Səddam Hüseyn rejimi radikallaşmadan əvvəl bölgədəki ən aktiv iqtisadiyyata malik ölkələrdən biri idi. Xüsusilə də, Qərbi Avropa firmalarının Yaxın Şərqdə ən asan ticarət etdiyi ölkə idi. Yaxşı təhsilli işçi qüvvəsi və pul qazanmağa açıq siyasəti ilə Yaxın Şərqin Almaniyası olaraq təsvir olunurdu. Məhz buna görə də, ABŞ İraqdakı rejim dəyişikliyi ilə Bağdadın bu rolunu yenidən öhdəsinə götürmək niyyətində idi. ABŞ-ın Ticarət Nazirinin köməkçisi Qrant Aldonas çıxışlarının birində İraq neftinin xaricə açılmasının neft idxal və ixrac edən ölkələrə, dolayısıyla da dünya iqtisadiyyatına müsbət təsir göstərəcəyini bildirmişdi. Bu tipli digər bir açıqlama da ABŞ Xarici İşlər naziri Kolin Poveldən gəlmişdi. O, müharibə və onun ardınca gələcək olan bir işğal vəziyyətində İraq neft ehtiyatlarını İraq xalqı adına zəmanət altına alacaqlarını bildirmişdi [Wall, 2004]. Rəsmi Vaşinqtonun müharibədən əvvəl İraqın neft ehtiyatlarının təhlükəsizliyini təmin etmək məqsədi ilə də müəyyən planlar hazırladığı bildirilmişdir. İngilis Guardian qəzetinin verdiyi məlumata əsasən, Amerikalılar 1991-ci ildə neft müəssisələrini yandıran Səddam Hüseyn in eyni hadisəni yenidən təkrar etməməsi üçün İraqın müxalif qruplarıyla planlar hazırlamaqla bağlı müzakirələr aparmışlar.

Göründüyü kimi müharibənin əleyhdarları içində öz mövqeyinin sərtliyi ilə seçilən Fransanın da əsas məqsədi daha çox iqtisadi amillərlə bağlı idi. Belə ki, Parisin Bağdad ilə olan tarxi münasibətləri çərçivəsində Total, Fina, Elf (TFE) kimi fransız şirkətləri İraqın neft sənayesinə külli miqdarda investisiya qoymuşdu. 2001-ci ilin statistik göstəricilərinə görə, neft ixracının 60%-i ABŞ-a, 10%-i İtaliyaya, 8,5%-i Fransaya olmuşdur. İraqın idxalın-

da isə Fransanın payı 19,9%, İtaliyanın və Almaniyanın payı isə müvafiq olaraq 10% təşkil etmişdir. Fransa ildə 1,5 milyard dollar ticarət həcminə malik İraqla ən çox ticarət aparan Avropa ölkəsi idi. ABŞ-ın İraqa müdaxiləsi Fransanın buradakı mövqeyini sual altına alırdı. Eyni vəziyyət İraqın uzun müddət silah tədarükçüsü və ticarət ortağı olan Rusiya üçün də keçərli idi. "Lukoil", "Mashinoimport", "Stroyeksport", "Salvnet" kimi Rusiya neft nəhənglərinin İraqdakı neft ehtiyatları 3 milyard barelə çatırdı və təxmini investisiya qoyuluşu isə 5 milyard dollardan artıq idi [Gürses, 2003].

Anti-amerikan üçlüyünün və dünya ictimaiyyətinin bir növ vasitəçiliyini boynuna götürən Fransa, BMT TŞ-nın qərarı olmadan ABŞ-ın hərbi yollarla İraq problemini həll etməyə çalışmasına qarşı "diplomatik hücum"a keçmişdir. Xarici İşlər Naziri Villepin 27 mart 2003-cü ildə London Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunda etdiyi çıxışında demişdir: "İraq problemi məsələsində meydana gələn qarşıdurmalar iki dünya görüşünün varlığını meydana çıxarmışdır: bir yanda tək qütblü bir sistem - tək tərəfli olaraq hərbi gücə meyl edən, önləyici savaş, güc tətbiq etmə haqqı; digər tərəfdən isə çoxqütblü bir sistem - çox tərəfliliyə baş vuran, kollektiv təhlükəsizlik, hüququn üstünlüyü" Fransa və Almaniya problemin başlanmasından bəri istər beynəlxalq terrorla mübarizədə, istərsə də İraqa müdaxilə və İraqın yenidən qurulması prosesində "genişləndirilmiş təhlükəsizlik konsepti" üzərində təkidlə dayanmış və tətbiq olunan siyasətlərin yeganə legitim qaynağının BMT qərarları olmalı olduğunun əhəmiyyəti üzərində dayanmışdılar [1].

Lakin Fransanın əks mövqeyinə baxmayaraq 2003-cü ilin martında C.Buş "artıq diplomatiyanın çarəsiz qaldığını" və ABŞ-ın İraqı KQS-dan azad etmək üçün "arzu edənlərin" koalisiyası ilə hərəkət edəcəyini bildirdi. Ardınca 2003-cü il martın 17-də ABŞ, Böyük Britaniya və İspaniya tərəfindən "Azor bəyannaməsi" imzalandı. Sənəddə S.Hüseynə ölkəni tərk etmək üçün 48 saat vaxt verilirdi [Queiroz, 2003].

2003-cü il martın 20-də Bağdad vaxtı ilə 5:34-də koalisiya qüvvələri İraqda hərbi əməliyyatlara başladı. General Tommi Frenksin başçılıq etdiyi hərbi əməliyyatlar "İraqın azadlığı" şrifti altında həyata keçirilirdi. Müharibənin ilk mərhələsi isə şok və titrətmə adlanırdı. Hərbi əməliyyatlar nəticəsində aprelin 9-da Bağdad ələ keçirildi və S.Hüseynin 24 illik hakimiyyətinə son qoyuldu. ABŞ-ın qeyri-qanuni müdaxiləsi bir tərəfdən Fransa və

ABŞ arasındakı strateji tərəfdaşlığa ciddi dərəcədə zərər verərkən, digər tərəfdən də Fransanın regionda iqtisadi və siyasi mövqelərinə böyük zərbə vurmuş oldu.

Ədəbiyyat siyahısı::

1. France and Germany unite against Iraq war, January 22, 2003, https://www.theguardian.com/world/2003/jan/22/germany.france
2. Irwin M. Wall. The French-American War Over Iraq, THE BROWN JOURNAL OF WORLD AFFAIRS, winter/spring 2004, volume x, issue 2
3. Levent Gürses. Bu bir petrol savaşı, 2003, http://arsiv.ntv.com.tr/news/200347.asp
4. Mario de Queiroz. Azores Summit, a Declaration of War on UN, March 17, 2003 by Inter Press Service, http://www.commondreams.org/headlines03/0317-08.html
5. Neziha Musaoğlu. Fransanın Ortadoğu politikaları, Ortadoğu yıllığı, 2006.

VÜSALƏ ELŞAD QIZI ƏFƏNDIYEVA
Azərbaycan Dillər Universiteti

## AZƏRBAYCAN RESPUBLIKASI VƏ NORVEÇ KRALLIĞI ARASINDA TƏHSIL SAHƏSINDƏ ƏMƏKDAŞLIQ

Açar sözlər: Skandinaviya Mərkəzi, Oslo Universiteti, Aqder Universiteti, Norveçin Tətbiqi Elmlər Universiteti

2005-ci ilin may ayının 19-da Azərbaycan Respublikası Norveç Krallığının Bergen şəhərində Vahid Avropa Ali Təhsil Məkanının yaradılmasını nəzərdə tutan Bolonya prosesinə qoşulmuşdur. Bu Azərbaycanın təhsil sisteminin Avropa Ali Təhsil Məkanına daha səmərəli inteqrasiyasına geniş imkanlar yaradır.

Müstəqillik qazanıldıqdan sonra, dövlətin siyasi və sosial-iqtisadi həyatında aparılan islahatlar və dəyişikliklər sırasında şübhəsiz ki, ən önəmli yeri təhsil islahatları təşkil edir. Bu sahədə Norveç Krallığı və Azərbaycan Respublikası arasında əlaqələr müxtəlif layihələr çərçivəsində müvəffəqiyyətlə həyata keçirilmişdir. Hələ 1994-cü il ölkələrimiz arasında münasibətlər yaranaraq inkişaf etdiyi bir dövrdə Azərbaycan nümayəndə heyətinin Norveçə və bir aydan sonra Norveç nümayəndə heyətinin Bakıya səfərləri ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlərlə yanaşı, elmi və mədəni əlaqlərin inkişafına böyük təsir göstərdi [Həsənov,1998, 108].

Təhsil sahəsində müvəffəqiyyətli layihələrdən biri 2006-cı ildə Norveç Krallığının Aqder Universiteti ilə Azərbaycan Dillər Universiteti (ADU) arasında imzalanmışdır. Bu əməkdaşlığın nəticəsi olaraq, Azərbaycan Dillər Universitetində Skandinaviyaşünaslıq ixtisası yaradılmışdır. Proqramın daha da geniş inkişaf etdirilməsi üçün 2007-ci ildən etibarən Oslo Universiteti də bu layihəyə qoşulmuşdur. Bu layihənin nəticəsində ADU-da 2007-ci ilin may ayının 3-də Skandinaviya Mərkəzi açılmışdır. Azərbaycan Dillər Universiteti ilə əvvəl Aqder, sonralar Oslo Universiteti arasında yaradılmış layihənin əsas məqsədi Azərbaycan ilə Norveç arasında təhsil sahəsində əlaqələr qurmaq və bu sahədə yenilikləri tədris sisteminə tətbiq etməkdir. Aqder Universiteti Norveç dili öyrədir, Oslo Universiteti isə Skandinaviya regionuna aid dərslərin keçirilməsinə cavabdehlik daşıyırdı [4]. Onu da

qeyd edək ki, Qafqazda yeganə olaraq Azərbaycan Dillər Universitetində Skandinaviyaşünaslıq ixtisası mövcuddur və burada ixtisas dili olaraq Norveç dili tədris olunur.

2007-ci il oktyabrın 31-də Xarici İşlər Nazirliyinin (XİN) Diplomatik Akademiyası ilə Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır. 60 diplomat üçün nəzərdə tutulmuş dörd moduldan ibarət olan bu proqramda nitq və hesabatların hazırlanması, Avropa İttifaqı, Sülh araşdırmaları, Skandinaviyaşünaslıq mövzularında təlimlər keçirilmişdir. Proqram 2008-ci il mayınadək davam etmişdir [1, 2007 II hissə, s.585]. İkinci proqram isə XİN-in və digər dövlət qurumlarının rəhbər şəxsləri üçün nəzərdə tutulmuşdur. Bu təlimlər zamanı azərbaycanlı gənc diplomatlar norveçli həmkarları ilə əlaqələr qurmuş və bu öz növbəsində beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığa zəmin yaratmışdır [1, 2007 II hissə, s.585].

Norveçin Tətbiqi Elmlər Universiteti (NMBU) və Azərbaycan Dövlət Aqrar Universiteti arasında 2011-2015-ci illəri əhatə edən "Davamlı kənd təsərrüfatı və tədqiqat üzrə akademik əməkdaşlıq" adlı layihə sazişi imzalanmışdır [3, 3]. Layihənin uğurlu nəticələrindən biri də ADAU-da yeni tədris metodları və təlimlərin tətbiq edilməsi və üç yeni magistr kursu açılmasıdır. ADAU-nun tələbə və professor-müəllim heyətinin bilik və bacarıqlarının artırılması məqsədilə onlar Norveç Krallığının NMBU-da kurslara göndərilmişlər.

Bundan əlavə, Bakı Ali Neft Məktəbi (BANM) və Xəzər Universiteti Norveçin Stavanger Universiteti və Trondheimdə Elm və Texnologiya Universiteti ilə əməkdaşlığa başlamışlar.

Azərbaycan Avropa və Skandinaviya ölkələri ilə artmaqda olan elmi-mədəni əlaqələri onu dünya birliyi ölkələrinin vahid mədəniyyət standartlarına daha da yaxınlaşdırır.

## Ədəbiyyat siyahısı::

1. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2007/ AR XİN, II hissə, Bakı: GARİSMA MMC, 2009, 1040 s.
2. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 300 s.

3. Norwegian University of Life Sciences. Report on the collaboration project between NMBU and Azerbaijan State Agricultural University . Oslo, 2015, 21 p. // Norveç Krallığının Ås mahalında yerləşən Norveçin Tətbiqi Elmlər Universitetinin (NMBU) Cari Arxivi: 2015-ci ilin yekunlarına dair hesabat.

4. Project description 2010-2013. Program for Scandinavian studies at Azerbaijan University of Languages, Baku-Phase 2 // Azərbaycan Dillər Universitetində fəaliyyət göstərən Skandinaviya Mərkəzinin Cari Arxivi. Hesabat 2010-2013, 13 s.

ВУСАЛАХАГАНИКЫЗЫМУРАДОВА
Институт Права и прав человека НАНА

# РЕГУЛИРОВАНИЕ КОНФЛИКТОВ КАК ФАКТОР ПРОТИВОДЕЙСТВИЯ УГРОЗАМ ГЛОБАЛЬНОЙ БЕЗОПАСНОСТИ

Ключевые слова: глобальная безопасность, угрозы, международно-правовое регулирование, конфликты нового поколения, вооруженный конфликт, права человека, межотраслевая конвергенция.

Глобализационные процессы активизируют плюрализацию новых акторов мировой политики и, соответственно, вовлекают в международно-правовое регулирование новые отношения. Феномен глобальных проблем заключается в том, что требует не только универсального участия всех государств в противодействии угрозам и вызовам, но и регионально-локального международно-правового регулирования конфликтов. Несмотря на практическое завершение этнополитического передела, вызванного развалом СССР и распадом социалистического блока, усиливающаяся динамика локально-региональной конфликтности усложнила международно-правовые отношения, значительно увеличилось число вооруженных противостояний с участием государств.

В отличие от большинства конфликтов 70-х и 80-х годов, носивших идеологический характер, в современных глобализационных условиях, как констатирует Резолюция Генассамблеи ООН A/70/PV.117, ГА ООН (2016г.), доминируют конфликты вокруг контроля за органами управления, природных и экономических ресурсов, на которые накладываются этническая поляризация, социально-экономическая напряженность. Указанные факторы создают прецеденты интернационализации локально-региональных конфликтов.

Региональные конфликты отличаются увеличивающимися возможностями использования тактического ядерного оружия, приобретенного через каналы транснациональной организованной преступности и террористических сетей. В Резолюции 1540 (2004г.) Совет

Безопасности ООН придал распространению и попаданию оружия массового уничтожения в руки негосударственных субъектов статус угрозы для международного мира и безопасности. Региональные конфликты с большой долей вероятности способны перерасти в глобальные, так как создают мотивацию для приобретения всех видов ОМУ (тактического ядерного, химического, биологического), использование которого не только способно причинить масштабные, часто необратимые разрушения. В продолжающимся сирийском конфликте Комиссия Совета Безопасности ООН по расследованию преступлений в области прав человека в Сирии за период с 2011 по 2017 отчиталась о более чем двадцати случаях применения химического оружия. Но так как в этом региональном конфликте несколько противоборствующих сторон, причем как государственных, так и негосударственных установить субъекта международной ответственности не представляетсявозможным.

Угрозу представляет не только тактическое ядерное оружие, но и гуманитарные последствия конфликтов: рост участников нерегулируемых конфликтов, увеличение числа беженцев и внутренне перемещенных лиц, экологические катастрофы. На 72-ой сессии Генеральной Ассамблеи (2018) Генеральный секретарь ООН отметил, что за последние годы региональными конфликтами с применением насилия было затронуто больше стран, чем в какой-либо период за последние почти три десятка лет.

Международные и региональные конфликты представляют вызовы правовому обеспечению глобальной безопасности по причинам: нерегулируемые конфликты продуцирует кризис господства права; разрушается существующий международный правопорядок. Устав ООН не содержит понятия «конфликт», что, естественно, не предусматривает механизмов регуляции конфликтов. Однако ст. 34 Устава ООН определяет правомочия Совбеза ООН рассматривать любой спор или любую ситуацию, которая может привести к международной напряжённости. Во многих международно-правовых актах разрешение конфликтов определяется как средство поддержания глобальной безопасности. В частности, в резолюции СБ ООН 1377 (2001) «О глобальных усилиях по борьбе с терроризмом» урегулирование

региональных конфликтов квалифицируется как глобальная задача, решение которой будет способствовать безопасности всего человечества.

Комиссия международного права на 53-ей сессии ГА в 2001г определила «коренной концептуальный сдвиг, который происходит сейчас в международном праве и который выражается в переходе от индивидуализма к определенной форме коллективизма, когда речь заходит об обеспечении соблюдения и более эффективном закрепления норм международного права в мирном разрешении споров».

Специфика современных вооруженных конфликтов как угрозы системе глобальной безопасности проявляется в размывании традиционных различий между международными вооруженными и внутренними вооруженными конфликтами. Последние, как признает Комиссия международного права, в статистическом отношении являются более частыми явлениями. В последние два десятилетия в практике Совета Безопасности и в докладах некоторых его специальных докладчиков высказываются рекомендации призвать ту или иную вооруженную группу, являющуюся негосударственным субъектом и не обладающую правоспособностью, официально взять на себя международные обязательства по уважению международных норм по правам человека. Критерием обращения к такой группе выступают реальные возможности осуществляемого ею значительного контроля над территорией и населением, а так же наличие у нее определенной политической структуры. В конфликтах нового поколения международное право прав человека имеет преимущественную силу «в качестве lex specialis в том районе на территории государства, чье правительство ведет борьбу с силами повстанцев. Этот район, значительный по масштабам данной страны,. уверенно не контролируют ни повстанцы, ни правительство». Концептуальный сдвиг в разрешении конфликтов в условиях глобализации базируется на признании концепции межотраслевой конвергенции в правовом регулировании конфликтов существенной частью современной международно-правовой доктрины конфликтов «нового поколения».

YEGANƏ ÜRFAN QIZI BAXŞIYEVA
AMEA, Qafqazşünaslıq İnstitutu

# ERMƏNISTANIN AZƏRBAYCAN RESPUBLIKASINA QARŞI HIDROTERROR SIYASƏTI

Açar sözlər: hidroterror, çirklənmiş ekologiya, su hövzələri, Ermənistan

Ekoloji terror ekologiya elmində mövcud anlayışlardan biri olaraq, konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, bilərəkdən vurulan ziyandır. Artıq 25 ildən daha çox zamandır ki, Azərbaycan Respublikası qərb qonşusu Ermənistanın törətdiyi ekoloji terrordan əziyyət çəkir. Hazırda Ermənistanın Azərbaycana qarşı apardığı terror müharibəsi, aktiv silahlı mübarizə formasından "soyuq terror müharibəsi" fazasına keçərək, müxtəlif üsullarla həyata keçirilir. Ermənistanın Azərbaycana qarşı yürütdüyü bu terror siyasəti ideoloji, elmi, mədəni, mənəvi, sosial sahələri əhatə etməklə, bir növ kiberterror səviyyəsinə çatdırılmışdır. Ermənistan ərazilərindən gələn və Azərbaycanın içməli su mənbələrini formalaşdıran çayların kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilməsi davamlı xarakter almışdır. Bu amil regional əhalinin təhlükəsiz yaşama hüququnu dərindən sarsıdır.[İsmayılov, 2017, 41-51.]

Azərbaycan ərazisinin 3/4 hissəsi Kür çayı hövzəsinin aşağı axarında yerləşir. Hər il Ermənistan ərazisindən kimyəvi və bioloji cəhətdən çirkləndirilmiş 350 mln. kub metrdən artıq su kütləsi Kür çayı hövzəsinə tökülür. Nəticədə Araz çayının 43 km-i boyunca Azərbaycan ərazisindəki mikroflora və mikrofauna tamamilə məhv edilmişdir. Ermənistanın ekoloji terror siyasətinin bilavasitə təsiri nəticəsində Araz çayında suyun çirklənmə səviyyəsi normadan dəfələrlə artıq göstəriciyə malikdir. Çayda turşululuq göstəricisi – ph 2,4-ə enmiş, mikroflora 180-200 dəfə azalmışdır. Eyni zamanda Araz çayında qiymətli balıq növlərinin kökü kəsilmişdir. Əvvəllər qeydə alınmış 21 balıq növünün son 10-15 il ərzində məhv olaraq 16 növə enməsi müəyyənləşdirilmişdir. [Qurbanov,2013, 56]

Eyni zamanda beynəlxalq qurumların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində nümayiş etdirdikləri qeyri-konstruktiv yanaşma regionda vəziyyətin daha da pisləşməsinə xidmət edir. Ermənistan ATƏT-in Minsk qrupunun münaqişənin konservasiyasına xidmət edən ikili mövqeyindən yararlanaraq əsassız bəhanələrlə münaqişənin həllini uzadır. Xarici havadarlarından dəstək alan rəsmi Yerevan transsərhəd su ehtiyatlarının idarə olunmasına, istifadəsinə, qorunmasına və su kvotasının müəyyənləşdirilməsinə dair region dövlətləri ilə hər hansı bir müqavilənin bağlanmasını ləngitməklə, ölkəsinin Ermənistan SSR-in hüquqi varisi olduğunu bəhanə gətirir, regional hidrosiyasətdə SSRİ-nin hələ 1924-cü ildə Türkiyə, 1957-ci ildə isə İranla su bölgüsünə dair bağladığı sazişlərin müddəalarına söykənməkdə davam edir. [Alakbarov, 2014, 58-68.]

Sərsəng su anbarı Ermənistanın Azərbaycan Respublikasına qarşı həyata keçirdiyi hidroterror fəaliyyətinin yönəldiyi obyektdir. Ermənistanın və Dağlıq Qarabağın separatçı rejiminin hidrosiyasətində işğal altında olan Kəlbəcər və Laçın rayonlarının su ehtiyatları strateji əhəmiyyətə malikdir. Yalnız Sərsəng su anbarının işğalı nəticəsində 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi Azərbaycan Respublikasının bu regionuna əvəzolunmaz zərər vurmuşdur. Hazırda su anbarına və onun qurğularına 25 ildən artıq müddətdir ki, texniki xidmət göstərilmədiyi üçün o qəza vəziyyətindədir. Bu səbəbdən Sərsəng su anbarının işğal olunmuş ərazilərdə qalması onun aşağı relyefində yerləşən Dağlıq Qarabağın 138.000 əhalisini, Aşağı Qarabağ regionunun 400.000 əhalisini içməli su ilə təchiz etdiyinə görə ciddi problemlərə səbəb olur və qeyd etmək labüddür ki, əgər təhlükəli vəziyyət yaranarsa bəndin dağılması nəticəsində sadəcə 1 saat ərzində sözü gedən ərazi və əhali məhv ola bilər. Ermənistan statistikləri gələcəkdə qondarma "Dağlıq Qarabağ Respublikası" əhalisinin 200 min nəfərə çatacağına ümid edərək, kənd təsərrüfatı sahəsində və məişətdə işlədilmək üçün illik şirin su tələbatının 365 miyon $m^3$ həcmində olacağını proqnozlaşdırmışdı. Bu isə Sərsəng su anbarının ehtiyatlarından 59% çoxdur. Təsadüfi deyil ki, rəsmi Yerevanda Kəlbəcər və Laçın rayonlarının erməni işğalından azad olmasını son nəticədə qondarma rejimin labüd süqutu və hidrosiyasətdə Azərbaycan tərəfinin təşəbbüsü ələ alması kimi dəyərləndirirlər. Qondarma "Dağlıq Qarabağ Respublikası" prezidenti aparatının informasiya idarəsinin rəisi David Babayan "Dağlıq Qa-

rabağ münaqişəsi kontekstində Ermənistan Respublikasının və Arsakın su təhlükəsizliyi problemi" məqaləsində bu ehtimal barədə yazır: "Bu gün Dağlıq Qarabağın içməli su ilə təmin olunması kontekstində Karvaçar (Kəlbəcər) və Kaşataq (Laçın) rayonları müstəsna əhəmiyyətə malikdirlər. Bütövlükdə, Dağlıq Qarabağ Respublikasının mövcudluğu və onun su təhlükəsizliyi həmin ərazilərin statusundan asılıdır. Əgər, Azərbaycan yenidən bu rayonlara yiyələnərsə, nəinki DQR, eləcə də Ermənistan fəlakətlə üzləşəcəkdir. Çünki, Ermənistanın əsas şirin su mənbəyi olan Sevan (Göyçə) gölünü qidalandıran Arpa və Vorotan (Bərgüşad) çaylarının mənbəyi bu rayonlardadır [Ələkbərov, 2013, 22]

Ermənistan hökuməti "zəbt edilmiş ərazilərin su ehtiyatlarına mübadiləsi" prinsipini öz siyasi gündəminə gətirməkdən çəkinməmişdir. Belə ki, 2013-cü ilin avqustun ortalarında separatçı rejimin "baş nazirinin müavini" Artur Aqabekyan "Azadlıq" Radiosunun erməni xidmətinə verdiyi müsahibədə bildirmişdir ki, "Dağlıq Qarabağ hökuməti" su ehtiyatlarının birgə idarə olunmasında Azərbaycanla dialoqa başlamağa hazırdır. Belə ki, "Hələ sovetlər dönəmində tikilmiş Sərsəng su anbarının imkanları bizə lazım olan miqdardan çoxdur. Əgər onun ehtiyatlarından düzgün istifadə olunarsa, bundan həm erməni, həm də Azərbaycan tərəfi bəhrələnə biləcəkdir". "Dağlıq Qarabağ Respublikasının" müstəqil dövlət olduğuna eyham vuran A.Aqabekyan Azərbaycana ünvanladığı "əməkdaşlıq" təklifini belə şərh etmişdir: "Azərbaycan qonşu dövlətdir. Bu gün düşmən olsaq da, sabah münasibətlər yumşala bilər. Gərək xalqlarımızı indidən sülhə hazırlayaq".[Evrim, 2017, 11]

Sərsəng su rezervuarında ekoloji faciə ilə bağlı Azərbaycan tərəfinin haqlı bəyanatlarının yalan olduğunu iddia edən qonşu dövlətin rəsmi nümayəndələri ölkələrinin beynəlxalq öhdəliklərdən imtina etməsini maliyyə çətinliyi ilə əsaslandıraraq Avropa rəsmi nümayəndələrinin sərhəd regionlarında monitorinqinə icazə verməməkdən belə çəkinmədilər. Amma qarşı tərəfin yaratdığı maneələrə baxmayaraq AŞPA-nın qış sessiyası (yanvar 26, 2016-cı il) iclasında deputatların səs çoxluğu ilə (98 lehinə 71 əleyhinə) bosniyalı deputat Melitsa Markoviçin "Azərbaycanın cəbhəyanı rayonlarının sakinlərinin sudan qəsdən məhrum edilməsi" adlı 2085 saylı qətnaməsi qəbul edildi. Sənəddə Sərsəng su rezervuarının köhnəlmiş texniki qurğuların 20 ildən çox nəzarətsiz saxlanması, əhalinin sudan istifadə imkanlarının

məhdudluğu, sosial vəziyyətinin çıxılmaz hala gəlməsi nəticədə suvarılmadan məhrum yararsız torpaqları yerli sakinlərin tərk etməsi vurğulanırdı.[Assembly debate on 26 january 2016]

22 may 2019-cu il tarixdə Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin təşəbbüsü ilə "Ermənistanın işğal etdiyi Azərbaycan Respublikasına məxsus ərazilərdə qeyri-qanuni fəaliyyətlər: peyk görüntülərindən sübutlar" adlı sənəd BMT Təhlükasizlik Şurasının iclasında gündəlik məsələlər siyahısına daxil edildi. Sənəddə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyəti, o cümlədən su anbarlarının dağıdılması və yararsız vəziyyətə salınması faktları azərkosmos vasitəsilə çəkilmiş və peyk görüntüləri dəlil kimi göstərilərək Təhlükəsizlik Şurasının sənədi kimi təsdiq olundu.

Habelə Ermənistanın bəşəriyyətə və insanlığa qarşı yönələn terror siyasəti Azərbaycan Respublikasının hidromühitinə ciddi təhlükə yaratmaqda davam edir. Kür və Araz çaylarının çirkləndirilməsi, Azərbaycan Respublikasının işğal altında olan mineral bulaqlarının dağıdılması, meşə sahələrinin yandırılaraq məhv edilməsi, mineral və xammal ehtiyatlarının qanunsuz mənimsənilməsinə səbəb olan işğalçılıq aktı dövlət siyasətinə çevrilmişdir. Ermənistanın təbiətə və təbii sərvətlərə mənfi münasibəti XXI əsrdə daha da artaraq ən yüksək həddə çatmışdır. Ümumiyyətlə, Ermənistanın işğalı altında olan ərazilərdə vahid ekosistemin dağılması Cənubi Qafqazda böyük fəlakətin başlanğıcını qoydu. Təəssüf ki, işğalçı dövlətin beynəlxalq hüquq normalarına zidd fəaliyyəti beynəlxalq qurumlar tərəfindən nəinki nəzarətsiz qalmış, həmçinin dünya dövlətləri bu cür qeyri-insani davranışa laqeyd münasibət göstərirlər.

Ədəbiyyat siyahısı:

1. Alakbarov A. Transboundary water issues in the Southern Caucasus in the context of international law / Global and regional hydropolitical problems in the context of international cooperation and security International Conference. Baku: 2014, p.58-68.
2. Assembly debate on 26 january 2016 (3rd Sitting) (see Doc. 13931, report of the Committee on Social Affairs, Health and Sustainable Development, rapporteur: Ms Milica Markovic). Text adopted by the Assembly on 26 january 2016 (3rd Sitting) http://assembly.coe.int

3. Evrim Maden T. Weaponization of Water: the Case of Sarsang reservoir. Ankara: 2017, 111 p. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları: Ali məktəblər üçün dərslik / Ələkbərov U.K. Bakı: Təhsil, 2013, 222 s.

4. İsmayılov R.A. Sosial-iqtisadi inkişaf kontekstində Azərbaycanda su ehtiyatlarının davamlı idarə olunması və sektorlararası müqayisəli təhlillər // Su problemləri: elm və texnologiyalar jurnalı. Bakı: 2017 (9), № 1, s.41-51.

5. Qurbanov A. Hidroböhran, hidromünaqişələr və hidrostrategiya. Bakı: 2013, 162 s.

YEGANƏ ƏZIZ QIZI HACIYEVA
AMEA Z.B.Bünyadov adına Şərqşünaslıq İnstitutu

# CƏNUBI AZƏRBAYCANDA YAŞAYAN AZƏRBAYCANLILARIN ETNIK VƏ VƏTƏNDAŞLIQ KIMLIYININ FORMALAŞMASININ SOSIAL, SIYASI VƏ MƏDƏNI ŞƏRTLƏRI

Açar sözlər: İran, cənubi azərbaycanlılar, kimlik, milli şüur

Tarixi inkişaf prosesində Azərbaycan türklərinin etnik və milli kimliyi İslam dini, fars, ərəb, rus dillərinin, Qərb və İran mədəniyyətinin, o cümlədən cənubi azərbaycanlıların farslaşdırılması və quzey azərbaycanlıların ruslaşdırılması siyasətinin, həmçinin qloballaşma dalğasının təsirlərinə məruz qalmış, müxtəlif dövrlərdə mövcud ictimai-siyasi, mədəni proseslərə uyğun olaraq şəkillənmişdir.

Cənubi azərbaycanlıların özünüdərk, millətləşmə prosesində problem yaradan və ona təsir edən ən mühüm amillər məzhəb (şiəlik) və fars dilinin geniş yayılması olmuşdur. Səfəvilər dövründən başlayaraq etnik-mədəni prosesin istiqamətinin dəyişməsində şiəliyin böyük rolu oldu. Şiəliyin dövlət məzhəbinə çevrilməsi milli kimliyin müəyyənləşməsini şiəliyə bağladı. Bu prosesin davamı olaraq iranlı kimliyi yalnız ortaq tarix, ortaq coğrafiya və ortaq dinlə deyil, eyni zamanda yaxın keçmişin ortaq təcrübələri ilə də formalaşmışdır. İranda yaşayan xalqlar keçən əsrdə qarşılaşdıqları Qərb imperializminin təhdidi, istibdad rejimlərə qarşı mübarizə, Məşrutə inqilabı, Müsəddiqin rəhbərliyi ilə başlanmış milliyyətçi hərəkat, 1953-cü ildə baş vermiş dövlət çevrilişi, İslam inqilabı, teokratik rejimin təzyiqləri əleyhinə etirazlar, İraqa qarşı müharibədə yaşanan hadisələr zamanı milli kimlik duyğusuyla bir-birinə bağlanmışlar.

XX əsrin 20-ci illərindən hakimiyyətdə türklərin farslarla əvəz olunması, yeni rejimin etnik birliyin yaradılması istiqamətində yürütdüyü siyasət - etnik kimliyinin müxtəlif vasitələrlə əridilməsi və aradan aparmaq əks effekt verərək İran türklərində etnik şüurun formalaşmasını təmin etdi. Pəhləvilərin hakimiyyəti dövründə fars dilinin həddən artıq yüksəldilməsi bu dilə qarşı nifrətin artmasına səbəb oldu. Bu dövrdən sonra etnik kimliyin

ən mühüm tərəfi olan ana dili məsələsi daha çox milli məsələ kimi qoyulmağa başlandı.

İslam inqilabı və onun nəticələri azərbaycanlıların və digər xalqalrın öz kimliyini dərk etməsinə şərait yaratdı. Əsasını farsçılıq ideologiyası təşkil edən vahid millət və vahid dövlət siyasəti iflasa uğradıqdan sonra bu siyasətin islam ideologiyası adı altında aparılması qərarı əslində farsçılıq ənənələri əsasında bir sistemin qorunub saxlanmasının mümkünsüzlüyü deməkdir. Çünki farsçılıq yalnız 20-ci əsrin əvvəllərində birliyi təmin edən amil kimi qəbul edilirdisə, islam uzun əsrlərdən bəri İranda yaşayan xalqların birliyini möhkəmləndirən bir amil kimi mühüm rol oynamışdı. İslamın belə bu cür təbliği dinin gözdən salınmasına və sonda demək olar ki, nüfuzdan düşməsinə səbəb oldu. Artıq milli birliyin möhkəmləndirilməsi üçün nəzərdə tutulmuş bağlar - fars dili və islam ideologiyası öz təsirini itirib. İrandakı hakim rejimin yürütdüyü milli siyasət Azərbaycan türkcəsinin funksiyasının danışıq dili sahəsi ilə məhdudlaşmasını "təmin" etsə də, İranın daxilində və qlobal geosiyasi kontekstdə cərəyan edən ictimai-siyasi proseslər cənubi azərbaycanlıların milli şüurunun lazımınca inkişafının tam şəkildə başa çatması üçün tarixi bir şansoldu.

Dünyada və regionda baş verən hadisələrin, qloballaşma proseslərinin təsirinə müqavimət siyasətinin nəticəsi olaraq tədricən sərtləşən totalitar İran dövlətində artıq siyasi cəhətdən daha çox maariflənmiş və milli şüuru dərinləşmiş azərbaycanlılar öz Azərbaycan-türk kimliyinin siyasiləşməsinə nail olmaqdadır. Gənclər və bəzi ziyalılar arasında tədricən zəif də olsa iranlı kimliyindən də imtina tendensiyası müşahidə olunmaqdadır.

YEGANƏ EHSAN QIZI MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti

# SƏFƏVI VƏ MOĞOL DÖVLƏTLƏRI ARASINDAKI DOSTLUQ ƏLAQƏLƏRI

Açar sözlər: Səfəvi, Moğol, şeybanilər, dostluq, münasibətlər

İstər müasir dövrdə, istərsə də, orta əsrlərdə dövlətlər arası münasibətlərin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan XVI yüzillikdə bir-birinin ardınca yaranmış iki qüdrətli müsəlman-türk dövlətinin: Səfəvilərlə Moğolların arasındakı münasibətlər araşdırılması böyük maraq doğurur. Qeyd etmək lazımdır ki, son dövrlərdə Azərbaycan tarixşünaslığında müxtəlif səviyyələrdə bu iki dövlət arasındakı diplomatik münasibət araşdırılmışdır və çox güman ki, araşdırılmaqda da davam edəcəkdir. Səfəvi-Moğol əlaqələrinə maraq onunla bağlıdır ki, onlar arasındakı münasibətlər Səfəvilərin istər Osmanlı imperiyası, istərsə də, özbək xanlığı ilə münasibətlərindən xeyli fərqli olmuşdur. Belə ki, qeyd olunan dövlətlərlə Səfəvilər arasında istər dini zəmində, istərsə də, ərazilər üzərində daim münaqişələr baş verdiyi halda, Moğollarla kifayət qədər güclü dostluq münasibətləri mövcud olmuşdur. Bu iki dövlət arasında ciddi hərbi münaqişələr olmamışdır, onlar arasında əsas ziddiyyət obyekti olan Qəndəharın bu və ya digər dövlət tərəfindən tutulması belə münasibətlərə ciddi təsir göstərməmişdir. Buna görə də səfəvilərlə moğollar arasındakı dostluq münasibətlərinin səbəblərinin öyrənilməsinə müəyyən ehtiyac vardır və bu məqalədə də hər iki dövlət arasında mövcud olmuş dostluq münasibətlərinin səbəbləri nəzərdən keçiriləcək.

Səfəvilərlə Moğollar arasındakı xoş münasibətlərin ən ilkin səbəbini hər iki sülalə arasında qədimdən bəri mövcud olmuş dostluq münasibətlərində axtarmaq lazımdır. Belə ki, Səfəvi dövlətinin yaradıcısı Şah I İsmayılın ulu babası Şeyx Xacə Əli ilə Moğollar dövlətinin banisi Zəhirəddin Baburun mənsub olduğu sülalənin əsasını qoymuş Əmir Teymur arasında səmimi münasibətlər mövcud olmuş və hətta sonuncu Şeyx Səfi məqbərəsinə torpaq mülkləri hədiyyə etmiş, Kiçik Asiyadan gətirdiyi əsirlərinin çoxunu şeyxin xahişilə bağışlamışdı (Münşi, 2010, 63-64). Bir sözlə, Şeyx Xacə Əli ilə Əmir Teymur arasındakı xoş münasibətlər onların varislərinin döv-

ründə də davam etmişdir. Heç təsadüfi deyildir ki, yeni yaranmış Səfəvi dövlətini ilkin tanıyan dövlətlərdən biri Xorasanın teymuri hakimi Sultan Hüseyn Bayqara olmuşdur (Aləm-arayi Səfəvi, 1363, 191-192). Ehtimal ki, məhz hər iki sülalə arasında qədimdən bəri mövcud olan xoş münasibətlərə görə Şah I İsmayıl Mərv döyüşündən sonra əsirlərin içərisində olan Zəhirəddin Baburun bacısı Xanzadəbəyimi azad edərək, onu hörmət-izzətlə qardaşının yanına göndərmişdir (Бабур-наме, 1958, 8). Doğrudur, bəzi tədqiqatçılar bunu onun Zəhirəddin Baburla özbəklərə qarşı ittifaq yaratmaq məqsədilə etdiyini yazırlar (Азимджанова, 1977, 87). Lakin mənbələrin təhlili bunun əslində belə olmadığını göstərir. Belə ki, həmin vaxt özbəklərlə Ceyhun çayı sərhəd olmaqla sülh danışları getdiyindən Səfəvi şahı Baburla ittifaq haqda düşünmürdü. Yalnız özbəklərlə sülh danışıqlar pozulduqdan sonra Şah I İsmayıl onunla alyans yaradır.

Zəhirəddin Babur və eləcə də teymuri nəslinin bir çox nümayəndəsi Mərv döyüşündən sonra yaranmış şəraitdən istifadə edərək itirilmiş ata-baba yurdları olan Məvarənnəhri geri qaytarmağa cəhd edəndə ilk əvvəl Səfəvi dövlətinin yaradıcısı ilə ittifaq yaratmağa çalışırlar və qızılbaşlar qarşısında hətta öz üzərlərinə bir sıra öhdəliklər də götürürlər. Köçəri özbəklərin onunla sülh bağlamaq niyyətində olmadıqlarını görən Şah I İsmayıl təbii olaraq teymurilərlə, bu zaman həmin nəslin lideri olan Zəhirəddin Baburla alyans bağlayır. Doğrudur, bu alyans uğurlu alınmır. Lakin bu onlar arasında münasibətlərin tamamilə kəsilməsilə nəticələnmir. Belə ki, Zəhirəddin Babur Şimali Hindistanı fəth etdikdən sonra Səfəvilərlə əlaqələri bərpa etməyə çalışır və buna da müvəffəq olur. Ümumiyyətlə, sonrakı dövrlərdə də, dövlətlər arasındakı dostluq münasibətləri davam etdirilmişdir. Dövlətlərarası yazışmalarda bu dostluq münasibətləri həmişə qeyd olunmuşdur. Səfəvi dövlətinin sayca beşinci şahı I Abbasla moğol hökmdarı Cahangir yazışmalarında bir-birlərini "qardaş" adlandırıdılar (Фарзалиев, Мамедова, 2004, 86). Beləliklə, hər iki dövlət arasındakı dostluq münasibətlərinin əsas səbəblərindən birinin sülalələr arasında qədimdən bəri mövcud olan olmasını qədim dostluqla bağlı tam əsasla deyə bilərik.

Səfəvi və moğol dövlətləri arasındakı dostluq münasibətlərinin digər bir səbəbi Məvarənnəhrdə teymuriləri əvəz etmiş, həm teymurilərə, həm də səfəvilərə qarşı düşmən mövqedə olan şeybanilər dövlətinin mövcudlu-

ğu ilə bağlı olmuşdur. Belə ki, şeybanilər teymurilərin irsi mülklərini bir-birinin ardınca ələ keçirərək, onları özlərinin ata-baba yurdlarından qovmuşdular. Səfəvilərə gəldikdə isə onlar şiəliyə qarşı olduqca sərt mövqe tutmuşdular. Zəhirəddin Baburun və eləcə də, digər teymurilərin Mərv döyüşündən sonra Səfəvilərlə alyans yaratmaları da məhz bununla bağlı idi.

1528-ci ildə Şah I Təhmasibin başçılığı altında Cam döyüşündə Səfəvilərin özbəkləri məğlub etməsi xəbəri Zəhirəddin Baburu maraqlandırır. Belə ki, o, bu zaman Şimali Hindistanı fəth etmiş olsa da, ata-baba yurdu olan Məvarənnəhrin geri qaytarılmasında maraqlı idi. Ümumiyyətlə, onun xələfləri də, istənilən əlverişli fürsətdə Məvarənəhri əldə etməyə çalışmışlar. Buna misal olaraq, Şah Cahanın XVII əsrin 40-cı illərinin ikinci yarısında Orta Asiyada Bəlxlə Buxara arasında baş vermiş münaqişədən istifadə edərək Bəlxə böyük bir ordunun göndərməsini qeyd etmək olar (Ахмедов,1982, 296; Туманович , 1989, 154).

Hər iki dövlət arasındakı dostluq münasibətlərinin səbəblərindən danışarkən Hindistana mühacirət etmiş çoxlu sayda Səfəvi təbəəsinin fəaliyyəti də qeyd olunmalıdır. Belə ki, həmin mühacirlərin bir çoxu Moğol dövlətində bir çox sahələrdə özlərinə uğurlu karyera qurmağa müvəffəq olmuşdular. İyirmi ildən artıq Hindistanda yaşamış fransız səyyahı Fransua Bernye Moğol sarayında olan iranlı (əlbəttə ki, böyük əksəriyyəti azərbaycanlı olmuşdur) əmirlərin necə böyük bir mövqeyə, Moğol imperatorlarının qərarlarına təsir göstərmək qüdrətinə malik olduqlarını qeyd edirdi.

Beləliklə, səfəvilərlə moğollar arasındakı dostluq münasibətlərinin üç səbəbdən irəli gəldiyini qeyd etmək olar: hər iki sülalə arasındakı qədim dostluq münasibətləri, istər səfəvilərə, istərsə də, moğollara düşmən mövqedə olan Şeybanilər dövlətinin mövcudluğu və moğolların Məvarənnəhri geri qaytarmaq istəkləri, habelə Moğol dövlətində olan çoxsaylı səfəvi mühacirlərinin fəaliyyəti.

Ədəbiyyat siyahısı::

1. Aləm ara-yi Sefevi. Ba moğəddime və təshih-o təaliğ Yədulla Şukri, Tehran: enteşarat Ettelaat, 1363, 688 s.

2. Азимджанова С. «Государство Бабура в Кабуле и в Индии», М., Наука, 1977, 176 с.

3. Ахмедов Б.А. История Балха. Таш, изд-во «ФАН» Уз.ССР 1982, 226 с.

4. Бабур-наме. Записки Бабура/Пер. М.Салье. Таш.:, 1958, 530 с.

5. Берньe Ф. История последних политических переворотов в государстве Великого Могола. Пер. с французского Б. Жуковского и М. Томара. М-Л.: Соцэкгиз, 1936, 340 с.

6. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Fars dilindən çevirən: Şahin Fərzəliyev (Şahin Fazil), Bakı, "Şərq-Qərb Nəşriyyat evi, 2010, 1144 səh.

7. Фарзалиев А., Мамедова Р. «Сефевиды и Великие Моголы в мусульманской дипломатике», СПб.: Филологический факультет СПбГУ, 2004, 228 с.

8. Туманович Н.Н. Герат в XVI-XVIII вв. М.: Наука, 1989, 286 с.

ZAUR İLQAR OĞLU İMAŞLI
AMEA, Memarlıq və İncəsənət İnstitutu

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN ŞƏHƏR MƏRKƏZLƏRININ FORMALAŞMA VƏ INKIŞAF XÜSUSIYYƏTLƏRI

Açar sözlər: Azərbaycan şəhərlərinin mərkəzləri, Təbriz, Ərdəbil, Şuşa, Bərdə, Ordubad.

Ölkəmizdə xalqımızın memarlıq və şəhərsalma irsinə xüsusi diqqət verilir, bu səbəbdən də onların mərkəzlərinin formalaşma xüsusiyyəti böyük məna kəsb edir.

Orta əsr şəhərlərinin yeni inkişaf mərhələsi XI-XIII əsrin əvvəllərinə tuş gəlirdi. Onların inkişafına, bəzən də tənəzzülə uğramasına ərəb xilafətinin Azərbaycanda hökmranlıq etməsi idi. Şəhərlərin mərkəzində ən hündür - əl çatmaz hökmdar sarayı, şəhristanda isə «rabadların» içində karxanalar sıravi quruluş alırdı, bəzən isə iri dini komplekslərin ətrafında ictimai və mülki binaların cəmlənməsi nəticəsində kiçik də olsa yeni yarımmərkəzlər əmələ gətirirdi. [Məmmədova , Məmmədova , 2013, 201-215]

Ümumiyyətlə orta əsrlər Azərbaycan şəhərlərinin inkişafı üçün istər iqtisadi, istər siyasi vəziyyət baxımından çox əlverişli idi. Digər tərəfdən, şəhərlərin karvan yolları üzərində durması iri miqyaslı tikintinin çoxalmasına təkan verib, mərkəzlərin kompozisiya quruluşunu təyin edirdi.

Orta əsr şəhərsalma və memarlıq təcrübəsində dərin iz qoymuş Naxçıvan memarlıq məktəbinin dini-memorial memarlıq əsərləri dünya memarlıq şedevrlərinə aid edilmişdir. Bunlardan təkcə üçünün adını çəkmək kifayətdir ki, Naxçıvan memarlıq məktəbinin nə qədər güclü irsə malik olmasını biz görə bilərik. Belə ki, XII əsrdən başlayaraq Azərbaycan memarlığının inkişafına təkan verən Əcəmi ibn Əbubəkr və onun yaradıcılığı xüsusi yer tutur. Onun şah əsərlərindən biri Yusif Küseyr oğlu türbəsi, Naxçıvandakı Möminə Xatun türbəsi və kompleksi, Qarabağlar və Gülüstan məbədləridir ki, onların hər biri xüsusi diqqətə layiqdir. Onu da qeyd etmək lazımdır ki, dahi memar Naxçıvanın unikal mərkəzi meydanının yaranmasında və ərsəyə gəlməsində çox böyük rol oynamışdır. [Ахундов , 1986, 84-92]

Belə ki, orta ölçülü planı 8 güşəli həcmdə həlli olan Yusif Küseyir oğlunun xatirə türbəsi bişmiş kərpicdən tikilmiş və vizual olaraq karkas siste-

mini xatırladır. Dam örtüyü səkkizüzlü uca piramidavari günbəzlə örtülmüdür. Xarici səthində kufi yazılarda verilən ornamentlər öz rəngli tərtibatı ilə insanları valeh edir.

Əcəminin ikinci böyük əsəri Möminə Xatun türbəsidir ki, o həcmcə 10 tilli müstəvisi və günbəz tipli örtüyü olan tikili olsada, öz memarlıq tərtibatına, dekorativ bəzəyinə, həndəsi naxışlarına görə digərlərindən çox-çox fərqlənir.

Üçüncü tikili Qarabağlar türbəsidir ki, Naxçıvan məktəbinə mənsub olub onun bədii memarlıq tərtibatının zirvəsində durur. XII-XIV əsrlərə aid edilən bu tikili 12 yarımsilindirin bir dəstə halında birləşməsindən ibarət olan memarlıq əsəridir ki, Naxçıvanla İrəvan arasında yerləşən bu kompleks bir vaxtlar mövcud olmuş iri bir şəhərin tikililərindən idi. [Ахундов ,1986, 128-142]

Təbrizdə XIV əsrin axırlarından başlayaraq Şərqdən Qərbə malların daşınması ilə paralel yeni körpülər tikilir, köhnələri bərpa olunur, su anbarları qurulurdu. Onların tərkibində bir sıra karvansaralar, saray, dini komplekslər və sənətkarlıq sıraları ilə yanaşı digər ictimai ticarət binaları da tikilirdi. Sultan Mahmud Qazan-xanın hökmdarlığı zamanında Təbrizin ətrafına yeni hasar çəkildi, dini və saray tikililəri mərkəz ətrafına toplanaraq şəhərin yeni mərkəzi hissəsini formalaşdırdı. [Muradov , 1983, 85-98]

Lakin orta əsr şəhərlərinin mərkəzlərinin memarlıq obrazını təyin edən daha çox onların iri həcmli dini tikililəri idi. Məsələn, Sultaniyədəki Təbrizli Əli-şah tərəfindən ucaldılan Əli-şah məscidi və Ərdəbildəki Şeyx Səfi dini kompleksini misal çəkmək olar. [Усейнов, Бретаницкий, Саламзаде, 140-155]

Bakı şəhəri də həmçinin orta əsrlərin qala şəhərlərinə bir nümunədir və öz planlaşma quruluşunu demək olar ki itirməmişdir. Şəhərin mərkəzi relyef tərəfində yerləşən Şirvanşahlar saray kompleksi Azərbaycanın orta əsr memarlıq irsinin şah əsəridir. Çox məhdud bir sahədə üç müxtəlif səviyyələri olan həyətlərdə bir neçə memarlıq həcminin məharətlə yerləşdirilməsi özü özlüyündə bir möcüzədir. Yuxarı həyətdə kompleksin iri həcmləri – divanxana, sarayın baş binası və saray məscidi yerləşdiyi halda orta həyətdə Seyid Yəhya Bakuvinin türbəsi, aşağı həyətdə isə məscid, hamam, türbə qalıqları və digər təsərrüfat tikililərinin qalıqları görünür. Bu möhtəşəm sa-

ray kompleksi Abşeron memarlıq məktəbini təcəssüm etdirir. [Саламзаде, Авалов, Салаева, 1979, 82-112]

Orta əsrlərin şəhərsalma təcrübəsinin təhlili göstərir ki, məhz bu ərəfədə Gəncə, Ərbəbil, Şamaxı, Təbriz və Bakı kimi şəhərləri xarakterizə edən və onların mərkəzlərini təşkil edən həm də bazar kompleksləri idi. Bu şəhərlər qala divarları ilə əhatə olunduğundan onlar məhdud ərazilərindəki məhəllə sistemləri ilə çox sıx tikinti forması yaratmışdır. Lakin, mərkəzi ticarət və bazar komplekslərin yerləşməsi şəhər plan quruluşunda dəyişikliklər törədirdi. Bu mənada şəhər mərkəzləri iki istiqamətdə təşkil tapırdı: 1. Şəhər mərkəzləri dominant rolunu oynayan iri dini kompleksin ətrafında bir sıra ictimai, ticarət və mülki binaların yığılması hesabına əmələ gəlmişdi. 2. Dini binalar özləri mərkəzdə toplum təşkil tapan ictimai, sənət, ticarət və mülki binaların yanında yerləşməklə birlikdə şəhərin mərkəz hissəsini formalaşdırırdı. Bu mənada Ərdəbil şəhəri daha böyük maraq doğuran bir məkan idi. Burada "Şeyx Şəfi" kimi dini memorial kompleksin yerləşməsi və ruhani cəmiyyətinin gəlişi ilə bu şəhər özündə daha bir neçə xatirə türbələrini cəmləyirdi (Şeyx Cəbrail və s.). [Усейнов, Бретаницкий, Саламзаде, 1963, 246-256]

Şuşa şəhərinin tam formalaşmasını əsasən XVIII-XIX əsrə aid etmək olar. Bu şəhərin mərkəzini təşkil edən məkan da özündə bir neçə iri miqyaslı tikililəri toplamışdı. Burada şəhərin mərkəzi hissəsinin bir bölgəsini tutan xan sarayı və Xurşud Banu Natavanın imarəti idi və bu imarət iri bir parkın nəzdində tikilmişdi. Bu kompleks şəhər mərkəzinin başında durmaqla onun kompozisiya quruluşunda məscid ilə birlikdə dominant mövqe tuturdu. [Саламзаде, Авалов, Салаева, 1979, 28-40]

Bu onu birdə göstərir ki, şəhər mərkəzinin tərkibində istər dini tikili, istərsə də saray tikintisinin yerləşməsi eyni dərəcədə qiymətləndirilirdi. Bu səbəbdən şəhər mərkəzləri önəmli mikroməkanlar olsalar da həmişə kompozisiya baxımından aparıcı mövqe tutmuş və mahiyyətcə dominant rolunu oynamışdılar.

Məqalədə irəli sürülən problem demək olar ki, Azərbaycanın şəhərsalma tarixinin bir hissəsini əhatə edir, çünki məhz orta əsr tarixi şəhərləri onun ümumi şəhərsalma siyasətini daha çox təmsil edirdilər.

Ədəbiyyat siyahısı:

1. Əmənzadə R. B. Azərbaycan memarlığı XV-XIX əsrin əvvəllərində. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 232 səh.

2. Məmmədova G. H., Məmmədova Z. G. Orta əsrlər memarlığı (VIII-XIV əsrlər). Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 316 səh.

3. Məmmədov G. H., Hacıyeva S. X. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 276 səh.

4. Muradov V. H. Orta əsr Azərbaycan şəhərləri. Bakı, "Maarif" nəşriyyatı, 1983, 153 səh.

5. Д. А. Ахундов. Архитектура древнего и раннесредневекового Азербайджана. Азербайджанское государственное издателъство. Баку, 1986. 310 стр.

6. А. В. Саламзаде., Э. В. Авалов., Р. Д. Салаева. Проблемы сохранения и реконструкции исторических городов Азербайджана. Издательство "ЭЛМ", Баку, 1979, 738 стр.

7. М. Усейнов., Л. Бретаницкий., А. Саламзаде. История архитектуры Азербайджана. Москва, 1963, 363 стр.

ZƏFƏR NURI OĞLU NƏCƏFOV
Silahlı Qüvvələrin Hərbi Akademiyası

# ETNIK MÜNAQIŞƏLƏR QLOBAL TƏHLÜKƏSIZLIYƏ TƏHDID KIMI

Açar sözlər: etnik münaqişələr, qoballaşma, etnik millətçilik, nəzarətsiz miqrasiya,geosiyasi maraqlar

Müasir dünyada etnik münaqişələr qədər təhlükəli, uzunömürlü, qanlı və həlli müşkülə çevrilmiş ikinci bir problem demək olar ki, yoxdur. "Etnik münaqişələr bizim dövrümüzün ən mürəkkəb problemlərindən biridir" [Жуков, Краснов, 1997, 197] – bu fikirlər BMT-nin baş katibi olmuş B.B.Qaliyə məxsusdur. Tədqiqatçı Fred Riqqs müasir dünyanı lərzəyə salan etnik millətçiliyin qabarmasını «üçüncü sunami» adlandırıb. Onun fikrinə əsasən, müasir dünyada 3-5 min arasında etnik qrup yaşayır və onların ümumi sayı həddindən artıq çoxdur və bir sıra ölkələrə səpələniblər. 269 etnosun hər biri 1 mln insan sayına malikdir. Millətlərin və xalqların 90 faizi çoxmillətli dövlətlərin tərkibinə daxildir. Dünyanın 99 ölkəsi risk faktoru kimi qələmə verilən 291 etnik azlığa malikdir [Медведева, 2000, 156].

Digər bir tədqiqatçı E.Xendersen isə etnik münaqişələri dünyanın ən nəhəng qatili adlandırıb. 1993-1994 illərdə baş vermiş 50 münaqişə nəticəsində 26 mln-dan artıq məcburi köçkün qaçmaqla canını qurtarmışdı. Bu münaqişələrin hər birində orta rəqəmlə 80 min insan həlak olub, 1918-dən – 1988 ilədək baş vermış beynəlxalq böhranların 32 faizi etnosiyası ölçülərə malik olub [Медведева, 2000, 156].

Monika Toft isə qeyd edir ki, bütün silahlı münaqişələrin üçdə ikisi etnik komponenti özündə əks etdirir. Etnik münaqişənin digər daxili münaqişə tipləri ilə müqayisədə mərkəzi hakimiyyətə qarşı silahlı qarşıdurmaya çevrilmə şansı iki dəfə artıqdı. Bundan əlavə, etnik münaqişələrin adi, dövlətlərarası müharibəyə çevrilmə şansı dörd dəfə artıqdı [Горбанев, с.4].

Qloballaşma, kütləvi miqrasiya, təbii resursların getdikcə tükənməsi, informasiya texnologiyalarının rolunun artması, polietnik tərkibli regionlarda və ölkələrdə etno-dini ziddiyyətlər, millətçilik və separatizm etnik

münaqişələrin geniş vüsət almasına yol açıb. Bundan əlavə, maraqlı dövlətlər və mütəşəkkil cinayətkar qruplaşmalar öz çirkin planlarını həyata keçirmək üçün etnik münaqişədən vasitə kimi istifadə edirlər. Beynəlxalq hüququn işləməməsi etnik münaqişələrin effektli həllinə mane olur. Beləliklə yuxarıda göstərilən proseslər fonunda etnik münaqişələr regional və beynəlxalq təhlükəsizliyə ciddi təsir göstərir və geosiyasi nəticələr doğurur.

Etnik münaqişələr sadəcə ideoloji, siyasi, iqtisadi, psixoloji və informativ zəmində gedən qarşıdurma kimi səciyyələndirilməməlidir. «Soyuq müharibə»nin süqutundan sonra daxili proseslərlə beynəlxalq aləm arasında qarşılıqlı asılılığın güclənməsi etnik münaqişələrin dövlətdaxili çərçivədən çıxaraq, beynəlxalq təhlükəsizlik problemləri cərgəsinə qoşulmasına rəvac verib. Müasir etnik münaqişələrin insan hüquqlarına, dövlətlərarası münasibətlərə, transmilli amillərə və beynəlxalq birjalarda neftin qiymətinə təsiri bu tip qarşıdurmaların beynəlxalq xarakter almasına dəlalət edir.

Etiraf etmək lazımdır ki, müasir etnik münaqişələr «böyük oyunlar»ın tərkib hissəsi kimi çıxış edir. Əlverişli coğrafi vəziyyətə və zəngin təbii ehtiyyatlara malik polietnik regionlarda etnik amildən həmişə strateji vasitə qismində istifadə edilib. Cənubi Qafqazda və Balkanlarda etnik zəmində qarşıdurmalar həmin regionlarda iri dövlətlərin geosiyasi maraqlarının toqquşmasının nəticəsidir. Bu gün Avrasiya materikində hələ də nizamlanmamış münaqişələrin qalması iri dövlətlər arasında davam edən amansız geosiyasi rəqabətin nəticəsi hesab edilir.

Beynəlxalq hüquq institutunun böhranı etnik münaqişələrin effektiv tənzimlənməsinə mane olur. Belə ki, beynəlxalq hüququn iki imperativ norması olan ərazi bütövlüyü ilə öz müqəddəratını təyin etmə prinsipləri arasında kolliziya nəinki nizamlanma səyərinə sədd çəkir, həmçinin yeni-yeni təhdidlərin yaranmasına rəvac verir. Azərbaycan prezideti İlham Əliyev də beynəlxalq hüququn bu günki vəziyyətinin qənaətbəxş olmamasını belə dəyərləndirib: «Beynəlxalq davranış qaydaları dəyişilir, kim necə istəyir beynəlxalq hüquq normalarını elə də pozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir [1].»

Bütün beynəlxalq sənədlər ərazi bütövlüyünə qarşı istənilən fəaliyyəti qeyri-qanunu hesab edir. Ərazi bütövlüyü beynəlxalq hüququn imperativ norması kimi dövlətlərin bütövlüyünü və suverenliyini, orada yaşayan insanların birgəyaşayışını təmin edir. Təəssüflər olsun ki, bəzi aparıcı ölkələr

geosiyasi maraqlarını təmin etmək məqsədilə öz müqəddəratını təyin etmə prinsipindən vasitə kimi yaralanmağa çalışırlar. Bu isə separatçı rejimlərin yaranması və qeyri-qanuni fəaliyyətlərdən əldə edilmiş gəlirlərə nəzarət və s. cinayətkar əməllərin gerçəkləşməsinə, son da isə qlobal xaos üçün presedentlərin yaranmasına yol açmış olur.

Müasir etnik münaqişələr «böyük oyunlar»ın tərkib hissəsi kimi çıxış edir. Əlverişli coğrafi vəziyyətə və zəngin təbii ehtiyyatlara malik polietnik regionlarda etnik amildən həmişə strateji vasitə qismində istifadə edilib. Cənubi Qafqazda və Balkanlarda etnik zəmində qarşıdurmalar həmin regionlarda iri dövlətlərin geosiyasi maraqlarının toqquşmasının nəticəsidir. Bu gün Avrasiya materikində hələ də nizamlanmamış münaqişələrin qalması iri dövlətlər arasında davam edən amansız geosiyasi rəqabətin nəticəsi hesab edilir.

Etnik münaqişələrin gələcək həlli perspektivlərindən danışarkən optimist fikir söyləmək mümkün deyil. Bunu aşağıdakı proqnozlarla əlaqələndirmək olar:

1. Tarixən milli zəmində ziddiyyətlərə malik çoxmillətli regionlarda və bu gün isə iflasa uğramaqda olan polietnik tərkibli ölkələrdə etnik münaqişələr beynəlxalq və regional təhlükəsizliyi ciddi şəkildə təhdid etməklə davam edəcək;
2. separatçı rejimlərin saxlanılması naminə etnik münaqişələrin transmilli cinayətlərlə əlaqəsi dərinləşməkdə davam edəcək;
3. srateji mövqeyə və zəngin enerji resusrlarına malik regionlarda və ya ona yaxın ərazilərdə yerləşən polietnik ölkələrdə "süni idarə olunan etnik münaqişə" ocaqları yaranacaq;
4. dövlət sərhədlərinin etnik sərhədlərlə əvəzlənməsinə dair məkirli planların həyata keçirilməsinə cəhdlər ediləcək;
5. beynəlxalq hüququn prinsipləri olan ərazi bütövlüyü ilə öz müqəddəratını təyin etmə prinsipləri arasında kolliziya müxtəlif regionlarda ictimai-siyasi sabitliyin və suvereniyin sarsılmasına yönələn antidövlət proseslərinin baş qaldırmasına, regional və beynəlxalq nizamın pozulmasına səbəb olacaq.

Ədəbiyyat siyahısı:

1. İlham Əliyev: «Bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil ...
2. https://report.az/.../i-lham-eliyev-bizim-torpaqlarimizi-isgal-e...
3. 2. Горбанев В.А. Этнические конфликты в условиях глобализации. docplayer.ru/.../39938313-V-a-gorbanev-etnicheskie-konf-likty-v-usloviyah-globaliza.. с.1-7.
4. Медведева М.А. Этнополитический конфликт как фактор угрозы международной безопасности. // Философия XX века: школы и концепции. / Научная конференция к 60-летию философского факультета СПбГУ, 21 ноября 2000 г. Материалы работы секции молодых учёных «Философия и жизнь» Санкт-Петербург: Санкт-Петербургское философское общество, 2001, с.156-158.
5. Общая и прикладная политология: Учебное пособие. Под общей редакцией В.И. Жукова, Б.И. Краснова. М.: МГСУ; Изд-во “Союз”, 1997. – 992 с.

АЛЕКСАНДР ИВАНОВИЧ ЛОЙКО
Белорусский национальный технический университет

# ВКЛАД ОРИЕНТАЛИСТИКИ В МЕЖКУЛЬТУРНЫЙ ДИАЛОГ БОЛЬШОЙ ЕВРОПЫ

Ключевые слова: ориенталистика, Большая Европа, Беларусь, Азербайджан, Сенковский, Ходзько-Борейко, Маковельский

Ф. Шлегель видел возрождение Европы на основе восточной мудрости. Эти идеи создали феномен восточного ренессанса. В результате после путешествий Марко Поло произошел возврат к евразийской тематике, формировавшейся сведениями о наследии Великого шелкового пути [Бухарин, 2009, 1]. Возник интерес к эволюции античной культуры в восточной части эллинского мира [Сагадаев, 2009, 4]. Стало уделяться внимание единому информационному пространству Большой Европы [Шадманов, 2015, 5]. У ориенталистики появилась строгая научная основа в виде языкознания, археологии, истории, источниковедения, этнографии, исторической географии, практического востоковедения.

В 1808 г. в Казанском университете была открыта кафедра восточных языков. Она отдавала приоритет изучению и преподаванию тюркских и монгольских языков. Эту организационную работу провели Х.Д. Френ и Ф.И. Эрдман. В университете сформировалась уникальная научная школа.

Ориенталистика оказалась интегрированной с дипломатической активностью европейских государств на Востоке. Российская империя проявляла повышенный интерес к Османской империи, Средней Азии, Закавказью (тюркские языки). Для изучения этих языков на университетские кафедры привлекались этнические татары. Среди университетских преподавателей исследователей были выходцы из белорусских татар. Интерес к Востоку в Беларуси был сформирован длительной историей взаимодействия с тюркскими народами. В университете Вильно много внимания уделялось формированию интереса у студентов к Востоку. В числе студентов этого университета

был О.И. Сенковский, ставший основателем школы ориентализма в Санкт-Петербурге. Это был разносторонний человек, который занимался вопросами культуры, литературы.

В числе студентов университета в Вильно был также О.М. Ковалевский, сосланный в Казань и приписанный к местному университету для изучения восточных языков. Он овладел тюркским, монгольским, маньчжурским, китайским, тибетским языками. Был в экспедициях на Тибете, Монголии, Китае. Является основателем школы монголоведения. По итогам пребывания в Тибете привез в Казань большую коллекцию рукописей. Написал оригинальные научные работы по буддистской космологии.

Для изучения территории Туркестана российскими властями были снаряжены географические, военные и дипломатические экспедиции. Стратегии переговоров в сочетании с военным присутствием позволили интегрировать в дипломатическое пространство Российской империи жулусы Восточного Туркестана, ханства Хивы, Бухары и Коканда.

Важную роль в создании диалога тюркских народов с властями Российской империи сыграли сосланные в Тобольск и Ишим участники восстаний на территории бывшего Великого Княжества Литовского. В их числе были уроженцы Беларуси. Они изучали природу Туркестана, культуру казахов, предоставляли местной национальной интеллигенции сведения о европейской культуре и ее представителях. Во время работы дипломатической миссии Российской империи на юге Туркестана познакомились ссыльный из Беларуси А. Янушкевич и отец Абая Кунанбаева. Они постоянно общались. А. Янушкевич в процессе общения держал на руках годовалого Абая.

А. Янушкевич был родом из Центральной Беларуси, из Несвижа. Он представлял регион, который традиционно поставлял абитуриентов для университета в Вильно. Здесь студенты из Беларуси знакомились, дружили, занимались литературным творчеством, философией. Поскольку они придерживались идеи восстановления Великого Княжества Литовского, то учебу они сочетали с участием в организациях, становились участниками восстаний. А. Янушкевич

высоко ценил дружбу с А. Мицкевичем. Об этом поэте он и рассказал отцу Абая Кунанбаева, как и о других европейских поэтах.

А. Мицкевич оказал влияние на становление А. Ходзько-Борейко во время учебы в Виленском университете в 1820-1823 гг. За участие в тайном обществе филаретов оба были задержаны полицией. После освобождения из заключения А. Ходзько-Борейко был направлен в Петербург. Проходил обучение в отделении восточных языков при Азиатском департаменте министерства иностранных дел Российской империи. Его преподавателем был Мирза Джафар Топчибашев.

С января 1830 г. А. Ходзько-Борейко находился на дипломатической службе в Персии, был российским консулом. Начал работать переводчиком в Тебризе, Тегеране, был секретарём генерального консула. Изучал страну, её историю, быт, язык, этнографию, театр, религию [Ходзько, 1839, 2]. Он впервые представил европейской общественности через издания на английском и французском языках описание культур Каспия [Ходзько, 1842.6]. Он познакомил европейцев с богатым народным творчеством азербайджанцев, на особенности их архитектуры.

А. Ходзько-Борейко одним из первых перевёл туркменскую и азербайджанскую поэзию на европейские языки [Ходзько, 1842, 7]. В 1842 г. в Лондоне он опубликовал три стихотворения Махтумкули, сопроводив публикацию биографической заметкой. Он стал одним из первых собирателей азербайджанского народного фольклора. Он опубликовал в Лондоне героический народный эпос «Кер-оглу» [Ходзько, 1851, 3]. Он же стал популяризатором творчества выдающегося азербайджанского писателя Мирзы Фатали Ахундова.

В университете Казани произошло становление исследователя античной литературы и философии А.О. Маковельского. Он родом из белорусского города Гродно. В начале XX столетия он был направлен университетом Казани в Берлин для изучения источников по античной философии. В начале первой мировой войны успел вернуться в Россию. После установления советской власти на территории Российской империи в 1920 г. принял предложение о переезде в Баку, где способствовал становлению ориенталистики XX столетия. Предметом его исследований была эллинская философия с

учетом ее сопряжения с философскими традициями Закавказья и Персии. На этой основе им проводились исследования по азербайджанской культуре и философии.

Таким образом, с участием уроженцев Беларуси в XIX-XX столетиях на основе исследований в области ориенталистики были созданы основы межкультурного диалога в пространстве Большой Европы. Сегодня это способствует реализации европейских региональных программ. Успешно функционирует программа «Восточное партнерство». В ее рамках Азербайджан и Беларусь осуществляют совместные проекты с Европейским Союзом.

Список литературы:


1. Бухарин М.Д. Аравия, Восточная Африка и Средиземноморье: торговые и историко-культурные связи. – М.: Восточная Литература:, 2009. – 375 с.
2. Дерар. Восточная повесть в стихах. Пер. с польск. / Соч. Александра Ходзько. – Санкт-Петербург: Воен. тип., 1839. –112 с.
3. Кёр-оглу, восточный поэт-наездник. Полное собрание его импровизаций с присовокуплением его биографии. Пер. с англ. – Тифлис, 1856.
4. Сагадеев А.В. Восточные перипатетики. – М.: Издательский дом Марджани, 2009. – 232 с.
5. Шадманов К.Б. Место восточной школы переводчиков в развитии Ренессанса Запада / Вестник Российского философского общества. 2015. № 3. – С. 43-46.
6. Specimen of the popular poetry of Persia as found in the adventures and improvisations of Karroglu the bandit-minstrel of Northern Persia and in the songs of the people, inhabiting the stores of the Caspian sea. – London, 1842.
7. Le Gilan ou le marais Caspien. – Paris, 1851.

АЛЕКСЕЙ ВАЛЕНТИНОВИЧ КОЛИК
Белорусский государственный университет

# РОЛЬ ДЕЛОВОГО ТУРИЗМА В МЕЖДУНАРОДНЫХ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ И КУЛЬТУРНО-ГУМАНИТАРНЫХ СВЯЗЯХ

Ключевые слова: международные социально-экономические связи, услуги, деловой туризм, MICE- туризм

Активное развитие сферы услуг – стратегическая задача преобразований в экономике постсоветских стран, поскольку рост удельного веса услуг способствует модернизации их экономических систем. В настоящее время важную роль в развитии услуг на международном уровне играет деловой туризм, который в современном мире стал одним из наиболее динамично развивающихся видов туризма.

Л. М. Гайдукевич считает, что основными функциями туризма являются: экономическая, политическая, экологическая, социальная. Он характеризует экономическую функцию следующим образом:
«экономическая функция туризма обусловлена ролью человека как основной производительной силы общества. Эффективно организованная система активного отдыха обеспечивает расширенное воспроизводство рабочей силы, способствует повышению интеллектуального уровня человека, что положительно влияет на экономическое развитие стран» [Гайдукевич, 2007, 96].

Исследователь туризма Л. В. Сакун предлагает следующее определение делового туризма: «временные командировки и поездки со служебными целями, включая участие в конференциях, конгрессах, симпозиумах, но без получения доходов в местах командировки. В число деловых туристов входят участники различных мероприятий – форумов, конгрессов, ярмарок, выставок, производственных семинаров, совещаний и т.д.» [Сакун, 2011, 29].

Особенностью делового туризма является его непосредственная корреляция с международными социально-экономическими и

культурно-гуманитарными связями, поскольку большая часть конференций, конгрессов, симпозиумов в сегодняшнем мире носит международный характер, способствует коммуникации представителей разных стран. Данная коммуникация осуществляется в сферах науки, образования, здравоохранения, культуры, бизнеса, общественных организаций и других. Она в значительной степени способствует реализации экономических, социальных, научных, культурных совместных проектов постсоветских стран, в том числе совместных проектов Республики Беларусь и Азербайджанской Республики.

Важной частью делового туризма является сфера, которая связана с организацией и проведением различных корпоративных мероприятий, и получила название MICE (от англ. Meetings, Incentives, Conferences, Exhibitions). MICE-туризм предполагает четыре направления: meetings – презентации, переговоры; incentives – поощрительные или мотивационные туры, обучение персонала, тимбилдинги, корпоративные праздники; conferences – конференции, конгрессы, форумы, семинары; exhibitions – выставки, фестивали, PR-мероприятия.

Основными целями MICE-мероприятий являются:

- проведение встреч, презентаций и переговоров с деловыми партнёрами;
- посещение профессиональных мероприятий (конференций, выставок, конгрессов, семинаров, форумов, съездов.);
- установление деловых контактов, привлечение новых партнеров, клиентов, инвесторов, поставщиков;
- обучение, участие в тренингах и программах по повышению корпоративной культуры или командообразованию (тимбилдингах);
- участие в поощрительных или мотивационных мероприятиях, проводимых компаний для сотрудников или партнеров;
- привлечение внимания инвесторов, партнеров и клиентов к бренду и продуктам/услугам компании за счет проведения имиджевых мероприятий, PR-событий, участия в выставках [Википедия, 2019].

Развитие MICE-туризма в последние несколько лет стало одним из трендов белорусского туризма, позволило найти свое позиционирование Беларуси на мировом туристическом рынке. Этому способствовало строительство новых отелей, туристических объектов, способных предоставить гостям самые комфортные условия для размещения и проведения деловых мероприятий. Были построены такие отели как «Президент-отель», Minsk Marriott Hotel, Crowne Plaza , «Пекин-Минск», «Европа», «Виктория Олимп», «Ренессанс». Одним из ключевых мест для проведения форумов в Минске стал и уникальный культурно-просветительский центр белорусской столицы – комплекс Национальной библиотеки.

Выгодное географическое положение, стабильная политическая и экономическая ситуация, достижения в науке и технике Беларуси способствуют развитию делового туризма. В Беларуси регулярно проводятся международные торговые выставки и ярмарки, конгрессы, конференции и симпозиумы. В настоящее время Республика Беларусь является ведущим актором мировой политики, экономики, культуры. Страна постоянно принимает на своей территории правительственные делегации, политических и государственных деятелей из разных стран мира, представителей дипломатического корпуса и ведущих зарубежных компаний. В том числе на территории Беларуси проводится большое количество международных научных конференций. Например, в 2018 году прошли такие мероприятия как: 31-й международный конгресс Ассоциации участников космических полетов, международный конгресс юридических служб LawSpring, международный студенческий Олимпийский форум «Олимпийское движение, студенческий спорт, коммуникации и образование»; в 2019 году состоялись V Съезд Евразийской Ассоциации Терапевтов, международная конференция «Современное конституционное развитие: роль конституционного контроля в конституционализации права» и другие.

В Республике Беларусь мощный импульс развитию делового туризма должно придать строительство нового Национального выставочного центра, который поручил построить Президент

Беларуси Александр Лукашенко к 2021 году [БЕЛТА, 2019]. В комплексе с Национальным выставочным центром планируется построить конгресс-холл и бизнес-центр, что позволит сконцентрировать на одной площадке все ресурсы, необходимые для проведения мероприятий высокого уровня.

По нашему мнению деловой туризм в ближайшей перспективе будет играть ключевую роль в налаживании международных связей между государствами, в первую очередь этот тренд явно обозначился в коммуникации между государствами, которые традиционно имеют близкие контакты, развивают совместные проекты. Мы исходим из того, что деловой туризм предоставляет возможности для реализации большого потенциала сотрудничества между Республикой Беларусь и Азербайджанской Республикой.

Литература:

1. Гайдукевич Л. М. Международный туризм в системе взаимодействия стран Центральной и Восточной Европы в конце XX - начале XXI века. – Минск: Четыре четверти, 2007. – 300 с.

2. Сакун, Л. В. Введение в туризм: учеб.-практ. пособие / Л. В. Сакун. – Минск: БГЭУ, 2011. – 267 с.

3. БЕЛТА [Электронный ресурс]. – Режим доступа: https://www.belta.by/president/view/lukashenko-poruchil-k-2021-godu-postroit-v-belarusi-natsionalnyj-vystavochnyj-tsentr-347230-2019/ – Дата доступа: 03.06.2019.

4. Википедия [Электронный ресурс]. – Режим доступа: https://ru.wikipedia.org/wiki/MICE – Дата доступа: 03.06.2019.

ДМИТРИЙ ЛЕОНИДОВИЧ ЦЫБАКОВ
Среднерусский Институт управления-филиала
Российской академии народного хозяйства и
государственной службы
при Президенте Российской Федерации

# РЕГИОНАЛЬНАЯ БЕЗОПАСНОСТЬ ПОСТСОВЕТСКОГО ПРОСТРАНСТВА : ВЫЗОВЫ XXI СТОЛЕТИЯ

Ключевые слова. Постсоветское пространство, региональная безопасность, СНГ, постбиполярность

Региональная безопасность постсоветского пространства продолжает подвергаться воздействию противоречивых факторов, которыЕ инициируют перманентную межнациональную, межконфессиональная и межклановую напряженность в большинстве новых независимых государств СНГ. Конфликтный потенциал в постсоветского региона обусловлен распадом СССР, чей военно-политический статус позволял сдерживать потенциальные территориальные и этноконфессиональные столкновения на евразийском пространстве. Распад Советского Союза как супердержавы, обладавшей уникальным военно-промышленным и военно-политическим потенциалом, имел опасные последствия, которые проявляются и в XXI столетии, формируя вызовы и угрозу единому пространству безопасности в Евразии.

Доминирующим условием, определяющим уровень международной и региональной безопасности стран СНГ и Балтии остается геополитический фактор. В обозримой перспективе не просматривается перспектив для появления здесь актора международной политики, способного принципиально разрешить противоречия между субъектами международных отношений постсоветского региона. Многие из них формировались в течение многих столетий, другие на рубеже XX–XXI столетий обрели новое содержание, будучи спровоцированы недальновидной политикой постсоветских этнократий. Как полагают исследователи, на этапе суверенизации новых независимых государств СНГ оказалась не реализованной модель

относительно мягкого перехода от автократизма к демократии, которую именуют «конвенциональной»[ Карозерс, 2003, 44, 60.]. На фоне весьма условной устойчивости и легитимности официальных государственных институций стали проявляться не только этноконфессиональные, но и межклановые и межплеменные антагонизмы в странах, сохранивших устои патриархального общества. Многие региональные сообщества и в имперский, и в советский периоды оказались весьма устойчивы к полномасштабной модернизации социальных отношений. Следует принять мнение, согласно которому остается реальностью пребывание постсоветских обществ одновременно и в «современном», и в «традиционном» мирах. [Борисов, 2010, 12] Указанный фактор формируется прежде всего в условиях ландшафтного, экономического и социокультурного многообразия, помноженного на несовпадение этнических и государственныхграниц.

Таким образом, на пространстве СНГ такие особенности как этническое и культурное многообразие, недостаточный уровень легитимности новых национальных государств, которым только еще предстоит сформировать политические нации, несовпадение ареалов расселения народностей с административно-территориальным делением закономерно инициируют и воспроизводят опасность погружения многих регионов постсоветского/евразийского пространства в период перманентной военно-политической

Особое значение имеет аморфность монополии на законное насилие центральных правительств, которая проецирует нарастание количества субъектов, претендующих на обладание средствами вооруженного насилия в политической борьбе. Закономерно, что в наибольшей мере указанный фактор отличает так называемые «полуавторитарные» государства, где характерным является делигитимация государства в период радикальных реформ [Элверт, Гоштони , 2010, 131].

Необходимо учитывать, что в XX столетии правящим элитам новых независимых государств приходится иметь дело с политическим и идеологическим как изнутри, так и извне. Внешний фактор в дестабилизации региональной безопасности пространства СНГ проявляется со стороны новых претендентов на мировую гегемонию – атлантического сообщества во главе с США и НАТО, конкурирующих с

ними региональных держав, а также транснациональных межгосударственных и негосударственных субъектов. В свою очередь, в целях завершения конституирования формирующейся государственности и восстановления либо расширения территориальных границ, унаследованных от СССР, правящие группировки во многих странах СНГ стремятся заручиться поддержкой военно-политических лидеров постбиполряного мира. Примером может служить включение немногочисленных и весьма условно боеспособных контингентов из новых независимых государств постсоветского пространства в состав международных коалиций в Афганистане и Ираке.

Ввиду отмеченных обстоятельств, требуются экстренные меры по корректировке подходов к прогнозированию и реагированию на вызовы и угрозы национальной безопасности и региональной безопасности пространства СНГ и Балтии. Усилия экспертного сообщество по выявлению факторов подрыва региональной безопасности постсоветского пространства должны носить комплексный характер. В первую очередь их необходимо распространить на исследование тех процессов, которые не полной мере систематизированы и обобщены в контексте их влияния на защищенность единого пространства безопасности Евразии.

## Списоклитературы:

1. Борисов Н.А. Между современностью и традицией: политические альтернативы постсоветской Центральной Азии. – М.: Российский гос. гуманитарный ун-т, 2010 – С.12.
2. Карозерс Т. Конец парадигмы транзита // Политическая наука, 2003. № 2. – С.42-65.
3. Элверт К., Гоштони К. Насилие и этничность. / Национализм в поздне- и посткоммунистической Европе. Том 1. Неудавшийся национализм многонациональных и частичных национальных государств // Под общ. ред. Э. Яна. –Москва: РОССПЭН, 2010 – 430 с.

ЕЛЕНА КАЗИМИРОВНА БУЛЫГО
ЕЛЕНА БОРИСОВНА ЯКИМОВИЧ
Белорусский национальный технический университет

## ФИЛОСОФСКОЕ ОСМЫСЛЕНИЕ УНИВЕРСАЛЬНОГО ЯЗЫКА ДИЗАЙНА

Ключевые слова: Дизайн, творчество, диалог, универсальный текст, семантика

История человечества – это история его творческих поисков путей и способов противостоять окружающему хаосу, упорядочить его, дать человеку пусть временное, но важное ощущение постоянства, защиты и надежности. Искусство как путь превращения Хаоса в Космос - наиболее яркое выражение этого поиска, в результате которогопроисходит зримое превращение текучести и изменчивости бытия в нечто постоянное и надежное. Особое место в современном творческом процессе занимает дизайн, потребность в котором сегодня не вызывает сомнений: ведь дизайнерское решение личного или офисного пространства, профессионального оборудования, стиля одежды и жизни в целом, гаджетов и даже упаковки предметов первой необходимости является своего рода формой самоидентификации. Самоидентификация здесь осуществляется с помощью вещи и овеществления отношений «Я» - «Ты» (место «Ты» может занять не только человек как Другой, но и вещь как воплощенное Иное). Следовательно, благодаря *дизайну* происходит опосредование отношений между людьми вещными, что делается возможным, когда вещь становится воплощением человеческого мира.

Локальность и определенная социальная замкнутость, которую мы обнаруживаем в истории культуры сегодня как никогда теряют свое значение. Все существующие феномены, порожденные нашей активностью, возникают на границе культур, миров, традиций. В диалог между автором (дизайнером, архитектором и пр.) и зрителем как потребителем культурных форм включены в едином социокультурном пространстве представители разных страт,

субкультур вплоть до самых маргинальных. Смысловым центром в условиях децентрации становится сама граница, которая может проходить где угодно и в качестве которой может выступать как ее традиционное воплощение – Я, мой клан, само тело, так и принципиальный отказ от нее.

Современное искусство и дизайн, в том числе, характеризуются символичным порядком информационного потока, что позволяет формировать у человека в его сознании особое ментальное пространство, в котором каждое произведение, каждая созданная вещь в результате творческого целеполагания становятся носителями семантических, эстетических и социокультурных характеристик. Заложенная многомерность таких произведений, выводящая их на уровень гипертекста, возникает в результате диалога (и даже полилога) различных культур, традиций и основанных на них образов, как Вселенной, так и индивидуальных микросред.

Своего рода ментальная разорванность современного человека только усиливает значение среды, пространства и вещей, в них заключенных. *Дизайн* превращает предметный мир в «поэтизированную вещность бытия», в котором человек, вещь и делание выступают как единая самосозидающая целостность. Главным условием «вещности» нашего бытия выступает пустотность [Хайдеггер, 1989, 269-285]. Благодаря этому в вещи происходит достижение единства ее материальной очевидности и неочевидности духовной, смысловой. Именно поэтому вещь выступает как своего рода социальный маркер, отсылающий к нашему социальному статусу, демонстрирующий некоторые характеристики и достижения, но и то, каким образом мы различаем сущее как реально существующее и должное ценностно-значимое и выводящее нас в будущее как возможное и невозможное.

Современный масштаб дизайн-деятельности и его социальная значимость позволяют интерпретировать его в качестве серьезного источника изменений в мире. Ведь от дизайна сегодня зависят не только художественно-эстетические и функциональные характеристики машин, инструментов, мебели, одежды и тому подобного, но содержание и направленность систем образования,

здравоохранения и даже законодательства. Сегодня дизайн определяет не только качество повседневных вещей, но и рекламу, масштаб и содержание политических «карнавалов», и в целом социокультурный контекст в единстве его витальных, функциональных, морфологических, аксиологических и символических структур.

Именно вследствие этого сегодня главной проблемой становится проблема прогнозирования состояния всей системы после того, как в нее попадает новая вещь, проблема соответствия, сообразности этой системы человеку, изменения связей между ними. Акцент в дизайне переходит с вещи и среды на средовые отношения. Кроме того, многообразие и масштабность вещного мира начинает спорить с миром природным. Все это предполагает перевод основной проблематики дизайна из области реального проектирования в область *философского осмысления*.

Историю попытки создания единой коммуникативной среды в дизайне можно сравнить с исторической потребностью разработки идеального языка, необходимого для международного общения. Основанная на идеях и принципах интернационального стиля методология модернистского дизайна, наиболее точно была сформулирована в рамках движения «Баухауз». Подобно несложным и стандартизированным правилам искусственного языка «эсперанто» принципы функционального дизайна опирались на использование стандартных образцов – эталонов массового промышленного производства. Философскую концепцию европейского дизайна данного периода можно определить как редукционистскую, типизирующую и нейтрализирующую все мультикультурные различия. Борис Гройс именует такой дизайн «нулевым», скрывающим региональные идентичности, и определяет его как попытку создания «разрыва в плотной текстуре мира» или «зоны прозрачности, которая позволит зрителю увидеть вещи такими, каковы они есть в действительности» [Гройс, 2012].

Однако несовершенство модели функционального дизайна определялось тем фактом, что, несмотря на наличие некоего рода тотальных метакодов - «языков» линий, форм, объемов, светотеней, цветов, масс, фактур и текстур, дизайнерам пришлось столкнуться с

проблемой универсальности использования данной коммуникативной системой на различных уровнях его потребления. Поэтому в 60-х годах XX века была сформулирована концепция «универсального дизайна», в основе которой лежала идея равного удобства и использования вещей всеми людьми независимо от пола, возраста, физических и социальных возможностей. Идеи универсального дизайна были развиты в европейской концепции «дизайна для всех», философия которого, может быть описана как простой и удобный в использовании дизайн, позволяющий улучшить качество жизни всех членов общества без необходимости дополнительной адаптации. Лозунг этого направления гласит: «дизайн для человеческого многообразия, социальной интеграции и равенства». Идея проектирования «для всех» заключается в том, что продукция не может существовать без пользовательского контекста, и задача дизайнера - сделать окружающую среду и объекты в ней более доступными для любых социальных и этнических групп. Таким образом, к основному требованию «универсального дизайна» равной доступности к вещам и окружающей среде различных групп людей в рамках направления «дизайна для всех» были добавлены факторы мульти-культурного разнообразия и учета этнических, религиозных и других социальных и культурных особенностей.

Новым витком развития дизайна сегодня становится так называемый «со-дизайн», который предполагает разные уровни участия наравне с дизайнерами внешних акторов - потребителей, становящихся экспертами в оценке дизайнерской деятельности и выявляющих проблемные аспекты дизайн-проектов в зависимости от ситуации, в которую вовлечены пользователи дизайнерских продуктов. Успешность проектирования решается посредством принципа совместной работы дизайнера с пользователем. Это обстоятельство приводит не только к развитию социально-ориентированного дизайна, но и к вовлечению государственного и частного секторов, где принимаются ответственные решения, к согласованному использованию дизайна в широком диапазоне социально-экономических ситуаций. Такой трехсторонний подход, при котором в дизайн-проектировании принимают участие

разработчики, производители и потребители, позволяет проектировать изделия и услуги, доступные практически всем потенциальным пользователям без изменений или легко адаптирующиеся в соответствии с различными потребностями. Таким образом, современный дизайн становится не только общей поликультурной пространственной средой, но и особой формой процессуальной деятельности, формирующей универсальные принципы мышления и действия на международномуровне.

Список литературы:

1. Хайдеггер, М. Вещь // Историко-философский ежегодник, 1989. – М.: Наука, - 1989. – С.269-285.

2. Гройс, Б. Публичное пространство: от пустоты к парадоксу // [Электронный ресурс]: Библиотека e-libra.ru. – Режим доступа: http://e-libra.ru/read/382665-publichnoe-prostranstvo-at-pustoty-k-paradoksu.html - Дата доступа: 17.06.2019.

ЗУРИЕТ АНЗАУРОВНА ЖАДЕ
Адыгейский государственный университет

# ФОРМИРОВАНИЕ РОССИЙСКОЙ ИДЕНТИЧНОСТИ КАК ФАКТОР НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ[1]

Ключевые слова: идентичность, российская идентичность, национальная безопасность, интеграционные процессы, российская нация

В ситуации динамично развивающейся политической системы современной России особенно важным оказывается осмысление факторов, оказывающих существенное влияние на формирование российской идентичности, которая является конституирующим основанием современной политической нации и государства. Выявление таких факторов позволяет прогнозировать возможные последствия принятия тех или иных политических решений, обеспечивать стабильное развитие российского общества.

Исследования проблематики идентичности носят стратегический характер, поскольку они могут стать важным инструментом в процессе консолидации народов России вокруг идеи системного и стабильного развития интеграционных процессов в стране. В последние годы появились концепты, сочетающие наработки различных социогуманитарных наук в области исследования идентичности; фактически можно говорить о синтетической модели междисциплинарных исследований идентичности.

Именно в этом направлении активно работает исследовательский коллектив Адыгейского государственного университета. Нами разработана концепция совмещения российской, региональной и этнокультурной идентичностей, и на этой основе построена модель укрепления российской национальной идентичности на Северном Кавказе в синергетической парадигме. [Жаде, 2015].

Новая стратегия развития России, основанная на системной модернизации, требует для своего осуществления существенного повышения сплоченности российского народа, обеспечения национального единства страны и мобилизации всех ее ресурсов.

[1] Исследование выполнено при финансовой поддержке РФФИ в рамках научного проекта № 19-011-00270.

Такое единство может быть обеспечено лишь на основе высоких духовных ценностей, формирующих в общественном сознании чувство принадлежности к единому Российскому государству. Сегодня эта задача является самой важной, и поэтому именно она должна стать приоритетной в государственной политике Российской Федерации, первостепенное значение для формирования которой имеет «Стратегия национальной безопасности Российской Федерации до 2020 года».

Имея различные аспекты, процесс консолидации общества своей основной целью ставит формирование единой гражданственности для представителей различных этнических и конфессиональных групп России, иными словами, формирование единой российской нации.

В этой ситуации именно российская идентичность превращается в один из главных ресурсов обеспечения безопасности страны, сохранения и развития ее самобытности в условиях нарастающих перемен. Выделение и обоснование данного феномена позволит выработать меры по укреплению российской государственности в условиях глобализации, разрешить многие конфликтные проблемы в функционировании российского социума и сформировать имидж страны как великой державы.

В период кардинальных трансформаций идентичность россиян подверглась мощному воздействию изменяющихся приоритетов и ценностей. Переход к открытости обусловил ее максимальную подверженность влияниям извне. Российское общество стало представлять собой новую реальность, сформировавшуюся за годы реформ. В этих условиях идентичность россиян осуществила своего рода скачок в плане преобразования своего содержания и форм проявления. Переход от знакомого образа жизни к неясным отношениям постсоветского периода сказался на возникновении взаимоисключающих тенденций в развитии идентичности.

Формирование российской идентичности предстает фундаментом функционирования социально-политической структуры и обеспечения национальной безопасности, основным объектом которого является народ. Принимая во внимание то обстоятельство,

что население России полиэтнично, постоянный поиск путей оптимизации межэтнических отношений становится объективно необходимым условием достижения социально-политической стабильности, межэтнического согласия и межконфессионального мира.

Важно заметить, что на современном этапе развития социогуманитарной мысли вопросы безопасности рассматриваются учеными «с позиций гражданского общества с учетом их сложных и подвижных структур идентичности». Чаще всего она рассматривается как самоценный фактор, определяющий качество общественных связей и отношений, степень сплоченности и солидарной мотивации поведения граждан. Становится все очевиднее и то воздействие, которое оказывает идентичность на прочность российского государства, уровень и качество его консолидации.

Важно подчеркнуть, что политика в России направлена на то, чтобы разноуровневые идентичности были совместимыми, а политическая интеграция не угрожала их сосуществованию. Это очень важно для обеспечения национальной безопасности России, поскольку интеграция этнической, региональной и национальной идентичности выступает как фактор обеспечения стабильности в стране.

Исходя из реалий сегодняшнего дня, органическая связь, существующая между идентичностью и степенью консолидации государства, стала настолько очевидной, что обозначенная проблема превратилась в вопрос первостепенной государственной важности, связанный, в первую очередь, с обеспечением национальной безопасности России.

Проводимые в последние годы социологические опросы, с одной стороны, констатируют возрастающую роль общегражданской идентичности, с другой стороны, подтверждают факт незавершенности этого процесса. Об этом речь идет и в программных документах страны. Так, в «Концепции долгосрочного социально-экономического развития Российской Федерации на период до 2020 года» указывается на необходимость поддержки программ формирования единой российской гражданской нации,

национально-государственной идентичности; в Постановлении Правительства РФ О федеральной целевой программе «Укрепление единства российской нации и этнокультурное развитие народов России (2014 - 2020 годы)» отмечается, что «поддержка общественных инициатив и мероприятий, направленных на формирование и укрепление гражданского патриотизма и российской гражданской идентичности» активно поддерживается в России сегодня.

Очевидно, что всем россиянам предстоит, преодолевая издержки глобализации, идти по долгому пути поиска своей идентичности. Российское общество действительно нуждается в формировании национальной идентичности, ведь Россия является, как и все современные государства, государством национальным. Перед нами стоит задача осознания себя как нации – политического сообщества граждан.

Стремление к достижению баланса интересов в контексте обеспечения национальной безопасности объективно обуславливают необходимость организации совместного поиска оптимальных стратегий усиления интеграции, предполагая в перспективе возможность углубленного осознания и конструирования принципиально новых социальных параметров интегративной идентичности.

Список литературы:

1. Жаде З.А., Куква Е.С., Ляушева С.А., Шадже А.Ю. Российская идентичность на Северном Кавказе. – М.: Социально-гуманитарные знания; Майкоп: ООО «Качество», 2010; Жаде З.А., Куква Е.С., Ляушева С.А., Шадже А.Ю. Национальная идентичность в северокавказскомобществе: поиски путей укрепления. – М: Российское философское общество. – Майкоп: Изд-во АГУ,2015.

# MÜNDƏRİCAT

Аббас Али оглу Алиев ........................................................................3
ЭНЕРГЕТИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ КАК КЛЮЧЕВОЙ АСПЕКТ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ
Afaq Suliddin qızı İsmayılova ........................................................................7
DİNİ KONFESSİONAL MÜNASİBƏTLƏRİN DÖVLƏT SİYASƏTİNƏ TƏSİRİ
Afət Cumar qızı Seyidzadə ........................................................................11
MÜASİR AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN TƏŞKİLİ VƏ İNKİŞAFI
Aida Nazim gizi Bashirova ........................................................................14
THE PROBLEMS WİTH BREXİT
Axilles Həsən oğlu Talıbov ........................................................................16
AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ
Akifə Akif qızı Ağayarova, Kəyan Cabbar oğlu Hacıyev ........................................20
BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ MİQRASİYA PROSESLƏRİNİN ROLU
Aqil Şövkət oğlu Şahmuradov ........................................................................24
AZƏRBAYCAN-UKRAYNA MƏDƏNİ-HUMANİTAR ƏLAQƏLƏRİ HAQQINDA
Anar Kürdoğlu oğlu Eyyubov ........................................................................28
MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN BÖHRANI VƏ TƏHSİL AMİLİ
Anar Tahir oğlu Hüseynov ........................................................................30
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU MƏSƏLƏSİ
Arif Məmmədhəsən oğlu Tağıyev ........................................................................34
AZƏRBAYCANIN MİLLİ İQTİSADİYYATI MÜASİR DÜNYA TƏSƏRRÜFATI SİSTEMİNDƏ
Ata Teyyub oğlu Vəliyev ........................................................................39
AZƏRBAYCAN RESPUBLİKASI MÜASİR BEYNƏLXALQ HÜQUQUN SUBYEKTİ KİMİ
Aydın Bayram oğlu Eyvazov ........................................................................42
AZƏRBAYCAN REALLIQLARI VƏ ERMƏNİSTANIN HƏRBİ VƏZİYYƏTİ
Aygün Alim qızı Hacıyeva ........................................................................44
ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ AQRAR SAHƏNİN ROLU
Aygün İslam qızı İsmayılova ........................................................................48
AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN

FƏAL İŞTİRAKÇISINA ÇEVRİLMƏSİ PROSESİ
Aygün Nizami qızı Soltanzadə.......................................................................53
TÜRKİYƏ-QAZAXISTAN MƏDƏNİ ƏLAQƏLƏRİ
Aynur Rauf qızı Əzimzadə ..........................................................................57
ERMƏNİSTANIN TƏHSİL SİSTEMİNDƏ GENDER MƏSƏLƏSİ
Aynur Məhəmməd qızı Namazova .............................................................60
İQTİSADİYYATIN İNKİŞAFINDA İNVESTİSİYALARIN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMİ
Aysel Möhübbət qızı Bağırova ......................................................................62
NÜVƏ SİLAHININ YAYILMASINA QARŞI BEYNƏLXALQ MÜBARİZƏ
Aysun Ədalət qızı Novruzova ........................................................................66
AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ
Aytəkin Çingiz qızı Yusifli ...........................................................................70
AZƏRBAYCANIN BEYNƏLXALQ TƏŞKİLATLAR VƏ İQTİSADİ LAYİHƏLƏRDƏ İŞTİRAKI
Aytən Zabil qızı Abbasova Quliyeva ...........................................................74
SOYUQ MÜHARİBƏDƏN SONRAKI DÖVRDƏ YAXIN ŞƏRQDƏ BAŞ VERƏN PROSESLƏRDƏ ABŞ AMİLİ (1991-2001)
Aytən Firdovsi qızı Məhərrəmova ..............................................................78
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BÖYÜK BRİTANİYA-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ İQTİSADİ FAKTOR
Айтен Шахиновна Рамазанова .....................................................................82
ОСНОВНЫЕ УГРОЗЫ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВ ЮЖНОГО КАВКАЗА
Bəhmən Fazil oğlu Əliyev ...........................................................................86
AZƏRBAYCAN-İNDONEZİYA ƏLAQƏLƏRİNİN PERSPEKTİVLƏRİ
Bəxtiyar Mirdamət oğlu Hüseynov ..............................................................90
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANIN DÜNYA SİYASİ SİSTEMİNƏ İNTEQRASİYASI
Bəyim Nadir qızı Abdulla ............................................................................96
MƏDƏNİYYƏT SAHƏSİNDƏ AZƏRBAYCAN - İSRAİL ƏLAQƏLƏRİ
Cavid Vəkil oğlu Bağırzadə.........................................................................100
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ ƏLAQƏLƏRİ VƏ HUMANİTAR İQTİSADİ YARDIMLARI HAQQINDA
Çinarə Qabil qızı Səfərova ..........................................................................104
HEYDƏR ƏLİYEV STRATEGİYASI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÖVQELƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ
Davud Soltan oğlu Həşimov .......................................................................108
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ İKİLİ STANDARTLAR
Ellada Məhəmməd qızı Xankişiyeva ..........................................................111
AZƏRBAYCANDA QIZIL HASİLATI SƏNAYESİNİN BƏRPASINDA

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU
Elman Ədalət oğlu Əzizov ....................................................................................114
BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFINDA AZƏRBAYCANIN ROLU
Elmar Şirinbala oğlu Xəlilov ..................................................................................120
AZƏRBAYCANIN XARİCİ SİYASƏT PRİORİTETLƏRİ
Elnarə Elçin qızı Rəhimli .......................................................................................123
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ "ETNODİNİ MÜNAQİŞƏ" ANLAYIŞI
Elnur Həşim oğlu Kəlbizadə...................................................................................125
ERMƏNİSTAN - İRAN MÜNASİBƏTLƏRİNİN İKİLİ TƏBİƏTİ VƏ PROQNOZLAŞDIRILAN PERSPEKTİVLƏRİ
Elnur Elbrus oğlu Zeynalov ....................................................................................129
BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN İNKİŞAFINDA QİYMƏTLİ KAĞIZLAR BAZARININ ROLU
Elşən Nazim oğlu Məcidov .....................................................................................133
NİKOL PAŞİNYANIN SİYASİ-PSİXOLOJİ PORTRETİ
Emil Raul oğlu Ağayev............................................................................................136
OQTAY SADIQZADƏ YARADICILIĞINDA HEYDƏR ƏLİYEV OBRAZI
Emil Abgül oğlu Qasımov.......................................................................................138
FRANSA İLƏ MÜNASİBƏTLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT DİPLOMATİYASININ İSTİQAMƏTLƏRİ
Etibar Adil oğlu Musayev........................................................................................143
ÇİNİN ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ VƏ XƏZƏRYANI ÖLKƏLƏR
Etibar Sənan oğlu Bədəlov.......................................................................................147
AZƏRBAYCAN ŞƏHƏRLƏRİNDƏ ETNODEMOQRAFİK PROSESLƏR
Адалят Мурад кызы Абдиева, Шукуфа Барат кызы Джабарова.................151
АЗЕРБАЙДЖАН МОДЕЛЬ НОВОГО ВЗГЛЯДА В БУДУЩЕЕ
Əfsanə Şamil qızı Məmmədyarova.........................................................................155
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN ROLU
Aliyar Azimov ..........................................................................................................159
AZERBAIJAN-GEORGIA RELATIONS: GEOSTRATEGIC PARTNERSHIP IN THE CAUCASUS
Али Сайад оглу Мамедов......................................................................................162
О НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСАХ США И РОССИИ В АЗЕРБАЙДЖАНЕ
Əsgər Məmməd oğlu Zeynalov...............................................................................166
MUSİQİMİZİN TƏSİR DAİRƏSİ
Fərəh Adil qızı Hüseyn ...........................................................................................170
"OSMANLI İMPERİYASINA MÜNASİBƏTDƏ NADİR ŞAHIN SİYASƏTİ"

Fəridə Məhəmmədəli qızı Allahverdiyeva ....................................................174
YAXIN ŞƏRQDƏ DİN VƏ DEMOKRATİYA MÜNASİBƏTLƏRİ REGİONAL TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ
Fəridə Elxan qızı Məmmədova ....................................................178
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ
Fidan Cəbrayıl qızı Ələsgərova ....................................................181
ABŞ-ın YAXIN ŞƏRQ SİYASƏTİNDƏ TÜRKİYƏNİN MİLLİ MARAQLARI VƏ AZƏRBAYCANIN MÖVQEYİ
Фируза Акиф гызы Хаятова ....................................................185
ВНЕШНЯЯ ПОЛИТИКА ВЕЛИКОБРИТАНИИ И АЗЕРБАЙДЖАН
Флора Аяз кызы Алиева ....................................................189
ТЕРРОРИЗМ КАК УГРОЗА МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ
Gülnar Xanlar qızı Səmədova ....................................................192
BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ TURİZMİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ
Gülnarə Adil qızı Tağıyeva ....................................................196
AZƏRBAYCANIN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU
Günay Məhəddin qızı Feyziyeva ....................................................199
CƏNUBİ QAFQAZ REGİONUNUN ENERJİ TƏHLÜKƏSİZLİYİ
Günay Mobil qızı Feyziyeva ....................................................201
İSRAİLİN GEOSİYASİ KODU
Günay Rəşad qızı Safarova ....................................................204
AZƏRBAYCANDA YAŞAYAN YƏHUDİLƏRƏ TOLERANT MÜNASİBƏT HAQQINDA
Günel Əliniyaz qızı Qarayeva....................................................208
EKO-SOSİALİZM QLOBAL PROBLEMLƏRİN HƏLLİ ÜÇÜN ÇIXIŞ YOLU VƏ YA MÜASİR UTOPİYA KİMİ
Günel Mənsim qızı Qurbanova....................................................212
HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İRSİ
Günel Qurbanəli qızı Məlikli ....................................................216
SOSİAL-İQTİSADİ VƏ SİYASİ SAHƏDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ
Гюнель Мисир кызы Мусаева....................................................220
РОЛЬ ГЕЙДАР АЛИЕВА В УСТАНОВЛЕНИИ ВЗАИМООТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ВЕЛИКОБРИТАНИЕЙ
Günəş Rafiq qızı Ağakişiyeva....................................................223
BEYNƏLXALQ TİRİZM İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏRKİB HİSSƏSİ KİMİ

Hacı Nuru oğlu Həsənov, Cabir Hacı oğlu Həsənov ............................................227
1826-1828-Cİ İLLƏR RUSİYA - QACAR MÜHARİBƏSİ DÖVRÜ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TARİXİNDƏN
Harun Hacı oğlu Sadıqlı ....................................................................................230
LİVANIN ERMƏNİ İCMASININ AZƏRBAYCAN-LİVAN MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ
Həlimə Qüvvət qızı Kazımova ..........................................................................232
DAĞLIQ QARABAĞ MƏSƏLƏSİ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ
Humay Həsən qızı Tağıyeva ..............................................................................237
MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SÜLHYARATMA FƏALİYYƏTİ, ONUN ANLAYIŞI, NÖVLƏRİ VƏ İSTİQAMƏTLƏRİ
Hüseyn Əlisahib oğlu Bəxtiyarlı .......................................................................240
MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏT MƏSƏLƏLƏRİ (XX ƏSRİN 90-CI İLLƏRİ-XXI ƏSRİN ƏVVƏLLƏRİ)
Xanım İradil qızı Əsədova.................................................................................244
MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ
Xatirə İsmayıl qızı İlyasova ..............................................................................246
ÖZBƏKİSTAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLATLARDA FƏALİYYƏTİNƏ DAİR
Khayal İbrahim oglu İskandərov .......................................................................250
NON-ALLİANCE POLİCY: CHALLENGES AND PROSPECTS
Xəyalə Rafael qız Ağayeva ...............................................................................255
Ə.M.TOPÇUBAŞOVUN İSTANBULDA DİPLOMATİK FƏALİYYƏTİ VƏ ONUN NƏTİCƏLƏRİ
İbrahim Feyzulla oğlu Kazımbəyli ....................................................................258
MÜASİR AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV STRATEGİYASI
İlyas Vaqif oğlu Hüseynov.................................................................................262
MÜASİR DÖVRDƏ AZƏRBAYCAN - YUNANISTAN SİYASİ MÜNASİBƏTLƏRİNİN ƏSAS XARAKTERİK CƏHƏTLƏRİ
Ирина Александровна Кунина .........................................................................266
МНОГОСТОРОННЯЯ ДИПЛОМАТИЯ В КОНТЕКСТЕ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ
Камаля Гусейнага кызы Гусейнова .................................................................270
ЦЕЛИ И ЗАДАЧИ ОТЧИСТКИ ЗЕМЕЛЬ ОТ ЗАГРЯЗНЕНИЙ
Kəmalə Xəlil qızı Yusifova.................................................................................274
AZƏRBAYCAN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ
Qasım Əhəd oğlu Hacıyev .................................................................................277
HEYDƏR ƏLİYEVİN DAĞLIQ QARABAĞA ERMƏNİ İDDİALARINA

QARŞI MÜBARİZƏSİ
Лала Хафиз кызы Гасилова....279
ЛИНГВОКУЛЬТУРОЛОГИЯ И МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ
Lamiyə Həsən qızı Qasımova....282
AZƏRBAYCAN TÜRKİYƏ MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ
Lətafət Ələsgər qızı Hümmətova....286
MULTİKULTURALİZM VƏ KOMMUNİKASİYA
Leyla Şahhüseynbəyova....288
"ENERJİ VƏ NƏQLİYYAT SAHƏSİNDƏ AZƏRBAYCAN-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI"
Leyla İntiqam qızı Tağıyeva....290
AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA PAMBIQÇILIĞINROLU
Лилия Фирудин кызы Мирзазаде....292
МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ В СТРАТЕГИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
Mahir Tapdıq oğlu Abbaszadə....296
HEYDƏR ƏLİYEV VƏ İQTİSADİ ARTIMA SÖYKƏNƏNƏN MİLLİ İNKİŞAF MODELİ
Mahir Nadir oğlu İbrahimov....300
AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN SUBYEKTİ KİMİ
Mehriban Eldar qızı Babaxanova....303
TÜRKSOY TƏŞKİLATININ YARANMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU
Мамед Ариф оглу Алиев....307
АЗЕРБАЙДЖАНСКАЯ МОДЕЛЬ МУЛЬТКУЛЬТУРАЛИЗМА
Məsmə Yaqub qızı Zöhrab-Məcid....310
AZƏRBAYCAN - İRAN ƏLAQƏLƏRİ
Матанат Гидает кызы Шадлинская....313
МИРОВОЙ ПОДХОД К ПРОБЛЕМЕ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ
Mirsamir Mirabbas oğlu Seyidov....315
MÜASİR MÜHARİBƏLƏRDƏ İNFORMASİYA AMİLİ VƏ VASİTƏLƏRİ
Murad Elçin oğlu Əsədov....319
CƏNUBİ QAFQAZDA YENİ ETNİK MÜNAQİŞƏ OCAĞININ YARANMASI GÜRCÜSTANDA ERMƏNİ AZLIQ MƏSƏLƏSİNİN REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ
Namiq Cəmaləddin oğlu Əsədov....323
AZƏRBAYCAN RESPUBLİKASININ BOLQARISTAN, MOLDOVA VƏ RUMINİYA İLƏ ƏLAQƏLƏRİNİN İQTİSADİ VƏ GEOSİYASİ

ƏHƏMİYYƏTİ
Namiq Əlişah oğlu Kərimov ........................................................................328
İRANIN KARBOHİDROGEN EHTİYATLARI
Namiq Eldar oğlu Məmmədov ........................................................................333
TÜRKİYƏDƏ 2015-Cİ İL PARLAMENT SEÇKİLƏRİ: PKK-NIN "XƏNDƏK" SİYASƏTİ VƏ ONUN NƏTİCƏLƏRİ
Nazilə Kamil qızı Dostiyari ........................................................................337
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ AZƏRBAYCANIN AVROPA ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA MÜHÜM ROLU
Nazilə Xasay qızı Səfərova ........................................................................341
BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ KONFLİKT
Nərgiz Esmail Espandi ........................................................................346
İNGİLİS-İRAN ƏDƏBİ ƏLAQƏLƏRİNİN TƏŞƏKKÜL MƏRHƏLƏSİ
Nərgiz Məhəmməd qızı Nəsirova ........................................................................350
AZƏRBAYCANIN ENERJİ SİYASƏTİNİN BM-DƏKİ MÖVQEYİNƏ TƏSİRİ
Nərmin Fərzəli qızı Qədirova ........................................................................353
TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCANIN HUMANİTAR XARİCİ SİYASƏTİNİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ
Nihad Nəsiman oğlu Yaqublu ........................................................................357
BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ SİVİLİZASİYA VƏ MƏDƏNİYYƏT FƏRQLƏRİNİN KONFLİKTLƏRİN YARANMASINDA MÜMKÜN ROLU
Nurangiz Yanvar gizi Mikayilova ........................................................................360
BP'S ROLE İN THE SOCİO-ECONOMİC DEVELOPMENT OF AZERBAİJAN
Nurlanə Əlirza qızı Məlikli ........................................................................366
CƏNUBİ QAFQAZ REGİONUNUN ENERJİ TƏHLÜKƏSİZLİYİ
Nurlanə Musa qızı Mustafayeva ........................................................................370
BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ
Pərvanə Telman qızı Mustafazadə ........................................................................374
ЭНЕРГЕТИЧЕСКИЙ И ТРАНСПОРТНЫЙ ДИАЛОГ МЕЖДУ ЕВРОПЕЙСКИМ СОЮЗОМ И АЗЕРБАЙДЖАНОМ В КАСПИЙСКОМ РЕГИОНЕ
Рафиг Илдырым оглу Аббасов ........................................................................379
НОВЫЙ ШЕЛКОВЫЙ ПУТЬ: ИЗМЕНЕНИЕ ТРАНСПОРТНО-ТОРГОВОЙ КОНФИГУРАЦИИ ЕВРАЗИИ
Raibə Məmmədbağır qızı Cəfərova , Yeganə Əziz qızı Abbasova ........................383
BU İLİMİZ SOSİAL İNKİŞAF VƏ RİFAH İLİDİR
Ramilə Bəhlul qızı Dadaşova ........................................................................386
ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ

TÜRKİYƏ, İRAN, RUSİYA VƏ ABŞ-IN MÜNASİBƏTİ
Ramilə Asif qızı Hüseynova ........................................................................391
AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR
Rauf Nabil oğlu Səmədov..............................................................................396
MÜASİR DÖVRDƏ İSLAM DİNİNƏ XAS OLAN MEYLLƏR DİNLƏRARASI ANLAŞMANIN ƏSAS ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ
Rəna Rizvan qızı Baxışova............................................................................399
RUSİYA İMPERİYASININ ŞİMALİ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNİN TARİXİNDƏN
Rəna Arif qızı Kərimova ...............................................................................403
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ TÜRKİYƏNİN MÖVQEYİ
Rinard Şərafəddin oğlu Şərifov ....................................................................407
QLOBALLAŞAN DÜNYADA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MƏNƏVİ ƏSASI KİMİ
Samirə İlham qızı Həbibbəyli......................................................................411
AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜ
Sevda Fizuli qızı Abdullayeva .......................................................................414
MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN QƏRBİ AVROPA DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ
Sevdagül Fazil qızı Əliyeva ...........................................................................418
AZƏRBAYCAN-NORVEÇ MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAF TARİXİ
Sevda İmanova ................................................................................................422
AZƏRBAYCAN DÖVLƏTİ AZSAYLI XALQLARIN TƏHLÜKƏSİZLİYİNİN QARANTIDIR
Севда Эльшад кызы Магеррамова. ...........................................................424
ГЛОБАЛИЗАЦИЯ И ЕЁ ВЛИЯНИЕ НА ЭКОНОМИЧЕСКИЕ ПРОЦЕССЫ АЗЕРБАЙДЖАНА
Sevinc Əfqan qızı Hacıyeva ...........................................................................428
BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ SOSİAL İŞİN ETİK PRİNSİPLƏRİ
Sevinc Akif qızı Qurbanova ..........................................................................431
HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNƏ TƏSİRİ
Sevinc Əşrəf qızı Qurbanova ........................................................................435
MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-ARGENTİNA ƏLAQƏLƏRİ
Səbinə İlham qızı Muradova.........................................................................439
AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNƏ İNTEQRASİYASI PROSESİNDƏ HEYDƏR ƏLİYEV FAKTORU
Səbinə Əliheybət qızı Yusifova ....................................................................441
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ CƏNUBİ QAFQAZIN ƏSAS TƏHLÜKƏSİZLİK

PROBLEMİ KİMİ BEYNƏLXALQ, REGİONAL VƏ YERLİ MARAQLAR VƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ MƏSƏLƏSİ
Səddam Qüdrət oğlu Alıyev ........................................ 445
XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİNDƏ GÖMRÜK XİDMƏTİNİN ROLU
Səvvarə Dövlət qızı Rzaquliyeva ........................................ 449
AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCANIN ROLU
Solmaz Muxtar qızı Gözəlova ........................................ 451
MÜASİR BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK
Solmaz Rəhman qızı Yaqubzadə, Səmayə Oqtay qızı Babayeva ........................................ 454
QLOBAL EKOLOJİ PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ
Südabə Novruzəli qızı Hüseynova ........................................ 458
HEYDƏR ƏLİYEV VƏ SİYASİ LİDER ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI
Şahnaz Heydər qızı Tağıyeva ........................................ 462
AZƏRBAYCAN-DAĞISTAN İQTİSADİ MÜNASİBƏTLƏRİ
Şəfəq Hüseyn qızı Abdullayeva ........................................ 464
AZƏRBAYCANIN BEYNƏLXALQ SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ-HUMANİTAR ƏLAQƏLƏRİ
Şəfəq Fərman qızı Mustafayeva ........................................ 468
AVROPADA İSLAMAFOBİYA
Şəhla Rafiq qızı Məmmədli ........................................ 470
MÜASİR MƏRHƏLƏDƏ TƏHLÜKƏSİZLİK VƏ TƏRKSİLAH MƏSƏLƏLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI
Шахла Кямиль кызы Рагимова ........................................ 474
УКРАИНА-НАТО: ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА
Şərqiyyə Mehdi qızı İmaməli ........................................ 477
ERMƏNİ KİLSƏSİNİN ANTİ-İSLAM VƏ ANTİ-TÜRK FƏALİYYƏTİNƏ DAİR
Таир Аскер оглу Раджабли ........................................ 480
«ПРОБЛЕМАТИКА СОВРЕМЕННЫХ РЕАЛИЙ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ»
Təranə Adil qızı Bağırova ........................................ 483
AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU
Təranə Əsman qızı Əliyeva ........................................ 487
BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN MÜHÜM ELEMENTİ KİMİ BEYNƏLXALQ BİZNESİN İNKİŞAFI
Təranə Əhməd qızı Süleymanova ........................................ 490
MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN

ROLU
Tofiq Rəhman oğlu Qurbanov, Mətanət Hidayət qızı Şadlinskaya ........................493
РУССКИЕ В АЗЕРБАЙДЖАНЕ
Tural Akif oğlu Vəlizadə ....................................................................................497
XOCALI SOYQIRIMI
Turan Nazim qızı İsmayılova ............................................................................500
ERMƏNİSTAN RESPUBLİKASININ İRAN İSLAM RESPUBLİKASI İLƏ SİYASİ-DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN QURULMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ
Ülviyyə Yadulla qızı Hüseynova .......................................................................504
BÖYÜK BRİTANİYANIN "BREXİT" SİYASƏTİ
Vahid Allahverdi oğlu Ömərov..........................................................................506
ERMƏNİSTAN CƏNUBİ QAFQAZDA REGİONAL TƏHLÜKƏSİZLİYƏ TƏHDİD MƏNBƏYİDİR
Validə Rəcəb qızı Əliyeva..................................................................................509
H.ƏLİYEVİN TƏHSİL HAQQINDA PSİXOLOJİ DÜŞÜNCƏLƏRİ
Vəfa Xanlar qızı Rüstəmova..............................................................................512
AZƏRBAYCANIN KADR POTENSİALININ BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU
Vəsilə Əlif qızı İbadlı.........................................................................................515
ABŞ-ın İRAQA MÜDAXİLƏSİ VƏ FRANSA
Vüsalə Elşad qızı Əfəndiyeva ............................................................................519
AZƏRBAYCAN RESPUBLİKASI VƏ NORVEÇ KRALLIĞI ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ
Вусала Хагани кызы Мурадова.........................................................................522
РЕГУЛИРОВАНИЕ КОНФЛИКТОВ КАК ФАКТОР ПРОТИВОДЕЙСТВИЯ УГРОЗАМ ГЛОБАЛЬНОЙ БЕЗОПАСНОСТИ
Yeganə Ürfan qızı Baxşıyeva ..............................................................................525
ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HİDROTERROR SİYASƏTİ
Yeganə Əziz qızı Hacıyeva .................................................................................530
CƏNUBİ AZƏRBAYCANDA YAŞAYAN AZƏRBAYCANLILARIN ETNİK VƏ VƏTƏNDAŞLIQ KİMLİYİNİN FORMALAŞMASININ SOSİAL, SİYASİ VƏ MƏDƏNİ ŞƏRTLƏRİ
Yeganə Ehsan qızı Məmmədova..........................................................................532
SƏFƏVİ VƏ MOĞOL DÖVLƏTLƏRİ ARASINDAKI DOSTLUQ ƏLAQƏLƏRİ
Zaur İlqar oğlu İmaşlı.........................................................................................536
ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN ŞƏHƏR MƏRKƏZLƏRİNİN FORMALAŞMA VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ
Zəfər Nuri oğlu Nəcəfov ....................................................................................540

ETNİK MÜNAQİŞƏLƏR QLOBAL TƏHLÜKƏSİZLİYƏ TƏHDİD KİMİ
Александр Иванович Лойко........................................................................544
ВКЛАД ОРИЕНТАЛИСТИКИ В МЕЖКУЛЬТУРНЫЙ ДИАЛОГ БОЛЬШОЙ ЕВРОПЫ
Алексей Валентинович Колик..................................................................548
РОЛЬ ДЕЛОВОГО ТУРИЗМА В МЕЖДУНАРОДНЫХ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ И КУЛЬТУРНО-ГУМАНИТАРНЫХ СВЯЗЯХ
Дмитрий Леонидович Цыбаков ..................................................................552
РЕГИОНАЛЬНАЯ БЕЗОПАСНОСТЬ ПОСТСОВЕТСКОГО ПРОСТРАНСТВА ВЫЗОВЫ XXI СТОЛЕТИЯ
Елена Казимировна Булыго, Елена Борисовна Якимович............................555
ФИЛОСОФСКОЕ ОСМЫСЛЕНИЕ УНИВЕРСАЛЬНОГО ЯЗЫКА ДИЗАЙНА
Зуриет Анзауровна Жаде..........................................................................560
ФОРМИРОВАНИЕ РОССИЙСКОЙ ИДЕНТИЧНОСТИ КАК ФАКТОР НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

×àïà èìçàëàíìûø 18.11.2019
Øýðòè ÷àï âÿðÿãè 22. Ñèôàðèø ¹ 128
Êàüûç ôîðìàòû 70õ100 1/16. Òèðàæ 500